AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# QARABAĞ:

# FOLKLOR DA BİR TARİXDİR

## X KİTAB

**(Zəngilan və Şuşa rayonlarından toplanmış folklor örnəkləri)**

**BAKI – 2016**

**“Qarabağ folklorunun toplanması,
sistemləşdirilməsi və araşdırılması” adlı layihə
əsasında çap olunur.**

**LAYİHƏNİN RƏHBƏRİ:** **AMEA-nın müxbir üzvü,
fil.ü.e.d. Muxtar KAZIMOĞLU
(İMANOV)**

**TOPLAYIB
TƏRTİB EDƏN:** **fil.ü.f.d. İlkin RÜSTƏMZADƏ**

**REDAKTOR:** **fil.ü.f.d. Oruc ƏLİYEV**

**NƏŞRİNƏ MƏSUL:** **fil.ü.f.d. Əziz ƏLƏKBƏRLİ**

**Qarabağ: folklor da bir tarixdir, X kitab (Zəngilan və Şuşa rayonlarından toplanmış folklor örnəkləri)**. Bakı, “Elm və təhsil”, 2016.

© Folklor İnstitutu, 2016

# TƏRTİBÇİDƏN

Zəngilan Azərbaycan Respublikasının cənub-qərbində yerləşir. Qərbdən Ermənistan, cənubdan İran İslam Respublikası, şimaldan Qubadlı, şərqdən Cəbrayıl ilə həmsərhəddir. Rayonun ərazisi 707 km$^2$-dir. Ərazisi böyük olmasa da, coğrafi mövqeyinə görə şərqlə qərbi birləşdirən bir məntəqədir. Araz boyu şərqdən qərbə, Həkəri və Oxçu sahili boyu cənubdan şimala uzanan karvan yollarının üstündə yerləşir. Rayofnun ərazisindən dörd böyük çay axır: Araz, Həkəri, Oxçu və Bəsit çayları. Bundan əlavə, rayonun ərazisində Sobu qalasından başlayıb Bəsitçaya tökülən Sobuçay, Yeməzli, Xəştab tərəfdən başlayıb Gilətağ, Şamlı, Vənətli kəndlərindən keçib Xumarlı yaxınlığında Həkəriyə tökülən Dərəçay çayları da vardır. O biri çaylardan fərqli olaraq, bunlar isti yay aylarında quruyurlar.

1828-ci ilə qədər rayon ərazisinin Bəsitçaydan qərbə tərəf hissəsi Naxçıvan, şərqə tərəf hissəsi isə Qarabağ xanlığına daxil idi. Çar Rusiyası Cənubi Qafqazı işğal etdikdən sonra yeni inzibati-ərazi bölgüsü aparılır. 1868-ci ildə Yelizavetpol quberniyası yaradılır, onun tərkibində Şuşa, Yelizavetpol və Zəngəzur qəzaları təşkil olunur. Yeni bölgüyə əsasən Zəngilan rayonunun ərazisi Zəngəzur qəzasına daxil edilir. 1929-cu ildə Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasının qərarı ilə Zəngilan rayonunun Nüvədi, Toğud, Ernəzir kəndləri, 1946-cı ildə isə 4 min hektar meşə sahəsi Ermənistan Respublikasına verilir. Zəngilan 1930-cu ilin avqust ayının 8-də müstəqil rayon kimi formalaşır, 1967-ci ildə Zəngilana şəhər statusu verilir. Rayon 1993-cü il oktyabrın 27-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunur. İşğala qədər rayonda 83 kənd, 2 qəsəbə və bir şəhər mövcud idi. Əhalisi 2009-cu ilin siyahıya alınmasına görə, 39 min nəfərdən artıqdır. Hazırda rayonun əhalisi Respublikanın 50 şəhər və rayonunda məskunlaşmışdır.

Rayon etnoqrafik müxtəlifliyi ilə seçilir. Burada Şamlı, Dərzili, Saralı, Püşənli, Baharlı kimi tayfalar məskunlaşmışlar. Saralı Xəştab sakini Allahverdi Kalbalıyevin dediyinə görə, Gərt (Qafan tərəfdə), Ağkənd, Bərkdaş, Cıbıllı, Almalıq, Mehlili, Mollalı, Saralı Xəştab,

Zor, Fərcan kəndləri Saralı tayfasından təşkil olunub. Baharlı və Şəfibəyli kəndləri isə baharlılardan ibarətdir. Şəfibəyli kəndinin yaşlı sakininin dediyinə görə, Şəfibəyli kəndə sonradan verilən addır, ondan əvvəl onlara Yuxarı Baharlı deyərdilər. Şamlılar isə rayonun, əsasən, Sobu və Şamlı, az miqdarda isə Top, Xınzır və Əsgərli kəndlərində məskunlaşmışlar. Son üç kənd sovet dövründə kolxozlaşma ilə əlaqədar qonşu kəndlərə birləşdirilmişdir.

Xalq arasında Şişə kimi tanınan Şuşa şəhərinin əsası isə 1750-ci ildə Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulub. Xanlığın paytaxtı bura köçürüləndən sonra şəhər sürətlə inkişaf etməyə başlamış, hərbi-siyasi mərkəz olmaqla yanaşı, Azərbaycanın sənətkarlıq, ticarət və mədəniyyət mərkəzlərindən birinə çevrilmişdir. Şəhər 17 məhəllədən ibarətdir: Qurdlar, Seyidli, Culfalar, Quyuluq, Çuxur, Dördlər Qurdu, Hacı Yusifli, Dörd Çinar, Çöl Qala, Mərdinli, Saatlı, Köçərli, Mamayı, Xoca Mərcanlı, Dəmirçi, Hamam Qabağı və Təzə məhəllə. Hər məhəllənin özünün məscidi, bulağı, hamamı, təndiri vardır. Söyləyicilərin dediyinə görə, hətta hər məhəllədə bişən çörək öz dadına, ətrinə görə digərlərindən fərqlənirdi.

Şəhərin təbii-coğrafi şəraiti kənd təsərrüfatı ilə məşğul olmaq üçün əlverişli deyildir, ona görə də burada daha çox ticarət və sənətkarlıq inkişaf etmişdir. Əsas ticarət və sənətkarlıq obyektləri şəhərin mərkəzi sayılan Aşağı bazar və Meydan bazarında cəmlənmişdir. Sovet hakimiyyəti illərində Şuşa Qarabağın inzibati mərkəzi statusundan məhrum edilir və mərkəz 1923-cü ildə Xankəndinə (sonralar Stepanakert adlandırılır) köçürülür. Bundan sonra şəhər sürətlə tənəzzül etməyə başlayır, uzun müddət burada tikinti-abadlıq işləri görülmür. 1963-cü ilin yanvarında isə bir rayon kimi ləğv olunaraq Stepanakertin tərkibinə qatılır. 1965-ci ildə rayon statusunu yenidən bərpa etsə də, yürüdülən ayrı-seçkilik siyasəti nəticəsində burada yaşayan əhalinin sayı sürətlə azalmağa başlayır. “Şuşa – Pənahabad” kitabında yazıldığına görə, 1917-ci ildə şəhər əhalisinin sayı 43869 nəfər olduğu halda, 1970-ci ildə bu say 3 dəfədən də çox azalaraq 13664 nəfərə düşür[1].

---

[1] Yaqub Mahmudov, Camal Mustafayev. Şuşa – Pənahabad. Bakı: Təhsil, 2012, s.73

Yalnız 1969-cu ildən – Heydər Əliyevin rəhbərliyə gəlişindən sonra Şuşanın dağıdılmasının qarşısını almaq və şəhərin yenidən dirçəldilməsi üçün ciddi işlər görülməyə başlanılır. Heydər Əliyevin təşəbbüsü ilə Şuşa şəhərinin tarixi hissəsi tarixi-memarlıq qoruğu elan olunur, şəhərdə Milli Musiqi Alətləri Fabriki açılır, tanınmış şəxslərin ev muzeyləri yaradılır və ya bərpa olunur. Amma bu dirçəliş də uzun sürmür və 1992-ci il mayın 8-də Şuşa Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən işğal olunur. Rayonun ərazisi 0,29 min km$^2$, əhalisi 2013-cü ilin məlumatına görə 30853 nəfərdir.

Kitabın hazırlanmasında, əsasən, Bakıda məskunlaşmış Zəngilan və Şuşa rayon sakinlərindən yazıya alınmış materiallardan istifadə olunmuşdur. Az miqdarda da Kəlbəcər, Laçın, Cəbrayıl, Goranboy və Yevlaxdan toplanmış materiallar yer almışdır. Materiallar 2014-2015-ci illərdə Folklor İnstitutunun təşkil etdiyi ezamiyələr zamanı toplanmışdır.

Söyləyici seçimində bizə icra nümayəndələri yardımçı olmuşlar. Həmin bölgələrin sakinləri dağınıq şəkildə məskunlaşdıqlarından biz icra nümayəndələrinə müraciət etmişik, onların məsləhət gördüyü adamların ünvanını, əlaqə telefonunu alıb həmin şəxslərlə görüşmüşük. İcra nümayəndələri çox vaxt bizə şifahi ənənəyə bələd olan, məlumatlı adamları deyil, kəndin ziyalılarını – savadlı adamları, müəllimləri, qələm sahiblərini və s. məsləhət görürdülər. Əvvəlki cildlərdə də qeyd olunduğu kimi, bu insanlar kənddə yaşayan nəsil və tayfalar haqqında, etnoqrafik adətlərə dair maraqlı məlumatlar versələr də, klassik folklora o qədər də bələd deyillər. Bunun nəticəsidir ki, 2015-ci ildəki ezamiyyələr zamanı mən özüm iki yüzə yaxın Şuşa və Zəngilan sakini ilə görüşsəm də, onlardan cəmi iki nağıl mətni yazıya ala bilmişəm (topluya daxil edilmiş digər nağıllar İnstitutun başqa əməkdaşları tərəfindən yazıya alınmışdır).

Kitab etnoqrafik mətnlərlə başlayır. Etnoqrafik mətnləri qeydə alarkən əvvəlki illərdən fərqli yol izləmişik. Bölgədən toplanmış etnoqrafik materialların təsviri birbaşa söyləyicinin dilindən deyil, onların verdiyi məlumatlar əsasında bizim tərəfimizdən verilmişdir. Bu üsul entoqrafik faktın daha geniş və ətraflı, onun bütöv təsvirini

verməyə imkan verir. Etnoqrafik hadisənin təsviri verilən zaman faktın qeydə alındığı məkan, bu informasiyanı bizə verən söyləyicinin adı, soyadı da qeyd olunmuşdur. Qeyd edək ki, Zəngilanın toy, yas, kirvəlik və Novruz adətlərinə dair maraqlı faktlar yazıya alsaq da, Məhərrəmlik adətlərini toplamaq mümkün olmamışdır. Bunun səbəbi sovetlərin gəlişindən sonra bölgədə Məhərrəmliyin keçirilməsinin qadağan olunması idi. Söyləyicilərin dediyinə görə, hökumət rəsmiləri insanları Məhərrəmlikdən uzaqlaşdırmaq üçün mərasimin keçirildiyi ələm ağacının dibinə hətta it bağlayırdılar. Ona görə insanlar həmin tarixi qeyd etməyə ehtiyat etmişlər. Bu səbəbdən sovet dövründə yetişən nəsil Məhərrəmlik adətləri haqqında, demək olar ki, çox şey xatırlamır.

Zəngilan Ermənistanla sərhəd rayon olduğundan erməni təcavüzkarlığının, erməni vəhşiliyinin ağrı-acısını ən çox dadmış rayonlardan biridir. Hətta söyləyicinin birinin "anam deyərdi biz bununla dördüncü dəfərdir ki, öz yurdumuzdan qaçqın düşürük" fikri əslində zəngilanlıların başının nələr çəkdiyini açıq-aydın göstərir. Erməni təcavüzkarlığı haqqında yaşlı nəslin nümayəndələrindən yazıya alınmış materallar "1918-ci il hadisələri xatirələrdə" rubrikasında verilmişdir. Bu mətnlər informativ xarakterli olsa da, klassik folklor mətnlərində rast gəlinən təsvir üsulları, mübaliğələr, qəhrəmanın igidliyinin şiridilməsi və s. kimi üslub elementlərinə onlarda da rast gəlinir. Məsələn, erməni hücumlarının dəf olunmasında Ağalı camaatının igidliyindən bəhs edən mətndə at erməni gülləsinə tuş gəlmiş yiyəsinin başı üstündən ayrılmır, meyidin yerini kənd camaatına nişan verməklə onun tapılmasına kömək edir. Yaxud ermənilərə qarşı vuruşmuş, ad çıxarmış şəxsi öyərkən söyləyici deyir: "Babaxan oğlu Balaca elə bir adam olub ki, qonşu erməni kəndlərinə gedəndə ermənilər hamilə qadınlara qışqırırmış ki, qaçın girin içəri. Babaxan oğlu Balacadır, asqırar, ya öskürər, siz bala salarsınız". Maraqlıdır ki, 1992-93-cü illərdə yaşanan hadisələr haqqında söylənən xatirələrdə bu cür folklorizmlər müşahidə olunmur. Görünür, həmin hadisələrin canlılığı, baş vermiş müsibətin insanların gözünün önündən

hələ çəkilməməsi onların folklorlaşmasına mane olur. Amma zaman keçdikcə bu xatirələrin də tədricən folklorlaşacağını söyləmək olar.

Nağıllar bölməsində 21 nağıl mətni verilmişdir. Bunların ikisi – "Padşaha layiq arvad", "Dəli və ağıllı qardaş" nağılları İnstitutun arxivindən götürülmüş materiallardır, digər nağıllar isə builki ezamiyyələr zamanı yazıya alınmışdır. Verilmiş nağıllar arasında bölgə üçün xarakterik süjetlərlə yanaşı, bölgədən ilk dəfə yazıya alınanlar da vardır. "Narım, sənə deyim, dərdimi sənə deyim" (TR[2] 437), "Danışmayan qız" (TR 559+661*+653A+976*A), "Hambal Qulunun ziyarəti" (TR 827*), "Allaha təvəkkül" (TR 776**A) nağıllarının əvvəlki ezamiyyələr zamanı bölgədən variantları qeydə alınmışdır. Amma "Allah haqqı nahaqqa vermir" (759*), "Oğul anasına rəhmət oxutdurur" (TR 760*), "Orduxan bəylə Qarsın Qalası" (TR 1355C*), "Bit və birə" (TR 2022), "Buz və qarı" (TR 2031) nağılları bölgədən ilk dəfə toplanır. Bölgədən məlum süjetlərlə yanaşı, yeni nağıl süjetləri də yazıya alınmışdır. "Uşaq və noxud", "Pişik və siçan" nağılları ilk dəfə yazıya alınan nağıl süjetləridir.

Zəngilan sakinlərinin uzun qış gecələrində təşkil olunan folklor məclisləri haqqında verdiyi məlumatlar və toplunun əvvəlki cildlərində çap olunmuş bəzi nağılların bu rayondan yazıya alınması, vaxtilə burada nağılçılıq ənənəsinin geniş yayıldığını göstərir. Zəngilan kənd sakini Zərnigar Məmmədovanın dediyinə görə, uzun qış gecələrində ana babasının evində yığıncaqlar təşkil olunardı. Babasının söhbətlərinə, hədislərinə, nağıllarına qulaq asmaq üçün hətta başqa kəndlərdən də insanlar gələr, yolu uzun olanlar isə gecəni onlarda qalardılar. Şam vaxtı gələnlərə yemək təklif olunar, yemək yeyildikdən sonra məclis başlayardı. İçəridə uşaqlara yer olmadığından onlar bacadan, pəncərədən söhbətlərə qulaq asardılar. Söyləyicinin dediyinə görə, anası da vaxtilə həmin məclislərdə iştirak etmiş və bildiyi nağılların əksəriyyətini oradakı yaşlılardan eşitmişdir. Zərnigar xanımın dediyinə görə, anası nağıl söyləyəndə na-

---

[2] Nağılların süjet nömrələri "Azərbaycan nağıllarının süjet göstəricisi" (Bakı: Elm və təhsil, 2014) kitabı əsasında verilmişdir.

ğılları bir-birinə calayıb o qədər uzadardı ki, "Min bir gecə" nağılları kimi qurtarmaq bilməzdi. Kitaba Zərnigar Məmmədovadan yazıya alınmış nağılların ancaq bir qismi daxil edilmiş, digər nağıllar isə bədii cəhətdən zəif olduqları və məlum variantlardan o qədər də fərqlənmədikləri üçün kitaba salınmamışdır. Bundan əlavə, anasından "Ziqəm şah", "Caməs" kimi bir çox maraqlı nağıllar eşitsə də, söyləyici onların məzmununu artıq unutmuşdur.

Bir çox klassik folklor janrları ilə yanaşı, bayatı ifaçılığının da bölgədə zəiflədiyi müşahidə olunur. Görüşdüyümüz kənd sakinlərindən kənddə ağıçı olub-olmadığını xəbər aldıqda onların cavabı bu olurdu ki, sizin axtardığınız qadınlar artıq çoxdan dünyalarını dəyişiblər. Yalnız Ağalı kəndində belə bir söyləyici ilə qarşılaşdıq və topluda verilmiş bayatıların bir qismi ondan yazıya alınmışdır. Elmira İsmayıl qızı Mikayılova yalnız bir neçə bayatını bizə bədahətən ifa etmiş, onu qəhər boğduğuna və gözləri yaşla dolduğuna görə bayatı söyləməyi davam etdirə bilməmişdir. Bizim xahişimizlə bildiyi bayatıları təbi gəldikcə gəlininə demiş, o da onları bir dəftərə köçürərək bizə çatdırmışdır. Elmira xanımın ağıçılığı bir sənət kimi seçməsinin maraqlı tarixçəsi var. Özünün dediyinə görə, oğlu nakam dünyasını dəyişəndən sonra məclislərə gedərək ağı deməyə başlayıb. Əslində bu məlumat bizim üçün yeni deyildir. Laçın rayon sakini Güllü Abasəliyevanın da ağıçılıq etməsinin səbəbi oğlunun vaxtsız dünyasını dəyişməsi idi. Füzuli sakini Şəkər Həsənovanın da şəxsi həyatının uğursuzluğu, çəkdiyi müsibətlər onun ağıçılığa gəlməsinin səbəbi idi. Göründüyü kimi, bu insanların hamısını birləşdirən bir ümumi cəhət var: bu da onların dərdli olmaları, başlarına gələn faciələr, müsibətlərdir. Onları dilləndirən, danışdıran da həmin acıları, dərdləridir. Sanki onlar öz sinələrini boşaltmaq, ağrı-acılarını yüngülləşdirmək üçün yas yerlərini bir fürsət bilirlər. Bu səbəbdəndir ki, həkimin qadağasına baxmayaraq, Elmira xanım yas məclislərində ağıçılığı davam etdirmiş, yalnız bir tərəfi iflic olduqdan sonra bu sənəti tərk etmək məcburiyyətində qalmışdır.

Rayonun işğalından sonra Zəngilan sakinlərinin böyük bir qismi Bakı və Sumqayıt şəhərlərində məskunlaşmışlar. Həmin şəhərlərin

fərqli zümrələrdən, müxtəlif sosial qruplardan təşkil olunması, oradakı mədəni müxtəliflik ənənəvi bayramları, bir çox adət-ənənələri qoruyub saxlamağı xeyli çətinləşdirmişdir. Bir misala diqqət yetirək. Zəngilanda Novruz bayramında hər ailə yeddi qapıya bayram payı göndərir. Ağalı kənd sakini Möhübbət Səmədovun dediyinə görə, Bakıda məskunlaşdıqdan sonra bir il bu adəti burada davam etdirirlər. Yeddi qaba bayram payı qoyaraq qonşularına paylayırlar. Qonşuları fərqli bölgələrdən gəlmiş adamlar imiş və belə bir adətin varlığından xəbərləri olmadıqlarından bunu qəribə qarşılayırlar. Söyləyicinin dediyinə görə, növbəti il artıq onlar da bayram payı göndərməyi tərgidirlər. Bu kimi faktları kifayət qədər çəkmək olar. Bu insanların 22 ildir şəhər mühitində yaşamaları və bura adaptasiya olmaları onların adət-ənənələrində, folklorunda, baxışlarında ciddi dəyişiklikləri qaçılmaz etmişdir. Vaxtilə kənddə oynanılan oyunların bu gün şəhər mühitində yaşamaması, bölgə sakinlərinin etnoqrafik adətlərdən keçmiş zamanda danışmaları, əslində bu dəyişikliklərin doğurduğu nəticələrdir. Bu faktlar onu göstərir ki, Qarabağın işğalı təkcə doğma torpaqlarımızın itirilməsi ilə nəticələnməmiş, həm də folklor mühitlərinin dağılmasına, bir çox adət-ənənələrin unudulmasına, bölgə ilə bağlı folklor nümunələrinin işləklikdən düşməsinə və tədricən dövriyyədən çıxmasına səbəb olmuşdur.

Şuşa uzun müddət Qarabağ xanlığının paytaxtı olmuş, şəhər əhalisi tacirlərdən, sənətkarlardan, ziyalılardan təşkil olunmuşdur. Ona görə burada qeydə alınan folklor öz səciyyəsinə görə digər bölgələrin folklorundan seçilir. Savadlılığın artması ilə əlaqədar artıq şəhər mühitində şifahi ənənənin yerini kitab ənənəsi tutur və insanlar öz mənəvi ehtiyaclarını şifahi sözlə deyil, kitab vasitəsi ilə təmin edirlər. Şuşa şəhər sakini Vidadi Məmmədovun özünün də dəfələrlə iştirakçısı olduğu folklor məclisi haqqında söylədiyi fakt bunu bir daha təsdiqləyir. Söyləyicinin dediyinə görə, payız gələndə meşədən əzgil, alma, armud yığar, onu otun arasına töküb qışa saxlayardılar. Şuşada şairlər evində on iki ailə yaşayırdı. Qış gecələrində böyük bir zala yığışar, həmin meyvələri aşsüzəndə gətirib ortalığa qoyardılar. Ev yiyəsi xaşıl bişirər, xaşılın ortasını çala kimi düzəldib ora

yağ, bəhməz tökərdi. Bəzən xaşılı "qərəlindən" artıq bişirərdilər və qabda qalmaması üçün deyərdilər ki, kim xaşılı udanda boğazında qurt eləsə, bir də verəcəyik. Söyləyicinin dediyinə görə, uşaqlar nə qədər səy göstərsələr də, mümkün olmurdu, xaşıl boğazlarından keçəndə qurt edirdi. Kişili-qadınlı on beş-iyirmi adam olardı. Hamı yerdən oturar, bir nəfər də yuxarı başda oturub kitab oxuyardı. Söyləyicinin dediyinə görə, böyük bacısının yaxşı nitqi vardı. O, Azərbaycan dastanlarını, "Koroğlu" dastanını oxuyar, yorulanda kitabı başqa birinə verər, o biri davam edərdi. Gecə keçənə qədər bu məclislər davam edərdi. Ona görə də biz Şuşa folklorunu toplayarkən klassik folklor örnəklərini ancaq kənd sakinlərindən yazıya ala bildik. Şəhər sakinlərinin danışdıqları isə, əsasən, lətifələr, şəhər həyatı ilə bağlı etnoqrafik məlumatlar, qismən də tanınmış şəxsiyyətlər haqqında rəvayətlər idi.

Lətifələr şəhər folklorunun ən aktiv janrlarından biridir. Klassik folklorun bir janrı kimi onlar şəhər mühitində nəinki öz varlığını qoruyub saxlamış, hətta süjet tərkibinə, bədii xüsusiyyətlərinə görə xeyli zənginləşmişdir. Şuşada Abdal Qasım kimi klassik lətifə qəhrəmanları ilə yanaşı, Məşədi Abbas, Məşədi Bəylər, Abbasqulu ağa, Lotu Şahin, Dayı Qurban kimi müasir lətifə qəhrəmanları, onların baməzə əhvalatları geniş yayılmışdır. Həmçinin, şuşalıların hazırcavablığı, şuşalı-kürd münasibətinə dair maraqlı lətifələrə də rast gəlinir.

Folklor insanların dünyagörüşüdür, həyata, müəyyən hadisələrə baxışıdır. Ona görə də bir çox insanlar folklor mətnlərindən yalnız asudə vaxtlarını maraqlı keçirmək üçün deyil, həm də fikirlərini əsaslandırmaq, öz nitqlərini daha təsirli, qüvvətli etmək üçün istifadə edirlər. Başqa sözlə, folklor mətni bir nitq hadisəsi kimi çıxış edir, bu baxımdan onların mənası işləndiyi kontekst daxilində üzə çıxır. Folklor mətnlərinin yazıya alınmasında istifadə etdiyimiz sual-cavab üsulu (söyləyicidən ayrı-ayrı süjetlər, personajlar soruşulur, onlar da bildiyi mətnləri söyləyirlər) əksər mətnlərin işlənmə kontekstini, hansı situasiyada deyildiyini müəyyən etməyə imkan vermir. Bununla belə, bir qisim mətnlər hansısa bir söhbət zamanı söyləyicinin yadına düşmüş, yaxud söyləyici onu nə iləsə əlaqədar söyləmişdir. Bu mə-

lumatların, yəni mətnin ifa olunma konteksti, ifa tərzi, söyləyicinin emosional durumu haqqında məlumatların kitaba daxil edilməsi əslində şifahi mətnin daha yaxşı başa düşülməsinə, onun məna yükünün anlaşılmasına kömək edir, mətnin nəyə xidmət etdiyini, nə məqsədlə söylənildiyini bilmək üçün mühüm əhəmiyyət daşıyır. A.Y.Brisına haqlı olaraq qeyd edir ki, kontekstual məlumatlardan məhrum yazıya almalar mətn haqqında natamam təsəvvür yaradır və mətni düzgün izah etməyə imkan vermir[3]. Toplama zamanı qarşımıza kontekstlə bağlı bu tip məlumatlar çıxdıqda onları mətnə daxil etməyə çalışmışıq. Atalar sözü və bayatılarda bu tip məlumatlara daha çox rast gəlinir. Söyləyicilər bayatıları çox vaxt kiməsə yaraşdırıb deyir: ya dünyasını dəyişmiş yaxınına yaraşdırır, ya da hansına bir situasiyada həmin bayatını söyləyir. Yaxud söyləyici bayatını söylədikdən sonra izahat xarakterli müəyyən məlumatlar verir, bayatının nakam dünyasını dəyişənlərə aid olduğunu bildirir. Eynilə, topluya daxil edilmiş bir çox atalar sözləri də müəyyən kontekst daxilində söylənilib. Həmin nümunələrin daha yaxşı başa düşülməsi üçün onların işləndiyi kontekst, söyləyicinin verdiyi izahlar kitaba daxil edilmiş, əsas mətndən fərqləndirmək üçün onlar kursivdə verilmişdir.

Bu kitabın ərsəyə gəlməsi və zəruri materialların toplanması təkcə bir nəfərin işi deyildir. Bu işdə bizə yaxından kömək etmiş, bizə bələdçilik etmiş, yeri gələndə əlinə diktofon alıb bizimlə birlikdə material toplamış şəxslər vardır. Onların köməyi olmadan qısa zaman ərzində bu kitabı hazırlayıb təhvil vermək mümkün olmazdı. Bu üzdən söyləyicilərlə görüşlərin təşkilində bizə göstərdiyi köməyə görə Zəngilan və Şuşa Rayon İcra Hakimiyyətlərinə, xüsusən də Zəngilan Rayonu İcra Hakimiyyəti başçısının müavini Nizami Mönsümova, Ağalı kəndinin İcra nümayəndəsi Möhübbət Səmədova, Şuşa Rayon Təhsil Şöbəsinin baş məsləhətcisi Əyyub Əbdüləzimova (Şırlanlı) və “Şuşa” qəzetinin baş redaktoru Vasif Quliyevə dərin minnətdarlığımızı bildiririk.

---

[3] Брицына А.Ю. Современные тенденции в изучении исполнительства и их отражение в методике полевой работы и текстологии записей // Рябинские чтения – 2003. Редколлегия Т.Г.Иванова (отв.ред.) и др. Музей-заповедник «Кижи». Петрозаводск. 2003.

# ETNOQRAFİK MƏTNLƏR

## 1. ZƏNGİLANDA NOVRUZ ADƏTLƏRİ

Zəngilanda Novruz bayramı "Cənab Əmir" bayramı və ya "əmirəlmöminin taxta çıxdığı gün" adlandırılır. Ağalı kəndinin sakini Möhübbət Səmədovun dediyinə görə, Novruz bayramında hamı bir-birini "Cənab Əmir bayramınız mübarək" deyə təbrik edirdi. Çöpədərə sakini Tavar Qəhrəmanovanın dediyinə görə, martın 21-nə Cənab Əmir bayramı deyirdilər, axır çərşənbədə isə camaat "çərşənbə bayramınız mübarək", – deyə təbrikləşirdilər.

Zəngilanda Novruz bayramı yalançı çərşənbə ilə (dörd çərşənbədən qabaq gələn çərşənbə) başlanır. Möhübbət Səmədovun dediyinə görə, yalançı çərşənbədə ocaq qalasalar da, o qədər də təmtəraqlı keçirməzdilər. Amma yumurta döyüşü həmin çərşənbədən başlayıb, ta bayrama qədər, hətta bayramdan sonra da davam edirdi.

*Qara bayram* axır çərşənbədən əvvəlki cümə axşamı keçirilir. Ona qədər müəyyən hazırlıqlar görülürdü: ölüsü olan qəbirstanlığa gedib qəbiri təmizləyir, uçan yerlərini təmir edir, ağardırdı. Sobu kəndində isə, ağsaqqallar qabaqcadan beş-altı nəfərə tapşırır, onlar bütün qəbirstanlığı təmizləyirdilər. Mincivan sakini Ramilə Vəliyevanın dediyinə görə, cümə axşamı, yəni *qəbirüstü günü* mütləq qazan asılmalıydı. Anası onlara deyərdi ki, həmin gün ölülər gəlib damdan baxır, əgər görsələr evdə qazan asılmayıb, onda küsüb gedərlər. Mincivanda qara bayramda aş bişirilirdi, amma onun altına ət qoyulmurdu. Ət əvəzinə aşa xurma, noxud, soğan, kişmiş tökülürdü. Aş tezdən bişirilib hazır qoyulur, qəbiri ziyarət edib gəldikdən sonra həmin ehsan yeyilirdi. Babayıl kəndində isə qara bayramda camaat palaz, qab-qaşıq, samovar və ehsan qazanını götürüb səhər tezdən qəbirstanlığa gedir. Bir nəfər qəbirstanlığın ayağında qalıb samovarı qaynadır, digərləri isə yaxınlarının qəbirlərini ziyarət edib üstündə "Quran" oxudurlar. Qəbirlər ziyarət olunduqdan sonra qəbirstanlığın ayağında süfrə açılıb gətirilən yeməklər yeyilir, axırda "Fatihə" verilib süfrə yığışdırılırdı. Axşam isə ev üçün ayrıca yemək bişi-

rilirdi. Zərnigar Məmmədovanın dediyinə görə, Zəngilan kəndində *qəbirüstü günü* səhər tezdən aş bişirilir, ondan bir neçə qapıya ehsan göndərilir. Hər kəs də çalışırdı ki, öz ehsanını birinci paylayıb ölülərinə rəhmət alsın. Sonra qadınlar bir qazan *qəbirüstü aşı*, çörək, şoraba, palaz, süfrə, əl silməyə məhraba, bir sözlə süfrə üçün nə lazımsa özləri ilə götürüb qəbirüstünə gedirlər. Axırıncı ölən şəxsin qəbirindən başlayıb köhnə qəbirlərə qədər hamısını sıra ilə yad edir, ağlaşır, üstlərində "Quran" oxudurlar. Sonra yol qırağında süfrə açıb yolla gedən şəxləri ehsan yeməyinə dəvət edirlər. Evə qayıtdıqdan sonra axşam üçün əlavə aş asılırdı. Söyləyicinin dediyinə görə, anası deyərdi ki, bu gecə ruhlar azaddır. Hər biri öz ocağının başına yığılır. Əgər o evdə ehsanın iysi gəlməsə, onlar çox pərt, çox naümüd geri qayıdırlar. Ona görə hər kəs həmin axşam qazan asmağa çalışır, imkanı olmayan şəxslərin evinə isə hazır yemək göndərilirdi.

Babayıl kənd sakini Nərminə Bağırovanın dediyinə görə, əvvəllər qəbirüstünə aparılan şirniyyatdan, bişirilən ehsandan qəbirin üstünə də qoyurdular. Quşlar yığıldığına görə sonradan həmin adət yığışdırılır. Bartaz kəndində də *qəbirüstü* günü hamı yuyunur, qüsullanır, ondan sonra yemək asılırdı. Suyu ocağın üstünə qoyub "bu imamların ehsanı, bu seyidlərin, bu ölənlərin ehsanı" deyib duzu atırdılar. Düyünü də həmin şəkildə birinci imamlardan, seyidlərdən başlayıb sonra dünyasını dəyişmiş ailə üzvlərinin adını çəkib tökürdülər. Həmin gün halva çalınır, aş bişirilirdi. Bartazda ehsan aşına ət vurulurdu. Ehsan aşı qəbirstanlığa gətirilir, yeyiləni yeyilir, qalanını yolayrıcında oturub gəlib-gedənə verirdilər.

Ramilə Vəliyevanın dediyinə görə, ili çıxmamış adam varsa, həmin ailəni yasdan çıxarmaq üçün qara bayramda hamı mütləq onlara yığışır, gələn şəxs özü ilə xonça bəzəyib gətirirdi. Həmin evdə süfrə açılır, aparılan nemətlərlə stolun üstü bəzədilirdi. Zəngilan kəndində isə, qara bayram Novruzda keçirilirdi. Novruz girəndən sonrakı on gün ərzində qapılar açıq olurdu. Ev sahibi hazırlığını görürdü: çay dəmləyir, qazan asırdı ki, istənilən vaxt onun qapısına qara bayrama gələn olar. Kimi bayram günü, o gün vaxtı olmayan növbəti on gün ərzində o qapıya gəlirdi. Ya tək, ya da bir neçə qon-

şu birləşib ölü yiyələrinin qapılarını gəzir, gələn şəxslər özləri ilə qənd, çay alıb gətirirdi. Çay içilir, yeməyə qalan yemək yeyir, ölən şəxsə rəhmət oxuyub dağılışırdılar.

Zərnigar Məmmədovanın dediyinə görə, Zəngilan kəndində birinci çərşənbəyə külə pısıdan, yəni yel buraxan çərşənbə deyilirdi. Çərşənbələrə ad qoymazdılar, çox vaxt birinci, ikinci, üçüncü, dördüncü çərşənbə deyə çağırırdılar. Dördüncü çərşənbə isə əsl çərşənbə hesab olunur. Söyləyicinin dediyinə görə, bu gün qədr gecəsi haqqında söylənən sözlər o vaxt axır çərşənbə üçün deyilirdi. Deyirdilər ki, axır çəşənbədə torpaq oyanır. Həmin gecə saat dördlə beşin arasında bütün ağaclar budağını yerə əyir, yerlə görüşür. Çaylar bir dəqiqəliyə dayanır. Söyləyicinin dediyinə görə, Zəngilan kəndində çərşənbə ocağı ağacdan qalanmazdı. Yaşlı kişilər deyərdi ki, çərşənbə ocağı adam ayağı dəyməmiş otdan qalanmalıdır. Ona görə hər kəs axır çərşənbədə yandırmaq üçün hələ qabaqcadan bir bağ təmiz ot saxlayırdı. Heyvanın qabağından çıxan, malın ayağı dəyən və ya tapdalanan otdan çərşənbə ocağı qalanmazdı.

Hər çərşənbənin özünəməxsus adətləri var idi. Yuxarı Yeməzli sakini Laləzar Qurbanovanın dediyinə görə, su çərşənbəsində qaranlıq düşən vaxtı qızlar vedrədə su götürüb küncdə-bucaqda gizlənir, ordan gəlib keçən olanda suyu üstünə atırdılar. Yaxud, yaxın adamların evlərinə gedib qapıdan su atırdılar. Ev sahibi də onlara "aydınlığa çıxasan, xoşbəxt olasan" deyirdi. Od çərşənbəsində isə, ailədə neçə oğlan varsa, hərəsinin adına bir ocaq qalanırdı. Kimin ocağı gec sönərdisə, deyərdilər "bu uşağın gələcəyi yaxşı gələcək, ata ocağını davam etdirəcək".

Axır çərşənbədə gün dönəndən sonra buğda qovrulur. Qovurğa üçün buğda hələ yaydan ən yaxşı buğdadan seçilərək saxlanılır. Ramilə Vəliyevanın dediyinə görə, saat birdən sonra anası sacı qoyub buğdanı qovururdu. Həmin buğdanı boşqablara töküb üstünə boyanmış yumurta, qoz, fındıq, konfet, peçenye qoyurdu. Həmin gün yeddi qapıya pay paylanmalı idi. Kimin evində yas düşmüşdüsə, bayram payı birinci o evə göndərilirdi ki, o ev yasdan çıxsın. Ondan sonra qonşulara, çoxuşaqlı ailələrə, imkanı olmayanlara, şi-

kəst olanlara bayram payından paylanır, həmçinin o boşqabın biri həmin gecə kirvə evinə göndərilirdi. Babayıl kəndində qonşulara bayram payı veriləndə, birinci bayram payı kirvə evinə gedirdi. Ağalı kəndində isə bayramın səhəri sinidə böyük bir xonça düzəldilib kirvə evinə göndərilirdi. Babayıl kəndində axır çərşənbədə bacılıqlar bir-birinə *bayramlaşmaya* gedir, bişən şirniyyatdan pay aparırdılar. Bacılığı da onu əliboş qaytarmaz, paltar, ətir və sair əşyalardan pay qoyardı.

Nərminə Bağırovanın dediyinə görə, Babayıl kəndində buğdanın ilk qovrulmuşundan yeddi dənə götürüb evin müəyyən yerlərinə qoyur, buğda xaralının içinə atırlar ki, evdə bolluq olsun. Söyləyicilərin dediyinə görə, buğda iki cür qovrulur. Bir variantda buğda təmizlənib yuyulur, sonra qovrulur. Digər variantda buğda duzlu suya qoyulur, suyu canına çəkəndən sonra süzgəcə tökülür. Suyu tam çəkildikdən sonra onu qovururdular. Bundan əlavə, buğdanı qovuranda yetkin qızların adına saca buğda atılır. Hansı buğda tez çırtdasa, deyirdilər ki, filnakəsin buğdası çırtdadı, o, ərə gedəcək. Bartaz sakini Tutu İbrahimovanın dediyinə görə, axır çərşənbədə saat 12-dən sonra deyirdilər ki, gün çərşənbəyə çöndü. Ondan sonra hər kəs hazırlığını görürdü: çərşənbə suyunda yuyunulur, təzə paltar geyinilirdi. Bartazda qovurğadan əlavə, noxud, çətdəquş[4], çətənə qovrulur, həmin nemətlər qarışdırılıb yeddi qapıya pay paylanırdı. Bundan başqa, qovrulmuş buğdanı kirkirədə çəkib *qovut*, onun da üstünə şərbət töküb *qovut halvası* düzəldirdilər. Çöpədərə kəndində isə, bir kasaya *yeddi ləvin* bayram neməti yığılır, bayram aşından pay çəkilir və bunlardan bir xonça tutularaq qonşulara pay verilir. Boşqablar qonşuda qalır, onlar da öz bayram paylarını həmin boşqaba qoyub geri qaytarırlar.

Ağalı kəndində axır çərşənbədə *nöküt* bişirilirdi. Nökütün hazırlanması belədir: düyü qaynadılıb süzüldükdən sonra yağı sacın içinə atıb düyünü də tökürlər. Düyü sacda qovrulur, götürülənə yaxın içinə küncüt səpilir. Onu ləyənə yığıb içinə qoz əlavə edirlər.

---

[4] Saqqız ağacının meyvəsi

Həmin nöküt qablara çəkilir, üstünə şirniyyat, bəzədilmiş yumurta qoyulub qohum-qonşuya pay verilirdi.

Çərşənbə axşamı oğlanlar və qızlar ayrı-ayrı məclis qururdular. Kənddə kimin damı genişdirsə, yetkinlik yaşına çatmış qızlar qabaqcadan öz aralarında razılaşıb ora toplaşırdılar. Həmin dam əvvəlcədən süpürülüb təmizlənir, yerə palaz, kilim sərilirdi. Hər kəs evdən özü ilə bayram aşı bişirmək üçün düyü, yağ, xurma və s. gətirir, damın ortasında ocaq qalayıb həmin nemətlərdən özləri üçün bayram aşı bişirirdilər. Qızlar orada qirimlənir, özlərinə bığ, saqqal qoyur, başlarına papaq qoyur, kişi paltarında qapıları gəzirdilər. Yığdıqları ərzağı da götürüb həmin evə qayıdır, aşdan, yığdıqları bayram payından yeyib müxtəlif oyunlar oynayır, səhərə qədər oyaq qalırdılar.

Axır çərşənbədə qızlar *kuf* (Məmmədbəyli kəndində *kufgelli,* Gilətağ kəndində *yelənni* deyilir) oynayırdılar. Damın bacasına lom, ağır dəmir parcası atıb oradan kəndir asırdılar və yellənirdilər. Ağalı kəndinin sakini Elmira Mikayılovanın dediyinə görə, kufu bir nəfər uçurdurdu. Kufu arxaya çəkib buraxanda deyirdi: "Get nənəngilə, gəlmə bizə. Get xalangilə, gəlmə bizə". Söyləyicinin dediyinə görə, qızlar kuf uçurdanda *halay-halayı* oxuyurdular. Oğlanların onların məclisinə gəlməməsi, şuluqluq salmaması üçün qızlar çox vaxt toplaşdıqları yeri gizli saxlayırdılar. Ağalı kənd sakini Müqtədir Baxşəliyevin dediyinə görə, bir dəfə oğlanlar qızların axır çərşənbədə Bayram kişinin evində toplaşacaqları xəbərini alırlar. Ardını söyləyici belə davam edir: "Gecə saat on bir, on iki olardı, damın üstünə çıxıb bacadan aşağı baxırıq. Fürsət gözləyirik ki, bunlar yeməyi gətirib ortaya qoyanda qarmaqarışıqlıq salaq. Birimiz də əlində bıçaq hazır durub ki, qızlar sürətlə yellənəndə kəndiri kəssin, guppultu ilə yerə düşsünlər". Oğlanlar əyninə qadın paltarı geyinir, başlarına yaylıq örtür, yaşmanıb qızların məclisinə gəlirdi. Qızlara qarışıb oynuyur, yalnız üzlərini açdıqda onun qız deyil, oğlan olduğu bilinirdi. Nərminə Bağırovanın dediyinə görə, oğlanlar damın bacasına çıxıb kufgelli oynayan qızlardan istədiyi oğlanın adını soruşardı, deməsəydi, onu şallaqla vurardılar. Çöpədərə sakini Tavar Qəhrəmanovanın dediyinə görə, kuf üçün sicim keçi qəzilindən

toxunur, başına da qırmızı qotazlar salınırdı. Qızlar kuf asıb uçanda oğlanları həmin məclisə yaxın qoymurdular, onlar kənardan durub baxırdılar. Söyləyicinin dediyinə görə, qızlar kufda ayaq üstə yellənirdi, kimsə onlara təkan vermirdi. Yarışırdılar, kufla uçub o biri ağacdan şax qırıb gətirirdilər. Zəngilan kəndində isə kuf ya həyətdə, ya da tut bağlarında boş sahələrdə qurulurdu və mərasim axır çərşənbədən başlayıb ta Novruzun axırına qədər (mart ayı çıxana qədər) davam edirdi. Qoz, ərik ağacının budaqları möhkəm olduğu üçün kuf, əsasən, həmin ağaclardan asılırdı. Əriyin təzə çiçəkləyən vaxtı olduğundan qızlar mərcləşir, kufla daha yuxarı qalxıb onun çiçəyindən qoparırdılar.

Nərminə Bağırovanın dediyinə görə, əvvəllər orta baca damlar olurdu, onun ortasındakı atmadan kəndir asıb yelləncək qururdular. Dörd çərşənbənin dördündə də bir evə yığışıb orada yellənirdilər. Axırıncı çərşənbədə isə səhərə qədər oyaq qalırdılar. Kuf üçün sicimi keçi qəzilindən hörürdülər. Sicimi yuxarıdan asırdılar, adamı kəsməməsi üçün ortasına taxta qoyub üstünə döşəkcə salırdılar. Bir nəfər yelləncəkdə oturur, biri arxadan, digəri də qabaqdan onu yelləyirdi. Ayaq üstə yellənəndə isə oturub-durmaqla yelləncəyi hərəkətə gətirirdilər. Kufda yellənən qızdan istədiyi oğlanın adını soruşurdular, demək istəmədikdə onu daha möhkəm yelləməklə oğlanın adını deməyə məcbur edirdilər. Yelləncəkdə növbə ilə yellənirdilər. Qabaqcadan şərt kəsirdilər ki, kufda yellənən qızın ayağı torpağa dəyməməlidir. Kimin ayağı dəydisə, kufdan düşür, yerini başqasına verirdi.

Gilətağ sakini Ayna Quliyevanın dediyinə görə, keçi qəzilini cəhrədə əyirib ip düzəldirdilər. İpləri boyuyurdular. Rəngbərəng saplardan sicim hörür, ucunu da qotaz kimi düzəldirdilər. Sicimi ağacdan asırdılar, bağlanan yerini aşağı salırdılar. Ağacdan iki sicim asırdılar. İki nəfər üz-üzə sicimin üstündə otururdu, yıxılmamaq üçün də ayaqlarını qaldırıb o birinin siciminin üstünə qoyurdular. Kimin kimlə oturacağını qabaqcadan razılaşırdılar. Biri də arxadan onları itirdi. Yorulunca uçur, yorulanda növbələrini təhvil verirdilər. Söyləyicinin dediyinə görə, kufda əsasən cavan qızlar uçur-

dular. Kufu çox vaxt bacalı damların tirindən, açıq havada quranda isə tut ağacından asırdılar.

Dərə Gilətağ kəndinin sakini Sərvinaz Muxtarovanın dediyinə görə, martın 21-22-sinə onların kəndində Qızlar bayramı deyiblər. Həmin gün qızlar yığışardılar xırmana, oğlanları ora yaxın qoymazdılar. Yaz ağzı olduğu üçün xırman o vaxt boş olardı. Xırmanı təmizləyərdilər, ordan *nənni* asardılar. Nənnini ağ və qara saplardan hörülmüş ala-bula sicimlərdən qururdular. Mərəyin ortasından gedən tirdən iki sicim asardılar. Sicimləri üz-üzə gətirib ortasına yellənnən şəxsi kəsməməsi üçün döşək qoyardılar. Qızın biri həmin sicimlərin birində, digəri isə o birində oturar, ayaqlarını da qaldırıb qarşıdakı sicimin üstünə qoyardılar. Ayaq sicimlə yellənən şəxsin arasında qalardı. Böyük qızlardan biri arxadan digəri öndən dururdu, beş-altı metr geriyə çəkib buraxardılar.

İnama görə, çərşənbə günü kufda uçan qızın bəxti açılır. Böyük Ağalı sakini Elmira Mikayılovanın dediyinə görə, bir gün çərşənbə bayramında qızları kuf asıb uçurdular. Ortancıl qızı kufda uçanda qonşunun qızı çəpəri basır, qaça-qaça gəlir ki, Sənubər, düş yerə. Sən ərə gedəcəksən, mən evdə qalacağam? Sənubərin qolundan tutub düşürdür, özü onun yerində oturub yellənir. Söyləyicinin dediyinə görə, üç gün keçmir ki, həmin qızın nişanlandığı xəbəri çıxır. Bartaz kəndində isə qızlardan biri kufda yellənəndə o biri də əlinə çubuq alıb deyirdi ki, nişanlının adını de. Demək istəmədiyi təqdirdə onu daha möhkəm yelləməklə, çubuqla əlinə vurmaqla istədiyi oğlanın adını deməyə məcbur edirdi. Yeməzli kənd sakini Laləzar Qurbanovanın dediyinə görə, nişanlı olmayan qızlar kufda yellənərkən gələn çərşənbəyə qədər nişanlanmaqlarını arzu edirdilər. Kufda uçanları həvəsləndirmək üçün deyirdilər ki, sən yaxşı uçsan, səni filankəsə nişanlayacağıq. Belə bir inam da vardı ki, kimsə kufdan yıxılsa, onun taleyi yaxşı gətirməz. Kufda yellənəndə qızlar oxuyurdular:

Nişanlımın adı Xorasan,
Gecələr gəlib görəsən,
Başına dəsmal örtəsən,
Ayağına corab geydirəsən.

Armud ağacı haça,
Əlim dolaşdı saça.
Oğul ona deyərəm
Nişanlısın götürə qaça.

Qızıl iynənin sapı,
Görükür bizim qapı.
Yarı yardan eləyən
Dilənsin qapı-qapı.

Şamaxı dizim üstə,
Qatdaram dizim üstə.
Desələr nişanlın gəlir,
Muştuluq gözüm üstə.

Dərə Gilətağ kəndində isə yelləncəkdə yellənən qızlar Yelənnilər[5] oxuyardılar. Kənd sakini Sərvinaz Muxtarovadan aşağıdakı Yelənni nümunələri yazıya alınmışdır.

O tayada qoç yatıbdı,
Ay daha yelli yelənni.
Buynuzların çatıbdı.
Ay daha yelli yelənni.

Hayıf o qoçun quyruğu,
Ay daha yelli yelənni.
Quru yerdə yatıbdı,
Ay daha yelli yelənni.

Ay bu dərə başdan gəlir,
Ay daha yelli yelənni.
Suları daşdan gəlir,
Ay daha yelli yelənni.

---

[5] Yelənni – yelləncəyə verilən addır. Söyləyicinin dediyinə görə, balaca uşaqların yelləndiyinə yelləncək, böyüklərin yelləndiyinə isə yelənni deyərdilər.

Oğlan qızın dərdindən
Ay daha yelli yelənni.
Durub o başdan gəlir,
Ay daha yelli yelənni.

Qardaşım bir qız sevib,
Ay daha yelli yelənni.
Uzun boy, qara birçək,
Ay daha yelli yelənni.

Bulaq suyu sərindir,
Ay daha yelli yelənni.
Üstü dolu gəlindir,
Ay daha yelli yelənni.

Arzularım çin olar,
Ay daha yelli yelənni.
Qızlar da gəlin olar,
Ay daha yelli yelənni.

Mənim yarım tellidir,
Ay daha yelli yelənni.
Atı da yəhərlidir,
Ay daha yelli yelənni.

Güclüdür, qüvvətlidir,
Ay daha yelli yelənni.
Bu, düşmənə bəllidir,
Ay daha yelli yelənni.

Məmmədbəyli, Hacallı, Cahangirbəyli kəndlərində bayramın maraqlı məqamlarından biri *dodu gəzdirmək* idi. Bir oğlanın əyninə qadın paltarı geyindirilir, başına yaylıq bağlanır, tanınmaması üçün başına corab keçirilirdi. Dodunun başına on-on beş nəfər yığılırdı. Əvvəlcədən də nehrəni ortadan kəsib, aşılanmış keçi dərisini onun

üstünə çəkib nağara düzəldirdilər. Dəstədə balaban, nağara, qarmon çalan olurdu, onlar çalıb-oxuyur, dodu da oynayırdı. Oyunun şirin yerində ucu qarmaq şəkilli ağacla dodunun ayağından çəkirdilər, o yıxılırdı. Ev yiyəsi dodunun kim olduğunu öyrənməyə çalışırdı, amma ona imkan verməzdilər. Paylarını alana qədər oynayırdılar. Ev yiyəsi də onları daha çox oynatmaq üçün qəsdən payı gecikdirirdi. Uşaqlar bu şəkildə qapı-qapı gəzir, qapılardan düyü, yağ, soğan, kartof yığırdılar. Yığdıqları ərzağı gətirib bir evdə bişirir, gecə səhərə qədər çillə çıxardırdılar. Nərminə Bağırovanın dediyinə görə, elə olurdu baməzənin biri xəlvəti qızların aş qazanını oğurlayıb aradan çıxırdı, məcbur olub yenidən qazan asırdılar. Laləzar Qurbanovanın dediyinə görə, Yeməzli kəndində axır çərşənbədə kosa bəzəyirdilər. Kənddə bir neçə qrup olurdu və hər qrup özünə bir kosa düzəldirdi: tanınmaması üçün bir oğlana qadın paltarı geyindirilir, sifəti kömürlənir, ona kömürdən bığ çəkilir, keçi dərisindən saqqal düzəldilir. Onu ev-ev gəzdirirdilər. Qapıya gələndə ev yiyəsi onun kimliyini bilmək üçün kosanı məcbur edirdi ki, oynasın. O da tanınmaması üçün oynamağını, səsini dəyişir, axırda da şirinliyini alıb gedirdi. Kosa evə gələndə kimisə oynamağa dəvət edirdisə, həmin şəxs etiraz edə bilməzdi, mütləq onunla oynamalı idi.

Mincivan qəsəbəsində qızlar qara qoyunun yunundan özlərinə bığ, saqqal düzəldir, üzlərini kardondan hazırlanmış maska ilə örtürdülər. Oğlanlar isə qız paltarı geyinib başlarına şal örtürdülər. Özlərini elə şəklə salırdılar ki, kimsə onları tanımasın. Evlərə girib oynayır, nəmərlərini alıb gedirdilər. Söyləyicinin dediyinə görə, bir dəfə oğlanlardan biri qadın paltarı geyinərək onların evinə gəlir. O qədər mükəmməl qrimlənir ki, onu həqiqətən qadın zənn edir və ona bir cüt qadın corabı hədiyyə edir. Bartaz kəndində də yetkinlik yaşına çatmış oğlanlar qapı gəzərkən tanınmamaları üçün əyinlərinə qadın paltarı geyinir, başlarına yaylıq örtüb yaşmanırdılar. Ev yiyəsi az pay verəndə götürməzdilər. Ev yiyəsi istədikləri şeyi verib onları razı yola salmalı idi. Paylarını aldıqdan sonra bir az da oynayıb gedirdilər. Qılıq dəyişdirmiş şəxslər danışmır, ev yiyəsi bir şey soruşanda da ancaq başlarını hərəkət etdirməklə cavab verirdilər.

Mincivan kəndində qapıya torba atırdılar. Anaları hələ axır çərşənbədən qabaq uşaqlara məxmərdən torba tikib üstünə də əl tikmələri ilə güllər işləyirdi. Axır çərşənbədə uşaqlar onu boyunlarından asıb qapı-qapı *çərşənbə payı* yığırdı. Qapını döyürdülər, qapıya çıxana "bayramınız mübarək, çərşənbəniz mübarək" deyirdilər. Həmin adam da torbanı alıb içini şirniyyat, boyanmış yumurta ilə doldurub onları yola salırdı. Ağalı kəndində isə, kimi torba, kimi də papaq atırdı. Laləzar Qurbanovanın dediyinə görə, Yeməzli kəndində qadınlar parçadan *cantay* tikirdilər, parçadan düzəldilmiş güllərlə üstünü bəzəyirdilər. Axır çərşənbədə uşaqlar həmin cantayı boyunlarından asıb qapıları gəzirdilər. Gizlənmirdilər, sıra ilə düzülür, ev yiyəsi də əlində sini qapıya çıxıb onların cantaylarına çərşənbə payı qoyurdu. Həyətdə it varsa, həmin gün səhər tezdən onlar bağlanır, darvazalar isə açıq qalırdı.

Bütün çərşənbələrdə tonqal qalanırdı, axır çərşənbədə isə hər evdə tonqal qalanmalı idi. Bartaz kəndində hər qapıda üç tonqal qalanırdı. Onun külünü süpürməzdilər, yeddi gün qalardı. Həmin gecə hamı səhərə qədər oyaq qalır, *çilə çıxardırdı.* Oğlanlar "Ənzəli", "Eşşəkbeli" və sair oyunlar oynayır, qızlar su falına baxırdılar. Səhər obaşdan isə hamı su üstünə gedirdi. Ramilə Vəliyevanın dediyinə görə, Mincivanda Şam məhləsindən arx keçirdi. Səhər tezdən hamı çalışırdı ki, gedib o suyun üstündən tullansın, o suda üzlərini yusun. Həmin sudan gətirirdilər, evdəkilər, suya gedə bilməyənlər o su ilə əl-üzlərini yuyurdular. Ona *lal su* deyirdilər. Suyu götürəndən ta evə çatana qədər danışmazdılar. Suyu töküb bir adama verər, ondan sonra danışardılar. Çərşənbə günü evdəki bütün qab-qacaq axar suyun altında salavatlanırdı. Elmira Mikayılovanın dediyinə görə, Ağalı kəndində niyyət edib su üstünə gedirdilər. Misalçün, deyirdilər ki, ya suyun sahibi, mənim uzaq yol gedən bacım, qardaşım gəlsin, gələn çərşənbədə gəlib burada çiməcəyəm. Niyyət edənlər suya dinməz gedib, dinməz gəlirdilər. Həmin sudan qapının ağzına səpib ondan sonra danışırdılar. Bartaz kəndində su üstünə gedənlər kol topasının bir qanadını götürüb onun ucunu suyun içinə basdırır, niyyət edib altından keçirdilər. Sobu kəndində

evdən çıxanda üstlərində yeddi rəng sap götürürdülər, niyyət tutub onları çay kənarındakı kollara bağlayırdılar. Bartaz kəndində isə evdə nə qədər adam varsa, hərəsinin adına çayın üstündəki ağaclara *qatma* (ip) bağlanırdı.

Belə bir inam var ki, kim çərşənbə sabahı çayda çimərsə, onun xəstəliyi gedəcək, sağlam olacaqdır. Çimə bilməyənlər isə ayaqlarını soyunub arxdan yeddi dəfə o tərəfə, bu tərəfə keçirdilər. Suyun üstündən keçəndə deyirdilər:

Atıl-batıl çərşənbə,
Bəxtim açıl, çərşənbə.
Çərşənbəsən, çilləsən,
Hər ildən bir pilləsən...
Ağırlığım-uğurluğum,
Bu axar su ilə axsın, getsin,

– deyib tullanırdılar. Çərşənbə suyundan çay qoyulur, evin künclərinə, ağacların dibinə səpilirdi. Ağalı kəndində isə, camaat Həkəri-Bərgüşad çayına gedirdi. Ya ayağını soyunaraq çayın içindən o tərəf, bu tərəfə keçir, ya da əhd edirdilər ki, arzularım həyata keçsin, gələn il axır çərşənbədə çayda çimərəm. Qayıdıb gələndən sonra səhər tezdən bir də ocaq yandırırdılar. Çöpədərə kəndində qızlar çaydan gələndə fincanı çərşənbə suyu ilə doldurub qarşılarına kim çıxsa, onun yoluna atırdılar ki, aydınlıq olsun.

Şərikan kənd sakini Süleyman Məmmədovun dediyinə görə, çərşənbə suyundan birinci içənə deyirdilər ki, sənin taleyin yaxşı gətirəcək. Kim çərşənbə suyunu səhəngə doldurub evinə tez çatsa, o, kəndin ən qabaqcıl adamı sayılırdı. Kişilər çərşənbə suyunda at yuyurdular. Kim atı birinci yuyub qutarsa, onu minib xeyli çapırdı. Ona "igid" deyirdilər. Çərşənbə axşamı kim yatardısa, pambığı yandırıb yatan adamın burnuna tuturdular. Pambığın hisi burnunun altını qaraldırdı. Deyirdilər ki, sən qarabaxtsan, sənin taleyin qara gələcək.

Babayıl kəndində isə, arx çox olduğundan çərşənbənin səhəri yeddi arx keçilir, o arxların birindən yeddi daş gətirilib gələn çərşənbəyə saxlanılırdı. Həmin daşlar evin küncünə, buğda xaralının, un təknəsinin içinə atılırdı ki, üzlərinə gələn il bolluq, bərəkətli ol-

sun. Növbəti çərşənbəyə qədər həmin daşlar orada qalırdı. Söyləyicinin dediyinə görə, kənddə Pir bulaq vardı, axır çərşənbədə arzusu olan ordan bir daş götürüb gəlirdi. Ona *lal daş* deyirdilər. O daşı götürdükdən sonra danışmazdılar. O daşı əlində gətirib təmiz bir yerə qoyur, arzuları həyata keçənə qədər daş orada qalırdı. Arzuları gerçəkləşəndən sonra onu təmiz bir yerə atırdılar.

Axır çərşənbədə qızlar talelərini öyrənmək üçün çay qırağına yumurta basdırırdılar. Yumurtanı da elə basdırırdılar ki, biri o birinin yumurtanı hara basdırmasından xəbəri olmurdu. Hacallı kənd sakininin dediyinə görə, bir dəfə taleyini öyrənmək üçün iki rəfiqəsi ilə çay qırağına yumurta basdırır. Ardını söyləyici belə nağıl edir: "Bir qırmızı qələm, bir kömür, bir də yumurta basdırmışıq çayın qırağına, gəlmişik. Səhər tezdən mən durana qədər o biri qızlar gedirlər. Mən daldan getdim, gördüm onlar öz yumurtalarını çıxarıb gəlirlər. Dedim, bəs yumurtanız hanı? Dedilər ki, baxdıq, nə bilək. Vurduq çayın qırağına, gəldik. Mən də getdim, eşdim, Allaha and olsun, gördüm ki, yumurtanın bir tərəfi qırmızı, bir tərəfi qaradır. Mən də vurdum ora, gəldim". Söyləyicini dediyinə görə, o qızların ikisinin də taleyi pis gəlir. Sobu sakininin dediyinə görə, çərşənbə axşamı qızlar bir evə yığılıb *çilə çıxarır*, gecə niyyət tutub yatırdılar. O gecə görülən yuxu düz çıxırdı. Söyləyicinin dediyinə görə, belə çərşənbələrin birində bibisi qızının baldızı yuxuda görür ki, nurani bir kişi bəxt yazır. Bütün qızların bəxtini yazır, növbə gəlib ona çatanda çıraq sönür. Söyləyicinin dediyinə görə, həmin qızın gördüyü yuxu gerçək olur, o, ailə qurmadan dünyasını dəyişir.

Zərnigar Məmmədovanın dediyinə görə, axır çərşənbədə qapı pusanda eşidilən söz həmin insanın taleyidir. Onun dediyinə görə, Zəngilan kəndində bir qız var idi, axır çərşənbədə qonşuya *qapı pusmağa* gedir. Qonşunun evladı olmadığından bir qız uşağını götürüb saxlayırdı. Qapıya yaxınlaşanda ev sahibi qızlığına deyir ki, bu paltarları niyə yığmamısan? Söyləyicinin dediyinə görə, o qız qapı pusmadan çox bikef halda qayıdır. Evdəkilərə deyir ki, mənim ömrümə çox qalmayıb. Doğrudan da, bir neçə aydan sonra o qızı ildırım vurmuş, dünyasını dəyişmişdir.

Kimin bir arzusu vardısa, çərşənbə axşamı əlinə iki qaşıq götürüb bir qapıya gedir. Niyyət tutur ki, arzum gerçəkləşəcəksə, ev yiyəsi sağ əlimdəki qaşığa konfet qoysun. Elmira Mikayılovanın dediyinə görə, qaynı arvadının yeddi il uşağı olmurdu. Bir dəfə axır çərşənbədə qaynı arvadı iki qaşıq götürüb ona sarı gələndə qaşığa konfet qoymağa razı olmur ki, birdən səhv qoyar. Onu əmisinin qapısına göndərir. Əmisi konfeti qaşığa düz qoyanda gəlin sevincindən onun üzündən öpür. Söyləyicinin dediyinə görə, həmən il qaynı arvadının bir qızı olur.

Kimsə ürəyində bir arzu tutur, əlinə bir qab və ya bir vedrə su götürüb qapını açan kimi kiminsə gəlməsini gözləmədən suyu tullayır. O su kimin üstünə düşsə, həmin şəxs yaxşı söz deməli idi. Bu adətə *suatma* deyilir. Söyləyicinin dediyinə görə, bir dəfə bunu sınaqdan keçirib. Ali məktəbə sənəd verəndə birinci il kəsilir. İkinci il ali məktəbə girmək arzusu ilə suyu kirvələrinin üstünə atır, o da "üzə nur yağsın" deyir. Həmin il onun arzusu gerçəkləşir. Bartaz, Zəngilan kəndlərində də suatma adəti vardır. Tutu İbrahimovanın dediyinə görə, hər uşaq bir qabı su ilə doldurur, qonşunun həyətinə atıb qaçırdı. Dam evləri olanda damın bacasına çıxıb oradan suyu içəri çiləyirdilər. Ev yiyəsi də onlara "aydınlıq içində olasan", "Allah səni ağgünlü eləsin" deyirdi. Zərnigar Məmmədovanın dediyinə görə, hətta atılan su bəzən yemək yeyilən süfrənin üstünə düşürdü, amma kimsə buna hirslənməz, ağır söz deməzdi.

Axır çərşənbədəki inamlardan biri də bar gətirməyən ağacı qorxutmaq idi. Laləzar Qurbanovanın dediyinə görə, əgər həyətdə bar verməyən ağac varsa, çərşənbə günü gecə əllərinə balta, dəhrə alıb həyətə düşürdülər. Bunu o vaxt edirdilər ki, ətrafda kimsə olmasın. Qorxudan adam əlinə balta alıb bar gətirməyən ağacı üç dəfə yalandan baltalayır, dibinə mıx çalırdı. Deyirdi ki, ya kəsəcəyəm, ya da bar gətirəcəksən. Tutu İbrahimovanın dediyinə görə, bar gətirməyən armud ağacları vardı. Bir dəfə axır çərşənbədə babası əlinə dəhrəni alıb deyir ki, bar gətirmir, kəsəcəyəm bu ağacı. Nənəsi də deyirdi ki, a kişi, kəsmə. Bu cür ağacı qorxudurdular.

Bu bayramın bir xüsusiyyəti də ondadır ki, həmin vaxt kənddə kimsə küsülü qalmaz, bayramın şərəfinə hamı bir-biri ilə danışar, küsülülər barışardı. Küsülü olanları da kəndin ağsaqqalları, ağbirçəkləri qarşı-qarşıya oturdar, onları barışdırardı. Müqtədir Baxşəliyevin dediyinə görə, əmisi oğlu ilə kəndin başqa bir sakini arasında inciklik var idi. Bayram ərəfəsində əmisi oğluna xəbər göndərir ki, sabah onlara gələcəklər, amma nə məqsədlə gələcəklərini demir. Səhər kəndin üç-dörd ağsaqqalını yığıb o evə gedir. Günahı olan şəxs də ora gətirilir, onlar barışdırılır. Barışıqdan sonra isə süfrə açılmış, çörək kəsilmişdi. Ramilə Vəliyevanın dediyinə görə, Mincivanda tək yaşayan bir qadın var idi, anası onunla küsülü idi. Çərşənbə axşamı atasının təkidi ilə anası bir qab bayram payı aparıb onunla barışmışdı.

Söyləyicilərin dediyinə görə, şəkərbura, paxlava şəhərin təsiri ilə meydana çıxıb. Əvvəllər bayramda şirin çörək, pişik çörəyi, əyirdək bişirilir, müxtəlif şirnilər hazırlanırdı. Çərşənbədə plov dəmlənir, plov bişirməyə imkanı olmayanlar isə, iki həftə qabaqcadan əriştə kəsir, çərşənbə axşamı əriştə aşı bişirirdi. Mincivanda çərşənbə axşamı aşla yeyilmək üçün dəymiş pomidor tutması saxlanılırdı. Həmin balonun ağzına qırmızı ip bağlanırdı ki, onun çərşənbə tutması olduğu bilinsin. Babayıl kəndində isə, axır çərşənbəyə qarpız saxlanılır, çərşənbə axşamı kəsilib qonşulara paylanırdı.

Mincivanda təpələr vardı, cavanlar hələ üç gün qabaqdan ora təkər yığır, təpənin başına qırmızı bayraq tikirdilər. Çərşənbə axşamı hamı yeyib-içəndən sonra oğlanlar-qızlar həmin təpənin başına çıxıb təkərləri yandırırdılar. Babayıl kəndində isə, təkərləri yala yığırdılar, gecə onlara od vurub kəndə sarı yumalayırdılar. Cavanlar köhnə təkərləri yığıb yeddi arx aşırdılar, yeddinci arxın kənarında təkərlərin bir qismini, yarısını da dağın başında yandırırdılar. Babayıl kəndində çərşənbə tonqalına *yalav* deyirdilər. Bartaz kəndində köhnə parçalardan *lopalar* düzəldilirdi. Köhnə parçalar top kimi yumurlanıb məftillə bağlanır və bir gün qabaqcadan neftin içinə qoyulurdu. Axır çərşənbədə hava qaralanda oğlanlar həmin lopaları

götürüb təpənin başına çıxır, onları yandırıb göyə atırdılar. Kim öz lopasını ən hündürə atırdısa, onun adı xüsusi vurğulanırdı.

Axır çərşənbədə *səməni* qoyulurdu. Süleyman Məmmədovun dediyinə görə, hər evdə ailə üzvlərinin hərəsinin adına bir səməni cücərdilirdi. Ölən adamın adına da səməni cücərdilir, onun səmənisi qəbirinin üstünə qoyulurdu. Söyləyicinin dediyinə görə, onların evində hər bayramda atası ilə anasının adına iri qabda, uşaqların adına isə balaca qabda səməni cücərdilirdi. Bayram qurtarandan sonra bilən adamlar ondan səməni halvası bişirirdi, bilməyənlər isə ya meyvə ağacının dibində basdırır, ya da suya atırdılar.

Martın 21-22-si üçün deyərdilər ki, bu gün əmirəlmöminin taxta çıxan günüdür. Həmin günü hamı uşaqlara paltar, ayaqqabı və s. almağa çalışırdı. Əmirəlmömin taxta çıxarkən qırmızı geyindiyi üçün onun şərəfinə hamı çalışırdı ki, aldığı paltar qırmızı olsun. Zərnigar Məmmədovanın dediyinə görə, martn 22-sindən başlayıb ta ayın axırına qədər on gün uşaqların bayramı olurdu. Həmin günlər Zəngilan kəndində uşaqlar ancaq axşamlar evə yığılır, bütün vaxtlarını bağda keçirirdilər. Özləri ilə evdən düyü, yağ və digər ərzaqlardan gətirirdilər, qazan asıb yemək bişirir, bütün günü orada əylənirdilər. Qızlar çalışırdı ki, oğlanlar onların qazanlarını oğurlamasın. Oğlanlar da pusquda durur, fürsət gözləyirdilər. Qızlar qazanın yanından çəkilən kimi onu oğurlayırdılar, yedikdən sonra boş qazanı gətirib yerinə qoyurdular. Havalar yağışlı keçəndə isə kiminsə evinə yığışırdılar.

Zəngilanın bəzi kəndlərində Novruz bayramında xan bəzənilirdi. Bizə belə bir adətin varlığı haqqında Yeməzli, Şərikan, Cahangirbəyli, Zəngilan kəndlərinin sakinləri məlumat verdilər. Yuxarı Yeməzli kəndində bu adət kəndin klubunda, klub boş olmayanda isə anbarda keçirilirdi. Şərikan kəndində isə bu mərasim məscidin həyətində keçirilirdi. Hava qaraldıqdan sonra ətrafı işıqlandırmaq üçün yolda, məscidin həyətində lampalar yandırılırdı. Yuxarı Yeməzli kəndində bu mərasim martın iyirmi biri günortadan sonra başlayır, iyirmi ikisi gecə yarıya qədər davam edirdi.

Xan ayağı düşərli, sınanılmış adamdan seçilirdi. Yuxarı Yeməzli kəndində uzun müddət bu vəzifəni icra etmiş Abış kişi kənddə ayağı düşərli adam kimi tanınırdı. Kəndin sakini və bu mərasimin təşkilatçılarından biri olan Talıb Şərifovun dediyinə görə, kolxozda taxıl səpini vaxtı həmişə onu çağırırdılar, ilk toxumu o səpirdi. Xırmanda dərz döyüləndə ilk dərzin bağını o açır, biçin vaxtı taxılın siftəsini o biçirdi. Camaat onun ayağının düşərliyini görmüşdü, ona görə də hər il onu xan seçirdilər. Abış kişi dünyasını dəyişəndən sonra bir müddət Əsli adlı bir qadın xan seçilir, o da yaşlaşandan sonra Abış kişinin oğlu xan seçilir. İndiki dövrdə isə Abış kişinin nəvəsi xan seçilir. Söyləyicinin dediyinə görə, Əsli arvaddan sonra kənddə bir nəfər xan seçilir, amma həmin il uğurlu gəlmədiyi üçün kənd camaatı bu uğursuzluğu xanın adı ilə, onun ayağının düşməməyi ilə bağlayır. Ona görə növbəti il kənd sakinləri onu xan seçmir. Şərikan kəndində isə xan tanınan, sözü eşidilən adam seçilərdi. Kəndin sakini Süleyman Məmmədovun dediyinə görə, Hacı Vəli xan seçilər, arvadı Aynişan da onun xanımı olardı.

Yuxarı Yeməzli kəndində məclisdə başdan xan üçün stol qoyulur, üstünə qırmızı süfrə salınırdı. Xan mağara yaxın bir evdə bəzənirdi. Onun çiyninə saçaqlı darayı şal salınır, başına şiş papaq qoyulurdu. Son zamanlar təşkil olunan məclislərdə isə xan qırmızı məxmər xalat geyinir, başına kardondan düzəldilmiş, üstü zərli kağızla bəzədilmiş papaq qoyur. Şərikan kəndində isə xanın başında lələklə bəzədilmiş papaq, əynində məxmərdən əba, belində isə qılınc olurdu. Xanımı da o qədər iri tuman geyinirdi ki, oturanda tumanın ətəyi xeyli yer tuturdu. Xanın paltarı saxlanılır, növbəti il kim xan seçilsə, ona geyindirilirdi. Talıb Şərifovun dediyinə görə, xan danışmamalıdır. O dinməz oturur, vəzir onun əvəzindən məclisi idarə edirdi. Yuxarı Yeməzli kəndində xan vəzir-vəkil və milislərin əhatəsində məclisə gəlir. Camaat ayağa qalxıb xanı alqışlayır, xan bir az oynadıqdan sonra keçib yerində otururdu.

Süleyman Məmmədovun dediyinə görə, Şərikan kəndində xanın özü, ailəsi qırmızı, vəzir-vəkil göy, köməkçilər qara, xanı qoruyanlar isə sarı paltar geyinirdi. Sarı geyimli üç nəfər əllərində silah

xanı qoruyurdu. Enli taxt qurulur, xan və onun xanımı, vəzir-vəkil onun üstündə otururdu. Köməkçilər taxtın böyüründə durur, vəzir-vəkil də xanın sağında-solunda otururdu. Söyləyicinin dediyinə görə, kənddə böyük bir dağdağan ağacı vardı. Hər il axır çərşənbədə həmin ağacdan beş-altı küp asılırdı. Ona *yellənküp* deyilirdi. Həmin küplərin birində xanın arvadı, birində qızı, digərlərində vəzirin arvadı, qızı yellənirdi. Xan əyyanları ilə kufda yellənir, sonra məclisə gəlirdi. Məclisdə yarışlar təşkil olunurdu. Cavanlar güləşir, ağırlıq qaldırır, xan qalib gələnləri mükafatlandırırdı.

Həmin gün xanın əmri ilə biri heyvan gətirib kəsir, digəri plov bişirib gətirirdi. Yığılan nemətlər kəndin kasıblarına paylanırdı. Xan məclisdə bir sıra əmrlər verirdi. Kənddə kim kasıb idisə, əmr edirdi ki, filankəs, sən ona bir inək verəcəksən. Kimin evi yox idisə, əmr edirdi ki, filan vaxtı hamı yığışsın, filankəsə ev tikiləcək, ona kömək edin. Məscidin həyətində dar ağacı qurulurdu. Xan cəza olaraq kimisə döydürür, kimini oynamaqla cəzalandırır, kimini asdırırdı. Söyləyicinin dediyinə görə, xan o adamı dar ağacından asdırırdı ki, onun verdiyi tapşırığı yerinə yetirmirdi. Xan bu kənddən o kəndə pay göndərirdi. Kimin üstünə göndərirdisə, həmin adam da xana öz payını yollayırdı. Məclisə gələnlər padşaha sovqat gətirir, xan da onlara hədiyyə olaraq konfet, şəkərbura və ya kəlağayı hədiyyə edirdi. Yığılan pullar məscidin büdcəsinə əlavə olunur, həmin pulun hesabına kasıblara, yetimlərə əl tutulurdu.

Laləzar Qurbanovanın dediyinə görə, əvvəllər bu məclis üçün xüsusi öküzlər bəslənirdi. Hansı öküz işə-gücə yaramırdısa, onu cütdən ayırıb Novruz üçün bəsləyirdilər. Novruz bayramında həmin öküz kəsilir, onun ətindən yemək bişirilib camaata verilirdi. Xanın ətrafında qolu qırmızı sarıqlı fərraşlar olurdu. Xanın əmri ilə fərraşlar yol ayrıcında durur, yoldan keçən olanda onları şənliyə gətirirdilər. Onlara xonça, şirniyyat verib yola salırdılar. Böyüklü-kiçikli həmin gün hamı o məclisdə iştirak edirdi. Kimsə məclisə gəlməzdisə, xana şikayət edilirdi, o da fərraşları göndərib həmin şəxsi məclisə gətirdirdi. Kimin nə niyyəti vardısa, həmin gün xanın hüzuruna çıxıb ucadan niyyətini deyir, hamı bir ağızdan "amin" deyirdi. Gələn il niyyəti gerçəkləşəndə

həmin şəxs xana xələt – ya pul, ya da şamaxı gətirirdi. Həmin paylar kənddəki yetim uşaqlara, bir qismi də çalğıçılara verilirdi.

Xan şikayətlərə baxır, insanların istəyini yerinə yetirirdi. Söyləyicilərin dediyinə görə, Yeməzli kəndində belə bir maraqlı hadisə yaşanır. Abdun adlı bir kişi həddindən artıq yaşlaşmışdı, yaxşı yeriyə bilmirdi. Xana şikayət edir ki, mən qoca adamam, gəzə bilmirəm. Mənə at verin, minib gəzim. Xan da bunun arvadını çağırır ki, sənin atın bu, min. O da camaatın içində arvadını minmiş, arvadı dalında onu gəzdirmişdi.

Məclisdə kosa-keçəl düzəldilir, kosanın da arxasına süpürgə bağlanılırdı. Oyuna şuxluq qatmaq üçün məclisin axırında kimsə o süpürgəni odlayırdı.

Bayramda *Novruz kömbəsi* bişirilirdi. Novruz kömbəsinin xamırı süd və yağda yoğrulur. Yoğrulduqdan sonra sinidə yayılır, içinə kişmiş əlavə olunur və bir dənə göy muncuq qoyulur. Həmin xamır közün üstünə qoyulub üstü sacla örtülür. Kömbə bişəndən sonra doğranılır, məclisdə iştirak edənlərə paylanırdı. O muncuq kimin qismətinə çıxsa, növbəti il bayram kömbəsini o bişirirdi, həmin muncuğu da içinə qoyub gətirirdi. Söyləyicilərin dediyinə görə, bu adət bu gün də saxlanılır, amma əvvəlki illərdən fərqli olaraq Novruz kömbəsi ocaqda deyil, elektrik peçində bişirilir.

Söyləyicinin dediyinə görə, Şərikan kəndində 1941-ci ilə qədər bu mərasim keçirilirdi, insanların dolanışığı çətinləşdiyindən müharibə başlayadan sonra artıq keçirilmir. Yuxarı Yeməzlidə isə bu adəti bu gün də saxlanılır, kənd camaatı hər il Novruz bayramında şadlıq saraylarının birinə yığılaraq bu adəti keçirirlər.

## 2. ZƏNGİLANDA KİRVƏLİK

Söyləyicilərin dediyinə görə, bəzi adamlar uşağı olmamışdan əvvəl arzu edirdi ki, Allah-taala ona bir oğul versin, uşağı filankəsin qucağına qoyacaq. Arzusu yerinə yetəndən sonra həmin şəxsin qapısına gəlib onun razılığını alırdı. Ağalı kənd sakini Möhübbət Səmədovun dediyinə görə, bir dəfə axşam onlara bir nəfər gəlir.

Atası ilə söhbət əsnasında deyir ki, Məhəmməd kişi, mən istəyirəm səni uşaqlarıma kirvə tutam. Razılıq verirsən, yoxsa yox. Atası razılığını vermiş, ondan sonra çörək kəsilmişdi.

Ailədə nə qədər uşaq olursa olsun, kirvə bir nəfər seçilirdi, ailədəki bütün oğlan uşaqları onun qucağına qoyulurdu. Elmira Mikayılovanın dediyinə görə, Hüseynxanlı kəndində Ramazan adlı bir şəxs vardı, qardaşlarının hamısı onun qucağına qoyulub. Onun özü də ilk uşağa hamilə qalanda yoldaşı əhd etmişdi ki, oğlu olsa Xanların qucağına qoyacaq. İlk oğlunu da, ondan sonra olan uşağı da – hər ikisini onun qucağına qoymuşdular.

Kirvə qardaşdan irəli sayılır. Hətta Zəngilanda məşhur bir ifadə var: kirvə kirvənin damının üstünə çıxmaz ki, kirvəsinin üstünə torpaq tökülər. Başqa bir söyləyicinin dediyinə görə, ət sümüyə yapışırsa, kirvəlik iliyə girir. Kirvəlik müqəddəs dostluqdur. Möhübbət Səmədovun dediyinə görə, o, evlənəndə atası özündən böyük qardaşlarını deyil, kirvəsini Süleyman müəllimin qapısına qız istəməyə göndərmişdi. Hətta bir dəfə kirvələri onların heyvana ehtiyacı olduğunu öyrənib bir inəyi on günlük buzovu ilə təmənnasız onların qapısına göndərmişdi.

Möhübbət Səmədovun dediyinə görə, kirvəyə həmişə “əmi” deyə müraciət edib, yalnız böyüdükdən sonra onun kirvələri olduğunu öyrənib.

Sünnət toyundan 10-15 gün qabaq kirvəyə xəbər verilirdi ki, filan vaxt uşağın sünnətidir. Sobu kəndində isə sünnət toyundan bir gün qabaq uşağın atası bir erkəyi bəzəyib kirvənin qapısına şirinlik aparır. Onunla sünnət toyunu danışır, nə qədər adam çağıracağını deyir. Kirvə gələn qabların içinə pay qoyub geri qaytarırdı. Sünnət günü isə şax bəzəyir, heyvanın içində ən iri erkəyin başına qırmızı bağlayıb özü ilə gətirirdi. Ağalı kəndində şax qaratikan ağacından düzəldilir, onun tikanlarından meyvələr, şirniyyatlar asılırdı. Bundan əlavə, kirvə tərəf bir xonça hazırlayır, içərisinə qırmızı ipək parça, əl dəsmalı qoyurdu. Qırmızı parçanı sünnət vaxtı kirvənin dizinin üstünə salıb uşağı da onun qucağına qoyurdular. Uşaq görməsin deyə üzü örtülürdü. Uşaq kəsildikdən sonra həmin parça yerə

sərilir, hər kəs gücü çatdığı məbləğdə onun üstünə nəmər atırdı. Ev yiyəsi o pulu sayır, onu həmin parçanın arasına qoyub dəlləyə verirdi. Bartaz kəndində isə uşaq kəsiləndən sonra dəllək kül qabını ortalığa qoyur, uşağın əmisi, dayısı külə pul atırdı. Həmin nəmərdən əlavə, dəllək gördüyü iş üçün də əlavə haqq alırdı.

Sünnəti olan uşağa təzə paltar geyindirilir, kəsiləndə isə həmin paltar çıxarılırdı. Uşaq kəsildikdən sonra kirvələr əllərini yuyurdu. Üstdən uşağın atası, altdan isə kirvə əlini tuturdu. Dəllək dodağının altında nəsə oxuyub suyu tökür, kirvələr də əllərini yuyurdu. Sonra əllərinin yerini dəyişirdilər. Qurtarandan sonra dəsmalla əllərini qurulayıb qucaqlaşırdılar. Sünnət kəsiləndən sonra deyilirdi ki, dayısı gəlsin sünnəti götürsün. Dayı gəlib şirinliyini verir, ana da sünnətin parçasını aparıb əlçatmaz bir yerə – ya divarın başına, ya da divarın deşiyinə qoyur, orada quruyub itirdi. Sobu kəndində isə, sünnətin parçasını qapının başına taxırdılar ki, uşaq böyüdükdən sonra uzaq yerə getməsin, ata ocağına bağlı olsun.

Tutu İbrahimovanın dediyinə görə, sünnət olunan şəxs tək olurdusa (1, 3 və s.), bir xoruz tuturdular. Dəllək uşağı sünnət edəndə qapıda da xoruzu kəsirdilər. O xoruzu da yolub dəlləyin çamadanına qoyurdular. Sobu kəndində də sünnət vaxtı bir nəfər əlində xoruz hazır durur, uşağın sünnəti kəsiləndə o da xoruzu kəsirdi. Sobu sakini Fərzalı kişinin dediyinə görə, xoruzun kəsilməsi uşağa gələn qada-bəlanı qaytarmaq üçündür. Bartaz kəndində olduğu kimi, burada da xoruzu yolub kirvənin dizi üstünə salınan ipəklə birlikdə dəlləyin çamadanına qoyurdular.

Uşaq kəsiləndə ana içəri buraxılmırdı. Çöldə ananın ayağı suya qoyulur, uşaq sünnət olunduqdan sonra ayağı sudan çıxarılırdı. Sobu kəndində isə mis cama su doldurulub içinə iki dənə çiy yumurta atılır. Söyləyicinin dediyinə görə, həmin yumurtalar gözü təmsil edir. Həmin cam göz qaytarmaq üçün uşağın böyrünə qoyulur, ta uşaq sağalana qədər orada qalırdı. Həmin vaxt ana da dizəcən soyunub ayağını su doldurulmuş vannaya salırdı ki, uşağın sünnəti rahat keçsin.

Ağalı kəndində sünnət toyu iki gün olurdu: şənbə və bazar. Aşıqlar beşinci gün axşamdan gəlib orada gecələyir, altıncı gün səhər uşaq sünnət olunduqdan sonra toy başlayırdı. Saat birdə, ikinin yarısında isə çörək verilirdi.

Kirvə üçgünlüyə gələndə həmin günün xərcini də özü ilə gətirirdi. Bir erkəyin başına qırmızı şamaxı bağlayıb gətirir, düyü, yağ, konfet, aşın qarasınacan hər şeyi alıb gəlirdi. Sünnət olunan uşağa köynək, şalvar, evdə nə qədər uşaq varsa, onlara pay alır, uşağın ata-anasına hədiyyə gətirirdi. Həmin erkək orada kəsilir, ondan yemək hazırlanırdı. Bəzən ev yiyəsi yorğun olurdu, yemək bişirməyə vaxtı olmurdu, onda kirvə yeməyi öz evində bişirtdirib gətirirdi. Ev yiyəsi kirvənin gətirdiyi qabları saxlayır, onun özünə, oğluna, gəlininə – ailə üzvlərinə hədiyyə qoyub geri qaytarırdı. Üçgünlükdə dəllək də uşağa baş çəkir, kirvələrlə bərabər oturub yeyib içir, gedəndə ev yiyəsi onun çamadanını doldurub yola salırdı. Üçgünlükdən əlavə, kirvə tərəf hər bayramda bayramlaşmaya gəlirdi.

Elmira Mikayılovanın dediyinə görə, qayınatası onun yoldaşını Ramazanın atasının qucağına qoymuşdu. Üstündən neçə il keçəndən sonra nəvəsini də Ramazanın qucağına qoyaraq həmin kirvəliyi təzələmişdilər.

## 3. ZƏNGİLANDA YAS ADƏTLƏRİ

Söyləyicilərin dediyinə görə, yas düşən həyətdə üç gün ocaq qalanmırdı. Qohum-qonşu özü yemək bişirib gətirirdi: kimi dolma, kimi aş bişirib gətirir, imkanı olmayan pendir gətirirdi. Həmin yemək uzaq yerdən gələn qonaqlara verilirdi. Yeddisində ev yiyəsi özü ehsan verir, imkanı olmuyanlara yenə qohum-əqraba kömək edirdi. Ağalı kəndində belə bir adət var idi ki, yasa gələn hər qadın özü ilə səkkiz yuxa bişirib gətirməli idi. Elmira Mikayılovanın dediyinə görə, oğlu dünyasını dəyişəndə hər gün onun evinə yeddi qazan yemək bişirilib gətirilirdi. Ta yeddisinə qədər bu şəkildə davam etmişdir. Keçikli kənd sakini Qubad Bağırovun dediyinə görə, ev yiyəsi ancaq yasın birinci günü öküz kəsib ehsan verirdi. Meyiti

götürəndən sonra hamı qəbirstanlıqdan gəlir, ehsandan yeyib gedirdi. Belə bir inam vardı ki, birinci gün verilən ehsan ölüyə yapışır. Qalan 39 günü camaat ehsan verirdi: biri səhər yeməyini, digəri günorta yeməyini verirdi. Kənardan gələnlər heyvan gətirirdi. Ölü yiyəsi çay da qoymazdı. Qonşular qənd, çay gətirib özləri samovar qaynadırdı. Ev yiyəsi evladının adına bişirlən ehsandan yemirdi, yalnız qohum-qonşudan gələn yeməyi yeyirdi.

Sobu sakini Cümşüd Cümşüdovun dediyinə görə, belə bir inam vardı ki, halvanın iyi ölünün burnuna dəyməlidir. Ona görə ölü düşən kimi bir-iki kilo da olsa, halva çalınırdı. Hətta ölü yuata halva çalınandan sonra götürülürdü. Həmin halvadan yaşlı insanlara, körpə uşağı olan qadınlara verilir, qəbiri qazanlara göndərilir, ehsan üçün isə sonra ayrıca halva çalınırdı. Sobu kəndində də ehsan birinci gün verilir. Ölü götürülməmiş çay, ölünü dəfn edib qayıtdıqdan sonra isə ehsan verilirdi. Üçüncü gün qəbir ziyarət edilir, yeddisinin nə vaxt olacağı orada elan olunurdu.

Sobu kəndində gün dönəndən sonra ölü dəfn olunmazdı, sabaha saxlanılardı. Ümumiyyətlə, Sobu kəndində gün dönəndən sonra nə qurban kəsilir, nə heyvan başına bıçaq vurulur, nə də ölü dəfn edilirdi.

Əvvəllər cavan adamın ehsanı yeyilmirdi. Elmira Mikayılovanın dediyinə görə, xalası oğlu dünyasını dəyişəndə hələ nişanlı idi, onun adına bişirilmiş nə qədər ehsan vardısa, heç biri yeyilmədi, hamısı çaya töküldü. Özünün cavan oğlu dünyasını dəyişəndə də heyvan kəsilir, xaşlama bişirilir, amma heç kəs ehsana əlini vurmur. Ardını söyləyici belə davam edir: "Yeddisində durdum ayağa, gördüm hamı halvaya baxır, amma ağzına qoyan yoxdur. Halvanı götürdüm, qoydum ağzıma. Dedim, ay camaat, sizə qurban olum, bu çörək İsfəndiyarın çörəyidir. Məni kim istəyirsə, bu ehsandan ürəyi istəyən qədər yesin". Ondan sonra yasa gələnlər ehsandan yemişdilər. Möhübbət Səmədovun dediyinə görə, Dağıstan müəllimin yasında anası ayağa durub "ay camaat, oğlumun ehsanından birinci özüm yeyirəm, xahiş eləyirəm, hamınız yeyin" demişdi, ondan sonra o ehsan yeyilmişdi. Ağalı kəndində, adətən, yaşlı adamların ehsanı yeyilirdi.

*Sağır (səqir) ehsanı* yeyilməzdi. Yəni kimsə ölür və on beş yaşına çatmamış uşağı qalırdısa, insanlar onun yasına gedir, ağlaşır, amma üzlərinə su vurmurdular. Belə bir adət vardı ki, əgər ölünün ehsanından yeyilmirsə, üzə su vurulmamalıdır. Dayı, əmi və ya başqa bir nəfər gəlib onun sağırlığını götürürdü, yəni uşaq böyüyənə qədər ona baxacağına boyun olurdu. Yaxud ev sahibi camaatdan xahiş edirdi ki, mən evimin filan əşyasını uşağımın sağırlığına geri qoyuram. Qızılını, evini, xalçasını uşağın adına kənara qoyurdu, ondan sonra o ehsandan yeyilirdi. Yetim uşağın varidatından ehsan verməzdilər. Əmidən, dayıdan biri irəli durub ehsanın xərcini öz boynuna götürür, ondan sonra o ehsan yeyilirdi. Sobuda da sağırı qalan adama qoymazdılar ehsan verilsin. Cümşüd Cümşüdovun dediyinə görə, kənddə bir qadın dünyasını dəyişir, iki uşağı yetim qalır. Ölən qadının qardaşı ehsan vermək istəsə də, kənd ağsaqqalları həmin qapıda ehsan verilməsinə razı olmurlar. Ona məsləhət görürlər ki, ehsanı öz qapısında versin, ölən şəxsin qapısından qalan nə varsa uşaqlara çatacaq.

Yasla əlaqədar belə bir ifadə var: deyilirdi ki, filankəsin oğlu cavan öldü, anası tərsə oynadı. Yəni toyunda oynamaq əvəzinə oğlunun meyiti gedəndə tabutun qabağında oynadı.

Nişanlı şəxs dünyasını dəyişəndə onun nişan xonçası qəbirin üstünə tökülür, yaxud nişanlısına aldığı şaldan, parçadan xonça tutulub qəbirin böyrünə qoyulurdu. Qadınlar qəbirüstünə üçgünlükdə gedirdilər. Ananın övladının qəbiri üstünə getməsinə pis baxılırdı. Deyilənə görə, ana qəbirstanlığa gedəndə övladının saçından tutub onun qabağına gətirirlər. Ona görə ananın qəbirin üstünə getməsi günah sayılır. Oğlun, qızın ananın qəbirinin üstünə gedib ağlamağı isə, savabdı.

Söyləyicilərin dediyinə görə, yas yerində pul yazdırmaq keçən əsrin altmışıncı illərində meydana çıxıb. Bartaz kəndində Kalbay Bəşirin oğlu bu adəti qoyub. Bir dəfə camaatı başına yığıb deyib ki, ay camaat, toya nəmər atırsınız. Toy elə şeydir ki, ev yiyəsi bir il əvvəlcədən hazırlığını görür. Amma yas qəfildən düşür, əslində buna kömək etmək lazımdır. Ondan sonra yasda pul yazdırmağa

başlayıblar. Keçikli kəndində isə 1950-ci ildən sora yas məclisində pul yığılmağa başlanıb. Əvvəllər imkanlı şəxslər dünyasını dəyişəndə onların yasında yığılan pul qəbirstanlığa xərclənirdi: ətrafına hasar çəkilir, ora su çəkilir, yolu asfaltlanırdı.

Kənddə yas düşəndə altı ay televizor açılmırdı. Söyləyicinin dediyinə görə, xalası oğlu dünyasını dəyişəndən dörd ay sonra kənddə toy ediblər. Qohum-qonşu – heç kəs o toya getməmiş, yalnız uşaqlarını göndərmişdilər. Birinin yaxın qohumu öləndə bir il o nəsildə toy olmazdı. İlin çıxmasını gözləyər, ondan sonra toy edərdilər. Kənddə yas düşürdüsə, toy etmək istəyən şəxs beş-altı adam götürüb həmin evə gedirdi. Ev yiyəsinə başsağlığı verir, onun xeyir-duasını alıb ondan sonra toy edirdi.

Cavan adam aşıqla dəfn edilirdi. Bu adətə biz Ağalı kəndində rast gəldik. Həmin kənddə aşığı çox vaxt Füzuli rayonundan gətirirdilər. Söyləyicinin dediyinə görə, aşıq dəstəsi iki nəfərdən – qaval və klarnet çalandan ibarət olur və muğam üstə bayatılar deyirdilər. Yuatdan çıxandan sonra aşıq başlayır, ta qəbirstanlığa qədər oxuyurdu. Qəbirstanlığa çatanda aşıq dayanır, molla “Qurana” başlayırdı. Elmira Mikayılovanın dediyinə görə, xalası oğlu dünyasını dəyişəndə nişanlısı ilə aşıq ta qəbirstanlığa qədər deyişə-deyişə getmişdilər. Qəbirstanlığa çatanda qız saçını əlinə dolamış “ata, məni bağışla” deyib üzünü cırmışdı.

Ölən şəxsin paltarı bir il, bəzi yerlərdə qırx gün evdə saxlanılır, yalnız ili və ya qırxı çıxandan sonra evdən çıxarılırdı. Elmira Mikayılovanın dediyinə görə, oğlu dünyasını dəyişəndə onun paltarını bir il evdə saxladılar. Arada xalası onlara gələndə həmin paltarları ortaya töküb dil deyib ağlayırdılar. İli çıxandan sonra isə oğlunun bütün paltarlarını mələfəyə büküb, qəbirin ayağ tərəfində basdırmışdılar. Qəbir üstünə gedəndə də kimi ölən şəxsin köynəyini, kimi papağını özü ilə götürür, onu bağrına basıb ağlayırdı. Ölünün paltarını ortaya töküb ağlamağa Bartaz kəndində *paltaraşdı* deyilir. Azad Əbilovun dediyinə görə, ölən şəxsin yaxın adamları ölünün paltarını ortaya tökür, şəkilini də üstünə qoyub ağlayırdılar. Bartaz sakini Tutu İbrahimovanın dediyinə görə, ölü paltarı geyinmək sa-

vabdı. Ona görə də ölünün lazımlı paltarı ili çıxandan sonra oğluna, qızına verilir, lazımsızı da aparılıb basdırılırdı. Tavar Qəhrəmanovanın dediyinə görə, ölünün əynindən çıxan paltar heç kəsə verilmir, qəbirin böyründə basdırılırdı. Digər paltarları isə yuyulub qüsullandıqdan sonra yetimə, kimsəsizə verilirdi. Paltarı yuyan şəxs isə kənar adam olurdu.

Qırxına qədər hər həftənin dördüncü günü *cüməliklər* verilir. Cüməliyə ancaq arvadlar gəlir.

Elmira Mikayılovanın dediyinə görə, ölüyə ağlamaq ona verilən qiymətdir. Yas yerində ölənin paltarı ortalığa tökülür, şəkili də baş tərəfdən üstünə qoyulurdu. Dil deyib ağlaya bilən şəxslər qabaqda oturur, ağı deyilir, camaat da "şahsey" vururdu. Ağlaşma, adətən, günortaya qədər çəkirdi. Saat dörddən sonra deyərdilər ki, Allaha ağır gedər, ona görə ağlamağı kəsirdilər. Amma söyləyicinin dediyinə görə, ana nə günə, nə saata, nə də dəqiqəyə baxır. Təbi harda gəlsə, orada ağlayır. Yasda kişilər ağlamazdı. Söyləyicilərin dediyinə görə, kişini qeyrət ağladar. Ona görə də kişinin ölünün üstündə ağlamasına pis baxılırdı.

Can üstə olan şəxs əgər çarpayıdadırsa, yerdən üzü qiblə istiqamətinə yer salınır, o, çarpayıdan götürülüb həmin yerdə uzadılır, başının arxasına mütəkkə qoyulur. Ev yiyəsi qohum-əqrabanı çağırır. Dünyasını dəyişəndən sonra ölünün ayaqları cütlənib baş barmaqları sapla bağlanır, əlləri də yanına uzadılır. Ölən şəxsin yaxın adamı barmaqlarını basıb ölünün gözlərini bağlayır, üstünə kəlağayı atır, sinəsi üstünə güzgü qoyur. Elmira Mikayılovanın dediyinə görə, güzgü şeytanın ona dalx atmaması[6] üçün qoyulur. Ölü yuata götürüləndən sonra güzgü kənar bir yerə atılır. İnsan ölən kimi yuata götürülməzdi. Söyləyicinin dediyinə görə, insan öləndən sonra ruh candan çıxır, qəlbidə durub özünün ağlaşmasına baxıb gülür. Deyir, bunlar niyə ağlayır? Ta qulağına yuyucu barmağı girənə qədər deyilən sözləri meyit eşidir. Yuyucu barmağı qulağına girəndən sonra

---

[6] Söyləyici dalx atmaq sözünü ruhunu azdırmaq kimi izah etdi.

isə heç nə eşitmir. Ona qədər bütün qohum-əqraba gəlir, onunla halallaşır, üzünü açıb baxır.

İnama görə, halal, təmiz insanlar daha rahat canını tapşırır. Ağalı kənd sakini Qnyaz Məhərrəmovun dediyinə görə, atası can üstə olanda yeznəsi demişdi ki, bu kişi bir saata öləcək. Ardını söyləyici belə nağıl edir: "Dedilər, nədən bilirsən? Dedi ki, Məstalı bizim kimi şor yeməyib ki, öskürə-öskürə ölə. Məstalı ömrü boyu dananın zingini[7] yeyib, ona görə asanlıqla canını tapşıracaq".

Ölünü yumaq üçün yuat yeri həyətdə düzəldilir, kənardan görünməməsi üçün ətrafı çadırla örtülür. İçəridə taxt qurulur, meyit taxtın üstündə yuyulur. Ölən şəxs kişidirsə, onu kişi xeylağı yuyur, oğlu və ya nəvəsi də suyu tökür. Ölən şəxs qadındırsa, onu qadın yuyur. Əgər molla yumağı üstünə götürmürsə, onda "Quran"dan, dindən başı çıxan bir şəxsə tapşırılır. Şərikan sakini Süleyman Məmmədovun dediyinə görə, ölü qiblə istiqamətinə uzadılır, taxtın ayaq tərəfində də çala qazılır. Yerdən şırım açılır, meyitə tökülən su həmin şırımla qiblə tərəfə axıb çalaya yığılırdı. Suyu ayaqlamamaları üçün axırda çala torpaqla basdırılırdı. Ölünün qoltuğunun altına söyüd, Sobu kəndində isə nar çubuğu, nar olmayanda söyüd qoyulur. Söyüd qabaqcadan kəffarə hopdurulmuş pambığa bükülürdü. Suyu tökəndə birinci "Fatihə", sonra "İxlas", "Fələk" surələri oxunur. Ölü yuyulub qurtarılandan sonra üç dəfə cənabət qüsulu verilir. Ondan sonra ölü kəfənə bükülür, əvvəl ayaq, sonra baş və ortadan bağlanır. Kənara çəkilmələri üçün camaata göstəriş verilir. Meyit kilimin üstünə qoyulur, ondan sonra molla "Quran" oxuyur. Sobu kəndində cənazə namazı qılınanda meyitin üstünə pul atılır, o pul da mollaya çatırdı. Kəfənləyəndən sonra ölüyə yaxın durmaq olmazdı, əgər yaxın düşülürdüsə, təzədən bir də kəfənlənirdi. Yuat yerində üç gün lampa yandırılır. Qnyaz Məhərrəmovun dediyinə görə, yuat yerinin qapısı örtülür, ölü yuyulanda istifadə olunan qab-qaşıq, nə varsa səhərə qədər orada qalır. Səhər yuat yeri sökülür, qab-qaşıq da suya

[7] Söyləyicinin dediyinə görə, dananın zingi budun yuxarısında yerləşir, 3-4 kilo çəkisi olur. Köhnə qəssablar onu tərəziyə qoymaz, təxmini bir qiymət kəsib satırdılar. Tərəziyə qoyulmadığı üçün ən halal ət sayılırdı.

çəkilib salavatdanır. Ev sahibi ölü yuyan şəxsə zəhmətinin qarşılığı olaraq pul verir. Yuatdan sonra işlədilən sabın, ölünün əynindən çıxan paltar basdırılır, artıq qalan su da təmiz bir yerə axıdılır.

Meyit qəbirstanlığa xərəkdə aparılır. Xərək ağacdan düzəldilir, əl tutulan ağacları uzun olur. Ölən şəxsin oğlu və ya qardaşı başdan tutur, ayaqdan və ortadan isə digərləri kömək edir. Ağacın üstünə yorğan salınır, onun da üstünə cecim atılır. Meyit cecimə bükülür, örkənlə də sarınır. Kənddə kimdə cecimlə şamaxı varsa, ondan istifadə olunur, ölü dəfn edildikdən sonra yuyulub yiyəsinə qaytarılırdı. Ağalı kəndində qəbirstanlıq kənddən üç kilometr aralıda idi. Bununla belə həmin yolu meyit çiyində aparılır, orada nə qədər adam iştirak edirsə, hamısı növbə ilə o meyiti çiyninə götürürdü. Xərək qəbirstanlıqda qalır, çürüyəndə yenisi düzəldilirdi.

Qəbir bir metr enində, iki metr uzununda qazılır. Onun içərisindən qırx santımetr enində, altmış santımetr dərinliyində yer qazılır, həmin torpaq o biri torpağa qatılmır. Üstdən çıxan torpaq qəbirin bir tərəfinə, əhlət torpağı isə o biri tərəfə yığılır. Meyiti qəbirə oğlu, qardaşı və ya yaxın qohumu sallayır. Ölünü qəbirə qoyanda kəfənin başı, ayağı, bir də ortası açılır. Ölü üzü qibləyə sarı sağ böyrü üstə qəbirə qoyulur, kürəyini arxaya söykəyirlər. Meyitin başı kənara düşməməsi üçün başının altının torpağı bir az hündür götürülür, əl ilə də hamarlanır ki, daş olmasın. Cənazəni saldıqları iplər qəbirdə qalır. Meyit qəbirə qoyulduqdan sonra, söyləyicilərin dediyinə görə, əvvəllər üstünə ağac döşənirdi, sonralar isə daş qoyulmağa başlandı. İlk torpağı ölən şəxsin oğlu, qardaşı atır, növbə ilə o birilər də kömək edirdi. Kürəyi ələ verməzdilər. Kimsə istəyirdisə, kürək yerə atırıldı, əyilib yerdən götürülürdü. Əvvəl üstdən çıxan torpaq, lap üstdən isə əhlət torpağı tökülür. Ölünü basdırdıqdan sonra qəbirin ortasından şırım açılıb su tökülür. Qəbirin baş tərəfinə və yanlarına ağac basdırılır ki, önü ilə arxası seçilsin. Qəbirin üstünə tikan qoyulur, altı ay tamam olmayınca ona toxunulmurdu. Altı ay tamam olduqdan sonra qəbir qara bayrama qədər götürülürdü. Üstünün tikanlı qalması günah sayılırdı.

Ölü basdırılandan sonra üç gecə onun qəbiri üstündə ocaq qalanır, ya da qəbiri üstünə qaratikan kolu qoyulurdu ki, kaftar qəbirə yaxın düşməsin. Qəbirstanlığın torpağı vəhmli olur, ona görə həmin torpaq qapıya gətirilməzdi. Ölünü basdırdıqdan sonra oradakı adamlar çayda əl-ayaqlarını təmiz yuyur, vedrəni, kürəyi, bir sözlə orada istifadə olunan alətləri qəbirstanlıqda qoyub evə gəlirdilər.

Dörd-beş yaşına qədər olan uşaqlara ehsan düşmür, onların qəbiri də götürülmürdü. Həmin uşaqlar qəbirstanlıqda basdırılır, amma heç bir nişanə qoyulmurdu.

Əgər kimsə meyiti görüb qorxuya düşərdisə, qəbir üstünə ziyarətə gedəndə ölünün torpağından götürüb qəfildən qorxan şəxsin kürəyinə tökürdülər ki, qorxuluğu götürülsün.

## 4. ZƏNGİLANDA TOY ADƏTLƏRİ

Söyləyicilərin dediyinə görə, əvvəllər oğlanın bəyənib-bəyənməməyi o qədər önəmli deyildir. Ailələr bir-biri ilə anlaşırdısa, münasibətləri yaxşı idisə və oğlanın da könlü vardısa, elçiliyə gedirdilər. Cümşüd Cümşüdovun dediyinə görə, elçilikdən əvvəl qızın anası ilə oğlanın anası danışıb anlaşır, evin kişisinə xəbər verirdilər. Onların razılığı olduqdan sonra qızın da fikri öyrənilir, ondan sonra elçi gedilirdi. Qız evi ilk görüşdən razılıq vermirdi, möhlət istəyirdi. Qız evinin də razılığı olandan sonra hər iki tərəfin ağsaqqallarının iştirakı ilə *böyük elçilik* məclisi qurulurdu. Valideynlər anlaşdıqdan sonra qızın və oğlanın anası qız olan otağa keçirdilər. Qızın da *hərisini* aldıqdan sonra gəlib bildirirdilər ki, "qız razıdır, Allah mübarək eləsin". Ondan sonra şirin çay içilir, yemək süfrəsi açılırdı.

Söyləyicilərin dediyinə görə, elçiliyə istənilən vaxt getmək olmazdı. Müəyyən uğurlu günlər vardı, elçilik çox vaxt həmin günlərə salınırdı. Möhübbət Səmədovun dediyinə görə, birinci gün ağır gün hesab olunur, ona görə həmin gün elçiliyə gedilməzdi. İkinci gün Allahın adı ilə bağlıdır, cuma günü müqəddəs sayılıb, ona görə elçiliyə çox vaxt həmin günlər, özü də günün istənilən vaxtı deyil, axşamlar gedilirdi.

Nişanda qız evinə bir erkək qoyun aparılırdı. Erkək qırmızı bəzənir, belinə qırmızı boya ilə zolaq çəkilir, boynundan cürbəcür şirniyyatlar asılırdı. Nişan taxıldıqdan sonra toya qədər qızla oğlan görüşməzdi. Söyləyicilərin dediyinə görə, ailələr bir-birinə gedib gəlir, bir süfrə arxasında otururdular, amma oğlanla qız başını qaldırıb bir-birinə baxmazdı.

Zəngilanda qız toyunun xərcini oğlan tərəfi verir. Ona görə də oğlan evinin adamları toydan əvvəl beş-altı ağsaqqalla *toyxərcini* danışmaq üçün qız evinə gəlirdi. Qız toyu üçün nə qədər ərzaq tələb olunursa, ətindən tutmuş duzuna qədər hər şeyi oğlan evi alıb verirdi. Toyxərci olaraq qız evinə mütləq bir dənə erkək verilir (erkəyin başına qırmızı parça bağlanırdı), digər ərzaqlardan da nə qədər lazımsa alınır, qız toyundan bir gün qabaq bir maşına yığılır, maşının güzgüsünə qırmızı bağlanıb qız evinə yola salınırdı. Qız evi ərzağı boşaltmamış onun üstündə kim gəlibsə, ona nəmər – ya pul, ya da köynək, kastyum və s. verir, ondan sonra ərzaq boşaldılırdı. Soğan acılıq hesab olunduğu, duz bərəkət sayıldığı üçün siyahıya salınmazdı. Həmin ərzaqların pulu ayrıca qız evinə verilir, onlar özləri alırdılar.

Əvvəllər toylar üç gün keçirilirdi. Üçgünlük toyda beşinci gün qız evində, altı-bazar oğlan evində çalğı olurdu. Aşıqlar balaban, qara zurna, bir də nağaradan ibarət olurdu. Qız evinə də aşıqlar oğlan evindən gedirdi. Ağalı kəndində dördüncü gün oğlan evində bir-iki saat toy çalınır, saat on bir, on ikidən sonra aşıqlar qız evinə gedirdilər. Həmin gün axşamadək qız evində, beşinci, altıncı, bazar günü isə oğlan evində toy çalınırdı. Zəngilanda toylar qara zurna ilə keçirilir, xanəndə yalnız mağara gətirilirdi.

Toy günün birinci axşamı məsləhətləşmə axşamı olurdu. Sobu kəndində həmin günə *heyvan başı kəsdi*, başqa kəndlərdə *içalat axşamı* deyilir. Cümşüd Cümşüdovun dediyinə görə, həmin gün oğlan evi yaxın qohumları, xətrini istədiyi on-on beş adamı çağırırdı. Heyvanı kəsmək bir nəfərə həvalə olunurdu. Ora yığışanlar da imkanı çatan məbləğdə çıxarıb qəssaba pul verirdi. Seyid gəlib xeyir-

dua verir, bıçağa "pismillah" deyir, ondan sonra heyvanın başı kəsilirdi. Onun içalatı bişirilir, qohum-əqrabaya yemək verilirdi.

Qız toyuna *paltarbiçdi* və ya *paltarkəsdi* deyilir. Paltarkəsdiyə qadınlar dəvət olunurdu. Kişi məclisində olduğu kimi, qadın məclisində də şən, ataman bir qadın seçilir, toyun idarəsi ona tapşırılırdı. Paltarbiçdidə *gərdək* asılır, gəlin rəfiqələri ilə gərdəyin arxasında otururdu. Gəlin həmin gərdəyi sonra oğlan evinə aparırdı. Qız evi gərdəyi qanovuz parçadan özü tikir, başına da qotazlı, muncuqlu *pitik* düzəldirdilər. Yaxın qohum-əqraba paltarbiçdiyə xonça, şax bəzəyib gətirirdi. Xonçanın içinə gəlin üçün lazım olan əşyalar – paltar, parça, qızıl əşyaları, üstünə də şirniyyat qoyurdular. Həmin əşyalar məclis əhlinə göstərilir, ondan sonra qızın cehizinə əlavə edilirdi. Paltarbiçdi üçün *bükmələr* hazırlanırdı. Laləzar Qurbanovanın dediyinə görə, oğlunun toyunda beş yüz bükmə hazırlanmışdı. Balaca-balaca tikmələr tikib içinə şokolad, konfet, peçenye qoyulmuşdu. Paltarbiçdiyə gələnlər nəmərini salanda və ya hədiyyəsini verəndə həmin bükmələr onlara verilirdi. Paltarbiçdidə ortaya stol, onun da üstünə bir stul qoyulur, oğlan evindən gələn çamadanlar üst-üstə stolun üstünə yığılırdı. Bəyin bacısı, ya yaxın adamı stulun üstünə çıxıb qıza alınan paltarları ayaqqabısından tutmuş donuna qədər hamısını nümayiş etdirirdi. Çamadanı açmamışdan qabaq deyirdi ki, çamadanın ağzı açılmır. Qızın anası, ya xalası şirinlik verir, ondan sonra çamadanı açırdı.

Keçikli sakini Qubad Bağırovun dediyinə görə, vaxtilə toy qabağı *at yarışı* keçirilirdi. O yarışda kimin atı qələbə çalsa, oğlan evi ona nəmər verir, gəlini də həmin atla gətirirdilər. Gəlin minən at erkək olmalı idi.

Gəlini gətirməzdən bir gün qabaq oğlan evinin yaxın adamları – qadınlar qız evinə *xınayaxdıya* gedirdilər. Ayrıca bir xonça tutulur, xonçanın içinə xına və şirniyyat qoyulurdu. Xınanın ağzı açılanda qız evinin qohumları – qızın bacısı, yoldaşı, bibiləri xınanın üzərinə nəmər atırdı. Gəlinin, həmçinin digər cavan qızların əlinə, ayağına xına yaxılır, artıq qalan xınadan bir az da götürülüb oğlan evinə göndərilirdi. Xınayaxdıda oxuyurdular.

Xınanı gətir, ana,
Qızlara yetir, ana.
Bir gecə qonağınam,
Qoynunda yatır, ana.

Oğlanın bacısı oxuyurdu:

Bu ellərin sonası,
Burda qonar sonası.
Bizim bəylə gəlinin
Mübarəkdi xınası.

Qız evində toy axşamı saat beş-altıya qədər davam edirdi. Gəlin köçən qız qırmızı tuman, kofta geyinir, başına da qırmızı şamaxı salırdı. Söyləyicilərin dediyinə görə, qızın cehizində ev üçün lazım olan hər şey olurdu. Hətta oğlanın atası oğlunu ayırası olsa, onlar heç nəyə möhtac olmadan sərbəst yaşaya bilərdilər. Qız evi cehizi göndərəndə oğlan evinin adamına – qayınataya, qayınanaya, qayına, oğlanın əmisi oğluna və s. hədiyyə qoyurdu. Bir neçə gün qabaqdan qızın bacısı, xalası, bibisi gəlir, pərdələri asır, mebelləri düzür, gəlin otağını bəzəyirdilər. Həmin gündən də oğlan toyunun tədarükünə başlayırdılar. Qohum-əqraba hamı elliklə xeyir işdə iştirak edirdi: kimi çayın hazırlanmasına, kimi heyvanın kəsilməsinə baxırdı. Kənddə bişirdiyi yeməklərlə ad çıxarmış adamlar vardı, toy yeməyinin hazırlanması onlara tapşırılırdı. Məsələn, Ağalı kəndində Bibiheybət, Sitarə, Şəmsə xala yaxşı aş bişirənlər idi, Oktyabr kişi isə ət yeməklərinin mahir ustası kimi tanınırdı. Yeməklərin bişirilməsi, adətən, onlara tapşırılırdı. Bu iş üçün də onlara haqq ödənilməzdi. Onların haqqı ya *qazanaçdıdan* alınan nəmər olurdu, ya da aşpaz evə gedəndə bişirilən yeməkdən ona da pay verilirdi. Qazanaçdı zamanı aşpaz zarafatla deyirdi ki, qazanın ağzı açılmır. Oğlanın atası, əmisi, yaxın dostu qazanın üstünə pul qoyur, ondan sonra qazanın ağzı açılıb qonaqlara yemək çəkilirdi. Həmin pul da aşpazlar arasında bölünürdü.

Oğlan toyunda iki mağar qurulurdu: biri oynamaq üçün, digəri yemək mağarı. Oynamaq üçün qurulan mağarın üstü örtülür, ətrafları açıq olurdu. Yeyib-içmək mağarı isə ondan bir qədər kənarda qurulurdu. Gələn qonaqları ev yiyəsi qarşılayıb onları öncə yemək mağarına aparırdı. Yeyib içəndən sonra həmin qonaqlar oyun mağarına gəlir, nəmərlərini salıb öz havalarını çaldırıb oynayırdılar. Oğlan toyunda, adətən, aş, kabab və bozartma verilirdi.

Şərikan kəndində toy mağarının üstündən qırmızı şamaxı asılırdı. Qırmızı şamaxı ağaca bağlanıb hündür evlərin üstündən də asılırdı ki, kənddə toy olduğu bilinsin. Toydan qabaq bəy çimizdirilir, gülablanır, başı təmiz qırxılırdı. Başına qırmızı dəsmal bağlanıb üstündən də papaq qoyulurdu. Dəsmalın ucları isə yandan sallanırdı. Qız da çimizdirilib saçları hörülür, uclarına qırmızı dəsmal bağlanırdı.

Oğlan toyuna birinci gün kəndin öz camaatı, ikinci gün qonaqlar dəvət olunurdu. Gəlin toyun sonuncu günü gətirilirdi. Oğlan toyunu idarə edənə *toybaşı* deyilir. Toybaşının qolunda qırmızı sarğı, əlində də çubuq olurdu. Onun üçün çalğıçıların yanında xüsusi masa qoyulurdu. Yerdə on beş metr diametrində dairə çəkilirdi. Camaat dairənin kənarında durub baxır, oynayanlar isə onun içində oynayırdı. Oynamaq istəyənlərin birbaşa çalğıçılara sifariş verməyə ixtiyarları yox idi. Sifarişlərini toybaşına verir, o da onların istəyini çalğıçılara çatdırırdı. Çalğıçıların haqqı danışıqdan asılı idi. Kimi konkret məbləğə, kimi də şabaşa gəlirdi. Ağalı kəndinin sakinlərinin dediyinə görə, çalğıçılar onların kəndinə həmişə şabaşa gəliblər, çünki şabaş atanlar çox idi, şabaşdan da xeyli məbləğ yığılırdı. Səpilən şabaşın hamısı çalğıçılara çatmırdı. Səpilən hər on manat şabaşdan doqquz manatı yiyəsinə qaytarılır, bir manatı da çalğıçılara çatırdı. Pulyazan üçün xüsusi yer düzəldilir, onun stolunun üstünə şirniyyat qoyulurdu. Nəmərini yazdırana o şirniyyatdan verilirdi. Toya *şax* bəzədilib gətirilirdi. Həmin şaxları kimlərin gətirdiyi qeydiyyata alınır, onlar ev yiyəsinə çatırdı.

Cümşüd Cümşüdovun dediyinə görə, əvvəllər oynayan şəxslərin başına şabaş atılırdı, dövlət rəmzi olan pulu tapdalamaq qadağan

olunduğu üçün sonralar şabaş atmaq yığışdırılır, pul ancaq ələ verilir. Əgər kimsə buna tabe olmayıb sabaş atırdısa, həmin şəxs məclisdən çıxarılırdı. Toybaşı da nəzarət eləyir, kimin nə qədər pul verdiyini yadında saxlayırdı. Hava çaldırmaq üçün sifarişin məbləği bir manat idi, kimsə havanı dəyişmək istəyirdisə, bir manat da əlavə verməli idi. Məclisdə bəzən nağara çalan irəli çıxır, nağara çala-çala oynayıb nəmər yığırdı. Elə vaxt olurdu ki, bir dövrə vuranda 25-30 manat pul yığırdı. Həmin pul da çalğıçılar arasında bölünürdü.

Oğlan toyunun sonuncu günü günorta qız evinə gəlin gətirməyə gedirdilər. Yarım saat, bir saat orada çalğı çalınır, gəlini götürüb gəlirdilər. Hər iki tərəf imkanlı olanda qız evində də toy olurdu, oğlan evində də. Bu toy o toyun üstünə gedirdi. Qız tərəfdən əmisi, ya dayısı arvadı, inanılmış bir adam qapıda durur, heç kimi içəri buraxmırdı. Deyirdi, oğlan tərəfin adamı gəlsin *südpulu* versin. Qızın anası çağrılır, bəyin atası, dayısı südpulunu verib halallıq alırdı. Ondan sonra oğlan tərəfdən gələn qadınlar içəri girirdi. Həmin aşıqlar orada yarım saat, bir saat çalır, sonra gəlinlə bir yerdə oğlan evinə gəlirdilər. Qızı aparanda oğlan tərəfin adamları qız evindən müəyyən əşyalar da oğurlayırdılar. Söyləyicilərin dediyinə görə, qız evi bəzən ehtiyat görərək müəyyən dəyərli əşyaları gizlədirdilər.

Oğlanın əmisi və ya dayısı gəlin maşınının qabağında oturur, yolboyu uşaqlar sicimlə gəlin maşınının qabağını kəsəndə onların nəmərlərini verirdi. Gəlin həyətə daxil olanda qayınata onun ayağı altında bir erkək kəsirdi. Darvazanın çölündən evin qapısına qədər çörək düzülürdü. Gəlin o çörəyi qolunun üstünə yığır, gətirib qayınanasına verirdi. Qayınanası da "a bala, ayağın sayalı olsun, çörəkli olasan", – deyə ona xeyir-dua verirdi. Gəlin evə girəndə pəncərədən və ya balkondan camaatın başına boşqab dolusu şirniyyat atılırdı. Gəlin oğlan toyunu ancaq pəncərədən seyr edirdi.

Tavar Qəhrəmanovanın dediyinə görə, ayaqqabı darlıq sayıldığı üçün gəlini qonşudan qonşuya aparanda ayağına ayaqqabı geydirməzdilər, ayağında corab bəy evinə gəlirdi.

Möhübbət Səmədovun dediyinə görə, gəlin gələndə bəy evdə olmazdı. Gəlinin ağırlığı bəyin üstünə düşməməsi üçün dostları

qonşuda yeyib-içmək stolu təşkil edir, orada oturub yeyib içirdilər. Gəlin evə girəndən sonra üç-dörd nəfər bəyin qoluna girir, onu gətirib içəri qoyur, özləri çıxıb gedirdilər. Azad Əbilovun dediyinə görə, imkanlı şəxslər bəy otağı bəzəyirdilər. Stolun üstünə meyvə, aş, konfet, şokolad, qoz, fındıq – hər şey qoyurdular. Bəy yoldaşları ilə birlikdə orada otururdu.

Zəngilanın bəzi kəndlərində gəlinin başına alma atılırdı. Yeməzli kənd sakini Talıb Şərifovun dediyinə görə, almanı dörd yerə dilimləyib sıxırdılar ki, aralanmasın. Gəlin qapıdan içəri girəndə bəy qəlbi yerdən durub onun alnından vururdu. Onda almanın dilimləri parçalanıb yerə tökülürdü. Şərikan kənd sakini Süleyman Məmmədovun dediyinə görə, gəlin gələndə bəy hündür bir yerdə dayanıb gəlinin başına üç alma atırdı. Üçü də gəlinin başına dəyərdisə, gəlin uğurlu sayılırdı. Gəlin evə girdikdən sonra bəy çıxıb gedirdi.

Zəngilanda vaxtilə xeyir iş olanda Seyid Həsən ağanı və ya Mirəli ağanı gətirib ondan xeyir-dua alınırdı. Söyləyicilərin dediyinə görə, bu adət bu gün də saxlanılır. Məclis açılanda birinci seyid çağrılır, ilk xeyir-dua ondan alınır.

Bəy toyda iştirak etməzdi. Yalnız arada bəyin yaxın qohumu onu çağırtdırıb məclisə gətirdir və oynadırdı. Məclisin axırında isə *bəy tərifi* olur, bəylə gəlini məclisə gətirib oynadırdılar. Ondan sonra "Vağzalı" çalınır, toy dağılırdı. Gəlini oynadanda nəmər onun əlinə verilir, həmin pullar gəlinin özünə çatırdı. Oğlan evi isə sağdışa, soldışa ayrıca pay qoyurdu.

Gəlin bəy otağına gedəndə yengə *boygörümü* istəyir, pul aldıqdan sonra gəlini içəri salırdı. Yengə özü qapının arxasında olur, bəylə gəlin görüşəndən sonra yengəyə xəbər verilirdi. Yengə gedəndən sonra qohum-əqraba güllə atırdı.

Toyun səhəri qızın anası təzə bəylə gəlinə yemək-içmək yollayır, qızı üçün quymaq, əyirdək, südlü fətir bişirib göndərirdi. Üç gündən sonra ev yiyəsi gəlini üzə çıxardırdı. Qohum-əqraba həmin məclisə gedir, görümünə pay aparırdı. Qızın yengəsi gərdəyi açır, qızın qolundan tutub onu başı örpəkli məclisə gətirir. Gəlin ağbirçəklərin əlindən öpür, onlar da gəlinin alnından öpürlər. Tavar Qəhrə-

manovanın dediyinə görə, gəlin köçəndə üçgünlükdə baldızına yaylıq, qayınatasına corab hədiyyə etmişdi. Üçgünlükdə çayı gəlinə tökdürürdülər, çayı içənlər də nəlbəkiyə və yaxud süfrəyə pul atırdı. Həmin pullar gəlinə çatırdı. Oğlan evi yengəni o gün yola salırdı. Üçgünlükdə bir oğlan uşağını qabaqcadan hazırlayırdılar. Gəlin üzə çıxanda oğlan uşağı gəlinin başından duvağı götürüb qaçır, aparıb bar verən ağacın üstünə atırdı. Qızın anası həmin oğlana şirinlik verir, o da duvağı ağacdan düşürüb qızın anasına verirdi. Qızın anası da onu büküb oğlan evinə verirdi.

## 5. TOY MAHNILARI

Gəlin bəy evinə gəldikdən sonra otağa daxil olur, onun üçün hazırlanmış yerdə otururdu. Ondan sonra oxuyurdular:

Gəlin deyər, hanı anam?
Qulağımnan aldılar tanam.
Mətanətdir sənin anan,
Gəlin, xoş gəldin, xoş gəldin!

Gəlin deyər, hanı atam?
Qoyunu quzuya qatam.
Filankəsdir sənin atan,
Gəlin, xoş gəldin, xoş gəldin!

Gəlin deyər, hanı bacım?
Başımdan aldılar tacım.
Esmiradı sənin bacın,
Gəlin, xoş gəldin, xoş gəldin!

Gəlin deyər, hanı qardaşım?
Uca dağlardan necə aşım?
Firudundur sənin qardaşın,
Gəlin, xoş gəldin, xoş gəldin!
Bizim belə gözəl oğlanımıza,
Tuş gəldin, tuş gəldin!

**6.**

Kərbala yolunda tikdirdim günbəz,
Oxudum dərsimi, dedilər bilməz,
Bu bəylə xanıma köməy olsun gözə görünməz.
Görüm, a bəy, toyun mübarək olsun!
Sağdışına, solduşuna borc olsun!

Gözəl olur bu yerlərin sonası,
Gəlsin xələt versin bəyin anası.
Görüm, a bəy, toyun mübarək olsun!
Sağdışına, solduşuna borc olsun!

Mələy olub ulduzlara çatası,
Bu yerlərə toxunmasın xatası,
Gəlsin xalat versin bəyin atası.
Görüm, a bəy, toyun mübarək olsun!
Sağdışın, solduşun, elin var olsun!

Qoyunlardan qoyunların alası,
Gözəl olur bənəvişin balası,
Gəlsin xalat versin bəyin xalası.
Görüm, a bəy, toyun mübarək olsun!
Sağdışına, solduşuna borc olsun!

Dəryada oynayır Nuhun gəmisi,
Biçilməmiş qaldı onun zəmisi,
Gəlsin xalat versin bəyin əmisi.
Görüm, a bəy, toyun mübarək olsun!
Sağdışın, solduşun, elin var olsun!

Ərz eliyirəm olam səninlə yol yoldaşı,
Əyağına dəyməsin yolların daşı,
Gəlsin xalat versin bəyin qardaşı.
Görüm, a bəy, toyun mübarək olsun!
Sağdışına, solduşuna borc olsun!

Soğanlardan soğanların acısı,
İstiyirəm bu yerlərdə qalası,
Gəlsin xalat versin bəyin bacısı.
Görüm, a bəy, toyun mübarək olsun!
Sağdışın, solduşun, elin var olsun!

Bu yerlərin Xan Çobanı, Sarası,
Gəlsin xələt versin bəyin dayısı.
Görüm, a bəy, toyun mübarək olsun!
Sağdışın, solduşun, elin var olsun!

Bu yerlərin var dəryası, gəmisi,
Gəlsin xələt versin bəyin bibisi.
Görüm, a bəy, toyun mübarək olsun!
Sağdışın, solduşun, elin var olsun!

Xırmana yığılıb taxıl pencəsi,
Aşığa xələt versin gəlinin yengəsi.
Görüm, a bəy, toyun mübarək olsun!
Sağdışın, solduşun, elin var olsun!

Beləcə xanəndə adları çəkər, adları çəkilənlər gətirib xanəndənin çiynina bir şal atar, ya da stolun üstünə pul atardı.

**7.**

Elçilər bağa gəlir,
Səsə, sorağa gəlir.
Eşit oğlan anası
Evinə gəlin gəlir.

Eşidib toy səsini,
Yığılıb elin gəlir.
Eşit oğlan anası,
Evinə gəlin gəlir.

## 8. UŞAQLA BAĞLI İNAMLAR

Uşağı olmayan qadınlara bəzən məsləhət görürdülər ki, keşişin yanına getsin, bəlkə, onun qələmi düşər.

Təzə doğulan uşağın göbəyi dörd barmaq boyu məsafədən qayçı ilə kəsilir, pambıqla bağlanırdı. Göbək düşdükdən sonra onu məktəbə atırdılar ki, uşaq böyüyəndə oxuyan olsun. Hacallı kəndində isə oğlan uşaqlarının göbəyini astananın baş tərəfinə qoyurdular ki, gələcəkdə evə yiyə dursun, həyət-bacaya bağlı olsun. Göbəyi kəsən adama isə paltarlıq, şirniyyat verilirdi.

Cəlal Hətəmovun dediyinə görə, Hacallı kəndində uşaq olan kimi xəlbirin içinə qoyulur, qırxı çıxana qədər orada qalırdı. Nəzər qaytarmaq üçün dağdağan çubuğunun üstünə pişik tükü taxıb onu uşağın bələyindən asırdılar.

Söyləyicilərin dediyinə görə, vaxtilə uşağın adını boyüklər qoyurdu. Uşağın valideynləri böyükləri ilə məsləhətləşir, onların uyğun gördüyü adı uşağa qoyurdular. Laləzar Qurbanovanın dediyinə görə, qızı Gülbənizin adını Seyid Alının qocası qoyub. Yaşlı arvad idi, özü də kimsəsi yox idi. Deyilənə görə, qoca arvad ad qoyanda uşağın taleyi yaxşı olur.

Uşağa ya anadan olan kimi, ya da qırxı çıxandan sonra ad qoyulur. Ad qoyulanda namaz qılan bir adam çağrılır, adı uşağın qulağına o deyir. Ondan sonra süfrə açılır. Əgər uşağa ölən adamın adı qoyulursa, o zaman həmin adamın adına "Quran" oxutdurub ehsan verilir. Laləzar Qurbanovanın dediyinə görə, ərinin adını nəvəsinə qoyanda buna əməl etmədilər, ona görə Allah onları cəzalandırdı: uşağın üstünə qaynar su dağılmışdı. Cəlal Hətəmovun dediyinə görə, Hacallı kəndində heç vaxt ölən şəxsin adını uşağa qoymazdılar. Ehtiyat edərdilər ki, ölü adını verməz, uşaq ölər. Hətta sağ adamın adını da uşağa verəndə həmin adamın razılığını aldıqdan sonra onun adını uşağa verirdilər. Adın düşər-düşməzi olur, ona görə ölən uşağın adı yeni uşağa verilməzdi. Əgər ailədə dalbadal bir neçə qız uşağı doğulursa, axırıncı qız uşağı anadan olanda onun adı Kifayət, Bəsti qoyulurdu. Söyləyicinin dediyinə görə, Hacallı

kəndində bir ailənin iki qızı olur, üçüncü uşaq qız olanda onun adını Kifayət qoyurlar ki, daha qız bəsdi. Allah da onların arzusunu eşitmiş, ardınca onlara iki oğlan uşağı bəxş etmişdir.

Laləzar Qurbanovanın dediyinə görə, yoldaşından qabaq ailədə on üç uşaq olub, heç biri sağ qalmayıb. Yaşlı insanların dediyinə görə, yoldaşının anasının üstünə həmzat töküldüyü üçün uşaqlar sağ qalmır. On dördüncü uşağa hamilə olanda ona məsləhət görürlər ki, tövlədə it küçükləyib, öz həmzatını gedib onun üstünə töksün. O zaman itin balaları öləcək, onun balası isə sağ qalacaq. Amma qayınanası buna razı olmamışdır ki, it də balasını çox istəyir, yüz il də qala, getmərəm. Onun bu hərəkəti Allaha xoş getmiş, ondan sonra üç oğlu olmuş, üçü də sağ qalmışdır. Söyləyicinin dediyinə görə, yoldaşı anadan olanda onun sağ qalacağına əvvəl heç kim inanmır, ona görə uzun müddət ona ad qoymurlar. Artıq uşaq bir yaşına çatanda görüblər ki, heç nə olmadı, ondan sonra ona Allahverdi adını qoyurlar.

Uşaq olanda bacaya qaratikan kolu taxırdılar ki, evdə qırxlı uşaq olduğu bilinsin. Evə gələn olanda uşaq çıxardılır, həmin adam içəri girəndən sonra onun üstünə gətirilirdi. Yas yerindən gələn şəxs qırxlı qadının üstünə getməzdi. Ana qırxlı halda çeşməyə gedirsə və üstünə başqa adam gəlirsə, evə qayıtdıqda uşağı evdən çıxardıb ananın üstünə gətirirlər. Əgər qırxlı qadın qırxlının üstünə gəlirsə, öz qırxını onun üstünə tökmüş olur. Ona görə onlar sancaqlarını dəyişirdilər: öz üstündəki sancağı o birisinə verir, o da öz sancağını ona verirdi. Evdə qırxı çıxmamış uşaq varsa, onun üstünə dua, mundar şey, çiy ət gətirmək olmaz. Deyilənə görə, onda uşaq ətdik tökür, yəni səpir. Üstünə çiy ət gələn uşaq su çiçəyi çıxarır. Yeni doğulmuş uşağı qırx gün gözləyirlər ki, üstünə kimsə gəlməsin.

Qırx gün dolandan sonra uşağın *qırxını tökürdülər*. Uşağı yuyub təmizləyəndən sora qırx dənə buğdanı bir vedrə təmiz suya atırdılar. Üç dəfə "uşağın qırxını tökürəm vacibən qürbətən illallah. Allahın məsəli, əla Məhəmməd və ali Məhəmməd" dedikdən sonra birinci sağ çiynindən, sonra sol çiynindən və axırda başından suyu tökürdülər. Uşaq zəif olardısa, sudan qorxmaması üçün ələyi uşağın

başının üstünə tutub suyu çiləyirdilər. Bu da çimməyə bərabər hesab olunurdu.

Söyləyicinin dediyinə görə, Əbülfətdən qabaq bir oğlu olur. Boğazı şişdiyindən nəfəs ala bilmir, bütün günü ağlayırdı. Yaşlı adamlarım dediyinə görə, uşağı *şeşə vurub*. Söyləyici ardını belə nağıl edir: "Dedim şeşə nədir? Dedilər, boğazı şişib birləşib. Əlimi saldım uşağın ağzına, gördüm iki damaq birləşib. Gülübəyim xalaya deyəndə dedi ki, ay namərd, gec demisiniz. Vaxtında desəydiniz yeddi yerdən qanlayacaqdım, yaxşı olacaqdı. Öz-özümə fikirrəşirdim ki, şeşə nədir? Sonra xalam dedi ki, yarasaya şeşə deyilir". Söyləyicinin dediyinə görə, həmin uşaq sağ qalmır, dünyasını dəyişir. Ondan sonra söyləyicinin bir oğlu da olur, o da əvvəlki uşaq kimi bütün günü ağlayır, gecə yatmır. Dediyinə görə, xalası qaratikan kolunu əlinə alıb başının üstündə tutur. Yarasa tikana dəyib yerə düşür. Yarasanın başını kəsib qarnını yarır, içalatını çıxardır, yarasanı yuyub qurudur, göy əskiyə bükübb uşağın üstünə tikir. Söyləyicinin dediyinə görə, həmin yarasa qırx gün uşağın üstündə qalır, onunla da uşaq sakitləşir.

Gün dönəndən sonra təzə doğulan uşağı evdən çıxartmaq olmaz. Söyləyicinin dediyinə görə, atası evinə getmiş gəlinləri buna əməl etmir. Bir dəfə gün dönəndən sonra atası evindən qayıdır, elə ayağını qapıdan çölə basanda uşaq ağlamağa başlayır. Bütün günü səsini kəsmir. Söyləyicinin dediyinə görə, qardaşının əvvəlki oğlunun da başına belə bir hadisə gəlmişdi. Uşağın vəziyyəti qəflətən pisləşmiş, onunla da dünyasını dəyişmişdi. O zaman Zilanlı kəndindən yasa gələn qohumları onlara demişdi ki, uşağa nəzər dəyib, onu yerin altından keçirsəydilər, həmin fəsadlar aradan qalxardı. Söyləyicinin dediyinə görə, ikinci uşaqda da həmin əlamətləri görünəndə qohumlarının həmin sözü yadına düşür. Nənəsinə məsləhət görür ki, onların dediyini edək, bəlkə xeyri oldu. Nənəsi uşağı növbə ilə əvvəl çörəyin altından, sonra ələyin, yumurtanın, tüfəyin, tumanın altından keçirir. Altı əşyanın altından keçirəndən sora uşağı çölə çıxardır, yeri qazıb üstünə taxta atır. Biri uşağı çalanın bu başından verir, o da o biri başından alır. Yeddi dəfə çevirdikdən

sonra evə gələndə uşaq artıq alnından tər töküb yatır. Söyləyicinin dediyinə görə, ondan sonra uşağı Hacallı kəndinə ocağa aparırlar. Ocağın üstündə oturan şəxs onlara düz elədiklərini, nəzərin uşağın üstündən götürüldüyünü deyir.

Uşağın qorxuluğunu götürmək üçün dəmir parçası ocağın üstündə közərənə qədər qızdırılır, uşaq yatdığı yerdə onun başının üstündə üç dəfə suyun içinə salınırdı. Dəmirin cızıltısına uşaq diksinib yuxudan ayılır, onunla da qorxuluğu keçirdi. Yaxud yatan uşağın üzünə ağ çəkilir, yumurlanmış pambıq topaları ayaqdan ta başa qədər düzülürdü. Pambıq ayaq tərəfdən kirbitlə yandırılır, yanıb başa çıxınca qorxuluq götürülürdü. Ya da qorxuluğu götürmək üçün uşağı seyid qızının tumanının altından keçirirdilər. Söyləyicinin dediyinə görə, bir dəfə qorxuluğu olan uşağını Seyid Həsən ağanın qızının yanına aparırlar. Uşağı onun tumanının altından keçirirlər, o da dilinin altında nəsə oxuyub əlini onun kürəyinə çəkir. Ondan sonra uşağın qorxuluğu götürülür.

Söyləyicinin dediyinə görə, qırxı çıxmamış uşaqların bəzən gözündə pulcuq əmələ gəlir, ona gözünü açmağa imkan vermir. O zaman nənəsi toyuğun altından çıxan təzə yumurtanın sarısını ağından ayırırdı, ağını qaytarıb yenidən yumurtanın içinə tökürdü. Yumurtanın ağzına cuna bağlayıb onu çalxalayırdı. Yumurtanın ağı yağ olub marlanın üzünə yığılırdı. O yağı üç dəfə uşağın gözünə çəkirdi.

Uşağın ili tamam olanda onun başının tükü qırxılır, tərəziyə qoyulub çəkilirdi. Uşağın dayısı tükün çəkisində pul verib onu alırdı. Uşağın yiyəsi də saçın ağırlığı qədər dəlləyə pul verirdi. Uşağın qırx tükü pula bərabər sayılır, ona görə bəzi ailələr qırx tükünü saxlayırdı. Saxlamayanlar isə tükü büküb bir daşın altına qoyur və ya suda axıdırdılar. Onu yelə verməzdilər ki, uşağın başı ağrılı olar, xəstə olar.

Uşaq diş çıxardanda hədik bişirilir, içinə yeddi löyün nemət qatılır: buğda, maş, noxud, lobya, qarğıdalı və sair. Uşaq xəlbirə qoyulur, yanında da hədik yeddi qapı gəzdirilir. Hədik paylanılır, ev yiyələri də onlara ya pul, ya da paltar verir. Hədiyi bişirməyəndə uşaq deyir ki, anam bilsə mən necə diş çıxardıram, başının şalını

satıb mənə diş hədiyi qoyar. Uşağın süd dişi düşəndə dişi bir əskiyə büküb uşağın əlinə verirdilər. Deyirdilər ki, apar küncə-bucağa at, denən: "Siçan, siçan! Sən inci dişini ver mənə, mən süd dişimi verim sənə".

## 9. YAĞIŞLA BAĞLI İNAMLAR

Saralı Xəştab sakini Allahverdi Kalbalıyevin dediyinə görə, kənddə şəhid qəbiri vardı. İl quraqlıq keçəndə o qəbirin baş daşından qırıb çaya atanda yağış yağırdı. Çox yağıntı olanda isə həmin daşdan gətirib ocağa atırdılar, yağış kəsirdi. Daşın dalınca çox vaxt Molla Hacını və ya onun oğlu Molla Abdunu göndərirdilər. Onlar daşı qırmağa getməzdən əvvəl yuyunub qüsullanır, pak olurdular. O daşı qopardandan ta gətirib suya atana qədər heç kimlə danışmazdılar. Çox vaxt da danışmamaları üçün həmin daşı ağızlarında çaya aparırdılar. Söyləyici şəhid dedikdə, bizim başa düşdüyümüz kimi, torpağ uğrunda öləni deyil, əllə ölənləri nəzərdə tutur. Onların qəbirindən götürülmüş daşı istənilən suya deyil, məhz axar suya atırdılar. Əgər həmin yağış bir neçə gün yağırdısa və kəsmirdisə, onda həmin daşı sudan çıxardırdılar. Şuşa rayonu Xəlfəli kənd sakini Bəhmən Rəsulovun dediyinə görə, kənddə bir kişini maşın vurmuşdu, ölmüşdü. Yağış yağdırmaq üçün onun qəbirinin daşını o qədər daşımışdılar ki, qəbir daşı qutarmaq üzrə idi. Kəlbəcər rayonu, Əsrik kənd sakini Roza Cabbarovanın dediyinə görə, kənddə iki dənə sınanılmış gəlin vardı: birinin adı Səmayə, digərinin adı Seyran idi. Əlləri düşərli idi. Yağış yağdırmaq üçün həmin gəlinlər əl ilə ölən adamın qəbirinin sinə daşından qırıb suya atırdılar. Su aparmaması üçün daşı ipə bağlayırdılar, yağış yağandan sonra da onu sudan çıxardırdılar. Su daşı aparsaydı, onda yağış kəsməzdi.

İnama görə, eşşək xotuğunun başını su ilə yuyanda da yağış yağırdı. Roza Cabbarovanın dediyinə görə, bir qohumları vardı, əkin-biçindən bezəndə gətirib xotuğun başını yuyurdu ki, yağış yağsın, bir neçə gün dincəlsin.

Əllə ölən şəxsin qəbirinin torpağından yağışı kəsdirmək üçün də istifadə olunur. Bəhmən Rəsulovun dediyinə görə, Xəlfəli kəndində Babış adlı şəxsi erməni xançalnan öldürmüşdü. Hava yağmurlu keçəndə onun qəbirinin torpağından gətirib ocağa atırdılar, yağış kəsirdi.

Yağışı kəsmək üçün maraqlı adətlərdən birini də Yeməzli kəndində qeydə aldıq. Kənd sakini Laləzar Qurbanovanın dediyinə görə, kənddə Balaxanım adlı iki arvad vardı. Uzun müddət yağış yağanda hərəsi cütün bir tayını boyunlarına keçirib arxın içi ilə o başa, bu başa sürürdülər. Əllərindəki çubuğu da suya döyə-döyə oxuyurdular:

Sən Balaxanım, mən Balaxanım,
Vur yerisin, yer qurusun.

Bir neçə dəfə bu hərəkəti təkrarlayırdılar, onunla da yağış kəsirdi. Bu adətin başqa bir variantı haqqında Zəngilan rayonunun Qazançı kənd sakini Rəşid Həsənov bizə məlumat verdi. Onun dediyinə görə, çox yağış yağanda kəndin ağsaqqalı camaatı bir yerə toplayırdı. Eyni adlı iki nəfər əvvəlcədən hazırladıqları mıxçanın (bir ucu yonulmuş olurdu) hərəsi bir ucundan tuturdu, həmin ağsaqqal da oxuyurdu:

Sən də Eldar, mən də Eldar,
Yağışı kəsən bəndə Eldar.

Bir neçə dəfə oxuduqdan sonra həmin adamlar mıxçanı yerə sancırdılar. Kəlbəcər rayonunda isə yağışı kəsdirmək üçün dörd yolun ayrıcına örkən qururdular. Rayon sakini Roza Cabbarovanın dediyinə görə, yağış çox yağanda, Əsrik kəndində iki eyni adlı arvad dördyol ayrıcına gedirdi. Hər yolun ayrıcında yerə bir ağac sancıb örkən qururdular. Bunu eləyəndən sonra yağış kəsirdi.

Qadınların özlərini cütə qoşmasına Şuşa rayonunda da rast gəlinir, amma burada bu adət yağış yağdırmaq məqsədi ilə keçirilirdi. Rayon sakini Mütəllim Hüseynxanovun dediyinə görə, quraq havalarda qadınlar yağış yağıdırmaq üçün Daşaltı çayında kotan

sürürdülər və onlara həyan olsun deyə oğlan uşaqlarının da özləri ilə aparırdılar. Anası da onu özü ilə götürdüyü üçün həmin mərasimin şahidi olmuşdu. Söyləyicinin dediyinə görə, mərasimi icra edəcək qadınlar Qotur suyun yanındakı kahada paltarlarını dəyişirdilər, əyinlərində yalnız gecə köynəkləri qalırdı. Qotur suyun yanında kotan vardı. Bu kotanı boyunlarına alıb çayın içi ilə o başa, bu başa sürürdülər. Mütəllim Hüseynxanovun dediyinə görə, qadınlar bu zaman dua oxuyurdular (söyləyici bunu mahnı kimi təqdim edir) və duanın sözləri o qədər uzun idi ki, o başa gedib qayıdırdılar, amma duanın sözləri qurtarmırdı. Üç dəfə bu hərəkəti təkrarlayırdılar, üçüncü dəfə elə bir yağış yağırdı ki, qadınlar güclə çaydan çıxıb canlarını qurtarırdılar.

Yağışı kəsdirmək üçün bəzi yerlərdə duman nəcisindən istifadə olunur. Bəhmən Rəsulovun dediyinə görə, duman gələndə yumuşaq, yastı şey əmələ gəlir, ona duman nəcisi deyirlər. Yağış çox yağanda, kəsməyəndə xırmanların böyründə ya göy otun üstündə, ya yerdə armud qabığına oxşayan duman nəcisini yığırdılar, onu gətirib ocağa atırdılar, gün çıxırdı.

Dolu yağanda ağartını, qayçını və ya bıçağı dolunun qabağına atırdılar, onunla da dolu kəsirdi. Bəhmən Rəsulovun dediyinə görə, Xəlfəli kəndində dolu yağanda ən iri dolu dənələrini ya gətirib peçə atırdılar, ya da oğlan uşaqları dolunu dişləyib atırdı və ya daşın altına qoyub əzirdilər, dolu kəsirdi.

Bir inama görə, qızılgül açanda deyərdilər ki, leysan olacaq. Ona görə həmin vaxt böyüklər gənclərə dərə qırağında oturmamağı, heyvanı dərə qırağına aparmamağı məsləhət görürdülər.

İnama görə, bazar günü başlayan yağışın nə vaxt kəsəcəyi bəlli olmaz. Zəngilan kənd sakini Zərnigar Məmmədovanın dediyinə görə, yaşlı kişilər deyirdilər ki, yağış duz günü yağarsa, tək kəsər. Tək yağarsa, çərşənbə kəsər. Çərşənbə yağarsa, adna kəsər. Şənbə yağarsa, bazar kəsər. Bazar yağarsa, nə vaxt kəsər? Yəni bazar günü başlayan yağış bir gün də yağa bilər, on gün də yağa bilər.

## 10. RUH QURBANI

Sobu sakini Hüseyn Xudayarovun dediyinə görə, bəzən rəhmətə gedən adam tez-tez oğlunun, qızının yuxusuna girib onu narahat edir. Həmin şəxslər onun atası Seyid Mahmuda müraciət edirdilər. Atası onlara deyirdi ki, sən ruh qurbanı verməmisən, ölən şəxsin gözü malında qalıb, ona görə tez-tez yuxuna girib səni narahat edir. Həmin şəxslərə məsləhət görürdü ki, qurban kəsib yetim-yesirə paylasınlar, o zaman ölünün gözü evdən yığışar. Həmin şəxs qurbanı kəsirdi, yetim-yesirə paylayırdı, qalanı özünə qalırdı. Həmin kəndin başqa sakini Rəfi Hacıyevin dediyinə görə, insan öləndən sonra ruhunun murdar heyvana düşməməsi üçün ruh qurbanı kəsirdilər. Allaha dua edirdilər ki, ölən şəxsin ruhu murdara gedib düşməsin.

## 11-16. ŞUŞA HAQQINDA

Şuşa yeganə şəhər idi ki, yuxarıdan aşağı qartalın uçuşuna baxırdın. Otururdun qayanın başında, deyirdin: "Qızıl qaya, qızılın var?", səkkiz yerdən səs gəlirdi. Kişilər teatra gedəndə iki bilet alırdı, yerin birində özü otururdusa, birinə də papağını qoyurdu. Şuşada hamballar vardı, əsasən də, bizdən qabaxkı dövrdə bazarın ətrafında çox hambal olardı. Səhər tezdən gələrdi, xaşın yeyərdi, işinə başlıyardı. Nə qədər yük götürürsə götürsün, qiyməti bir abbası idi. Adicə iki kilo meyvə alırdın, iki kilo qənd alırdın, verirdin, hambal kəndirnən bağlayırdı belinə, atırdı çiyninə. Aparıb yükü boşaldırdı evə, bir abbasıdan da artıq almazdı. Amma həmin hambal axşam evinə gedəndə bazarlıq eliyirdi, özünə ayrı hambal tuturdu, arvad-uşağının yanına kişi kimi gedirdi.

Şuşada on yeddi məhlə vardı. Hər məhlənin öz təndiri, məhlə bulağı, məscidi, məhlə hamamı olubdu. Bulaqlar da məhlənin adı ilə adlanıbdı: Culfalar bulağı, Qurtdar bulağı, Çuxur məhlə bulağı. Üç dənəsi minarəli, qalanı güldəstəli məscidlər olufdu. Hər məhlənin məhlə təndiri olardı. Bişən çörəyin iyinnən bilinirdi ki, hansı

məhlənin təndiridi yanan. Hər məhlənin çörəyi də fərqlənirdi: biri ağ unnan bişirirdi, biri darçın vururdu.

Uşaqlıqdan özünü fəal göstərən, döyüşkən olanlar məhlənin lotusu olurdu. Kim yaxşı at minirsə, yaxşı xoruz saxlıyırsa, demək, bu, lotudur. Yaxşı göyərçinləri varsa, lotudur. Mən də göyərçin saxlayırdım. Mənim göyərçinim birinin çiyninə düşəndə deyirdilər "bu, Zahidin quşudur. O, elə-belə quş qoymaz qapısına, bu dölü saxlamaq lazımdır". Cavanşirə biz hamımız lotu kimi baxırdıq. O gələndə bütün uşaqlar ayağa dururdu. O nə adam vuran idi, nə oğru idi, amma gözəl fikirləri vardı, yaxşı üzürdü. Lotuluq insanın qabiliyyəti ilə hesablanırdı. Uşaqlar, əsasən, ona qulaq asırdılar.

**12.**

Şuşada iki məşhur çayxana vardı: Çayçı Süleymanın və Çayçı Salehin çayxanası. Süleymanın çayxanası Gəncə qapısında yerləşirdi, oranın havası da təmiz olurdu. Özü də on bir növ çay dəmliyirdi. On iki dənə armudu istəkanı üst-üstə düzüf yüyürə-yüyürə gedirdi, amma o istəkanın biri də aşmırdı.

Qurtdar məhləsi iki hissəyə bölünmüşdü. İki məhlə uşaxları bir-biriynən dalaşırdılar. Elə bil o məhlənin on beş nəfər uşağı gəlib dururdu iki məhlənin arasında, biz də burdan on beş nəfər gəlirdik. Yığırdıx daşdarı ciblərimizə, qoyunlarımıza, dururdux qabax-qabağa. Birdən göydən daş yağırdı, nə yağırdı. Kimin daşı qutardı, qaçırdı. Aradan bir saat keçirdi, bir də daş yığıb gəlirdilər. Gəlif düzülürdülər, deyirdilər: "Məhlədə qoçax varsa, çıxsın qabağa". Daşdarı da komalıyırdıx, yığırdıx bir yerə: özümüzə baza yaradırdıx. Girirdik çəpərrərin arasına, ordan daşdarı yağdırırdıx. O biri məhlədə bərk gedən Cavanşir idi, bizim məhlədə Nurəddin idi. Əvvəlcə bular ikisi tutaşırdı, onnan sora daşdaşma başdıyırdı. Daşdaşma vaxdı yumurtadan da istifadə eliyirdik. Bir dəfə daşdaşma zamanı Pomponu – adı Nazim idi, Pompo deyirdik, – yumurtaya tutmuşdux. Velosipedin trosunnan qamçı düzəldirdik, kəmərimizə keçirirdik. Bir adam artıq-əysik danışdı, onunla vururdux, qan götürüb gedirdi.

Davalar çox vaxt mənəm-mənəmlik üstündə düşürdü. Biri bizim məhlədən keçəndə bunu döyürdülər ki, sənin nə ixtiyarın var bizim məhlədən keçirsən. Bu məhlənin uşaxları gedirdilər o biri məhlədən su gətirməyə. Özünü tanıtmax istiyən lotular peyda olurdu, buların suların alıb tökürdülər yerə, vedrəni də keçirirdilər başdarına. Onnan sora da dava düşürdü. O məhlədə biri göyərçinlərini havaya qaldıranda biz də tez gəlib öz məhləmizin göyərçinlərini qaldırırdıx havaya. Bu göyərçinlər göydə qarışırdılar bir-birinə. Bizim göyərçinlər yenəndə onların göyərçinləri də buların dalınca gəlib düşürdü bizim məhləyə. Dən verib buları salırdıx toolaya, tuturdux. Qənətdərin yolub atırdıx ora. Göyərçin yiyələri gəlirdilər ki, bizim göyrəçinləri verin. Deyirdik, göyərçin-zad yoxdu, burdan gedin. Bir də görürdün ki, daşdaşma başdadı. Evdə çörək yeyən çörəyini qoyub cumurdu.

Zahidin göyərçinləri vardı, qaldırırdı havaya, göydə toçka olurdu, gözdən itirdi. Kimin ki göyərçini toçka vururdu, onun adı-sanı çıxırdı. Zahidin bir göyərçini var idi, beli qırmızı güllü. Onun adı bütün məhləyə düşmüşdü. Hamı çalışırdı ki, o göyərçini tutsun. Belində qırmızı xalları, başında kəkili vardı. Çox çalışırdılar ki, onu oğurrasınnar, ya vursunnar. Zahid bu quşu qaldıran kimi, hərəsi öz quşunu onun dalınca qaldırırdı ki, onu tutsunnar. Quşbaz Məmili vardı, bunun həyatində ən azı əlli-altmış dənə quş birdən qalxırdı göyə. Adətən, quş saxlıyanlar balaca yer düzəldirdilər, quşları orda saxlıyırdılar. Amma Pomponun quşdarı toolaya düşmürdü, taxtapuşda[8] gecəliyirdi. Orda qalırdılar, orda da balalıyırdılar. Görürdün cavanlar quşları yarışdırırlar. Quş var idi ki, o biri quşu yendirib gətirirdi. Məsələn, bir cüt quşdan mərcdəşirdilər ki, kimin quşu ən yüksəyə qalxsa, o udur. Pompogil qaldırırdı, görürdün göydə görükür, amma Zahidin quşdarı qalxanda göydə gözdən itirdi. Hansı quş ən yüksəyə qalxırdısa, onun adı da məşhur olurdu. O biri quşdar iki manatdan satılırdısa, bu quşdarı on manatdan verirdilər. Onun balalarını yetişdirirdilər, baha qiymətə satırdılar.

[8] Taxta-puş – çardaq

**13.**

Bir xam adam şuşalının əlinə düşdüsə, onu salırdılar ortalığa, onunla gülə-gülə elə məzələnirdilər ki, heç ruhu incimirdi. Sora özünə gələndə deyirdi ki, bular məni doladılar. Gəlmələri, xam adamları dolamax üçün olarnan "Ağa, gavalını yığdılar" oyununu oynuyardıx. Oyunun məzmunu belədir ki, guya uşaxlar xəlvəti ağanın gavalısını yığajaxlar. Ağa da tüfəngi alajax, çıxıf buları atajax. Xam adam ağa olurdu. Bunun gözünü bağlıyırdıx. Uşaxlar gavalını yığmağa başlıyırdılar. Ağa gələndə hamı qaçırdı. Ağa deyirdi ki, tüfəngi ver, tüfəngi ver. Çubuğun ujunu batırırdıx malın nəcisinə, verirdik bunun əlinə. Əlinə alanda əli nəcisə batırdı. Söyürdü ki, bu nə oyundu oynuyursuz.

Şuşada işdən sora cahıllar öz kruquynan yığılardı, birin gətirif salardılar ortaya, məzələnərdilər. Dəli tapmayanda da kənardan dəli gətirərdilər keflərini aşmağa. Şuşada centlmen kimi geyinənlər də olubdu. Gibo belə oğlanlardan biri idi. Bunun cırt-cırt eləyən bir çəkməsi olur. Bu, bir gün məxməri şalvar geyinir. Məhlədən keçəndə biri ordan deyir "məxməri Gibo, ay Gibo, şalvarı da var, ay Gibo". Bu ad o qədər yayılır ki, hara gedirdi hamı ona bu cür müraciət edirdi. Onu o qədər bezdirdilər, axırda Şuşadan qaçıb Bakıya gəldi.

Hər məhlədə bəzi adamlar evdə xüsusi it saxlıyır, bayramlarda boğuşdururdular. Ağcabədidə, İmişlidə heyvan saxlıyanlar yaylağa gedəndə gəlib Şuşadan keçirdilər. Döyüşdürmək üçün itləri çox vaxt olardan götürürdük. O itləri qaranlıq yerdə saxlıyardılar, evdə bir nəfər ona yaxınlaşar, yemini verərdi. Sallaqxanadan heyvanın qanlı tikələrini gətirib yedirdirdilər, onda daha aqressiv olurdu.

Döyüşdürmək üçün xüsusi xoruz sortu, əsasən də xeyratı xoruzlar saxlıyırdılar. Bizim məhlədə bu işlə Bahadur məşğul olurdu, yaxşı döyüşkən xoruzlar onda olurdu. O da Özbəkistandan gətirirdi. Bayramlarda, ara günlərdə mərc gəlib itləri, xoruzdarı döyüşdürürdülər. Cavannar hansının tərəfini tuturdsa, ona pul qoyurdu.

Bərk gedən məhlə bizim məhlə[9] olub. Hamı da bizimlə hesablaşırdı. Uşaq evləri var idi, hamı onlardan çəkinirdi. Onların kəsdiyi başa zaval yox idi. Onlar da bizim məhləyə girişə bilmirdi. Hər məhlədə bərk gedənlər bizim məhləyə yığışırdı. Məsələn, Ağadədəlidən Firdovsi, Qayabaşından Məmili, Cavanşir, Nuruş – bütün bərk gedən uşaqlar bizim məhləyə yığışardılar. Sarıbaş Telman, Kəllə Sabir bizim məhlədə bərk gedən oğlanlar idi. Çox vaxt da padstansiyanın yanında oturardılar. Elə bir məhlə idi ki, ordan kənar adam gəlib keçə bilmirdi. Hətta milisonerlər də ehtiyatnan keçirdi. Ağsakqala hörmətimiz olardı. Gəlib keçəndə bir paçka siqaret, ya da beş maat atırdı ortalığa ki, gedin özünüzə bir siqaret alın, ya gedin yeyin-için. Helə adama hörmət qoyurdux. O adam ki, özün çəkirdi, o adamın gecəsi-gündüzü olmurdu. Axırda bezib o məhlədən köçüb gedirdi.

**14.**

Evə qonax gələndə evdə uşaq olardısa, o uşağın biri də qonağın gözünə görükməzdi. Mənim atam kalxoz sədri idi, raykomdan gələn bizim evdə qonax olurdu. Bir dəfə biri dedi ki, Əvəz kişi, sən çox yaxşı, hörmətcil adamsan, amma sənin övladın olmadığına mən çox pis oldum. Deyif, bala, mənim altı dənə övladım var. Deyir, bəs bir belə gəlib gedirik, niyə onun birini görmürük surfanın qırağında?

**15.**

Qalalılara noxudsayan qalalı deyillər. Son vaxtlara qədər mən deyəndə ki, qalalıyam. Deyirdilər, noxud sayan qalalısan? Bu mənim çox pisimə gəlirdi, dinmiyif çıxıf gedirdim. Bir gün Firidun Şuşinski ilə görüşəsi oldum. Mən onda işdiyirdim vilayət kamsomol komitəsində. Firudun Şuşinski Turbazada qalırdı. Mənə dedilər ki, gedim onu gətirim Qarkoma[10]. Getdim, dedi, oğul, gəlmisən yaxşı eləmisən. Qoy mən bazarrığımı eliyim, sonra gedərik.

---

[9] Quyuluq məhləsi
[10] Qarkom – Şəhər Partiya Komitəsi

Gəldik bunnan bazara. Balaca bıçağı vardı. Qoyunun bir budunnan, bir dənə də belinnən üç balaca tikə kəsdi, götdü gəldi. Pletkası vardı, piti qabını qoydu, əti atdı, suyun atdı. Dedi, gedək, öz-özünə qaynıyajax. Noxudu da saydı qoydu ora. Dedim, Firudun müəllim, yaxşı yadıma düşdü, bizə noxudsayan qalalı deyirlər. Axı biz qonaxpərvərik. – Doğurdan da, iki məhrəba alanda birini saxlıyardıx ki, qonağ üçündü. İki pastel olanda biri cırılsa da, o birinə dəymirdik ki, qonağ üçündü. Ehtiyat varsa, onu işlədərdik, yoxdusa, qonağın pastelinə dəymirdik. Məhrəbası, sabını təzə qalmalı idi. – Dedi ki, bəs biz noxudsayan qalalıyıx da, onun bilmirsən sən? Gördün, ora neçə dənə noxud sayıf qoydum? Gördüm yeddi dənə noxud saydı qoydu suyun içinə ki, gələndə onu atajax piti qabına. Dedi, onu səkkiz dənə eləsəydim, pitinin suyunun rəngi dəyişəjeydi. Bozbaşın dadı olajeydi horra. Pitinin suyunun rəngi lalə kimi olmalıdı. Bir dənə artıq noxud bəs edir ki, pitinin suyu olsun bulannıx. Ona görə də noxudu sayıf qoymalısan.

**16.**

Qalalılara noxudsayan qalalı və ya pişiyi çarpayıya bağlıyan qalalı deyiflər. Yemək bişirəndə pişiyin ayağını çarpayıya bağlıyırmışdar ki, pişik gəlməsin. Nə deməkdi bunlar? Allah rəhmət eləsin, mən nənəmi görmüşəm, evdə yeməyi bişirən nənəm idi. Dörd nəfərlik bir ayilə idik, ayilə üzvlərinin sayına görə bozbaşın içinə noxud atardı. Daa sən götürüf ora xışmalıyıf noxud ata bilməzsən. Ona görə noxud sayılırmış. Noxudu çox eliyəndə noxudun təmi bozbaşı xaraf eliyirmiş. Şuşadan Ağdama köç eliyənnər noxudu sayıf bozbaşa atanda olara deyirmişdər ki, noxudu sayan qalalılardı bunlar.

Pişiyi də ona görə bağlıyırdılar ki, ağzını ətə vurmasın. Bizim camaat əti dəhrəynən döyürdü. Çölə çıxanda pişik ağzın ətə vurar və ya ətin içinə tükün tökə bilər, ona görə pişiyi çarpayıya bağlıyırdılar ki, əti mundarlamasın.

## 17. ŞUŞADA TOY ADƏTLƏRİ

Şuşada qız toyunun xərcini oğlan evi çəkirdi. Toydan qabaq oğlan evindən müəyyən adamlar gəlir, qız tərəfi də toy üçün lazım olan ərzaqların siyahısını ona verirdi. Buna *kəmləşmə* deyirdilər. Söyləyicilərin dediyinə görə, bəzən qız tərəfi bir şey tələb etməz, oğlan tərəfin öhdəsinə buraxırdı. Oğlan tərəfi də lazım olan ərzağı alıb qız evinə göndərirdi.

Şuşa toyunda maraqlı adətlərdən biri gəlinin gətirəcəyi cehizin qabaqcadan siyahısının tutulması idi. Allahverdiyev Oqtayin dediyinə görə, toydan bir neçə gün qabaq oğlan evinin yaxın adamlarından, ağsaqqallardan ibarət bir heyət qız evinə gəlirdi. Qız evindən də müəyyən adamların iştirakı ilə qıza alınmış cehizin siyahısı tutulur, həmin siyahı imzalanırdı. Siyahının biri qız evində qalır, biri də cehizin üstündə oğlan evinə gəlirdi. Gələcəkdə bir hadisə olurdusa və tərəflər boşanırdısa, o zaman qız tərəfinin nə gətirdiyi bilinirdi.

Qız toyuna *paltarbiçdi* deyilir. Oğlan evinin qıza aldığı bütün əşyalar çamadanlara yığılır, paltarbiçdidə həmin çamadanların ağzı açılıb alınan paltarlar bir-bir qonaqlara göstərilirdi. Paltarları oğlan evinin adamı – oğlanın bibisi və ya xalası göstərirdi. Səyyarə Abbasovanın dediyinə görə, paltarbiçdi üçün balaca nəmər torbaları tikirdilər. Torbanın içinə oğlan evindən gələn şirniyyat – peçenye, şokalad, noğul qoyulur, qırmızı lentlə bağlanırdı. Paltarbiçdiyə gələn qadınların hamısına həmin nəmərdən verilirdi. Söləyicilərin dediyinə görə, bir toyda ən azı iki yüz, üç yüz nəmər paylanırdı. Daha əvvəllər isə nəmərlər nəlbəkidə paylanırdı. Paltarbiçdi günorta saat birdə başlayır, qaranlıq düşənə qədər davam edirdi.

Oğlan toylarını əvvəllər şənbə-bazara salırdılar. Şənbəyə *cərmə gecəsi*, kənd yerlərində isə *ciyəraxşamı* deyirdilər. Allahverdiyev Oqtayin dediyinə görə, həmin gün meşədən ağac gətirib mağar qurulur, toy üçün hazılıqlar görülürdü. Həmin axşam kəsilən heyvanın içalatından yemək bişirilir, orada iştirak edən uşaqlara o yeməkdən verilirdi.

Gəlin, adətən, günorta saat birdə, çox az halda axşamtərəfi gətirilirdi. Gəlini gətirməyə bəyin qardaşı, əmisi və ya dayısı gedirdi. Gəlini gətirməyə gedəndə oğlan evinin adamı çalışardı qız evindən nəsə oğurlasın. Əsasən çaynik götürülür, daha fərasətli olanlar toyuq aparırdı. Bəzən ev yiyəsi müəyyən əşyalara qırmızı bağlayıb qoyurdu ki, aparanda onu aparsınlar.

*Bəy hamamı* olurdu. Allahverdiyev Oqtayin dediyinə görə, bəzi bəylər hamama səssiz-səmirsiz gedirdi, bəziləri də "Məşədi İbad" kinosundakı kimi çalğı ilə gedirdi. Bəy toy olacaq günün səhəri bəy hamamına gedir, bir də axşam gəlirdi. Bəyin yanında sağdışı, soldışı, yaxın adamları olurdu. Hamam xərcini, əsasən, bəy, bəzən də sağdış və ya soldış ödüyürdü. Hamamçıların da onda işləri yaxşı gedirdi.

Oğlan toyunda da, qız toyunda da iki mağar qurulurdu: yemək mağarı, oyun mağarı. Fərrac toya gələnnəri çağırıb dəstə-dəstə yemək mağarına aparır, onlar qurtardıqdan sonra o biri dəstəni aparırdı. Toy şənbə günü saat altıda, yeddidə başlayır, gecə birə, ikiyə qədər çəkirdi. Ondan sonra toy dağılır, səhər yenidən başlayırdı. Şəhər yerində isə çox vaxt bir mağar qurulurdu. Yemək yeyildikdən sonra mağar boşaldılar, çalğı başlanırdı. Kimsə toya gec gəlirdisə, ona kənarda yemək verilirdi. Toyda bir nəfər padşah seçilir, yanında fərraş olurdu. Fərraş padşahın verdiyi əmrləri yerinə yetirirdi. Qız-gəlinlər meyvə, şirniyatdan xonça tutur, üstünə qırmızı kəlağayı salıb toya gətirirdilər. Xonçaları çalğıçıların qabağına qoyurdular. İmkanı olan adamlar pulunu verib xonçanı camaata dağıdırdı.

Beş-altı yerdə sac asılır və yuxa bişirilirdi. Yuxada *oxleyyeriməz* verilirdi. Yuxa yayan toya gələnə deyirdi ki, oxley yerimir, yuxanı yaymır. Oxleyyeriməz ver, keç.

Toya hörmətli adam gələndə hörmət əlaməti olaraq ona qoyunun maçasını göndərirdilər. Əyyub Əbdüləzimovun dediyinə görə, qoyunun maçasını hər adama vermirdilər. Aşbazlar kimlərin tanınan, hörmətli adam olduğunu bilirdilər, maçanı xüsusi olaraq onlar üçün göndərirdilər. Həmin şəxslər də maçanı yedikdən sonra o vaxtın pulu ilə onluq, iyirmibeşlik verirdi. Toya sayılan adam gələndə

onun qabağına xüsusi olaraq xonça göndərilirdi. Xonçanın içində konfet, yay olanda doğranmış qarpızından tutmuş yemişinə qədər hər şey olurdu. Onlar da yeyib içdikdən sonra xonçanın içinə nəmər atırdı.

Gəlin oğlan evinə gələndə bəy gözə görünməzdi, gizlənirdi. Gəlin köçən qız qayınataya, qayınanaya, qayınlarına toxunma corab aparırdı. Oğlan evinin adamı üçgünlükdə gəlinə *boygörüncəyi* verirdi. Gəlin də özü ilə apardığı corabı, dəsmalı çıxarıb onlara verirdi.

## 18. ŞUŞADA NOVRUZ ADƏTLƏRİ

Şuşa rayonunda boz ayın gəlişi *yalançı çərşənbə* ilə başlayır. Yalançı çərşəndə dörd çərşənbədən əvvələ düşürdü. Şuşa şəhər sakini Mütəllim Hüseynxanovun dediyinə görə, həmin çərşənbə üç günün boz aydan, dörd günün ondan əvvəlki aydan aldığı üçün ona yalançı çərşənbə deyilir. Bu çərşənbədə ocaq qalanmazdı, amma ondan sonra gələn çərşənbələrdə hər kəsin qapsında ocaq qalanır və hər kəs də çalışırdı ki, onun qaladığı tonqal daha gur olsun.

Ölüsü düşən və ili çıxmayan ailələr Novruz bayramında *Qara bayram* verirdilər. Söyləyicilərin dediyinə görə, Orucluq bayramı qabağa düşürdüsə, Qara bayramı Orucluqda, Novruz bayramı qabağa düşürdüsə, Novruzda verirdilər. Qara bayram üçüncü çərşənbə ilə dördüncü çərşənbənin arasında keçirilirdi. Qəbirüstünə gedənlər səməni, xonça tutub aparır, bişirilən ehsandan qəbirin üstünə tökür (sonralar bu adət yığışdırılır), qəbirin yanından keçənləri ehsandan yeməyə dəvət edirdilər. Yası düşən ailələr də mütləq Novruz bayramını keçirməli idilər. Mütəllim Hüseynxanovun dediyinə görə, bacısı rəhmətə gedəndə qonşuları axır çərçənbədə ocaq qalamaq, qovurğa qovurmaq istəmirdilər. Onda anası özü binanın həyətində ocaq qalamış, sacı da üstünə qoyub demişdi ki, ay camaat, xahiş edirəm, bayramı keçirin. Bu bayram mənim qızıma aid deyil. Mənim qızımın yası ayrıdır, bu bayram ayrıdır. Hamını çağırmış, ondan sonra qonşular sac asıb buğda qovurmuşdular.

Mütəllim Hüseynxanovun dediyinə görə, axırıncı təkə *qapı satılan tək* deyilərdi. Yəni ev yiyəsinin qazan qaynatmağa qüvvəsi çatmırdısa, o vaxtı qapı çətin tapılırdı, evin qapısını belə satıb qazan qaynatmalı idi. Söyləyicinin dediyinə görə, o tək necə tutulursa, ilin axırına qədər də o cür gedirdi.

Axır çərşənbədə hər kəsin qapısında sac asılır, qovurğa qovrulurdu. Buğdanı qovurmazdan əvvəl subay uşaqların adına saca buğda atılır, hansı tez çırtdasa, deyərdilər ki, bu qız tez ərə gedəcək. Axşam süfrəyə “S” hərifi ilə başlayan yeddi nemət düzülürdü: su, səməni, süd, sünbül, səbzi və s. Qovurğanın içinə küncüt, çətənə, tut qurusu, qoz, fındıq ləpəsi, innab, badam qatılır, alınan qarışıma *xuşgəvər* deyilir. Çərşənbə axşamı üçün aş bişirilir, bişən yeməkdən qonşulara pay çəkilir, yanına da bir qab xuşgəvər qoyulub qonşulara göndərilirdi. Hamı da çalışırdı ki, qonşunu qabaqlasın, ondan qabaq öz payını göndərsin. Axşam tərəfi qapılara torba atılırdı. Torba atanların da payı ayrıca alınıb hazır qoyulurdu. Söyləyicinin dediyinə görə, indinin özündə də iki-üç ləyən bazarlıq eliyib qapının ağzına qoyur və heç kimin torbasını boş yola salmamağa çalışır. Qapıya atılan torbalar uşaqların valideynləri tərəfindən toxunur, ağzına da kəndir salınırdı. Uşaqlar torbanı qapıdan içəri atıb gizlənir, kəndirin ucunu da özlərində saxlayırdılar. Ev sahibi torbanı doldurandan sonra səslənir, uşaqlar kəndiri dartıb torbalarını götürürdülər. Hər torbaya mütləq boyaqlı yumurta qoyulurdu. Mütəllim Hüseynxanovun dediyinə görə, qapılardan yığılan neməti çox az adam evə gətirirdi. Çoxu onu yeməz, kim kasıb, imkansızdı, aparıb onun süfrəsinin üstünə boşaldırdı.

Kimin həyəti vardı, axır çərşənbədə həyətində yelləncək asırdı. Qızlar, oğlannar, hətta ata, baba, ana da gəlib yellənirdi.

Axır çərşənbədə *şar atırdılar*. Şar keçədən düzəldilirdi. Keçəni məftillə bağlayıb bir gün qabaqcadan neftin içinə qoyurdular ki, nefti canına çəksin. Çərşənbə axşamı qızlar, oğlanlar hərəsi özü ilə bir şar götürüb Xanlıq pəyənin yanındakı bulağın üstünə gedirdilər. Bulaq üstündə həmin şarı yandırıb havaya atırdılar. Yarışırdılar ki, kim daha hündürə ata bilir. Həmin gün hər kəsin qapısında

tonqal qalanırdı. Mütəllim Hüseynxanovun dediyinə görə, çərşənbə tonqalını meşədən qırıb gətirdikləri qarğıdan qalayırdılar. Qarğılar yananda düyümlərin arası partlayır, onun partıltısı ətrafa yayılırdı. Cavan oğlannar qonşunun qapısındakı tonqaldan tullanandan sonra gedib o biri qonşunun qapısındakı tonqaldan tullanırdı. Hamı tonqalın üstündən tullanır, ondan sonra gəlib süfrənin arxasında otururdu.

Səyyarə Abbasovanın dediyinə görə, yaşlı insanlar deyirdi ki, axır çərşənbədə saat on ikidə il təhvil olur. Söyləyicinin dediyinə görə, onların evinin altında çay var idi, sahili də çəmənlik idi, həmin əraziyə Qaraçılar yurdu deyirdilər. Çayın böyründə də bulaq var idi. Saat on iki olan kimi qızlar, gəlinlər, oğlanlar əllərinə məşəl alıb su üstünə gedirdilər. Qarmon, qaval götürürdülər, su başında çalıb-oynayırdılar, sulaşırdılar. Qızlar apardıqları xuşgəvəri, çərşənbə aşını bulaq başına qoyurdular. Kim qoçaq idisə, səhər tezdən gedib onun götürürdü. Səhər tezdən isə yenidən qız-gəlinlər səhəng çiyinlərində həmin bulağın üstünə gedirdi. Bulağın suyundan gətirib evin künclərinə səpir, yeməyə tökürdülər. Hamı o sudan içir, üzlərinə vururdu ki, su təzələnibdi.

Mütəllim Hüseynxanovun dediyinə görə, birinci torpaq çərşənbə gəlir, ona torpaq təki deyirlər. İkinciyə külək təki deyirdilər. Həmin çərçənbə mütləq külək olmalı idi. Onun dalınca burc təki gəlir. Külək gələndən sora yarpaqlar artıq tumurcuqlamağa başlayır. Burcun dalınca da su çərçənbə gəlir. Söyləyicinin dediyinə görə, Qara qayanın altında Hüseyn bulağı vardı. Qış girən gecəsi o bulağın suyu kəsilir, bir də axırıncı təkin səhəri həmin bulaqdan su axırdı. Nə niyyət tutulursa, həmin gün tutulurdu: insanlar qulaq falına, yumurta falına çıxırdı. Yumurta falını söyləyici belə nağıl eləyir: “Bir gün qonşumuz Zəhra arvad bizə gəldi ki, ay Salatın, sən allah, axırıncı təkdi, su çərşənbəsidir. Dadaş müharibədən gəlib çıxmayıb. Yumurta falına çıxaq, görək sağdırmı? Hüseyn bulağının yanında həştad santı dərinliyində bir çala qazdılar. Ağacdan yonma qabın içinə bir dənə yumurta qoyub, onun da ağzını dəmirdən düzəlmə boşqabla örtdülər, böyrünə də qırmızı, qara karandaş qoydular. Karandaşı kağıza bükmüşdülər. Bunların üstünü basdırdılar. Səhər ala-

qaranlıqdan durdular, dualarını oxudular, basdırdıqlarının üstünü aşdılar. Yumurta qırmızı yazılmışdı. Anam qayıtdı ki, Zəhra, muştuluğumu ver, yoldaşın sağdı. Ondan bir qədər sonra, doğrudan da, xəbər gəldi ki, kişi sağdı". Səyyarə Abbasovanın dediyinə görə, məktəbə girən ili qulaq falına çıxmışdı. Niyyət tutmuşdu ki, görsün bu il məktəbə girə biləcəkmi. Xalasıgilin qapısını pusur. Həyətdə tonqal qalamışdılar. Eşidir ki, xalası deyir biz kənddə tonqal yandırırdıq, alovu ucaldıqca ucalırdı, göyə qalxırdı. Həmən il, doğrudan da, texnikoma qəbul olunmuşdu.

## 19-21. XIDIR NƏBİ

Xıdır Nəbi qış yarı olanda keçirilərdi. Deyirdilər, canavarların kürsəyə gələn vaxtıdır. Həmin gün nənəmgil Xıdır kömbəsi bişirərdi. Fətir kimi dairəvi bişirilirdi. Əvvəlcə yarmanı sajda qovurdular, qaynadırdılar. Qaynadandan sora bir az yağ vururdular, şəkər vururdular, içinə qoz-fındıq ləpəsi qarışdırıb yayırdılar. Ləzzətdi olurdu. Kömbənin içinə bir dənə də düymə qoyurdular. Deyirdilər ki, kim onu tapsa, Xıdır Nəbi gecə gəlib onun yuxusuna girəcək, ona hədiyyə verəcək. Kömbəni təndirdə bişirirdilər. Təndiri qalıyırdılar, köz düşəndən sora közü oyurdular, kömbəni külün altına qoyurdular. Üstünə az-maz küldən səpirdilər, onun üstünə də köz qoyurdular. O formu bişirdi, qıpqırmızı olurdu. Onnan sora gətirirdilər, dilimlərə bölürdülər. O düymə kimin qismətinə çıxsa, Xıdır Nəbi onun yuxusuna girib ona hədiyyə verərdi[11]. Kömbədən, adətən, ikisin bişirirdilər. Birin qonum-qonşuya paylıyırdılar, birin ayilə üzvləri arasında bölürdülər.

---

[11] Gilətağ kəndində isə Xıdır Nəbi kömbəsinin içinə qəpik qoyulardı. Eynilə burda da kömbəni bişirmək üçün ocağın külünü sivirib qırağa yığardılar. Daha sonra kömbəni yerə qoyub üstünü küllə örtər, ocağın qalan közünü də üstünə yığardılar. Kömbənin iyi çıxanda onun bişdiyi bilinərdi. Kömbəni əllə bölüb ailə üzvləri arasında paylayardılar. Həmin qəpik qızın qismətinə çıxsa, deyərdilər ki, o, ərə gedəcək. Kişinin qismətinə çıxsa, deyərdilər ki, o, varlı olacaq.

**20.**

Pişiklər murova gələndə ona Xızır günü deyirlər. Həmin gün görürdün pişiklər hay salırlar, miyolduyullar, səsləri aləmi götürür. Həmin günü xəşil bişirərdilər. Xəşili bizim yerlərdə düyüdən də bişirirdilər, buğdadan da. Buğdanı dübəkdə döyürdülər, un eliyib, ondan sonra bişirirdilər. Xəşilin ortasına imkanı olan bal, olmayan yağ tökürdü. Həmin xəşildən uşaqlara da verərdilər, çölə pişiklərə də pay qoyardılar.

**21.**

Çox vaxt Xıdır Nəbi xaşılını qovutdan bişirirdilər. Deyilənə görə, Xıdır Nəbi qovut xəşilini çox sevir. Küplərdə ayrıca bəhməz saxlıyırdılar. Tapşırırdılar ki, ona əl vurmuyun, Xıdır Nəbi ayında xəşil bişirəjeyik. Xıdır Nəbi gələndə evdən mütləq xəşilin iyi gəlməlidir. O xaşıldan bir qava çəkib yükün altına qoyurdular ki, Xıdır Nəbi gələndə ona barmağın bassın. Deyirdilər, onda o il bolluğ olar.

## 22. QODU-QODU

Taxta çömçəni götürürdülər, bir qarış aşağıdan taxta qaşığı yanı üstə qoyurdular, üstünə də qırmızı parça bağlıyırdılar. Onu da gəzdirən adam, əsasən, yağış kəsdirmək və ya gün çıxartmaq üçün gəzdirirdi. Hərrənif deyirdi:

Qodu-qodu gördüyün varmı?
Qoduya salam verdiyin varmı?
Qodu gedənnən bəri
Qırmızı gün üzü gördüyün varmı?
Qodu batdı palçığa,
Qarmaladım çıxartdım.
Qara qaya divinnən
Bir qırmızı gün çıxartdım.
Qoduya salam vermək lazımdı,
Ona pay verin, qodu getsin.

Ev yiyəsinin də ürəyinnən nə keçirdi götürüb qoyurdu çömçənin içinə. Dəstədə qodu gəzdirəndən başqa, pay yığan da olardı. Verilən payları çiynindəki xurcuna atardı. Yeddi qapı gəzərdilər, görürdün, doğurdan da, ya yağış yağdı, ya da gün çıxdı.

## 23. TƏCRÜBƏDƏN ÇIXMIŞ İNAMLAR

Sərt qışlarda Araz donurdu. Onda insanlar buzun üstüynən o taya, bu taya keçirdi. Atam deyirdi ki, baxın buzun üstünə, harda tülkü ləpir salıb, qorxmuyun, atı-qatırı yüklüyün, keçin ordan. O hissənin buzu qırılmaz.

O vaxtı meşədən ağac kəsəndə onları ata, öküzə qoşub gətirirdilər. Atama deyirdim ki, atın gücün mən nətər bilim bu ağacı apara biləcək, yoxsa yox. Deyirdi ki, ağacın yoğun başın qucaqla, götür. Təkbaşına sinənə qədər qaldıra bildinsə, həmin ağacdan ikisin qoş ata, gətirəcək. Amma ağacı qaldıra bilmədinsə, üç-dörd adamla köməkləşib atı yüklədinsə, o zaman atı uçuruma verərsən.

Dağlarda qoyunları kəsillər, onların piyin əridillər. Avqustun beşinə qədər həmin yağ maye şəklində olur, avqustun beşindən sonra donur. Ona görə deyillər ki, quyrux donub. Həmin gündən sora havada sınmalar gedir. Atam deyirdi ki, mal-qaranı, atı itirmisənsə, quyrux donandan sonra dağdan yuxarıda axtarma. Arana doğru axtar. Quyrux donandan sonra soyux çəkəcək, heyvan özün verəcək arana tərəf. Amma avqustun beşinə qədər heyvanın itibsə, dağdan yuxarıda axtar. Üzü yuxarı gedəcəklər.

## 24-28. OVÇULUQ HAQQINDA

Bizdə Seyid Qurban vardı, yüzüncü ovu o görüb. Bizə deyirdilər ki, yüzüncü ovu vurmuyun. Yüzüncü ova güllə atanda ovçunun gözünə ovun bazu sümüyü görükür. Əgər ona güllə atarsa, onun mütləq ölüsü çıxacaq evdən.

Seyid Qurban çox güjdü güllə atan idi. Sürgəlbərə deyirdilər; beş nəfər gedib bərənin ağzında dururdu, üç nəfər də bu tərəfdən səs

eliyirdi, heyvanları bərəyə doğru qovurdu. Seyid Qurban bərədə durmuşmuş. Görür ki, əlik gəlir. Götürür ki, güllə atsın, tüfəngi yendirir. Yoldaşı deyir ki, seyid, niyə atmadın? Deyir, mənim gözümə bazu sümüyü görükdü, daha mən güllə atmıyacam. Qayıdır gəlir. Onnan sora uzun müddət güllə atmayıb. Bir gün bizim kəndin qabağında – güney qanadında canavar toxuyub heyvana[12]. Seyid Qurban beşaçılanı götürüb atır, canavar çıxıb gedir. Elə bilir ki, bunun atdığı güllə canavara dəymiyib. Özünə sığışdırmır, tüfəngi çevirib öz çənəsinnən atır. Həmin canavar da bir az irəli getmiş yıxılır. Gedib görüllər ki, güllə canavarın sinəsinnən girib kürəyindən çıxıb.

**25.**

Anamın babası Allahqulu məşhur ovçuymuş. Qoca arvadlardan bir nəfər, mən bilən Tamam arvatdı, yatır, yuxuda görür ki, bir qızdı, bir arvad. Maral öküzünün boynuna kəndir bağlıyıflar, kəndirin bir ucundan tutuf gəzdirillər. Bulara deyif ki, niyə belə eliyirsiz? Bu ov heyvanıdı, buraxın, getsin otdasın. Deyiflər ki, Allahqulunun balaları qırılsın, qoymur axı. Maralların hamısını qırıf, bunu da qoruyurux ki, bəlkə vurmuya. Tamam arvad səhər duruf öz yuxusunu danışır. Həmişə də deyirdi ki, maralları otaran arvadın qarğışı keçif, ona görə Allahqulunun balaları hamısı laldı.

**26.**

Bədnəzər adam qabağımıza çıxsa, həmin gün ova getməzdik, qayıdardıx dala. Xoşniyyət adam qabağa çıxsa, bilirdik ki, bu gün ovumuz olacax. Kənddə kim ova gedirdisə, vurduğu ovdan Seyid Xoşu nənəyə də pay verirdi. Elə adam yoxuydu ki, vurduğu ovdan ona pay verməsin. Qabaqcadan danışırdıq ki, sabah filan yerdə görüşək, ova gedək. Danışdığımız yerdə yığışıb ova gedirdik. Təzə ova başlıyannarı iki yaxşı ovçunun arasında saxlıyırdıx. İkimiz qıraxda durardıx, onu da gözdüyərdik. Yorulanda onu qoyurdux bərəyə. Özü də bir az onu qabaxda saxlıyırdıx ki, bunnan ov keçəndə atdığı güllə bizi tutmasın.

---

[12] Canavar heyvanın içinə girib.

Yay mövsümündə gedərdik bulağ üstünə. Şaxdan dəyə düzəldərdik, pusquda durardıx. Əliklər səhər, bir də axşam gün batabatda bulağa suya gəlirdi. Onda da təzə adamı həmişə qabağa buraxardıx. Bizə deyirdilər ki, mart, aprel, may ayları dişi heyvana güllə atmax qəti qadağandır. Çalışın dişi heyvana payızda güllə atın. Payızda subay olurdu. Çalışırdıx ki, axır çərçənbə qabağı əliyə gedək, evdə əlik əti olsun. Təzə ova başdıyannarı, yaxşı tüfəng ata bilmiyənnəri sürgələ qoşardılar, yorulanda qoyardıx bərəyə. Başa salardıx ki, harda güllə ata bilər, harda ata bilməz. Bəzən dörd-beş bərə ovlanırdı, onda vurduğumuz ov ətini sürgəlçinin yanına qoyurdux. Deyirdik, o biri bərəni də biz sürək gələk, burdan da çıxax gedək.

Ov belədir ki, kim çıxdı üstünə, qisməti var. Ovun ürəyi onu vuran adama çatırdı. Onu götürüb qoyardıx qırağa, qalanını bərabər bölərdik. Məsələn, beş nəfəriksə, qabırğanı beş yerə bölürük, budu beş yerə bölürük, qolları beş yerə bölürük. Bir nəfər üzünü çöndərir o yana, hərə bir əşyasını ona verir. O adam da üzü o tərəfə olduğundan həmin əşyaların kimə məxsus olduğunu bilmir. Həmin əşyaları payın üstünə düzür, hər kəs öz əşyasının qoyulduğu payı götürür. Yerdə qalırdı baş-ayağı, dərisi. Dərisin çox vaxt götürmürdük, başqası gəlib görə bilərdi, gedib xəbər verə bilərdi. O devrdə də ov etmək qadağan idi. Baş-ayağı da vuran götürürdü, kimə istəsə verirdi. Ovçu özünə nə qədər pay götürürdüsə, sürgəlçiyə, yolnan gedənə də həmin səviyyədə pay verirdi. İçalatın adətən orda bişirib yeyərdik. Ovu da heç vaxt tərəziyə qoymazdılar, günah sayılırdı.

**27.**

Sürgəlbərə eliyirdik, avı vururdux. Yoldaşlar arasında bərabər bölürdük. Beş yerə bölürdük, sora deyirdik, Rəfi, küs. Deyirdi, mən niyə küsürəm, payımnan küsüm? Deyirdik, yox, küs. Üzünü çevirirdi o tərəfə. Hərə bir əşyasın verirdi. O da üzünü çevirirdi, əşyaları payların üstünə qoyurdu. Hər kəs öz əşyası qoyulan payı götürürdü, əşya qoyulmayan da onun özünə çatırdı. Ovun ürəyinnən başı vuran adama çatırdı, qalan əti bərabər bölünürdü. Beş nəfər ova getmişsə, hər yüz metrdən bir biri dururdu, biri də gedirdi müəyyən məsafədən

səslənə-səslənə gəlirdi. Av səs olmayan tərəfə qaçırdı, bərədə duran adam da onu vururdu. Bizdə oktyabrdan aprelin axırına qədər ova gedilərdi. Onnan sora bulaq üstünə gedirdik. Bulaq üstünə ya tezdən gedirdik, ya da günortadan sora gedirdik. Av o vaxtı gəlir suya. Orda özümüzə ağacdan dəyə qurub gözdüyürdük, av gələndə vururdux. Bir ov da var qaramarıx gedirdik. Qaramarıx belədi ki, üç nəfər getmişik. Biri yüz metr o tərəfdən gedir, biri ortadan gedir, biri də yüz metr onnan aşağıdan gedir. Dinməz gedirsən. Onnan çıxan ovu sən atırsan, sənnən çıxan ovu o atır. Buna qaramarıx deyirdilər. Bala verən vaxdı ancaq təkəyə güllə atardıx. Donuz, dovşan əti yeyilməzdi. Ovluyardıx, özümüz yeməzdik, ermənilərə deyərdik, gəlib aparardılar. Bizim kənddə bir kişi olub. Yüz dənə heyvan vurub. Yüzüncüyə gələndə heyvan durub dal ayaxları üsdə qalxıbdı. Ona güllə atmıyıbdı.

Qırxlı kadın tüfəngin üstünə gəlirsə, tüfəng qırxa düşürdü. Onun qırxlığın götürürdülər. Çöldən tüfəngli gələndə evdə qırxlı uşaq varsa, uşağı çıxarırdılar, tüfəng evə girəndən sonra uşağı gətirirdilər.

**28.**

- Qurd yağından ayləni dağıtmaq üçün istifadə eliyirdilər. Qurdun daban yağını qurudub suya qatırlar, paltara vururlar və ya çörəyə qatıb yedirdirlər. Əgər qurdu vuran adam onu haramlayarsa (murdarlayarsa), təsirdən düşər.
- Qurdun ürəyini uşağa yedirirmişlər ki, qorxmaz olsun.
- Qurağı, əliyi, göyərçini vurmaq olmaz, deyirlər olarda peyğəmbər qanı var.
- Qırxlı uşağın üstünə gərək tüfənglə getməyəsən. Getsən, tüfəng qırxa düşər. Ya da qırxlı uşaqla tüfəngin üstünə gəlsən tüfəng qırxa düşər.
- Tək ov eləməzlər. Ova gedənlərin arasında möhkəm qayda olur. Başçının sözü o biri ovçular üçün qanundur. Sürəkçi səs eləyib ovu yuvasından çıxarandır. Bərəçi bərədə duranlardı. Xalis ovçular bərəçidir, zəif ovçular sürüyə gedir. Birinci dəfə ova gedən ov başçısının sözünə əməl eləməlidi. Əgər eləməsə, başçı onu qaytarır.

- Tülkü ova gedənin qabağına çıxsa, ov xeyirli olar. Ayağı ağır adam ova gedənin qabağına çıxsa, ova getməzlər. Duz günü ova getməzlər.
- Ova gedəndə gərək heç kimə xəbər eləmiyəsən. Ov yoldaşları şərtləşərdilər, filan mətədə görüşüb ova gedərdilər.

## 29-30. QIZIL TAPAN

Qızıl tapan adam gərək çığıra, qışqıra ki, hamı xəbər tutsun. Həmin qızıldan hər tərəfə səpsin, yoxsa başına hava gəlir. Bizim kəntdə bir məəllim tapbışdı. Bizim kəndin yeri çox qədim idi. Oranı ekiskvatora vermişdilər, bu da oranı düzdüyürdü ki, bostan əkə. Fəhlələr buranı qazan vaxtı bu görür kü, bir mejmahı çıxdı. Yeri qazannara deyir ki, dağılın gedin. Gejə camahat yatışan vaxtı gəlib açır ki, burda kalan qızıl var. O, həm çığırır, həm də o qızıldan tulluyur hər tərəfə. Bəlkə də ordan iki pud, üç pud qızıl tapır.

**30.**

Qızıl tapan adam fağır bir şəxsi sevindirməlidi. Ona qızıldan pay verməlidi ki, halal olsun. Belə eşitmişəm ki, biri aldığı evi uçurdanda divardan bir qab dolusu qızıl tapır. And içirlər ki, həmin qızılla özünə ev tikir, amma o evdə yaşamaq ona qismət olmur. Evi yanır. Qızıl mirasdı, heş kimə qalan şey döyül.

## 31. ZİYARƏTƏ GETMƏK

Ziyarətgaha getməmişdən əvvəl xüsusi adamlar var idi, gəlirdi kəndə, sifariş eliyirdilər ki, Məşədə gedənlər kimlərdisə filan günü yığışsın filan yerə. Bizim kənddən[13] qırx beş günə Məşədə gedirmişlər, üç aya Kərbalaya gedirmişlər, altı aya Həccə gedirmişlər. Xüsusi bələdçilər olurdu, o bələdçilər aparıb çıxarırdı ziyarətgaha. Kimdə qızıl varsa, o ziyarətə gedirmiş. Mütləq qızılın olmalıdır ki, sən o qızılla gedib çıxa biləsən ora. Biri deyirdi ki, mən

[13] Ağalı kəndi

Kərbalaya getmək istiyirəm. Ona deyirdilər, sənin, məsələn, dörd inəyin, qoyunun, atın olmalıdır. Bu deyirdi, məsələn, üç inəyim var, səkgiz qoyunum var, bir atım var. Deyirdilər, yox, sən Məşədə düşürsən. O adam deyə bilməzdi mən Hacca gedirəm. Onun imkanı əl vermirdi ora getməyə. Sora o birindən soruşurdular. Deyirdi, on dənə inəyim var, otuz dənə qoyunum var, nəyim var. Deyirdilər, hə, sən Hacc ziyarətinə gedə bilərsən. Bu adam altı aya gedib-gəlincə ayiləsi damındakı qoyundan, maldan istifadə eliyib dolana bilərdi. Hamısının miqdarını qoyurdular, ona görə gedirdilər. Hacca getmək üçün imkanın daha geniş olmalı idi.

## 32. DUALAR

Mən hər yola çıxanda, bir yerə gedəndə, birinci deyirəm: «Cumeyi-cənnət, nuri-Məhəmməd, paki-salavat. Allahu-məsəlla, ala Məhəmmədin və Ali Məhəmməd. Ya Əli, ya Məhəmməd» – deyirəm, üş dəfə üzümə salavat çəkirəm, gedirəm. Uzağa gedəndə də dalımcan su atıllar.

Allah eləməsin, kiminsə beyqafıl durduğu yerdə sudurqası olur, məsələn, deyillər, filankəs sappasağıdı, elə bil üstünnən saat addadı. Yanı, ağlı başınnan çıxır, özünü itirir, gözü yumulur. Onda anam rəhmətdih deyirdi:

Yataram sağıma,
Dönərəm soluma,
Sığınnam sübhanıma.
Bizdən salam olsun
On iki imamıza.
Hasarbahasar olsun,
Üsdü təbərrək Allah.
Mələhlər şahid olsun
Dinimizə və imanımıza.
Yeddi məleykiyə xəbər olsun.
Əvvəli Əlhəmdullah,
Kilidi qulfallah.

## 33. ETNOQRAFİK İFADƏLƏR

**Alışma** – Biri cöngə satır, mən də tək ala bilmirəm. On nəfər adam toplayırdım, deyirdim get cöngəni gətir. Kəsirdik, on adamın arasında alışma eliyib bölürdük. Hər hissəsini adamın sayına uyğun bölürdük. Məsələn, səkgiz nəfər ortaq olubsa, budu səkgiz yerə, qolu səkgiz yerə, ciyəri səkgiz yerə bölünürdü. Sora mala şərik olan adamların addarın bir kağıza yazırdılar. Kağızları qatlayıb bir nəfərə verirdilər, o da onları ətin üstünə qoyurdu. Hər kəs öz adının yazıldığı əti götürürdü, pulunu verirdi.

Bir də var ki, biri kasıbdı, onun vur-tut bir inəyi var. Bu inəyin başına daş dəyibdi, ya qıçı sınıbdı, saxlamax mümkün deyil. On-on beş nəfər yığılıf deyir ki, bu adam kasıbdı, gəlin bunu alışma eliyək, bölək. Pulunu yığax verək ki, bu adam heyvan alsın, ayiləsini saxlasın. Heyvanı kəsirdilər, ətini həmin adamlar arasında bölürdülər. Adama üş kilo, beş kilo ət düşürdü. Bazar qiymətindən də həmin ətin pulunu yığıb heyvanın yiyəsinə verirdilər, o da özünə yeni heyvan alırdı.

**Peşqurt gələnlər** – Şuşaya gələnnərə peşqurt deyirdilər. On bir ay aşağılarda işdiyirdilər, bir ay da gəlib Şuşada istirahət edirdilər, bir az da özlərini yekəxana aparırdılar. Onlara peşqurta gələnlər deyirdik.

**Qaradaban** – Anadan olduğum üç gün idi ki, atam əsgər gedir. Bibim ayağın ağzıma basıf deyif: "Qaradabandı, atasın qavandı. Qaradabandı, atasın qavandı". Məni günahlandırırdılar ki, sənin ayağın düşmədi, sən olannan sora atan əsgər getdi, müharibədən qayıtmadı.

**Hovgəldi** – Birinin bir hektar yeri olurdu, tək çala bilmirdi. O zaman hovgəldi eliyirdi. Dörd-beş nəfər qolugüjdü adamı çağırırdı ki, kömək eliyin, gedək o yeri biçək. Təkbaşına beş günə o yeri çalajaxdısa, köməkli bir günə çalıb qutarırdılar. İş görüləndən sonra yer yiyəsi bir heyvan kəsirdi, həmin adamlara yaxşı qonaxlıx verirdi.

Bizim kənddə[14] ev tikən adama hamı çalışırdı ki, köməklik eləsin. Mənim güjüm çatırdı, deyirdim buyün bu adamın evində fəhləlik eliyəjəm, daşına, palçığına kömək eliyəjəm. Və yaxud güjüm çatmırdı, on manat verirdim bir adama, onu göndərirdim. Yaxud neynirdik? O evin üstünə yemək bişirib aparırdıx ki, günorta çörəyini bizim hesabımıza yesinnər. Şırranda biri ev tikəndə camaat atnan – ona qara qoşun deyirdilər, – hovgəldi eliyirdi. Kənddən iyirmi-otuz adam hərəsi bir at verirdi, götürüb gedirdilər. O vaxdı da Laçının Qozdu kəndində əhəng yandırırdılar. Ordan əhəngi ata yüklüyürdülər, iyirmi adam da bunun yedəyini çəkib gətirib boşaldırdı ora. Əhəngi əridirdilər, onnan ev tikirdilər.

**Kömbə daşı** – Dəyirmanın içində yekə daş olurdu, ona kömbə daşı deyirdilər. Daşın qabağında ojağı qalıyırdılar, daş ojağın istisindən ağapbax ağarırdı. Dəyirmançı da təknəyə tökülən unnan bir ovuc, iki ovuc götürürdü, suynan yoğururdu, yastılıyırdı, yapırdı o daşa. Dəyirman kömbəsinə duz vurulmazdı.

**Xam atı boğmaq** – İki yaşın ortasında atın balasın örgətmək lazımdı. Kəmənd atıb atı tuturdular, yıxırdılar. Yıxannan sora onu boğurdular. İpnən o qədər boğurdular ki, gözü bərələ qalırdı. Başı gijəllənmiş şəkildə boşduyurdular, ayağa duran təki bir nəfər sıçrıyırdı atın belinə. Okqədər onu çapırdı, çapırdı... Burnuna da buruntax vururdular ki, qaçmasın. Çapdıxcan da, enli taxta olurdu, onnan döyürdülər. Onu da düz yerdə, geniş biçənəklərdə örgədirdilər. Qayalıx yerdə olmazdı, at qayadan özünü ata bilərdi. Ona xəflənmək deyərdilər. Qan-tərin içində örgədirdilər. Yorulurdu, yorulannan sora yumuşalırdı. Bir az keçirdi, bu səfər belinə çul atıb çapırdılar. O şəkildə atı örgədirdilər.

[14] Şırlan kəndi

# MİFOLOJİ MƏTNLƏR, ƏFSANƏ VƏ RƏVAYƏTLƏR

## 34. ALLAHIN ÖMÜR PAYLAMASI

Demək, deyir, Allah-taala ömür paylıyanda insannarı, heyvannarı çaarır ki, bu günnəri ömür verən günümdü. Nəysə, insan gəlir. Deyir, mən gəlmişəm, maa neçə il ömür verirsən? Allah-taala deyir ki, saa qırx il ömür verirəm. Bu dünyada nə varsa, hər şey sənin üçündü. Deyir ki, ey Allah-taala, bu boyda kainatı mənim üçün yaradırsan, qırx il mənim üçün azdı. Deyir ki, bax gör çöldə hansı heyvan gəlif, ona da ömür verim. Hansı atkaz eləsə, onun ömrünnən kəsim, saa verim. Nəysə, qapını açır, görür çöldə bir uzunqulaxdı. Bizim kəntçi dilində bir eşşəhdi. Deyir, gəl içəri. Gəlir içəri. Deyir, sən həmişə boğazınnan bağlı qalassan, insannara köməh eliyəjəhsən. Yediyin də insannarın qabaandan nə qalajaxsa, onu yeyəssən, onnarın yükün daşıyassan, odunun daşıyassan, belinə minəjəhlər, harasa səfərə çıxajaxlar. Qırx il də saa ömür verirəm. Eşşəh deyir ki, ay Allah, o boyda zülümnən mən neynirəm o ömrü? Deyir, bəs neçə il isdiyirsən? Deyir, iyirmi il mənim üçün bəsdi. Doğrudan da, eşşəh iyirmi il yaşıyır.

Nəysə, insana deyir ki, onun iyirmi ilini kəsif verirəm saa. Deyir, nolar. Deyir, bəsdimi saa altmış il? Deyir ki, yenə azdı. Bu qədər kainatı yaradıfsan, mənim üçün azdı. Deyir, bax gör orda ayrı kim var? Baxır görür ki, it dayanıf. Deyir, çağır iti, gəlsin. İt gəlir. Deyir ki, sən də boğazınnan bağlı qalassan, insannarın var-dövlətin qoruyassan, onnarın təhlükəsizliyinə baxassan. Boğazında zəncir olajax, hərdən açajaxlar, gəzəssən, amma daim boğazında kəndir olajax, insannara qulluğ eliyəssən. İnsannarın əlinnən qalan qırıx çörəyi yeyəssən. Qırx il də saa ömür verirəm. Deyir, maa qırx il ömür verirsən, daim də çöldə, bayırda olajam. Çoxdu, vallah, bu maa. Deyir, yaxşı, iyirmi il verirəm. İnsana deyir, götürürsən itin ömrünü? Deyir, götürürəm. Deyir, bəsdimi? İnsan acgöz olur, deyir, yox, yenə də azdı. Deyir, yaxşı, gör orda kim var? Baxır görür ki, bir dənə meymun var. Deyir, onu çağır içəri.

Meymun girir içəri. Deyir ki, sən meşədə qalassan ağacdarın başında. Sənin evin olmuyajax, yerin olmuyajax. Elə o ağacın başında, bu ağacın başında yaşıyassan, onların meyvəsin yeyəssən. Saa da qırx il ömür verrəm, get yaşa. Heş kimnən əlaqən olmuyajax, elə azad yaşıyassan. Meymun da deyir ki, yox, çoxdu. Qırx il ağacın başında olajam, o ömrü neynirəm? Deyir, yaxşı, iyirmi ilini götürüf verrəm insana, qoy insan yaşasın. Obşim, verir insana. Deyir, razısanmı? Deyir, razıyam.

İndi siz buna diqqətnən fikir verin. İnsan qırx yaşına kimi insan ömrü yaşıyır. Uşaxlar balaca, məytəbə gedir, ora-bura. İnsan kimi qırx ilini yaşıyır. Onnan sora gəlir eşşəh dövrü. Uşaxlar böyüyür, birini ərə verməh lazımdı, birini evləndirməh, toy eləməh lazımdı. Orda işdəməh, burda işdəməh, onu eliyim, bunu eliyim. İşdiyirsən, evləndirirsən. Keçirsən ikinci ömrə. Evlatdarı evləndiribsən, nəvələrin var. Evladının birinin evi yoxdu, birinin uşağı xəsdədi. İsdiyirsən gedəsən pul qazanasan, onnarın problemlərin həll eliyəsən, alınmır. Altmışı keçif day. Gəlirsən it kimi onun üstünə qışqırırsan, bunun üstünə çəmkirirsən, onu-munu dalıyırsan. Bu da itin ömru. Keçək meymun ömrünə. Övladların böyüh, nəvələr böyüh. Nəvələr minir belinə, səni meymun yerinə qoyur. Hə, baba, mənə mahnı oxu. Səksən yaşında, yüz yaşında kişi mahnı oxuya bilər? Mahnı oxuyur. – “Baba, gəl top oynuyax”. Ə, səksən yaşında kişi top oynuyandı? Hə, gəl qaçma-tutma oynuyax. Hə, bu da olur meymun ömrü.

## 35-36. CANAVAR HAQQINDA

Canavarın gözü çox iti görür. Canavar deyif ki, qaranlıq gejədə qara şumun içində qara quzunun qara ətini görüb yeyərəm. At da deyif ki, aydınnıx gejədə ağ südün içində ağ tükü seçərəm.

Qurddan söhbət edəndə gərək “xalasına nəhlət” deyəsən. Deyirlər onda guya ziyannığın qarşısı alınır. Deməsən, qurd hardasa ziyannıx törədəcək. Bir də qurd haqqında danışanda deyərdilər ki, yönü ayna, dabanı bəri olsun. İlan haqqında danışanda isə “xalasının dabanına nəhlət” deyərdilər.

**36.**

Canavar öz balasıynan gəzir. Baxıf görüllər ki, qoyun sürüsü gedir. Canavar balası anasına sual verir ki, o gedən nədir? Anası deyir ki, qoyun sürüsüdü. Deyir ki, onlar neçə bala verillər? Deyir ki, bir dənə. Deyir ki, bəs biz neçə dənə bala veririk? Deyir:

– Beş dənə, altı dənə.

Deyir:

– Bəs ana, biz niyə belə sürü ola bilmirik?

Deyir:

– Bizim içimizdəki bu xayınnıx ki var, bizi heç vaxt qoymur bir araya gələk.

## 37-38. QARAÇUXA

Qaraçuxa[15] var. Birinə bir bəla üz verəndə, bir çətinniyə düşəndə deyillər, yəqin qaraçuxan yatıb sənin. Hər bir insanın ona xoşbəxtlih gətirən ikinci bir siması, qoruyanı var. Qaraçuxanı şadlandırmaq üçün ona bir şey bişirirəm, əsas da halva. Bişirdiyinnən yeməli döölsən. Deyirsən "munu qaraçuxanın adına ehsan edirəm, vacibən, qürbətən illəllah". Onnan ayilə üzvlərinin heç biri yemir. Çölə qoyursan ki, onu qurd-quş yiyib aparsın. Qaraçuxaya ehsanı istənilən gün deməh olar, amma cümə axşamı, cümə günü daha yaxşı olar.

Bulardan əlavə, bizim qoruyucu mələylərimiz var sağ, sol çiynimizdə. Mələylərin eşqinə, onları şaddandırmaq üçün "Yasin" oxutdurursan. Baxıcı-zad yanına gedəndə də, görürsən, deyir, qoruyucu mələhlərə "Yasin" oxutdursan, işin düzələr.

**38.**

Biz tərəflərdə yay evi olurdu, qamışdan hörürdülər, qıraxların da qara palçıxnan suvuyurdular. Ora sərin olurdu deyə gecə yayda hamı orda yatırdı, günüzü orda keçirirdilər. Evin içinə o qədər də

---

[15] Cəbrayıl rayon sakini Xudiyeva Fizzəgülün dediyinə görə, Qaraçuxa evin kişisinə deyərdilər. Bir arvadın əri vardısa, deyərdilər ki, qaraçuxan var, deməh, başının sahibi var.

girmirdilər, bir də payızda, havalar sərinniyəndə evin içinə girərdilər. Anam rəhmətdik deyirdi, gecə orda yatmışıx. Atan da axşamdan siqareti çəkər, yaxşı söndürməz. Siqaretin kötüyündən yorqan alışar. Bir də gördüm evin divarı yarıldı, bir kişi çıxdı. Dedi ki, Əntiqə, dur ayağa, uşaqlar yandı. Durdum gördüm yorqanları alışıb. Yorqanı götürüb atdım çölə. Baxdım ki, kişi getdi həmin divarın yarığına girdi, divar bağlandı. Anam deyirdi, bizim evdə sonralar nə mundarçılıx olubsa, o kişini daha görmədim.

## 39. YEDDİ QARDAŞ İLAN

Bir oğlan sahədə işdiyəndə görür ki, ilan var. İlanın birini öldürür, sora o birini öldürür. Bu minvalnan dördün-beşin öldürür. Sora başa düşür ki, qızıl ilan yeddi qardaş olur, kənddən çıxıf gedir. Deyir ki, çıxım gedim, bu ilan mənnən əl çəkmiyəjəh. Veş-vüşün yığır, götürüf gedir. Getdiyi vilayətdə baxır ki, həmin ilan da gəlif bura çıxıfdı. Bu hər şeyi odduyur, ilan da içində yanır. Rəvayətə görə, ilanın bir sümüyü qalmışmış külün içində. Batır oğlanın ayağına, onu öldürür. İlan da qisasın belə alır.

## 40. İLAN DAVASI

Tatar[16] kəndində Alməmməd kişi varmış, dəyirmançı işdiyirdi. O rəvayət eliyirdi ki, bir gün dəyirmanı işdədirəm. Gecə qapının dalına lomu saldım, bir qədər dən töküb başımı qoyub yatdım. Gecənin bir yarısı gördüm kü, qapı basıldı, lom düşdü. İlanlar gəlib doldular dəyirmana, tirlərin üstünə. Deyir, qorxumdan yerimdən tərpənmədim, amma gözüm baxır. Biri ağ ilan idi, onların başçısı idi. Tri kəndində palaçı[17] vardı, ilanın biri gedir palaçının qapısını buduyur. Palaçı çıxır, görür ki, ilandı. Palaynan onların hamısın Arazdan keçirir, aparır tökür İrana. Tatar kəndində Sofu Vəliqulu

[16] Zəngilan rayonunda kənd
[17] Palaçı – bərəçi

kişi olub. Səhər Alməmməd gedir sofunun yanına, başına gələn hadisəni ona danışır. Sofu buna deyir, yaxşı ki, dəbərməmisən. Dəbərseydin sənin bir tikən qalmıyaceydi. Onlar müharibəyə gedirlər. Bir müddətdən sora həmin ilannardan biri Arazı addıyıb suynan gəlir palaçının qapısını buduyur. Palaçı gedib onları çaydan bu üzə keçirir. Görür birinin quyruğu yox, birinin nə bilim nəyi yox.

Həmin Vəliqulu kişinin ocağına ilan gəlirdi. Gedirdin ki, külün ortasında ilan qıvrılıb yatıb. O rəhmətdik deyirdi, "ay ilan, çıx get, biz işimizi görək", onnan çıxıb gedirdilər. Daha onları öldürmək olmazdı. İlan çalan olanda onun üstünə gətirərdilər, o, yaraya tüpürərdi. O öləndən sora oğlanları içki işdilər, ondan sora o ocağa daha ilan gəlmədi.

## 41-42. HAL ANASI

Deyilənə görə, keçmiş devirdə hal deyilən bir canlı olufdu. Deyilənə görə, o, insandı, ancax formasına görə başqa kadınnardan tanınır. Bu hər yerdə oluf, eyni zamanda bizim Mirik[18] kəndində də. Ana babamın adı Məşədi Qələndər olufdu. Məşədi Qələndərin başına belə bir hadisə gəlif. Hardasa bir halnan rasdaşıf. Bunun da belə xüsusiyyəti varmış ki, halı ki tutdun, gərək qorxmuyasan. Cəsarət eliyif iynədən, sancaxdan onun üstünə taxdın, hal oldu sənin əsirin. Ta yalvar-yapış eliyir ki, bunu çək, nə deyirsən verim, nə isdiyirsən verim. Məşədi Qələndər də çəkmiyif. Gətirif evə, ayilə üzvünün biri kimi neçə illər babamın evində yaşıyıfdı. Babamgil onu incitmiyif, əziyyət vermiyiflər. Hər işi də görürmüş. Çörək bişirirmiş, su gətirirmiş. Bizim kənddən on kilometr aralıda Altəpə deyirdilər, tərəkəmə yoluydu, ferma ordan gedirdi. Tərəkəmə fermanın qoyunun yatızdırıf, qoyunun icində də on kilo, on iki kilo ət verən əmlik quzular var. Gecənin bir vaxtı hal deyir, gedim onu gətirim. Deyirmişdər ki, kadınsan, getmə. Deyirmiş yox e, mənimcün fərq eləməz. Gedirmiş, heç bir saat çəkməzmiş, bir karrı əmlik quzunu gətirirmiş. Gejə olsun, günüz olsun onun üçün fərqi yoxmuş. Hər işə gedirmiş.

[18] Laçın rayonunda kənd

Bir necə il kecənnən sora, – evdə bir kəs yoxumuş, – balaca uşağa deyir ki, əlim çatmır, üsdümdəki iynəni çək. İynəni sancıf sapnan sarıyırmışdar. Çəkəndən sora artıx bu azatdı. Heş bir şeynən onu geri qaytarmağ olmaz. Gəlifdilər ki, evdə yoxdu. Məlum olufdu ki, uşağ iynəni çəkif. Axşam hərrənif gəlir. Orta bacalı dam deyirdilər, o vaxdı hamı damda yaşıyırdı, indiki kimi qapılı, pəncərəli otaxlar yoxudu. Gəlir çıxır damın bacasına, bunlarnan salamlaşır. Deyir, Məşədi Qələndər, neçə il məni saxlamısan, çörəyini yemişəm, suyunu işmişəm. Mana halallıx ver, gedim. Məşədi Qələndər xayiş eliyir, ayilə üzvləri yalvarır, deyir:

– Yox, kecəl suya gedən deyil, daha gəlmərəm. İndi azadam, ancax gərək siz mana halallıx verəsiz, mən gedəm. Mənnən nə istiyirsən istə, amma mana halallıx ver.

O vaxdı da deyilənə görə, onnan nə isdəsən, hamısını hazır eliyif verərmiş. Məşədi Qələndər də qeyri şey isdəmiyif. Deyif, sən and iş ki, sənin yeddi arxa dönənində zahı olannan işim olmuyajax, onnan sora mən halallıx verim sana. Deyir, Məşədi Qələndər, söz verirəm. Sənin yeddi arxa dönəninnən mənim heç bir işim olan dəyil. Məşədi Qələndər deyir ki, elə dəyil. Sən ananın südünə and iç. Onnarın da müqqədəs andı anasının südü oluf, deyilənə görə. Deyif, Məşədi Qələndər, anamın südünə and içirəm ki, sənin yeddi arxa dönəninnən mənim işim olmuyajax. Bunnan sora Məşədi Qələndər halallıx verir. Xudafisdəşir, isdiyir ki, gedə, deyir, Məşədi Qələndər! Məşədi Qələndər deyir, nədi? Deyir, neçə il siznən yaşadım, niyə mənnən soruşmadın ki, baş ağrısının dərmanı nədi, sarımsax nəyə dərmandı, bir də cavan ölmağın dərmanı nədi? Bunları mənnən soruşmalıydın sən. Deyir, bilməmişəm də, avam olmuşam. İndi denən. Deyir, yox, demərəm. Nə qədər yalvarır, deyir, mənim andımnan əvvəl soruşsaydın, deyərdim, amma indi demiyəjəm. Onu demir, çıxır gedir. Onnan sora Məşədi Qələndərin ojağınnan çıxan nə qədər qızdar, gəlinnər, kadınnar olufsa, çölü-biyabanda tək-tənha xəsdələnərsə, bunların xəstəliyi qorxusuzdu. Heş bir şey olmur.

**42.**

Mənim qoja nənəm Qalaboyunnandı[19]. Qoja nənəm hamileymiş. Hamı gedif karvana. Bu bir iti gətirir bağlıyır, dərəvə[20] deyirmişdər, onun dalına. Bu gəlir zahı yatır, bir oğlu olur. Görür kü, əv silkələnir. Baxır ki, bajadan nəsə sallanır. Elə hey "mana od ver, mana od ver, mana od ver" deyir. Bu, deyir ki, sallan, verəjəm! Hal yenəndə əl atıb boğazındakı boyunbağısın qırır. Hal yalvar-yaxar eliyir ki, bir babaqulu, bir göyərtmə ver gəlsin, ver gəlsin! Deyir ki, yox, vermiyəjəm! Ta görür kü, bunnan əl çəkmiyajax. Halı dərəvənin dalına göndərir, it onu parçalayıf öldürür. Səhər ertə anası deyir ki, bu gejə mənim qızımın işığı yanmadı, tüstüsü çıxmadı, bəlkə onun başına bir iş gəlifdi, gedax gorax. Bu gələndə deyir, ana, gəl, amma qorxmaginən! Gəlir ki, döşü-başı yekə bir arvatdı, it parçalayıf öldürüf. Deyirdilər ki, onun neçə adam çəkib qoymuşdu çölə. Ordan götürüv aparmışdılar.

Əlimdəki babaqul var ha, həmən haldan qalan babaquldu. Onu qayınanama qayınanası bağışlıyıf, o da mənə verif. Qırxı çıxana qədər uşaqların üstündə olur, ondan sora qüsul verib uşağı salavatdıyıram, onu da götürüb saxlıyıram. Onu uşağın üstündən asanda uşağa bədnəzər dəymir, xəstələnmir.

## 43. ƏJDAHA

Bir kişinin qardaşı rəhmətə gedir, oğlu qalır. Əmisi saxlıyır uşağı, bunun da eyni yaşda qızı olur. Bular bir yerdə böyüyüllər, bir-birilərini sevillər. Bir gün oğlan deyir ki, əmim bizi qardaş-bajı kimi saxlıyıb, bir-birimizi sevdiyimizi bilsə, bizi öldürər. – Kişinin iki dənə dəvəsi olur: biri ana dəvə, biri bala dəvə. – Dəvənin birini minəh, gedəh.

Gecə özdərinə azuqə-zad topluyullar, minillər bala dəvənin belinə, gedillər. Su götürüllər, çörəh götürüllər, gedillər. Gecə bir vaxdan sora dəvə başdıyır anqırmağa, səs salmağa ki, bəs balası

[19] Kəlbəcər rayonunda kənd
[20] Dərəvə – əl damı

yoxdu. Kişi ayılır ki, bəs qız da yoxdu, oğlan da yoxdu. Durur ana dəvəni minir, buların dalısıycan. Bular day uzaxlaşmışdılar. Kişi qışqırır ki, getmə, bilirəm, siz bir-birinizi sevirsiniz. Mənim də elə fikrim beləydi, getmə, dayan. Oğlan görür ki, kişi tay çatajax. Onun mindiyi ana dəvədi, bərk gedir. Qız deyir ki, tuluxda su var. Onu töh yerə. Dəvə isdilənif, suyu görən kimi dayanajax. Oğlan bıçağı çıxardır, tuluğu dəlir, su tökülür. Həmin dəvə tuluğu görən kimi yatır suda. Kişi nə qədər eliyir, dəvə qalxmır. Kişi də piyada çata bilmir.

Nəysə, bular gəlillər, meşəyə girillər, bir bulax başında oturullar, yeyillər, içillər. Qız deyir ki, sən yat, mən saa baxım da, gözdüyüm. Dəvəni buraxıllar, özdəri də bir bulağın başında. Deyillər, yornuğux dana, dincələh. Oğlan oturur, qız başını qoyur bunun dizinin üstünə, yatır. Bir də görür bir yekə ilan – əjdaha gəlir. Ağzını suya diriyir, o qədər böyüh olur ki, bulağın suyun qurudur. İçir, doyur. Əyax tərəfinnən başdıyır qızı udmağa. Oğlan da qalır belə don vəziyyətdə. Qızı dizə qədər udanda qız ayılır. Ayılır, oğlana deyir ki, ədə, belində qılınc var, xançal var, qurtar məni. Ver mənə, heç olmasa əlimdə tutum, məni udsa, ağzın kəsəjəh dana. Oğlan qorxusundan bir şey edə bilmir. Əjdaha bunu sinəsinə qədər udur. Qız əllərini qaldırır, deyir:

– Köməh elə dana, day məni udur.

Nə qədər qız yalvarır, oğlan ayağa qalxmır, donmuş vəziyyətdə qalır. Qız deyir:

– Sən ki məni qutara bilmirsən, qoy elə ilana da qismət olum.

Əllərini belə qaldırır, ilan bunu udur. Qızı udannan sora ilan gedir yoğun ağaca dolanır. Qarnında qızın sümüklərin qırır ki, yanı həzmə gessin də. Hə, oğlan çıxıb gəlir. Bu olmuş əhvalatdı. Deməh, mamamın atası Xanlar kişi, bir də qardaşı İmaməli Dərələyəz tərəfə el dağa gedən vaxdı bir yerdə çörəh yeyirmişdər. Görüllər bir adamdı, amma sakqal basıb, pis gündədi. Deyillər, bala, nooluf, dərdin nədi? Gəl otu. Buna yaxşı yeməh-zad verillər, yedizdirillər, içizdirillər. Danışır ki, bax başıma bu işdər gəlif, ona görə belə günə düşmüşəm. Bu əhvalatı həmən oğlan İmaməliynən babama danışıf. Bu olmuş işdi.

## 44. ƏJDAHA DAŞI

Dağtüməzdə hündür dağların birində bir lay daş varıdı. Bu daş özünnən havaya qalxırmış, çökürmüş. Bir də deyiflər ki, görən bu nə sirdi də, daş qalxıf çökür. Orda dünyagörmüş seyid varmış. Deyif ki, başına dönüm, bəs filan dağda belə bir daş var, böyrünnən keçirsən, həyəcan bürüyür səni. Seyid deyif, daşın altında əjdaha var. O, başı ağrılıdı, ona çələbi qarğış eliyifdi. Hər nəfəs alanda daş qalxır, yenir, qalxır, yenir. Camaat deyif, gəlin o daşı dağıdax, o əjdahanı öldürək. Deyif, yox, onu tərpətmək olmaz. Əgər əjdaha daşın altınnan çıxsa, ətrafda bir insan qalmaz. Qoyun helə də daşın altında qalsın.

Elə həmən daş biz bura gəlincən orda dururdu. Süpürgə-zad yığmağa gedəndə görürdük həmən daş qalxır, yenir.

## 45-46. KAFTAR

Bizim dağ yolunda Ağagorru deyilən yer var, dağda ölənnəri kəndə gətirmirdilər, Ağagorda dəfn eliyirmişdər. Orda da goreşən varmış, qəbiri eşirmiş. Bir çoban varmış. Qardaşı ölür. Deyir, mən qoymuyacam qardaşımı goreşən aparsın. Gecə gəlir qəbirstannığın yanında qaroul çəkir. Əlində bel gözdüyür. Gərək onu qəbirstannıxda işlənən alətnən vurasan. Başqa alətnən vuranda guya ölmür. Bu görür ki, goreşən gəldi qəbiri eşdi, meyidi götürdü, qoydu başdaşının üstünə. Arxaya getdi ki, sürətnən gəlib kəlləynən meyidi vursun. Çoban meyidi götürüb qoyur daşın dalına, ağı salır daşın üstünə. Goreşən o yannan hijminən gəlir, kəlləsin vurur daşa, başı partdıyır, ölür. Səhərə qədər qalır orda, gözdüyür. Səhər camaat gəlir, meyidi təzədən basdırıb gedillər.

## 46.

Məti kişi Bartaz kəndinə yağ, şor, pendir aparır satmağa. Şələsin doldurur, xurcunun atır çiyninə, gecəynən aparır ki, Bartazda satsın. Xanazırdan keçəndə görür kaftar yeri eşib meyidi çıxardıb

diriyib ağaca. Aralıdan gəlib qoç kimi onun başına kəllə vurur. Kaftar da bilirsən ki, ilik yeyəndi. Biz o kaftarı əfsanəvi heyvan bilirdik. Amma sora kəndimizə kaftar gəldi, bildik ki, kaftar da xallı bir yırtıcıdı. Eşşəkdən balaca, itdən yekə xallı heyvandı. Sifətdən itə oxşuyur, amma itdən yekədi. O insanın beynin yeyir, qoyunun quyruğun yeyir, bir də keçinin beynin yeyir. Dadanmışdı bizim kəndə. Gəlirdi girirdi ağıla, keçini tuturdu, başın vururdu divara. Səhər tezdən dururdux, görürdük keçi ölüb, bir dənə başı paralanıb, iliyini yeyib gedib. Səhər gəlib görmüşük Səlim dayıgilin tövləsində qanaxmadan erkək ölüb, bir dənə quyruğunu didiblər. Onda dedilər ki, kaftardı. Deməli, kaftar divara diriyib, kəllə vurur. Məti kişi baxır, baxır, baxır, qorxur. Ordan qayıdır kəndə. Bir müddət qızdırma içində qalır, sora da ölür.

Qəbir üstündə üç gün dalbadal ocax qalıyırdıx ki, kaftar gəlib onu eşməsin. Meyidin spesifik iyi var, kaftar da o iyə gəlir. Ocax yananda külün, tüstünün iyinə onu hiss eliyəmmir, ona görə gəlmir.

## 47. RÜSTƏM ZAL

Peyğəmbər əleyhsalam vəhnən Allahdan xayiş eliyir ki, mən Rüsdəmi Zalı görmək isdiyirəm. Allah-taala deyir ki, qarşıya bax. Dağın birin götürür qoyur o biri dağın üsdünə. Deyir, o Rüsdəmi Zaldı. Deyir, yox, özünü görmək isdiyirəm. Gətirir bir dağı da qoyur üsdünə. Peyğəmbər atdan yuxarı baxır. Deyir, yox, mən Rüsdəmi Zalın özün görmək isdiyirəm. Deyir, yaxşı, görmək isdiyirsənsə, gösdərərəm. Rüsdəmi Zalı gösdərir buna. Rüsdəmi Zal görkəminə görə, atına görə çox seçilmiş şəxsiyyətdərdəndir. Deyir ki, ya peyğəmbər, torpax o qədər qocalıb ki, atımın ayağı yerdə durmur. İcazə ver mürəxxəs olum. Bu o deməkdir ki, dünya nə qədər qədimdi.

Babam deyirdi ki, insan fikirrəşmir ki, hər dəfə torpağa ayax basanda ayağı yeddi gözəlin gözünə düşür. Demək, dünya o qədər doluf boşalıf, o qədər yeni nəsillər gəlib gedib ki, indi hər ölünün üstünə yeddi ölü düşür.

Rüsdəmi Zalın bir qızı olub. Bir gün qızına deyir ki, sənin on beş yaşın çatıf, evdə oturmağ olmaz. Sən gərək kimnənsə ayilə qurasan. Deyir, ata, kimnən? Deyir, nə bilim, baxarsan. Bura pəhlivannar gələcək, bəylər gələcək. Baxginən, hansın bəyənsən, səni ona verəcəm. Deyir, yaxşı.

Gətirir bir dənə fərş salır yerə. O vaxdı yerdən oturarmuşdar. Deyir, oturun. Oturullar. Elə ki, hər şey hazır olur, yeyillər, içillər. Qız fərşin bir qulpunnan tutur, belə qaldıranda hamı yıxılır fərşdən, bir dənə atası qalır üsdündə. Deyir, ata, buların hansına gedim? Axı buların heş birisi sənnən müqayisəyə gəlmir.

## 48. MUSA PEYĞƏMBƏR

Bir qoca varmış, bir çətən külfəti varmış. Külfətin çətin dolandırırdı. Cüt əkirdi, kol vururdu, hər bir iş görürdü ki, axşama bir qazancı olsun. Qoca başı aşağı atın dalıncan gəlirdi. Musa deyir ki, ey xudavəndi-aləm, bu qocaya nə qəzəbin tutufsa, genə mənim xətrimə ona rəhm elə. Deyir:

– Musa, indi ki sən xayiş eliyirsən, de ki, getsin Yasamaldan almanı alsın bir manata, Montin bazarında satsın iki manata. Amma bu şərtlə ki, atına beş put əvəzinə on put yühləsin, yüz kilo əvəzinə, iki yüz kilo yühləsin.

Musa peyğəmbər deyir:

– Allah-taala, axı bu at on putu götürməz.

Allah-taaladan səda gəlir ki, ya Musa, nətəər olur, sən bir atın normasın bilirsən, mən kimə nə lazımdı, onu bilmirəm?

## 49. FATMA ANANIN NƏZİRİ

Bu[21], Fatma ananın nəziridi, heç vaxt da yerdə qalmır bu nəzir. Ağır nəzirdi. Hər adam onu həll eliyib ortaya çıxarda bilmir.

Deyilənə görə, qurban olduğum Fatma ana balalarıynan yezidlərə əsir düşür. Yezidlər bulara yemək vermir, balaları aj olur. Zəmi-

[21] Söyləyici hazırladığı halvanı nəzərdə tutur.

nin kənarından keçirmişdər. Görüllər buğda yetişib, dənələri tökülüb yerə. Onu yığır, gətirir suda cücərdir. Sora onu daşın üstündə döyür, ojax qalıyır, bunu bişiririr, verir uşaxlara. O vaxdan indiyənə kimi bu nəziri kim verir, arzusu yerdə qalmır. Mən özüm nəkqədər nəzir demişəm, arzum yerdə qalmıyıf. Hazırlanması belədir ki, buğdanı üç gün saxlıyırsan ləyəndə suyun içində. Üş günnən sora buğda ujunnan ağ dit verir. Onu götürüb tökürsən meşoğa. Gündə neçə dəfə onu yuyub, təmizdiyib meşoğa tökürsən. Buğda saçax atır, ona şirinliyi verən də o saçaxlardı. Üç günnən sora meşoxdan çıxardıb sərirlər padnoslara. Onun da üstünü möhkəm basdırırlar ki, ot atmasın. Bir qram yaşıl otu çıxdısa, ajı olur. Bu halvanı may, iyun aylarında bişirərdilər. Yayda əməl yemir[22], qışda isə kif atır. Bu halva doqquz günə başa gəlir. Oğlumun uşağı olmayanda, nəvəm universitetə sənəd verəndə nəzir eləmişdim, hamısı da gerçəkləşdi.

## 50. İMAM HÜSEYN VƏ AHU BALALARI

Bir gün peyğəmbərimiz gördü ki, bır səyyad əlində bir ahunun balasın gətdi, verdi İmam Həsənə. İmam Həsən sevindi, başdadı bunnan oynamağa. İmam Hüseyn ağa da, balaca uşaqdı da, başladı ağlamağa. İki əyağın yerə vurub ağlıyır ki, tez olun maa da ahu balası alıb verin. Həsənin var, mənim yoxdu, maa da verin. Peyğəmbərimiz qaldı belə: “Mən gedim indi hardan alım gətirim?” Bu vaxt çöldə, deyir, ahunun iki balası vardı, doğmuşdu. Birin səyyad oğurruyuf gətirif vermişdi İmam Həsənə, birin də ahu çöldə o biri döşünə alıb əmizdirirdi. Cəbrayıl əleyhsalam gəlir, deyir:

– Ey ahu, sənin bir balan İmam Həsənin əlindədi, bu balanı da apar İmam Hüseyn ağa üçün. İmam Hüseyn ayaxların yerə döyüb ağlıyır. – Deyillər ərşin bir dirəyi İmam Hüseynin çiynindədi, bir dirəyi də İmam Həsənin. – Əgər İmam Hüseyn çox ağlasa, ərşin dirəyi uçajax. Tez apar, baloon birin ver İmam Hüseynə.

Ahu, deyir, öz balasın qatır qabağına, qaça-qaça, qova-qova gətirir peyğəmbərimizin yanına. İmam Hüseyn də ağlıyırdı, pey-

[22] Əməl yemir – başa gəlmir

ğəmbərimiz də naəlac qalmışdı. Deyir, ahu gəlir peyğəmbərimizin qabağında əyilir, təzim eliyir. Allah dil verir, ahu deyir:

– Bu iki balamı mən özüm gətirmişəm, İmam Hüseyn ağa ağlamasın.

*Söyləyici bu rəvayəti anasından eşidib.*

## 51. XANOĞLAN VƏ BƏSTİ

Xan çinarın[23], suyun[24] yaranma tarixini mən bilirəm. Orda bir bəy istirahət eliyirmiş. Onun gözünün ağı-qarası bir qızı varmış. Qızın adı Bəstiymiş. Bəy burda istirahət eliyirmiş. Həmin kənd də Razdərə kəndidi. Orda bir yetim uşaq olur. Okqədər səmimi, düzgün, mərifətdi olur ki... Adı Xanoğlanmış. Bəy bir gün gejə yatır. Yuxuda görür ki, bunu ağacdan asıllar. Deyir, bu nədən ötrüdü? Deyillər, sənin nə ixtiyarın var, Allaha göstəriş verirsən – qızın adını Bəsti qoymusan? Bəsti qoymaxla demək istəyirsən daha bəsdi da. Bəy səhər yuxudan durur, ayiləsin, uşağın yığır ki, məni bu gejə öldürürdülər. Yığışın, bir heyvan da gətirin, uşağın adını dəyişəjəm. Qıza da anasının adını qoymuşmuş. Göz bəbəyi kimi onu istiyirmiş. Bir qoyun kəsillər, qızın adın dəyişir, gözəl ziyafət verir.

Vaxt ötür. Qızın anası buna çatdırır ki, bir yetim uşaq qıza aludə olub, günün-saatın onnan keçirir. Deyir, mən bəy adam, yetim hara, mən hara. Bu nədi mənim başıma gəlir? Adamlarına tapşırır ki, oğlana bir az hədə-qorxu gəlin, aralaşsın getsin. Deyin ki, sən uşaqsan, get tayı-tuşu axtar. Bəy qızınnan sənin nə işin. Baxıllar görüllər əməl eləmir. Axır o məqama gəlir ki, bəy deyir:

– Aparın onu öldürün.

Obaşdan durullar, gedib oğlanı tapıllar, aparıllar. Həmən Xan çinar meşəsi başlayan yerdə qəlbi bir qayalıx vardı. Aparıllar Xanoğlanı o dağdan atırlar. Xanoğlan ölür. Qız eşidir bunu. Durur atasından, anasından xəlvət qaçır gedir o dağın ətəyinə. Oğlanı tapır.

---

[23] Zəngilan rayonunda meşə

[24] Bəsit çay nəzərdə tutulur.

Görür ölüb. Qız da dağa çıxır, özün ordan atıb öldürür. O çinar meşəsi Xanoğlanın adına bitir. Onun nə toxumu bitmir, nə çiliyi bitmir. O Bəsit çay da o qədər durudur ki, noxudu atırsan, noxud dibində görükür. O su qızın adına çıxıf axır, o çinar da oğlanın adına bitif.

## 52. GƏLİN QAYA

Şuşanın Turabxan kəndində Gəlin qayası var. Deyilənə görə, gəlin çayda çimirmiş, yanında da körpə balası. Bu heynidə qayınatası gəlir. Gəlin utandığınnan qaçmağa bir yer tapmır. Deyir:

– Ya Allah, məni ya daş elə, ya quş elə.

Paltar çiynində, uşax da qucağında daşa dönür. Gəlin qayası haqqında nalayiq söz deməzdilər, adamlar ora qorxa-qorxa gedərdi.

## 53. LEYLİ-MƏCNUN

Deyir, Leyli bılaxda səhəng doldururmuş. Məcnun gedir suya onun tamaşasına. Leyli bınnan görüşür, deyir: "Bırda gözdə, səhəngi evə qoyum gəlim". Məcnun oturur orda, başdıyır gözdəməyə. Leylinin ayiləsi həmişə dağa gedərmiş. Ayiləsi Leylini də götürüf gedir yaylağa. Gedif orda üç ay qalır. Üç aydan sohra qayıdıf kəndə gələndə Leyli genə səhəngi götürüb gedir bılağa su gətirməyə. Görür Məcnun oturufdu. Ot bitif, Məcnunun üstünə kölgə salıfdı. Məcnunun başında quşdar tükün içində balalıyıfdı. Deyif:

– Bırda nə axtarırsan?

Deyif:

– Sən dedin otur bırda, məni gözdə. Mən də səni gözdüyürəm, gəl çıx.

## 54-55. LOĞMAN

Loğman bir günnəri yolnan gedirmiş. Görür kü, bir dəstə oğlan uşağı çıxıb qoz ağacına. Biz cəviz deyirik, cəviz ağacına. Cəviz təzəcə iç bağlayıb, hələ möhkəmlənmiyif. Bunnan uşaxlar yığıllar, sındırıllar yeyillər. Deyir: "Köpəh uşağı, indi qayıdanda halınıza

baxajam”. Gedir harasa məclisə. Qayıdanda deyir: “Baxım görüm, o uşaxların halı necə oldu?” Qayıdanda görür ki, uşaxlar indi də çıxıblar zoğal ağacına. Harda yetişmişi, laxlamışı var, əldə durmuyanı var, onu yığıf yeyillər. Deyir: “Köpəh uşağı, dərdini tapbışdıız, dərmanını da yedıız”.

## 55.

Bir gün bir nəfər yolnan gəlirmiş. Loğmanın qızı su doldururmuş bulaxdan. Bu qız bulağa yenir, bu kişi bunu narahat eliyir. Qız deyir:

– Sən bilirsən, mən loğmanın qızıyam?

Kişi deyir ki, noolsun Loğmanın qızısan? Neyniyəcəh maa? Həftədə bir dəfə, ayda bir dəfə, ildə bir dəfə – dədaa deyərsən belə. Qız gəlir evə. Deyir, bəs belə-belə. Bulax başında bir kişi vardı. Dedim Loğmanın qızıyam. Dedi, noolsun? Həftədə bir dəfə, ayda bir dəfə, ildə bir dəfə. Amma mən onun mənasın başa düşmədim. Loğman deyir:

– O mənim sözümdü kişi sənə deyif. İldə bir dəfə gənəgərcəh yağıdı ki, insan işməlidi bağırsaxları təmizlənsin. O zaman onda xəstəlih olmur. Kişi xeylağı ayda bir dəfə başını qırxdırmalıdı ki, müəyyən azar-bezardan uzax olsun. Həftədə bir dəfə də yuyunmalıdı.

## 56. OĞLANLICA PİRİ

Oğlannıca piri hündür bir qayanın üstündə yerləşir. Qayanın üstü düzəngahdı. Qar ordan gec əriyərdi. Yaz vaxtı ora qurban apardıx. Qurbanı üç dövrə pirin ətrafına dolandırırdıx. Orda qurbangah var idi. Qurbangahda qurbanı kəsirdik, orda bişirib, yeyirdik.

Deyilənə görə, Oğlannıcada bir arvad çörək yayırmış. Kündəsi, sacı, oxlavı, taxtası – hər şeyi varmış. Ayıb olmasın, üzr isdiyirəm, uşağı bayıra gedir. Bir şey tapmır uşağı silməyə, götürür o kündəynən uşağı silir. O dəyqə də hamısı olur daş. Mən özüm öz gözümnən görmüşəm. Qurana and olsun, sacı, taxtası, oxlavı, kündələri, uşağ özü kündə arxasında olmuşdu daş.

## 57. HACI QARAMAN

Mənim eşitdiyim budur ki, olar beş nəfər oluflar. Məytəf qutarıflar, atası, babası da böyüy ojaxdı. Övliya oluflar. Orda bir padşah olur, çox zülümkar olur. Xalq gəlir Hajı Qaramanın üstünə ki, bir qarğış elə, padşah bizdən irədd olsun. O da deyir ki, bir şəxsə ya qarğış elə öldür, ya tüfəynən öldür, ya da bıçaqnan öldür – fərqi yoxdu. Mən ona qarğış eliyə bilmərəm, günahkar olaram. Bılar əl çəkmirlər. Əl çəkmiyəndə eşitdiyim budur ki, Hajı Qaraman bir kəlmə deyif ki, ay camahat, Allah sizi eşitsin. Səhər qalxıllar ki, padşah yoxdu. Bılar gedirlər Hajı Qaramanın üstünə ki, sən gərək bizə padşah olasan. Bu deyif ki, camahat, mən padşah olsam, gərəy zülümkar olam. Padşahın zülmü olmasa, ədaləti bərpa eliyə bilməz. Çox danışıxdan sohra üz tutur Allahtaalıya ki, ya rəsulallah, məni bu camahatın əlindən qutar. Mən padşah olsam, gərəy zülümkar olam. Mənim günah eləməyə təhrim yoxdu. Hax tərəfindən onun əlinə bir çəliy verilir, deyir: “Get, çəliy harda dursa, sənin məkanın oradı”.

Düşür yola, neçə ay, neçə gün gəlirsə, gəlir çıxır bizim bı Əhmətdi düzünə. Dərənin birində bulax varmış, orda dəstəmaz alıf namaz qılırmış. Əhmət kişi yolnan gedirmiş, yanında beş-altı adam varmış. Xülas, görür ki, dərədə bir nəfər adam var. Bunu çağırıf, bu cavab vermiyif. Namaz qılırmış. Xülas, deyif ki, siz atdarı sürün, mən görüm kimdi. Bəlkə gəzənti olar, oğru-əyri olar da. Gedir görür ki, bir nürani kişidi, namaz qılır. Bu kişi Əhməd kişinin salamını alır. Deyir, sən nəkarəsən, burda nə gəzirsən? Deyir, mən yol adamıyam. Deyif, yol adamısan, bəs yerin-yurdun varmı? Yoxdursa, gedək bizə. Bunu götürüb gəlir evə. Bu kişinin bircə övladı varmış, qız uşağı imiş: gözü görmürmüş, qolu-qıçı da şikəst imiş. Kəsə, Hajı Qaraman gejə qalır burda. Bu uşax atasın-anasın zara gətiribmiş. Gejə anasını çağırır, deyir, dur gəl bura. Bu da deyir ki, ay bala, qonax da var, bizi az zara gətir. Qoyginən qonax yatsın, bir dincəlsin. Qız deyir, ana, vallah, gözüm görür. Taxtın üstünnən düşmüşəm yerə, ayağım yer tutur. Bılar gəlif görüllər ki, həqiqətən, sağsalamatdı. Hajı Qaramana deyillər ki, hər nəysə bu iş sənnəndi.

Xülas, bir müddət buna qullux eliyif saxlıyıllar. Sohra Hajı Qaraman deyir ki, bəs mən getməliyəm. Əhməd kişi də deyir ki, getmə, ay oğul. Bu qızı da al, mənim varıma-dövlətimə yiyə dur. Deyir, yox, mənim hax tərəfindən məkanım var, ora getməliyəm. Xülas, gəlir çıxır Hajı Qaraman dərəsi deyillər, ora. O dərə də Füzuli rayonunun Qarakollu kəndininmiş. Bılar yaylaxdan gələndə orda bir-iki ay heyvannarın saxlıyıf gedirlərmiş kəndə. Dərənin bir tərəfi bir qardaşın, o biri tərəfi o biri qardaşınmış. Yaylaxdan qayıdıf gələndə görüllər ki, burda bir nurani kişi var. Dərənin bir tərəfinin yiyəsi olan qardaş baxır, kişidən xoşu gəlir. Dərəni bağışdıyır ona. O qızın da Yetərmiş adı. Onu da gətirir, orda yaşıyırlar. Ona biz and içəndə "Hajı Qaramanın maral gələn ojağı haqqı" deyif and içərdik. Orda maral gəlif sağılarmış. Maralları da Yetər nənə sağarmış.

## 58-59. HACI QASIM ÇƏLƏBİ

Çaytumas kəndi var, orda Abdırazaxlar deyilən nəsil var. Abdırazağın oğlu İbad adında bir kişi olufdu, qoçax adam olufdu. Müəyyən adamlar Hajı Qasım Çələbini isdiyiflər öldürsünnər. O kişi çəkif yanına, onun qorxusundan heş kəs ona yaxın gedə bilmiyifdi. Sovet hökuməti təzə gələndə müəyyən adamlar deyiflər ki, bir hökumət gəlir, hamını bir qazana möhtaj eliyəjək, müəyyən əxlaqsız işlər olajax. Hajı Qasım Çələbinin yanına gediflər ki, siz ojaxsız, sizi Allah eşidir. Dua elə, bu hökumət yaranmasın. O da gedif bir xəlvət yerdə oturuf, Allaha üz tutuf. Bına məlum olufdu ki, sovet hökumətin bayrağın Xıdır Eylaz götürüfdü. Gəlif deyifdi ki, Xıdır Eylaz mənnən qüvvətdidi, mən onun qabağına keçif Allaha dua eliyə bilmərəm ki, gəlməsin. Sovet hökuməti gələjəh, zülmü çox olajax, ancax xeyirri işdəri də olajaxdı: yol çəkəjəh, yetimləri saxlıyajax. Sovet hökumətinin üstünə bir neçə yerdən hücuma keçən olajax, heş birinin güjü çatmıyajaxdı, hamısını məğlub eliyəjehdi. Altmışıncı illərdən sohra bir müddət əmin-amannıx olajax, onnan sohra özü öz içinnən yıxılajaxdı.

**59.**

Bizim ən inandığımız ojax Hajı Qaraman ojağıdı. Onun da törəməsinnən, nəslinnən ən böyüyü, inandığımız Şıx Çələbidi. Onun başına dönüm. Ölüm ayağında olanda deyiflər ki, bizə axırıncı sözü denən, bizə yol göstər, sənin göstərdiyin yolnan gedək. Deyif, sizə üç sözüm var. Hər günahdan Allah keçər, ancax iki şeyin günahından Allah keçmiyəjeh. Deyiflər, hansılardı? Deyif, onun biri sünnüdədi, biri şiədədi. Sünnülərinki odur ki, Maviyaya, Yezidə lənət oxumurlar. Şiələrin günahı odur ki, səddi-əsabədilər. Namaz, ibadət Allah üçündü, onun günahından keçsə də Allah özü bilər, keçməsə də. Ancax səddi-əsabə olduxlarına görə, Allah oların taxsırlarından keçmiyəjəh. Əbu Bəkrə, Ömərə, Osmana lənət oxuyanın təksirinnən Allah keçmiyəndi.

Bir də, hər yetənnən aşığ[25] olmaz. Deməyin ki, mən filankəsin qızına aşığ olmuşam. Heş kəs aşıxlığı saxlıya bilməz. Əsas aşıxlar Füzulidi, Kərəmdi, Həkərili Aşıxdı – Sarı Aşıx, bir də Şıx Mir Həmzədi. Sizə axırıncı sözüm budu, tay mənim vaxtım tamama yetdi.

## 60. TUMAS ATA

Mənim bildiyim Tumas atagil beş qardaşdılar. Böyükləri Dərviş Pirimdi, onnan sohra Tumas atadı, Səfi atadı, Kosa Qənbərdi. Bılar qardaşdılar. Bizim zonada böyüy bir qoz ağacı vardı, yıxılmışdı, dibində bir qəbir vardı. Həmişə gedif bir ojax kimi onu ziyarat eliyirdilər. Guya o da bıların bir qardaşıdı. Adı nəydisə, onu bilmirəm. Bizim ərazi – Dağtumas, Çaytumas bu qardaşdarın oluf. Yağışın ixtiyarı Tumas atadadır. Quraxlıq olanda aparıf orda mal kəsirdilər, onu düzgün bölüşdürüf hamıya paylıyırdılarsa, o dəyqə sözümüz eşidilirdi. Dəfələrnən orda iştirak eləmişəm. Ağsakqallar düşürdü qabağa, gedib yığışırdılar ora. Heyvanı kəsif, soyuf paylıyan ayrı olurdu. Ağsakqallar otururdular üzü qıvlıya, Allaha yalvarırdılar, dua eliyirdilər ki, Allahın bizə rəhmi gəlsin. Onun da bizə yazığı gəlirdi, yağış yağırdı, taxılımız olurdu.

---

[25] Aşığ – aşiq

## 61. AĞABALIM AĞA

Ağabalım ağa seyitdi, onnarın nəsli Həzrət Əliyə bağlıdı. Onun hakqında eşitmişəm ki, çox qüvvətdi şıx oluf, böyük ojax olufdu. Hacı Bəktaşnan bir əsrdə yaşamışdı. Gəlif ki, Hacı Bəktaşnan görüşsün. Bir əjdahanı tutur, üstündə gəlir Hajı Bəktaşın kəndinə. Hajı Bəktaş görür ki, Şıx Ağabalım bir əjdahanı minifdi, gəlif bunun görüşünə. Bu sıçrayıf oturur divarın üstündə. Divar yeriyir Şıx Ağabalımın qabağına. Yeriyəndə kişi də düşür. Bir-birini ziyarət eliyəndən sohra Şıx Ağabalım deyir ki, sən mənnən qüvvəli ojaxsan. Mənim mindiyim cannıdı, sən cansızı mindin yeridin mənim qabağıma. Buna görə də sən mənnən qüvvəlisən.

## 62. ŞIX MİR HƏMZƏ

Şıx Mir Həmzə gəlirmiş bizim kəndə[26], bir evdə qırx gün qalırmış – qırxa girirmiş. Həmən kişiyə dəstəmaz suyunu gedib Mir Həmzə bulağından gətirərmişlər. O bulağın adı qaldı soralar Mir Həmzə bulağı. O vaxtı bəzi adamlar qırxa girərmiş, ona yemək gətirən kişidən başqa qırx gün ayrı bir insanın üzünü görməzmiş. O, qırx gün girirmiş bir evə, orda Allahnan danışırmış.

Mənim atam deyərdi ki, Şıx Həmzə Nigarın qardaşdarı ilə getmiş imiş piçinə. Nigar onun haxdan yoldaşıymış, Allahdan ona aşıq imiş. Bir-birinin xətrini istiyərmişdər. Gedir piçinə. Zəmini piçəndə Şıx Həmzənin əlini çin kəsir. Kəsəndə deyir, uy Nigarım. Deyəndə qızın qardaşdarı tökülür bunun üstünə ki, sən niyə bizim bajımızın adını tutdun? Deyir ki, vallah, sizin bajınıznan mənim aramda heş bir şey yoxdur. Ancax biz haxdan bir-birimizə aşığıx. Deyillər ki, ə, səni belə eliyəjeyih, səni helə eliyəjeyih. Əgər, doğrudan da, hak aşığısansa, de görək indi Nigar hardadı? Deyir ki, yaxşı. Sizin bajınız əlində məlhəm gəlsə mənim barmağımı sarımağa, onda nə deyərsiz? Bunnar da deyillər, əşi, heylə şey olar? Bir də görüllər ki, Nigar əlin-

---

[26] Cəbrayılın Sirik kəndinə

də məlhəm gəlir. Gəlir bunun yanına. Deyir ki, ay Həmzə, əlini çin kəsməynən sən mənin adımı niyə tuturdun ku, mənim qardaşdarım da səni danlaya. Nəysə, Nigar bunun barmağını sarıyır-eliyir. Heylə bir-birlərinə aşığ olullar. Bu Şıx əfəndi həm də qəzəlxan olur.

## 63. MƏŞƏDİ QƏLƏNDƏR OCAĞI[27]

Bir kişi var imiş, oruş tutuf namaz qılırmış. Mömün bir adammış. Gecə bunun həyətinə heyvannar gəlirmiş, – keçi kimi heyvannarımış, – Məşədi Qələndərin arvadı duruf bunu sağırmış. Gecə səhərə kimi qalırmışdar qapıda, səhər işığlaşanda duruf gedillərmiş. Üş də gəlini varmış. Gəlinin biri gedif atası evində danışır ki, malı, camışı yox, amma gecə fılan vaxdı belə heyvannar gəlir. Gəlinin atası vayıs-mardımazarımış. Soruşur ki, nətər heyvannardı. Deyir, keçi kimi heyvannardı, əyri, qollu-budaxlı buynuzdarı var. Gəlin tanımırmış, atası bilifdi ki, bu maraldı. Deməli, bu heyvannar ocağa gəlillər. Məşədinin arvadı buların südünü sağır, istifadə eliyir, heyvannarın özünü də sığallıyır, əzizdiyir, saxlıyır. Gəlin gedif atasına danışanda, – atası vayıs-mardımazar adam olufdu deyilənə görə, – gözdüyüfdü, camaat yatannan sora, oba yatannan sora bu heyvannar gələndə bulara güllə atıf. Güllə marala dəymiyif, qacıf gəliflər Məşədinin qapısında yatışıflar. Arvad gedif sağmağa. Görüfdü ki, maralın südü qan oluf. O kişi gülləynən atmax istiyəndə qorxduğunnan maralın südü qan oluf. Məşədiyə deyifdi ki, bu maralın südü qandı. Məşədi o saat başa düşüf ki, belədi. Ta filankəsdər bildi ki, bu heyvannar buruya ziyarətə gəlillər, imkan vermiyəjəhlər. Ocağa da pis təsiri var. Səhərə kimi qalır. Səhər bu heyvannar gedəndə Məşədi maralın boynun qucaxlıyıf üzünnən öpür, başın sığallıyır. Deyif ki, gedin, indiyə kimi verdiyiniz məhsulu bizə halal eləyin, bizim zəhmətimiz də sizə halal olsun. Tay gəlməyin.

---

[27] Bu ocaq Laçın rayonunun Mirik kəndində yerləşir.

## 64-68. MUSTAFA SOFU[28]

Deyilənə görə, Mustafa sofu ağır seyid oluf. Oların bir qolu Qaraçimən kəndinə gedib çıxıb: Seyid Mir Yusif. Mustafa sofunun üç oğlu oluf. Seyid Mustafanın bir xüsusiyyəti varmış. Kimnənsə danışanda üzünə baxmazmış. Yaylağa hazırlaşırmışdar. Bir gün evin ortasında ocax qalıyıb böyründə oturuf demi çəkirmiş. Ocaxda da kömbə bişirmiş. Həbibulla da dələduz uşağmış. Uzun ağac düzəldir, çıxıb bacadan kömbəni oğurlamaq istəyir. Mustafanı da görmür. Şişi vurur kömbəyə, yuxarı dartanda kişi diksinir. Başın qaldırır, bacada Həbibullanı görür. Deyir, saa daş dəysin, bala, məni qorxut-dun. Söhbətə görə, yaylağa köçəndə qaya uçur, daş dəyir Həbibul-laya, orda ölür. Həbibulla da təzə evlənmişmiş, arvadı hamilə imiş. Arvadından bir oğlu olur, babasın adın uşağa qoyullar: Mustafa. Bizə gələn nəsil nəvə Mustafadan törəmədir. Mustafadan Qurban, Mirzə, bir də Sofu olur. Qurbanın oğlu, Abasqulu, Abasqulunun oğlu Allahverdi, Allahverdidən də mən törəmişəm. Birinci Mustafaya Sofu Mustafa deyirmişlər. Deyilənə görə, Mustafanın bir tuğu var-mış. Kimin ki onun adına nəzir-niyazı varmışsa, tuğu buraxan kimi uçurmuş həmin şəxsin qapısına, nəzir-niyazın tuğun üstünə qoyar-mış.

### 65.

Qayınatam danışardı ki, Mustafa kişinin bir qəşəh aftafası vardı. Cavannar çox düşüblər üstünə ki, aftafanı oğurrasınnar. Ki-şiyə agah olub. Evdəkilərə deyib ki, aftafanı aparın qoyun bacanın qırağına. Oğrular görür, aftafanı kimsə gətirib damın bacasına qo-

---

[28] Yeməzli kəndindən üç-dörd kilometr aralı yol kənarında Sofular piri yerləşir. Orada bir dam, damın içində bir qəbir var. Söyləyicilərin dediyinə görə, niyyət edib evdə fəsəli, toyuq bişirər, aparıb orada gəlib-gedənə paylayardılar. Ziyarətə gələnlər üç dəfə qəbirin başına fırlanar, nəzirlərini qoyardılar. Bişmiş gətirənlər bişirdiklərini bölüb gəlib-gedənə verərdi. Bəzi adamlar heyvan aparar, orada qurban kəsər, elə orada da bişirib paylayardı. Oradakı qəbir Mustafa sofunun qəbiridir.

yub, onu oğurramax üçün yaxşı fürsət düşüb. Gecənin bir vaxtı kişi görür qışqırtı var. Başın bircə dəfə qaldırıb deyir:

– Aftafa, Allah olara nəhlət eləsin, burax. Burax getsinnər.

Demək, oğrular nətər yapışıflarsa aftafadan, nə əlləri aftafadan qopuf, nə də aftafa yerdən qopuf.

**66.**

Rəvayətə görə, sofular ojağında bir seyid yaşıyıb. Bu seyid bir dərzi minərmiş, o biri dərzlər onun dalınca düzülüb gələrmiş xırmana. Bir gün seyidin arvadı deyir ki, kişi, bu qədər möcüzə göstərirsən. Bunlar hamısı sənin hesabadı, yoxsa mənim? Deyir:

– Aaz, sən seyid balası deyilsən, qara insansan. Sən kimsən ki, sənin hesaba olsun?

Deyir:

– Kişi, gəl boyna al ki, mənim hesabımadı.

Deyir:

– Yox.

Arvad qoyun qığın qoyur süd bişirdiyi qazanın altına. Səhər kişi gedir, nəkqədər dərzi minir, dərz tərpənmir. Kişi kor-peşman gəlir. Arvad deyir:

– Noldu?

Deyir ki, belə. Arvad deyir ki, indi razılaşırsanmı mənim hesabımadı? Deyir:

– Axı sən qara adamsan.

Deyir:

– Gəl bura.

Qazanı qaldırır, deyir:

– Bu daha. Mən sənin ocağı belə pak saxlamışam, sən də olmusan seyid. Bax bu qığı qoymuşam bura, ona görə sənin gücün kəsərdən düşüb.

**67.**

İranda bir bəy qızılquşu buraxır ov dalınca. Qızılquş gəlir qonur Sofularda dağdağan ağacı vardı, onun başına. Quşu gəzdirən xana de-

yir ki, hal-qəziyə belə, quş getdi. Deyir, bilmirəm, quşu tapmalısan. Bu gəzir, gəzir, görür ki, quş dağdağan ağacındadı. Nəkqədər bunu çağırır, quş hopbulur qonur bu qənədə, hopbulur qonur o biri qənədə. Tutdulux vermir. Kişi qayıdır geri. Gördüyün xana xəbər verir. Xan deyir:

– Gedirəm, orda görmədiyimi görsəm, dağıtmıyacağam, amma gördüyümü görsəm, oranın altını üstünə çevirəcəm.

Gəlir. Arvad gətirir buna av südünnən çalınmış qatıq qoyur. Deyir ki, bala, ye, yemədiyin yeməkdi. Bəy deyir:

– Mən qatıq yeməmişəm?

Deyir:

– Bala, belə bax.

Baxır götürür bir sürü av – ceyran, cüyür, əlik, dağ keçisinə biz av deyirik, – gəlib, arvatdar orda sağır. Durur əlindən öpür, deyir:

– Bağışla, qanmamışam.

## 68.

Başqa rəvayətdə deyillər ki, Mustafa kişi bir nökər saxlıyarmış. Bir gün irannılar gəlir, bu çobanın əlin-ayağın bağlıyıllar, sürünü çəkillər, gətirillər Arazın qırağına. Gün qızır, qoyun başdıyır yeriməməyə. Deyillər:

– Onsuz da məcburux əylənməyə. Bu heyvandan kəsin, yeyək.

Qoyunun birin kəsillər, soyullar, ətdi. Taxıllar şişə, ətdi. Ocaxda bişirillər, götürəndə olur keçə. Biri belə, ikincisi belə, üçüncüsü belə. Axırda içlərindən biri deyir:

– Ə, bir əl saxlıyın. Ə, qanmırsız?

Çoban da kişiyə xəbər aparır ki, ağa, sürünü apardılar. Bu da deyir:

– Bala, narahat olma, gətirəcəklər.

– Ay ağa, apardılar ey.

Deyir:

– Bala, narahat olma, gətirəcəklər.

İrannılar gözdüyüllər, sərin düşənnən sora qoyun ota qalxanda sürünü geri qaytarıllar. Uşaq görür ki, odey, sürü gəldi Hacıyuaxlının başına.

## 69. ŞIX İSMAYIL

Şıx İsmayıl bir gün qatırı yüklüyüb gedib dəyirmana. Qocam buna deyib ki, get dəni üyüt, gətir. Üş gün gözdüyüblər, gəlmiyib. Dörd gün gözdüyüblər, gəlmiyib. Bir il qatır da itib, bu da itib. Demə, ajdığ dövrü olub. Quldurlar bunun başın kəsif atıblar qamışdığa, taxılın götürüf aparıflar. Səhərə yaxın Allah tərəfinnən məleykə gəlir, bunun başını bədəninə qoyur, tüpürcəyinnən boğazına çəkir. At da gəlir, hazır durur. Məleykə deyir, minirsən ata, sürürsən Asabikafa, orda qırx il münəccimlik eliyəssən, oranın qarovulun çəkəssən. O dövr imiş ki, heç kim o ocağa yiyə durmurdu. Bir ovuc da kişmişi töküllər cibinə, deyillər, sənin yeməyin budu. Ora nəzir gətirən kişmiş gətirəcək, onnan dolanassan, ayrı şey yemə. Boğazın bağlıyıf. At gəlif, minif, kişmişi də cibinə töküf yiyə-yiyə gedif. Aradan neçə il keçif, bu icazə alıf ki, gedim vətənimi, qohum-əqrabamı görüm, qayıdım. Razılıq alır, atnan gəlir.

Gələnnən sora qocama[29] deyib ki, Kalbalayı İsmayıla denən ki, zastavanın qabağında bir ev tiksin, qapısın yola qoysun. Üş dənə alması var[30]. Əgər tikdi, üş dənə almanı axıra qədər yeyəcəh. Yox, tikmədi, o almaların üçü də əlinnən gedəcəh. Bunu qocam nağıl eliyif Kalbalayı İsmayıla, o da inanmıyıf. Deyif, gedif kimnən maa xəbər gətirif? Babam evi tikmiyif. Onnan sora dədəm də əsgər getdi, əmilərim də, qocamın üç oğlu da əsgər getdi, qayıtmadı. Şıx İsmayıl deyif ki, bura (kəndin yeri – top.) qərəmətdi, burdan bir balaca köçün aşağı, xeyriniz ordadı. Bir kilometr, iki kilometr aşağıda incirlik vardı. Deyif, heç olmasa köçün o düzə. – Bizim kəndin yeri də elə idi ki, qərəmət gəlirdi, duman gəlirdi, aynan getmirdi. Zülmün içində qalırdıx. Elə ki yenirdik aşağı, aydınnıx idi. – Deyif, bir qərinədən sora burdan sizə qızıl görünür. Bir padşah gələcək, otuz il ölkəyə rəhbərlik edəcək. Onun hakimiyyəti dövründə qurt qoyunnan otduyacax. Dalınnan başı xallı gələcəh, ölkəni dağıdacax.

---

[29] Qoca – nənə

[30] Övladlarını nəzərdə tutur.

Müharibə düşəcək, Arazın o tayınnan siz gedəssiz. Necə deyib, heylə də oldu. Əlli dokquzuncu ildən sora bizdə qızıl yatağı işə düşdü, otuz il camaat onnan dolandı. Brejnev gəldi, əminamanlıq oldu. Doxsan üçüncü ildə Zəngilan işğal olunanda Arazı keçib gəldik.

## 70-71. MİRƏHMƏD AĞA

Mirəhməd ağa dağa gedib. Görüb ki, orda süd bişirillər. Süd istiyib, deyiblər:

– Süd yoxdu.

Çıxıb gedib. Arvad gedib baxıb, görür qazan bomboşdu. Ona görə deyillər ki, Mirəhməd ağanın qazan qurudan ocağı.

## 71.

Kolxoz sədri İsmayıl Mirəhməd ağanı çağırır, deyir ki, qağa, neynirsən elə, yağış yağsın. Gülməmməd addı kişi vardı, yaşdı kişi idi, dua bilirdi. Seyid fikirrəşir. Deyir ki, gedim Xusdubdan su gətirim. Bir dənə tulum götürür, Gülməmmədnən ikisi hərəsi bir ulağı minir, Xusduba gedillər. Seyid yolboyu heç kəslə danışmır, ancaq Xusduba qədər Quran oxuyur. Xusdubda dərin quyu vardı. Gülməmməd kişini sallıyıb, yarı yolda nəfəsi kəsilib. Bunu çıxardıb, özü düşüb, quyudan suyu götürüb. Götürəndə görüllər artıq yağış başladı. Gətirib kənddə onu asıb çardaxdan. Üç gün yağış yağdı. İsmayıl kişi seyidə dedi ki, qağa, tay bəsdi. Gözümə şahadam, seyid suyu çardaxdan götdü qoydu evə, onnan da yağış kəsdi, gün çıxdı.

## 72. QƏZƏR XAN

Qəzər xan adlı birisi olub. Qarababalı Yeravan kişi nağıl eliyirdi ki, Qəzər bir gün deyir ki, ay uşaqlar, durun burdan gedək, ayrı yerdə sizə bir söz deyəcəm. Qaldıqları yerin də suyu zəyif imiş. Bir bulaqları vardı, amma kifayət etmirdi. Girvəni aşıllar Seyiddərə sarı. Orda deyir ki, ay uşaqlar, burdan köşməliyik. Köçək burdan. Deyillər:

– Əşi, bir belə yolu bizi niyə gətirdin? Bunu elə orda deyərdin da.
Deyir:
– Ə, yerin də qulağı var ey. Orda demədim ki, yer bizdən inciyər.

## 73-75. ƏBDÜLSƏMƏD BƏY

Əbüsəməd bəyin çoxlu qızılquşu olub ov eləmək üçün. Onun sevimli bir qızılquşu varmış. Bir gün ova gedəndə necə olursa, bu qızılquş qayıtmıyıf. Ova gedənnərə deyir ki, axtarın tapın, görüm bu qızılquş nejə oldu. Bir azdan sora axtarıf tapıllar. Görüllər qızılquş bir tülkünün ağzındadı. Özü də tülkü nə tülkü! Tükü tökülüb, yolux bir tülkü. Əbüsəməd bəyi fikir aparıb, çox dilxor olub. Deyir ki, mənim qızılquşumu tülkü yeməyi məni yandırmır. Məni yandıran onun bax bu cür yolux tülküyə qismət olmağıdı.

**74.**

Anam danışırdı ki, Abusəməd bəy hardansa vuruşdan gəlir, bunu ağır yaralıyıllar. Anası çox bedahat imiş. Fikirrəşillər ki, atın üstündə bunu nətər aparax ki, qənşərdən arvad bunu görəndə haray salmasın. Bu anda hay düşür ki, Abusəməd bəyi yaralıyıflar. Arvad çıxıf baxır. Görür ki, at gəlir, amma bu Abusəmədin atına oxşamır. Orda bir bayatı deyir:

Abusəmədin kürən atı,
Hey orduya girən atı.
Heş kəs sürə bilməz,
Abusəməd sürən atı.

**75.**

Bir gün Abusəməd bəyə bir namə yazıllar:

Əzizinəm, yüz bəlalı,
Yüz dərddi, yüz bəlalı.
Bir ağaşdı, dörd budaq,
Hər biri yüz balalı.

Səməd çağırır Bəbiri, deyir:
– Ə, ona yaz ki:

Əzizim, yüz bəlalı,
Bir candı yüz bəlalı.
Sərfa, salda, balqam, qan,
Hər biri yüz bəladı.

## 76. MƏMMƏD YÜZBAŞI

Məmməd yüzbaşı dəsdəsiynən gedirmiş. Görür bir gəlin pal-paltar yuyur. Bular atdarıynan gəlif gəlinin yanınnan keçəndə, – üzr isdiyirəm, – gəlin qeyri-iradi hərəkət eliyif. Məmməd yüzbaşı qayıdıf ki:

Gəlin, nazlı gəlin,
Qubadı, qazdı gəlin.
Güllənisərraf atırsan,
Hayıf ki, patronun azdı, gəlin.

Gəlin baxıf ki, bu, özün saxlıya bilmədi. Deyif ki:

Zərnəli çayı bu imiş,
Dibinnən axan su imiş.
Yel mənnən xəbər aldı,
Gəlin, yüzbaşı bu imiş?

Yüzbaşı "mənim sənnən daha işim yoxdu" deyif yolunan çıxıf gedif.

## 77. BABAXAN OĞLU BALACA

Babaxan oğlu Balaca olur, çox igid adam olur. Sovet hökuməti qurulanda bunu qoyullar dağdan yuxarı on səkgiz kəndə milis palnamosçusu. Babaxan oğlu Balaca elə bir adam oluf ki, qonşu erməni kəntdərinə gedəndə ermənilər hamilə qadınnara qışqırırmış ki, qaçın girin içəri. Babaxan oğlu Balacadı, asqırar, ya öskürər, siz bala salarsız. Helə zəhmili kişi olub.

Bir gün Babaxan oğlu Balaca evdə oturmuşmuş. Bir qarı ağlıya-ağlıya gəlir qonşu kənddən. Deyir ki, ay nənə, niyə ağlıyırsan? Deyir ki, ay iyid, başına dönüm, iki inəyim vardı, irannılar gəlib o

iki inəyin ikisin də götürüb gedib, buzovlarım qalıb içəridə mələşə-mələşə, acınnan ölür. Uşaxları çağırır, deyir: “Yanı balalı iki inək gətirin verin bu qadına, balasın da qatın yanına. Aparsın öz balasın da, onun balasın da saxlasın. Mən iki günə, üç günə onun malların tapıb gətirəcəm”. İnəkləri verir, adam da qoşur, aparır inəkləri arvadın qapısına. Səhər özüynən iki nəfər atdı götürür, soraxlıya-soraxlıya gəlir çıxır Arazın qırağına. Dəllәkli kəndinnən keçəndə soruşur: “Ayə, sırağayın burdan on beş, iyirmi mal aparıblar, görmədiniz?” Deyillər, apardılar, hə, gördük. – “Kim idi? Bilmədiz?” Deyir, vallah, kimliyin tanımadıx, amma soruşdux, dedilər Şirindil xanın adamlarınnanıx. Şirindil xan da İranda addı-sannı xannardan biri olub, cavan oğlan olub iyirmi-iyirmi beş yaşında. Bu addıyır İrana, soruşur ordan-burdan, deyillər Şirindil xanın kəndi ordadı. Kəndə yaxınnaşanda görür on-on beş nəfər beş-altı yüz baş qaramalı otarır. Deyir, ə, mallar kimindi? Deyir, ağa, Şirindil xanın mallarıdı. Deyir, burda şəxsi adamların da malı var? Deyir, hə. Yoldaşdarına deyir, tutun buları, hamısın əlin-ayağın bağlıyın, birin əlin açıx qoyun. Hamısın əlin-ayağın bağlıyıllar, atıllar kolun dibinə, ağızlarına dəsmal vırıllar. Birini açıx qoyur. Deyir, burda nə qədər şəxsi adamların heyvanı var, ayır, qalsın burda. Biz Şirindil xanın heyvanın aparaceyih. Ayırır, bir qarının bir danası da qarışır bu xanın malına, addadıllar Arazın bu tayına. Yoldaşdarına deyir ki, yığın malı təpənin dalına, biriniz orda, biriniz də bu qıraxda gözdüyün, birdən xəlvət yollarla gəlif arxadan maa güllə atallar. Qabaxdan nə qədər adam gəlir gəlsin, mən qıracam, amma gözdüyün arxadan maa güllə dəyməsin. Özü də çıxır təpənin başına. Kürsəsi var. Görür Şirindil xan iyirmi beş atdıynan gəldi Arazın qırağına. Deyir, bəy, cavansan, özəə qıymıram. O camaatı ölümə vermə. Bir güllə atır, xanın papağı düşür yerə. Xanın adamlarından biri buna güllə atır. Balaca deyir, maa güllə atan kopoğlu, əli qoy alna. Alnına bir güllə vırır, dəyir yerə. İkincini atanda deyir, əli qoy döşə. Döşünnən bir güllə vırır. Üçün-dördün öldürür. Deyir, xan, iyirmi beş atdısız, üçü getdi, qaldı iyirmi ikisi. İyirmi iki yox, iyirmi iki min gəlsəz də, birizi Arazdan bu tərəfə buraxmıyacam. Camaatı ölümə vermə.

Adam göndər, gəlsin bu heyvannardan ölənnərə on-on beş ehsannıx verəcəm, qalanın mən aparacam. Mən Karrarlı Babaxan oğlu Balacayam. Şirindil xan adam göndərir, bir bölük malı ayırır, qarının inəyin də qatır bulara, verir, qalanın götürür gəlir. Qarını çağırır ki, gəl bu mallardan neçəsin isdiyirsən apar.

## 78. AZAD AĞA

Balakişi cavan oğlanmış, bunun dayısı Mustafa kişi Azad ağanın eşikağası oluf. Balakişi də cavan uşaxmış, təzə evlənmişmiş. Gəlir dayısının yanına. Azad ağanın arvadı balkonda oturubmuş, Azad ağa da böyründə. Arvad deyir, a gedə, filan şeyi filan elə. Balakişi belə baxır, deyir ki, xanım, gedə sənin yanındakı ərindi. Deyəndə Azad ağa tapancanı çıxardıb atmaq isdiyəndə Balakişi deyir, bəy, alnını gözdə. – "Ə, Balakişi, mən zarafat eliyirəm". Deyir, tüfəngi at yerə. Atmasan, vuracam səni. Tüfəngi atır yerə. Bu təhqir bəyin yadında qalır.

Aradan bir neçə müddət keçir. Mustafaya deyir ki, Mustafa, Bartaza gedirəm, tək gedəmmərəm, meşədə banditlər var. Balakişini də götür, məni müşayət eliyin, gedək Bartaza. Hərəsi bir at minillər, gedillər. Bartaznan Razdərənin arasında Top meşəsi var. O meşəyə çatanda bəy atdan düşür. Atı verir Mustafaya, deyir: "Atı saxla, mən subaşına çıxım, gəlim". Yalannan yenir dərəyə, daldan Balakişinin kürəyinnən vurur gülləynən. Mustafa dönüb baxanda deyir:

– Mustafa, dönüb baxma, yoxsa səni də vuracam. Bu sirr burda qalmalıdı, ikinci adam eşitsə, səni güllüliyəcəm.

Bəy öz atının boynunnan güllə vurur. Deyir ki, deyərsən banditlər vurdu Balakişini, bəyi də atdılar, güllə atına dəydi. Balakişinin meyidin götürüb gəlillər kəndə. Hamı elə bilir Balakişini banditlər vurub.

Bir neçə ildən sora bir dəfə məclisdə Mustafanın ağzınnan bu söz çıxır, Qələndər kişi (söyləyicinin dediyinə görə, Qələndərin arvad tərəfdən Balakişiyə qohumluğu çatırdı – top.) bunu eşidir. Eşi-

dir ki, Balakişini Azad ağa vurub. Sovet hökumətinin gələn vaxtlarıdı. Azad ağa da arvad-uşağın göndərib Şuşaya, özü kənddə tək qalırmış. Keçikli, Bartaz, Sobu, Razdərə, Çuxuryurd, Qaradağlı, Əsgərri, Vəlilər, Muratdarın ağası olub. Qələndər bunu eşidir, beşatılanı salır çiynina, gedir ki, Azad ağanı vursun. Gedir girir Azad ağanın evinə. Görür Azad ağa bardaş qurub yerdə oturub, tut qurusuynan çay içir. Deyir, Qələndər, buyur, gəl içəri. Deyir, Azad ağa, gəlmişdim səni öldürməyə. Sənin bu günü ki gördüm, belə yaşamaxdansa, ölmək yaxşıdı. Öldürmür onu, çıxır gedir.

## 79. BURCUVAR KİŞİ

Deməli, Burcuvar kişinin birinci arvadı ölüf, ondan bir oğlu qalıf. Bir nər oğul idi, hələm-hələm adamlar onun qolun qatdıya bilməzdi. Elə bil ki, peyvaz kimi inkişaf eliyirdi. Burcuvar kişi arvadı ölənnən sora başqasın alır, bunnan da bir qızı olur.

Bir gün başqa bir arvada vurulur. Vurulduğu arvadın da bir oğlu, bir qızı var, böyüh uşaxlardı. Qardaşı arvadına deyir ki, yox, tay mən bu arvadı boşadım, bax gedif onu gətirərsən mənə. Qardaşı arvadı deyif, gəti deyirsən, gətirim dana.

Gecə uzanıllar yerrərinə yatmağa. Oğlu deyir ki, dədə, bu çox yaxşı oldu. Deyir, nədi yaxşı olan? Deyir, bax sən hirsdənif arvadı döyəndə, mən də onun oğlunu döyəcəm. Bizim itimiz, oların itin mütləq boğacax, eşşəyimiz də oların eşşəyin boğacax. Amma bir dənə çətinnih olacax. Deyir, nədi? Deyir, onun qızı mənim bajımnan böyühdü, onu döyəcəh. Kişi səhərəcən fikirrəşir, fikirrəşir, fikirrəşir, səhər qardaşı arvadını çağırır. Deyir, get öz arvadımı gəti.

Belə şeylər həyatdı da, təcrübədi.

## 80-83. QAÇAQ İSRAFİL

İsrafil Əsgərri kəndinnən oluf. İki qardaş oluflar. Sovet hökuməti gələndə tabe olmuyuf, bir dəstə yığıf başına qaçaxlıx eliyif. Nə qədər eliyiflər, tuta bilmiyiflər İsrafili. Atam deyirdi ki, Qaçax İs-

rafil alçaxboy oluf, amma çox cəld oluf. Bu damın üstünnən o damın üstünə tullanırdı.

Cəmilnən keçəl Suqratın babasını – Kalba Nəbi uşağını – hökumət örgədir ki, siz gedin buların dəstəsinə qoşulun, amma bilməsinnər bizdənsiz. İsrafili tutub bizə versəniz, sizi azad eliyəceyih. Salatın yurdunda yolun altında bir bulax vardı, buz kimi gözəl suyu vardı. Qaçaxlar orda heyvan kəsif yeyillər. İsrafil qardaşına deyif ki, mən bulardan şübhələnmişəm. Mən yatım, sən gözdə məni. Bu yatır, qardaşını da yuxu aparır. Bular bunun qardaşını öldürüllər, İsrafili də yaralıyıllar. İsrafil yaralı qaçır. Deyib ki, namard uşağı, yoldaş yoldaşı vurarmı? Qardaşına da söyüb ki, a qardaş, başına daş düşsün, məni niyə qorumadın, məni kürəkdən vurdular. Bir az gedib, canı çıxır. Dayım Həzi deyirdi ki, İsrafili vurandan sora ürəyini yarıflar, görüflər iki dənə ürəyi var. Həmin bulağa İsrafil vurulan bulax deyirdilər.

**81.**

Qaçaxların yanında olan bir adam hökümətə təslim olubdu. Buna deyiblər ki, elə eləginən İsrafili diri tut gətirginən. Bizim meşənin başında İsrafıl vurulan yer var. Qaçaxlar kənddən bir heyvan alıb gətiriblər, onu orda kəsib yeyiblər. İsrafıl həmin adamdan şübhələnmişmiş. Qardaşına deyir ki, a qardaş, sən gözdəginən, mən gözümün acısın alım da. Bundan gözüm su içmir. Rəhmətdik atam dediyini deyirəm. O görmüşdü, hələ gedib oların meyidini də gətirmişdi. İsrafıl yatannan sora qardaşı Hüseyn də yatır. Bular yatan kimi həmin adam oları vurur. Dədəm deyirdi ki, İsrafıl naqanı çıxardıb axıra qədər atmışdı, onnan sora ölmüşdü. İki gün onun meyidinin yanına gedə bilmillər. Ordan gətirib aparıblar rayona. Deyilişə görə, özü də onun iki ürəyi varmış.

**82.**

Bizim camaatın sovet hökumətinə münasibəti yaxşı dəyildi. Camaat yaxşı dolanırdı, ucqar dağ kəndi idi, mərkəzləşmiş kalxoza qarşı idilər. Həm də din hakim idi. Bizdə molla yoxuydu, ölümüzü

ancaq seyid götürürdü. Qaçaxlar həmişə gəlirdi kəndə. Kəntdə agentlər vardı, sovet hökuməti oları ələ almışdı. Mincivandan bir az aşağı Tri zastavası vardı, Qlubinski onun rəisi idi. Çöpədərə kəndindən bir nəfər bulara xəbər verib ki, bəs qaçaxlar Sobudadı, dörd nəfərdilər. Bu qaçaxlar Əsgərridən idilər, amma onların da bünövrəsi bizim kənddən getmədir. Qaçaxlar gəlib dədəmin əmisi Kamal kişinin bir dənə heyvanını tutub kəsiblər, oturub yeyib-içiblər. Bu eyni[31] bizim camaat bilib ki, əsgərrər gəlir. Hay salıblar, parolları da bu olur ki, canavar qoyunu qırdı, qoymuyun. Camaat bilib ki, hökumət adamları gəlir. Qaçaxlar qaçıblar Aşıq Əli səngərinə tərəf, camaat isə əsgərləri Ördəkliyə tərəf yönəldib. Qlubinskinin dəstəsi gedib çıxıb yala, aşıblar o üzə. Ora da yamacdı, seyrək ağaclar var. Bular oturublar orda dinclərini alsınlar. Eləsi vardı siqareti ağzında ölmüşmüş. Qaçaqlar da arxadan gəlib kəsiblər üstünü, hamısını güllələyiblər. Yetmiş dörd nəfərdən biri də sağ çıxmamışdı. Oların paltarrarınnan, ayakqabılarınnan camaat da götürmüşdü. Bizim camaat paltarlarına dəyməmişdi. Bizdə deyirdilər ki, ölü paltarı haramdı, ona dəymək olmaz. Amma silahdan götürmüşdülər. Yaşlı kişilər deyirdilər ki, o silahlardan İrana da satıblar. Qlubinski əməliyyatına görə bizim kənddən 18 nəfər imkanlı, varrı-dövlətli adamı tutdular, olardan on biri güllələndi.

Qlubinskinin arvadı gedib oturub Maskvada. Onun tələbiynən Yolaşanda top qoyuflar ki, kəndi top atəşinə tutalar. Babamgilin Füzulidən ticarət yoldaşı olubdu Atakişiyev Ataş. Yeçeykanın üzvü olub, Mincivanda da naçalnik kamendatura idi, Bağırovun da kirvəsi idi. Bunun dədəsi, babası babamgillərə gəlib-gedən olub. Atakişiyev Ataş Zəngilana gələndə atası buna deyib ki, orda Bədirxannı tayfası var, gedib oları taparsan. Bizim kəndə gələndə kəndə hay düşüb ki, hökumət adamı gəlir. Camaat qaçır. Dədəmın əmisi nəvəsi olub, o da qaçıb girib bir daşın dalına. O daşın adı qalır Adıgözəl daşı. Bu gəlir bizim kəndə, babam gedib yanına. Babamın qızılı varmış, aparıb buna bir az qızıl verib ki, a bala, camaatın günahı

[31] Bu eyni – bu vaxt

yoxdu. Bu xatanı bizdən götür. Deyib ki, yaxşı. Qayıdıb gedib Bağırovun yanına. Deyib ki, o kənddə kamsamolçular var, komunistlər var. Ondan sora kəndi topa tutmuyuflar. Onun köməyi olmasaydı, bizim kəndi qıracaydılar. Qlubinski əməliyyatına görə güllənən şəxslərin ayilələri kənddən çıxdı, kimi Qafana, kimi Gəncəyə getdi.

**83.**

Qlubinskiyə xəbər veriflər ki, banditlər sobunu alıflar. O da zastavanın böyüyüdür. Kəntdən qabaxda səngər var, banditlər çıxıf ora. Əsgərlər də kəndin yanınnan gedif çıxıflar zəmiyə. Gərək girif kənddən bələdçi götürərdilər ki, yolu-irizi bulara göstərsin. Bələdçi götürmüyüflər, kor-korana gəliflər kəndə. Kəndə girmiyiflər, çıxıflar Kolavat yoluna. Dirsəkdən aşanda üsdən banditlər Qlubinskini də, əsgərlərini də vuruflar. Sora hökumət gəlir, onları aparıf dəfn eliyir, Qlubinskini də Tiri kəndində dəfn eliyillər. Qlubinskini gülləynən vuranda kənddə adam qalmır, hamı qaçır Qala dərəsinə. Qlubinskinin arvadı gəldi o tayda top qoydu ki, kəndi yernən yeksan edəcək. Qəfildən duman gəlif kəndi elə basıf ki, kəndi görmüyüflər. Bağırova deyiblər. Bağırov deyib, kim banditə çörək verib, onun tərəfdarı olub, oları tutun. Ad qoydular ki, banditlərə kömək edillər, əslində varrıları, imkannı adamları tutdular. Bizim də dəyirmanımız olub. Əmimi tutublar ki, siz mülkədarsız. Bu adnan on beşini gülləliyiflər, dördü də gəlif qorxusunnan kəntdə ölüb. Tutduxlarını aparıf Zəngilan arxında güllələyiflər. Mənim dədəmin xalasının qıçı şikəst idi. Kənd Qala dərəsinə qaçanda o arvad kilkə yastıxları yığıb qapının dalına, oturub. Duman çəkiləndən sora saldatlar giriflər kəndə, kimin qatığı var, çörəyi var yeyiflər. Qapını itəliyiflər, görüflər arvad dalında oturuf. Deyiflər, hamı gedif, bəs sən niyə getməmisən? Deyif ki, qıçım şikəstdi, mən gedəmmədim. Deyif, bəs bu yastıxları niyə qoymusan qapının dalına? Deyif, bunnan güllə keşmir, atsaz da məə dəyməz. Qazanlarnan qatığı varmış. Əsgərlər onu yeyif, çıxıf gediflər.

## 84-85. SOBU ZURNAÇILARI

Dədə-babadan Arazın bu tayına Qarabağ deyirdilər, o tayına Qaradağ. Çayın o tayında Tağı xanın oğlunun toyu imiş. Qırx gün gərək toy çaldıra. Hay salır, toya zurnaçı dəvət edir. Qarabağdan da üç dəstə gedir. Qaçarrarı[32] varmış. Tağı xan bulara deyir ki, gedin gələn çalğıçılara xəbər verin, üş kilometrdən gərək çala-çala gəlsinlər, mən eşidim, görüm hansı xoşuma gəlir.

Ordan aşıxlar çala-çala gəlillər. Minbaşıya deyif ki, mənim oğlumun toyunu sən çalacaxsan. Bu da ürəyi yumuşax adammış. Deyif, qoy bir-ikisi də şərik olsun, qırx gün toydu, bir az o çalar, bir az mən. Deyib, yox. Minbaşının qabal vuranı da Süleymandı. Dədəm deyirdi ki, Minbaşını Minbaşı edən Süleymandı. Tağı xan deyir ki, Süleyman getsin çayın o tayından vura-vura gəlsin, görüm şəddini[33] itirmir ki. Gedif vura-vura gəlir. Tağı xan buna balkondan bahalı bir kürk atıf, Minbaşıya da bir at bağışlayıf.

### 85.

Sobuda yaxşı aşıqlar olub. Hətta bir dəfə İrandan dəvət eliyifl ər Tağı xanın oğlunun toyuna, üç dəstə gedif. Orda da münsiflər heyəti seçiflər ki, kim yaxşı çalsa, onu götürək da. Kəndin döşündə qoyun gedirmiş. Xan deyir ki, kim o qoyun sürüsünü qaytara bilsə.... – Qoyun havası[34] var, qara zurnada çalıllar. Çalıllar, çalıllar, çalıllar, axırda zəngulə vuranda qoyun durur, qayıdır dala. – Bizim kənddən biri varmış. Xana deyir:

---

[32] Qaçarları – çaparları

[33] Şəddi – ritmi

[34] Bu süjetin Dərə Gilətağ kənd sakini Xeyrulla İsmayılovdan yazıya alınmış variantında həmin havanın adı "Qoyun həngi" kimi verilir. Həmin mətn belədir: Martın biri idi, qoyun da Cənnət dərəsində otduyurdu. Dedilər ki, Seyid Alı, deyillər yaxşı "Qoyun həngi" çalırsan. İndi də çalardın, qoyunlar geri qayıtsın. Seyid Alı dedi, ə, günahdı, indi onu çalmazdar. Camaat çox xayiş eliyənnən sora başdadı zurnanı çalmağa. Zənguləni vuranda, Allaha and olsun, qoyun otdan dayandı, sürüynən hamısı töküldü gəldi kəhrizə. Orda əmimin şərəfinə heyvan kəsmişdilər.

– Olar sizə bir sual verim?

Deyir:

– Bəli, ver.

Deyir:

– O sizin öz sürüüzdü, yoxsa camaatın sürüsüdü?

Deyir ki, camaatın heyvanıdı. Deyir:

– Camaatın heyvanıdırsa, qayıtmaz, çünki onun hərəsi bir qapıdan yığılıf. Əgər, xan, sizin öz sürüüz olsa, onu qaytararıx.

Xanın əlində nədi ki? Çapar göndərir, gedir öz sürüsünü gətirir, yayır o döşə. Sürü otduya-otduya gedir, yalın ağzına çıxanda Minbaşı zəngulə verir. Zurnanı qışqırdır, qışqırdır, qışqırdır, qoyun qayıdır. Tağı xan deyir ki, çalana bir at verəceydim, sənə də xələt verəceydim. Amma sən onnan üstün çıxdın. O sözü gərək o deyəydi ki, müxtəlif qapıdan yığılmış heyvan qayıtmaz, amma sizin heyvan bir qapıdan çıxdığına görə oları qaytarmax mümkündü. Ona görə bir at da sənə verəcəm.

Bax heylə çalannarımız vardı.

## 86. CAMAL BƏY

Qubatdı rayonunda Camal bəy olufdu. Camal bəy İrannan gəlmədi. Eşitdiyimə görə, Camal bəy bir az əyri olufdu, camahatın qabağını kəsif heyvanın-zadın əlinnən alırmış. Aşıx Usuf həmişə gedif oların kəndində toy çalırmış. Xülas, irannı xanın biri Camal bəyə deyif ki, maa bir aşıx tap gəti, burda doqquz toy var. Onun dokquzun da ona elətdirəjəm. Deyif, yaxşı, saa yaxşı bir aşıx gətirərəm. O da Aşıx Usufu dəstəsiynən aparır İrana. Orda görüllər ki, məclis quruluf, toy başdıyıf, iki aşıx burda dövran eliyir. Xülas, burda aşığın biri bayatı çəkir. Deyir:

Mən aşıq, sarı qalı,
Gün getdi, sarı qalı.
Tərlan ovun qaçırmış,
Yerində sarı qalı.

Deyəndə Aşıx Usuf duruf ayağa, deyif:

– Aşıx, o bayatını düz demədin.

Deyif:

– Nəyin düz demədim?

Deyir:

– Bir kəlməsin düz demədin. O bayatı belə olmalıdı:

Mən aşıx, sarı qalı,
Gün getdi, sarı qalı.
Tərlan ovun toplamış
Yerində sarı qalı.

Çünki tərlanın əlindən ov qaça bilməz.

Bu aşığın dövranı qutarır, səhəri günü dövranı Aşıx Usuf başdıyır. Deyillər ki, Aşıx Usuf, hansı nağılı bilirsən, onu de? Deyif ki, Qurbanidən deyim. Başdıyır ki, Qurbaniyə vergi verilir Mazan nənə ojağında, Diri dağının başında. Qurbaninin atasının adı Fərəməz bəydir. Bıların bir nökərrəri də olur. Bir gün nökərnən çıxıllar dağa. Orda qabaxları qarannığa düşür. Orda bulax var, gejə orda yatıllar. Orda Qurbaniyə vergi verilir. Səhər atası gedib görür ki, Qurbaninin halı xarabdı. Deyir, oğul, saa nolufdu? Deyif, maa vergi verilif. Belə oxuyanda Camal bəy ordakı xana deyir ki, deyirsiz sünnülər Əli-Vəli bilmir, Əliyə inanmır. Görürsən, sünnüdü bu, ağzından dür tökülür. Deyəndə həmən o xan deyir ki, ə, mənim məclisimi niyə mındarrayıf bunu gətirmisən. Camal bəyə acığı tutur. Buna burda bir neçə sual verillər, Aşıx Usuf onlara cavab verir. Camal bəy deyir ki, bunu dindimən, dindirsəz xeyir tapmazsız. Xülas, onu gətirif Arazdan keçirillər. Camal bəy öz cibinnən çıxarıb ona doqquz toyun pulunu verir.

Camal bəyin bir neçə kəndi məjbur eliyir, kəndin ağsakqalların danışdırır ki, dönün şiəliyi qəbul eləyin. Eləməsəz sizi qırajam. Belə-belə bir neçə kəndi döndərif şiəliyi qəbul elətdirif. Bizim Dağtumas kəndinə də dəstəsiynən gəlifdi. Gavın ağzında iki qoz ağacı vardı, o ağaşdarın dibində oturuf dəstəsiynən. Bizim kənddə Usta Səfər addı bir nəfər olufdu, çox atıcıymış. O vaxtı Gəyəndə çoxlu ceyran olurmuş. Bu Usta Səfərə atıcı olduğuna görə Usta Səfər deyirmişdər, atdığı yayınmırmış. Örgənillər ki, Usta Səfər Gə-

yəndə ov ovluyur. Bunu gözdüyüllər ki, gəlsin. Camal bəyin adamları Gavın ağzında camaatın qabağın kəsif hədəliyir ki, siz şiəliyi qəbul eləyin. Özü də bir heyvan kəsir, yeməy-zad bişirillər. Elə qabağa çəkif yeməyə başdıyanda çağırıllar Camal bəyi ki, Səfər gəlir, özü də atnan, tərkində ceyran var. Deyir, onu tutun, əlindən ovun alın, özün də qolların bağlıyın gətirin bura. Bular yeriyif Səfərin qabağına ki, bını tutsunnar. Xülas, Səfər başa düşüf ki, bırda hakhesab var. Qənşərə çıxanda görüf ki, Camal bəy oturuf, qabağında yemək var. Həmişə bir ov tüfəngi gəzdirirmiş özüynən, bir də beşatılan tüfəy. Beşatılan tüfəyi çıxardır, Camal bəyin qabağındakı boşqaba bir güllə vurur, boşqab içi dolu ət sovrulur göyə. Camal bəy dəstəsin yığışdırır o çıxan çıxır, tay bizim kəndə gəlif toxunmur.

## 87. QAÇAQ SƏFƏR

Səfər adında bir nəfər İbrahimxəlil xanın vergi yığannarını xənçəlnən vurub, qaçıb özünü meşəyə salıb. Gizdənib xannan, üzə çıxa bilmirmiş. Bir gün Çəkilli arxdan keçəndə orda bir qıza aşiq olur. Qıza deyir:

– Kimin qızısan?

Qız da vaxtilə Qazaxdan gəlmiş bir kişinin qızı oluf. Qıza deyir ki, dədən hanı? Qız bunu dədəsinin yanına aparır. Səfər tanışlıx vermir. Qızın dədəsinə deyir ki, məni Zarıstı Səfər göndərib, sənin qızına aşiq olub. Gedib Səfərə nə cavab verim? O da deyir ki, mən fikirrəşim, bir həftəyə sənə cavab verərəm. Gedib Molla Pənah Vaqifə deyir. Molla Pənah Vaqif də deyir ki, mən qızı Səfərə versəm, xanın ajığı tutar, verməsəm də Səfər bizdən qisas alar. Molla Pənah Vaqif deyir:

– Mən xanın əhvalının yaxşı vaxdı ona deyərəm.

Bir gün məsələni açıb xana deyir. Bu da o dövr imiş ki, Fətəli xannan İbrahimxəlil xan arasında ziddiyyət varmış. Fətəli xanın iki dənə atı varmış. Bir yerdə deyifmiş ki, mən o atları bütün Qarabağ atlarına dəyişmərəm. Atın birinin adı Qəməri imiş. İbrahimxəlil xan da fikirrəşirmiş ki, necə bunnan qisas ala. Molla Pənah Vaqif bu

məsələni deyəndə deyir ki, ona deyin, görək gedif o atdarı gətirə bilər? Molla Pənah Vaqif Kazıma deyir, Kazım da gəlir Səfərin özünə deyir. Amma kişi bilmirmiş bu Səfərdir, elə bilirmiş Səfərin adamıdı. Səfər orda deyir ki, bu düzələn işdi. Deyir, onda atı gətir, qız sizinkidi.

Səfər gejəynən çıxır yola, gedir çıxır Şahdağa. Yay vaxdı imiş. Eşidir ki, xanın atdarın dağda filan yerdə saxlıyıllar. Yaxınnaşır ora. Deyir ki, mən Dağıstana gedirəm, yol adamıyam. Mümkündü gejəliyim burda? Kişi də qoja ləzgiymiş. Razılaşır ki, qal burda. Bu da elə bir dövr imiş ki, ləzginin qadını başqasıynan oturuf dururmuş. Bir gün iş qurmuşmuşdar ki, arvad ərinin boğazına gejəynən ip salajax, ipin ujunu da kənarda qoyajax. O adam gəlif ordan dartajax, gəlin də içəridən kömək eliyəjəh. Bu hadisə Səfərin bura gəldiyi gejə baş verməli idi. Səfər də uzanmışdı, amma yatmamışdı. Fikirrəşirmiş ki, atdarı nejə aparsın. Qəfildən xəbər çıxır, səs-küy. Səfər hay salır, adamlar qaçır. Ləzgi gəlib buna deyir ki, ay qonax, məni ölümdən qutarmısan. Bu günnən mənim qardaşımsan. Nə məqsədə gəlmisən, mən sənə nə kömək eliyim? Deyir ki, mən atdar üçün gəlmişəm. Deyir, atdarın ikisi də qurbandı. Gedif ikisin də tutuf gətirir, verir Səfərə. Səfər elə yola düşməkdə kişi deyir:

– Bir qədər ayax saxla.

Gedir arvadın başını kəsir, gətirif atır Səfərin ayağının altına. Atın birini Səfər minir, birini ləzgi, gəlillər Qarabağa. Qarabağda bir neçə gün qalannan sora Səfər o kişini yola salır İrana. Səfərin özünə də xan toy eliyir.

## 88-89. XANLIQ MUXTAR

Xanlıx Muxtar gəzəndə yanında adamlar olurdu, onlardan biri də Xansənəmi Əliş idi. Cümə günü çıxırdı gəzməyə, kiminsə tükanının yanında dayanıb dincəlirdi. Harda dayanıb dincəlsə, həmən həftənin axırına kimi hər kəs o tükannan alver eliyərdi ki, Xanlıx Muxtar burda oturufdu, qoy ona xoş gəlsin. Ona görə hər kəs də isdiyərdi ki, Xanlıx Muxtar onun tükanının qabağında otursun. Gəzərdi,

sora gələrdi Ərimgəldiyə. Orda qızılquş uçurdurdu. Qızılquş uçurdanda, – İsmayıl olufdu, onun atının cilovun saxlıyardı, – atın üstünnən düşmürdü yerə. Quş gedirdi, gəzirdi, şikarını eliyirdi, gəlirdi öz yerinə. Atın cilovunu buraxanda İsmayıla beş manat, on manat qızıl pul verərdi. O vaxdan da İsmayılın adı qalmışdı Xan İsmayıl.

Xanlıx Muxtar iyid adam olufdu, eyni anda iki mauzernən eyni nöqtəyə güllə ata bilirmiş. Bakıdan bir nəfəri örgədiflər ki, bu adamı aradan götürmək lazımdı. Ağdam bazarında gəzəndə gülləynən yaxın məsafədən vuruf onu öldürmüşdər.

**89.**

Xanlıx Muxtar qoçu adam olub, həmişə də üsdündə iki tapança olardı, birini bu böyrünə, birini də o biri böyrünə taxardı. Meydan bulağının lap altında bir kişi vardı, – adı yadımdan çıxıb, – onun dörd dənə qızı olub. Bu kişinin vəziyyəti çox ağır olur, qızlarına baxa bilmir. Deyir, gedim özümü Cıdır düzünün qayasından atım, yaxam qutarsın. Gedir də. Sora deyir, burdan özümü atajam, meyidimi ordan əziyyətnən çıxardajaxlar, söyəjəhlər maa. Birdən ağlına gəlir ki, gedim Xanlıx Muxtara camaatın içində söyüm, başıma bir güllə vursun. Həqiqətən də, səhər tezdənnən gəlir. Xanlıx Muxtar da enli kürək, ucaboy bir adam oluf. Bu kişi görür ki, Muxtar lotularnan oturub. Deyir, ə, əlini niyə belə qoymusan? Tapançanı da taxmısan böyrə. Neyniyəssən sən, onnan adam atansan? Bah, atdın ha. Mənə at, görüm ata bilərsən. Xanlıq Muxtar baxır bunun sirinə-sifətinə, ağlı bir şey kəsmir. Deyir, bura gəl görüm. Bunu salır meçidin qabağındakı çayxanaya. Çaydan, qaymaxdan gətirdir. Deyir, yeginən. Bu bir tikə alır, boğazınnan keçmir. – “A kişi, yemək ye. Niyə yemirsən?” Deyir, evdə uşaqlar ajdı, boğazımdan geçmir. – “Əşi, ye, demişəm, uşaqlara da yemək aparajaxlar”. Bunu yedirdənnən sora deyir, de görüm alverdən başın çıxırmı? – “Harşı, mənim atam da ticarətçi olub”. Bu çağırır camaatı, deyir, ay camaat, burada kim maqazin satır? Deyirlər ki, filankəs. Bu durur gedir. Görür maqazinin yiyəsi də burdadı. Deyir, eşitmişəm buranı satırsan? Həqiqidi? Deyir, hə, satıram. – “Nə verəjəm?” Deyir, bir belə

verən olsa, satajam. Maqazini alır, verir bu kişiyə. Deyir, bir ildən sora səni yoxluyajam. Maqazin artdı, verdiyim pulu sənə halal eliyəjəm, artmasa, səni burda güllələyəjəm.

Bu kişi gejə-günüz çalışır, qəşəh də işlədir maqazini. Bir gün Xanlıx Muxtar həmən çayxanada dostlarıynan oturmuşdu. Bu kişi hak-hesab eliyir, görür xeylax artığı var. Artıq pulu bir dəsmala bükür, bular otduğu yerdə qoyur stolun üsdünə. Muxtar deyir, bu nədi belə? Deyir, filan maqazini işlədənəm da. Qazanmışam, artırdığım puldu. Deyir, nə danışırsan? Gəlib baxır, görür, doğurdan da, maqazini böyüdüb. Götürmür pulu. Deyir, bu pul da saa halal olsun. Apar qızdarına xəşdə.

## 90-92. HACI QULU[35]

Hacı Qulu bir tacirin evində nökərçilih eliyirdi. Tacir hər gün alverin pullarını sayırmış. Bu hər dəfə gətirif buna çırax verəndə çırağın altına mum yapışdırır. Çırağın istisinə mum yumuşalır, pullar yapışır muma. Həmin pulları yığır. Bir gün gəlir sahibinin yanına, deyir:

– Sən hər dəfə pul sayanda mən sənə çırax gətirmişəm. Hər dəfə çırax gətirəndə onun altına pul yapışıfdı. Bu qədər pul yığmışam.

Tacir deyir:

– Nə məqsədə yığmısan?

Deyir:

– Yığmışam ki, mən də bir tacir olum.

Deyir:

– Halal-xoşun olsun, apar tacir olginən, nə də çətinniyin olsa maa deyərsən.

O pulu əlində sərmayə eliyir, varranır. Özünə bir bina tikdirir ki, xazeynin evi onun yanında yöndəmsiz bir ev kimi qalır. Yumurta alanda həlqədən keçirərmiş, keçmiyəni götürərmiş.

---

35 Qeyd: Bu nəsilə bələd olan adamların verdiyi məlumata görə, Hacı Qulu əslində varlı bir ailədə dünyaya göz açıb. Atası ticarətçi olub və o, atasından qalan ticarəti inkişaf etdirərək daha da genişləndirib. Amma xalq onun varlanmasını ənənədən gələn süjetlər əsasında özünəməxsus tərzdə izah etməyə çalışıb.

**91.**

Hajı Qulu kasıb bir adam oluf. O dövr Bakıya gəlif quyu qazırmışdar. Bu da qoşuluf bir neçə adama, gəlib çıxıb Bakıya. Quyunu qazan vaxtı birinci qaz çıxırdısa, adamı tez çəkib çıxarırdılar, o, ölmürdü. Neftnən qaz eyni vaxtda çıxanda boğulub ölürmüşdər. Bu da gəlib üç-dörd ay qalıbdı. Görüb ölən çoxdu, özü də əziyyətdi işdi. Fikirrəşir ki, gedib çobançılıx eləsə, bunnan yaxşıdı. Yoldaşdarına deyir ki, mən gedirəm. Ağdam-Xankəndi yolunda Əjdaha bulağı var. Bu gəlif çıxıf ora. Kölgə düşən yer tapır ki, burda gözdəsin. Gejə düşəndə evə getsin ki, bunu heş kəs görməsin. Neçə vaxtdı evdən çıxdığı, əliboş geri qayıdır. Çarığının dabanı deşilibmiş. Çarığın dabanın yerə sürtür, sürtür, görür dabanı bir daşa ilişdi. Bir az o tərəfə, bu tərəfə eliyir, görür daş ayağının altında tərpəndi. Deyilənə görə, qabaxlar küp basdıranda daşdan küpağzı olurdu, onu xüsusi olaraq yondururmuşdar, küpün ağzına qoyurmuşdar. Görür ki, bu küp daşıdır. Əlini içinə salır, görür qızıl puldu. Küpün qırağın qazanda görür küpün böyründən bir zincir başqa yerə gedir. O zincirin iziynən gedir, onun böyründə bir dənə də küp tapır içi dolu gümüş pul. Gejəni gözdüyür, ay qalxandan sora gəlib qapını döyür. Arvadı deyif, kimsən? Deyir, aaz, mənəm, gəlmişəm. Deyilənə görə, buların bir dənə döşəkləri olufdu, içi saman oluf. Arvad deyif, a kişi, nə gətirmisən? Deyir, aaz, var-dövlət gətirmişəm, gizdətmişəm. Gedirəm onu gətirməyə. Döşəyin samanını boşaldıb üzünü götürür. Uşaqlıq dostu varmış, gedib onu da durğuzur. Qızılı, gümüşü yığıb gəliflər. Bu, səhər gedib bazara əyninə paltar alır, evinə bazarrıx eliyir. Bu pulnan kef eliyirmiş. Dostu buna deyir ki, a Qulu, belə eləmə, bir mülk tikdir, bir işnən məşğul olginən. Onun məsləhətiynən həmən evi[36] tikdirir. Şüşü kəndində ferma açır, çoban tutub at ilxısı, heyvan sürüsü saxlıyır.

---

[36] Hacı Qulunun Xoca Mərcanlı məhəlləsindəki imarəti nəzərdə tutulur. Şəkli bu kitabda da verilmiş həmin imarət 1851-ci ildə tikilmişdir. Üç mərtəbədən ibarət binada 46 otaq və 2 böyük zal var idi. Deyilənə görə, həmin evin tikintisi zamanı divarların möhkəm olması üçün palçığa yumurta qatıblar. Zəlzələ vaxtı evə ziyan dəyməsin deyə, onun özülünə və daş sütunların dama birləşdiyi yerə qurğuşun tökülüb.

**92.**

Hacı Qulu da çox ağır vəziyyətdə yaşıyıb. Biçin vaxdı arana gedib biçinə. Orda da heylan düşür, bunu qızdırma xəsdəliyi tutur. İş görə bilmir, çox acınacaxlı halda qayıdır Şuşaya. Kərat yolunan gələndə fikirrəşir ki, hava işıxlıdı. İndidən evə getsəm məni görəjəh-lər. Qoy bir az gözdüyüm, qarannıx olsun, gedim. Deyir, yolda otur-sam gəlib-gedən görər, tanıyar məni. Müsəlman qəbirstannığının ayağında böyük dərə əmələ gəlmişdi. Düşür bu dərəyə, böyründə də böyürtkən kolu var idi, böyürtkən kolunun altına girir. Deyir, qaran-nıx düşüncən qalım burda. Bir də görür ki, bir dənə mişoul ağzında bir dənə qızıl dərənin bu tərəfindən keşdi o tərəfinə. Orda bir deşiyə girdi. Bir az keşdi, çıxdı gəldi, bir də. Baxır, görür orda bir dənə saxsı görükür. Durur ki, baxsın, görsün nədi. Sən demə su yuyub oranı, qızıl küpü çıxıb üzə. Mişoul da bu qızılları daşıyır öz yuva-sına. Daş atıb mişoulu ordan uzaqlaşdırır. Qarannıx düşəndə küpün böyrünü sındırır. Qızılları ciblərinə, qoynuna, qoltuğuna yığır, gəlir evə. Qapını döyür, qızının biri gəlib açır. Elə bilir bu dilənçidi. Anası deyir, ay bala, kimdi? Deyir, dilənçidi. Deyir, denən nəyimiz var yeməyə, saa da verək. Bu genə qapını döyür. Arvad özü gəlir ki, buna ağır cavab versin. Baxır görür ki, yoldaşıdı. – "Ə, bu idimdə niyə gəlmisən?" Deyir, ay arvad, dinmə. Girir içəri, o uşağa bir qızıl, bu uşağa bir qızıl. Qalanın da boşaldır yerə. Arvadına deyir, meşoxları götür, gedək. Bir də dəhrə götür ki, görən olsa elə bilsin kol qırmağa gedirik. Gedillər səhərə kimi o qızılı daşıyırlar. Həmən qızılın hesa-bına torpaq alır, o evi tikdirir. Onun bünövrəsi qurğuşundan idi.

## TAYFA VƏ NƏSİLLƏR HAQQINDA

### 93-102. BARTAZ

Kənd yeddi məhlədən ibarətdir: Aşağı məhlə, Hacıqulu məhləsi, Dərə məhlə, Orta məhlə, Xıdır məhləsi, Alcəfərli məhləsi, Quyruq məhlə. Kənddəki tayfalar: Hacıqulular, arzulular, maşatqulular, ma-şatcəbrayıllar, kəlbililər, yarvarətlilər, mehdililər. Musa Cəbrayı-

lovun dediyinə görə, Müşülan kəndində bir bəy olubdu, arvadının adı Arzu olubdu. Bəy rəhmətə gedib, Bartazdan Sadıq adında kişi Arzuynan evlənib. Sadığın uşağı olmurmuş. Niyyət edib ki, mənim bir oğlum olsun, adını Dilənçi qoyaram. Həqiqətdə də, bir oğlu olur, adını qoyur Dilənçi. Dilənçinin adı ilə bağlı çox böyük sahələr son illərə qədər Bartaz kəndində qalmaqda idi. Arzulular nəsli həmin qadının adı ilə adlanır.

Qaradağlılar İranın Qaradağ mahalından gəliblər. Etibar müəllimin dediyinə görə, nənəsi deyərdi ki, şah dövründə münaqişələri yaranıb, babaları ordan qaçıb Arazın bu tayına keçib. Qəhrəman da onda cavan imiş, əmisi qızına deyikli imiş. Əmisi qızının dalınca gəlir Üzgün kəndinə. Arazı keçəndə ona güllə atıb çiynindən vurmuşdular. Əmisi deyib ki, ay bala, sənin yeddi bacın var. Sən xuduru gəlmisən[37]. Ona qulaq asmayıb, qalıbdı. Üzgün kəndində evlənib, arvadı rəhmətə gedəndən sora gəlib Bartaza. Qəhrəmanın üç qızı olub, İranda qalan bacılarının adını qızlarına qoyub: Zəhrabəyim, Səkinəbəyim, Xədicəbəyim. O vaxt ona sual veriblər ki, sənin bacılarından nə xəbər? Deyib, heç narahat olmayın. Bacılarımın da adı burdadı, nənəmin də. Nənəsinin adı Bəyim olub.

Kənddə bir çox tayfalar müəyyən xüsusiyyətlərinə görə tanınır. Hacıqululara deyərdilər ki, bu tayfa borc qaytarmır. Tutu İbrahimovanın dediyinə görə, babası uzanardı, deyərdi ki, yatıram yanım ağrayır, dururam, canım ağrayır. Hacıqululurda bir az alacağım var, onu da ala bilməyəndə tamam hər yanım ağrayır. Hacıqulular borc alar, qaytarmazlar. Alcəfərlilər haqqında da deyirlər ki, Alcəfərlilər toy eləyəndə qar yağar.

**94.**

Babam Qəhrəman İranın Qaradağ mahalından gəlib. Dayımın uşağı ölüb. Yasda iştirak edənlərin hamısı arvad tərəfin adamları olub, babamın qohumları İran tərəfdə olduğundan yasa gələ bilmiyiblər. Nənəm onda yasda belə bir ağı deyir:

---

[37] Xuduru gəlmək – nahaq gəlmək, əbəs yerə gəlmək

Əzizim, varsa, gəlsin,
Kimsənəm varsa, gəlsin.
Bu gələn mənimkilərdir,
Qəhrəman kişi, sənin də varsa, gəlsin.

**95.**

Kənddə deyirdilər ki, Kalbay Fərzalının qışda pişiyi olasan, yayda iti. Yəni qışda pişik evin isti yerində olur, yuxarı başda yükün üstündə yatır. Yayda da gedirlər dağa, it sərin yerdə olur.

Kalbay Fərzalının oğlanları çox məşhur olub. Onun böyük oğlu ölüb. Öləndə İran xanları yasa gəlib. İrannılara da qayınatam deyərdi ki, onlar köhnə çarıq oğurruyandılar. Kişi baxıb ki, İran xanlarının hamısı gəldilər. Kalbay Fərzalı da qara heyvan saxlıyırmış. Qara qoyunnarın sürüsü tökülürmüş, elə bil qəcir tökülürmüş. Kişi gətirib heyvandan kəsir, kabab, yemək-işmək... Arvad da baxır. Görür ki, bu kişi heç oğlu ölənə oxşamır. Deyib gülür, kababdan çəkdirir, yeyir, içir. Arvad içindən yanır ki, bu nə olan şeydi, kişinin qakqıltısı düşüb yerə-göyə. Bunlar gedənnən sora arvad deyir ki, səni yanasan, Kərbalayı.

Aşıq gəncəli bağlar,
Divi yoncalı bağlar.
Hüseyn kimi oğlu ölən dədə
Oturub dincəlib ağlar.

Sən nəyə gülürdün?

Deyir:

– Yanasan, arvad.

Mən aşıx, gül məkanda,
Gülü gör gül məkanda.
Düşmanım gəldi, güldüm,
Mən handa, gülmək handa.

Onlar gəlmişdi ki, kişinin beli sınıb, oğlu ölüb. Bunun gəlib malın-devlətin talıyıb aparacıyıx. Mən də güldüm ki, ölməmişəm hələ. Ondan başqa üş dənə oğlum var.

**96.**

Kalba Bəşir çıxıb balkonda gərdiş gedərmiş, kəndi müşayət edərmiş. İndi hər kəndin kasıbı, varlısı var dana. Bir dənə arvad vardı, bizim məhlədə olurdu, kimsəsiz idi. Təhnə[38] arvad idi, adı da Gülxanım idi. Bir gün kişi balkonda gərdiş gedirmiş, Gülxanım gəlib əvin altından keçəndə deyib:

– Gülxanım.

Deyib:

– Bəli, Kəlbay əmi.

Deyib:

– Bura gəl.

Gedib:

– Qadan alım, Kəlbay əmi, nə deyirsən?

Deyir ki, Gülxanım, mən bunnan üçüncü dəfədi görürəm ki, sən gəlib bu kəndin içinnən keçirsən, kənddən çıxırsan. Hara gedirsən? Deyir:

– Kəlbay əmi, qışda kimə gedim ki, maa odun ver? Zəmilər biçiləndə yerə düşən sünbüldən özümə urzu yığıram.

Deyir:

– İrannan bizim aramızda bir dənə Araz var. Olar danışanda biz eşidirik, bizim də səsimizi olar eşidir. Gedərsən sərhədə, səni təhna görəllər, İrannan gəlib səni aparallar. Mənim namusuma toxunarsan. Deyərlər ki, Kəlbay Bəşirin kəndindən bir kadın gətdik. Nə bilsinnər Gülxanımdı, yoxsa mənim xanımımdı. Get, gir evinə. İl başına kimi yeyəcəyini də verəcəm, yanacağını da verəcəm. Sənin bir də Araz qırağına getdiyi görmüyüm.

**97.**

Kalba Bəşir bir oğlunu "bəli" deməməyinə görə ortasınnan vurub öldürüb. Oğlu Müzəffəri çağırıb. Oğlu da atnan qapıdan keçirmiş. Oğlu deyif:

– Hey.

Deyif:

---

[38] Təhnə – tənha

– Dayan.

Girif içəri, tüfəngi götürüb oğlanın ortasınnan vurub. Evdəkilərə deyir, götürün aparın dama, heç kəs dinməsin. Qapını bağlıyın, toya gedin. Toydan sora deyərsiz ki, Müzəffəri Kalba Bəşir vurdu.

**98.**

Bartazda elə adamlar var ki, iynənin sapına, ıldızına güllə atıblar. İrannan gəlillər ki, Bartazı çapıb talasınnar. Girillər Bartaza, görüllər bura qala kimidi, buranı çapıb-talamaq çətin olar. Deyillər, kimlər burda iyitdi, çıxsın qabağa. Hədəf qoyuf atacağıx. Yumurtanı qoyuflar dağın başına. Atıflar, biri vuruf, biri vurmuyuf. Deyiflər ki, Kəlbiyalı oğlu Həsən var. Həmin Həsən iynənin ıldızına güllə atır. Ona deyiflər ki, Həsən, sən də ayax saxla. Deyir:

– Mənə maraxlıdı, nəyə atırsız?

Deyir:

– Yumurtaya.

Deyir ki, mən iynənin sapına, ıldızına güllə atıram. Yumurta nədi? İynəni saplıyıf ağaşdan asıllar. Deyir:

– Hansına atım? İynənin ıldızını vurum, sapını vurum?

Deyillər ki, sapını vur. İynənin sapını vuruf, iynə düşüf yerə. İkinci dəfə iynəni saplıyıf bir də asıflar. İynənin özünü vuruf, güllə iynəni sovuruf aparıf. İrannılar deyif ki, bular iynənin ıldızını vurur, bura girmək olmaz.

**99.**

Bizimkilər İrana gedif. Orda da bir pəhlivan damın üstünə çıxıf deyir, ay mənə qənim. Bizimkilər deyif, Həsən, sən özünü ver irəli. Deyir ki, vallah, bunu damdan ataram yerə, şikəst olar. Ayiləsi-uşağı var. Qalxır damın üstünə. Çuxasın ətəyin yığışdırır, özün sazdıyır. Damın bir o başına baxır, bir bu başına baxır. Deyillər, Həsən, nə gəzirsən? Pəhlivan səni gözdüyür. Deyir:

– Bunu damdan salajam yerə. Yazıxdı, deyirəm el yerə atım ki, ayiləsi, uşağı var, bədbəxt olmuya.

Deyir, Həsən belə baxdı, bir də buna dönəndə iranlı pəhlivan tullandı, qaşdı.

**100.**

Nəbi özünə layiq at axtarırdı. Soraq eliyif, buna deyiflər ki, Bartazda belə bir at var. Bizdə Dərəli Kamal, Camal qardaşları vardı, onların babalarının yaxşı bir atı olub. Bu atı buna nişan veriblər. Nəbi tək gəlif, evi soruşuf. Deyif, at almaq isdiyirəm, qonax gəlmişəm. Evin xanımı deyif ki, otur, gələllər. Gələndə görür atı gətirib bağladılar. Bunun gözü atı tutur. Bilir ki, deyilən at budu. Atın yiyəsi də beş-altı qardaşdı, hamısı da vuran-yıxandılar. Deyif, gəlmişəm at almağa. Kəndi soraxlıyax. Soraxlıyıflar, at satan olmuyuf. Özün vuruf xəsdəliyə ki, başım ağrıyır, bir dənə yumurtanı ilıx bişirin, içərəm. Bişirib gətiriblər, onu da duzsuz içib. Fikri vardı ki, oğurrux eliyəjəm, duz-çörək tutar məni. Tezdən deyir ki, at satan olmadı. Mən də xəsdəyəm, tək gedə bilmiyəcəm. Biriniz Müşülan yoxuşuna kimi məni ötürsün, bizim adamlar Qubadlıdan gəlir, ordan ayna olarnan gedərəm. Deyirdilər ki, Nəbi gecə iki dəfə çölə çıxmaq adınan cəhd eliyir ki, atı minib qaçsın. Qardaşdar da qalxır deyə alınmır. Görür alınası məsələ deyil. Tezdən bu əməliyatı qurur ki, özümü vurum xəsdəliyə. Tezdənnən çörək yemir, aj evdən çıxır. Bunu mindirillər ata, qardaşlardan biri də bunun tərkində. Müşülan yoxuşuna çatanda atın sahibi deyir ki, at yaxşı atdı, ona əziyət vermiyək. Mən düşüm, at çıxsın yoxuşun başına, minim gedək. Onda Nəbiyə məqam çatır. At yiyəsi yerə düşən kimi Nəbi atı vurur, bir az uzaqlaşır. Deyir, arxamca gəlmə, at mənimdi. Bir kisə də qızıl atır, deyir:

– On dənə atın pulu var orda. Gedin özüzə at alın, bu at mənimdi.

Nəbi də Boz atı belə aparır.

**101.**

Əvvəllər bizim camaat alış-verişə Şuşa qalasına gedirdi, Ordubatda ticarət yeri açılannan sora yaxın olduğu üçün Ordubada getməyə başladılar. Bir gün də dəstə bağlıyıf Ordubada gedəndə görüllər iranlı qadınlar Arazın qırağında paltar yuyullar. Üst paltarların çıxarıblar. Bizimkilərdən biri bulara söz atır. Deyir ki,

Ay qız, ay qız, əhəngdi,
Dalındakı səhəngdi.

Mən ölüm, de görüm
Bu Araz neçə səhəngdi?

Deyir, həmin qadınlardan biri qalxdı ayağa, çarşaba büründü, gəldi üzbəüz durdu. Dedi:

– Zalım oğlu,

Oturmusan daş üsdə,
Qələm oynar qaş üsdə.
Sən hayxır, Araz dursun,
Mən sanayım, baş üsdə.

Belə irannılar bizimkiləri bağlıyıllar.

**102.**

Bir dəfə bizim kəndə pəhlivan gəlmişmiş. Orta damüstü deyərdilər, kəndin mərkəzi idi. Soyunub "ay maa qənim" deyə-geyə gəşt eliyirmiş. Gülüoğlu Əmrax varmış, cütdən gəlirmiş. Əlləri də toz-torpaxdı dana. Əkindən gələnin üst-başı torpax olar. Gəlib görür ki, camaat yığılıb, pəhlivan gedir o başa, gəlir, deyir: "Ay maa qənim". Yaxınnaşır, deyir:

– Saa qənim mən, bura gəl.

Gülü adında qardaşı varmış. Deyir:

– Qardaş, bu fəndnən yıxır ey, güjnən yıxmır.

Yanı sən güjdü də olsan, bunun fəndi var. Əmrax bir əliynən pəhlivanın peysərindən tutur, bir əliynən də qıçının yuxarısından, qaldırır göyə. Deyir:

– Qardaş, fənd bunun harasındadı görəsən?

**103-106. SOBU**

Eşitdiyimə görə, Sobuluların kökü Lələ bəy Şamlıya gedib çatır. Şam şəhərindən gəlib Kərbalada şəhid düşüblər. Orda sağ qalanlar gəlib çıxıblar Təbrizə. Burda iki tayfaya ayrılıblar. Tayfanın biri olubdu Lələ bəy Şamlı, biri də olubdu Seyid Şah Alı. Bizim kəndin bünövrəsi Seyid Şah Alının qızından, Lələ bəy oğlu Heydər ağadan törəmədir. Dörd qardaş olublar, bular gəliblər Sütənə, Gül-

dürə, Aşıxlıya[39]. Dörd qardaş burdan da gediblər Sobuya. Baxıb görüblər buranın həm quzeyi var, həm güneyi var. Sobu dağın üstündə yerləşir, o üzündə çay var, bu üzündə su var. Əsil içməli su budu. Bular bir neçə yeri nişanlayıblar. Sora gəlib oturublar, məsləhətdəşiblər. Deyiblər ki, su budu, gedək orda köç salax. Bu qardaşlarda belə bir adət olub ki, olar kənardan qız almırmışdar. Bu qardaş o qardaşın qızın alırmış oğluna, o bacı bu qardaşın oğlun götürürmüş qızına.

Sobuya dörd qardaş gəlib: Bədirxan, Camalxan, Məhərrəm katda, İsmayılxan. Bu dörd qardaş Təbrizdən gəliblər. Buların bir əmiləri Sütəndə olub, bir əmiləri Aşıxlıda olub. Aşıxlıdan addıyıblar bu taya. Bir il, iki il qalıblar Xuramada. Sora ordan da köçüb Sobuda məskunnaşıblar. Həmin tayfadan bir qol gəlib çıxıb Şamaxının Şamlılar kəndinə. O kənd indi dağılıb, onlardan bir-iki ayilə Qobustandadır. Bir qolu gedib Cəbrayılın Horovlu kəndinə çıxıbdı. Buların hamısının mərkəzi olubdu bizim kənd. Bizdən də bir qol gedib Top kəndinə, bir qol gedib Xınzır kəndinə, bir qol gedib Əsgərriyə, bir qol gedib Şamlıya. Erməni-müsürman davasında ermənilər bizim kəndi yandırdılar, onda camaat köçdü aşağı. Sora müəyyən adamlar dala qayıtmadı, qaldılar orda-burda: bir qrupu getdi Şamlıda məskunnaşdı, bir qardaşın uşaxları getdi Horovlu tərəfə. Əvvəl Siriyə gediflər, orda məskunnaşa bilmiyiflər, gəliflər Horovluda məskunnaşıflar. Oların bizim kəndnən əlaqələri var idi. Gəlif bizdən qız alıf aparırdılar, bizdən olara qız gedirdi.

Sovet hökuməti gələndə bizim camaata münasibət pis idi. Qlubinski əməliyyatına görə bizim kəndin adın pisə çıxartdılar, camaatı incitdilər, ona görə camaat da dağılışdı. 1900-cü ildə bizim kənd 100 ev idi, amma erməni-müsərman davasında yetmiş, yetmiş beş ev, biz qaçqın gələndə isə cəmi otuz iki ev qalmışdı. Bizim kəndin qəbirstanlığının tarixi dəqiqdir. Qəbirstanlığın ortasında bir dənə uzun qəbir vardı. Uzunluğu iki metrdən artıq idi. Mincivanda Molla Əsgər vardı. Bizim kəndə yasa gələndə daşın üstündəki yazını ona oxut-

---

[39] Arazın o tayındakı kəndlər

dum. Ərəb əlifbası ilə Azərbaycan dilində yazılmışdı. Yazılmışdı ki, Katda Məhərrəm, 1751. Qardaşı oğlu Camalxandan yadigar. Camalxan Alqulu katdanın oğludur. Dədəmgilin dediyinə görə, Məhərrəm katda qardaşı oğlunu göndəribdi Buğakərə. Camalxan ordan bir daş götürüb, qatırnan aparıb Ordubatda yazdırıb gətirib. Dədəmgil deyərdi ki, Katda Məhərrəm həmin ilin ya payızında, ya da yazında ölüb. O dövrdə Ördəkli, Çöpədərə, Dəlləkli, Baharlı, Qaradərə, Sobu kəndləri ölülərini aparıb Qarözdə basdırırmış. Orda hər kəndin yeri varmış. Həmin qəbirstannığın yerini Məhərrəm katda Seyid Şah Alıdan alıbdı. Şah Alıya deyib ki, bu torpağı ver mənə. Şah Alı deyib ki, neynirsən? Deyib, mən öləndə burda məni basdırsınnar. Deyib, bu torpağı sənə satsam, mənim də bacım uşaxları burdadı, bəs olar öləndə harda basdırılacax? Elə bu torpağı mən pay verirəm, amma bir şərtnən ki, qəbirstannıx eliyəsən. Məhərrəm katda öləndə həmin yerin ortasında qəbiri qazılır, orda basdırılır.

Biz hamımız Lələ bəy Şamlının törəməsiyik. İrannan bizim kəndə gələnnər deyirdilər ki, biz Heydər ağanı axtarırıx. Heydər ağa Lələ bəyin oğlu olub. Heydər ağa da bizim kəndin bünövrəsini qoyan dörd qardaşın atası olub. Bizdə əsasən Heydər ağa haqqında danışılardı, onun məsləhətləri deyilərdi. Dədəm deyərdi ki, Heydər ağa deyib ki, vaxt gələcək Sobu şəhər olacax. Heydər ağa deyirdi ki, bala, vaxt gələcək Sobunun qaçağı İrannan keçəcəh. Sərhəd açılanda İrannan gəlib gedənnər bizdən soruşardı ki, Heydər ağanın övladlarından kim var? Biz Arazın qırağında işdiyəndə aşıqlılar soruşardılar, biz qorxardıx cavab verməyə. Soruşardılar ki, Heydər ağanın balalarınnan kim var, Heydər ağa hardadır? Olar elə bilirdilər ki, Heydər ağa rusun içindədi. Bizim ağsaqqallar deyirdilər ki, heç vaxt rəhbəri söymüyün. Kimsə rəhbəri söyəndə deyirdi, nəbadə, nəbadə bala. Heydər ağanın ruhu var o rəhbərlərdə. Heç vaxt söymüyün, günahdı.

Çöpədərədən bizim kəndə gələndə yolaşanda Ağa kələyi deyilən yer var, Heydər ağanın daş qoyub oturduğu yer idi. Bir də dağda Heydər ağa yurdu vardı. Orda üş dənə daş vardı, kəmərə[40]

[40] Kəmərə – qaya daşı

daşı idi, üst-üstə qoyulmuşdu. Deyilənə görə, Heydər ağa gəlib o daşın üsdə oturmuşdu. Ona deyirdilər Ağa kələyi. Bizə deyirdilər, bala, Heydər ağa daşı qoyub üs-üsdə, oturub orda. O daşa dəymiyin. Onun böyrünnən daş çıxarıb gətirirdilər, amma ona dəymirdilər. Maşın yolu çəkiləndə yolu bir az aşağıdan çəkdilər, o daşa dəymədilər. Orda yolu ötən daşı öpüb gedərdi.

Böyüklərin dediyinə görə, şamlılar Şam şəhərinnən gəliblər, qoşulublar İmam Hüseynin dəstəsinə. Gəlib Kərbalda şəhid olublar. Qalannarı gəlib çıxıblar Təbrizə. Təbrizdə Şah İsmayıla qoşulublar. Biz Şah İsmayılı imam kimi qəbul eliyirik. Yaşdı adamlar təklikdə onun cəddinə and içərdilər. Məsələn, bir qan işi olanda "İsmayılın cəddi haqqı, mən bunu görmüşəm" deyirdisə, onnan qan bağlanırdı. Biri birinnən mübahisə eliyəndə Heydər ağanın adını çəkərdisə, o söhbət bitərdi. Desəydi, səni and verirəm Heydər ağanın cəddinə, qurtar bu söhbəti. O söhbət bitərdi. Və yaxud birinin qızı acıx eliyif gedəndə Heydər ağaya and verəndə qayıdıf gələrdi. İsmayılın adınnan dədəmgil and içərdi, o da öz aralarında. Seyid Şahalının cəddinə and içərdilər. Seyid Şahalı da həmin törəmədəndir, Heydər ağa onun atasıdır. Dədəmgil söhbət eliyirdi ki, bu ikinci Heydər ağadır. Bu Heydər ağa addısı Heydər ağadır. Deyirdilər ki, onların ruhu qocalmır. Deyirdilər ki, Heydər ağa Seyid Lələnin oğludur. O da Şah İsmayıl Xətainin qohumudur. Mən dədəmdən bir dəfə soruşmuşam ki, İsmayıl kimdi. Bizim kənddə də İsmayılxannılar vardı, Katda Alqulunun bir qoludur. Mən buları bilirdim. Dedi, yox, bala, Şah İsmayıl Xətai eşitmisən? Onun əsil adı Seyid İsmayıldı. Seyid İsmayıl Seyid Lələnin qohumudu. Olar seyid törəməsidi. Seyid Lələnin oğlu Heydər ağadır. Bir dəfə mən Şah İsmayılın kitabın oxuyurdum. Dədəm baxdı, heç bir söz demədi. Mən kitabı yerə qoyannan sora gördüm kitabı götdü, öpdü, gözünün üstünə qoydu. Dedim, a dədə, rusun kitabın niyə öpürsən? Dedi, səsini kəs, sənnik deyil. O kitabı götürdü, Şah İsmayılın şəkli olan səhifəni cırdı, məxmər parçanın arasına qoyub o şəkli ölənə qədər saxladı.

Bizdə böyüklər süfrəyə Əli süfrəsi deyərdilər, ruzu-bərəkətə Heydər ağa ruzusu deyərdilər. Məsələn, oturmuşux süfrədə, çörək

yeyirik. Böyüklər deyərdilər ki, a bala, bu Əli süfrəsidi, Heydər ağa bərəkətidi, buna haram qatmıyın, bedayax[41] danışmıyın. Dədəm arada burnun tuturdu. Deyirdi, burnum göynüyür, Heydər ağaya çox and vermiyin.

Bizdə siqaret çəkmək qəti qadağan idi. Məsələn, siz bizim evə qonax gəlseydiz, dədəm bilseydi ki, siz siqaret çəkənsiz, mütləq qovardı. Mən gizdində evdə siqaret saxlıyırdım, qonax gələndə təklif eliyirdim ki, çıxax həyətə. Bizə bir rəvayət çatdırmışdar ki, Əliynən Ömər yol gedirmiş. Əli deyir, əmioğlu, sən yavaş-yavaş get, mən çönürəm bayıra. Ömər bir az gedir qabağa, bunun da bayrı gəlir. Oturur, bu da bayıra gedir. Ömər görür Əli gəlir, durur ayağa, papağın qoyur üstünə. Əli gəlir, deyir: "Əmioğlu, papağı götür, gedək". Ömər götürmək istəmir. Deyir, götür, götür, onsuz da altı boşdu. Papağı götürür, görür ki, altı boşdu. Ordan bir alax çıxır. Bu olur tənbəki. Ömərin adamları bunu götürər, bir az üstündə gəzdirər, bir az çiyniyər, axır yekunda bunu eliyillər siqaret. Bizə deyirdilər ki, papiros Ömər nəcisindəndi, onu ağzıza almıyın. Kim də paprios çəksə, bığı saralacax, o, Ömərin adamıdı, yezitdi. Bizdə İmran adında bir kişi olur, mağazində işdiyir. Gəlir rayona. Buna on dənə külqabı verillər. Kəndə gəlir, fikirrəşir ki, Sobu hara, külqabı hara. Bunu heç kim almıyacax. Külqabının üstünə yazıblar "pıpılnisa". Bunu pozur, yazır "saxarnisa". Bir az da tez-tez danışan idi. Şaasənəm arvadı çağırır ki, Şaasənəm, Şaasənəm, bura gəl. Gəlir. Deyir ki, saxarnisa, saxarnisa. Apar, daldada saxla, sobulular görməsin. Bu da aparar, qoyar qıravatın dalına. Bunun bacısı uşaxlarının biri rayonda milis idi. Həmin bacısı oğlu bir gün gələr kəndə. Şaasənəm qəndi qoyar külqabına, gətirər qoyar süfrəyə. Bacısı oğlu deyir ki, ay xala, sobulular belə şeyə pis baxır. Qətdanın yoxdu, heç olmasa nəlbəkiyə bu qəndi qoy, qoy bura da. Deyir ki, ay bala, nədi ki? Deyir, bu külqabıdı. Deyir, güllə İmrana dəysin, bunu mənə saxarnisa adıynan verib ey.

İmam Əli əleyhsalamın göstərişi olub ki, kim bizi qəbul eliyirsə, siqaret çəkməsin, buğun vurmasın. Kim siqaret çəksə, onun buğu

---

[41] Bedayax – nalayiq

saralacax, onda biləcəyik ki, o bizim tayfadan dəyil. Ona görə ağsakqallar deyərdi ki, əliniz siqaretə dəyməsin. Belə rəvayət eliyillər ki, o vaxt kimsə buna əməl eləmiyib, əlinə siqaret götürüb. Deyiblər, barmağın kəsək. Deyiblər, qoy qalsın, dırnağın kəsin. Ona görə deyirdilər ki, bax əlinə siqaret götürsən barmağın kəsiləcək. Yaxud, kimsə siqaret çəkib. Deyiblər, dodağın kəsək. Deyiblər, dodağın kəsməyin, bığın kəsin, buraxın, getsin. O, daa bu millətdən dəyil. Siqaret məsələsində dədəm deyərdi ki, siqaret insanı öldürür. Sən əgər Allaha inanırsansa, ona xəyanət eləməməlisən. Allah-taala o canı sənə əmanət verib, sən niyə ona xəyanət eliyirsən? Deyərdilər ki, papiros çəkənin evinə oğru gəlməz. Çünki o həmişə öskürür.

Sovet dövründə bizim kənddə tütün əkdilər, amma məhsul götürə bilmədilər. Tütün niyə bitmədi onu mən sənə deyim. Günüz hamı ayağına qaloş geyirdi, kəndin o tayında tütün əkirdi. Gecə beş nəfər cavan hərə əlində bir vedrə qaynar su, bir də quruşqa girirdilər əkinə. Quruşqanı qaynar suynan doldurub tütünün üstünə tökürdülər. Səhər gəlirdilər, görürdülər tütünün hamısı boynunu büküf. Beşinnən biri bitirdi, üçü bitirdi, o da məhsul verəmmirdi. İki il əkdilər, heç ştilin pulun çıxarammadılar.

Bığ saxlamaq məsələsi də ordan qalıb. Hətta bizim ağsakqallar deyirdi ki, bığın bir tükü bir imam qanıdır. Siz ona heç vaxt qayçı vurmuyun. Əgər ona qayçı vurursuzsa, imam qanı tökürsüz. Tükün biri bir qurban idi. Əgər bığından bir tük düşübsə, mütləq bir qurban kəsməli idin. Bığın qabağına da, uclarına da qayçı vurmazdılar. Bizim camaat ömürboyu bığına qayçı vurmuyub. Anadan necə çıxıb, helə də qalıb. Əl-üzün yuyanda, bığın buranda, darıyanda düşən olardısa, onu təmiz əskiyə pükərdik, təmiz yerdə, Seyid Qurbanın qəbirinin böyründə torpağa basdırardıx. Bir də bir qurban alıb kəsərdilər. Bizdə elə olurdu ildə iki, üç dəfə elənçik qurban kəsilərdi.

Məhərrəmliyi biz adi məhərrəmlik kimi qeyd eliyirik, mərsiyə demirik. Toy eləməzdik, elçi getməzdik, şadlıx eləməzdik. Qonşu Bartaz kəndində ələm ağacı bəziyirdilər, üstünə əl qoyurdular kəndi gəzdirirdilər, mərsiyə deyirdilər. Amma biz ələm bəzəməzdik, mərsiyə deməzdik, qılınc vurmazdıx, baş yardırmazdıx. Qonşu kəndlər

də bizə irad tutublar ki, siz Məhərrəmliyi keçirmirsiz. Seyidlər bizə icazə vermiyib. Deyiblər, imamı heç kim öldürə bilməz, ancaq onun yasın saxlıyallar. Sən qan tökə bilməzsən. Bu canı Allah-taala sənə əmanət verib, ona xəyanət eliyəmməzsən. Sən qılınc vurmağnan, baş yarmaxnan Allaha xəyanət eliyirsən.

Qətl günü ehsanat verirdik. Bizdə ildə iki dəfə ehsanat olurdu: bir qətl günü, bir də qara bayramda. Qara bayram axır çərçənbədən bir cümə qabax olardı. Kimin nəyə imkanı çatırsa, düyü, yağ, bir də bir heyvan özləriynən götürərdi. Kimin təzə ölüsü ölübsə, arvatdar gedib orda ağlaşardı. Seyid Qurbanın kümbəzinin böyründə oturmağa yer vardı. Kişilər bir tərəfdə oturardı, arvatdar bir tərəfdə. Orda qazan asardılar, plov bişirərdilər, ehsanat verərdilər. Qəbirstannığa xurma gətirmisənsə, deyərdilər ki, alanda elə eləginən hər adama bir dənə xurma düşsün. Məsələn, kənddə yüz əlli adam var, mən də iki kilo xurma almışam. Qəbirstannığa aparanda soruşurdular ki, yüz əlli dənə var? Deyirdim ki, saymamışam. Deyirdilər, daldada say, camaat görməsin. Birinə verdim, o birisinə çatmadı, bu ehsanat olmadı. Gərək hamıya çatsın. Yolnan gələn-gedən olanda təklif eliyirdik, bir qab ehsanatdı, gəlib yeyirdi. Hamilə qadınnar, qırxı çıxmamış uşaxlar, qocalar ora gəlməzdi. Onların payı evə göndərilərdi. O ehsanat eynən qətl günü də verilərdi. Tək-tək imam ehsanı verənlər olurdu, evində verirdi. Biri şirin su paylıyırdı, biri havla çalıb paylıyırdı, biri heyvan kəsirdi, yemək bişirib paylıyırdı. Yaxud çağırırdı, məclis açırdı. İmam ehsanı Məhərrəmliyin sonunda, ilin isdənilən vaxdı verilirdi. Qətl günündə gedirdilər Seyid Qurbanın qəbirinin üstündə oturub hər kəs öz ölüsünə ağlıyardı. İmamlar haqqında mərsiyə deyilmirdi. Qətl günü qəbirstannığa gediblər, gözdüyüblər, gün dönəndən sora, yəni qətl sınannan sora ehsanat eliyiflər. Həmin gün mənim dədəm oduna getməzdi. Həmin günü hamı evdə olardı, yalnız çoban naxıra gedərdi. Üzüm bağları kəndə yaxın idi, işə gedən ora gedərdi, on birə, on ikiyə kimi işdiyib gələrdi. Həmin gün təndir qalamazdılar. Çörəyin bişirənlər bir gün, iki gün qabaxcadan bişirərdi. Həmin gün bizə deyərdilər ki, günortaya qədər heyvan kəsməzlər. Saxlıyın, axşam kəsərsiz. Mən hər altıncı gün heyvan kəsirdim. İndiki kimi

yadımdadı, altıncı gün qətl günü idi. İstədim heyvan kəsəm, dədəm qoymadı. Dedi ki, bala, səhər kəsərsən heyvanı.

Bizdə heç vaxt havlanı qabda verməzdilər. İmkanı olan diri lavaşa, imkanı olmayan para lavaşa büküb ehsanat kimi paylıyardı. Qonşu Bartaz kəndi bizə lağ edərdi ki, siz çörəyi çörəyə büküb verirsiz. Bükülüb verilmə də genə gedib söykənir İmam Əli əleyhsalama, onnan da qabax İbrahim Xəlillullağa. Bizə çatan məlumata görə, İbrahim Xəlillullah səfərdən qayıdanda görür ki, bir uşaq ölüb, əlində bir parça ət var. Bunu İmam Əli əleyhsalam haqqında da söyləyirlər ki, döyüşdən qayıdanda bunun gəlişinə qurban kəsirlər, paylıyırlar. Əli Əleyhsalam bularnan oturur, yeyir-içir. Durub çölə çıxanda görür ki, iki uşaq ölüb. Uşağın birinin əlində ət var, pişik həmin əti yeyir. Deyir ki, bu uşaq niyə ölüb? Deyillər ki, acınnan. Deyir, axı bunun əlində bu qədər ət var. Deyir ki, onu bişirməyə qabı yoxdu. Orda göstəriş verir ki, bu günə qədər kəsilən qurbannar haramdı. Bizə çatan rəvayətə görə, təzdən özü orda bir qurban alır, kəsir, bişirtdirir. Deyir, kimin gücü çörəyə çatır çörəyə, çatmayan lavaşa büküb paylasın. Bişmiş əti heş kim saxlıyammaz, hamı yeyəcək. Ətin suyu qalır. Əli deyir, ətin suyuna kimin imkanı çatır düyü töksün, imkanı çatmayan buğda yarması töksün, qabağına çıxana bir qab versin. Bizim kənddə heylə eliyirdilər. Bu gün sən qonaxsan, təsadüfən gəlmisən burdan keçirsən, mən də qurban kəsmişəm, bişirmişəm. Bir dürmək sənə verirəm. Babam qurban kəsəndə ətini yığıb qazana qaynadıb sümükdən eliyirdi, əti didirdi, çörəyi varsa çörəyin, yoxsa lavaşın arasına yığırdı, yola çıxıb paylıyırdı. Çörəyi yoxdusa, adicə bişmiş əti yığırdı tabağa, çıxırdı kəndin içinə, kim qabağına çıxdı ona paylıyırdı. Qurban kəsiləndə onun ətindən bütün kəndə paylanırdı. İçalatı, qarnı, baş-ayağı çıxılırdı, qalan tikələri kənddə neçə ev varsa, o evlər arasında bölünürdü. Heyvanın dərisin qazıb yerə basdırırdıx.

Bizdə qurban ətini kəsib yığallar bir qazana. Qaynatdıqdan sora sümükdən çıxardallar, didib ətini qatallar bir yerə. Kimisi para lavaşa bükər, kimi bütöv lavaşa bükər, hər qapıya o lavaşdan pay verəllər. Bizim kənd otuz ev oluf, qurban kəsəndə atmış pay ayırır-

dıq, hər qapıya ikisin verərdik. Qurban ətinə heç bir ədva vurulmazdı, təkcə duz atılardı. Ətin suyunu da şilə eliyərdilər. Ətin suyuna düyü, buğda yarması qatardılar, duz atardılar, əlavə heç nə vurmazdılar. Hərəyə bir qab onnan pay qoyardıx. Yeyiləni yeyilərdi, qalanı da təmiz yerdə basdırılardı. Dərisi kara gələndisə, yunun yolub ocağa pay verərdilər, yaxud uşaq yorğanı düzəldərdilər. Həmin yundan döşək düzəltmək, corab toxumax olmazdı. Dərini də basdırallardı. Qoymazdılar ona it-pişik ağız vursun. Qurban ətinin sümüyünü də qazıb basdırardıx ki, murdarlanmasın.

Arağ işməyə bizdə qadağa yox idi. Mənim dədəm, qayınatam içirdi. Bir dəfə rəhmətdik Xoşu nənəynən söhbət eliyəndə mənə dedi ki, bala, Heydər ağam deyib ki, İsmayıl da içib. O arvad şeirnən deyirdi, amma şeir yadımda qalmıyıf. Seyidlərin içki içdiyini mən görməmişəm. Bizim evdə dəfələrlə oturmuşux çörək yeməyə, mənim könlümdən keçibdi içmək. Xalıqverdi kişi[42] deyib içmək isdiyirsənsə, get o yanda iç. İçəndə seyid qapısına getməzdim. Bir dəfə Xoşu nənə məni çağırdı öz evlərinə, içki içmişdim deyə getmədim. Səhər məni görəndə dedi ki, niyə gəlmədin? Dedim, içki içmişdim ona görə. Dedi, hə, yaxşı eləmisən. Amma eşidəm ki, içib kiminsə xətrinə dəymisən, qulağı küçük qulağı kimi kəsərəm ha.

Dədədən-babadan bizə məsləhət eliyərdilər ki, qadına əl qaldırmıyın. Qadına əl qaldırırsansa, Allaha kafir düşürsən. Mənim yoldaşım hamilə idi. Dədəm görseydi ki, o bizim qabağımıza gətdi çay qoydu, aləmi dağıdardı ki, siz hamilə qadına əziyyət vermisiz. Onu da belə izah edirdi ki, cənnət birinci analar üçündü. Sən cənnətin nümayəndəsinə əziyyət verə bilməzsən, döyə bilməzsən. 70-ci ildən sora cavannarda buna əməl olunmurdu, amma 70-dən qabax o kişilər qadını ilahi bir qüvvə sayırdı. İki nəfər dalaşardısa, bir qadın istər həmin kənddən olsun, istər başqa kənddən, əl atıb dalaşanların birin qolunnan tutdusa, davanı dayandırmalısan. Qonşu kəndin qadınlarına artıq-əskik söz deyilməzdi, söz atılmazdı. Ağsakqallar bizə deyərdi ki, Əlidən vəsiyyətdi, Heydər ağanın da tapşırığıdı,

---

[42] Seyid Mahmudun oğlu

qadına əl qaldırmıyın. Biri buna əməl etməsə, ağsakqallar onu danlıyardı, öyüd-nəsihət verərdilər ki, buna yol verme. Mən özüm zəhrirmar sözünü qadına qarşı işlədəmməzdin, o dəyqə dədəm reaksiya verərdi. Bir dəfə yoldaşımın saçını sığalladım, atam ağacnan vurdu, qolum sındı. Dedim, a kişi, arvadımdı, saçın sığallıyıram. Dedi, sevgi yorğanın altındadı. Hamilə qadınla nə sevgi. Yoldaşım hamilə olanda mənim qabağıma çay qoymağa ixtiyarı yox idi.

Yalan danışırsansa, allahın düşmənisən. Yalançıynan oturub-durmazdılar. Donuzun adın mən bir dəfə çəkdim, dədəm il yarım mənnən küsülü qaldı, bir stolda oturuf mənnən çay işmədi. Seyid Mahmud ağanı gətirdim, onnan sora mənnən barışdı. Özüm ovçu olmuşam, arada donuz da ovlamışam. Ova gedəndə yoldaşlarıma tapşırırdım ki, dədəm bilməsin mənim donuz vurduğumu. Donuzu vururdum, amma ətinə əlimi vurmurdum. Cavanlar soyub ətini erməniyə satırdılar. Bizdə deyirdilər ki, çöl donuzunu görmüsənsə, ən azı on gün ocağa tərəf getmə. Sənin gözün murdarranıb. Elə yernən get ki, ayağın onun rəddinə düşməsin. Düşübsə, ayaqqabı çıxart çayın o tayında qoy, adda gəl bu taya.

Əli əleyhsalam o vaxt buyurub ki, heç vaxt siğə eləmiyin. Bizim kənddə siğə yoxuydu. İrannan gəlmə mollalar vardı, olar şaiyələr yayıllar ki, guya biz Əlallahıyıx. Biri gəlib düşüb dədəmin əmisi Qara kişigilə. Bunun da baldızı evdə dul imiş. İranlı molla deyir ki, bu qız kimdi. Dədəmin əmisi deyir, baldızımdı, duldu. Deyir, mən onu siğə eliyəcəm. Deyib ki, siğə nədi? Deyir, belə-belə. Bizdə orta ocax olub, dədəmin əmisi ordan bir kösöyü götürüb bunun təpəsinə vurur. Deyir, ə kopoolu, gecə bunnan kefi çəkib səhər çıxıf gedəssən. Bunun uşağını kim saxlıyacax? Həmin molla yayır ki, bular Əlallahıdılar. Əlini allahdan üsdün tutullar.

Bartazda Kalba Bəşir olub. Kalba Bəşirnən Məşədi Məhərrəm mübahisə ediblər. Olar bizə deyiblər siz Əlallahısız, siğə eləmirsiz, qurbanı bişirib, çörəyə büküb paylıyırsız. Məşədi Məhərrəm də deyib ki, biz nə qədər and içsək də, oları inandıra bilmiyəceyik. Sobunun cavannarına bir vəsiyyət eliyirəm. Gələn il dağa gələnə qədər hər evdə bir Bartaz qızı gəlin olmalıdı. Həmin payızı on üç

nəfər Bartazdan qız qaçırdırlar. Biri mənim nənəm olur. Yengi[43] ili bular dağa köçəndə Kalba Bəşir deyir, mənim çadırımı elə qurun ki, qapısı Məhərrəmin çadırının arxasına açılsın, tezdən duranda məni görsün. Məhərrəm tezdən durur, keçir çadırın arxasına. Deyir, Kərbalayı, bu nədi? Deyir, mən heç cürə sənnən üzr isdiyə bilmərəm. Bir səhv elədim, bartazlıları aj qoydum. Mən cəhənnəm odunu ayaxladım. Ona görə də mən sənin böyründə olmalıyam ki, sən məni bağışlıyasan. Onnan sora bartazlılar arasında kim sobulular Əlallahıdılar kəlməsi işdətseydi, kəntdən qovurmuşdar.

İlk dəfə bizə Bartazdan on üç gəlin gəlib. Ona qədər biz ancaq özümüzdən alardıq. Bizim kənddə iki seyid ocağı var idi: Seyid Qurban, Seyid Mahmud ocağı. Seyid Qurbanın ocağına ilan ocağı deyilirdi. Ora ilan çalan gəldisə, ordan təbərrih götürüb çəkirdi ilan çalan yerə, o heç vaxt ölməzdi. İlan tez gəldisə, həmən adam öləcəydi. Seyid Qurbanın eviynən bizim aramızda maşın yolu vardı. Bizim həyətdə daim ilan olardı, amma bir dənə toyuğumuza, bir adamımıza ilan dəyməzdi. O ocağın da ətrafında həmişə ilan olardı, bir adamı da çalmazdı, bir adama da toxunmazdı. Amma orda nə qədər də ilan ölüsü görərdik. O ocağın bir möcüzəsi də oydu ki, orda ilan həmişə dalı qatda ölürdü. Gəlirdi ora, çəpərə çatmağa bir az qalmış çönüb dalı qatda ölürdü.

Hər axşam camaat yığışarmış seyiddərin qapısına. Seyid Mahmudun həyətində ağalıx otağı vardı, yığışarmışdar ora, orda Əlidən, Heydər ağadan kəlam deyərmişdər. İrannan bir nəfər gəlib Mirzəli Dadaş. Onu o vaxt Heydər ağa göndərib ki, get, orda o camaatın içində ol. O gəlib qalıb burda. Mirzəli Dadaşın balaca cürə sazı varmış, dini təbliğ edərmiş, kəlam deyərmiş, həm də sazda çalıb-oynuyarmış. Palaz sərib yerdən oturarmışdar, deyib-gülüb oynuyarmışdar. Bunu dədəm nağıl eliyirdi, o, həmin məclisiləri görmüşdü. Bizim yaşımız sovet dövrünə düşdü, olar bizə danışmağa cürət eliyə bilmirdilər. Gözünün qabağında on bir adamını gülləliyiblər.

---

[43] Yengi – növbəti

Bizdə molla olmuyuf, molla əvəzinə biz seyiddən istifadə eləmişik. Seyidsiz də biz dəfn eləməmişik. Seyid ölünün cənazə namazına durub, onun dəfnində iştirak eliyib, yuat zamanı duanı seyid verib. Hətta qadın öləndə kənddə seyid qadın olmuyufsa, onda kişi seyidi gətirərdilər. Bir dəfə qadın seyidlərin heç biri olmuyuf kənddə, palazı çəkiblər, palazın arxasında Seyid Qurban durub duasın oxuyub, içəridə qadını yuyublar. Biri toy eliyəndə çörəyini bişirməyə həmişə Xoşu nənəni gətirərdi. Çuvalın ağzını o açardı, "pismillah" deyərdi, bir ovuc un götürüb tökərdi teştə, onnan sora toy lavaşı bişirilərdi. Toy qazanını asanda Xoşu nənəni çağırardıx ki, gəl duzun atginən. O da gəlib bir qazana duzun atardı, xeyir-duasın verərdi. Məclisimizdə ilk xeyir-duanı seyidlər verərdi. Mən öz uşaqlarımın toyunda Xalıqverdini çağırmışam. Məclisə gəlib ilk xeyir-duanı verib, onnan sora məclis başdıyıb.

**104.**

Bizimkilər Şamdan gəliflər, əvvəl Xuramada məskən salıflar. Kənd salıflar, beş-altı il qalıflar orda. Arx çıxardıflar, çəltik əkiflər. Ora aran yeri olub, yay gələndə görüflər ki, qızdırıllar, burda yaşıya bilmillər. Dörd nəfər seçiblər ki, gedin görün harda yaxşı torpax var, su var, meşə var, gedək ora. Bura aran yerdi, biz burda qırılarıx. Düzü-dünya çəltik əkmişmişdər. Acıqlarından gətirif hamısını töküflər Araza, arxın içinə, çıxıf gəliflər. Dörd nəfər olub: Məhərrəm katda, Abduləzim kişi, Hətəmxan, Abdulla kişi. Gəliflər Sobuya, görüflər bura gözəl yerdi, meşəsi var, maralları var. Gedif deyillər bir yer tapmışıx, dünyada heylə yer yoxdu. Yığışıf gəlillər. Meşədən ağac qırıf çarsı damlar tikillər, burda yaşıyıllar.

Bizlərin hamımızın bığı oluf. Bığa qayçı vurmazdılar, anadan gəlmə necə var, helə də qalardı. Kimsə bığını kəsərdisə, onu kəndə qoymazdılar. Papiros çəkəni evə qoymazdılar, məclisə buraxmazdılar.

Bizim kəndin bir adəti də odur ki, qurban kəsəndə biz bişirif paylıyırıx. Siz qurban ətini çiy paylıyırsız, bəlkə birinin bişirməyə imkanı yoxdu, onu harda aparsın yesin? Ona görə qurban ətini bişi-

rib, lavaş arasına qoyub düyüynən bir yerdə paylamax lazımdı ki, o da bürmələsin yesin. Ətin suyunda bişirilən düyüyə xitmət deyilir. Əti lavaşın arasına qoyullar, iki qaşıq da xitmətdən qoyub hər qapıya onnan pay verirdilər. Da orda sümük olmamalı idi. Mən bir öküz kəsirdimsə, o kənddə öküzün ətindən hamı yeməlidi, bir pay da mənə düşməli idi.

Mirzəli Dadaş seyidlərin buyruxçusu idi. Seyidlərə o qədər baş əyir, onların qulluğunda durur ki, camaat elə bilir, o da seyiddi. Mirzəli Dadaş yaxşı yazı-pozu bilərmiş. Seyiddərin yazısın-pozusun o taya, bu taya yazıb çatdırırmış. Bizdə ajabazdar varmış. Sovetdər gələndə gəlib gündə buna deyirmişdər ki, gəlillər seyiddəri tutalar, səni də. Bu da qaçıb gizdənərmiş. Elə qorxudan bağrı çatdıyıb ölüb.

Seyidlərin evində məclislər təşkil olunardı. Orda mərsiyələr oxunardı, kalamlar deyilərdi. Biri deyirdi, qalan hamı onu xornan təkrarlıyırdı.

Dekabr ayında ay bütövlənəndə yeddi gün yeddi imamın adına aş bişirərik. Bir də Şah gecəsi olur. Şah gecəsi ən önəmlisidi. İmamların eşqinə heyvan kəsirik, aş bişiririk. Hamıya veririk, özümüz də yeyirik. Seyid Mahmudun həyətində ağalığ otağı vardı. İrannan şeyxlər, müşteyidlər gələndə gələrmiş olara, hamı da gedib olara nəzir verərmiş. Heydər ağa, Mirzəcan ağa, Məmmədhəsən ağa – bular gələrmiş, Seyid Mahmudun ocağına toplaşarmışdar. Deyərmişdər ki, mollanın dörd atı var, atının dörd ayağı var. Üçü İrandadı, biri də Sobudadı. Vaxt gələr Sobu şəhər olar. Biz özümüzü imam sayırıx, sizləri (yəni özlərindən olmayanı – top.) naimam sayırıx. Biz şamlılar özümüzü üstün tuturux.

**105.**

Bir səyyah Araz boyu gəzib gəlibdi. Baharrı çayı Araza qoşulur. Gəlib görür ki, Araza bala bir qol qoşulur. Deyir, bu qolnan da gedim, görüm bu qol hara gedib çıxır, bu çayın mənbəyi haradı. Gəlir, gəlir... Onda bizim kənddə yaşayış olmuyuf. Görür burda yaxşı çeşmələr var, sərin suları var. O sudan içir, deyir: “Hə, əsil su budu”. Sobu sözünün kökü “su budu” kəlməsindən gəlir.

**106.**

Bizdə qurbanı kəsməzdən əvvəl ayağını suynan yuyurdular ki, təmiz olsun. Qoyunun başını mejmeyinin içinə qoyub kəsirdilər ki, qan yerə tökülməsin. Rəhmətdik atam[44] dua verirdi. Yeddi dənə dua verirdi qurbana. Sora o qanı aparıb təmiz bir yerdə torpağı qazıb tökürdük ora, üstün də basdırırdıx ki, mındarranmasın. Özü də o qurbanı kəndin hamısına verirdik. Rəhmətdik atamın iki dənə xəlifəsi vardı: Məhərrəm kişi, Xurşud kişi. Biri sağında otururdu, biri solunda. Olar hazırrıyırdı, atam dua verirdi. Biz də ayaq üsdə dururduq, əlimizi əlimizin üstünə qoyurdux. Atam duasın verirdi, biz "amin" deyirdik. Hər qaba əti eyni qoyurdular. Bişmiş əti də lavaşa büküb qoyurdular. Heyvanın baş-ayağını, qarnını da kasıblara verirdilər.

Yanvar ayında bizdə Şah gecəsi olur. Həmin vaxt beş gün qurban kəsirdilər. Onun üçüncü gününə Şah gecəsi deyirdilər. Birinci gün ay yarımçıq çıxır, ay bütövləşəndə Şah gecəsinə düşürdü. Həmin gecə səhərə qədər uşaqlar yatmırdılar. Hər evdən bir dənə toyuq gətirirdilər, yağ gətirirdilər, aş gətirirdilər. Orda yaşdı adam bişirirdi, olar da şənlik eliyib yeyib-içirdilər. Səhərə qədər yatmırdılar, niyyət eliyirdilər, Allaha yalvarırdılar. Elə olurdu kimsə əhd eliyirdi ki, oğlum əsgərlikdən salamat gəlsin. Gətirib həmin gecə qurban kəsirdi. Elə olurdu bir gecədə üç-dörd qurban kəsilirdi. Bizim evimizdə qurban otağı var idi, qazanlar da orda idi. Hər evdən bir nəfər, iki nəfər qabın gətirərdi. Qabın qoyub çəkilərdi geri. Atamgil qurbanı kəsib paylıyırdı. Qurbanı kəsəndə bir dua verirdi, paylıyanda o biri duaları verirdi. Camaat da gələndə öz qabların gətirirdi. Rəhmətdik atam yeddi dənə duasın verəndən sora hərə öz qabın götürüb dağılışırdı. Xəlifənin də, bizim öz qabımız da camaatın qabının içində idi. Seyid kəsirdi, duasın verirdi, xəlifələr əti soyurdular, doğruyurdular, bişirirdilər. İndi də hərə öz evində Şah gecəsin keçirir. Bir toyuq alıb gətirirəm, iki kilo düyü alıb gətirirəm, aş bişirtdirirəm. Şah gecəsi oyaq qalardılar. Kəsilən qurbanlar bişiri-

[44] Seyid Mahmud nəzərdə tutulur.

lərdi, ət sümükdən ayrılardı, paylanardı. Həmin gecə niyyət tuturdular, namaz qılırdılar, zikr eliyirdilər. Kiminsə yuxusu gəlirdisə, deyirdilər get, üzə su vur, gəl.

Bizim evdə rəhmətdik atamın şəcərəsi vardı. Yeşikdə qara şalın içində saxlayırdı. Ayda bir dəfə biz hamamlanırdıx, atam yeşiyin ağzın açırdı, biz dizin-dizin yeriyib onu ziyarət eliyirdik, arxamızı çevirmədən çölə çıxırdıx. Onu nə mən gətirə bildim, nə qardaşım. Kimin nəziri vardısa gəlirdi, şəcərəni açdırırdı, nəzirin qoyurdu ora, öpüb dalın-dalın çıxırdı. Nəzir də yığılırdı, ona dəyən yox idi. Sovet puluynan bəlkə də on min pul qalmışdı orda. Ehtiyacı olana atam həmin puldan götürüb yüz manat, iki yüz manat verirdi, biz özümüz o pula toxunmazdıq.

## 107-108. SARALI XƏŞTAB

Rəvayətə görə, Saralı on iki kənddir. Bular bir tayfadır. Bizə Saralı sözünü Orta Yeməzlilər deyirdilər, digərləri bizi Xəştab adlandırırdı. Dörd qardaş olublar: Saralı, Sofalı, Fərzalı, Dərzalı. Onlardan biri – Fərzalı sonsuz olub. Dərzalıdan iki kənd, Sofalıdan dörd kənd, Saralının törəmələrindən isə on iki kənd yaranıb. Gərt (Qafan tərəfdə), Ağkənd, Bərkdaş, Cıbıllı, Almalıq, Mehlili, Mollalı, Saralı Xəştab, Zor, Fərcan Saralıdan törəyənlərdir. Sofalıdan törəyənlər də Ağbiz, Ağakişilərin yarısı, Hacıbar (Qafan tərəfdə). Cəbrayılın, bir də Zəngilanın Dərzili kəndi Dərzalıdan törəmədir.

Xəştab sözü səkkiz su deməkdir. Xəşt farsca səkkiz, ab su deməkdir. Həqiqətən də, kəndin içində səkkiz bulaq vardı: Eyvaz bulağı, Güney su, Cəvizdərin suyu, Köhnə Xəştab, Sarı bulaq, Urqiyyə bulağı, Nav, Daş bulaq.

Saralı Xəştabdakı tayfalar: Yetərlilər, Şatırrı, Oktarlı, Ağbabalı.

Yetərli tayfası Kacarandan aşağıda Oxçu kəndi var, əvvəl orda olubdu. Orda hansısa erməni-müsəlman davasında qaçaqaç düşüb. Heç bilən olmuyub kim hara qaşdı, kim kimnən getdi. Başın götürən qaçıb. Bizimkilər gəlib çıxıblar Fərəcbəyliyə, Canbas bulağının üstünə.

Əmioğlu-əmiqızı olur. Oğlanın adı Əziz, qızın adı Yetər olur. Ataları buları göbəkkəsmə nişannıyır. Bular evlənillər, vaxt gəlir Əziz ölür. Rəvayətə görə, Yetər həm gözəl imiş, həm də kişi kimi adam imiş. El yaylağa köçəndə Yetər deyib ki, ay uşaq, ordan qırx at üçün arpa-saman gətirin. Deyillər, xanım, yayın bu günündə arpa-samanı hardan alax? Deyir, sizə nə deyirəm, onu eliyin. Dağda imişdər, deyiblər ki, qonaq gəlib. Deyir, qonaq gəlib, xoş gəlib. Əziz də bəy olub, öz adamlarıynan getmişmiş başqa yerə. Gələnnər Yetərdən soruşublar ki, kişi hardadı? Deyib, kişi evdə yoxdu, amma mən burdayam. Uşaqları çağırıb ki, durun qabağa, atdarı tutun. İrannılar qayıdır ki, bizim atdar quru yemdədi. Bu dağda quru yemi hardan tapassan? Deyir, tapılar, siz narahat olmuyun. Arpa-saman gətirdir. Axşam da deyir, çarıqları yığın alaçıqlara, it aparmasın. İrannılar səhər durullar, hay-küy salıllar ki, çarıqlar oğurlanıb. Çarıqlarını da gətirib verir. Hər tərəfli buları bağlıyır. İrannılar çıxıb gedəndə soruşur ki, bu sürü kimindi? Deyillər ki, Əziz bəyin. O vaxdı şişəyi, qoyunu, erkəyi ayrı otarırmışdar. Çobanın əl-ayağın bağlıyıllar, iki yüz baş şişəyin əmcəyin kəsib çıxıb gedillər.

Əziz ölənnən sora bütün var-dövlət Yetərə qalır. Kim gəlib soruşub sürü kimindi, cavab verillər Yetər xanımın. Bizim tayfanın adı da ordan Yetərli qalır. Bizə çatan məlumata görə, Əzizin Mahmud adında bir oğlu olub. Mahmuddan Məhərrəm törəyib. Məhərrəmdən Şirin, Qurban, İman olub. Şirin bizim babamızdı. Hacı Qurban Fərcandadı, İman da Mollalıdadı.

İrannı bəy Yetəri izdiyirdi. Bir kişini pulnan tutullar ki, get bu tayfanı örgən. Həmin şəxs də it duası oxuyurmuş, it buna hürmürmüş. Gəlir arxadan girir alaçığa, əlini irəli uzadanda əlinə duz torbası gəlir. Dilinə vurur, görür duzdu. Deyir, baho, əlimə birinci duz torbası gəldi. Görür ki, bular yaylaxdan gəliblər, amma hələ tam yığışmıyıblar. Qışda gəlib qalırmışdar Fərəcbəylidə, yayda gedirmişdər Oxçuya. Həmin adam görür, Yetər qaratikan kolun götdü, üzünü əənə tutub qaarıb sındıranda kolun içindən nəysə göy bir şey düşdü süddü aşın içinə. Deyir, əlimə birinci duz dəyib, mən bu duzu tapdamaram. Çıxır. Yetər deyir, ay qardaş, sən hardan girdin

içəri? Deyir, bacı, mənə it hürmür, səs eləmə. Bil və agah ol. Məni filan bəy güdükçü tutub sizin sirrizi örgənməkdən ötəri. Gəldim girdim bura, birinci əlimə duz gəldi, ikinci də belə bir şey oldu. Burda de görüm itdərin içində qocasınnan, qarınnan-qancığınnan var? Deyir, var. Arvad da süddü aşı bişirib, ağzın açıq qoyub ki, soyusun. Deyir, aşdan bir az heyvərə itizə tök. Arvad gətirir bir çömçə qancığın qabağına qoyur. Qancıq yalayıb qutarmamışdı ki, çığıra-çığıra partdıyır. Deyir ki, bacı, burdan vaxt ikən tərpən. Belə olur bizim tayfa Fərəcbəylidən gəlir Xəştab kəndində məskunnaşır.

Bizim kənddə iki şatırrı tayfası var: biri Naxçıvanın Anzırınnan gəlmədir, o birsi də İrannan gəlib. İrannan gələnlərin babası Cəfər kişi olub, hədinnən artıq gözəl kişi olub. Rəvayətə görə, o vaxdı bütün cinayət işdərinə şahın özü baxırmış. Cəfər qoşulub uşaqlara, oğurluq eliyib. Şah baxır Cəfərə, bunun gözünü çıxartmağa heyfi gəlir. Deyir, bunu bura niyə gətirmisiz? Bu, oğurruq etməz. Neçə dəfə döndərir, bu da yoldaşdarın satmamaq adıynan deyir, yox, mən də orda olmuşam. Şahın qəzəbi tutur. Deyir, bunu aparın, gözdərin çıxardın, Arazdan keçirdin, hara gedir getsin. Cəfərin gözdərin çıxardıllar, Arazdan keçirib ötürüllər. O da gəzə-gəzə gəlib çıxır Xəştabdakı təpənin üstünə. Özünün gözü görmürdü, hardan keçirmişsə, ordan bir məlumat alırdı. Soruşur bura necə yerdi? Deyillər burdan baxanda İranın dağları görükür. Deyir, hə. Sora suyu xəbər alır. Deyir ki, su aşağıda, bayaq işdiyimiz yerdə qaldı. Ordan bəri su yoxdu. Deyir, eybi yoxdu, mallar özü gedib ordan su içəcək, evə də arvad-uşaq ordan su gətirəcək. Kor Cəfər də orda məskən salır.

### 108.

Bizim tayfada Səfəralı adlı biri olur, indi Füzulidə böyük nəsildilər, xatalılar adlanır. Gedir Füzuliyə, orda Atakişi adlı bir bəyə nökər durur. Onda bizimkilər gedirmiş Qarabağ zonasına, iki il, üç il orda qalıb, qoyun damazdığ eliyib gətirirmişdər. Bəyin də qəşəh bir qızı varmış. Bəy görür ki, bu cavan oğlandı. Oturuş-duruş nökər hak-hesabı deyil. Bir gün bəy deyir ki, bala, sən nökərsən da. Səndən ötəri nə fərqi var, qal aranda. Hələ aranda qalmağa görə bir

heyvan da artıq verəcəm. Həmən kənd Ağcabədi rayonuynan sərhəddir. Kənddən xeyli uzaqda bir bulaq varmış. Hər gün on kilometr yolu vurub gedib həmin bulaqdan su gətirirmiş, basdırırmış torpağa ki, su soyuq qalsın. Bir gün gələndə görür ki, yerdə qoyun rəddi var. Deyir, pismillah. Yayın günü burda qoyun rəddi nə gəzir? Deyir, vallah, bunu güdəcəm. İki günnən sora gedir, görür yerdə qoyun qığı var. Əlinə alır, baxır görür ki, təzədi. Bulağın yanında daş varmış. Daşın dalında gizdənir. Bir az keçmiş görür ki, bu tərəfdən bir erkək çıxdı, gəldi sudan işdi, getdi qayanın arxasında bir daşın dalına girdi. Saxsını doldurur, gətirib qoyur, səhər tezdənnən gedir. Baxır görür ki, qoç ordadı, üzü əənə yatıb. Arxadan bunu yığışdıranda qoç qalxır, bunu süpürrüyür. Süpürrəşə-süpürrəşə gəlillər çıxıllar yola. Karrı adam idi, erkəyi buraxmır, götürür gəlir evə. Bağdan yarpaqdan, otdan-zaddan yolub gətirib yedirdirmiş. Bir dəfə də qoça yarpaq yığanda bəy deyir, a bala, yarpağı neynirsən? Deyir ki, ağa, bir heyvanım var. Deyir, ə, kiri, burda heyvan nə gəzir? Deyir, ağa, görsən ha, aşıq olarsan heyvana. Gəlir baxır, görür ki, bu bir əyənbaz erkəkdi.

Bu bəynən Ağcabədidə bir nəfər dosdular, gediş-gəlişləri vardı. Ağcabədili gəlir Atakişiyə qonaq. Çay içillər, söhbət eliyəndə deyir ki, Atakişi, neçə ay bunnan qabaq burda bir erkək itirmişəm, inan, onu mana verən adama əlli heyvan verərəm. Deyir ki, bax sora cığallama. Fikirrəş, bir rəqəm de. Deyir, sən nə isdiyirsən, əlli heyvan verirəm. Gedir qoçu gətirir. – "Ə, qağa, bu mənimkidi". Deyir, indi nə verirsən, ver. Deyir, ağzımdan çıxıb əlli, əllisin də verəcəm. Bəy bacısı qızın alır Səfərə, onnan qohum olur.

Vaxt gəlir Səfərin iki uşağın gənə qoyullar aranda. Burda da başqa bir bəy varmış, həmin bəynən də Atakişinin münasibəti yaxşı dəyilmiş. Səfərin arvadı çatmanın başına kölgəlik atıb çörək salır. Səfər deyir, arvad, su kəsildi, gedim görüm niyə kəsildi. Deyəndə tək səbir gətirir. Deyir, a kişi, getmə. Deyir, ay arvad, dədəmin, nənəmin goru, illab orda məni döyələr, başımı yaralar, əl qaldırmıyacam. Nəkqədər eliyir, olmur. Gəlir görür ki, ağası ilə münasibəti olmuyan bəyin oğludu, suyu çevirib öz əkinini suvarır. Deyir, ə filankəs,

suyu çevirirdinsə, maa deyərdin, gəlməzdim da. Bir belə yolu piyada gəlmişəm. Deyir, ə kopoğlu, nə sarsaq-sarsaq danışırsan. Sözləri çəp gəlir, dalaşıllar. Deyir, səni and verirəm Allaha, bura gələndə səbir gəlib, nə vurdun bəsindi. Deyir, kopoğlu, səni döyə-döyə öldürəcəm. O vurub, bu vurub. Axırda Səfər görür ki, dizi qatdandı. Deyir, dizim qatdandı, bəsdi. Deyir, hələ ölməmisən ha. Birin də vuranda Səfər öz xənçəlin böyrünnən çəkir, soxur bunun qarnına. Gəlib deyir, arvad, filankəsi öldürdüm. İki uşağın da tutur əlindən, gətirir qoyur arvadın dədəsi evinə. Tərpənir yeylağa, ağasının yanına.

Səhər-səhər Hacı Atakişi görür, Səfər gəlir. Deyir, a uşaqlar, gələn Səfərdi, bu, indi gəlməməliydi, nəsə var. Gəlir çıxır. – "A bala, niyə gəlmisən?" Deyir, ağa, hal-qəziyyə belə-belə. Filan bəyin oğlun öldürdüm. Deyir, yaxşı elədin. Bunun da həmin bəynən ədavəti var idi axı. Neçə erkək seçib yığır, Səfəri də qatıb qabağına aparır ki, barışıq olsun. Həmin bəy yiyə durmur. Deyir ki, Səfər ölməlidi. Səfər qaçaqlıq eliyir. Üç il buların dərzin-dənəsin odduyur. Axırda özləri deyir, bizi müflis elədi. Bu çörək, bu "Quran", ta onnan işimiz yoxdu. Gəlsin barışaq. Barışıllar. İndi həmin nəsil Qərbənddə yaşıyır, onların da adı xatalılar qalıb.

## 109-110. ÇÖPƏDƏRƏ

Nüvədiynən üzbəüz Cənubi Azərbaycanda meşəlik var, onun arxasında Çöpədərə kəndi var. Zəngilandakı Çöpədərə ordan gəlmədi. Kalba Tağı orda bəynən yollaşmıyıf, bəyə vergi vermiyif. Ordan çıxıf gəlib öz qohumlarıynan. Gəlifdi buranı kəşfiyyat eliyifdi. Bizim kəndin yeri Baharrı kəndinin mağal[45] yeri olub. Çöpədərədən Sobuya tərəf gedəndə səkkiz yüz metr yuxarıda Tağı yeri var. Kalba Tağı gələr oranı qızıl pulnan baharlılardan alar. Həmin yerin quzey tərəfində bir dənə kəhriz olubdu. Həmin suyu görür, saxsı boruynan suyu çəkib gətirir güneyə. O zonada o vaxdı Sobu, Baharrı, Bartaz, Şəfibəyli, Qərəşdər, Tərnəvüt kəndləri olubdu. Qərəşdər, Tərnəvüt

[45] Mağal – heyvan saxlanan yer

soradan ləğv olunub gəlib Çöpədərə kəndinə. Tağı xan eşidib ki, Kalba Tağı burdan köçüb gedib Arazın o tayında məskən salıb. Öz adamların göndərər. Gəlib deyəllər ki, Kalba Tağı, vergi veməlisən. Deyir ki, mən sizə vergi vermiyəcəm. Arazın o tayı farsındı, bu tayı rusundu.

Bizim ərazi o vaxdı Gorus qəzasına baxırmş. Kalba Tağı gedər Gorus qəzasına, qəza rəisini tapar. Deyər ki, biz otuz evik, sənə otuz dənə inək verəcəm. Tağı xanın adamları gələndə qoyma gəlsin mənnən vergi alsın. Bu da deyər ki, yaxşı. Belə də eliyəllər. Tağı xanın adamları gələndə deyillər ki, qəza rəisi tapşırıb, sizin bura keçməyə ixtiyarınız yoxdu. Bunnan da Kalba Tağı qalar burda. Elə olar ki, qara yara xəsdəliyi düşər, mallar ölər. Bu da heyvannarın dərisin soyar, ətin də basdırar. Otuz dərini yüklüyər qatıra, otuz da inəyin pulunu götürər, gedər qəza rəisinin qəbuluna. Deyər ki, mən sizə söz vermişdim. Sağ olun, Tağı xanın adamları gəlmədi. Amma inəklərimiz ölüb, sübut kimi otuz dəri gətirmişəm. Bu da otuz inəyin pulu. Qəza rəisi deyər ki, sən ki sözünə bütöv kişi oldun, mən pulun bir qismini götürürəm. Burda həftəbazarı var. Apar dərini həftəbazarında sat, o pulun da bir hissəsini götürərəm, qalanını götür get. Beləliklə, Kalba Tağı gələr Tağı yerindən bir az aralıda dam tikər.

Kalba Tağının iki oğlu olub: Kalba Əli, Kalba Almәmməd. Kalba Almәmmədin oğlu olub Məşədi Xamәmməd, qızı olub Məşədi Xansənəm. Kalba Əlinin övladı olub Həsənqulu, İsrafıl, Tağı, Müşgünaz. Məşədi Xamәmmədin oğlu olub Almәmməd (söyləyicinin atası).

Kalba Tağıdan sora bu kəndə mamanlılar, abasalılar, pirihlilər, kazımlılar, ən axırıncı hoqulular gəlib. Kalba Tağının böyük oğlu Almәmmədin torpağı çox olub, onnan da Məşədi Xamәmmədə qalıb.

### 110.

Birinin iti qocalanda deyirdilər ki, verginən bu iti döyək öldürək. Ağacı götürüb düşürdülər itin üstünə. İt qaçırdı, bular qovurdu, it qaçırdı, bular qovurdu. Döyüb helə iti öldürürdülər. Ona görə bəzən bizə it döyən çöpədərli deyirdilər.

## 111-112. KEÇİKLİ

Keçiklinin əsl adı olub Yuxarı Daşdibi. Orda Əsgülüm dağı var. Əsgülüm dağın ətəyində iki kənd olub. Aşağıda olub Beşdəli, yuxarıda olub Keçikli. Keçiklinin adı olub Yuxarı Daşdibi, Beşdəlinin adı olub Aşağı Daşdibi. Bəylər Keçiklidə yerləşirmiş. O vaxd o dağda meşə yox imiş. Orda dağın kəlləsinnən bir bulax çıxır. Xan qızı çadır qurub orda yaşıyıb. Səhər tezdən durub görür ki, güllərin üstünə şeh düşüb, sərin yel əsir. Deyib, əs gülüm, əs. Dağın adı ordan götürülüb. Kəndin adı dəyişdirilib Yuxarı Əsgülüm, Beşdəlinin də adı olub Aşağı Əsgülüm. Süsən dağıynan Əsgülüm dağının arasınnan çay gedir – Oxçu çayı. Teymurləng dağın altından yol açır, yeraltı qala tikir, qoşunun ehtiyat hissəsin qoyur ora. Kəndin də adını dəyişdirib qoyur Keçikli. Keçikli ordunun ikinci pozisiyasının yerləşdiyi yer deməkdir. Ordan bir az qabaxda meşə var, ora Leşkar deyillər. Leşkar ordunun birinci pozisiyası deməkdir. Qoşunun əsas hissəsi Leşkarda yerləşib, ehtiyat hisəsi qalıb qalada. Leşkardan bir az qabaxda kənd yeri oluf. Teymurləngin ordusunnan Altun addı bir əsgər ölüb, o kəndin adın qoyub Altunnu.

Keçiklinin yeri dörd dəfə dəyişdirilib. Alban qəbirstanlığı var orda. Köklü bulağın yanında oların kalafaları durur. Orda əkin aparanda saxsı küpələri çıxırdı. Keçikli əvvəlcə yerləşib Beşdəli kəndinnən Kuntuz dərəsi arasında Kələkli adında yerdə. Köhnə binaların yerrəri qalır. Orda uzun müddət yaşıyıblar, su sarıdan çətinnik çəkiblər. Suyu ulağnan gətirillərmiş. Məcbur olub köçüblər Əsgülüm dağının ətəyində Köklü bulağ var, ora. Hansı səbəbdənsə ordan da köçüblər Kuntuz adlanan yerə. Nəcəf şəhərinnən bir nəsil – olara deyillər Kalba Əmiraslannılar. İndi onun beşinci addısı Əmiraslan bu gün də yaşıyır. Kalba Əmiraslan, Kalba Həsən, Kalba Hüseyn, Kalba Məmmədqulu olur – yeddi qardaş olurlar. Kalba Ehsan bulağı Kalba Həsənin adıynan bağlıdı. Nəcəfdən gəlillər Keçikli kəndinin bünövrəsin qoyullar, kəndin də ağsakqalı olur Kalba Əmiraslan. İndi o nəsildən çox az adam qalıb. Sora gəliflər Səfərlilər. Olar Şahbuz rayonunun Keçili kəndinnən gəliblər. Olardan sora məm-

mədkərimlilər gəlib. Mənim ulu babam Bağır Şahbuz rayonunun Keçili kəndindəndi. Altı qardaş olublar. Ədavət olub, məcbur olub o kənddən köçüblər. Bir müddət gəlib Nüvədi kəndində qalıblar. Mənim babam Bağırın dörd oğlu olub: Məmmədhüseyn, Möhsün, Həsən, bir də Tağı. Ulu babam Bağır qaleyçi köməkçisi işdiyirmiş. Bu gedib qab qaleylamağa, Qafan rayonunun Navrıs kəndinə çıxır. Orda qaleyçi köməkçisi işdiyirmiş. Orda Gülxanım addı qoca olur, yeddi də qızı olur. O yeddi qızın birin alır. Orda bu saat Bağır bulağı, Bağır yamacı, Bağır bağı babamın adınadır. Bir müddət orda qalannan sora ayiləsin də götürür köçür Keçikliyə.

**112.**

Allah ölənnərə rəhmət eləsin. Mənim babam Kalbalayı Tağı ölənə macal oğlannarın çağırıb. Yeddi oğlu var idi. Birinə deyib, sən yaylaxdan filan öküzü gətirirsən. O birinə deyib, sən meşəyə gedirsən, at-eşşəyi götürürsən üç-dörd yük quru odun gətirirsən. Bir oğlu kalxozda işdiyirdi. Buna deyir, camaatın, yetim-yesirin, dul arvatdarın qazancı qarışan taxıldan maa ehsan vermiyin. Anbarda mənim altı il bunnan qabax qalma buğdam var, onnan verərsiz. İki-üç qatır yüklüyürsən, gedirsən dəyirmana. Dəyirmançıya deyirsən kimin növbəsidirsə, həmin buğdadan ona haqq verib növbəsin alsın, buğdanı üyüt, gətir. Kiçik oğluna deyir, bala, sən də dur get kəndə, kənddəki ağsakqallar gəlsin, olarnan sağollaşım. Molla Salehə "Quran" oxudub. Deyir ki, Molla Saleh, kəndimizin ağsakqalı sənsən. Xayiş eliyirəm mənim qəbirimin üstünə üç gün heç kəs gəlməsin. Üç gün mənim qəbirimin üstə ocax qalamıyın. Vəsiyyətin eliyənnən sora deyir, Molla Saleh, gör qibləyə düz uzanmışammı? Deyir, düz uzanmısan. Elə onnan da canı çıxır. Üç gün qəbiri üstünə getmillər. Üçüncü gün camaat yığılıb kəndin ortasında söhbət eliyirmiş. Görüllər ki, dağın başına bir dənə ağ duman gəldi, yendi kişinin qəbirinin üstünə. Beş-on dəyqə ordaləngidi, çıxdı getdi. Deyillər, Molla Saleh, o nə dumandı? Dedi ki, o kişini apardılar. O kişi cənnətdik kişi olub. Səhər gediblər görüblər ki, qəbirin böyründə iki dənə dəvənin izi var. Demək, o duman iki dənə dəvə imiş, kişini götürüb gedib.

## 113. KƏND ZƏNGİLAN

Bizim kəndimiz rayonun adını daşıyıb. Sovet hökuməti qurulanda rayonun mərkəzi bizim kənd olub. Bizim kəndimiz, bizdən üstdəki, aşağıdakı kəndlər əkin yeri olduğuna görə soralar rayon mərkəzini ordan çıxardıb Pirçivan kəndində salıblar. Qədimdə bizim camaata Çaylı Çavındır deyərdilər. Niyə Çaylı Çavındır? Çayı vardı, suyu bol idi, onnan əkin əkirdilər. Məmməd bəy Aşıq Zəngilani bizim kəndin ən böyük bəyidir. Zatı şuşalıdır, Behbudəli bəyin nəvəsidir. Ordan gəlib Məmmədbəyli, Vərəndə, Ağadüzü kəndlərini pulnan alıb. Məmməd bəy Aşıq özü təhsil görmüş adamdı. Onun dövründə bizim kəndin ərazisində iri bazar tikilib. Bazar hissələrə ayrılırdı: Təbriz tacirlərinin, Ordubad tacirlərinin, Şuşa tacirlərinin, yerli tacirlərin hərəsinin öz yeri var idi. Yaşdı adamlar deyirdi ki, biz səhərin açılmasını o vaxt bilirdik ki, dəvələr kişniyir, atdarın səsi gəlir, bazarda oyanma gedir. O səsə oyanırdıx. Bilirdik ki, artıq səhər açılıb. Gecə də o qədər gec yatırdıx ki, bazarda səs kəsilsin. Hamının qonağı olurdu gecə. Bazarda gəlib işdiyənnər – təbrizdilər, ordubadlılar, şuşalılar hara getməli idi? Müəyyən qismi karvansarada qalırdı, əksəriyyəti evlərdə qalırdı. O mənada yox ki, mən pul verirəm, sizdə qalıram. Qonax kimi qalırdı. Hətta qoja nənəmgilin öz qonaxçıları vardı, nənəm oların boyuna uyğun yorğan salırmış. Bazarın bir kənarında barama qurutma məntəqələri vardı. Yerli camaat əkinçilikdən başqa baramaçılıqnan məşğul olurdu. Baramanı yığırmışdar, İran, Ordubad tacirləri onu alırmış. Ordubadda barama açan məntəqə olub. Onun müqabilində kimi pul götürürmüş, kimi də pal-paltar, parça götürürmüş. Məmməd bəyin gəlini bizim kənddə rus-tatar məktəbi açıb. Əvvəl özü rəhbərlik eliyib, dərsi özü deyib (Şuşada təhsil alıb gəlmiş qadın idi), sora onun yetirmələri o məktəbdə dərs deyib. Bizim sağ tərəfimizdə Qıraq Müşlan kəndi vardı. Bizim camaat ora Krasnıy Ukrayna deyirdi. Məktəbdə, kalxozda bir tədbir olanda səhnəyə çıxan olar idi. Bizim kənddə səsi olan, bacarığı olan vardı, amma indiyə qədər səhnəyə çıxan olmuyub. Amma o kənd aparıcı qüvvə idi, nə vaxt bir tədbir keçirilsə, olar iştirak edirdi.

## 114. ŞƏFİBƏYLİ

Mirzə Vəli Qarabağ xanı İbrahimxəlil xanın mirzəsi olub. Mirzə Vəlinin iki oğlu oluf: Mirzə Haşim, Mirzə Məhəmməd. Qarabağ xanı İbrahimxəlil xan Məhəmmədə Qarabağ ərazisində mülk verir, Mirzə Haşıma Baharrı kəndini. Bu saat da orda Mirzə Haşım qəbirstannığı var. Bizim kəndə Yuxarı Baharrı deyiflər. Bəs Şəfibəyli adı hardan əmələ gəlif? Mirzə Haşım Yuxarı Baharrını verib Şəfi bəyin himayəsinə. Şəfi bəy bir gün gəlir mənim ulu babam Kalba Qojagildə yatır. Ona qəbalənamə vermişdi. Qəbaləni yastığının altına qoymuşdu. Tezdən durub gedəndə qəbalə yadınnan çıxır. Babamgil qəbaləni götürüllər, Molla Həsənə oxudurlar. O deyir, bunu cırın atın, bu kəndi veriblər ona. Onu yandırıllar. Onnan sora Şəfi bəyi kəndə buraxmıllar. Bizim kənd bəy görmüyüf, amma Aşağı Baharrılar bizə Şəfibəyli deyillər. Orda üç köklü tayfa olub: Əlpənah bəy, Aşıq Məmmədalı, Ağa Hüseyn. İkinci Rus-İran müharibəsi düşəndə rusdar erməniləri İrandan, Türkiyədən gətirib yerrəşdirillər. Rusdar olara yer verir, şərait yaradır. Rusdarnan birrəşillər, hücum eliyillər, bizim babalarımız qaçıllar İrana. 30-ci ildə İrannan qayıdıllar, kəndin indiki yerində məskən salıllar. Hoca Həsən kolavatı[46] vardı, əvvəl orda məskunlaşmışdılar. Üç ayilə idi, kalafalıqları da qalırdı. Şəfibəyli kəndinin indiki olduğu yerdə böyük yarğan var. Özlərini qorumax üçün yarğanın başına düşüllər ki, bir tərəfi təbii müdafiə olunsun. Onnan sora kəndə İrannan gəlir imanuşağı, Aşağı Baharrıdan eyvazdı, gözəlli tayfları gəlib. İmanuşağı indi kəndin ən böyük tayfalarınnan biridir. Olara çarıx sökən tayfa deyiflər. İki qardaş imişlər, Marağada oluflar. Ağakişi kişi vardı, Hacı Haqverdinin nəvəsi idi. O deyirdi ki, Mustafa varrı imiş, İman kasıb. Mustafa İranın ən məşhur taciri imiş. İman xanın nökəri işdiyirmiş. Bir qızı isdiyir. Qız deyir, yox, onun çarığı sökükdür, mən ona getmirəm. İman gecə durur, xanın çarığın sökür, öz çarığına yamıyır. Onun üstündə də xan onu ordan qavalıyır. Qızı da götürüf

---

[46] Kolavat – meşədən təmizlənmiş sahə

gəlir bizim kənddə yerləşir, böyük tayfaya çevrilir. Babaları olub Nəbi. Nəbinin iki oğlu olub: Mustafa, İman. Mustafa qalıb İranda, İman gəlib bura.

## 115. MƏŞƏDİ İSMAYIL KƏNDİ

Məşədi İsmayıl Razdərə kəndinnəndi. Beş oğlu varmış. Xırda oğlu atı suvarıb gələndə kəndin bir dələduz oğlanı dayçanın quyruğuna tikan batırır. Dayça qalxır göyə, bunu vurur yerə. Oğlanın adı Behbud imiş, naqanı çıxardır dayçaya tikan batıran oğlanın təpəsinə bir güllə vurur. Oğlan orda ölür, qan düşür. Məhəmməd bəy Cavanşiri gətirillər ki, buları barışdırsın. Barışmıllar. Məhəmməd bəy Cavanşir Məşədi İsmayılı aparır öz yanına. Üç-dörd ay yanında saxlıyannan sora gətirir Məşədi İsmayıl kəndinin yerini göstərir, deyir buranı verdim sənə. Oğlannarına da ev tik, burda yaşa. Bu dərələrin başına qədər, bir də o tay meşə sənindi.

## 116. İMARƏTLƏR

Bizim kəndin[47] aşağısında İmaratdar kəndi olub, Hacı Məmmədhüseynin kəndi. Çox nəhəng kənd olub. Bizim babalarımız İrana qaçanda bulara xəbər veriblər ki, ermənilər gəldi rusun tərkibində, siz də qaçın. Hacı Məmmədhüseynin Mustafa adında dəli qardaşı varmış. Deyir, kim gəlir gəlsin, qaçmıyacağıx. Gecəynən bizim cavannar Səngər yalınnan baxıllar, görüllər bir şeypurru dəstə Daşdı yoxuşdan yendi, bir dəstə də Sarı pirdən. İmratdarı yerlə-yeksan elədilər. Hacı Məmmədhüseynin qızı qaçıb dəyirmanın su gilifində dizdənir. Erməni çəkilib gedənnən sora ordan çıxır, gedir Arazın qırağına. Deyir, ay Ağa Hüseyn, ay Əlpənah bəy. İmaratı dağıtdılar, mən Hacı Məmmədhüseynin qızıyam. Gəlin məni addadın, aparın. Ordan palaynan gəlib qızı aparıllar. Qız Razdərəli Qafar bəyin oğluynan evlənir. Bəy o ərazini bölür, bir azını verir Razdərəyə, bir azını verir Ördəkliyə, bir qismin də Şəfibəyliyə.

---

[47] Şəfibəyli kəndi

## 117. ALIBƏYLİ

Bizim kəndin əhalisi Ağdamın Alıbəyli kəndinnən köçüb gəlib. Bu köçmənin səbəbi müxtəlif versiyalarnan izah olunur. Bəziləri deyir ki, guya kənddə qız üstündə dava olub, kəndin bir hissəsi ordan köçməyə məcbur olub. Bir hissəsi də deyir ki, Qarabağ bəylərinin Ermənistanın ərasizində Qannıca, Qazançı deyilən otlaq sahələri olub. Ağdamdan ora mal-qoyun aparmaq çox çətin idi. Çoxlu mal-qara yolda tələf olurdu, itirdi. Bununla əlaqədar, bəy kənddə maldarlıqla məşğul olan ayilələri seçir və Zəngilan ərazisində torpax alaraq onları ora köçürür, öz mal-qarasını orda saxlıyır ki, yayda Qannıcaya, yaylaqlara getmək asan olsun. Əvvəlcə Həkəri çayının qırağında yurd salıblar. Çayın daşması ilə əlaqədar dağa tərəf çəkilməyə məcbur olublar. Alıbəyli elə bir yerdə idi ki, arxası dağ idi, qabağı da çay idi. Zəngilanda üç kənddə Qarabağ ləhcəsiynən danışırdılar: biri Alıbəyli, biri Balabəyli – bu kəndə həm də ikinci Alıbəyli deyirlər. – Qəbirstannığımız bir idi. Deyirdilər Alıbəynən, Balabəy qardaş olublar. Bizim kənddə hardasa yeddi-səkgiz məhlə var. O məhlədən biri Koxalılar məhləsidir. Mənim ulu babam Qasım Koxanın adıynan bağlıdı. O kişi həm kəndin koxası olub, həm də pəhlivan olub. Qasım koxanın arvadı Laçının Cicimli kəndindən seyid Mir Həmzə Nigarinin bacısı olub, adı Güllü nənə idi, canlı, cüssəli qadın olub. Belə nağıl eliyillər ki, üçyaşar bir cöngə quşvurdu xəsdəliyinə tutulub, kənddən bir kilometr aralı Ağcaaşıq deyilən yer var, ordan cöngəni çiyninə alıb gətirib evə.

Kənddəki məhlə adları: Koxalılar, Sarıcalılar, Burcalılar, Mehralılar, Avışdılar, Zeynallar, Xocamsaxlı. Bizə çiy balıx yeyən koxalı deyillər. Mən maraqlandım ki, bizə niyə belə deyillər. Bunun tarixi o qədər də qədim deyil. Represiya dövründə atamın əmisi oğlannarınnan birini sürgün eliyillər Rusiyaya. Bir müddət orda yaşıyır. Görür camaat balığı tutannan sora duzduyur, ipnən göydən asıb qurudur, sora pivəynən yeyir. Bunu buraxannan sora qayıdır gəlir kəndə. Bizim Həkəri çayı bol balıxlı çaydı. Balıxları tuturmuş, duzduyuf ipə düzürmüş, günün altında quruduf yeyirmiş. Bu da

kənddə çox qəribə görünürmüş. O vaxtdan bizim adımız çiy balıx yeyən koxalılar qalır. Sarıcalılara ipişka bölən deyirdilər. Bunnan da maraxlandım. Orda Babaxannılar nəslinnən bir kişi olur, onun yeddi oğlu olub. İllər keçir, bunlar böyüyüb evlənib. Bir evdə, bir damda yaşıyıblar. Elə olur ki, bir gün bular ayrılmalı olullar. Ayrılanda evdə hər şeyi bölüşdürüllər, baxıllar ki, bircə dənə kirbitləri var. Bu kibritin çöplərin bölüllər yeddi qardaşın arasında. Ona görə o məhlənin adı ipişka bölənnər qalır.

## 118. HACALLI

İranda Qaraxanlılar deyilən tayfa var, biz həmin tayfadanıx. Arazın qırağında Tüfəli kəndi var, bu saat da bizim orda qohumlarımız var. Mənim babam söhbət eliyirdi ki, bizim camaat orda adam öldürüb. Adam öldürənnən sora orda yaşamaları mümkün olmuyub. Bular iki tayfa olub. Birinə Bala Muğanlı deyiblər, birinə Hacallı tayfası deyiblər. Olar ikisi də yığışıb birinci Arazın biz tərəfində bünövrə salıblar, balaca-balaca damkalar düzəldib orda qışlıyıblar. Yayda yaylağa gedəndə o damkaları irannılar gəlib yandırırmış, payızda yaylaxdan qayıdanda yenidən oları bərpa eliyib orda yaşıyırmışdar. Özləri də heyvandarlıqla məşğul olublar. Həm Araz daşqını, həm iranlıların verdiyi əzab-əziyyət nəticəsində gəlib çıxıblar yuxarı demistanlığa. Sovet dövründə hökumət bizə sulu sahə verdi, yendik orda bünövrə saldıq, özümüzə öy tikdik. Kənd üç məhlədən ibarətdir: Hacallı məhləsi, Bala Muğanlı məhləsi, Dirili məhləsi.

## 119. ALADİN

Malaqannar gəlillər, orda[48] məskən salıllar. Ot biçillər, tay-tay otdar yığıllar. Elə olur həmin il yaxşı yağış yağır, ota ehtiyac olmur. Ot qalır. O biri il ot yığmıllar. Deyillər, belə olannan sora niyə zəhmət çəkirik. Gözə dönüm taarı, alaçarpoy[49] tutur, nə tutur. Qar qur-

[48] Aladin kəndinin ərazisində
[49] Küləklə yağan qar

şağacan çıxır. Kəllər də ölür, mal-qara da qırılır. Elə gedillər burdan ki, bir yolluq. Ona görə buranın adın qoyullar Aladin, yəni ala məzhəbdi.

## *MÜXTƏLİF MÖVZULU RƏVAYƏTLƏR*

### 120-121. SƏS-KÜY İSTƏYİRSİNİZSƏ, GƏLİN

Şah Abbas vəzir Allahverdi xannan gedir şəhəri gəzməyə. Deyir, nə vaxtdı şəhərdən xəbərimiz yoxdu. Hərrənəh, görəh, nə var, nə yox. Bular gəzillər, dolanıllar hər tərəfi, axşam evə gedən zaman görüllər bir evdən yaman çox tüstü çıxır. Deyillər, bu gejə olara qonax olax. Görəh, nə təəri yaşıyıllar? Gedir çağırır:

– Ay ev yəəsi, ay ev yəəsi.

Deyir:

– Ha.

Deyir:

– Bizi Allah qonağı eliyərsənmi?

Deyir:

– Allaha da qurban olum, qonağına da. Niyə eləmirəm? Səs-küy, narahatçılığ isdiyirsinizsə, gəlin.

Bular danışmıllar heş zad. Düşüllər, atı bağlatdırıllar. İçəri girəndəcə görüllər körpə-körpə uşaxlar var. Arvat doğmax isdiyir. Arvadın səsi uşağa qarışıb, uşağın səsi arvada. Heş bularnan maraxlanan olmur. Büzüşüf bir kənarda yatıllar. Gejəni yatıf, səhər duruf gedillər.

Bir müddətdən sora bular genə çıxıllar səyahətə, gəzməyə. Deyir ki, o kişi bizə niyə o sözü dedi? Bax genə heylə tüsdü çıxır. Gəl, gedəh genə olarda qalax. Sözün axırına çıxmalıyıx. Deyir:

– Ay ev yəəsi.

Deyir:

– Hay.

– Bizi Allah qonağı eliyərsənmi?

Deyir:

– Allaha da qurban olum, qonğına da. Başınıza əyaqqabı tayı, oxloy dəyməsini isdiyirsinizsə, gəlin qonağım olun.

Gələndə görüllər, onda körpəydilər, indi uşaxlar irilənif, göydə oynuyullar. Saymıllar ki, evdə qonax var. Biri qaşığı tulluyur, biri ayaqqabısın çıxardıf ona vurur. Arada qonağa da dəyir.

Nəysə, bular gedillər, hərrənillər, hərrənillər, bir də gəlillər həmən yerə. Qayıdıf gələndə deyir vəzirə:

– Həmən evə genə getməliyih.

Deyir, da şahdı, getməliyih. Deyir:

– Ev yiyəsi.

Çıxır. Deyir:

– Bir gejəliyinə bizi Allah qonağı eliyərsinizmi?

Deyir:

– Allaha da qurban olum, qonağına da. Çulov yeməh isdiyirsinizsə, gəlin.

Bular düşür atdan, görür belə cavan-cavan oğlannar, cavan gəlinnər. Baxırsan ev çiçəh kimi, məhlə çiçəh kimi. Oğlannar atın başınnan tutur, biri aparıf bağlıyır. Birinin qolunun üstündə məhrəba, birində aftafa. Suyu gətirir, bulara gəşəh qullux eliyillər. Süfrə salınır, dünyanın nazı-nemətini bişirillər töküllər ora. “Yallah eliyin, çörəh yeyin” – deyəndə, Şah Abbas deyir:

– Yox, biz burda üç dəfə qonax olmuşux. Hər gələndə bizə bir söz demisən. Bir dəfə belə demisən, bir dəfə elə demisən. Üçüncü dəfə də bu.

Deyir:

– Siz birinci dəfə gələndə mən desəydim ki, arvadım doğur, uşaxlarımın gözünün suyu ağzının suyuna qarışıf, qanmıllar, çığırıllar, bağırıllar, deyəjeydin ki, ay Allah, gör qonağa nə deyir. Dedim gəlsinnər, gözlərinən görsünnər. İkinci dəfə də uşaxlar yekələnmişdi, qanmaz vaxdarıydı, bir-birinə salva atırdılar. Üçüncü dəfə... Bax bu gördüyünüz oğlanlar oğlumdu, bu qızdar da gəlnimdi. İndi rahatçılıx var. Biri atınızı bağladı, biri məhrəba verdi, biri su gətirdi, biri yeməyinizi verdi. Allah verənnən də qoydux, yedih. Bax bu da bizim axırımız.

**121.**

Rəvayətə gora, Şah Abbas cənnətməkan təğyiri-libas olub həmişə əhali arasına cıxıf gəzərmiş. Bir gün gedir bir qapını döyür. Bir qapını döyəndə kişi deyir ki, kimdi? Deyir:

– Qonağ isdirsən?

Deyir:

– Qonağa da qurban, Allaha da qurban, ancax indi qonax isdəmirik.

Deyir:

– Niyə?

Deyir:

– Vallah, zir-zibil yemək isdiyirsizsə, gəlin.

Şah qayıdır gedir. Beş altı ildən sora yenə gəlir həmin qapını döyür. Deyir:

– Ay oğul, qonax isdiyirsizmi, Allah qonağı?

Deyir:

– Vallah, qonağa da qurban olax, Allaha da qurban olax. Çor-zəhirmar, yumrux yemək isdiyirsizsə, buyurun, gəlin.

Bu gedir. Vaxt kecir, on ildən, on iki ildən sora genə təğyir-libas olub gəlir həmin qapıya. Darvazanı döyəndə kişi çıxır sevinə-sevinə. Deyir:

– Ay kişi, qonağ isdiyirsiz, Allah qonağı?

Deyir:

– Allaha da qurban olax, qonağa da, buyur, gəl.

Darvazanı açır taybatay, girir içəri. Xoşbeş, on beş. Gətirillər süfrə açıllar, Allah verən təamlardan töküllər süfrəyə, yeyillər, içillər. Şah Abbas cənnət-məkan bu valideyinnən soruşur. Deyir ki, o vaxt gəldim, dedin ki, zir-zibil yemək isdiyirsinizsə, buyurun, gəlin. Sora dedin, çor-zəhirmar, yumrux yemək isdiyirsinizsə, buyurun, gəlin. İndi xoş qarşıladınız, bizi içəri buraxdınız. Deyir ki, birinci dəfə gələndə uşaxlar balacaydı, hər tərəfi zibilliyirdilər. Ya gördün, ya yedin, eyni şeydi. İkinci gələndə uşaxlar hamısı bir-birini yumruxluyurdu, çor-zəhirmar, yumrux göyə qalxmışdı, Allahın yanına. Bunu ya gördün, ya yedin, eyni şeydi.

Şah Abbas deyir:

– Bəs indi?

Deyir:

– İndi, şükür, hamısı böyüyüfdü, qazanş gətirir. Üzümüz ağdı, alnımız açıx. İndi, buyur, nə qədər qonax gəlir gəlsin, yesin də, içsin də.

## 122. TORPAĞIN TAVAZASI

Bir gün Şah Abbas Vəzir Allahverdi xana deyir ki, vəzir, – o qədər bular mehriban imiş, şirin imiş bir-birinə, – hazırraş, bir səfərə çıxax. Görək bu millətin güzəranı necədir. Bular hazırraşıllar, üç-beş günnük yemək hazırrığı da görüllər. Şah əmr edir, atdanıllar. Gəzib dolanıllar, bir biyabannığa çıxıllar. Şah Abbas deyir:

– Vəzir, bu biyabannıx xoşuma gəlir. Düşək, bu atdarın cilovun çıxart, qoy otdasınnar, biz də burda nahar eliyək, istirahət eliyək.

Deyir:

– Baş üstə.

Düşür. Yeməklərin çıxardıllar, yeyillər. Şah Abbasa dərin yuxu gəlir. Başın qoyur vəzirin dizin üsdə, yatır. Vəzir baxır, deyir:

– Yarəbb, bu biyabannıxda, bu yiyəsizdikdə mənə bu cür xoşbəxtlik qismət eləmisən. Şah oğlu Şah Abbas nə qorxu bilir, nə hürkü bilir. Bu biyabannıxda başın qoyub mənim dizimin üsdə.

Baxır görür ki, arxada iki nəfər dalaşır. O deyir, ə, sən kimsən? Buna şərəfi verən mənnəm ey, sən kimsən? Sənin dədən gorazeydi, mərdiməzar idi. O bunnan, bu onnan. Vəzir Allahverdi xan deyir:

– Saa qurban olum, aralaşın gedin ayna, Allah xatirinə.

Əməl yemədi. Allahverdi xan da qorxur ki, Şah Abbas durajax, narahat olajax. Bu xoşbaxtlıx buna bir dəfə qismət olub. Ehmalca atın cilovun götürür, atır ki, bulardan birinin başına keçsin, çəksin, xəlvət buna desin "saa atam qurban, aralaş, cəhənnəm ol burdan". Cilov gəlib keçir Şah Abbasın başına. Vay aman allah, haq getsin, nahaq gəlsin. Şah Abbas durur, deyir:

– A dələduz kopoğlu, a şərəfsiz oğlu şərəfsiz. Demək, elimdə, obamda məni öldürə bilmədin, bu səhrada, biyabannıxda məni öldürürsən ki, burda qurd-quş məni yesin? Nənəsinin oğlu, atdarı cilovla.

Deyir:

– Şahım, getdi, nəyin deyim?

– Nə? Ə, tez ol, atdarı cilovla.

Deyir:

– Şahım, getdi, nəyin deyim?

Atdarı hazırrıyır, minillər, birbaşa məmləkətə. Şah Abbas çıxır taxta. Car çəkib bütün bəşəri yığıllar Şah Abbasın meydanına. Deyir, camaat, eşidin-bilin... Sizə dediyim kimi danışır. Hamı tərəddüddə, əli qoyunda qalır. Cəllatdara da göstəriş verir ki, dar ağacını hazırlayın. Camaat qımıldanır-eliyir. Deyir, qırxdı, biri kəm döyül. Cəllad, qoymuyun bunun qanı bu məmləkətə düşə. Məqam gəlir, Vəzir Allahverdi xanı stola götürəndə şah deyir ki, cəllatdar, dayanın. Gəlillər Şah Abbasın yanına.

– Şahım, eşidirik.

Deyir:

– Onu gətirin bura.

Gətirillər bunun yanına. Deyir:

– A nənəsinin oğlu, ağla gətirmə, min nəfər elçi düşə, minnətçi düşə, əməl eliyən dəyil, səni asdırajam. Amma sən orda dedin ki, şahım, getdi, nəyin deyim? İndi burda da deyirsən ki, şahım, gəldi, nəyin deyim? Bunların nə demək olduğunu de görüm, ə.

Deyir:

– Şahım, o torpaq benamus torpaq idi, şərəfsiz torpaq idi, haxdan çıxmış torpaq idi. Orda mən nə qədər and içsəm də, mənim nəslim-köküm dizini qoyub yerə “Qurana” əl bassa da, yenə inanmıyajeydin. Nə desəm deyəjeydin kəs, qurumsaq. Yalan danışırsan, uyudurma danışırsan. Gəldik öz torpağımıza, bu şərəfli torpağa, səni bəsləyən torpağa. Haxdan gəldi, dedim “gəldi, nəyin deyim”. Artıq hak-ədalət gəldi sənin başaa, sən ordan məni çağırtdırdın yana. Dedi, hə. Onnan sora öpüşüllər, görüşüllər. Millət sevindi, eşqə gəldi.

## 123. DÜNYANIN ZÖVQÜ-SƏFASI

Şah Abbas təğyiri-libas olur, çıxır bazara. Görür ki, bir uşax əlində kəklik satır. Deyir, neçəyə verirsən? Deyir, beş maata. Öz-özünə deyir, beş maata kəklik yemək olmaz. Çəkilim kənara, görüm bunu kim alacax. Görür ki, dilənçi günündə bir keçəl gəldi. Dedi, ə, neçəyədi bu kəklik? Dedi, beş maat. Çıxartdı orasınnan, burasınnan beş maat düzəltdi verdi, bu kəkliyi aldı. Şah Abbas kəsdi uşağın qabağını, dedi:

– Neynirsən bunu?

Dedi:

– Bunu neyniyələr ki? Aparacam, anam bişirsin, yiyim.

Şah Abbas bir namə yazır. Deyir ki, dünyanın zövqü-səfasın bir keçəl gedə sürmüş gərək, padşahlığa ancax quru qovğa qalır.

## 124. NADİR ŞAH

Nadir şahın vaxtında kimin işi ağır olsaymış, onu zindana salırmışdar. Bir gün camaat zindanda yığışıb oturmuşdu, söhbət eliyirdilər. Bir adam dedi ki,

Mən aşıx, gülə naz,
Bülbül eylər gülə naz.
Üç il həsrət ilidi,
Ağlıyan çox, gülən az.

Zindandakı adamların hamısı ağlaşdı, qarışdı bir-birinə. Çünki hamısı zindandadı, əziyyət çəkir, əsəb keçirir. Hamısı ağlaşdı, başdadı göz yaşı tökməyə. Zindanın qapıçısı Nadir şaha xəbər apardı ki, bir nəfər adam belə bayatı dedi, bütün camaat ağlaşdı, qəşş elədi qarışdı bir-birinə.

Dedi:

– Gedin o adam kimdisə, gətirin mənim yanıma.

Nadir şah bınnan soruşdu ki, de görüm sən nə dedin ki, camaat o formu ağlaşdı. Dedi:

Mən aşıx, xarac aldı,
Xar vurdu, xarac aldı.
Şonqar qaynaxdı Nadir,
Bağdaddan xarac aldı.

Bının bı sözü Nadir şahın çox xoşuna gəldi. Ona görə bı adama dedi ki, sənə bı şəhərdə bir dükan verim, get dolan. Dedi:

– Şahım, maa sənin dükanın-zadın lazım deyil.

Mən aşıx, ha Kərim,
Allah kərim, ha kərim.
Şahım, bəyliyin özünə qalsın,
Mənim üçün ha kərim.

Məni azad elə, mən gedim öz kəndimə, öz yerimə, öz şəhərimə. Mən neylirəm bəyliyi.

## 125. MIXI MİSMARA DÖNDƏRƏN ALLAH

Eşitdiyimə görə, Şah Qacar neçə gün mühasirədə saxlıyannan sora Şuşanı alır. Dəmirçi Xanların ulu babası İrannan gəlmə olub, özü də at nalı kəsirmiş. Qacar bunun babasın o vaxdı çağırıbdı ki, sabaha qırx atın nalın, bir də mıxın kəsərsən. Bu da qırx ifçin nal eliyir. – Dörd dənə nala bir ifçin deyillər. Mən özüm dəmirçi olmuşam, nal kəsmişəm. Bir günə on ifçinnən artıq kəsmək mümkün döyül. On ifçin qırx nal eliyir, iyirmi dörd dənə də mıx. Birin də zapas qoyullar ki, biri əyiləndə, qırılanda onu əvəz etsinnər. – Gəlib evə deyir:

– Arvad, mən bunu eliyə bilmərəm, mümkün döyül.

Yıxılıf yatıfdı. Səhər arvadnan halallaşıf ki, yəqin gedirəm, Şah Qacar məni asajax. Görür ki, iki nəfər gəlibdi, deyir ki, bizə dörd dənə mismar ver. Deyir:

– Neynirsən?

Deyir:

– Gecə Şah Qacarın başın kəsiflər, o mismarı tabutunun ağzına vurajeyih.

Həmin vaxdı o kişi əlin göyə qaldırıb deyir:

– Ya mıxı mismara döndərən Allah, sən var imişsən.

## 126. BAŞLIQ PARASI

Rəvayətə gora, Şah Abbas cənnət-məkanın bir qızı olur. Qıza elçi gəlir. Qıza elçi gələndə şah qızı verir. Ancax qız deyir ki, ata, başqa şahlar kimi mənə ənam, başdıx isdəmə da. Bu deyir, yaxşı.

Nəysə, qız gəlin köçəndə yol qazılmış olur, dəvə gələndə orda büdrüyür, yıxılır. Oğlan evi deyir:

– Vay, dəvəmiz yıxıldı.

Qız fikirrəşir ki, gör demədi ki, qız yıxıldı, deyir dəvəmiz yıxıldı. Qız getmir, qayıdır atası evinə. Oğlan tərəf genə elçi düşür. Bu dəfə qız deyir ki, ata, məni verəndə ürəyin isdiyən qədər başdıx al. Şah Abbas da deyir ki, yaxşı. Elçilər gələndə yeddi qızıl yüklü dəvə isdiyir. Genə bu sarvan gəlif burdan keçəndə deyillər:

– Vay, ehtiyatlı olun, qız birdən yıxılar. Keçən dəfə dəvələr burda yıxılmışdı. Qız yıxılar, yeddi dəvə qızıla bizə başa gəlib.

Qız görür ki, bu ənama görə, başdığa gora onun qədir-qiyməti artıb.

## 127. GÜL TOXUMU

Demək, bir gün padşah çağırır saray əyyannarın yanına. Car çəhdirir ki, mənim məmləkətimdə nə qədər adam varsa, yığın mənim sarayıma, mənim olara sözüm var. Camaat hamısı yığışır, padşah bir ovuc həriyə gül toxumu paylayır. Deyir ki, hamı aparsın bu gül toxumunu əhsin qabda, göyərtsin, gətirsin mənə. Kimin əhdiyi gül yaxşı qol-budax atsa, şaxəli olsa, mən padşahlığımı verəjəm o adama, bu taxdı-tacımı onun başına qoyajam.

Hamı gül toxumunu alıf aparır. Hərə bir yerdə gül toxumunu necə gəldi, özü bildiyi kimi əkir, becərir. Bir şəxs varıydı, deyir, atası yoxuydu, anasıydı, bir özü. Bu şəxs gəlir gülü əkir. Nə qədər gözdüyür, tum çıxmır. Baxır ona-buna. Görür ki, o birilərinin budaxları-zaddarı gömgöy. Deyir, necə olur bə mənim əhdiyim toxum bitmir. Padşah vaxt da qoyur ki, filan vaxta qədər hamı gətirsin, görəh kim toxumu necə əkib, kimin gülü gözəl olajax. Hamı götürür

gülün sevinə-sevinə, bir-birinə baxa-baxa ki, mənim gülüm yaxşıdı, sənin gülün yaxşıdı, aparır padşaha.

Bu şəxs qorxur, əkib göyərdə bilməyib axı. Nə qədər qulluğ eliyib, bu gül toxumu çıxmayıb. Deyir:

– Ana, bəs mən necə eliyim?

Deyir:

– Allaha da məlumdu ki, sən əhdin, qulluğ elədin, bu çıxmadı. Eybi yoxdu, götürginən həmən gülün qabın əlinə, get padşahın sarayına. Deginən, padşah sağ olsun, mən bunu əhdim, bitmədi dana. Yanı, məndə təxsir olmadı.

Hamı güllərin yığıb padşahın sarayına. Bu şəxs də başın salıb ağlaya-ağlaya, utana-utana apardı, toxum çıxmıyan qabın qoydu güllərin yanına. Padşah hamısına baxır. Bir-bir o birilərinnən soruşur ki, necə əhdin, necə baxdın. Deyillər, belə elədih, su verdih, divini torpaxnan doldurdux ki, padşah sağ olsun, saa layiq gül yetişdirəh. Gəlib bu oğlana çatanda deyir:

– Oğul, sənə verdiyim gül toxumunu niyə göyərdə bilmədin?

Deyir:

– Padşah sağ olsun, Allaha and olsun ki, mən bu gül toxumunu evə aparannan əhdim. Mən nə qədər buna qulluğ elədimsə, bu çıxmadı.

Padşah, deyir, getdi otdu taxtında, oğlanı çağırdı yanına. Dedi:

– Ey camaat, mən bu gül toxumun qaynatmışdım sizi sınamax üçün. Halal bir adam axdarmaq isdiyirdim. İndi tapdım, padşahlığı ona verirəm. Bu toxumların hamısın mən qaynatmışdım. Siz gedib ha əksəniz də, çıxmayajaxdı. Siz gedib oları atıb, ayrısını əhmisiz. Əsil halal adam budu ki, aparıf bişmiş, qaynamış toxumları əkib, o da çıxmayıb.

Şah götürür tacın qoyur oğlanın başına. Deyir:

– Sən mənim yerimə layixsən.

## 128. EHTİYAC DAYI

Bir kişinin üç oğlu varmış. Bu uşaxları yola gətirə bilmirmiş, bir işə buyura bilmirmiş. Bütün işə özü gedirmiş. Bir gün qayıdır

arvada deyir ki, odunnarı gizdət. Peçi söndürür, özü girir yorğan-döşəyin altına. Uşaxları çağırıf deyir ki, peç sönüf, mən də girmişəm yorğan-döşəyə. Odun gətirib qoymaq lazımdı bura. Deyir:

– Axı, biz bacarmırıx.

Deyir:

– Bacararsız.

Deyir:

– Birdən arabamız sındı, necə bağlıyacıyıx?

Deyir:

– Ehtiyac dayızı çağırarsız, o gələr bağlıyar. Narahat olmuyun.

Üçünə də dəhrəni, baltanı verir, arabanı da qoşur, deyir:

– Gedin odun qırmağa.

Gedillər, o ağacı kəsillər, bu ağacı kəsillər. Qarannıx düşürmüş, yühlüyüllər. Elə bir addım atmışmış, arabanın oxu sınır. Oxu bağlıya bilmillər. Başdıyıllar meşəboyu qışqırmağa: «Ehtiyac dayı, Ehtiyac dayı!» Heç yerdən səs gəlmir. Təzədən arabanı boşaldıllar, bir zülümnən düzəldillər, yığıllar, gəlillər. Kişi deyir:

– Niyə bu qədər yubandınız?

Deyir:

– Bəs arabanın oxu qırılmışdı.

Deyir:

– Bəs necə düzəltdiniz?

Deyir:

– Necə düzəldəceyih? Deyirdin, bəs, Ehtiyac dayı gəlif kömək eliyəcəhdi? Ha çağırdıx, gəlmədi axı.

Deyir:

– Kim düzəltdi?

Deyir:

– Elə özümüz.

Deyir:

– O elə ehtiyacdı da, bala. Ehtiyacız oldu, özünüz düzəltdiniz.

Həyatı belə öyrənmək lazımdı. İnsan öz ehtiyacın özü ödəməlidi.

## 129. NƏ TÖKƏRSƏN AŞINA, O DA ÇIXAR QAŞIĞINA

Bir ana, bir oğul varmış. Özü də ana korumuş. Bir gün ana oğluna deyir ki, ay bala, mənim yadıma kavav düşüf. Oğul gedir bir kilo ət alır, gətirif verir gəlinə. Deyir ki, anama büyün kavav bişirərsən. – İndi rəvayətdi da, hax-naxax danışılıfdı. – Bu gəlir, görür ki, bir dəsdə qurbağa tullana-tullana gedir. Deyir, əşi, onsuz da gözü görmür ki. Əti sivirir yığır bir tərəfə, qurbağaları düzür şişə, bişirir, aparır qoyur arvadın qavağına. Arvad nə qədər eliyir, bunu yiyə bilmir. Bərkdi deyə çeyniyə bilmir. Axşam oğlu gələndə deyir:

– Ana, yedinmi kavabı?

Deyir:

– Hə, yedim bala, yaxşıydı, sağ ol.

Da demir bu ət bərk idi, heş yeyə bilmədim. Sora arvad rəhmətə gedir. Gəlin qojalır, həmən yaşa çatır. Həmən yaşa çatanda oğluna deyir ki, ay bala, mən bir kavab isdiyirəm. Bu da ət alır, gətirir verir gəlinə, deyir ki, bişir. Bu gəlin gətirir əti bişirəndə elə ha eliyir, görür ki, bu tikələr dönüb qurbağa olur. Bunu çıxardıb təzə ət salır, genə qurbağa olur. Sora deyir ki, ay ana, bəs belədi da. Nə qədər eliyirəm bu qurbağa olur. Deyir:

– Bala, öz əməlimdi, götür, gəl bura. O vaxdı mən qurbağanı ət əvəzinə bişirif qayınanama vermişəm, o da qarşıma çıxıf.

Bu rəvayətdi, amma faktdı. Bir arvad vardı. Çeçələ barmağı əyri idi. Deyirdim ki, noluf barmağa? Deyirdi, qayınanamnan dalaşırdım. Qayınanamın barmağın qaardım, barmağı qırıldı, əyri bitdi. Həmin hadisə öz başıma gəldi. Durduğum yerdə nə oldu, olmadı, gəlin əlin atdı belə, baramağım sındı, əyri bitdi. Bax onun əyri barmağını mən görmüşdüm. Onçün deyillər, nə tökərsən aşına, o da çıxar qaşığına.

## 130-131. DƏDƏM ÖLƏNDƏN İRƏLİ GEDİRİK

Bir dayı olur, bir bacı oğlu. Dayı bir gün xəbər alır. Deyir ki, bacıoğlu, nətərsən? Deyir:

– Dayı, dədəm ölənnən irəli gedirik.

Bu çox fikirrəşir ki, bu nə deməkdir. Gedir görür ocaqdı, qalıyıflar. Ocaq söndükcə uşaqlar ocağa sarı gəlir. Deyir:

– Hə, bala indi bildim ki, nətər irəli gedirsiz.

Demək, atadan qalan varı-dövləti dağıdıflar, qalan bir ocaqlarıdı. O da söndükcə, qızına bilmək üçün irəli gəlillər.

*Söyləyici bu məsəli cavanların kəndi tərk etməsinə misal gətirdi. Dediyinə görə, kəndin ağsaqalları dünyasını dəyişəndən sonra camaat pomidor yetişdirə bilmək üçün su olan kəndlərə üz tutur. Nəticədə Tərəkəmə kəndinin əhalisi dağılır, sonradan həmin kənd Mincivana birləşdirilir.*

## 131.

Bir kişinin qardaşı ölür. Aradan iki-üç gün keçir, deyir: “Gedim görüm qardaşım uşaqları neynir, nətər dolanırlar”. O vaxt da ortabaca evlər idi. Bular da ocağı qalıyıb oturublar. Deyir:

– Bala, neynirsiz, necə dolanırsız?

Qardaşı oğlu deyir:

– Əmi, irəliləmişik.

Deyir:

– Bala, nətər irəliləmisiz?

Deyir:

– Dədəm sağ olanda odun gətirirdi, ocağı qalıyırdı, aralıdan oturub isinirdik. Dədəm ölənnən sora ocağa odun qoyan yoxdu, isinə bilmək üçün irəliləmişik külün dibinə.

## 132. BAĞ ƏMANƏTİ

Deyir, ağıllı neynir ata malını, ağılsız neynir ata malını. Ağıllıya ata malı lazım dəyil, çünki öz ağlıynan qazanacaq. Ağılsıza da lazım dəyil, onsuz da dağıdacaqdı. Bunun müqabilində biri olur, gedir Hacca. Yaxşı mülkü, bağı-bağatı varmış. Hacca da gedənnər

atı qırxa bağlıyırmış[50], yoluna yolxərci götürürmüş, altı aya get-gəl eliyirmişdər. Oğluna deyir ki, oğul, can sən, can bu mülk əmanəti, bağ-bağat əmanəti. Deyir:

– Ata, baş üstə.

Yaz gəlir. Camaat barama saxlıyır. Ağaşda yarpaq qutarır. Buların da mülkü qalır, dədə gedib, barama saxlıyan yoxdu. Qonşular əldə pul gəlir ki, a bala, yarpağı ver, qırax, verək baramaya, batmasın. Deyir:

– Yox, dədəm gedəndə tapşırıb ki, mülkə yaxşı bax.

Gələnnən sora dədəsin muştuluxluyur, deyir:

– Dədə, yaman iş oldu ey. Camaat qapını kəsdi yarpağı istədi, vermədim.

Deyir:

– Vay, bala, sən niyə belə elədin? Mənim qızılımı xəzəl eləmisən ki.

Yanı satseydı pul idi, ağac göyərəcəydi, genə olacaydı yaşıl.

[50] Atı qırx gün tövlədə bəsləmək

## 1918-Cİ İL HADİSƏLƏRİ XATİRƏLƏRDƏ

**133.**

1918-ci ildə erməni-müsəlman müharibəsi vaxtı Sisyandan üzü bəri ermənilər müsəlman əhalini qova-qova gətirib Qubadlının Xocahan kəndinə. Xocahan bir müddət nahiyə mərkəzi olub, orda həftəbazar olardı, ətraf rayonlardan camaat ora gələrdi. Rəhmətdik Mehdi kişi danışırdı. Deyirdi ki, Sisyan tərəfdə camaat kəndləri tərk eliyifdi, gəliflər bizim kəndlərə yerləşiflər. Bizim kənddə Hacı Zaman kişi vardı, özünün o vaxdı barama zavodu vardı. Çıxıb kəndin ortasına əlində çəlik. Deyib:

– Ay camaat, yaxşı, bular gəlib bizə sığınıblar. Sabah ermənilər gələndə biz kimə sığınacağıx? Kimin atı və silahı var götsün, çıxsın kəndin ortasına.

O vaxdı bizim Ağalı kəndindən yüz atlı gedib. Xocahan bazarı deyirlər, ora kimi ermənilər gəlmişdilər. Onlar bic millətdir axı. Çuqun aftafaların içinə barıtı yığırmışlar, fitil qoyub atırmışlar. Partdıyıf qəlpələr verirmiş, adamları qırırmış.

Üş hissəyə ayrılıblar. Deyiblər, sürünə-sürünə getməyəcəyik, türk əsgəri kimi dik gedəcəyik. Kimi də vursalar, geri dönmək, meyidi götürmək söhbəti olmasın. Axıra qədər getməliyik. Dik gedirlər erməninin üstünə. Ermənilər buları görüb deyiblər, ərə, bular türklərdir. Orda yüz atlıdan iki nəfər dünyasını dəyişir, biri Ağamalı kişinin qardaşı İmamalı oluf, biri də Maşat Burcalının qardaşı Məhəmməd. İkisi də Qubadlının Xocahanla sərhədində erməni gülləsinə rast gəliblər. Atları buların meyidinin yanında qalır. Atın biri gəlir kəndə, kişniyir, – bunu Maşat Burcalı söhbət eliyif, mən eşitmişəm, – ayağını yerə vurur, bir də qayıdır həmən meyidin yanına. Bular dalınca gedib meyitdəri atdarın üstünə şəlliyib gətiriblər. Onda erməniləri düz Sisyana kimi qovmuşdular.

**134.**

1918-ci ildə ermənilər müsurmannarı qavıllar. Böyük Ağalıda Hacı Kazım olub. Uşaqdan böyüyə hamını yığıb meydana. Deyib,

camaat, eşidin, agah olun, erməni gəlir bizim üstümüzə. Ağalılar, atdanın, gedəjeyih erməni qabağına. Mənim oğlumu erməni vursa, bir adam atdan düşsə, onun nəslini kəsəjəm. Dəymiyin meyidə, ancaq qabağa gedin. Analar, bajılar, sizə tövsiyəm nədi? Ermənini biz qava bilsək, göstəriş verəjəm, böyük bir yalav qalatdırajam Süsən meşəsində. O yalavı görsəniz, onda arxayın yerinizdə qala bilərsiz. Əgər yalav görünməsə, uşağın əlindən tutun, ağzı aşağı gedin, Ağalıdan çıxın.

Bizimkilər atdanıllar, gedillər erməni qabağına. Erməni döyür, bular qabağa, erməni döyür, bular qabağa. And olsun oxuduğum "Qurana", erməni deyir ki, ərə, bular İmam Hüsöynün ordusudu, nə qədər atırıq, yenə üstümüzə gəlir. Ədə, tərpənin. Erməni helə qaçıb gedir. Hacı Kazım göstəriş verir, yalav qalıyıllar, Qarabağ mahalından o yalavın işığı görünürdü. Orada bizim kənddən iki nəfər şəhid olmuşdu, onun biri Hacı Kazımın əmisi oğlu idi. Onları bizim qəbirstannıxda basdırmışdılar, onların başının üstündə bir dənə ağac bitmişdi. Camaat öz qəbirlərin qoyurdu, gedib həmin ağacı ziyarət eliyirdi.

**135.**

Kalba Bəşir yüzbaşı olufdu, həm də çox təpərri adam olufdu. Dədəm deyirdi ki, 1918-ci ildə erməni-müsəlman davasında bütün kəndin ətrafında səngərlər vardı. Bir var yaxın səngər, bir var uzaq səngər. Kalba Bəşir uzaq səngərlərə cavan adamları qoymuşdu, yaxında olanlara yaşdı adamları qoymuşdu. Dədəm deyirdi ki, o maa iki post tapşırmışdı: bir Kəkeyin dibi, bir də Keçəl təpə. Maa deyirdi ki, sən cavansan, həm Kəkeyin dibində güllə atginən, tez qaş gəlginən Keçəltəpədə atginən ki, erməni elə bilsin postların hamısında adam var. Postlarda duran adamların başında da Əbdüləli kişi dururdu: Kalba Bəşirin həm qohumu idi, həm də sərrast güllə atan idi. Hər gecə postların hamısını o kişi yoxluyurdu, gedib Kalba Bəşirə məlumat verirdi. 1918-ci ildə Qannı Ağaşda ermənilər gətirib top qoyuflar. Ordan atıflar Kalba Bəşirin balkonuna. O topun biri kəndin qabağında Haçadaş var, ora düşüb, biri də düşübdü Kalba Bəşirin balkonuna. Amma top açılmamışdı. Sora o topu götürüb muzeyə vermişdilər. Onda Kalba Bəşir kişilərin hamısın

sərhədə qoyuf, qadınları kənddən çıxarıf. Niqalay vaxdı stansiya Bartazda paraqlar olufdu. Qadınların bir azı köçüf gedib ora. Ora gedəndə İrannan güllə-baran eliyiflər. Qadınları çıxarıf gətiriflər, gələndə yolda bir kadına güllə dəyif, ölüfdü. Ermənilər kəndə dolanda bir neçə evə, tut ağaclarına od vuruf yadırıflar.

Top məsələsi olanda Kalba Bəşir çağırıb Bağırı, Əsədi, bir də Əbdüləli kişini. Deyib ki, o topu ələ keçirmək lazımdı. Həmin yer Ermənistanın Həd kəndinə yaxındı. Ermənilər Həddən çıxıb gəlirlər, Qanlı Ağacın dibində topu qurub kəndi güllə-baran eliyirdilər. Bular üçü də gedir. Deyir, günüzdən getdik Abiseyid qalasında oturduq, yeri müəyyənləşdirdik ki, ermənilər hardan topu atır. Gecə atırdılar. Deyir, çıxdıx ağaca. Hava qaralannan sora ocax qalamışdılar. Ocağı basdıx güllə-barana, ermənilər hamısı ordan qaşdılar. Qaçannan sora getdik topu götürdük, dağdan üzüaşağı diyirlətdik.

**136.**

Beşdəli, Tri, Bartaz ermənilərin qarşısında dayaq saxılıya bilir. Ermənilər öküzlə topları çıxarıflar Qannı Ağaş deyilən yüksəklikdə quruf, atıflar. Atıflar, biri Kalba Bəşirin evinə düşüf. Kənd camaatı yenir Araz qırağına. Ermənilər kəndə girib bir neçə evi yandıra bilib. Araz qırağında da irannılar bizimkiləri gülləliyif ki, qarət götürələr. İrannılar camaatın mal-heyvanın yığıf aparanda xamlıx eliyillər, qoyunu quzuya qoşullar. Quzusuz qoyun yaxşı gedir, amma quzuya qoşanda quzu mələşir, əmişir, yerimirlər. İrannılar sürünü nə qədər qovur, sürü yerimir. Bizim postda oturan adamlar üç-dörd irannını vura bilillər. Olar xayiş eliyillər ki, imkan verin ölümüzü götürək. Bizimkilər imkan verillər, gəlib ölülərini götürüllər. Orda irannılar bizlərdən bir qadını, bir də bir kişini vurublar.

O vaxdı bizim kəndə 300 evli Bartaz deyiflər. İrannılar gəlif kəşfiyyat aparıllar. Kalba Bəşir bundan xəbər tutur, bir qism adamı silahlandırıb. Bular giriblər Kalba Bəşirdən tapşırıq almağa. Görüşüb çıxıllarmış, silahı o biri adamlara verirmişdər, bu dəfə olar əlləri silahlı gəlillərmiş Kalba Bəşirin yanına. İrannılar da elə bilir, Kalba Bəşirin böyük bir ordusu var, ondan çəkinirmişdər.

**137.**

Babamın yaxşı qızılı varmış. Ermənilər də bilirdi ki, Əmralı kişinin qızılı var. Ermənilər o vaxt yetirillər ki, görüllər babam qızılı yığıb fərməcin üstünə, ata yüklüyür. Deyib, qızılı ver. Deyib, hamısı yükdədi. Ermənini başa salmaq olar ki... Ermənilər babamı da öldürüllər, qocamı da, nökəri də öldürüllər. Atı-qatırı götürüllər, kənddən təxminən yüz əlli metr aralaşanda atam beşatılan tüfəynən erməninin birin vurur. Amma anamın əmisi Kərim kişi atışmada ölür. Taxıl quyusu varmış. Bunnan qabax taxılı quyuda saxlıyırmışdar. Quyuda da taxıl qutarmışmış, üstünə ayınnan-oyunnan atmışdar. Bilirmişdər ki, burdan erməni gəlib gedəcək. Evin içində oturub ermənilər gəlib keçdikcən vurub. Dördünü vurub salmışdı o quyuya.

**138.**

Bizim kənddən yuxarı Ermənistanın Saf kəndi var, ermənilər ordan bizim kəndə giriblər. Ağammədin babasını gülləynən vurdular, Ağaların bacısın gülləynən vurdular öldürdülər. Topnan Sobu qalasının arasından aşıb gəlmişdilər kəndə. İldırım kişi malı açıbdı, kənddən bir az yuxarı aparıf kəvşənə. Görür ki, ermənilər gəlir. Qışqırıf ki, ay camaat, erməni gəlir. Orda gülləynən vurmuşdular. Camaat tökülmüşdü Araz qırağına. Onda bizimkilər Arazı addıyıflar İrana, altı ay qalıflar orda. Sora türklər gəlib erməniləri qovub. Türklər Aşıx Əli səngərində post qurublar, bizim camaatdan da könüllü adamları silahlandırıb keşik çəkiblər. Pəri arvad vardı, o deyirdi ki, bala, bunnan (1993-cü ildə Zəngilanın işğalı nəzərdə tutulur – top.) dördüncü dəfədi biz qaçırıq. Qayıdıf görmüşük evlərimizi yandırıflar. Kalafalarda həməköməci, kişniş bitif, yığıf onnan yemişik, gənə ev tikmişik. Bir-iki yanmış kalafa, evlərin yanmış tirləri soralara qədər qalırdı. Qaçan camaatın bir qismi qayıtdı, kimin İranda qohum-əqrabası vardı, qaldı orda.

**139.**

Kənddə rəhmətdik Gülquz qoca vardı, onnan soruşmuşam. O deyirdi ki, Oxçuda bizi yığdılar bir dama, güllələdilər. Mən də ər-

gən qız idim, uzandım meyitdərin altına. Ermənilər girdilər içəri, tərpənənin təpəsinə güllə vururdular. Bütün meyitdərin dabanına siqareti yandırıb basırdılar. Bu arvad okqədər ayaxyalın gəzmişdi ki, dabanı qabıx bağlamışdı. Özünün danışdığın deyirəm ha. Siqareti basıblar dabanına, bu tərpənmiyif. Deyir, bildim ki, o birilərin başına güllə çaxıblar, tərpənsəm məni də öldürəcəklər. Gözdüyüb, gecə düşüb, gecə ordan qaçıb. Dərədə ayrı qaçanlar da vardı, olara qoşulub, gəlib çıxıb bizim tərəfə.

Ermənilər payızda Meğri tərəfdən hücum eliyir Vejnəli kəndinə. O vaxdı da bizim camaat erkək bəsdiyirdi qapıda. Noyabr ayında onu kəsib, qovurub yığırdılar teştdərə, bütün qış onu yeyirdilər. Zöhrə qarının bir xanada yarımçıx kilimi vardı, onu bükür götürür, bir də həmin o erkəyi götürür. Bir də sandıxda qızılı, gümüşü, kəməri vardı, onu götürür. Babam da qaçır gəlir aşağı, heyvanı qatır qabağına qaynatası İslam kişiynən heyvanı sürüllər Araz qırağına. Camaatı pələlərnən Arazdan keçirillər İrana. O tayda Heydər bəy vardı. Heydər bəyə hər evə görə bir qoyun verir. Deyir, biz burda koma oluf qalaceyih, tay erməni qayıdıf gedənəcən. Rəhmətdik Yəhya baba danışırdı ki, on səkkizinci ilin mart qırğınınnan sora camaatın çoxu İrana addıyamamışdı, qalmışdı Arazın qırağında. Əbdüsəməd bəy Naxçıvana Qarabəkir paşaya məktub yazır. Qarabəkir paşa da Türkiyədən gəlmişdi Naxçıvana ermənilərnən mübarizə aparmağa. Yazır ki, bəs bizə kömək göndər. Qarabəkir paşa da yüzbaşı Hafiz əfəndini yüz on nəfər əsgərnən göndərir Zəngilana. Zəngilanda o əsgərlərin bir qismin yerrəşdirillər bəy evlərində, bir qismin də gətirif yerrəşdirillər Tərnəvüt bulağının üstündə Əbdüsəməd bəyin öz evində. Elə ki, martın axırı olur, ermənilərə ultimatum verillər ki, çıxın. Ermənilər çıxmır. Ermənilər cəmi orda Savda, Kilsədə, Çuxuryurtda yaşıyırmışdar. Süsən istiqamətindən, Leşkər istiqamətindən, bir də Razdərə dərəsindən türk əsgərləri hücum eliyillər ermənin üstünə. Ən böyük qırğın olur Leşkərdə. Leşkərdə, Çuxuryurtda o qədər erməni qırılır ki... Döyşüdən sora ermənilər qaçıb gedillər, meyitdəri qalır orda düzdə. Əbdüsəməd bəy sifariş göndərir ermənilərə ki, öküz də veririk, araba da veririk,

gəlin meyitdərizi yığın, aparın basdırın. Ermənilər gəlib aparmıllar. Bir müddət ora qayıda bilmillər. Elə ki, ara sakitdəşir, xəbər eliyillər, İranda, Araz qırağında nə qədər camaat var hamısı qayıdıb gəlir yurduna. Bizim camaat da Çuxuryurda qayıdıf gələndə, leş iyinnən heç kim kəndə girəmmir. Yəhya baba danışırdı ki, iki-üç il leş iyinnən bığda zəmilərin əkəmmədi camaat.

**140.**

Bizim kənddə böyük dava olubdu. Mənim nənəmin dayısı İranda yaşıyıbdı. Atışmanın səsinə iranlılar gəlib bizə köməyə. Kəmərə deyilən ərazi var. Ermənilərin bir qismi oraynan gəlib, bir azı da kəndin o tayınnan meşəynən gəliblər. Soltan kişinin evinin yanında durublar, üsdən aşağı kənddən çıxıb qaçanı vururmuşdar. Dədəm deyir ki, mən özüm əlimdə beşaçılan neçə ermənini vurmuşam. Ağalıq otağının yanında məçid varmış. Ağammədin atasının həyətində buğda quyusu qazılmışdı. Bizimkilər həmin quyuya yeddi dənə ermənini vurub salıblar. İranlılar bizə köməyə gələndən sora ermənilər geri çəkilib.

**141.**

Hacı Abdullaynan Balaca Azərbaycan kəndlərini qoruyublar. Balaca çox nəhəng adam olub, Hacı Abdulla onnan bir az nazik olub, amma enlikürək, hündürboy bir kişi olub. Özü də onnarın atdığı güllə heç vaxt boşa getməzmiş. 1918-ci ildə ermənilər güj gəlib, Balacaynan Hacı Abdulla Ağkənddə dayanıb onları Qafannan aşağı buraxmıyıblar. Sora ermənilər hədinnən artıq güj gəldiyinnən bular orda dayana bilmiyiblər. Deyiblər, biz Yenikənddə dayanaq, ordan aşağı ermənini buraxmayaq. Ağkənd camaatına deyiblər, köçün gedin Araz qırağına. Oları sağ-salamat köçürüblər Arazın qırağına, yavaş-yavaş vuruşa-vuruşa gəliblər Şayıflıya. Şayıflıda Hacı Abdulla qılçasınnan yaralanır. Balaca Hacı Abdullanı dalına alıb gətirir Yenikəndə. Yenikənddə bunun qılçasını sarıyıb. Balaca deyib ki, qoymuyun məni arxadan vursunnar. Qabaqdan ermənilər

məni vura bilməzdər. Dörd ay o kəndin üstündə qalıblar. Sora türk-lər köməyə gəliblər, ondan sora ermənini o kəndlərdən çıxarıblar.

Balaca iki qardaş olub. Kiçik qardaşı Əhməd olub. Əhmədi cavan vaxtında ermənilər öldürüb. Balaca and içib ki, mən yüz erməni öldürmüyüncə qardaşımın cəsədin dəfn eləmiyəcəm. Həqiqə-tən də, çox erməni qırıb, qardaşını da Karrar kəndində alma bağında dəfn eliyiblər. Hacı Abdullanın da bacısı oğlunu öldürüblər ermənilər. Bacısı oğlu Abasqulu Qafanda işdiyirmiş. Ermənilər bunu alladıblar ki, biz sizi dəvət eliyirik kluba. Həm sizə qonaxlıx verəceyik, həm də barışıq olsun. Bular səkgiz nəfər olublar. Kluba gələn vaxtı ermənilər tökülüb səkgizin də qolunu bağlıyıblar, gətiriblər Bex kəndinə. Bex kəndində Uzun dərə deyilən yerdə səkgizinin də başını kəsiblər. Həmin səkkiz nəfərin biri Abasqulu olub, o biriləri Alməmməd, Məhyəddin, Vəliyəddin olub. Ermənilər buların meyidini vermiyiblər. Ağkənddə seyid Ziya var, ermənilər həmişə onun cəddinə and içərmiş. Çox məşhur seyid olub: həm ermənilər onu ziyarət eliyirmişdər, həm azərbaycanlılar. Ziya babadan xayiş eliyiblər, Ziya baba gedib onların meyidini alıb gətirib. Oların dördü Karrarda basdırılıb, dördü Şərikanda basdırılıb.

**142.**

1918-ci ildə erməni-müsəlman hadisələri zamanı Gilətağlı Abbasəli müdafiə dəstəsi yaradıb, əli silah tutan adamları yığıb başına, ermənilərə qarsı vuruşub. Andraniki Türkiyədən qovublar, o bura gələndən sora – ermənilərin topları olub, – onlardan istifadə eliyib Qafanın Gilətağ kəndinə hücum eliyiblər. Abbasəli o camaatı aşırıb aparıb Ordubada, qan-qadadan qutarıb. Qafanın Oxçu kəndindən Mustafa kişi olub, onun silahdaşı olub. Oxçu camaatın aldadıb yığıflar məscidə, yandırıflar. Mustafa bəy də Abbasəli kişiynən bir yerdə adam götürüf gedib Əylisdə ermənilərdən öldürdüyün öldürüb, qovduğun qovub.

Sovetlər gəldikdən sora Abbasəli kişi milis işliyib. Qubadlının Alyanlı kəndində qaçaqlar olub, Qaçaq Qəbil də onların başçısı olub. Qaçaqlarla vuruşda Abbasəli kişi Alyanlı Qəbilin bacısı oğlun

vurur. Otuzuncu ildə müəmmalı şəkildə özü qaçıb qoşulur o dəstəyə. Bizin kəndçimiz rəhmətdih Əvəz kişi vardı. Rivizor işdiyəndə gedib çıxıb o kəndə. Orda bir nəfər haqqında deyirdilər ki, bu adam qaçaq vurub. Əvəz kişi danışırdı ki, o kişi dedi ki, qaçaqlar gəldi yığıldı bizim evə. Danışdılar ki, Abasəli milisdi, gəlib qoşulub bizə. Bu bizi ələ verməyə gəlib, bunu öldürmək lazımdı. Hansı birinə dedi ki, Abasəlini vur, dedi: "Biz onu vura bilmərik. O qədər çevikdi ki, o, bizi vuracax". Axır qərara gəlillər, yatdığı yerdə damın bacasınnan vurub öldürüllər.

**143.**

Abbasəli özü Aşağı Gilətağ kəndində anadan olub. Anası Dağ Gilətağ kəndindəndi. 18-ci il müharibəsində Lerinazor, Panıstı, Kürdükan, Purxut kəndlərindəki ermənilər sözü bir yerə qoyublar ki, gəlin elə eliyək azəraycanlılar bir də bu kəndə yerrəşməsinlər. Oxçu kəndində barışıq adı ilə camaatı yığıblar kilsəyə, orda adamları qırıllar. Abbasəli həmin dövrdə sərkərdəlik eliyirdi. Bir neçə nəfəri göndərir səngərə ki, erməni gələndə qabağını kəssin. Camaatı yığır bir yerə. Deyir ki, mən gedirəm patron gətirməyə. Siz heç yerə tərpənməyin, erməni bura girə bilməyəcək. Cırt Dadaş addı birisi olur, bu öz damını odduyur ki, erməni kəndə girsə, olara qalmasın. Bu kişi damı odduyanda camaata hay düşür ki, erməni girib kəndə, kəndi odduyub. Qarı nənəm nağıl eliyirdi ki, malı-heyvanı götdük, Qara qaya deyilən yolnan gedirik. Hamı deyir atın, eşşəyin, qoyunun götürüb çıxır. Biz çıxandan sora ermənilər doldu kəndə. Abbasəli dağdan gəlib özün yetirdi bizə. Dedi, bəs sizə demədim tərpənməyin? Görür artıq geri qayıtmax gejdi. Bizim kəndin qarşı tərəfində Qafanın Kürüd kəndi oluf. Abbasəli kəndə gələndə görür ki, bütün kəntdər köçüb, bu Kürüd kəndi qalıf. Deyif, siz niyə köçməmisiz. Deyillər, biz köçmürük. Deyir köçmürük nədi? Erməni hər yeri mühasirəyə alıf. Oları da yığır başına. Abbasəliynən Oxçulu Mustafa o camaatı sağ-salam keçirir Naxçıvan üzünə.

Abbasəli soradan KKB-yə qoşulur. Onu Qubadlı rayonunda yatdığı yerdə bacadan vurub öldürüllər.

**144.**

Andranikin dəstəsi Qafan tərəfdən Zəngilan kəndlərinə hücum edir. Qafanla sərhəd olan Razdərə, Nəcəflər, Yusiflər kəndlərini dağıda-dağıda gəlirlər. Anam söhbət eliyir ki, biz qaçdıq. Ermənilər musiqi çala-çala gəlirdilər. Bir nəfərin arxasına samavarı şəlləmişdilər, çığırtısı gəlirdi. Anam söhbət eliyir ki, baxdıx ki, bizə çatacaqlar, 109-cu kilometrin qabağınnan qalxdıx meşəyə. Deyirdi, hətta körpə uşağın ağzını yumurdular ki, uşaq boğulsa belə, səs eləməsin. Gözlədik, ermənilər gəldi, keşdilər getdilər. Bir xeyli gözdüyənnən sora gördük daa bular qayıtmadı, biz qayıtdıx kəndə.

*Bu hadisə Şayıflı kəndində olub.*

**145.**

Bizim bir qohum Sultan bəyin qoşununda minbaşı rütbəsində oluf. İyirmi ikinci ildə qırx altı yaşında ölüf. İyid adam oluf. O vaxdı Qarabağda Baharbənd deyilən bir oyun keçirirmişdər. At qaça-qaça onun üstündə olan paltarın soyunuf tökürmüş, qayıdanda da geyinif gəlirmiş. Belə bir adam Soltan bəyin qoşununda minbaşı imiş. Sarı baba dağında hündürrüyü ermənilər tutmuşmuş, strateji bir yer imiş. Soltan bəy çağırıf deyir ki, kim qabağa duruf oranı alarsa, onu mükafatlandırajam. Umudvar qabağa çıxıf ki, mən alaram. Ətrafın yığır. Allahdan gejəynən ora duman gəlir. Dumanın gəlməsi Umudvara sərf eliyir, gejəynən oranı götürür. Soltan bəy tapşırıx verir ki, üç gün ərzində bu ərazidə anadan olan uşağın adı Umudvar qoyulsun.

**146.**

Ermənilər azərbaycanlılara qan uddururmuş. Azərbaycanlıları Soltan bəy xilas edib. Soltan bəy Kosalar yolunu aşıb dağnan gəlib Qaybalıya. Qaybalıya gələn kimi ermənilər aradan çıxıb. Soltan bəy çıxır Şuşanın ayağındakı erməni qəbirstannığına. Ordan bir top atır Şüşü kəndinə. Ermənilər deyir, arə, bu Soltan bəyin topudur. Soltan bəy Şuşadadır. Onnan da qaçıllar.

Ermənilər Qaybalıya girəndə kişilər arvad-uşaxlarını kəntdən çıxarıblar. Babamın atası gedəndə görür meşədən uşax səsi gəlir,

ağlıyır. Deyir, vallah, bu Məhəmmədin səsidir. Demək, anası görür uşaq ağlıyır, səsin kəsmir, ermənilər səsə gəlif buları tapajax. Uşağı ağacın altına qoyuf gedir. Dalınca kəndin kişiləri gələndə atası uşağı səsindən tanıyıfdı. Gedif uşağı götürüfdü. O vaxdı bunu danışanda deyirdik, görəsən, belə şey olar. Onnan da betəri öz başımıza gəldi.

**147.**

Bir günnəri atam məni çağırdı, qaldırdı qoydu atın üsdünə. Dərədə Urqen kişi iki mərtəbə ev tikmişdi. Ordan keçəndə mən dili qurumuş atın üsdünnən dedim ki, ata, ora bax ey, Urqen dayı nə qəşəng ev tikib. Elə bunu deyən kimi, – atam da bir az ucaboy idi, – üzümə bir şillə vurdu, atın üsdünnən gəldim yerə. Yerə gələn kimi bu, ayağın qoydu atın altına, məni tutdu. Əlindəki qamçıynan yanıma vurdu, dedi, get evə, axşam gəlib sənnən danışajam.

Hər dəfə meşədən gələndə armuddan, qozdan, əzgildən bir şey çıxardıb verərdi. Bu dəfə gələndə mənə heş nə vermədi. Özüm də qorxuram. Yükün boşaldannan sora atın üsdünə bir çul saldı, noxdanı saldı atın başına, dedi, gəl bəri. Gətdi məni düz Domotdıx olan qayanın başına. Stepanakerti göstərdi, dedi: "Oranı görürsən?" Dedim, hə. Dedi, orda neçə ev var? Dedim, dörd dənə. Xəlfəli dərəsini göstərdi, Daşaltı çayını göstərdi. Dedi, vaxt gələcək o şəhər böyüyəjək gəlib çatajax ora. Onda ermənilər bu yoldan getməyə sizi qoymayajaxlar. Həqiqətən, yolacan tikdilər, böyütdülər o şəhəri. Vaxt gəldi tələbə avtobusu o yolnan gedəndə ermənilər onu daşladı, nə qədər adam yaralandı. Onda dedim, vay dədə vay, atam gör nə vaxt bu sözü demişdi.

# NAĞILLAR

## 148. NARIM, SƏNƏ DEYİM, DƏRDİMİ SƏNƏ DEYİM

İki qız olur, əmiqızı olullar, gedillər məytəbə. Qapıdan bıllar içəri girən kimi məəllimə salam verillər. Salam verəndə məəlim birinə deyir ki, «salam məleykim, ey baxdı ağ», birinə də deyir ki, «salam məleykim, ey baxdı qara». Bu minvalla qız məytəbi başa vurur. Məytəbi qutaran zamanında atası-anası görür ki, bu yaman ağlıyır, pisikir. Deyir:

– Saa nooluf? Dərdii maa söylə.

Deyir:

– İndiyə qədər dərdimi deməmişdim, bax məəllimin «baxdı qara» sözü məni qutarıf day, içimi yemişəm. Bu maa niyə heylə deyir? Əmim qızına «baxdı ağ» deyir, maa «baxdı qara».

Deyir:

– Cəhənnəmə desin, səni götürüb başqa bir ölkəyə gedəjəm. Aparıf orda səni məytəvə qoyajam.

Bular evdən bir az yeməhlərin – ayın-oyun götürüllər, yol gedillər. İndiki kimi deyil addımbaşına maşın ola. Piyada yola qoyulub gedillər. Yolda buların yeməyi qutarır. Qutarannan sora bir az da gedillər. Qızı deyir:

– Ajmışam.

Dədəsi deyir:

– Mən də susamışam.

Belə baxanda görüllər, bir dərənin arasınnan tüstü çıxır. Deyillər, orda tüstü var; ya qoyun otarandı, ya mal otarandı. Hər nəysə, adam var orda. Dədəsini qoymur getməyə, deyir:

– Sən burda dur, mən gedim ora.

Qız özü gedir. Gedəndə görür ki, bir yekə evdi, qapıları açıx, gül kimi yığışdırılıb, bir qazan aş dəmlənib. Qız ora baxır, bura baxır, heş kimi tapbır. Tapbıyannan sora bu aşdan – mejmayı deyillər, – mejmayıya çəkir, qaralıyır, başına, böyrünə də çörəh qoyur. Bir bardax da su götürür, gedir dədəsinin yanına. Gedir oturur, əhvalatı

söylüyür. Ata-bala aşı yeyillər. Yeyənnən sora deyir ki, bu yaxşılığın qabaanda mən qabı-qaşığı belə qoya bilmərəm, aparıb bunu yerinə qoymalıyam. Dədəsi deyir:

– Apar.

Aparır qız mejmayını yerinə qoyub çıxmaq istəyəndə qapı örtülür. Baxır ora-bura, görür heç kəs yoxdu. Qapı örtüldü, bu qaldı içəridə. Deyir: "Ay Allah, mən nağayrım, neyniyim?" Atası da ha gözdüyür, ha gözdüyür, görür gəlmir. Kişi gəlir, görür qapı örtülübdü, çağırır adın:

– Qızım, a qızım.

Deyir ki, ay ata, qapı örtülüfdü, nə qədər eliyirəm aça bilmirəm. Nə qədər eliyir atası da qapını aça bilmir. Qıznan çox danışıb ağlıyannan sora deyir:

– Qızım, gedirəm. Qapının arasınnan bircə dənə barmağını çıxar, heç olmasa öpüm. Ta gejədi, mən burda nəyə qalım? Qapı örtülü, sən içəridə, mən çöldə qalmışam.

Qız barmağın qapının arasınnan göstərir, atası munu öpür, çıxır gedir.

Saa deyim qızdan. Qız ora-bura baxanda görür bir tağ haçar var. Haçarı götürür. Atalar deyir, otuz doqquz qapını aşdım, qırxda tapdım. Belə bir məsəl var el arasında. Axır bu aça-aça gedir, axırıncı otaxda görür bir gözəl oğlan qıravatda yatıb. Bunun əyağının altında bir qızıl fənər, başının altında bir qızıl fənər. Bu oğlanın yanında oturur. Oğlan tərriyirdi, bunun tərin başdıyır yavaş-yavaş silir. Oğlan gözün açanda görür bir gözəl qız oturuf yanında, Allah bunu buna yetirif. Oğlan sual verir:

– Sən hara, bura hara?

Nə başı ağrıdım, saa söylədiyim kimi qız dərdini muna söylüyür. Deyir:

– Yaxşı. Elə mən də burda tək yaşıyıram. Elə mənim baxdım da səninki kimidi. Mən də Allaha, bəndiyə ajıx eliyif burda özüm özümü dolandırıram. Bu günnən sən oldun mənim ayiləm, mən də sənin.

Deyir:

– Yaxşı.

Bir gün, beş gün bular ömür sürüllər beləlihnən. Bu qız darıxır. Oğlan hər gün atını minərmiş, səfərə gedərmiş uzax bir yerə, ordan çörəyini çıxardıb gətirərmiş. Oğlan gələnnən sora qız bikefliyifdi. Qızın adı Fatma olur. Deyir:

– Fatma, niyə bikefsən?

Deyir:

– Sən səhər olanda çıxıb gedirsən, bir axşamlar yanımda olursan. Darıxıram, dura bilmirəm. Tənhayam, qohum yox, qonşu yox, havağa qədər belə?

Deyir:

– Qoy görəh də, bir təhər eliyərih.

Bir gün olur, bir qaraçı gəlib buların yanınnan gedir. Gedəndə bu qızın əriynən qabaxlaşır. Qabaxlaşanda yoldaşı bu qaraçıya deyir:

– Nə qədər isdiyirsən saa pul verim, bu qızın birin maa ver. Mənim yoldaşım təhdi, munnan danışsın.

Qaraçıya belə deyəndə, bu, pulun alır, qızının birin satır. Bular yeyillər, içillər, ana-bala kimi bir evdə dolanıllar. Axır gəlir o yerə çıxır ki, qaraçı qızın bunun yoldaşına gözü düşür. Hə, gözü düşəndə bir gün paltar yuyurmuş. Oğlan da çıxıb gedib səfərinə. Paltarı yuyanda bu qız – Fatma paltarların çıxardır belə yerə tökür ki, qulluxçusu yusun. Yuanda bu, qızın yoldaşı gələnə macal onun paltarın özü geyir, öz paltarın qıza tulluyur. Qız deyir: "Hə, baxdımın qaralığı bundan başdıyır". Qız bunun paltarın geyinir. Qızın yoldaşı gələndə qaraçı bunu qabaxlıyır, qabaana çıxır, xoş dilnən danışır. Az yaşıyıllar, çox yaşıyıllar. Guya ki, bu oğlan bilmir bu bunun yoldaşıdı, ya qaraçı qızıdı. Nağıldı də.

Nəysə. Oğlan bir gün şəhərə gəlməli olur. Arvadına deyir ki, nə alım saa? Arvadı deyir, onu al, bunu al. Nişannısına deyir ki, qaraçı qızı, saa nə alım? O da deyir, maa bir dənə nar al, bir dənə bıçax al. Yadınnan çıxsa, səni elə tufana, xatıya-balıya iras gələsən ki, heç özünü bilməyəsən. Deyir:

– Yaxşı.

Gedir, hər şeyi alır gətirir, pıçax yadınnan çıxır. Yarı yolu qayıdanda bir tufan qopur, bir qıyamat qopur, nətəəri. Bu fikirrəşir ki, sən öl, pıçax yadımnan çıxıb. O, maa qarğış elədi axı. Qayıdım gedim pıçağı da alım. Pıçağı alanda bu pıçax satan buna deyir ki, neynirsən bu pıçağı? Deyir:

– İsdiyiflər.

Deyir:

– Sən bu pıçağı alırsan al, bunun dalınnan get. Burda bir məna var.

Deyir:

– Yaxşı.

Oğlan pıçağı alır, gedir. Qaraçı qızı yüürür qabaana, deyir:

– Aldınmı?

Deyir:

– Hə, aldım.

Çıxardır tökür bunun adına aldığı şeyləri. Fatmaya da deyir ki, sən nar deyirdin, bir dənə də pıçax deyirdin, ala, almışam.

Bir gün Fatma xəlvəti yer tapır. Buların gözünnən yayınır, narı da götürür, pıçağı da, gedir oturur bir qayanın, daşın dalında. Əmbə oğlanın gözü mundadı, pıçax satan tapşırıb buna. Oğlan bunun dalınnan gedir, bu da qayanın arxa tərəfində durur. Nətəəri söyləmişəm, söylüyür: "Narım, saa deyim, dərdimi saa deyim. İki əmiqızıydıx, məytəbə gedirdik. Məəllim hər sabah maa deyirdi «salam-məleykim, ay baxdı qara», əmim qızına deyirdi «salam-məleykim, ay baxdı ağ». Atam mənnən xəbər aldı, niyə belə sınıxıbsan? Dərdimi ona söyləyəndə dedi, səni götürüb başqa ölkəyə gedərəm, o məəllimnən aralıyaram. Hə, gəldih, başımıza bu iş gəldi". Nə danışmışamsa, hamısın deyir, axırda da deyir: «Narım, saa deyim, dərdimi saa deyim. Narım, saa deyim, dərdimi saa deyim. Yoldaşım bir qaraçı qızı tafdı gətdi. Qaraçı qızı mənim başıma bu oyunu aşdı. İndi mənim yoldaşımnan o yaşıyır. Mən olmuşam qaraçı qızı". Nar partdıyır. Nar partdıyanda pıçağı belə özünə soxmax istəyir, oğlan daldan əlini uzadıb tutur, deyir:

– Ay bədbax qızı, bə sənin belə dərdin var, maa niyə demirsən? Bu kimdi ki…

İki dənə dəvə saxlıyırmış. Biri ajimiş, biri susuz. Oğlan dəvəni çıxardır. Dəvəni çıxardır, qızın bir əyağın bağlıyır aj dəvənin üstünə, bir əyağın bağlıyır susuz dəvənin üstünə, çıxardır çölə. Susuz dəvə suya tərəf çəkir, aj dəvə ota tərəf çəkir. Qızı arasınnan tən cırır, məhv eliyir.

Allah sizi də həmişə xoşbəxt eləsin, yaxşı günnər qismət eləsin. Onnan sora başdıyıllar xoş yaşamağa.

*Söyləyici nağılı anası Gülgəz Həsən qızından eşidib.*

## 149. NƏBİ

Birinə buyrux gəlir kin, sən səər duruf üş yolun ayrıcına çıxarsan. O yolun mən dediyim istiqamətinnən gedərsən. Tutağ kin, sağ tərəfnən. Amma getdiyin yollardan birincini udarsan, ikincini gizdədərsən, üçüncünü razı salarsan, dördüncünü azad edərsən, beşincidən qayıdarsan. Nəbi durdu səər getdi. Bu, deyilən yolnan getdi. Gördü bunun qarşısına bir dağ çıxdı. Dedi: “Allah, mən bu dağı nə cürə udajam?” Bu dağa yaxınnaşdıxca dağ oldu bir balaca həb. Götdü bunu uddu. Genə yoluna davam eliyəndə gördü bunun qarşısına bir şəxs çıxdı. Əlində üsdüörtülü bir mejmahıdı – sini, verdi buna. Bu aşdı, siniyə baxanda gördü içi dolu zinyətdi. Başın qaldırdı, gördü o şəxs yoxdu. Gizdətdi sinini, getdi. Getdiyi yolnan davam eliyəndə bunun yolu bir meşə kənarına düşdü. Gördü kin, bir quş gəlir. Quşu tutdu. Elə yenicə əlinə almışdı ki, bir şəxs çıxdı. Həmin şəxs buna yaxınnaşanda quş dilə gəldi. Dedi kin, məni vermə ona, azad elə. Həmin şəxs də dedi kin, quşu maa ver. Dedi:

– Nəə görə?

Dedi:

– Mən ovçuyam, onnan bala saxlıyıram. Aparajam, onu satsam, azuqəmdi, uşağıma yeməhdi.

Dedi:

– Bunun hakqı nədi kin? Mən bunun məbləğin versəm, verərsənmi?

Dedi kin, hə. – Allah heş kəsi heş kəsin yanında cibi boş, üzü qara eləməsin. Mən də deyirəm, Allah kişiləri arvatdarın yanında üzüqara eləməsin. Qadınnarı da övlatdarının yanında üzüqara eləməsin. Amma kişinin də civinin biri dolu olsun, biri boş. İkisi dolu olanda yolun azır, ikisi boş olanda da fikir eliyir. – Quşu azad elədi. Dördüncüsün razı saldı. Genə yoluna davam elədi. Genə gedəndə gördü kün, bir dağa qarşı gedir. Dedi:

– Ay Allah, mən nağayrım?

Bu nə illah elədi, dağa yaxınnaşa bilmədi. Gördü, irağ üzdən, elə pis iy gəlir. Qayıtdı gəldi.

Gejə bu kişi genə gəldi yuxusuna. Dedi:

– Mən dediyimi elədin?

Dedi:

– Elədim.

Dedi:

– Bilirəm elədin, amma de görüm nə annadın?

Dedi:

– Nə bilim.

Dedi:

– Desəm bilərsən, örgənərsən?

Dedi:

– Hə.

Dedi:

– O birinci gördüyün səbrdi. Abırrı adamda səbr olar. Kimin səbri var, onda abır var. Abrına sığınır, özünü basır. Səbirri adam həməşə hörmətdi olur. İkinci, dedi, dünya malında gözün yoxdu. İnsanın düşmanı nəfsidi, valideynin düşmanı da övladıdı, dosdu da övladıdı. Çünki övlad onu ruhlandıra da bilər, həmi də düşman kimi sındıra da bilər. Sənin nəfsin iti dööl. İnsanı hər şeyə vadar eliyən nəfsidi. Nəfs iti olanda yalan da danışırsan, fikrini dəəşirsən, məjburiyət qarşısında hər şey eliyirsən.

Dedi:

– Bəs üçüncü?

Dedi:

– O quşu ki azad elədin, axirət əzabınnan sən azadsan. O quşun azatdığı sənin axirət azatdığındı.

– Bəs dördüncü?

Dedi:

– Sənin qəlbində okqədər Allah sevgisi var ki, hamı səni sevəjəh. Heş kəsin qəlbinə dəymiyəssən. Bööyün yolun saxlıyassan, kiçiyi bağışdıyassan.

– Bəs beşincisi? Nəkqədər istədim ki, dağa yaxınnaşam, o dərənin divinə baxam ki, burdan gələn nə iydi? Eliyə bilmədim, güjüm çatmadı.

Dedi:

– Getsən, heş nə görmüyəjeydin. Ona görə ki, heş nə yoxuydu. O, bizim gələcək əməllərimizin iysidi. Haası ki, indiki devirdi. Hamı hamıya xəyanət eliyir, hamı hamıya paxıllığ eliyir, hamı hamıya qatildi. Nələr yoxdu – nəvə babıya əl qaldırır, oğul atıya əl qaldırır, ana evlatdarın bir-birinnən seçir. Həmin iy əməllərimizin iysidi.

İndi Allah-taala qorxduğumuzdan qorusun, bizi helə günnərdən saxlasın.

## 150. DANIŞMAYAN QIZ

Padşahın bir oğlu varıydı. Bir gün padşah xəsdələnir. Yaxınnan-uzaxdan həkimlər gətirillər. Bu həkimlərdən biri deyir ki, bəs dəryada bir balıx var, o balığın başın yesə, xəsdəliyinə dərman olar. Balıxçıları çaarıllar, deyillər, dəryaya getməh lazımdı, o balığı tutmax lazımdı. Başqa cür olmaz, yolu bıdı. Padşahın oğlu da bularnan gedir. Tor atır, balıx düşür onun toruna. Balığ onun toruna düşən kimi yalvarır-yaxarır ki, bəs məəm körpə balalarım var, mənnən işin olmasın. Saa nə desən eliyəcəm, hörmət eliyəcəm. Oğlan bu balığı bıraxır. Balıxçılar gəlir deyir ki, bəs balıx düşdü səən oğlunun toruna. O, balığın dil açıf yalvarmağına baxıf buraxdı. Sa-

bah bir də, iki də… Padşah deyir, mənim oğlumun əlin-əyağın bağlıyın, atın həmin dəryıya. O, balığın sağlığın mənim sağlığımnan üstün tutdu. Oğlanı gətirillər, əl-ayağın bağlıyıf atıllar dəryaya. Dəryaya düşən kimi, deyilənnərə görə, balıx bunu udur, aparır o biri sahilə çıxardır. O biri sahilə çıxardır, deyir ki, indi mən sənin qulluğunda hazıram, sənə kömək eliyəcəm. Deyir:

– Nə köməh eliyəcəhsən?

Deyir:

– İndi mənə diqqətnən qulağ as. Birinci mən saa üş nağıl danışacam. O nağılın üçün də yığ başına sözbəsöz.

Danışır, oğlan da təkrar eliyir. Yığa bilir başına. Deyir, bu yolnan düz gedəcəhsən, çıxassan bir şəərə. O şəərin padşahının qızının dili tutuluf. Bir həkim paltarı al, deynən həkiməm, gəlmişəm şəərə. Aparacaxlar səni o qızın yanına. Birinci gecə birinci nağılı danışarsan, ikinci gecə ikinci nağılı, üçüncü gecə üçüncü nağılı. Padşah sənnən şərt kəsəcəh ki, qızı isdiyirsən, yoxsa var-dövləti. Mənim üçün fərqi yoxdu, sən qızı götürəssən, yoxsa var-dövləti. Gələssən bura. Biz onu tən yarı böləcih. Qız da olsa yarı böləcih, var-dövlət də olsa, yarı böləcih.

Oğlan gedir o şəərə. Carçılar tez xəbər verir ki, bəs şəərə həkim gəlif. Bunu gətirillər padşahın yanına. Padşah deyir:

– Sağalda bilərsən, aça bilərsən dilin?

Deyir:

– Açaram.

Deyir:

– Nə vaxt?

Deyir:

– Qoy axşam olsun, çörəhdən sora.

Yeməhdən sora padşah deyir ki, bizdən bir nəfər orda şahid olmalıdı. Vəzir deyir, mən olaram. Vəzir də isdiyir, vəkil də isdiyir gələcəhdə padşahın yerində oturmax. Padşahın başqa züryəti yoxdu. Oğlan gəlir, «salam məleykim» deyir, qız ədəbnən başın yelliyir: «Əleykimə salam». Oğlanın bir çırağı var, balıx verif, qoyur ortalığa. Deyir:

– Çırax qardaş bir nağıl desin, qonax qardaş qulağ assın.

Axı, çırax danışa bilmir, amma bu da deyir «çırax qardaş bir nağıl desin, qonax qardaş qulağ assın». Qız başıynan yelliyir ki, desin. Bu başdıyır. Deyir:

– Bir gün bir dərzi, bir molla, bir də bir dülgər yol gedirmiş. Yolları qarannığa düşür. Bir yolun kənarında gecələməli olullar. Nööbəynən yatıllar. Birinci nööbə düşür dülgərə, dülgərdən sora dərzi olmalıdı, dərzidən sora molla. Dülgər vahimələnir, bular yatıf sağa-sola. Çıxardır usda alətlərin rahatdıyır. Odunnan qəşəh kadın heykəli yonur. Dülgər deyir, tay mənim vaxtım bitdi, gedim yatım. Dülgər gedir yatır. Dərzi durur. Ora-bura baxır, özünə gələndə görür ki, çılpax kadın duruf. Ora baxır, bura baxır, yaxınnaşır görür ki, taxdadandı. Deyir, bu dülgərin işidi. Bu da iynəsini, sapını, parçasını götürür, buna bir paltar tikir əlində olannan, kəlağayı atır başına. Mollanı durğuzur. Molla durur əyağa, o tərəfə, bu tərəfə baxır, görür başı üsdə bir kadın var. Deyir, bu kimdi? Bu kadın hardan peyda oldu? Yaxınnaşır kadına, belə əl vuranda görür ki, yox, taxdadandı. Qayıdır o tərəfin, bu tərəfin yoxluyannan sora deyir: "Bu dərziynən dülgərin işidi. Vaxların öldürdülər. Nööbə maa çatıf, əlimnən də bir iş gəlmir". Gedir dəsdəmaz alır, gəlir namaz qılır, üzün çöörür Allaha, deyir ki, olar öz sənətini nümayiş elətdirdi. Öz dərgahınnan bu taxdıya bir nəfəs verginən. Allahdan vəh gəlir, taxda çönür olur cannı insan. Səər açılır. Dülgər deyir o mənimdi, molla deyir mənimdi, dərzi də deyir mənimdi. Qonax üzün tutur çırağa, deyir:

– Çırax qardaş, sən deginən, kadın dülgərə çatır, dərziyə, ya mollaya?

Çıraxdan səs çıxmır. Qız dillənir, deyir ki, kadın mollaya çatacax, çünki nəfəs verif ona. Deyir:

– Vəzir, eşitdin qızın səsini?

Deyir:

– Yox. O, yalançılığ eliyir, səni alladır.

Oğlan deyir:

– Neynəh, bu gecə də olar.

Bu gecə də gəlir. Oğlan girir içəri, salam verənnən sora deyir ki, çırax qardaş bir nağıl desin, qonax qardaş qulağ assın. Çırax deyir:

– Bir kişinin üç oğlu varıydı, qardaşının da bir qızı varıydı. İlaxır çərşənbədə bu oğlannar getdilər qardaşın evinə. Torba atdılar, dedilər ki, əmi, nə qoyursan? Əmisi dedi, qızı qoyun bu oğlana. Ortancıl qardaş da, kiçih qardaş da torbaların atdı, eyni sözü olara da dedi. Üçü də gəldi evə, dedilər əmim qızı verdi mənə. Mübayisə elədilər. İndi bu qızı üç adamın hansına versin? Deyir, bəs sən üçümüzün də torbasına qızı qoydun, bu necə olacax? Əmi deyir, mən sizin torbaaza qızı qoydum, amma heş birizin sənəti yoxdu. Kim tez gedif başqa bir ölkədə sənət öyrənif gəlsə, qızı ona verəcəm. Üş qardaş çarıxların bərkitdilər, altdan geyinif üsdən qıfıllandılar, yol çörəyi götürüf yola düşdülər. Gəldilər, gəldilər, gördülər üş yolayrıcı var. Dedilər, bizim üçümüz də bir yerə gessəh, bir şey öyrənə bilmiyəceyih. Gəlin burda ayrılax.

Böyüh qardaş getdi, çıxdı bir yerə. Rəmmal buna fala baxmax öyrətdi. Ortancıl qardaş getdi bir şəhərə. Həkim yaanda oldu, həkimlih öyrəndi. Kiçih qardaş da yolnan gedirdi, qabağına iki dənə div çıxdı. O divlərin əlində bir dənə açılıf-yumulan süfrə varıdı – yeməh süfrəsi, bir dənə xalça varıdı, bir də bir üzüh varıdı. Bu üçünü də iki div bölə bilmirdi. Bu insanı görən kimi gəldilər üstünə. Dedilər ki, sən bizdən ağıllısan, üç şeyi bizim aramızda bölgünən. Deyir, bu nədi ki? Bunun maayətin maa deyin. Deyir, bular belədi ki, bu papağı qoyursan başa, sən hamını görürsən, heş kim səni görmür. İsdədiyin vaxt Allahı çağırırsan, sifarişini eliyirsən süfrədən. Bu xalçada da uçuf gedirsən. Oğlan bir az fikirrəşdi. Yerdən bir daş götürüf tulladı, dedi:

– Kim gedif bu daşı tez gətirsə, xalça onundu.

Papağı qoydu başına, süfrəni vurdu qoltuğuna, otdu xalçıya, uşdu, divlər qaldı yerdə. Gəldi böyüh qardaş olan yerə. Dedi, gə axtarax, o biri qardaşı da tapax. Rəmmal rəml atdı, dedi, odey, o biri qardaşımız filan şəərdədi, xəsdə qəbul eliyir, həkimdi. Getdilər onu da götdülər. Dedilər, indi gəlin rəml atax, görəh əmimiz qızının vəziyyəti nə yerdədi? Baxdılar gördülər ki, əmiqızı ağır xəsdədi,

yatır, dura bilmir. Dedilər, təcili gedəh ora. Gəldilər. Bu həkimliyi bilən qardaş qızı ayıltdı, ölümdən qaytardı. İndi sən de, qız kimə çatır – rəmmala, xalça yiyəsinə, həkimə? Qız yenə dilləndi ki, həkimə. Çünki qızı xəsdəlihdən qutardı. Deyir:

– Vəkil, eşitdin?

Deyir:

– Yox.

Oğlan dedi:

– Padşahi-aləm sağ olsun, bu gecə özün gəl. Görəh sən nə dəəssən?

Padşah deyir:

– Yaxşı.

Bu gecə padşah da gəldi. Salam verdi, əleyki-salamnan sora dedi:

– Çırax bir nağıl desin, qonax da qulağ assın.

Dedi ki, iki qardaş varıdı, bir yerdə böyümüşdülər. Bir-iki yaş fərqləri vardı. Böyük qardaş evlənmişdi, kiçih qardaş subayıdı. – Bizim də qayda-qanunnarımız var da, yəni böyüh qardaş da poza bilmir, kiçih qardaş da. – Bir gün böyüh qardaş kiçih qardaşa deyir ki, gəl gedəh hamama, hamamlanax. Böyüh qardaş deyir ki, mənim ehtiyacım yoxdu. Sən gedirsən, get. Böyüh qardaş getdi hamama. Kiçih qardaş mürgülədi. Mürgülüyəndə, şeytan bunu aldatdı, özün mundarradı. Baxdı ki, hamama getməhdən başqa çarəsi yoxdu. Duruf hamama gessə, böyüh qardaş deyəcəh ki, mənnən niyə getmirdin? Səən mənim yoldaşımnan nə işin vardı ki, qaldın bu vaxta qədər. Aşağı fikirrəşdi, yuxarı fikirrəşdi. Hamama getməsə, necə olacax, nətəər olacax. Xəncəri götürür öz boynun vurur, salır yerə. Böyüh qardaş hamamnan gəlir, qardaşını bu vəziyyətdə görür. Deyir, noluf? Arvadı deyir, bilmirəm, götdü özün vurdu. Deyir, bah, dadı-bidad. Mənnən hamama getmədi. Bunun mənim arvadımnan nə işi varıdı? Görüf belə, duruf özünü öldürüf. Qardaş da götürür həmən xəncərnən öz boynun vurur. Gəlin qalır ikisinin arasında. Qaça-qaça gedir atasının evinə. Qaça-qaça gedəndə görür ki, iki qarışqa dalaşır. Qarışqanın biri o birisinin başın qopartdı qoydu

yerə. Sora bir ot vardı, onu çeynədi, tüpürcəh kimi elədi, başı götürdü qoydu bədənə, yapışdırdı. Qarışqa durdu getdi. Gəlin atası evinə getmədi. Həmin otdan yığdı, təcili geri qayıtdı. Qarışqa kimi çeynədi, tüpürcəhnən yapışdırdı. Tələsdiyinnən qaynının başın ərinin bədəninə qoydu, ərinin başın qaynının bədəninə. İndi, ikisi də dalaşır. O deyir arvat mənimdi, bu deyir arvat mənimdi. İndi sən de görüm, bu arvat kimə çatır? Qız deyir ki, baş kimdədisə, arvat da ona çatır. Oğlan deyir:

– Padşahi-aləm sağ olsun, eşitdin?

Deyir:

– Eşitdim. Mənnən istədiyin?

Deyir:

– Mən elə bu qızı isdiyirəm, başqa şey yox. Var-devlət, heş bir şey isdəmirəm. Bu geri qayıtdı. Gəldi çıxdı dəryanın yanına. Səs elədi, balıx gəldi. Dedi:

– Niyə gəlmisən?

Dedi:

– Qızı gətirmişəm.

Dedi:

– Bizim şərtimiz var də, nə gətirsən, biz onu yarı bölməliyih.

Dedi:

– Axı bu cannı insandı.

Dedi:

– Mənim üçün eybi yoxdu, sözümüz sözdü.

Oğlan yalvardı balığa, balığ əl çəhmədi. Dedi:

– Mümkünsüzdü.

Qızı bağladı ağaca dümbələmdüz. Getdi qılıncını gətdi ki, uzaxdan gəlsin qızı vursun. Qız qorxudan nətəəri qışqırırsa, ağzında ləl varmış, gəlif düşür yerə. Demək, qız ləli uduf, onnan da bunun nitqi kəsilif. Bu, qılıncı saldı yerə, dedi:

– Mənnih iş bitdi, bunu götürüf gedə bilərsən.

Nağıl burda bitdi.

## 151. ALLAH HAQQI NAHAQQA VERMİR

Deyir, peyğəmbərrərimizdən biri uca bir dağın zirvəsində yaşıyırdı. Orda ibadətin eliyərdi, Allahın buyurduğu əməlləri eliyərdi, sora yuxarıdan aşağı baxardı ki, camaat nə işnən məşğuldu. Bu dağın da ətəyindən enni çay axırdı. Çayın da qırağıynan enni karvan yolu gedirdi. O vaxdı elm-texnika inkişaf eləməmişdi, atdan istifadə eliyirdilər, bir də piyadaçılıx idi. Hamı bu yolnan gedif gələrdi, yorulanda da çayın qırağında oturardılar, dincələrdilər, sora yolların tutardılar.

Deyir, bir gün genə peyğəmbər ibadətin eliyir, sora baxır ki, karvan yolunan bir qaraltı gəlir. Yaxınnaşır, görür ki, bir atdıdı. Atdı çapa-çapa gəldi, düşdü bu çayın qırağına. Yəhərin üsdə bir xurcun varıydı, onu da götdü qoydu yerə. Çayda əl-üzün yudu, uzandı yorğunnuğun alsın, dincəlsin. Sora genə durdu, atın çapdı, getdi. Xurcun yadınnan çıxdı, qaldı orda. Bir az keşdi, ikinci bir atdı gəlif çıxdı. Atdan düşdü, o da əl-üzün yudu, bir az dincəldi. Dincələnnən sora birinci atdının yaddan çıxan xurcunun qoydu atın tərkinə, çıxıf getdi. Bir az da keşmişdi. Peyğəmbərimiz gördü ki, bir odunçudu, gəlir. Bu odunçu çox kasıbdı. Böyüh ayiləsi vardı. Gedirdi, meşədən odun qırırdı, gətirirdi, satırdı. Yəni, hambal zəhmətiynən ayiləsin dolandırırdı. Həmən bu odunçu genə gedif meşədən odun qırıf, kürəyində bir şələ odun gəlir. Hamısı burdan keçir, çayın qırağınnan. Gəlif odun şələsin qoydu yerə, uzandı ki, dincəlsin, yorğunnuğun alsın, sora duruf getsin.

Bir az keşdi, birinci atdı – xurcunu yadınnan çıxaran atdanıf gəldi. Atdan endi, ora baxdı, bura baxdı, gördü xurcunu yoxdu. Odunçudan soruşdu:

– Odunçu, mənim burda qızıl dolu xurcunum qalmışdı. – Demə, bu xurcun qızıl dolu dinarmış. – Hanı o?

Odunçu o tərəfinə baxdı, bu tərəfinə baxdı, dedi ki, and olsun o bir Allahın birriyinə ki, mən xurcun görməmişəm, heş bir şey görməmişəm. Deyir, bu atdı çox qəzəbləndi, qeyzləndi ki, sən götürmüsən mənim qızıl dolu xurcunumu. Bu da çox and-aman elədi,

çox yalvardı ki, vallah, mən görməmişəm. Çox keçmədi atdı, – nənəm deyərdi, – belinnən xəncəri çıxartdı, odunçunun nahaxdan başın kəsdi. Axı peyğəmbərimiz görürdü. O qədər qeyzlənir ki, deyir:

– Ey ilahi-pərvərdigar, necə olur? Axı, sən hakqı nahakqa vermiyən Allahsan. Necə olur, o qızıl dolu xurcunu bir başqası apardı, başqasının günahsız yerə başı kəsildi. Sən necə buna razı oldun?

Allahdan səda gəlir ki, mənim peyğəmbərim, sən birin bilirsən, birin bilmirsən. O qızıl dolu xurcun ikinci atdının halal malıydı. Vaxtınan birinci atdının atası ikinci atdının atasınnan bu qızıl dolu pulları oğurramışdı. Mən elə elədim ki, onun halal malın ikinci atdı götdü getdi. Deyir:

– İlahi, sən bəs necə razı oldun ki, o odunçunun günahsız yerə başı kəsildi?

Deyir:

– O odunçunun da atası vaxtınan birinci atdının atasının başın kəsmişdi.

Odu ki, Allah-taala hakqı nahakqa vermir.

## 152-153. HAMBAL QULUNUN ZİYARƏTİ

Keçmiş zamannarda nökərçilih eliyənə hambal deyərdilər. Qulu adında bir hambal kişi olur. Bunun da ürəyi isdiyirdi Allah yolunda ziyarətdərə getsin. Ancax çətiniydi. Çox pulu yoxuydu ki, Məşədə gessin, ziyarət eləsin. Bunun tacir qonşuları varıydı. Bular deyillər ki, biz filan vaxdı, məsələn, bir aydan sora gedəjeyih Məşədə ziyarətə. Bu Hambal Qulu deyir ki, siz gedəndə mənə də deyərsiz, siznən gedərəm. Tacirlər baxıllar bir-birinə, gülüllər. Bu kişini məsxərəyə qoyullar ki, buna bax e, mının pulu hardadı biznən Məşədə gessin? Bu hambal deyir ki, Allaha and olsun ki, mən də siznən gedəjəm, gedəjəyim pulu hazırramışam. Bı hambal kişi də işdədiyi vaxt az-az, misqal-misqal yığmışdı, pulu düzəltmişdi.

Nəysə, buların getməyinə üç-dörd gün qalmışdı. Kişi gedif genə bir həyətdə hambalçılıx eliyirdi. Gəlirdi evinə. Yolda böyüh bir zibillih vardı. Gözü sataşır ki, bir dənə cavan gəlin zibilliyin

içində nəysə eşəliyir, axdarır əliynən. Durdu baxdı ki, görüm bu neyniyir. İndi hamı xarab olmuş şeyi zibilliyə atır. Gördü bu gəlin ora-bura baxdı, iylənmiş toyuğu tez götdü qoydu sumkasına, çıxdı getdi. Hambal deyir: "Görəsən, iylənmiş toyuğu bu neynir belə?" Düşür bunun arxasınca. Gəlin kəndin ucqar yerində girir bir dam-xaya. Görür evə girən kimi uşaxları qışqırır ki, ana, bizə yeməyə nə gətirdin? Deyir, sizə toyux gətirmişəm, indi bişirəjəm, yeyərsiz. Hambal kişi bunu eşidir, qapını açır girir içəri. Deyir:

– Bacı, sən neynirsən?

Deyir:

– Heç, balalarım ajdı, mundar toyux gətirmişəm, bişirim, uşaxların başın alladım. Başqa əlacım yoxdu.

– Bacı, eləmə.

Toyuğu götürür atır o yana. Bu, Məşədə pul yığmışdı axı. Nə qədər ki Məşədə gedəcəyi pulu vardı, hamısın bu ayilə üçün xərc-ləyir. Mağazadan mişoxnan, kisəynən düyü, qənd, çay, ərzaq – nə lazımdı aldı, gətirdi buların evinə. Dedi:

– Gələ, bacı, apar balaları dolandır.

Üş-dörd gün keşdi, bu tacirlər ki gedəjeydi Məşədə, deyillər, di gəl də Hambal Qulu, gedəh. Qulu deyir:

– Vallah, mən gedəsi olmadım.

Bular baxdı bir-birinə, güldülər. Bular başdıyır məsxərəynən gülməyə ki, ə, biz deyirdih axı o boyda pul bunda hardadı. Görür-sən, bizi allatdı.

Nəysə, bu iki tacir getdi. Məşədə ilk addımların atanda gör-dülər ki, bu hambal kişi bulardan qabax gedir. Sən mocuzata bax ey! Deyillər, bəs bu dedi getmiyəjəm. İndi bizdən qabax gəlif. Deməh, bizi allatdı. Nə qədər eliyirlərsə də, muna çata bilmillər. Zi-yarət yeddi-səkgiz, on gün çəkirdi. Deyir, axırıncı günüydü, olar ordan çıxıb evə gələjəhdilər. Yenə də görüllər ki, Hambal Qulu gəldi, namazın qıldı. Orda da elan olunur ki, filankəsin ziyarəti birinci qə-bul olundu. Görüllər ki, deyillər filan zonadan gələn ziyarətçilərin içində Hambal Qulunun ziyarəti birinci qəbul olundu. Ordan gələn-nən sora ehsan verirsən axı. Orda deyillər ki, burdan gedənnər bi-

rinci gedif Hambal Qulunun ehsanınnan yesin, onu ziyarət eləsinnər. Deyir, bular elə çıxırdılar ki, görüllər Hambal Qulu bulardan qabax çıxır. Qəzəblənillər axı. Deyillər, biznən gəlif, bizə qarışmır. O vaxtı çuxa geyinərdilər. Əllərin atıllar ki, bu kişini saxlasınnar. Əllərin atanda bu kişinin çuxasının bir parçası qalır bu tacirin əlində, bir tərəfi qalır qapının dalında, cırılır. Hambal Qulu çıxır gedir, qapı örtülür, çuxasının cırığı qalır bunun əlində. Deyillər, hə, yaxşı oldu, bu çuxanı da aparıf sübut kimi ona göstərəjeyih ki, sən biznən gəlmədin.

Nəysə, ziyarətdərin eliyib gedillər düz Hambal Qulunun evinə.

– Qulu, Qulu, Hambal Qulu, – səsdiyillər. Çıxır. Başdıyıllar məzəmmət eləməyə ki, sən bizə dedin ki, getmiyəjəm, amma bizdən qabax gedibsən. Təəccüb eliyir hambal. Deyir:

– Nə danışırsız? Siz məə inanmadız? Mən gedə bilmədim, Allaha əyandı.

Deyir:

– Ə, yox ey, axırıncı dəfə sən ziyarətdən çıxanda əlimi atmışam, çuxanın bir parçası cırılıb əlimdə qalıb.

Deyir:

– Ola bilməz.

Gedir çuxasın götürür, gəlir. Baxır ki, həqiqətən, bir parça cırılıb qalıb bunun əlində. Bu da möcüzətdi. Deyillər, nə iş görmüsən sən? Deyir:

– Vallah, siznən gedəjeydim, olmadı. Day belə bir hadisəynən qarşılaşdım, qaldım. Pulu verdim o kasıb gəlinə.

Onnan sora bular başa düşür ki, şərt deyil ora gedəsən. Hörməti gərəh burda qazanasan. Burdakı əməlin sənin ziyarətinnən üstündü.

**153.**

Çoban qoyun otarır bir təpənin başında. Bir gəlinin də təpənin aşağısında evi var. Görür qadın çörəyi bişirdi, götürdü apardı o tərəfə. O tərəfə baxdı, bu tərəfə baxdı, gördü itin altında, üzdən irax, toppuş küçühlər var. Küçüyün birini aldı, gəldi təndirin başına. Ço-

ban fikir verir. Təndirin közün lapatkaynan yardı, küçüyü çığırda-çığırda atdı təndirin içinə, üstünü də örtdü. Bu çoban çox fikrə gedir. Deyir: "Bu, dəlidi-nədi? Niyə itin küçüyünü anasının yanınnan gətdi, qışqırda-qışqırda təndirə tulladı? Yaqın ki, bunun ağzı pisdi, yerihliyir". Tez əlini atır, bir dənə quzunu tutur, yüyürə-yüyürə, qaça-qaça gətirir. Küçüyü çıxardır, bu quzunu atır təndirə, üstünü basdırır. Küçüyü də gətirir. Gəlinin xəbəri olmur. Çoban genə qayıdır yerinə, başda oturur, fikir verir. Görür gəlin gəldi, bir əlində duz, bir əlində çörək. Bunu aşdı, üstünü təmizdədi. Elə yeyir, elə yeyir, elə yeyir bunu belə görməmiş kimi. Hə, yeyir, çıxıf gedir.

Hə, buların kəndində də bir dənə çox namaz qılan adam olur. Möhür alnını ta yara eliyif. Ta balaca vaxdınnan namaz qılır. Bu gedir Kərbəlaya, qurban olduxlarımı ziyarat eləməyə. İndiki kimi avtobusnan, samalyotnan getmillər ha, pay-piyada gedirdilər. Zəvvarlar deyirdilər. Qırx-əlli adam varsa, mən neçə dəfə getmişəmsə, olara zavarrıx eliyirəm. Bu zəvvar düşür qabağa, neçə ay yol gedillər, Kərbəlaya, Xorasana, Məkkiyə çatıllar. Həmən bu adam neçə illərdi ki, namaz qılırdı, çobanı burda qoyur, çıxıf gəlir. Kərbəlanı ziyarət eliyəndə, – Allah hamıya qismət eləsin, – görür ki, haman bu çoban ziyarat eliyif bəri gəlir. Təəccüblənir ki, çoban hara, bura hara? Bu, camaatın qoyununu otarır. Nətəri gəlif çıxdı bura? Neçə aydı mən bunu kəntdə qoyuf gəlmişəm, bə bu nətəri gəldi çıxdı bura? Deyir ki, ey Allahım, məni agah eylə. Namaz qılan mən, özümü öldürən mən, möhür alnımı yara eliyifdi. Çobanı mən orda qoyuf gəlmişəm. Gəlif görürəm ki, çoban artıq ziyarət eliyif çıxır. Allahdan səda gəlir ki, ya peyqumbər, onun bir dənə işi var ki, o sorğu-sualsız Allah tərəfinnən yazılıfdı. Bir gəlin it küçüyünü basırıf təndirə ki, bişirsin onu yesin. Çoban onu görüf bu hangamanı eliyif.

Deyillər ee, Allah-taala adını qırmızı taxtanın başına yazdı, heylə Allah onun günahlarından keçib.

## 154. ALLAHA TƏVƏKKÜL

Babam, nənəm həmişə danışanda qazılardan danışardı, ona görə də olar yadımda qalıb. Deyir, bir qazı varıydı bir kəntdə, həddinnən artıx şorgözüydü. O kəntdə gözəl bir gəlin varıydı, çoxlu uşaxları varıydı. Bu kişinin, qazının gözü bu gəlindəydi.

Deməli, bu gəlingil o qədər kasıbıydılar ki... O vaxdarı heylə traxtor-zad yoxuydu həyəti şumlamağa. Deyir, kim ki məhsul əkmək isdiyirdi, gedərdi bu qazının yanına. Qazıdan öküzdərin alardılar, kotanın, xışın alardılar, torpaxların şumluyuf əkərdilər, məhsul götürərdilər. Öküzə, apardıxları şeylərə – kotana bir şey olsaydı, onun da pulun ayrıca verərdilər. Deməh, bu cavan gəlingil o qədər kasıb olullar ki, oların öküzü alıf gətirməyə, torpağı şumlatmağa pulları olmur. Bir gün gəlin deyir ki, a kişi, getginən qazının yanına, sən də al gəti. Şərt qoyginən ki, bizim pulumuz yoxdu. Biz yerimizi şumluyax, əkək, əlimizə məhsul gələndə aparıb pulun bölüşərik.

Bu kasıb kişi gəlir qazıgilə. Deyir qazıya. Qazı razı olmur kişinin dedihlərinə. Deyir:

– Sənə başqa şərt qoyajam. Götür apar, məhsulu ək, ancax kotanıma, xışıma bir şey olsa, əvəzində yoldaşı verəssən maa. Səndən pul isdəmirəm.

Bu kişi razı olmur. Gedir yoldaşına deyir, çox pis olullar. O tərəf, bu tərəf... O biri qonşu əkir, məhsul çıxır, bu biri qonşu əkir, məhsul çıxır. Deyir:

– İlahi, biz neyniyəjeyih? Uşaxlarımız ajınnan öləjəh.

Yenə yoldaşı deyir:

– A kişi, get, Allah kərimdi, bəlkə onun öküzünə, kotanına-zadına bir şey olmuyajax.

Kişi gəlif qazıdan buları alanda, qazı deyir:

– Ay kişi, bax ha, şərtimiz şərtdi, öküzümə bir şey olsa arvad mənimdi.

Kişi deyir:

– Yaxşı, başa düşdüm.

Götürür gəlir. Deyir, kasıbınkı heç vaxt gətirməz. Bir dəfə sürür torpağı keçir o tərəfə, ikinci dəfə qayıdanda öküz yıxılır, qıçı sınır. Kişi başına döyə-döyə gəlir evə. – "Ay arvad, ha belə". Baxıllar, budu, qazının adamları gəlir: "Bəs tez ol, şərtimiz şərtdi. Ya öküzü ver, öküzə bir şey olubsa, qazı deyir yoldaşını versin". Bu kişi deyir:

– Bilirəm, şərt kəsmişəm, heç olmasa, maa bir az möhlət verin.

Deyir:

– Sənə bir günnüh vaxt veririk.

Kişi deyir, səhər öz əlimnən gətirəjəm. Gəlin ağıllı qadınıydı. Məlul-müşkül oturmuşdular, arvad deyir:

– A kişi, get peyğəmbərimizin yanına. Peyğəmbərimizə hər şey əyandı, vəhnən Allahnan danışır. Öyrən gör, bu qazının neçə il ömrü var.

Kişi gəlir peyğəmbərin yanına. Deyir:

– Ya peyğəmbər, saa əyandı niyə görə gəlmişəm. Başıma belə bir iş gəlif. Allahdan öyrənginən, görəh bu qazının neçə il ömrü var.

Peyğəmbər salavatullah əllərin götürür Allahın dərgahına, deyir ki, ilahi, özün bilirsən ki, bu kasıb bəndən mənim yanıma niyə gəlib. O qazının neçə il ömrü var? Allahdan səda gəlir ki, ey mənim peyğəmbərim, ey mənim rəsulum, mənim o kasıb bəndəmə denən ki, o qazının qırx il ömrü var. Allahın vəhin peyğəmbər bu kasıb kişiyə deyəndə kişi əllərin başına vıra-vıra, döyə-döyə gəlir evə. Yoldaşına da dedi. Nə edə bilərdilər? Deyir, məlul-müşkül oturmuşdular. Sabah qazının adamları gəlib bunu aparajax. Deyir, bu gəlin gətdi – keçmiş zamannarda ayrılığa görə aş bişirərdilər. Qız gəlin köçəndə də evdə aş bişirərmişdər, adın qoyarmışdar "ayrılıx aşı", – aş bişirdi. Yoldaşının, balalarının, özünün – hər birinin qabaana bir boşqab aş çəhdi, qoydu. Deyir, hamısı məlul-müşkül halda əllərin uzadıf bu aşdan – indi qaşıxnandı, qabax əlnən yeyərdilər, nənəm deyir, o vaxdar şapalax deyərmişdər – ağızdarına qoyanda hər dəfə əllərin götürərdilər Allahın dərgahına, deyərdilər: "Allaha təvəkkül".

Nəysə, deyir, bular aşdarın yedilər, yatdılar. Kişi də getdi yatdı ki, səhər tezdən yoldaşın aparajax əliynən. Deyir, yuxu tutmuşdu

bunu. Bir də gördü qapı möökəm döyülür. Tez gözdərin aşdı, qorxulu ürəhdə də həmişə səksəkə olar da. Elə bildi ki, səhər açılıb, qazının adamları gəlib bunu aparmağa. Gördü, yox, hələ səhər açılmıyıb. Durdu ki, qapını aşsın, görsün bu kimdi. Gördü qazının adamları. Bu kişi narahat oldu, isdədi ki, soruşsun "a balam, səhər hələ açılmıyıf, qoy səhər açılsın, yoldaşımı aparajam daa". Bu kişini qoymadılar, deyir, sözün deməyə. Dedilər:

– A kişi, tez ol, tez ol geyin, gedəh! Qazı ölüb, gedək onu yumağa.

Bu kişi də ölü yuyanmış demə. Kişi tez geyinir palın-paltarın, gedir görür qazı ölüb. Yuyullar, dəfn eliyillər. Qayıdır evinə. Deyir, bu ayilənin sevincinin həddi-hüdudu yoxuydu. Arvadı deyir:

– A kişi, bu nə deməhdi? Peyğəmbərimizdə yalan söz olmaz. Nətəər olur, qırx il demişdi, bu qazının heç bir günnüh də ömrü yoxuymuş. Get peyğəmbərimizin yanına, bunun sirrin öyrən.

Bu kişi gəlir peyğəmbərin yanına. Deyir:

– Ya peyğəmbər, hal-hekayət bəs belə olub. Qazı öldü. Necə olur axı, Allah-taaladan vəh gəlmişdi. Bunun sirrin öyrənməyə gəlmişəm.

Peyğəmbər əlin götürür Allahın dərgahına, deyir:

– Ya Allah, sənə əyandı məzlum bəndən nəyə görə mənim yanıma gəlib. Qazının qırx il ömrü vardı, qazı heç bir gecə də qalmadı, öldü.

Allah-taaladan səda gəlir ki, ey mənim peyğəmbərim, ey mənim rəsulum, həqiqətən o qazının qırx il ömrü varıydı. Sirri bilməmiş deyirsən. Onun ki balaları, özü, yoldaşı o çətin anda, məlul-müşkül işdərin mənə həvalə elədilər, əlləri hər yerdən üzüldü, maa pənah gətdilər, hər əllərin uzadıb o aşdan ağızdarına qoyanda "ilahi, sənə təvəkkül" dedilər, mən də onların hər "təvəkkül" sözünə görə qazının bir il ömrünnən kəsdim. Yeməyin üstündə o qədər "təvəkkül" sözü işdətdilər ki, hələ qırx dəfədən də artıx oldu. Elə süfrənin üsdə də qazının ömrü tamam oldu.

Görürsən, Allahın böyühlüyünü, onun qüdrətini? Allah heş birimizin işin çətinniyə salmasın.

## 155. OĞUL ANASINA RƏHMƏT OXUTDURUR

Bir ata-ananın üş dənə uşağı olur. Əri ölür, üş dənə uşağa arvat zülmnən baxır. Üş göz də evi olur. Vax gəlir bu üş göz evdə uşaxları evləndirir. Ana da ölür. Ölənnən sora ruhu qonşunun yuxusuna girir. Deyir:

– Mənim balalarıma denən ki, mən cəhənnəm odunda yanıram. Bir rəhmət sözünnən ötrü məni cənnətdən götürüf cəhənnəmə atdılar. Biri maa rəhmət oxumur. Balalarıma denən, maa rəhmət qazansın bir kəlmə.

Söz böyük oğluna gələndə deyir ki, o maa neyniyif ki, mən ona neyniyim. Oğlan qəzəblənir, gedif evdə yatır. Nööbəti gecə ananın ruhu deyir:

– Ortancıl balama de.

Ortancıl oğlu da çayın qabaanda duruf çör-çöp yığır, aparıf satırmış. Gəlif muna deyəndə, deyir ki, əşi, anam maa heş nə vermiyifdi. Üş göz evdi, bir balkon. Bir balkonun üstündə bir-birimizi qırırıx. Mən neyniyəsiyəm ona? Görmürsən mən nəynən dolanıram? Allah tərəfinnən nə yağış gəlmir, nə sel gəlmir ki, çör-çöpü gətirsin, onu satıb ruzu qazanım.

Nəysə, gecə genə qonşunun yuxusuna girir. Deyir ki, balaca balama deginən maa bir rəhmət sözü dedirtsin. Balaca oğlu da çayın kənarında balıx tuturdu. Yaxşı cannı balıxları vedrıya yığır, xırdaları suya tulluyurdu. Qonşu gəlif deyəndə “anan bir kəlmə rəhmət kəlməsi isdiyir” balaca oğlu götürür balıxlardan birin verir ona ki, anasına rəhmət kəlməsi oxusun. Deyir:

– Məni anam belə yetişdirif, balıx satıf balalarımı saxlıyıram.

Qonşu hirsdənir, balıx vedrəsin vurur bunun başına gölün qıraanda. O cannı balıxlar tökülür suya, hərəsi bir tərəfdə cannanır. Deyir ki, xalıx bilməsə, balıx bilər, balıx bilməsə, xalıx bilər. Bu, “Quran”da deyilir ha, onun mənası budu.

## 156. PEYĞƏMBƏRİN AXİRƏT YOLDAŞI

Adı yadımnan çıxıb, amma bilirəm ki, qurban olduxlarımdandı, elə oturur-durur, deyir: "Ay Allah, mən sənin bir belə hörməti saxlıyıram, sən nə desən, buyursan onu eliyirəm. Bircə biləm ki, mənim axirət dünyada, o dünyada yoldaşım kim olajax. Bircə onu biləm, sənnən heş nə isdəmirəm. Allahadan səda gəlir qurban olduğuma. Deyir:

– Sənin dosdun, axirət yoldaşın bir qəssab olajax.

Başdıyır gülməyə. Deyir:

– Allah-taala, mən saa bir belə hörmət bəslədiyim yerdə sən məni qəssabnan yoldaş eliyirsən o dünyada? Adam tapbadınmı?

Qurban olduğumdan səda gəlir ki, mən heç qəssabı sənə rəva bilmirəm. Sən bilmirsən axı qəssab kimdi.

Deyir:

– Qəssab qəssabdı da, əti doğruyuf atır oyana. Onnan mənə yoldaş olar? Mən ibadət əhliyəm. Nətəər olan şeydi bu? Sən maa düzgün münasibət bəsləmirsən.

Deyir:

– Yaşıyarsan, görərsən. Mən öz bildiyimdən də artıx adamı sənə yoldaş eliyirəm.

Nəysə, vədə keçir. Həmən bu adam – qəssabnan yoldaş olmax isdəmiyən yol gedir. Yol gedən vaxt azır. Gəlir yolun kənarına, görür balaca bir şam işığı var. Gəlir, görür kasıb, balaca bir komadı. Qapını döyür, boylu-buxunlu, gövdəli bir oğlan qapıya çıxır. Deyir:

– Salamməleykim.

Deyir:

– Əleykimə salam.

Deyir:

– Hə, mən bilirəm siz nabələd adamsız, yoluzu azmısız. Gəlin bu gejə qonağım olun.

Fikirrəşir, deyir ki, bu hardan bilir ki, mən nabələdəm, yol azmışam? Heş nə demir. Keçir oturur içəridə. Bu vədə həmən oğlan bir

istəkan su gətirif qoyur bunun qabaana, deyir ki, sənnən üzr isdiyirəm. Sən suyunu içincə mənim orda işim var, görüb gəlirəm, icazə ver.

Deyir:

– Yaxşı, buyur.

Oğlan o tərəfə keçəndə həmən kişini dərd götürür. Deyir: "Görəm, orda nağayrajax ki, mənnən icazə alır. Bir iş görürsə, mənnən icazə almasın də. Mənnən niyə icazə alır?" Bunu təəccüb götürür. Qapının arasınnan baxır, görür ki, oğlan divardan səbəti düşürdü, səbətin içindən nəsə düşdü. Fikir verir, görür beş-on dəyqədən sora bu səbəti yenə asdı yerinə. Fikirrəşir, deyir: "Görəm, bu kimdi, nəçidi, nə işnən məşğuldu? Səbəti götürür, qoyur yerə. Gah yeməh aparır, gah çay aparır. Bəs deyirdi bizdən başqa burda adam yoxdu, onda çayı-çörəyi kimə aparır?" Bunu heyrət bürüyür. Özünü saxlıya bilmir. Elə ki oğlan gəlir, deyir:

– De görüm, sən kimsən, nəçisən?

Deyir:

– Eeh, mənim dərdim açılan-bükülən dərd deyil.

Deyir:

– Niyə?

Deyir:

– Şükür Allaha, tək-tənha yaşasam da...

Deyir:

– Sən niyə tək-tənha yaşıyırsan? Bu gözəllikdə insansan. Sənin həyat, ömür-gün yoldaşın yoxdumu, anan-bacın yoxdumu?

Deyir:

– Mənim vəziyyətim heç danışılası deyil, mən bu pis günümdən də məmnunam. Allaha min şükür.

Deyir:

– Sən bu pis gününə də şükür eliyirsən?

Deyir:

– Bəli. Çünkü sən bilsən mənim dərdimi, buna da şükür eliyərsən.

Deyir:

– Mən bayaxları gördüm sən divardan bir dənə səbət götürdün, saldın yerə.

Deyir:

– Hə.

– Sora gördüm çay-çörəh apardın ora. De görüm, o səbətin içindəki nədi ki, sən ona çay-çörəh apardın.

Deyir:

– Səbətin içindəki mənim anamdı. Mən işə gedəndə, işdən gələndə gəlirəm onu yuyuram, çimizdirirəm, əynin dəyişirəm. Sora yeməh verib səbəti asıram yuxarıdan.

Deyir:

– Sən çox müəmmalı danışdın. Ana anadı, səbət də səbətdi. De görüm ananı niyə səbətin içinə qoyursan? Bir dəst yorğan-döşəyin içinə qoy, qalsın da.

Deyir:

– Eey, sənə qurban olum. Mənim anamın əli yox, ayağı yox, iflic olub, bir başı, ürəyi var anamın. Ona görə onu səbətə qoyub divardan asıram ki, qurd-quş ona dəyməsin mən gələnə kimi. Mən qəssabam, filankəsin oğluyam. Mənim atam belə oluf, heylə oluf. Bir uşax olmuşam. Ona görə də evlənməmişəm.

Deyəndə ki, qəssabam, qonax dilini dişdiyir, başdıyır qəssabın əlinə-ayağına düşməyə ki, saa qurban olum. Ətəyinnən öpür. Qəssab deyir ki, sən nə qayırırsan? Bu yekəlihdə adam mənim əliməayağıma düşmüsən.

Sora üzün tutur Allah-taalaya, deyir:

– Allah-taala, mənim günahlarımı bağışda. Sən maa dedin ki, qəssabnan yoldaş olassan axirətdə, mən şübhə elədim. İndi bildim necə adamnan sən məni eyni tutdun. İndi mən çox şadam ki, sən bizi axirət dünyasına bir göndərəssən.

İndi belədi ki, qəssab oldun, məəllim oldun, adam oldun, nə oldunsa, insanlıq lazımdı həyatda. Harda olursansa ol, Allah-taala hərənin mukafatını verir.

## 157. ALLAHA BORC

Bir gün bir nəfərin Allaha borcu olur. Yavaş-yavaş gedir peyğəmbər əleyhsalamın yanına. Deyir:

– Ya peyğəmbər, mənim Allaha borcum var, onu kimə çatdırım?

Peyğəmbər deyir:

– Sübh tezdən çıxarsan çölə, qabağına kim çıxsa, birinci ona verərsən.

Bu, sübh tezdən çıxır. Görür ki, qabağına biri çıxdı, əynində qəstum var. Deyir, əşi, bunun nəyinə verim? Əynində paltarı var.

Qayıdır gəlir, axşam bir də gəlir peyğəmbərin yanına. Deyir:

– Ya peyğəmbər, Allaha borcum qaldı, onu kimə çatdırım?

Deyir:

– Sənə dünən dedim, tezdən çıx bayıra, qarşına birinci kim çıxır, ona ver.

Bu səhər tezdən bir də çıxır, yenə həmən adamı görür. Deyir, bunun nəyinə verim? Üçüncü gün bir də axşam gedir peyğəmbərin yanına. Peyğəmbər deyir:

– Sən necə adamsan? Dedim axı, sübh qabaana kim çıxır, ona ver. Birinci çıxan adama ver.

Bu sabah tezdən yenə çıxır. Həmin adam çıxır qabaana. Deyir, verəmmərəm, amma düşəcəm bunun dalına, görüm hara gedir. O adam gedir, bu da onun arxasıycan. Görür bu ora-bura baxdı, girdi bir zibilliyə. Zibilliyin orasına baxdı, burasına baxdı, gördü bir mundar olmuş toyux var. Vurdu altdan paltarının qoltuğuna, düşdü yola. Dedi: “Hə, bunda iş var, düşəcəm dalına”. Gəldi, gözlədi. O, öz qapısın aşdı, girdi. Qapını döydü, bu da girdi:

– Qonağ isdiyirsiniz?

Deyir:

– Hə.

Gördü mundar toyuğun üstdə evdə körpə uşaxlar çikkildəşillər, bunu yeyəcəhlər. «Buyur», – dedilər. Otdu.

– Hardan gəlirsən, hara gedirsən?

Deyir:

– Vallah, səbəb budu ku, mənim Allaha borcum var. Üş gündü gedirəm peyğəmbərin yanına, məsləhət görür ki, qabaana çıxan ilk adama ver. Səhər tezdən qabaama siz çıxırsınız.

Deyir:

– Mənim də elə olanım budu – köhnəm də budu, təzəm də budu. Bunu hər gun geyinirəm ki, düşmənim sevinməsin mənim vəziyyətimə. Amma vəziyyətim sənin gözünün qabağındadı. İmkanım yoxdu, vaxdiynən oluf, indi pis vəziyyətdəyəm.

Çıxartdı nəzirini verdi, gəldi.

## 158. PADŞAHA LAYİQ ARVAD

Biri var idi, biri yox idi. Bir gün bir padşah vəziri ilə gəzməyə çıxır ki, görsün nə var, nə yox. Gərək onlar kənddə olan əyrini, doğrunu bilsinlər. Vəzir deyir:

– Padşah sağ olsun, bu kəndi mən yaxşı tanıyıram, bunlar əkinçiliklə məşğul olurlar.

Sora gedirlər bir başqa kəndə. Burada da vəzir deyir ki, padşah sağ olsun, bu kəndin adamları alverlə məşğul olurlar. Burda da elə bir şey yoxdur. Keçirlər o biri kəndə, görürlər ki, bu kənddə hamı yatıb, işıq gəlmir. Ancaq kəndin aşağısında bir evdən işıq gəlir. Gedirlər ora. Çatırlar qapıya, görürlər ki, qapı bağlıdır. Qapını döyürlər, qapını açırlar. Görürlər ki, burada iki-üç quldur qumar oynayır. Bunlar deyir ki, bizi də burda qonaq eləyin. Deyirlər ki, biz burda iki-üç saatdır qumar oynayırıq, bir azdan çıxıb gedəcəyik. Padşah deyir ki, biz elə paltarda bir tərəfdə yıxılıb yatacağıq. Quldurlardan biri deyir ki, nolar, qoy bir tərəfdə yatsınlar. Bunlar burda qumar oynamaqda olsun, sizə deyim padşahdan.

Səhər padşah deyir ki, vəzir, gedib onları tutub gətirərsən. Vəzir bir neçə atlı ilə onların üçünü də tutub salır qazamata. Bunlar burda qalmaqda olsun, sizə deyim padşahdan.

Bir gün yuxuda padşaha deyirlər ki, döşəyin altında üç qozun altı ləpəsi var. Gərək sən bu qozları birləşdirəsən. Padşah deyir ki,

birləşdirə bilməsəm, necə olsun? Deyirlər ki, sənə qırx gün vaxt veririk. Padşah yuxudan oyanır. Padşah deyir ki, görüm bu düzdü, ya yalan? Qalxır ki, düzdü, döşəyin altında altı qoz ləpəsi var. Nə qədər çalışır ki, qozu yapışdırsın, ancaq birləşdirə bilmir. Vəziri çağırır, deyir ki, gərək bu qozları bitişdirəsən. Bitişdirməsən, səni edam edəcəyəm. Vəzir deyir:

– Padşah, bəs mənə vaxt vermirsən?

Padşah deyir:

– Sənə qırx gün vaxt verirəm.

Vəzir qozu evə apardı, nə qədər çalışdı, qozu bitişdirə bilmədi. Qozu götürüb düşdü kəndlərə. Kimə dedi, əncam eliyən olmadı. Axırıncı gün qayıdıb gəlirdi evə. Gördü, bir bulaq var. Dayanıb bulaqdan su içmək istədi. Gördü ki, bulağın başında bir qız var. Bu qız gördü ki, uzaqdan atlı gəlir, özü də tər. Qız tez gətirib suya da, bardağa da zibil tökdü. Gəlib çatanda qız suyu ona verdi. Vəzir dəsmalı suyun üzünə tutub içdi, at da bir təhər sudan içdi. Vəzir dedi:

– Ay qız, bəs mən səndən su istədim, niyə qoymadın su içim, at da rahat içsin?

Qız dedi:

– Sən başa düşmədin niyə mən o zibili ora tökdüm?

Deyir:

– Yox.

Deyir:

– Sən altı qozu birləşdirə bilmirsən, düşmüsən düzlərə.

Vəzir deyir ki, ay qız, sən hardan bildin? Deyir ki, niyə bilmirəm. Onu padşaha demişdilər. O da bitişdirə bilmədi, sənə tapşırdı. Vəzir deyir ki, sən onu bitişdirə bilərsən? Qız deyir:

– Bilərəm.

Vəzir deyir ki, onda mən sizə minnətdaram. Qız deyir ki, siz o vaxt gətirib üç nəfəri dama saldınız ha, onların günahı nə idi? Bax həmin qozlar onların ürəyidir. Həmin ürəkləri birləşdirmək lazımdır. Siz gedin onları damdan çıxardın, xərclik verib yola salın, onda qozlar özləri birləşəcək.

Vəzir gedib həmin dustaqları boşduyur. Sonra əlini cibinə salır, görür ki, qozlar birləşib olub üç dənə. Vəzir gedir padşahın yanına. Padşah deyir ki:

– Noldu?

Vəzir deyir:

– Birləşdirdim, ancaq mən gedirəm, məndən vəzir olmaz.

Padşah deyir ki, niyə? Vəzir deyir ki, balaca qız bizə o qədər tənə elədi ki. Padşah deyir:

– O qız kimin qızıdı?

Vəzir deyir:

– Həsən xanın qızıdır.

Padşah deyir:

– İndi sən qulaq as, gör mən onun başına nə oyun açıram. Gedərsən bazara, qırx dəli at alarsan, qırx dənə dəli oğlanla onları ora göndərərsən. Onlar ora çatanda atı boşlayıb düşərlər. Atlar bir tərəfdə dolaşarlar, oğlanlar da bir tərəfdə. Onları xar eliyərlər.

Vəzir belə də elədi, gedib qırx dənə at, qırx oğlan götürüb gəldi. Bunlar burada hazırlaşmaqda olsun, qız dedi:

– Ata, padşah bizə qonaq gələcək.

Atası dedi:

– İndi neyniyim?

Qız dedi:

– Qırx nəfərlik stol açmaq lazımdır, qırx torba arpa, qırx dənə də mıx hazırlamaq lazımdır.

Hazırlıq görüldü. Atlılar gəldilər. Gələn kimi onların atını tutub arpanı başlarına keçirdilər, oğlanları da torbaya saldılar. Hərəsi bir tərəfdə oturdu, heç bir-birilə söhbət edə bilmədilər. Vəzir dedi:

– Padşah, mən dedim ki, biz bu qıza heç bir şey eliyə bilmərik.

Padşah deyir:

– Həsən xan, burda bir neçə adam olsun, onlar bizə şahid olsun.

Bir neçə ağsaqqal yığdılar. Padşah dedi:

– Həsən xan, qızı çağır gəlsin bura.

Çox sözdən sora padşah dedi:

– Ay qız, mən səni almağa gəlmişəm. Sözün biri hədi, biri yox.

Qız dedi:

– İstəyənin bir üzü qara, verməyənin iki üzü. Nolar, gedərəm.

Molla çağırdılar. Elə burdaca onların kəbinini kəsdilər. Padşah dedi:

– Ay camaat, bax bunun kəbinini kəsdik, ancaq evə aparmıram. İki ildən sora mənə oxşayan bir oğlan, tulama oxşayan tula, atıma oxşayan at istəyəcəm. Bunları eliyə biləcəksənmi?

Qız dedi:

– Hə.

Padşah deyir ki, bəs necə eliyə biləcəksən? Qız deyir:

– Sənə nə var, dedim eliyəcəm, deməli, eliyəcəm.

Padşah dəstəsi ilə çıxıb getdi, qız da qaldı burda. Bir qədər aradan keçəndən sora qız dedi:

– Ata, padşah bizlə oyun oynamır ha! Gərək biz dediyini eliyək.

Ata dedi:

– Qızım, indi mən neynəyim?

Qız dedi:

– Dədə, qırx alaçıq qur, mən burdan çıxıb gedəcəyəm.

Həmin padşahın bir at qoruğu var idi. Qız həmin qoruğun yaxınlığında bir alaçıqda yaşayırdı. Padşah deyir:

– Gedin, görün orda yaşayan kimdir?

Gəlib dedilər ki, sən kimsən? Bura padşahın at qoruğudur. Deyir:

– Mən Yelmar bəyəm, gəlmişəm sizin torpağınızda yaşayam.

Padşah deyir ki, nolar, qal. Bir neçə gündən sonra bu qız padşaha məktub yazır ki, padşah, sənin hörmətin bu imiş? Niyə heç demirsən ki, bura adam gəlib, o darıxır, oynamaq istəyir? Niyə məni heç yanına çağırtdırmırsan?

Bu məktubu oxuyandan sonra padşah deyir ki, düzdür. Bir adam göndərir, onu çağırtdırır. Qız əvvəlcə nökərlərə xəbər verir ki, mən padşahın atını, tulasını udacam, göndərəcəm bura. Başladılar qumar oynamağa. Qız padşahın atını, tulasını udur. Deyir, mənim bir dənə nişanlım var, mən də onu mərcə qoyuram. Padşah da onun nişanlısını udur. Qız deyir, bir neçə arvad göndərərsən, qızı onlara qoşaram, apararlar. Qız paltarını geyinib padşahın yanına gəlir. Gəlməzdən əv-

vəl məktub yazıb nökərinə verir ki, altı aydan sonra padşaha versin. Altı aydan sonra vəzir gəlib deyir ki, bəs Yelmar bəydən məktub gəlib. Yazır ki, padşah, mənim ağlım yox idi sənnən qumar oynadım. Heç səndə insaf yoxdu? Adam adamın varını, dövlətini udar. Mənim bir nişanlım var idi, sən onu da əlimdən aldın. Padşah çox pis olur. Qızı çağırır ki, gəl, Yelmar bəy səni çağırır, get. Qız deyir ki:

– Yelmar bəy nə bilir ki, mən sənin yanındayam, ya yox. Gərək sən mənə bir kağız verəsən.

Padşah bir kağız verdi. Bir qədərdən sora qızın oğlu olur. Padşah deyir ki, vəzir, vaxt artıq çatıb, biz ora getməliyik. Vəzir deyir ki, padşah, gedək, hər şey hazırdır. Yığışıb gəlirlər. Qız deyir:

– Dediklərin hazırdır.

Tulanı gətirdilər, atı da, uşağı da gətirib padşaha verdilər. Padşah deyir ki, gərək bunları sübut eliyəsən. Qız deyir ki, sübut eləsəm, mənə nə verərsən? Padşah deyir ki, bütün var-dövlətimi. Qız həmin məktubu ona verir. Padşah görür qumarda udduğu qız bu imiş. O qızı da götürüb təzədən toy eləyir.

## 159. ŞAH ABBAS VƏ BOSTANÇI

Bir kişi avqust ayında yemiş-qarpız əkir. Axı qabağı soyuğa gedir, bu bitməməlidi. Arvad deyir ki, kişi, olmaz. Kişi deyir ki, olar. Havalar yaxşı keçir, noyabrda bu yemiş-qarpızı yığır bostandan. Arvad deyir, buları neyniyəcəksən? Deyir, bunu yüklüyəcəm eşəyə, aparacam Şah Abbasa. O, bəlkə bunun qiymətin bilə. Kasıb bunun qiymətin nə biləcək ki, pul versin bunu alsın.

Gəlir bir dərədə təsadüfən padşahnan vəzirə rast gəlir – Şah Abbasnan Vəzir Allahverdi xana. Olar da başqa libasdadılar. Şah soruşur ki, salamməlöyküm. – “Əlöykü salam”. Şah deyir, kişi, hara gedirsən? Deyir ki, vallah, Allahdan gizdin deyil, səndən də gizdədim. Belə bir iş görmüşəm. Yemiş-qapız əkmişəm, Allah verib, yaxşı bar gətirib, deyirəm aparıb verim padşaha. Deyir, niyə padşaha verəsən? Deyir ki, bunun qədrini o bilər də. Gənə beş-üç maat verə, gətirib balalarımı saxlıyaram. Deyir, sən nə güman edirsən, padşah

nə qədər verər? O vaxtkı pulnan deyir ki, beş yüz tümən. Deyir, verməsə. Deyir, neynək, dörd yüz verər. – “Verməsə?” – “Üç yüz verər”. – “Verməsə?” – “İki yüz verər”. – “Verməsə?” – “Yüz verər”. – “Heç verməsə?” – “Arvad-uşağı belə-belə”. Deyir, yaxşı, apar.

Şah Abbas onnan qabax gəlir. Tez paltarın dəyişir, çıxır taxdına. Tapşırır ki, qapıya belə adam gələcək, onu buraxarsız içəri. Bunu buraxıllar içəri, gəlir. Şah Abbas deyir ki, kişi, xeyir olsun. Hara gedirsən, hardan gəlirsən? Deyir ki, bəs belə-belə. Əkmişəm, bir az yemiş-qarpız olub. Fikirrəşdim ki, sizə gətirim. – “Niyə imenni mənə gətirirsən?” Deyir ki, qədir-qiymətini sən bilərsən də, sənin pulun var. Başqası onu bilməz ki? Deyir, nə isdiyisən mənnən? Deyir, beş yüz maat. Heş olmasa uşağımın bir illik azuqəsi olsun. Deyir, verməsəm? – “Dörd yüz”. – “Verməsəm?” – “Üç yüz”. – “Verməsəm?” – “İki yüz”. – “Verməsəm?” – “Yüz”. – “Heç verməsəm?” Deyir, dərədə dediyim haqq olsun. – “Kişi, dərədə nə demisən?” Deyir, heş nə. Deyir, yox, dərədə dediyi deməsən, sənin boynu vuracam. Deyir, onsuz da boynumu vuracax, elə dərədə dediyimi deyim. Dərədə dediyin deyir. Padşah deyir ki, bunun beş yüz maatın gətirin, uşaxlarına pal-paltar yığın, ərzaq yığın. Deyir, götür get. Nərazı qalmadın mənnən? Deyir ki, yox. Bu gedənnən sora Vəzir Allahverdi xan deyir ki, şah sağ olsun, düz iş görmədin. Deyir, niyə? Deyir ona verdiyin şeylər çox idi. Deyir, onu Allah verib, mən verməmişəm. Bu vaxları qarpız-yemiş olmur. Deyir, Allah vermiyib. Mən gedib onun qabağın kəsib qalannarın alacam. Deyir, ə, onu ona Allah verib. Deyir, yox, indi görəcəksən mən necə onun əlinnən alacam.

Gəlir, o dərədə kişiynən rasdaşır. Deyir, bilirsən nə var? Bu düz iş olmuyub. Sənə çox şey verilib. Kişi başa düşür ki, vəzir buna kələk gəlmək isdiyir. Deyir, fikrin nədi? Deyir, üş sual verəcəm. Cavab versən, aldıxların sənindi, verməsən, yox. Deyir, buyur. Deyir, dünyada ölü çoxdu, diri? Deyir, ölü. Deyir, niyə? Deyir, ölü ölüb, dirinin də çoxu ölüb gedəsidi. Deyir, kişi çoxdu, kadın? Deyir, kadın. – “Əşi, bə görmürsən kişilər heç evlənməyə kadın tapbır”. Deyir, kadın kadındı, kadın xislətdi kişilər də kadındı. Üçüncü

sual. Deyir, Allah, bu dəyqə nə iş görür? Deyir, sən atın üsdündə verdin də sualı, mən isə eşşəyin üsdündəyəm. Gəl yerimizi dəyişək, mən atın üsdünə minim, sən eşşəyin üsdünə min. Mən ordan sənə cavab verim. Bunu eşşəyin üsdündə demək olmaz. Vəzir ora baxır, bura baxır. Deyir, burda kim görəcək? Düşür, minir bunun eşşəyinə. Kasıb kişi yükün də götürür qoyur atın üsdünə, öz də çıxır üsdünə. Deyir, Allah bu dəyqə məni mindirdi ata, səni mindirdi eşşəyə. Ata bir taziyanə vurur, düz öz evinə.

## 160. NAXIRÇI QIZININ ÜRƏYİ NAXIRÇI ÇÖRƏYİ İSTƏYİR

Bir gün padşahın bir oğlu olur, naxırçının qızına vurulur. Naxırçı camaatın malın, heyvanın aparır otarır, axşam hər qapıdan bir çörək alır. Hər qapıdan bir çörəh alır, ayın axırında da on manatdı, beş manatdı, danışığa görə pulun alır. Padşah oğlun döndərə bilmir. Deyir ki, mən o qızı alacam. Vəziri, vəkili göndərir naxırçının qapısına, özü getmir. Naxırçı qızı vermir. Deyir ki, mən sizə qız vermirəm. Gəlillər padşaha deyillər ki, vermədi. Padşah deyir ki, necə vermədi? Deyillər:

– Dedi vermirəm.

Padşah deyir:

– Olmaz, bunun bir səbəbi olmalıdı. Gedin o dərə-təpədə gizdənin – onun mal otardığı yerdə. O, yoldaşdarıynan uzaxdan-uzağa danışmalıdı – o dərədən bu dərəyə. Görün nə səbəbə vermədi. Bu səbəb açılmalıdı.

Gəlillər, hərəsi bir tərəfdə gizdənillər. Görüllər o naxırçı bu birsi naxırçını çağırdı. Deyir:

– Həsənağa.

Deyir:

– Ha.

Deyir:

– Axşam padşah sənin qıza elçi gəlmişdi, verdin?

Deyir:

– Yox.

Deyir:

– Niyə?

Deyir:

– Ə, mənim qapıma vəziri, vəkili göndərif, sənin kimi iki kişi göndərəydi, verəydim.

Padşah deyir:

– Hə, o sizi kişi saymıyıf. Deyir, indi naxırçıları göndərim, qızı alıf gətirəcəh.

Qızı alıf gətirillər. Səhər ona da yeməh qoyullar. Ayilədi də. Qız deyir, mən belə yeyə bilmərəm. Çörəyi xırda-xırda kəsir, balaca qablara düzür. Qapını döör, deyir: "Çörəh ver". Qoyduğu yerdən çörəyi götürür. Buranı döör, hə, çörəh ver, qoyduğu yerdən çörəyi götürür. Deyir, hə, mən indi bu çörəyi yeyərəm, çünki mənim dədəm belə çörəh qazanır.

Burda deyillər ki, naxırçı qızının ürəyi naxırçı çörəyi isdiyər.

## 161. MƏN BU AFTAFAYA ÖYRƏNMİŞDİM

Bir kişinin bir arvadı varıymış, kişiyə çox gözəl qulluğ eliyirmiş. Kişinin səksən yaşı varıymış, qırx yaşında adama oxşuyurmuş. Arvadınnan həzz alırmış. Bir dəfə kişi dərya kənarında kiməsə ev tikirmiş. Padşahnan da vəzir yol gedirmiş. Padşah görür ki, bu yaşdı kişidi, amma daşı əlinə alıf elə qoyur, elə bil pambıx topasıdı. Deyir:

– Vəzir, bunun sirrini öyrənməh lazımdı. Onu cavan saxlıyan nədi?

Vəzir ordan-burdan öyrənir ki, bəs bunun bir dənə yaxşı dayaxlı arvadı var. Deyir, bu arvadı yoldan çıxartmax lazımdı. Vəzir düşür arvadın dalına. Adam göndərir o vaxdı qarılardan, filannardan ki, sən ona layix deyilsən, şaha layixsən. Bir gün, iki gün, üş gün, axırı qadını yoldan çıxardıllar. Kişi görür ki, qadın getdikcə başqa cür olur. Öyrənir ki, padşah uje onu yoldan çıxarıf. Kişi durur gedir – üzr isdiyirəm, – ayaxyoluna, aftafanı da aparır. Aftafanı orda daşa vuruf sındırır. Geri qayıdır, gəlir oturur, ağlıyır. Arvat deyir:

– Niyə ağlıyırsan?

Deyir:

– Bəs aftafam düşdü yerə, sındı.

Deyir:

– Neynək. Sındı, mağazadan başqasını alarsan.

Deyir:

– Heylədi, mağaza doludu aftafaynan, amma mən bu aftafaya örgəşmişdim, bu aftafa da mənə. Qorxuram başqasına örgənə bilmiyəm.

Arvad başa düşür ki, bunu deyir. Fikirrəşir, fikirrəşir, axırda vəzirə rədd cavabı göndərir. Deyir ki, sənin adamın dəyiləm, elə bu kişinin adamıyam.

## 162. PADŞAHIN OĞLANLARI

Bir gün padşah üç oğlu, bir də vəzirin götürüb yol gedirmiş. Yolun müəyyən hissəsin gedənnən sora bir qamışdığa rast gəlillər. Padşahın böyük oğlu deyir ki, bəh-bəh, nə gözəldi, bunnan yaxşı tütəh olar. Padşah da vəzirə demişdi ki, buları yolda sınıyax, görəh nəyə layaxları var. Vəzir yavaşca dedi ki, bərəkallah. Bir az keçdi, bir söyütdüyə rast gəldilər. Oğlannardan biri baxdı ağaca, dedi:

– Bəh-bəh, nə gözəl, bunnan yaxşı ələh sağanağı çıxar.

Vəzir dedi:

– Bərəkallah.

Bir az da keçdilər, gördülər turac, qırqovul... Oğlannardan biri dedi, bunnan yaxşı döşəməli pilov olar. Vəzir genə dedi:

– Bərəkallah zatına.

Padşah buları yığdı içinə. Atının başın döndərdi, dedi, geri qayıdırıx. Geri qayıtdılar. Uşaxların buraxdı, vəzirə dedi:

– Hə, sözü de. Niyə mənim uşaxlarım üş dəfə hərəsi bir söz dedi, üçünə də dedin bərəkallah?

Dedi:

– Burda bir pis iş olmadı ha. Demədin zehnin yoxluyax, qabiliyyətin yoxluyax? Mən də qabiliyyətin yoxladım, dedim, bərəkallah.

Padşah deyir:

– Yox, vəzir sənsən, mən də padşaham. Sənin içində başqa söz var. Ya bu dəyqə səni asıram, ya da o sözü deyirsən.

Vəzir gördü iş işdən keçif. Deyir ki, qoy sözümü deyim, öldürürsə, öldürsün. Deyir, padşah, sənin arvadın düz yolun adamı döyül. Birinci oğlun qamışlıxda tütəh çalmax istədi, onu zurnaçıdan tutuf. İkinci ələh sağanağı axtardı, onu da qəleyçidən tutuf, qaraçıdan. Üçüncü aş bişirməh istədi, onu da aşbazdan tutuf. Sənin öz övladın yoxdu.

## 163. KEÇƏLLƏ KOSA

Bir dənə Göygöz olur, keçəl də dəyirmançı olur. Keçəlnən Göygöz yol gedir. Gedillər alverə. Hərəsi bir dənə meşox götüf gedillər. Keçəl zibillihdən keçəndə görür bura zibilnən doludu. Zibili meşoğa doldurur, mağazadan bir kilo pambıx alır ki, guya bir meşox ağ pambığım var. Göygöz də qoz qabığın bir meşoğa doldurur, bir kilo mağazadan, tükannan qoz alır üstünə tökür ki, bir meşox qozum var. Gəlillər, meşoxların divara söyküyüllər. Bu keçəl görür ki, Göygözün bir meçox qəşəh qozu var. Göygöz də keçəlin meşoğuna baxır, deyir: “Bunun ağapbax pambığı var.” Göygöz keçəlin meşoğun götürür qaçır, keçəl Göygözün meşoğun. Heylə bir-birin alladırlar. Göygöz gəlif bazarda başdıyır qoz satır: “Ay qoz satıram, qoz satıram” Tərəziyə qoyub boşaldanda görür ki, bir kilodan savayı hamısı qabıxdı. Başına çırpır ki, o boyda mənim pambığım vardı, onu qoymuşam, xalxın cındırın gətirmişəm.

Gəlillər axşam evə, üstünü vurmullar bir-birinə. Göygöz deyir, alverin necə oldu? Keçəl deyir, maya başı. Bəs sənin alverin necə oldu? Göygöz deyir, elə maya başı. Üstünü vurmullar. Deyillər, indi neyniyəh? İkisi də deyir, gedəh padşahın evində nökər durax. Padşahın də evində yekə xərəh var, altında yekə, iri öküzlər var. Biri-birinə deyillər ki, bu gejə öküzün birin kəsəh. Keçəl deyir, birimiz düşsün xərəyə, heyvanı kəssin, ətini yığsın səbətə. Çöldəki əvvəl əti çıxartsın, sora onu. Belə deyəndə, Göygöz bijdi, öz-özünə deyir, ə,

bəlkə mən düşdüm, əti verdim, götdü qaşdı, mən qaldım orda. Qapını açanda padşah mənim boynumu vurar. Keçələ deyir, sən düş.

Nəysə, keçəl düşəsi olur. Əti çıxardanda keçəl əvvəl meşoğun içinə özü girir, əti də üstdən qoyur. Deyir:

– Çəh.

Göygöz meşoğu çıxarıf, dalına alıf qaçır. Deyir, Keçəl qoy orda qalsın, padşah boynun vursun. Yolda Keçəlin əyağı meşoxdan çıxır. Əyağı meşoxdan çıxan kimi yolda bir dənə it munun əyağın dişdiyir. – "Ay aman, it ayağımı dişdədi" – deyəndə Göygöz meşoğu yerə qoyuf dala durur ki, bay, sən meşoğun içindəsən ki... Deyər, ə, alçax, məni orda qoyuf qaçırsan ki, padşah boynumu vursun? Heylə, keçəlnən Göygözün əməlləri var....

## 164. DƏLİ VƏ AĞILLI QARDAŞ

Biri var idi, biri yox idi, iki qardaş var idi. Bu qardaşın biri ağıllı, biri isə dəli idi. Bunların hər ikisi ayiləli imiş. Ağıllı qardaş o biri qardaşın paxıllığın çəkirmiş. Bunlar ipəkqurdu saxlıyırlar. Dəli qardaş ağıllıya deyir ki, ay qardaş, qurd sarıyır, neynəyək? Ağıllı qardaşın qurdu isə sarımır. Qardaşına deyir ki, bir yaba götür, bir də dəhrə, get qaratikanı götür gətir, döşə üstünə.

Vaxt olur, qurd sarıyır qaratikanı da. Böyük qardaş hey fikirrəşir ki, bu biri qardaşımın baraması oldu, mənim olmadı. Necə eliyim ki, onun da olmasın?

Dəli qardaş onun yanına gəlib deyir:

– Ay qardaş, qurd qaratikanı da sarıdı, qurtardı, neynəyim?

Ağıllı qardaş deyir:

– Bir yaba gətir, bir də spişka. Baramanı yığ çölə, odla.

Dəli qardaş baramanı çölə yığıb od vurur. Böyük qardaş özözünə deyir: "Yaxşı oldu. Mənim baramam olmadı, onunkun da yandırtdım". Gedib arvadına deyir:

– Arvad, qardaşımın baramasını yandırtmışam.

Ağıllı qardaş gəlir ki, yandırtdığı barama elə-belə topa qalıb, qardaşı heş əlini də vurmayıb. Ayağıynan vurub görür ki, içi qızıldı. Arvada deyir:

– Ay arvad, yandırdığım barama qızıl olub. Çuval götür, gedək gətirək evə.

Gedib qızılı yığır, gətirib evdə süfrə açırlar. Arvad deyir:

– Ay kişi, gəl çay iç.

Kişi deyir:

– Arvad, gətir görək o qızılın rəngi necədir?

Arvad gedir qızılı gətirməyə. Nə görsə yaxşıdır? Görür ki, çuvaldakı hamısı ilandı. Deyir:

– Ay kişi, evini Allah yıxsın, ilanı gətirib yığmısan evə.

Kişi deyir:

– Ay arvad, çuvalın ağzını bağla.

Çuvalı götürüb gecənin bir şəri aparıb tökürlər dəli qardaşın bacasından içəri. Deyir:

– Ay arvad, qoy ilan bunları yesin.

Səhər açılanda oğlunu yollayır qardaşının evinə. Deyir:

– Get, gör qardaşım neyləyir?

Dəli yuxudan ayılanda arvadına deyir:

– Ay arvad, evə yaman işıq düşür.

Durub baxırlar ki, ev qızılla doludur. Oturub çörək yeyirlər. Ağıllı qardaşın oğlu gəlir ki, əmisinin sevinci yerə-göyə sığmır, qucaqları da qızılnan doludu. Gedib atasına deyir ki:

– Ata, əmimgil çörək yeyirlər, qucaqları da qızılla doludur.

Atası cavab verir ki, bu, Allahın hökmüdür.

## 165-166. ORDUXAN BƏYLƏ QARSIN QALASI

Orduxan bəy zəngin adam olufdu. Qarsın Qalası da qızın adıdı. Orduxan bəy bu qızı dəlicəsinə sevirmiş. Bular tez-tez gedərmişdər, xəlvət bir yerdə görüşərmişdər. Qara dam deyirdilər, gəbəsi, samavarı, hər cürə qulluxçusu olan yerdi, burda görüşürmüşdər. Bu kəntdən aralı bir kəntdə bir molla yaşıyırmış, bir də bir aşıx.

Mollanın arvadınan aşığın arvadı paltarı aparıf çayda yuyarmışdar. Axundun arvadı baxıf görür ki, aşığın arvadının sərdiyi hamısı gözəl ipək parçalardı, bunun da yuduğu cır-cındır. Gəlir ayağını diriyir, ərinə deyir ki, sən öl, buyünnən aşıx olmasan, mən sənnən boşanıram. Kişi deyir:

– Ay arvad, Allaha bax. Mən yaşdaşmışam. Bığım-sakqalım bu boyda uzanıf gedifdi. Mən bunu nətər qırxdırım?

Deyir:

– Yox.

İki ayağın bir başmağa diriyir ki, sən mütləq aşıq olassan. Nətər olur, filan aşığın arvadı gözəl paltar geyinir, gözəl paltar yuyur, mən aparıf cır-cındır yuyuram? Mən buna dözmüyəjəm. Əlac kəsilir, molla deyir:

– Arvad, səs salma, qoy mən üzümü-gözümü qırxım, onnan sora on gün, on beş gün burdan yoxa çıxajam. Məni xəbər alsalar, denən ki, molla xəsdələnifdi, heş kimin xeyir-şərinə gedən döyül. Gedin özüzə ayrı yerdən molla gətirin.

Əl qərəz, molla durur tərpənir, gedir çıxır bir şəhərin qırağına. Şəhərin qırağına çatanda deyir, mən nətər eliyim ki, aşıxlıx eliyim? Axı mən heç bir alətdə çala bilmirəm? Yaxınnaşır, görür orda düdük satannar var. Deyir ki, qağa, bu neçəyədi? Deyir, məsələn, üç manata. Onun birin alır. Gejə deyir ki, mən harda qalım, nağarım? Görür bunu dəvət eliyən yoxdu, özünün də üstündə pulu yoxdu getsin karvansarada qalsın. Deyir, gedim şəhər qırağında bir yerdə yatım, səhər duruf gedərəm da.

Gəlir şəhərin qırağına. Baxır görür uzun bir dam var – qara dam. Göz gəzdirir orasına, burasına, görür nökər-naib işdiyir, amma bir bölməsi var, burda samannıx var, at-zad var. Deyir: "Elə yaxşısı budu ki, burda yatım, səhəri gözdüyüm". Gejə düşəndə görür ki, bura bir qız gəldi, bir də gözəl oğlan gəldi. Samavar dəmləndi, süfrə açıldı, yemək-içmək – hər şey. Yeyib-içəndə oğlan deyir:

– Allahın altında bir aşıq olaydı, çalardı, elə biz də bu xoş günümüzdə durub oynuyardıx.

Qarsın Qalası da deyir:

– Kaş olaydı.

Molla fürsəti əldən vermir, tütdəyi götürür, dühü-dühü üfürür. Səs-küyə bular dəli olullar. Oğlan deyir:

– Görüm bu kimdi, nədi?

Gəlib baxır, görür burda bir adam var. Oğlan deyir:

– Sənnən xayiş eliyirəm, bu əhvaltı heş bir yerdə demə. Nə isdiyirsən denən, verim.

Bu da deyir:

– Vallah, nə bilim, güjün nəyə çatır.

Bu əmr eliyir, bir qatır yükü gəvə, parça yığıllar, bu kişinin bir illik azuqəsin yığıllar, deyillər ki, götür get. Bunu yola salanda oğlan deyir:

– Evdə soruşsalar bu var-dövləti hardan gətiribsən, deyərsən ki, Orduxan bəynən Qarsın qalasının toyundan.

Bu da qatırın yedəyin çəkir gedir. Gözdüyür, gözdüyür, kəndə elə vaxt gedir ki, əl-ayax çəkilib, camaat yatıb. Gəlir evə, qapını açır. Arvad baxır, görür molla qatırnan gəlib, yükü doludu. Arvad da tamahgir olur, sevinir.

– Ə, – deyir, – mən sənə demədim ki...

Deyir:

– Arvad, aşıxlıxnan döyül, bir üfürcəyə bunu qazanmışam.

Deyir:

– Ə, gör çox çalsan, nələr olarmış. Gənə gedərsən.

Deyir:

– Arvad, yüz il yalvarasan, mümkün deyil. Deməmisən ki, molla sağalıfdı?

Deyir:

– Deməmişəm.

Deyir, mən gözdüyüm, sakqalım, bığım uzansın, onnan sora durum ayağa.

**166.**

Məlik addı biri təğyiri-libas gəzirmiş. Ev-eşiyi yox. Dərviş kimi bir şey imiş. Bir gün bu gecələməh üçün bir qapıya yönəlir. Gö-

rür ki, bir samannıx var. Deyir: “Girim bunun içinə, gecəni burda yatım, səhərə yaxın duruf gedərəm”. Görür ki, bir oğlannan bir qızı – səslərinnən başa düşür, – bir qoca arvad gətdi qoydu, dedi ki, oturun, gedirəm sizə yemək gətirəm. Qız oğlannan soruşur ki, sən məni necə sevdin? Deyir:

– Mən gördüm ki, bulaxdan gələn qızların içində sənin saçın o qədər uzundu ki, sarılır səhəngə, aldın çiynaa. Onunçün səni sevdim.

Oğlan deyir:

– Bəs sən məni niyə sevdin?

Qız da deyir:

– Bəs gördüm ki, əlində şallax camaatı döyürsən. Deyirsən, töycünü ver, buğdanı ver, vergini ver. Mən də baxdım sənin o şallax vurmağa, səni sevdim. O səhnəni bir də elə də.

Deyir:

– Necə?

Deyir:

– Elə bir samana vur, de ki, töycünü ver, vergini ver. Mənim xoşum gəlir.

Bu götürür şallağı nətər vurursa, Məliyə dəər. Məlih qəfildən qalxır, deyir:

– Qəbzimi ver!

Oğlan da, qız da yeməyi qoyuf elə gedillər, elə gedillər... Yeməyi yeyir, durur, düşür yola. Deyir, mənimki buracandı.

## 167-168. BİTLƏ BİRƏ

Bir bit olur, adı Təziy olur, birənin adı Narmanazıx. Guya bular ayilədilər də. Bir gün Narmanazıx abedə ocaq qalıyır, bir qab qoyur ki, su qızsın, Təziyin paltarrarın yusun. Küləh əsir, Təziyi götürür atır ocağa. Təziy ölür. Narmanazıx başdıyır başına-götünə döyməyə. Kəntdə traxtor varımış. Traxtor deyir:

– Ey Narmanazıx, saa nə gəlif?

Deyir:

– Təziy ocağa düşüf yanıf.

Traxtor başdıyır:

– Nərr-nərr, hırr-hırr.

Bir qarğa gəlir, qonur traxtorun üstə. Deyir:

– Ey traxtoru-zat, saa nə gəlif belə eliyirsən?

Deyir:

– Narmanazıx deyir ki, Təziy düşüf ocağa, yanıfdı.

Qarğa nətəəri hirsdənirsə, başdıyır: “Qarr, qurr, qarr”. Gəlir qonur bir çinar ağacına. Çinar dilə gəlir, deyir:

– Ey qarğeyi-qurqut, saa nə gəlif?

Deyir:

– Traxtoru-zat deyir ki, Narmanazıx deyir, Təziy düşüf ocağa, ölüf.

Çinar hirsdənir, nətəəri yarpağın silkəliyirsə, yarpaxlar tökülür suya. Dibinnən su axırmış. Su dilə gəlir, deyir:

– Ey çinari-burbut, saa nə gəlif?

Deyir:

– Qarğeyi-qurqut deyir ki, traxtoru-zat deyir, Narmanazıx deyir, Təziy düşüf ocağa, yanıf.

Su hirsdənir, bulanır, daşıb zəmiyə dolur. Zəmi deyir:

– Ey adili-bünövrə, saa nə gəlif?

Deyir:

– Çinari-burbut deyir, qarğeyi-qurqut deyir, traxtoru-zat deyir, Narmanazıx deyir, Təziy düşüf ocağa, yanıf.

Zəmi hirsinnən yatır suya, başını qoyur yerə. Bu heyində zəmi sahibi gəlir, deyir:

– Ey abiyi-zəmzəm, saa nə gəlif?

Deyir:

– Çinari-burbut deyir, qarğeyi-qurqut deyir, traxtoru-zat deyir, Narmanazıx deyir, Təziy düşüf ocağa, yanıf.

Zəmi sahibi hirsdənir, beli soxur özünə. Bu heyni zəmi sahibinin oğlu gəlir, deyir:

– Ey ateyi-bel-buxun, saa nə gəlif?

Deyir:

– Abiyi-zəmzəm deyir, adili-bünövrə deyir, çinari-burbut deyir, qarğeyi-qurqut deyir, traxtoru-zat deyir, Narmanazıx deyir, Təziy düşüf ocağa, yanıf.

Oğlan da keçəlimiş. Keçəlini qartdıya-qartdıya, qışqıra-qışqıra anasının üstünə gedir. – Keçələ əl vurdun başınnan qan axmalıdı. – Gedif görür anası təndirə çörək yapır. Anası deyir:

– Keçəli-səri-soxdar, saa nə gəlif?

Deyir:

– Ateyi-bel-buxun deyir, abiyi-zəmzəm deyir, adili-bünövrə deyir, çinari-burbut deyir, qarğeyi-qurqut deyir, traxtoru-zat deyir, Narmanazıx deyir, Təziy düşüf ocağa, yanıf.

Arvat hirsdənir, öz süd vəzdərin, – bizdə ona əmcəh deyillər, – götürüf yapır təndirə. Niyə? Təziy ölüb. Bu heynidə kəndin axundu gəlir, deyir:

– Ey arvadi-püstə-təndir, saa nə gəlif?

Deyir:

– Keçəli-səri-soxdar deyir, ateyi-bel-buxun deyir, abiyi-zəmzəm deyir, adili-bünövrə deyir, çinari-burbut deyir, qarğeyi-qurqut deyir, traxtoru-zat deyir, Narmanazıx deyir, Təziy düşüf ocağa, yanıf.

Axund hirsdənir, başındakı əmmaməni götürüf çırpır yerə ki, Təziy niyə ölüf cavan vaxtında. Bu heyində dəyirmançı gəlir:

– Axundu-hindiqulu, saa nə gəlif?

Deyir:

– Arvadı-püstə-təndir deyir ki, keçəli-səri-soxdar deyir, ateyi-bel-buxun deyir, abiyi-zəmzəm deyir, adili-bünövrə deyir, çinari-burbut deyir, qarğeyi qurqut deyir, traxtoru-zat deyir, Narmanazıx deyir, Təziy düşüf ocağa, yanıf.

Deyir:

– Onnan ötəri ağlıyırsan?

Deyir:

– Bəli, o boyda Təziy ölüf.

Deyir:

– Gedəh mən saa Təziyi də verim, Narmanazığı da. Ta kəndin ağıllısı sənsən, bir dənə bitdən ötəri əmmamanı salmısan yerə. Gedəh, görəh axmağı nə gündədi.

Dəyirmançı axundu gətirir, deyir:

– Sən başı qoy dəyirman daşının üsdünə, mən gedim suyu buraxım, gəlsin. Təziynən Narmanazıx yanmıyıflar, suyun içindədilər, tutarsan. Yaxşı?

Deyir:

– Yaxşı.

Dəyirman işə düşdü qutardı də. Suyu qoşan kimi dəyirman daşı işə düşür, bunun başın xırt-xəşil eliyir. Deyir: "İndi o sənin Narmanaziyin, o da Təziyin, di tut".

**168.**

Deyir, bir bit birəni qonax çağırır. Bit də arvad olur, nənə olur. Birə üçün xaşıl bişirəndə birə düşür xaşılın içinə, boğulur, ölür. Bit nənə başın, gözün yolur, həyətdə ağlıyır. Görür bir dənə qarğa gəldi. Qarğa deyir:

– Ay nənə, niyə belə başı-gözü yoluv ağlıyırsan?

Deyir:

– Birə kimi igid ölə, bit nənə başın-gözün yolmasın, neynəsin?

Qarğa bını eşidən kimi qənətdən-quyruxdan çıxır birənin ölməyinə görə. Gedir qonur bir dənə qovağ ağacının başına. Qovağ ağacı deyir:

– Ay qarğa, niyə qənətdən-quyruxdan çıxmısan?

Deyir:

– Birə kimi igid ölə, bit nənə başın-gözün yola, qarğa qənətdən-quyruxdan çıxmasın, neynəsin?

Başdıyır bu qovağ ağacı da vaxtsız yarpaxların tökür. Bir dana da burda kölgəliyə keçirdi. Deyir:

– Ay qovağ ağacı, niyə yarpağı vaxtsız töhmüsən?

Deyir:

– Birə kimi igid ölə, bit nənə başın-gözün yola, qarğa qənətdən-quyruxdan çıxa, qovağ ağacı vaxtsız yarpağın töhməsin, neynəsin?

Dana da bu sözdəri eşidif burunnan-qulaxdan çıxır birənin ölməyinə görə. Gedir bir çaya su içməyə. Çay deyir:

– Ay inəh, niyə belə burunnan-qulaxdan çıxmısan?

Deyir ki, birə kimi igid ölə, bit nənə başın-gözün yola, qarğa qənətdən-quyruxdan ola, ağac vaxtsız yarpağın tökə, dana burun-nan-qulaxdan çıxmasın, neynəsin?

Kür çayı da bu sözü eşidir, duru axırdı, başdıyır lillənir, lehmə axmağa. Guya birəyə yanmağın bildirir. İgid ölüb axı. İki dənə qız gəlir ki, çaydan su aparsın. Deyir ki, ay çay, niyə belə bulanıx axırsan? Deyir, birə kimi igid ölə, bit nənə başın-gözün yola, qarğa qənətdən-quyruxdan çıxa, ağac vaxtsız yarpağın tökə, dana burun-nan-qulaxdan ola, Kür lil-lehmə axmasın, neynəsin?

Qızdar da bunu eşidif ikisi də vırıf sənəhlərin sındırır. Görül-lər, qabaxdan bir tülkü gəlir. Tülkü deyir:

– Ay qızdar, niyə sənəyizi sındırmısız?

Deyillər:

– Birə kimi igid ölə, bit nənə başın yola, qarğa qənətdən-quy-ruxdan çıxa, ağac vaxtsız yarpağın tökə, dana burunnan-qulaxdan ola, Kür lehmə axa, biz sənəyimizi sındırmıyax, neyniyəh?

Tülkü baxıb bulara, deyir:

– Zırt bu sözə, dırt bu sözə.

## 169. OĞLAN VƏ GÜNƏŞ

Bir gün bir oğlanı günəş yandırır. Oğlan üzün tutur günəşə, deyir:

– Sən nə qədər güjdüsən?

Günəş deyir:

– Güjdü olsaydım, bulud qabağımı almazdı.

Oğlan gedir buludu tapır, deyir:

– Sən nədən belə güjdüsən? Qüvvəti nədən alırsan?

Deyir:

– Güjdü olsaydım, yağış mənnən yağmazdı.

Gedir yağışı tapır, – rəvayətdi də, – deyir:

– Sən nədən belə güjdüsən?
Deyir:
– Güjdü olsaydım, qamış mənnən bitməzdi.
Qamışı tapır, deyir:
– Sən nədən belə güjdüsən?
Deyir:
– Güjdü olsaydım, camış məni yeməzdi.
Gedir camışı tapır, deyir:
– Sən nədən belə güjdüsən?
Deyir:
– Güjdü olsaydım, çoban dəyənəynən belimə beş-altısın vurmazdı.
Deyir:
– Ay çoban, sən nə güjdüsən?
Deyir:
– Güjdü olsaydım, siçan çörəyimi yeməzdi.
– Ay siçan, sən nə güjdüsən?
Deyir:
– Güjdü olsaydım, pişih məni yer üzünə həsrət qoymazdı.
Getdi pişiyi tapdı:
– Pişih, nədən güjdüsən?
Pişih başdadı forsdanmağa, dedi:

Güjdücəyəm, güjdücə,
Dəmir darax dizdicə.
Buğlarımı buraram,
Gəlif-gedəni vuraram.

Oğlan fikirrəşdi ki, bu pişih güjdüdü də, bunu götürsün gəlsin evinə. Götürdü gəldi evə. Məytəb vaxtı çatırdı. Bunu yedirtdi, içirtdi, qoydu evə. Amma fortuşkanı[51] açıx qoydu, çıxdı getdi məytəbə. Ata-anası da evdə yoxdu. Pişik o nəfəsdihdən hay elədi, şəhərdə nə qədər pişik vardı yığıldı evə. Uşax dərsdən gəldi, qapını aşdı, gör-

[51] Fortuşka – nəfəslik

dü, nəə? Pişihlər bu evdə bir hay salıflar ki, gəl görəsən. İstədi nəysə yesin, heş nə tapa bilmədi. Üzün tutur pişihlərə:

Pişihlər, pişihlər, mavi pişihlər
Bizə də pay verin, barı pişihlər.
Biri qab götürüf, biri qazança,
Biri tay götürüf, biri sapanca.
Biri yüh dibində yedi olanı,
Biri kol dibində verdi salamı.
Biri stol üsdə çaldı nağara,
Biri qol götürüb süzdü havayı.
Biri barmağıyla cırdı üzümü,
Biri tühləriylə sildi dizimi.

Durur pişihləri çıxardır çölə. Deyir:
– Yox, siznən mənimki tutmaz. Siz həqiqətən güjdüsüz.

### 170. UŞAQ VƏ NOXUD

Uşax yolnan gedir, görür balaca yurtdar var – yuvalar. Girir ora, görür bir para noxud var. Oxuyur:

Yurtdan yurda girdicim,
Paraca noxud tapdıcım.

Bir az keçir, o biri yurtdan bir noxud tapır, oxuyur:

Yurtdan yurda girdicim,
Paraca noxud tapdıcım.
Paraca noxuda bir noxud.

Bir az keçir, o biri yurtdan yan avıc dolsu noxud tapır. Deyir:

Yurtdan yurda girdicim,
Paraca noxud tapdıcım.
Paracığıma birciyim,
Birciyimə yan avıc.

Bir az keçir, o biri yurtdan bir avıc noxud tapır. Deyir:

Yurtdan yurda girdicim,
Paraca noxud tapdıcım.
Paracığıma birciyim,
Birciyimə yan avıc,
Yan avıca qoşa avıc.

İndi bir avıc noxudu var. Bu noxudu nəyə verməlidi? Bu noxudu çıxardır bazara. Bunu nəyə versin, nəyə versin, neynəsin? Bu noxudu verir, bir dənə keçi alır. Keçinin də saqqalınnan tutur gətirir evə.

## 171. PİŞİK VƏ SİÇAN

Bir gün siçan durmuşdu bir deşihdə, pişih də durmuşdu ortada. Pişih deyir ki, siçan, o deşihdən çıx, gir bu deşiyə. Deyir:

– Nə fərqi var?

Deyir:

– Fərqini çıxanda biləcəhsən.

Deyir:

– Niyə, oturmuşam dana burda?

Deyir:

– Orda yer yoxdu, amma burda var.

Deyir:

– İsdəmirəm, fərqini bu başdan de.

Deyir:

– Ədə, deyəcəm də, sən çıx, mən deyəcəm.

Siçan həvəsdənir, çıxır o deşihdən bu deşiyə. Pişih bunu qapır, deyir:

– Fərqi buyuydu.

# LƏTİFƏLƏR

## 172. SİRRİNİ DOSTUNA VERMƏ

Bir arvad varmış. Bu arvad evin sözünü həməşə gedif çöldə danışarmış. Bir gün bunun əri deyir: “Mən nətər eliyim bunun xəbərçiliyini yığışdırım? Evdə nə olur, hamısı çöldədi”. Deyir:

– Ay arvad, bilirsən nə var? Bax o yalın üsdə mən bir adam öldürmüşəm, basdırmışam.

Kişi bir palıt kötüyü aparır, gejə orda basdırır. Deyir, qoy görüm bu arvada mən xəbərçiliyi tərgidə bilərəmmi? Bu arvad gedir səhər-səhər suya. Bir gün keçir, iki gün keçir. Yaylığı tutur burnuna, deyir:

– Ay qızdar, yaman pis iy gəlir.

– Aaz, nə iy gəlir?

Deyir:

– Bə odey, o yalda ərim bir adam öldürüf basdırıfdı, bax o meyidin iyi vurur bəri.

Söz gedir çatır padşaha. Padşah kişini tutur ki, sən adam öldürüf basdırmısan. Fakt budur ki, bunu sənin arvadın deyir. Deyir:

– Padşah sağ olsun, sən allah, getginən oranı qazdır, baxginən orda nədi basdırılan.

Gedir baxır ki, orda bir dənə palıd kötüyüdü. Deyir:

– Niyə bə bunu belə demisən?

Deyir:

– Arvadı çağır bura, deyim.

Arvadı çağırıllar. Deyir:

– Mən ona ha deyirdim ki, evin sirrin çölə vermə, o, evin sirrin gedif çöldə danışırdı. Mən onuncün belə dedim ki, bəlkə xəbərçiliyini tərgidə.

Bu həm də atalar məsəlidi: “Sirrini dostuna vermə, dostunun da dostu var”.

## 173. MOLLANIN FIRILDAĞI

Qazı mollaya bir tumannıx parca verir – bu qazının da kənddə oynacı varmış, – deyir:

– Apar bunu ver o qadına, denən ki, onu tiksin, geyinsin.

Üstündən bir müddət keçir. Qazı görür ki, heş bu tumannan bir xəvər cıxmadı. Bunun parçası heç arvadın əynində görünmür axı. Mollaya deyir ki, arvaddan bir al dilnən soruş, gör parçanı neynədi.

Qadın inəyi sağırmış. Görür molla əzan çəkəndə deyir ki:

Əşədü ənna la ilahə illallah,
Qazı bir tumannıx parca göndərmişdi,
Muhammədən rəsul allah.

Arvad da deyir:

Görmüşəmsə gözdən olum,
Almışamsa, əldən olum.

Nəysə, belə danışıllar. Bunnan buna çatdırıf ki, parça mana gəlif çatmıyıfdı. Bu belə deyəndə qazı da bilir ki, molla aparıb parçanı buna vermiyifdi. Molla da öz fırıldağını orda açır.

## 174. HALVAYA DUZ TÖKÜRLƏRMİ?

Bir gəlinə yoldaşı deyir ki, halva bişir. Gəlinin qayınanası harasa getmişmiş. Gəlin fikirrəşir, deyir: “Ayə, bu halvaya görəsən duz tököllər, yoxsa tökmüllər?” Çıxır yola. Deyir: “Görüm, kimnən örgənə bilərəm ki, halvaya duz tököllər, ya yox?” Görür atın üstündə bir kişi gedir, belə qəşəh, şax oturuf. Deyir:

– Buna bax ey, buna bax. Kişi nə duzsuz halva kimi özünü çəkif ey atın üstündə.

Deyir:

– Qızım, sən nə bilirsən ki, duzsuz halva yaxşı olur?

Qız gəlir halvasını duzsuz bişirir.

## 175-176. BİLİRƏM DEDİYİN NƏ İDİ

Bir gəlin varmış, təzə gəlinmiş. Əri bir kilo ət alır. Deyir ki, ay qız, axşam bir dolma bişirərsən. Deyir, yaxşı, bişirərəm. Gəlin dolma bişirməyi də bilmirmiş. Gedir qonşu arvatdan soruşur. Deyir ki, ay xala, dolma bişirməyi maa de. Deyir:

– Ay qızım, əti döyürsən.

Deyir:

– Bilirəm.

– Düyüsün tökürsən.

Deyir:

– Bilirəm.

– Kələmin pörtədirsən.

– Bilirəm.

Bu hamısın dedikcə deyir, bilirəm, bilirəm, bilirəm. Deyir:

– Bükürsən yığırsan qazana.

Deyir:

– Bilirəm.

– Üstünə də bir mal təzəyi qoyursan – quru peyin.

Deyir:

– Onu da bilirəm.

Gətirir qəşəh dolmanı bükür, yığır, bir dənə də təzəh qoyur üstünə. Axşam əri gələndə sevinə-sevinə deyir, dolma bişirmişəm bir tava. Gətirir. Nə? Peyin. Deyir:

– Bu nədi belə?

Deyir:

– Bə filan arvada dedim, o nə dedisə, mən də dedim bilirəm, bilirəm. Mən də gəldim onun dediyi kimi bişirdim.

Deyir:

– Bə sən bilirəm demisən, ona gora da o elə deyif. Gedif soruşduğun nə idi, bilirəm dediyin nə idi?

**176.**

Deməli, bir kişinin arvadı var, qızı var. Arvad gedir başqa yerə, evə də qonax gəlməhdə. Kişi isdiyir ki, qonaan qabağına yaxşı çıxsın. Bilir ki, qızı yaxşı yeməh bişirəmməz. Qonşunu çağırır. Deyir:

– Qonşu, sən allah, arvad evdə yoxdu, qonağın qabağına çıxarası yemək hazırramağ lazımdı.

Deyir:

– Noolar.

Deyir:

– Qız da sənə köməh eliyər.

Deyir:

– Yaxşı.

Həyətdə ocax qalıyıf yeməh bişirəcəhlər. Qonşu qadın deyir:

– Qızım, gəl bir ocax qalıyax.

Deyir:

– Bilirəm.

Deyir:

– Bir toyuxdan, xoruzdan tutax kəsəh.

Deyir:

– Bilirəm.

– O düyünü gətir təmizdiyəh.

Deyir:

– Bilirəm.

Deyir:

– Bir az su götürəh, qoyax qaynasın.

Deyir:

– Bilirəm.

Arvadı təngə gətirir bu "bilirəm" sözünnən. Vaxt gəlir, aşı dəmə qoymax lazımdı. Deyir, hər işi gördüh, indi bunun yaxşı dəm alması lazımdı. Bunun üçün də bir iş var. Yəqin onu da bilirsən. Deyir:

– O nədi?

Deyir:

– Mal təzəyin qoyassan düyüün üstünə, onda o yaxşı dəm alacax.

Qız yüyürə-yüyürə gedir bir mal təzəyi gətirir, qoyur aşın üstünə. Arvad çıxır gedir. Deyir, tay mənim işim qutardı. Təzəh əriyir, qatışır aşa. Tay qonax yiyəsi aş olmur. Kişi qonşunu çağırır, deyir:

– Qonşu, ayıb deyil? Məqsədin vardı ki, məni camaat içində biyabır eliyəsən?

Deyir:

– Mən eləmədim, qızın elədi. Hər nə dedim dedi, nə isdiyirsən mənnən, bilirəm. Bilmədiyi təhcə təzəyidi, onu da qoydu aşın üstə.

## 177-178. İKİ YALANÇI

Çaykənd tərəfdə bir kənd oluf. Sora ora göyçəlilər gəldilər. Orda yalan danışan adamlar oluf. Bulardan biri deyir ki, mən əsgərrihdə Rumıniyada olmuşam, orda meşədə çiyələhləri tay əlnən yığmırdılar, elə lapatkaynan götürüf tökürdülər vedrəyə. O qədər bol idi. Bu biri yalançı deyir:

– Hə, olar, olar. Biz Çaykənd tərəfə təzə köçmüşdüh, çayın qırağında beş-altı dənə boranı əhmişdih ki, əmələ gəlsin. Bu boranıların hamısı qurudu, bircə dənəsi qaldı. Mən də, – deyir, – bunun dibinə xeylax peyin tökürəm tez-tez. Ə, gördüm, deyir, bunun tağı uzandı. Uzandı, uzandı, deyir. Çaykənddə çayın üstünə bir ağac yıxılmışdı, o ağaca dolana-dolana çayı keçdi. Mən də gündə su tökürəm, tökdühcə uzanır. Bu, deyir, Çaykəndin padyomunu qalxdı, ordan keçdi Toğana kəndinə. Mən də su tökürəm ey, gündə su tökürəm. Toğananın üstündən qalxdı düşdü, düşdü, gəldi Erkəcə. Erkəcin də düz sentirinnən qalxdı, deyir, Mələşə axdı.

O birisi deyir:

– Ə, yekə kişisən, day bu qədər də olmaz ey. Burdan ora iyirmi kilometr yoldu.

Deyir:

– Sən o lapatkadan çiyələhləri töh qırağa, yoxsa düz Buzduğa qədər aparajam.

Buzdux da ən axırıncı kəntdi.

**178.**

İki nəfər olur, bir əzcə şişirtmə danışandılar. Biri yaxşı balıx tutarmış. Üç oğlu varmış. Kişinin adı Rüstəm idi. Böyüh oğlunun adı Mirzalı idi, ortancılın adı Namaz, balacanın da adı Mehbalı. O biri də yaxşı bosdan əkən olufdu. Adı Aydındı. Bir gün bular söhbət eliyillər. Rüsdəm kişi deyir ki, ay Aydın, Qasım şahadında bosdan əhmişdih. Bizdə yer addarıdı – Qasımşahat, Şəhbəli, Ağalı, Bağlar, Koğuşdu, Ada. Deer, orda qarmax vururdum, yaman bərəkətdi yerdi. Bir gün qarmağıma balığ ilişdi. Nə qədər çəhdim, çıxarda bilmədim. Böyüh oğlumu çağırdım – Mirzalını. O da gəldi, kömək elədi, çıxarda bilmədi. Namazı çağırdım, o da gəldi, çıxarda bilmədi. Nəysə, çıxartmax mümkün olmadı. Çıxıram balığın belinə. Balığın başı Kürün bu tayındadı, quyruğu o biri taydadı – Qarabağ üzündədi. Bu da qulaq asır diqqətnən. Deer, ay Rüsdəm, sən çox düz deersən. O yer bilirsən, nə qədər bərəkətdi yerdi. Bir dəfə mən də orda bosdan əhmişdim, Yuxarı Qarxın, Aşağı Qarxın, Yevlax daşıdı, qutarammadı. Bir gün gəmiynən Kürün o tayına keşmişdim. Baxıram, Kürün bu tayınnan qarpızın şüyü keçiv o üzə. Ə, bosdan burdeymış. Nə qədər camahat daşıyıf qutara bilmir. Deer, Aydın, bəsdi, qarpızın şüyün çək. Deer, hara çəkirəm, sən balığın belinnən tüş, mən qarpızın şüyün çəkim.

## 179-180. NAZİK, YOĞUN BİR İMİŞ

İki dənə qadın olur, biri yaxşı arvad olur, biri də mənim kimi pis arvad olur. Camaat deyir, əşi, arvad arvatdı dana, nə tafotu var. Düzdü, Allah-taala arvadı yaradıf. Deyir, elə soğanın adı soğandı, arvadın da adı arvad. Yanı qadın demirəm dana, köhnə dilnən danışıram. Əmbə arvadın arvatdan saxlancı artıxdı. Sən də arvatsan, mən də. Sənin yüz maatın var, aparırsan bazara qaxa-qoza verib yeersən, içirsən. Mən də əlli manatı iyliyə-iyliyə, iyliyə-iyliyə dala tulluyuram ki, dar günümnən ötəri. Bəlkə, beqafıldan elə bir qonağım gəldi, elə bir hadisəm oldu, bunu o gündə çıxardım. Deyir, at saxlıyan at minər, don saxlıyan don geyər.

Nəysə, iki arvat olur, çuxa toxuyullar. Onu da olar o vaxdı ip quruf yerdə toxuyurmuşdar. Biri gözünün qorasın tökür, axşama qədər inci-minci düzür, əyirir, gözəl, belə ürəyin isdiyən çuxa toxuyur. Biri də yoğun-yumru qayırır. İnci, muncux düzən beş aya toxuyur qutarır, o biri üç aya – yoğun-yumru, rəngli-rəngsiz toxuyur. Buların ərlərini toya çağırıllar. Deyillər, çuxanız da var, geyinin, ikiniz də gedin. Geyinif gedillər. Bu nəzih, inci-minci düzən deyir: "Gedif xəbər alajam. Görüm, bırda fərq varmı, hansı qəşəhdi, hansı pisdi, ona qiymət verən varmı?" Gedir, qabaana bir atdı çıxır. Deyir:

– Qardaş?

Deyir:

– Ha.

Deyir:

– Qabağınıza iki kişi çıxmadı?

Deyir:

– Hə, çıxdı.

Deyir:

– Biri qəşəh çuxalı, biri də elə-belə çuxalı?

Deyir:

– Vallah, qəşəyini-zadını görmədim. Gördüm, elə iki dənə qara çuxalı kişi getdi.

Orda qayıdıf arvad deyir ki, hayıf, hayıf mənim zəhmətimə. Nəzih, yoğun bir imiş, hayıf ömrüm çürümüş.

**180.**

İki kişi varmış, qonşuymuşdar. Buların birinin arvadı çox yaxşı, təmiz iş görərmiş, biri də elə belə, həşdən-hüşdən iş görürmüş. İkisi də darayı əyirif ərrərinə cuxa tikmək isdiyillər. Darayın da materialı keçi qəzilinnən olur. Bunun biri keçinin qəzilini o qədər nazik əyirir, o qədər nizam düzəldir, bir qəşəh çuxa toxuyur. Bu biri də elə belə, əyən-bəyən pərpirliyir, birin də bu toxuyur. Buların əri atdanıf gedəndə yaxşı çuxa toxuyan deyir, qoy görüm mənim çuxam tanınajaxmı kı, bunu mən toxumuşam. Deyir ki, ay yolnan keçən, bəs burdan iki kişi getmədi belə darayı çuxa, belə papax? Deyir:

– Mən bilmədim darayı çuxaydı, nə idi. İki qara çuxa getdi burdan.

Bu o deməkdir ki, yaxşıynan pisə çox vaxt fərq qoyulmur.

## 181-182. HƏR KƏSİN DƏRDİ ÖZÜNƏ DƏVƏ BOYDADI

Bir qızı isdədiyinə vermillər, ajıx eliyir gedir. Dədəsinnən, nənəsinnən ajıx eliyir, gedif oturur çöldə. Öz-özünə deyir ki, versəniz də gedəjəm, verməsəniz də gedəjəm. Bu hayında yoldan bir kişi keçir, bunun dəvəsi itir. Qızı görür. Görür ki, qız oturuf, öz-özünə danışır. Deyir:

– Ay qızım, ay qızım.

Deyir:

– Bəli.

Deyir:

– Ay qızım, burdan bir dəvə keçdiyin gördünmü?

Qız deyir:

– Versəniz də gedəjəm, verməsəniz də.

Kişi genə deyir:

– Ay qızım, dəvəm itmişdi, soruşuram dəvəmi gördünmü? Sən nə deyirsən?

Qız deyir:

– Versəniz də gedəjəm, verməsəniz də.

Deyir:

– A bala, sənin nə dərdin var?

Deyir:

– Ey, ay əmi, məni isdədiyimə vermillər. Ona görə də deyirəm, versəniz də gedəjəm, verməsəniz də gedəjəm.

Deyir:

– A bala, sənin dərdin nə dərtdi ki. Mənim bu yekəlihdə dəvəm itifdi. İndi sən de görüm, mənim o dəvəmi gördünmü?

Deyir:

– Əmi, sən Allah, öz yolunnan get, elə hərənin dərdi özünə dəvə boydadı.

## 182.

Biri dəvəsin axdarırmış. Kişi qaranəfəs, dili ağzınnan çıxmış gəlif çıxır bir bulağın başına. Görür ki, bir qız uşağı var. Deyif, qoy bir bunnan soruşum.

– Salamməleykim.

– Əleykiməsalam.

– Dəvəm itif, bəlkə görmüsən?

Deyir:

– Niyə yoxdu, əmim oğlu da isdiyir, dayım oğlu da.

Deyir:

– Belə demədim. Deyirəm, dəvəm itif, bəlkə görmüsən?

– Anam deyir dayın oğluna verəcəm, atam deyir əmim oğluna.

Deyir:

– Yox, qızım, sənnən mənim söhbətim tutmaz. Mən «hax» deyirəm, sən «ər».

## 183. SÜDLÜ AŞ

Deməli, o vaxdı bizdə bazar varıydı. Ora Ordubatdan, Culfadan gələnnər qatırnan gəlir da, gecə qalırmışdar. Bu kəndin də özünəməxsus qonaxları varıdı. Biri gəlir, qarannığa düşür, qapını döyür kəntdə. Deyillər, buyur də. Kənt buna öyrəşib, qonax olmalıdı. Evin də nəyi varımış? İnəyi sağıb gətirərmişdər, süddü aş bişirif qonağa verərmişdər. Süddü aş belə yeməhdi ki, onu nimçiyə çəkəndə üzünə qaymax gəlir. O qaymaxda da qırışdar əmələ gəlir. Qonax deyir ki, yəqin bu soyuyub ki, üstündə belə qırışdar var. Taxda qaşığı basır, qoyur ağzına. Ağzı bişir, pap, pap eliyir, yeməh yeyə bilmir. Ev yiyəsi deyir:

– Ay qonax, neynirsən?

Deyir:

– Heş, milləri sayıram.

O vaxdı patalox yoxumuş. Daha ac qalır. Səhər durub gedəndə Ağbəndnən Göybəndin arasında öz kəntdisinə rast gəlir. Deyir:

– Çaylıya gedirsən?

Bizim hər tərəfimizdən çaylar axırdı deyə Çaylı deyirdilər. Deyir ki, hə. Deyir:

– Gecə qalassan, bilirəm, mümkün deyil. Mənnən saa əmanət. Birdən saa üzüqırış qoyallar, üzünün qırışına baxıb aldanarsan haa. – Olar süddü aş bilmirdilər. – O üzüqırışın üzünün qırışına baxıb aldanarsan, sora mənim kimi ac qalarsan. Qoy tamam soyusun.

## 184. BU HAVADA HEÇ QAR YAĞAR?

Bir kişinin bir oğlu olur, tənbəl olur. Bular qışa yaxşı ot yığmıyıflar. Bir dənə atdarı varmış, atı qış uzunu o qədər ac qalıb ki, bağlandığı mıxın yarısın yeyib. Yaz açılıb. Oğlan deyir, ata, bu mıxı qoyacam yanıma. Yayın isdisində mıxı mənə gösdərərsən, gedib ot yığacam.

Yaz ötür, yay gəlir. Oğlan sərin yer axtarır. Ata deyir ki, bala, axı deyirdin ki, tək danaqırannan yüz bağ bağlıyacam. – Danaqıran ot bitkisidir, salxım-salxım bənövşəyi çiçəkləri olur. Yazın axırı bitir, danalar onu yemir. – Bəs heş tərpənmirsən. Deyir, a kişi, bu püfə-püfdə heç qar yağar? Qoy bir az sərinnəsin, gedif biçəcəm.

## 185. BİZ DƏ QİRAƏTLƏ DEDİK

Kəndə molla olur, mədrəsədə uşaxlara dərs deyir. Molla çox əzazil olur, uşaxların ayağına-zadına vurur. Bir gün uşaxlar deyir ki, biz elə eləməliyik ki, bu molla bir həftə evdən çölə çıxa bilməsin. Heç olmasa, bir həftə canımız dincələr. Döyülməkdən hər yerimiz ağrıyır. Ən yaxşı oxuyan uşaxlardan biri deyir, mən eliyəcəm, amma satmayın məni.

Molla girir dərs deməyə, uşağın biri qalxıb deyir:

– Molla, sənə nolub belə?

Deyir:

– Nolub?

Deyir:

– Rəngin saralıb.

O biri deyir, gözdərin altı qaralıb. Molla dərsi buraxır, gedir evdə bir həftə yatır.

Bir həftədən sora deyir ki, ay uşaxlar, siz deməsəydiz, mən elə ordaca ölmüşdüm. Molla dərsə çıxır. Bir gün deyir ki, siz "Quran"ı qiraətnən oxumalısız, elə-belə oxunmalı şey döyül. Elə hey uşaxların başına-gözünə döyür ki, qiraətnən oxuyun, qiraətnən oxuyun. Tənəffüsdə uşaxlar bayırda ocax qalıyıllar isinməyə. Ocaxdan bir qor sıçrıyır düşür mollanın əmmaməsinə. Əmmamə başdıyır yavaş-yavaş tüsdüləməyə. İndi qorxullar ki, necə desinnər. Uşağın biri deyir ki, mooo-ool-la, biiiir od düş-düüüüüü əm-mə-maaaaa-yə. Molla dik qalxır.

– Ə, nə əmmamə?

Görür ki, əmmamə alovlandı. Deyir:

– Siz səhərdən bunu görürsüz, niyə mənə demirsiz?

Deyir:

– Molla, demədin qiraətnən danışın? Biz də qiraətnən dedik də.

## 186. YEL BURAXAN GƏLIN

Biri gedir gəlin gətirir. Görüllər ki, gəlin gələnnən sora oğlan günü günnən geri gedir. Kişi deyir:

– Ay arvad, bu uşax niyə belə eliyir? İrəli getməhdən geri gedir. Xeyir ola?

Arvad deyir:

– Vallah, başım çıxmır.

Bir az fikirrəşir kişi, deyir:

– Deyəsən, o kadın yel buraxandı. Oğlum utanır, bəlkə, bizə deyə bilmir. Gəl bunu yoxluyax.

Deyir:

– A kişi, necə yoxluyax?

Deyir:

– Mən çöldən gələndə qaş-qabaxlı gələcəm. Sən düşərsən üsdümə ki, kişi, saa nooluf?

Kişi gedir, çöldən qaş-qabaxlı gələndə arvat yüyürür qabağına, deyir:

– Ay kişi, saa nooluf, a kişi, saa nooluf? Bəs belə olmaz, niyə belə eliyirsən? Uşaxlar qalxar-eliyər.

Deyir ki, bəs, məni bəy çağırmışdı. Deyir:

– Niyə çağırmışdı?

– Deyir, – bəs üzr isdiyirəm, – üş meşox yel lazımdı. Hardan alax?

Gəlin eşidir, – ağzında yaşmax varımış, – yaşmağı aralayıb deyir:

– Birin siz ikiniz doldurun, ikisin mən dolduraram.

Kişi sevinir, deyir:

– Hə.

Axır ki, bildilər də dərdi nədi. Gəlin əliynən işarə eliyir ki, meşoğu verin də, tez eliyin.

Bu tərbiyəydi, qızım. İşin üstü açılannan sora insan o əməli bir də eləmiyəcəh.

## 187-191. KALBA SƏMƏD

Bartaz kəndində Kalba Səməd adlı bir kişi yaşayırdı. O İranla ticarət əlaqələri qurubmuş, qaçaqmal alveri ilə məşğul imiş. İran tərəfdən Azərbaycana çay və digər məhsullar gətirərmiş. Araz çayından keçərkən həmişə sərhəddə rus əsgərləri gətirdiyi yükü əlindən alar, özünü buraxarmışlar. Kalba Səməd bir gün Arazdan keçəndə əsgərlərlə rastlaşır. Sərhədçilər ondan yükünün nə olduğunu xəbər alır. Kalba Səməd özünü itirmədən deyir:

– Yüküm çaydı, çaydı.

Sərhədçilər düşünürlər ki, Əbisəmədin yükü çay olsaydı, belə deməzdi. Onu sərbəst buraxırlar.

### 188.

Kalba Səməd kişi olur, gedir Zəngilan kəndinə bazara. Orda həftəbazar varmış. Satdığın satır, axşam düşür, addıyır Müşülan kəndinə, gecəni orda qalır. Görür ki, ev yiyəsinin toyuq-cücəsi çoxdu, içində xoruzu da var. Tutur xoruzu, qoyur heybəsinə. Dərbənir ki, getsin. Ev yiyəsi deyir ki, ay qonax, getməginən. Qoy xoruz bannasın, sora gedərsən. İndi getsən canavar yeyər. Deyir:

– Xoruzdu dana. Bannar bannar, bannamaz, gedərəm, yolda bannar.

**189.**

Kimin nəyi itirsə, Kalba Səməddən şübhələnirmiş. Bu da deyirmiş, kimnən nə itirsə, mənnən görüllər, kimin nəyin axtarıllarsa, mənnən çıxır.

**190.**

Deyilənə görə, kənddə bir yaşdı qadının bir inəyi varmış, bir də düyəsi. Bu düyəni kimsə oğurruyub aparır. Bu qadın gedir yapışır ki, mənim düyəmi oğurruyan Kalba Səməddi. Bu da deyir ki, mən eləməmişəm. Hər nəysə, qadın yazır verir, yesoul gəlir, Kalba Səmədi aparır Gorusa. O vaxdı türmə Gorusda imiş. Türmənin rəisinə deyir ki, sən gəl maa icazə verginən gecə gedim kəndə, gəlim. Deyir, sənin nə işinə qalıb, sən icazə ver, gedib gəlim. Həqiqətən də, bu icazə verir, gəlir. Axı bu arvad buna deyif mənin düyəmi sən oğurramısan. Arvadın da tövlədə bir inəyi qalmışmış. İnəyi gətirir kəsir, yarısın qoyur uşaqlarının yanında, bir budunu da şəlliyir, aparır verir türmənin nəçəlniyinə. Deyir ki, o məni şərrəmişdi, mən də getdim inəyini oğuruyub kəsdim, bu da sənin payın. Səhər arvad gedir şikayətə ki, mənim inəyimi gejə oğurruyublar. Deyillər ki, kimdən şübhələnirsən? Deyir, Kalba Səməddən. Deyillər, Kalba Səməd neçə gündü türmədədi, hardan gəlib sənin inəyini oğurradı?

**191.**

Həmişə bizim tərəfdən gedib İrandan çay gətirirmişdər. Niqalay saldatdarı buları izdiyirmiş. Bir günnəri bu Səməd İrana gedib çay gətirəndə gəlir görür ki, üş dənə Niqalay saldatıdı, beşaçılannarı qoyub baş-başa, yatışıblar. Bu saldatdarın üçünün də tüfəngini götürüb gəlir kəndə. Saldatdar oyanır, görür ki, tüfəng yoxdu. Gedib nəçəlniyə deyirlər ki, bəs başımıza belə bir hal gəlib. Nəçəlnik deyir ki, bu ancaq Kalba Səmədin işidi. Gəlib deyir ki, Kalba Səməd, tüfəngləri sən gətirmisən? Deyir:

– Sənin saldatın tüfəngin mən gətirə billəm?

Deyir ki, gəlginən sən bu tüfəngləri verginən, İrandan nə gətirirsən gətir, bir adam sənin qabağında durmuyacax. Gətirir üçün də verir. Ondan sora İrana gedib gəlirmiş, kimsə ona bir söz demirmiş.

## 192-193. OCAQQULU

Ocaxqulu məşhur oğruymuş. Oğurladığını gətirərmiş, qurban payı kimi bölərmiş. Bir gün öz kəndlərində imiş. Qış idi, hava soyux olduğundan heyvan bivaxt gəlir. Tez heyvanın birini itəliyir içəri. Heyvan yiyəsi görür heyvanın biri yoxdu. O yanda da canavar uluyurmuş. Ocaxqulu kişi deyir:

– Ula, başına dönüm, ula. Mən yiyəni də sənə sayıllar.

### 193.

Bartazda Kərim adlı bir kişi yaşayırmış. Qonşu Vejnəli kəndindən Ocaxqulu adlı bir kişi onun keçmiş arvadı ilə evlənmişdi. Bir gün Ocaxqulu Bartaz kəndinə gəlir. Kəndin ağsaqqalları orta məhəllədə bir damın üstündə söhbət edirmişlər. Ocaxqulu ağsaqqallara əhəmiyyət vermir, birbaşa Kərim kişinin yanına gəlir, əl verib onunla görüşür. Ağsaqqallardan biri deyir:

– Ə, Ocu, bizdən qabaq Kərimə niyə əl verib salamlaşırsan? Biz kişi deyilik?

Deyir:

– Kərim mənə bir arvad verib, bəs siz nə vermisiniz?

## 194-195. AŞIQ ORUC

Aşıq Oruc varmış, gedir Ördəkli kəndinə, orda toy çalır. Görür buna qulaq asan yoxdu: yedilər, içdilər, bir-birini qırdılar. Ondan sora bartazlılar bunu aparır, toy çaldırır. Görür bura hara, ora hara. Burda insannar mərifətdi, savatdı. Deyir:

Əziziyəm, ya süzmə,
Ya qatıxdı, ya süzmə.
Bartazdan toy
Ördəklidən yas üzmə.

**195.**

Aşıq Oruc gedir bir məclisdə çalıb oxuyur. Görür ki, buna fikir verən yoxdu. Durur, üzdən iraq, eşşək kimi anqırır. Anqıranda deyirlər:

– Aşıq, bu nədi?

Deyir:

– Görürəm hamının qoduğu yanındadı, mənimki yoxdu.

Onnan sora o kənddə indinin özündə də toya uşaq aparmazdar.

## 196. AŞIN ALTINDAKI CÜCƏ

Bizim kənddə Qəmər adlı bir kadın olub, Xırdaqışlağa ərə gedib. Hacı Abdullanın bacısı qızı olub. Bir gün Qaröyünnən bir molla gəlir, ona Qara molla deyillər. Bu, özünnən dəm vurmaq üçün deyir ki, pay atonan, ağaşdan bir yarpax düşdü, Türkiyədə bir adam öldü. Bular da deyillər:

– A kişi, sən burda yaşıyırsan, ağaşdan bir yarpax düşməknən nə bilirsən Türkiyədə bir adam öldü?

Deyir:

– Yox, mən biliciyəm.

Deyillər:

– Yaxşı.

Plovu bişirillər. Hər kəsin plovunun üstünə bir dənə beçə qoyullar, bunun beçəsini düyünün altına qoyullar ki, görək bunu seçəcək, yoxsa yox. Gətirib qoyullar bunun qabağına. Baxıb görür hamının plovunun üstündə beçə var, bunun plovunun üstündə yoxdu. Boşqabı itəliyir o yana. Hacı Abdulla deyir ki, ay molla, noldu? Niyə yemirsən? Deyir:

– A kişi, mən nə qədər aciz oldum ki, hamızın xörəyinin üstündə beçə var, mənimkində yoxdu.

Qəmər xala deyir ki, bəs nətər düyünün altındakı o yekəlikdə cücəni görmürsən, amma Türkiyədə adamın öldüyünnən xəbər verirsən?

## 197. QARIN DARTAN QOCA

Yaşdı bir kişi olur, buna cavan bir qız alıllar. Qızı gəlin gətirillər, bəyin otağına salıllar. Qız içəri girir, baxır ora-bura ki, bunun nişannısı hardadı. Bəy də evin ortasında oturub, qarın yeyirmiş. Ağzında dişi-zadı yox, qarını dartışdıra-dartışdıra qalıb. Qız deyir:

Ay qarın-qarta dartan qoca,
Sən bu evin nəyisən?

Qoca deyir:

Qoca sənin gülündü, bülbülündü
Qoca sənin yarındı,
Yıxılıb qoynunda yatanındı.
Bilsəm konlun məndədi
.......................................[52]

Qız başından çadranı atıb gedir.

## 198. MÜLKÜ BƏY

İranda Mülkü bəy olub, Məhəmməd bəy onnan dost olub. Əvəz kişi onnan bağlı bir hadisə danışırdı. Deyirdi ki, Mülkü bəy bura gələndə bu kişi çıxarmış onun qarşısına, onu yaxşı qarşılayarmış. Bir dəfə Məhəmməd bəy gedif İrana. Gedif buların həyətinə. Görüf ki, kişi həyətdədi. Kişini çağırıf, deyiflər ki, evdə yoxdu. Onun belə bir sözü vardı. Deyir:

A Mülkü bəy, Mülkü bəy,
Əyninə geyib kürkü bəy.
Bizim eldə aslan olur,
Öz elində tülkü bəy.

## 199. DÖH DEMƏYƏ DƏ HAQQIM YOXDUR?

Bizim kənddə Dadaş addı biri olub, kalxoz qurulanda bu kalxoza qoşulmuyub. İclas gedirmiş. Bu deyib, kalxoz mənnik döyül.

---

[52] Axırıncı misra biədəb olduğu üçün söyləyici onu demək istəmədi.

Mənim özümün təsərrüfatım var, əkirəm, biçirəm, onnan ayləmi dolandırıram. Kalxoza girmək mənim nəyimə lazım? Deyiflər, onda sənin səsin bağlanacaq. Deyif:

– Nətər yanı səsin bağlanacaq? Döh də deyə bilməyəcəm?

Deyir:

– Əşi, döh da deyəssən, hələ qışqırassan da. Amma səs vermə hüququn olmuyacax.

Deyir:

– Ayə, döh deyə biləcəm, o mənə bəsdi. Yerimi əkib ayləmi dolandıracam.

## 200. DAZIMA BAXMA, YAZIMA BAX

Deyir, biri gözəl-göyçəh gəlin olur, hamama gedir. Burda bir dənə də keçəl arvad oturuf çimirmiş. Bu gözəl-göyçəh gəlin gəlir bu keçəl gəlini kisələyir. Görür, camaatın hamısı buna təəccübnən baxır ki, ay Allah, ilahi-pərvərdigara, bu gözəllihdə gəlin bu keçəli elə təmiz-təmiz kisəliyir. Keçəl gəlin ətrafına baxır, deyir:

– Nəə baxırsız?

Əlin də vurur başına, deyir:

– Dazıma baxmayın e, yazıma baxın.

## 201. ANA İLƏ QIZIN DEYİŞMƏSİ

Bir gün ana qızınnan soruşur:

– Bala, naxırçıya gedərsən?

Qız cavab verir:

– Ay ana, nəyi var naxırçının? Nə evdə hanası var, nə də naxırda danası. Bir həsirdi, bir Məmmədnəsir. Bir ağacıdı, bir də boğazı. Onunku günüz naxıra, axşam axuradı. Yayda topuğa, qışda lopuğa işləyəndi. Bir cüt çarığı var, onun da bağı qırıx, burnu yırtıx.

Ana genə bınnan soruşur:

– Bəs bəyə gedərsən?

Qız tez cavab verir:

– Elə gedərəm.

Ana deyir:

– Nəyə gora?

Qız deyir:

– Ona gora ki, kürkü də var, börkü də. Cahı da var, cəlalı da. Bağı da var, bəhrəsi də var.

## 202. ZİRƏK GƏLİN

Bir arvat deyirdi ki, kəntdə bir əzazil arvad vardı, onun oğluna gəlin getmişəm. Mənnən sora balaca oğluna da gəlin gətdi. Arvat ta məni tərgidif balaca gəlini tutdu – Güləbətini. Bir gün deyir bular qonşu kəndə ölü yerinə gedəndə, – o vaxdı da çörək urvatdı imiş, onu gizdiyirmişdər, – Güləbətin dedi, Gözəl, gəl bir kömbə bişirək. Dedim, aaz, nətər bişirək kömbəni? Dedi ki, unu sən gətir, yoğur, orta ojağda mən sajda bişirəjəm. Arvad Güləbətinin tərəfin tutduğunnan dedim: “Güləbətin, gör sana neyniyəjəm”. Dedim Güləbətin, gəl. Sajı qaldırdım, dedim: “Kömbəni götür, bişifdi”. Kömbəni bişirdi. Palazın üstünə vurdu, burdu götürdü. Kömbənin külü qaldı palazın üstündə. Axşam arvad gəldi dedi, oluf-olacax döyül, kəndidən[53] un götürmüsüz. Güləbətin dedi:

– Ay Nazpəri nənə, bax Məhəmməd ölsün, Əbdül qalsın. Əbdül ölsün, Məhəmməd qalsın, – qardaşlarını deyir, – mən götürməmişəm. Vallah, xəbərim yoxdu.

Dedim:

– Nazpəri nənə, dinmə, mən bu saat deyəjəm. Güləbətin dedi ki, kəndidən unu götür, belə yoğur, belə bişir. Bax mən də sajı qaldırdım, Gülbətin kömbəni götürdü, vurdu palazın üstünə. Yeri də qalıf. Yarısın yemişik, yarısı da Güləbətinin buxçasındadı. Get bax.

Deyir, buxçanı açanda kömbə içinnən çıxdı. Sora Nazpəridən soruşullar ki, gəlinnərinin hansı yaxşıdı. Deyir:

– Uuy bala, bala, axirəti elə gördüm ki, gənə qayıtdım ilana qısıldım.

---

[53] Kəndi – un saxlanılan qab

## 203. CÖNGƏ OĞRUSU

Dardan yuxarı kəndlərin birində çox dindar, anda inanan, sadəlövh bir kişi oğlunun toyuna bir cöngə bəsləyir. Hər gün səhərdən axşama qədər cöngəyə qulluq göstərir. Həmin kişinin qonşuluğunda oğru bir kişi yaşayırmış. Oğru kişi kəndin üstündəki talada olan yetişmiş arpa zəmisini biçməyə gedir. Hər tərəfi meşə ilə əhatə olunmuş taladakı zəmini biçdiyi zaman harınlamış cöngə ipi qırır, oğrunun zəmisinə girir. Çoxdan bu fürsəti gözləyən kişi cəld cöngənin ayağını kəndirləyir, onu yerə yıxır, başını kəsir. Dərisini soyub əti biçdiyi dərzlərin altına yığır.

Bir müddətdən sora cöngə sahibi qan-tər içində oğrunun yanına gəlir, cöngənin qaçdığını qonşusuna danışır. Qonşusunun anda inandığını bilən oğru halını pozmadan ayağa qalxır, orağını əlinə alıb, zəmini biçə-biçə and içir:

And içim, arpa biçim,
Boynunda bağı cöngənin.
Bu əti, bu dərisi,
Tökülüb yağı cöngənin...

Oğrunun kələyini başa düşməyən dindar kişi qonşusunun “andına” inanıb deyir:

– Ay qonşu, sən Allah, and içmə, inandım...

## 204. TƏRƏKƏMƏYLƏ MOLLANIN DOSTLUĞU

Tərəkəməynən molla dost olur. Bir gün bu tərəkəmə mollaya qonaq gəlir. Yeyillər, içillər, axşam olanda tərəkəmə getmək istiyir. Molla deyir ki, bu gejə qal, qonağımsan. Tərəkəmə deyir ki, yox ey, qala bilmərəm. Qoyunum var, malım var. Onları canavar yeyər, qurd qırar. Molla deyir ki, narahat olma, mən elə bir dua yazaram, qurd-quş sənin mala-qoyuna yaxın gələ bilməz. Tərəkəmə çox israr eliyir ki, gedə. Molla deyir məsuliyyət məndədir, mən cavabdehəm, sənin malına-qoyuna heş nə olmuyacax. Nəysə, tərəkəmə razı olur, gecəni qalır. Səhər tezdən durur narahat halda gedir. Gedir görür ki, mal-

qoyun – hər şey salamatdı, amma bunun bir sürü iti doğuf. Bu itdər də bütün günü aj qaldığından yüyürür bunun üstünə, yemək istiyirlər, əlinə-ayağına dolaşıllar. Tərəkəmə üzünü tutur bulara, deyir:

– Cəhənnəm olun, neynirəm sizi saxlıyıb. Sizi saxlıyınca bir mollanı saxlasam, onnan sərfəlidi.

## 205. ÖZÜM İNANMIRAM

Tərəkəməynən molla dost olur. Bir gün molla tərəkəməyə qonaq gəlir. Tərəkəmə də qoyunlarını çayın bu tərəfində otarırmış. Molla görür kü, bu tərəfin otu azalıfdı. Qoyun otduyuf qutarıf. Deyir:

– Niyə keçirmirsən qoyunu o tərəfə? O tərəf yaxşı otduxdu.

Çoban deyir ki, nətər keçirim? Körpü yoxdu. Molla deyir ki, onda mən sənə bir dua yazaram, səhər özün də, qoyunun da sağ-salamat keçərsən o üzə. Çoban deyir:

– Yaz, lap yaxşı. Mən də bir erkək kəsərəm, kabab eliyif yeyərik.

Gejə molla bir dua yazır, verir çobana. Axı çobannar tez durur. Səhər tezdən molla yatanda çoban durur. Gəlir qoyunu yığır, keçir o taya: nə özü batır, nə qoyunnar. Bir azdan molla durur baxır ki, nə çoban var, nə qoyunnar. Gəlir görür ki, çoban qoyunları keçirif çayın o üzünə, özü də bir ojax qalıyıf kabab eliyir. Çoban mollanı görüf buna əl eliyir ki, keş gəl, lap vaxdında gəlmisən, kabab hazırdı. Molla qayıdır ki, ay evin yıxılsın, nətər keçim? Çoban deyir ki, ə nətər yanı, nətər keçim? Bəs məni keçirdin, özün keçə bilmirsən? Deyir:

– A başa dönüm, həylə dəyil ey. Sən inanmağa baxma. Axı yazdığıma özüm inanmıram.

## 206. GÖR ARVADLAR NƏ DEYİR

Kişi axşam evə gəlir. Qapıdan içəri girəndə arvadı deyir:

– A kişi, xəbərin var? Deyirlər, səni tutacaqlar.

Kişi deyir:

– Kim deyir, ay arvad?

Deyir:

– Bəs bulağın başında arvadlar danışırdı.

Üstündən bir gün keçir, kişini, doğrudan da, tutub həbsə salırlar. Arvad ərinə baş çəkməyə gələndə deyir:

– Kişi, bəs xəbərin var? Deyirlər sənə on il iş verəcəklər.

Əri deyir:

– Kim deyir, ay arvad?

Deyir:

– Bəs bulağın başında arvadlar danışırdı.

Doğrudan da, məhkəmə olur, kişiyə on il iş kəsirlər. Bir müddətdən sora arvad ərinə baş çəkməyə gedir. Deyir:

– A kişi, xəbərin var? Deyirlər bir ildən sora səni azad eliyəcəklər.

Deyir:

– Ay arvad, kim deyir?

Deyir:

– Bəs müstəntiq deyir.

Əri deyir:

– Müstəntiq qələt eliyir. Sən bulağın başına get, gör arvadlar nə deyir?

## *ŞUŞA LƏTİFƏLƏRİ*

### 207-208. ABDAL QASIM

Bir dəfə Abdal Qasıma bir namə verillər ki, apar ver filan xana. Bu da naməni aparıb o xana verəndə xan buna baxıb deyir:

– Bah, bah, nə yaman gündəsən ə. Bir adam tapmırdılar göndərməyə, səni göndəriblər?

Deyir:

– Xan sağ olsun, adam vardı adam yanına göndəriblər, məni də sənin yanına göndəriblər.

**208.**

Abdal Qasım çıxıb hərrənirmiş. Görüf ki, bir erməni atnan gedir. Atın da yükü var. O dəyqə bilir ki, belə yornux getməkdə bu, dəərmannan gəlir. Meşənin içində dərə varmış, ordan keçib gedəsiymiş. Gedir öz atın bağlıyır bir ağaca. Lütdənir, palçığı götürür sürtür sifətinə, bədəninə. Yavaş-yavaş gəlir ermənin atının başınnan noxtasın çıxardır, ata bir şapalax vurur, keçirdir öz başına. Erməni də əlini dalında tutub gedir. Dərəni keçmək isdiyir ki, açıxlığa çıxa. Abdal Qasım ayağını diriyir yerə, dayanır. Erməni ha dartır, görür gəlmir. Qayıdır dala baxır, bunu görəndə noxtanı tulluyur, qaçır kəndə. Hay salır ki, dəyirmannan gəlirdim, filan yerdə atım oldu eybəcər bir şey. Deyir, ə, o Abdal Qasımdı.

Nəysə, gəlir bunu tapır. Deyir:

– Qasım, atın üstündə olan un sənin olsun, amma atı, saa qurban olum, verginən, gedim uşaqlarımı saxlıyım.

Deyir:

– At otdaxdadı, sabah günorta gəlginən bizə, uşağa deyərəm atı gətirər, gəlib apararsan.

Deyir:

– Yaxşı.

Gəlir evə, qonşunu çağırır. Deyir ki, səhər həyətdə qoz ağacının divində surfa saldırajam. Erməni gəlibdi atın dalınca, atı da satmışam. Onu oturdajam qozun divində. Elə əlin çörəyə aparanda beşatılannan onun başının üstünnən güllə atginən. O vaxta kimi atginən ki, durub qaçsın.

Nəysə, erməni gəlib çıxır. Deyir:

– Kirvə, yoldan gəlirsən, gəl otur, çörək yeyək. Uşaq da gedib atı gətirməyə, at gəlsin, götür get.

Arvada göz eliyir, arvad gətirir qozun divində surfanı açır. Ermənini oturdur qozun divində. Ermənyə deyir ki, "pismillah" eləginən. Erməni əlini çörəyə aparanda bunun təpəsinin üstünnən bir güllə atılır. Deyir:

– Ara, bu nədi?

Deyir:

– Ə, qonşudu, qələt eliyir, çörəyi yeginən.

Bu bir də əlin aparanda bir dənə də güllə atılır. Deyir:

– Qasım kirvə, bu nədi belə?

– Ə, – deyir, – bunun dünənnəri bir dənə erməni qonağı gəlmişdi, onu mən vurmuşam gülləynən. İndi o bilir ki, sən də ermənisən. Səni vurmaq isdiyir ki, əvəz-əvəz olsun. Deyir:

– Ara, atı da isdəmirəm, mən getdim.

## 209. MƏŞƏDİ BƏYLƏRİN DƏFTƏRİ

Məşədi Bəylərin adı Xanlıx Muxtarnan bağlıdı. Məşədi Bəylər gəlif ona deyir ki, isdiyirəm bir çayxana açam, mənə min manat pul lazımdı. Gedim çayxananı açım, bir ilin tamamında sənin pulunu qaytararam. Bu da götürür min manat buna pul verir. Məşədi Bəylər fikirrəşir ki, min manata mən gedim çayxananı açım, alverim olajax-olmuyajax. Onnansa, əlimdə sərmayə varkən gedim İranda alver eliyim, gətirim malı satım, iki-üç min pulum olsun. Həm çayxananı düzəldim, həm ayiləmi saxlıyım, Xosuun da pulun vaxdında verərəm. Gedir orda hərrənir, fırranır, pulun başına daş salır. Xırda-para şey-şüy alır, gətirir. Bunu da qarşılıyıllar, Bazarbaşında çayxanada oturur. Duruf gedəndə elədiyi bazarrığı çayxanada qoyur. Qayıdıf gəlir, görür ki, bazarrıx da yoxdu.

Səhər vaxt-vədədi, dilxor gəlif dayanır tükanın qarşısında. Xanlıx Muxtar gəlir. Vədə yeridi, pulu ödəməlidi. Xanlıx Muxtar gələndə Məşədi bəylər ağır söz deyir. Heç kəs cürət eliyif Muxtarın qabağında dayana bilmədiyi halda, bu ağır söz deyir. Yanındakı qoçular isdiyir Məşədi Bəyləri vuralar, Xanlıx Muxtar deyir:

– Yox ey, dayanın görək. Bu o cürətin yiyəsi döyül mənə söz desin. Bunun bir əmması var.

Deyir:

– Söz atma, pulu verginən, hesabımızı çəkək.

Deyir ki, bəs belə bir əməl eləmişəm. Xanlıx Muxtar pulu ona bağışdıyır, min manat da əlavə pul verir ki, bunu sənnən isdəmiyəjəm, get çayxananı aşginən. O vaxdan olur çayçı Məşədi Bəylər.

Özünün başına gələn əhvalatı da bir dəftərə yazır ki, mən belə bir axmax hərəkət eləmişəm. Sora Şuşada kim helə səyf hərəkət eliyirdisə, onun adını dəftərə salırdı.

## 210. MƏKTUB MƏSƏLƏSİ

Kimin bir əhvalatı olur, otuz qəpik verif Məşədi Bəylərin dəftərinə adını yazdırırdı. Şuşada musiqi məktəbinin direktoru var idi, Oqtay müəllim. Bu gəlir mədəniyyət nazirliyinə, məktub gətirir. Maşınnan düşüb deyir:

– Beş dəyqə gözdüyün, domsovetə qalxıram, məktubu verim nazirə, gəlim.

Bu minib liftə, lift qalxıb ona, düşüb birə. Qalxıb ona, düşüb birə. Bir saat yenib qalxır, yenib qalxır. Birdən qapı açılanda nətər çıxıb qaçırsa, məktub vermək də yadınnan çıxır. Gəlir ki, maşın nə gəzir, çoxdan çıxıb gedib. Gəlib Şuşada danışır. Deyirlər, otuz qəpik ver Məşədi Bəylərə, adı dəftərə yazdır. Kimin heylə fəaliyyəti olurdu, gəlib Məşədi Bəylərin dəftərinə adın yazdırırdı. Məşədi Bəylərin də dəftərinə adın düşdüsə, deyirdi, heç harda danışmıyajam. Şuşada Bazarbaşı meydanı vardı, bir də çayxana. Bir Bazarbaşında danışajam, bir də çayxanda. Orda da bir adama danışdı, bütün şəhərə yayılırdı.

## 211. MADARLAR CƏMİYYƏTİ

Fəaliyyəti olannar adını Məşədi Bəylərin dəftərinə yazdırırmış. Deyillər ki, əşi, elə bunu bir cəmiyyət halına salax. Bunun ağlına gəlif ki, bir cəmiyyət yaratsın, adını da qoyur Madarrar cəmiyyəti.

Bir gün bir neçə müəllim birləşir, deyillər ki, gedək bazara qoyun alax, kəsək, bazar qiymətinnən ucuz olsun. Gedif bir qoyun alıllar, gətirif alışma eliyillər, bölüşüllər. Bölüşəndə kilosu buların hərəsinə altı manatdan düşür. Baxıllar ki, bazarda kilosu elə dörd manat idi da. İrəli düşmək əvəzinə geri düşüllər. Bulara da deyillər ki, gedin düşün Məşədi Bəylərin dəftərinə. Dəftərə düşməyin də qiyməti otuz qəpik idi. Cəmiyyətin də iki yüzə qədər üzvü olufdu. Dəftərə adı düşənnər həm də cəmiyyətin üzvü idi.

## 212. DUMANLI TƏBRİZ

Məşədi Bəylərə deyiblər ki, cavanlıq nədi, qojalıq nədi? Deyir:

– Cavanlıq odur ki, yoncanı ata yedizdirirlər. Qaçır o tərəfə, bu tərəfə, minir bir-birinin belinə, onnan ləzzət alır. Bu cavanlıqdı.

Deyillər:

– Bəs qojalıx nədi?

Deyir:

– Qojalıx odur ki, gözü suyu axır tökülür burnu suyuna, burnu suyu da tökülür ağzı suyuna, olur dumanlı Təbriz.

## 213. ŞUŞA LOTULARI VƏ MƏŞƏDİ ABBAS[54]

Məşədi Abbas olur Şuşada. İndiki dilnən desək Şuşanın icra başçısı olur. Lotular gəlib Məşədi Abbasa deyirlər ki, Məşədi Abbas, Mircəfər Bağırov gəlifdi, Yevlaxda zonalnı iclas keçirir, səni də dəvət eliyib ora. Bunun da palturqa maşını varmış. Minir ona, çıxıf gedir Yevlağa. Bu, şəhərdən çıxan kimi şəhərdə xəbər yayılır ki, bəs Məşədi Abbas gedəndə Ağa körpüsündə avariya eliyif, ölüf.

---

[54] Abbas Haşım oğlu Rzayev 1878-ci ildə Şuşa şəhərində anadan olub. Keçən əsrin əvvəlində maddi çətinlik üzündən doğma yurdunu tərk edib Bakı şəhərinə gəlmişdir. 1905-ci ildə İranda Səttarxanın rəhbərliyi ilə məşrutə inqilabi baş qaldıranda Bakıdan, Tiflisdən, Gəncədən, Şuşadan və başqa yerlərdən adamlar seçilib Təbriz sosial-demokratlarının xahişi ilə iranlı mücahidlərə köməyə göndərilirdi. 1905-ci ilin mayında RSDFP-nin Bakı komitəsinin göstərişi ilə İrana yola düşən ilk könüllü dəstənin içində Molla Abbas da vardı. İranda göstərdiyi igidliyə, döyüşlərdə çıxardığı ad-sana görə xalq ona Mücahid Abbas adını vermişdir. İranda olduğu vaxt Məşhədi ziyarət etdiyinə görə yoldaşları onu Məşədi Abbas deyə çağırır.

Məşrutə inqilabı məğlubiyyətə uğradıqdan sonra Məşədi Abbas geri çağrılır və 1920-ci ildə Ağdam icraiyyə komitəsinə üzv seçilir, daha sonra nahiyyə icraiyyə komitəsinə sədr təyin olunur. 1943-1946-cı illərdə Şuşa rayon icraiyyə komitəsinə, 1946-cı ildə isə Ağdam şəhər soveti icraiyyə komitəsinə rəhbərlik etmişdir. Rayon ictimaiyyətinin sevimlisinə çevrilmiş, Ağdamın şəhər mərkəzi kimi formalaşmasında mühüm rol oynamışdır. Məşədi Abbas Rzayev 1954-cü ilin oktyabrında vəfat etmişdir. Məşədi Abbasın başına gələn baməzə hadisələr, onun hazırcavablılığı lətifəyə çevrilərək şuşalıların hafizəsində bu gün də yaşamaqdadır.

Eşidən-bilən yığılır bunun evinin yanına. Deyillər, ə, meyidin dalınca gedən varmı? Deyillər, hə, gedən var. Məşədi Abbas da gəlir Yevlağa. Yevlağın birinci katibiynən görüşür. Soruşur Mircəfər müəllim hardadı? Bu deyir, nə Mircəfər? Bu sırazı bilir ki, lotular bunu alladıf. Da özün o yerə qoymur, deyir:

– Zarafat eliyirəm. Nə var, nə yox.

Bir az ora-bura. Bir tikə bunnan çörək yeyir, qayıdır geri. Ölü yerinə yığılannardan biri o birinə deyir ki, ayə, mən ajınnan öldüm. Gedim evə bir tikə çörək yeyim, meyidi gətirəndə məni səsdiyərsən, gələrəm. Bu gəlir Bazarbaşınnan dönəndə Məşədi Abbas da şəhərə girir. Məşədi Abbası görəndə çörüküf deyir:

– Bay, pismillah. Bay, pismillah.

Pismillah deyəndə Məşədi Abbas göydə tutur ku, bunu Yevlağa göndərən bunu həm də öldürüb. Yoxsa maa niyə pismillah dedi? Deyir:

– Evin yanına çox adam yığılıf?

Deyir:

– Hə.

Deyir:

– Get denən dağılışsınnar, gəlim girim evə.

Da pramoy ey, soruşmur niyə pismillah dedin, niyə belə oldu?

## 214. DOJD PAŞYOL, MOST UŞYOL

Bir körpü tikirlər, bu körpünü sel gəlib aparır. Mənim kimi mühəndis olsa, sicilləmə bir şey yazar, vəziyyəti tam təsvir eliyər, onu da teleqrama qoşub mərkəzə göndərər. Məşədi Abbasın da savadı olmuyub, ibtidai məktəbi qutarıb. Rus sekretarşasını – teleqram vuranı çağırıb deyir:

– Aaz, peredavay. Dojd paşyol, vada prişyol, most uşyol.

## 215. ARILAR VIZ-DIZ

Məşədi Abbas savadsız olub, amma yaxşı işgörən idi. Şuşada ispalkom işləyəndə Rusiyadan komissiya gəlir. Bunları aparır ki, arı

təknələrini göstərsin. Özü də rus dilini yaxşı bilmirdi. Arıları göstərir, deyir:

– Balşoy yaşik, malenkiy deşik, arılar vız-dız.

## 216. UJE MOSKVA ZNAL

Bir dəfə Məşədi Abbasdan anonim məktub yazıllar. Moskvadan yoxlama gəlir ki, bunu yoxlasınlar. İki-üç nəfər Moskvadan gəlir, bir on nəfər də Sekadan bulara qoşulur. Bizimkilər axı hazırdılar gələn adama başı kəsib verməyə. Düşüllər buların yanına, gəlillər raykomun yanına. Raykom qorxur. Deyir:

– Axtardığınız adam mən döyüləm. İspalkomun binası ordadı, gedin Məşədi Abbasın yanına.

Bu mamentdə Məşədi Abbas çıxır, görür iyirmi adam buna tərəf gəlir. Arif adam olur. Baxır bulara, deyir:

– Ə, şto, priyexali? Zdes lyudi verblyud kuşayet, otsuda Bakı neznayet. Bedniy Məşədi Abbas adin dıbır kuşal, uje Maskva znal da.

## 217. DOQQUZ AY DENƏN, QURTARSIN

Cabbar Qaryağdıoğluynan Abbasqulu ağa həmişə bir yerdə kansertə gediflər. Abbasqulu ağa gözəl tar çalan oluf. Yevlaxda bir yerdə toydadılar. Cabbar Qaryağdıoğlu oxuyur, Abbasqulu ağa da tarda çalır. Segahın bir hissəsini qutaranda ay yarım, ay yarım deyillər. Cabbar Qaryağdıoğlu “ay yarım, ay yarım” deyəndə Abbasqulu ağa tarı qoyur stolun üstünə, çalmır.

Cabbar deyir:

– Ə, Abbasqulu, başına dönüm, noldu?

Deyir:

– Çalmıram.

Nə qədər deyir, deyir:

– Çalmıram.

Deyir:

– Niyə çalmırsan, səbəb nədi? Camaat başımıza yığışıf, bizi döyəllər, yad yerdi. Noluf ki, dərdin nədi?

Deyir:

– Nolajax ki. Altı dəfə “ay yarım” deyənəcən bir dəfə “doqquz ay” denən qutarsın da.

## 218. ADI NİYƏ XƏRİTƏDƏ YOXDUR?

Bir dəfə Abbasqulu ağa gedif Yevlağın Qarxun kəndinə toya. Arabir oynuyannar deyir ki, yaxşı çal. Deyir:

– Baş üsdə.

Bir də deyillər:

– Bura Qarxundu ey, yaxşı çal.

Genə deyir:

– Baş üsdə.

Bir də deyillər ki, bura Qarxudu ey, yaxşı çal. Tarı qoyur yerə. Deyir ki, bura haradı? Deyir:

– Qarxun.

– Qarxunda şkola var?

Deyir:

– Qarxun ola, şkola olmuya?

– Şkolada karta var?

Deyillər:

– Var.

Deyir:

– Onda o kartanı bura gətir.

Nəysə, kartanı gətirdir. Sərir ədəb-ərkannan stolun üstünə. Tarın çanağınnan tutur, aşığıynan kartanın hər yerin gəzir. Deyir:

– Ə, bu kopoolun Qarxunu məşhur yerdisə, bəs burda adı niyə yoxdu?

## 219. ONLARLA İŞİN OLMASIN

Abbasqulu ağa yeddi qardaşın bir bacısın qaçırdır, bunnan evlənir. Bir il keçənnən sora isdiyir ki, qayınnarıynan barışıx eləsin. Bir faytonçu tutur. Faytonçuya deyir:

– Burdan Bərdəyə neçəyə gedərsən?

Deyir:

– Əlli manata.

Deyir:

– Yüz manat verirəm, amma yolboyu məni tərifləyərsən.

İndi bunnar ayiləynən gedillər. Ağa körpüsünə çatanda gopa basır ki, nə vaxtsa ermənilərnən bekara narazlıxları oluf, dalaşıf-eliyiflər. Xan bağına çatanda bu narazılıx əməlli başdı davaya çevrilir, neçəsin öldürməyindən, Əsgəranda neçəsin qırmağından dəm vurur. Bu qayda ilə yolboyu qıra-qıra, dağıda-dağıda gəlir. Bərdənin körpüsünün üstündə bir də danışanda arvad deyir:

– Abbasqulu, sən allah, bura kimi nə qədər qırdın, dağıtdın, bəsdi. Burdan belə bizim qohumlardı, olarnan işin olmasın.

## 220. MƏN TAPMIŞAM

Abbasqulu ağa bəy oğlu oluf. Evdə nə var hamısın satıf, qumarda uduzuf. Fəhlə işdiyə bilməz, başqa şey eliyə bilməz. Bunun yoldaşı ağıllı qadın olur. Deyir:

– Abbasqulu, bir tar alax, yavaş-yavaş öyrən, sən də camaat kimi toyda-zadda çalarsan.

Ağlına batır, alır. Əlini qoyur pərdənin üstünə, mizrağı götürür vurur. Arvad gedir gəlir, gedir gəlir, görür bu, elə barmağını qoyuf bir yerə, vurur. Deyir:

– Ay Abbasqulu, mən o biri çalannara baxmışam, barmaxların aşağı-yuxarı hərəkət elətdirillər.

Deyir:

– Arvad, səs salma, olar axtardığın mən tapmışam.

## 221. YIXILSAYDIM, BELƏ OLACAQDIM

Abbasqulu ağa bir gün Bərdəyə toya gedirmiş. Səhər imiş, hava da bir az çiskinni imiş. Ağdama çatanda faytonçuya deyir:

– Saxla burda, girim bazara.

İndi özünə nəsə alajeymiş. Girif bazara, ayın-oyununu alıfdı. Çölə çıxanda faytonçu da faytonnan düşüf bunu gözdüyürmüş. Gələndə bunun ayağı sürünçür, yıxılmax isdiyəndə faytonçu bunun qolunnan tutur ki, yıxılmasın. Nəysə, bunu otuzdurur faytona. Bir az gedillər, Uzundərəyə çatanda... Abbasqulu ağa da lal-dinməz adam imiş. Rəiyətnən-zadnan çox söhbət eləməyi sevmirmiş. Faytonçu da söhbət eləmək isdiyir. Deyir ki, ağa, yaman səni tutdum ey. Deyir:

– Bala, çox sağ ol, Allah ömrünü uzun eləsin.

Bir az da gedillər. Qərbəndə çatanda faytonçu genə deyir:

– Ağa, Allaha and olsun, yıxılseydin, qolun qırılajeydi, qılçan qırılajeydi.

Gənə buna deyir ki, sağ ol, bala, sağ ol. Allah əvəzin versin. Gənə dinməz öz xəyalına dalır. Bir az da gedəndə faytonçu söhbəti intensivləşdirir. Deyir:

– Ağa, Allaha and olsun, yıxılseydin, bilmək olmazdı, başın-zadın da əziləjeydi, – deyəndə deyir:

– Bala, çox sağ ol.

Bərdənin yaxınnığına çatanda görür bir dənə gölməçə var. Faytonçu ağzını açıf "ağa" deyəndə deyir:

– Bir dəyqə saxla.

Faytonnan özün lapbıltıynan tulluyur gölməçənin içinə. Durur ayağa, üstü-başı palçıx. Deyir:

– Qodux kopoğlu, yıxılseydim, belə olajeydi. Daa bunu nə qədər deyirsən maa.

## 222. SƏNİN ZİBİLƏ DÜŞMÜŞƏM

Allahsızdar dövrüdə camaata allahsız kartı paylıyırdılar ki, bu, dini, Allahı tanımır da. O dövrdə Abbasqulu ağanı məjbur eliyillər ki, gir məscidin içərisinə, tar çal. Bu girir ora. Məscidin xofu bunu tutur, çala bilmir. Qayıdır gəlir. Zərərin, xeyirin hesablıyır. Deyir: "Girif çalsam, Allah məni zəlil eliyər, neyniyər. Çalmasam, bular məni bir az döyəjəhlər-eliyəjəhlər". Onun qazancından bunu qazancın hesablıyır. Gəlif deyir ki, mən çalmıram. Deyillər, çalma-

san, səni döyəjeyih. Deyir, neynirsiz eliyin ey. Mən allahın evinə girif tar çalmaram.

Nəysə, bunu çatdırıllar oranın böyüyünə. Ordan deyillər ki, iyirmi dörd saat ərzində şəhəri tərk eləsin. Tarı götürür, hak-hesabı götürür. Gəlir Gəncə qapısına çatır, ordan da ağzıaşağı getməlidir. Ordan məscidin minarələri görünür. Çönür deyir:

– Ay Allahın məscidi, mən burdan getməzdim, bir Allah şahiddi ki, sənin zibilə düşüb gedirəm.

## 223. HİTLERİN BAŞINI KƏSİB GƏTİRƏCƏKSƏN

Müharibə ərəfəsində muzukantları çağırıllar ki, Yevlaxda vaqonları müşayət eləsinnər. Abbasqulu ağa da gəlir. Şuşadan çağrılan adamlar da atpravkaya ordan gedillər. Bir nəfər adam orda başdıyıf sinəsinə döyməyə ki, Hitleri, görün, gedif neyniyəjeyih, nağarajeyih. Abbasqulu ağa da qulağ asır. Gedif bir torba götürüf gəlir. Deyir:

– Ə, filankəs.

Deyir:

– Bəli, ağa.

Deyir:

– Bunu özünnən götür, mən bilirəm ki, heş kimin bajarmadığı işi sən bajarassan. Hitlerin başın kəsif gətirərsən, yolda iylənər. Bu duzu tökərsən onun üstünə, iylənməsin.

## 224. AĞLI-QARALI QUŞ

Çalğı çalanda Xan Şuşinski oxuyur ki, Qalada bir quş var ağlı-qaralı. Abbasqulu ağa tarı qoyur yerə, deyir:

– Ədə, denən ki, saxsağan var da. Daa nə ağlı-qaralı salmısan.

## 225-227. DAYIN QURBAN

Polisin həyətində qoz ağacı vardı. Bir gün uşaxlar bu qozu daşdıyıflar. Soruşuflar ki, bunu kim daşdıyıf? Deyiflər, filankəs.

Rəis serjant Dayın Qurbana deyif ki, get onu tut, gət bura. Uşağın da atası türmə rəisidi, Dayın Qurban bunnan bir az ehtiyat edir. Bu gedir ki, uşax futbol oynuyur. Deyir:

– Dayın qurban, bəri gəl.

Deyir:

– Nədi?

Deyir:

– Yoldaş Qasımov göndərif məni, dedi get, ona denən, gəlsin bir çay içək.

Bu da deyir:

– Mən hara, yoldaş Qasımov hara.

Deyir:

– Bala, dayın qurban, mən bilmirəm. Yoldaş Qasımov dedi ki, get gətir, onnan çay işmək istiyirəm.

Bu da deyir:

– Əşi, mən futbol oynuyuram. Qoy onda gedim bir əynimi dəyişim.

Gedib evə paltarını dəyişir, düşüb bunun yanına gəlir. Kabinetə girəndə Dayın Qurban bunun yanına bir təpik vurur. Deyir:

– Rəis, sənin də ananı söydü, mənim də anamı söydü bu oğraş.

Bu da üstün çırpıf:

– Ə, demədin yoldaşı Qasımov dedi gəlsin, bir çay içək?

**226.**

Dayın Qurban bir gün gəlif raddoma. Görür gəlini doğur, səsi çölə gəlir. Bu çöldən deyir:

– Dayın qurban, bilirəm çətindi, güj ver.

O vaxtdan adı qalıfdı Dayın Qurban. Sora buna deyiflər:

– Ə, hardan bilirdin çətindi, heylə ürək-dirək verirdin?

**227.**

Milisoner Bəhmən milis rəisi idi, Turşsuda at saxlıyırdı. Atın adı da Balon olub. – Mən özüm o atı gözümnən görmüşəm. Cıdır düzündə at çapırdılar, onnan güjdü at yoxuydu. – Rəis Bəhmən

zəng eliyib ki, at sidiyə getmir, neynirsiz eliyin, at sağalsın. Baytarzad gətiriblər. Dayın Qurban da orda olar. Gecə saat üç, dördün yarısında Dayın Qurban zəng eliyər rəisin evinə. O da elə bilər trivoqadı, hövlənak yuxudan qalxar. Dayın Qurban deyər:

– Rəis, dayın qurban, dur ayağa.

Deyif:

– Nədi?

Deyif:

– Bəs gözün aydın olsun, at işədi.

## 228-230. LOTU ŞAHİN

Bir günnəri Şahin xəsdə toyux alır. İsdiyir ki, aparıb bazarda satsın, beş-altı manat pul qazansın. Toyuxlar hamısı başın sallıyıf duruflar. Deyillər:

– Ay Şahin, bu nə toyuxdu almısan? Bular xəsdədi.

Deyir:

– Ə, bu dilxor sortudu, buların cinsi belədi.

### 229.

Bərdədə Bambılı Nadir olur, abaxeist işdiyirdi. Şahin də içib keflənəndə gəlif kruqda durardı, deyərdi: "Nətərsən ə, Bambılı Nadir".

Bir günnəri Nadir hamını yığır çayxanaya, ona bambılı deyənə söyüş qoyur.

Bir gün lotular yığışmışmış çayxanaya. Görüllər ki, Şahin gəlir, özü də içib, keflidi. Deyillər, sən öl, gəlib buna bambılı deyəjək. Hamıynan görüşür, buna əlini uzadanda bu da əlin uzadır. Deyir:

– Boy, nətərsən ə, Əbdürrəhman Vəzirov.

### 230.

Uçaskovu vardı, bazara baxırdı. Hər dəfə bazarrığ eliyəndə Şahinə bir manat verirdi ki, bunu apar bizim evə. Bir gün uçaskovugilə qonax gəlir. Bazardan hər şey alıf Şahinə verir, deyir ki,

bunu apar tez ver, arvad bişirsin. Bu da baxır ki, meyvəsi, əti – hər şeyi var, öz evlərinə aparır. Uçaskovu gedir ki, ay arvad, qonax var, bəs Şahinnən hər şeyi göndərmişdim. Deyir ki, gətirmiyif. Gəlif tutur Şahini, deyir:

– Ə oğraş, bazarrığı neynəmisən?

Deyir:

– Ə, hər gün sizdə, bir gün də bizdə.

## 231. VASQAN ƏLİŞ

Aslanov maşınnan gedirmiş Turşsuya tərəf. Əliş kişi də yolun qırağında durmuşmuş, maşın gözdüyürmüş. Aslanov deyir:

– A kişi, burda niyə durmusan?

Deyir:

– Başına dönüm, gedəjəm İmanqululara, maşın yoxdur.

Deyir:

– Adın nədir?

Deyir:

– Əliş.

Deyir:

– Gəl otur.

Yolda Aslanov deyir:

– Kəndizdə neçə Əliş var?

Sayır ki, Demi Əliş, Eşşək Əliş, Qalyan Əliş. Aslanov deyir:

– Bəs sənin adın nədi?

Deyir:

– Daa nə deyim ki. Mənə də Vasqan Əliş deyillər.

Vasqan da, surfadan uzaq olsun, itə deyillər.

## 232. MƏNİMKİ DƏ NOLDADI

Bir dəfə Qəşəm Aslanovun katib işlədiyi vaxtlar idi. Onun şoferi də bizim kənddən idi. Gedirlər bizim kəndə. Vasqan Əliş də eşşəynən gedirmiş. Nəbi buna deyir ki, yoldaş katib, çox baməzə adamdı. Zarafat eləmə, cavabını qaytarar, yaxşı olmaz.

Nəysə, gəlir, eşşəyin yanına çatanda maşını saxladır. Deyir ki, ağsakqal, benzinim qutarıb, bəlkə benzinin ola? Bu da eşşəkdən düşür. Heyvanın quyruğun qaldırır yuxarı, deyir:

– Yoldaş katib, vallah, mənimki də noldadı.

## 233. SƏNİN DƏ FATİHƏNİ VERƏCƏYƏM

Əlişnən Babış bir günnəri gedillər hüzür yerinə. Oturanda Babış isdiyir ki, mollaya sataşsın. Deyir:

– Molla əmi, fatihə vermişkən mənim bu dostuma da fatihə ver.

Molla hazırcavab olur. Deyir:

– Narahat olma, sənin də fatihəni verəjəm.

## 234. İTİM ÖLÜB, SİZİN KİMİ KÜÇÜKLƏRİ QALIB

Babış kişini Şuşada çox gözəl tanıyıllar. Ömrünün axır vaxtlarında da mağaza işlədirdi. Bir gün Şuşaya gəlir. Şuşada lotu uşaqlar isdiyif bunu dolasınnar. Deyiflər, bu kişiyə sataşajeyih. Biri Babışı tanıyırmış. Deyif:

– Ə, o kişiyə sataşmıyın. Sataşajaxsınız, sizi bağlıyajax. O kişi elə-belə kişi dəyil.

Deyif:

– Yox ey, nə danışırsan, kəntçinin birinə biz indi söz deyə bilmiyəjeyik?

Gəlif buların yanınnan keçəndə deyif:

– Salamməlöyküm.

Deyif:

– Əlöyküsalam.

Deyiflər:

– Dayı, başın sağ olsun, deyillər itin ölüfdü, ona ehsan vermisən. O qədər də fikir eləmə, qəm yemə.

Belə deyəndə Babış görüf ki, bunu doluyullar. Deyif ki, bala, çox sağ olun mənə başsağlığı verdiyiniz üçün. Mən nəyin fikrin eliyəjəm? İtim ölüf, sizin kimi qüçühləri qalıf da. Sabah böyüyüf olajaxsız it.

## 235. ONA O DA AZDIR

Bir dəfə gəlib Xan Şuşinskiyə deyiflər ki, qardaşın Allahyarı partiyaya keçiriblər. Deyib:

– Boyun yerə soxum onun. Ona o da azdır.

## 236. DODU İSLAM

Dodu İslam kamer yamıyandı. Bakıdan bir maşın gəlir Şuşaya. Dodu İslam görür ki, şofer xamdı. Şofer yaxınnaşıb buna deyir ki, təkər buraxıb. Deyir:

– Hara gedirsən?

Deyir:

– Şuşaya.

Götürüb o biri təkərlərin də havasın buraxıb. Bakıdan gələn şofer deyir:

– Əşi, dəlisən, nəsən? Neynirsən?

Deyir:

– Ay oğul, bəs Şuşaya gedirsən ey. Şuşanın havasınan Bakının havası düz gəlməz.

## 237. YAMAN SEYRƏKDİR

Amil türmədə diş texniki idi, amma hamı buna həkim deyirdi. Aftobusa minəndə hamı buna deyir: "Həkim, pulun çatıb, həkim, pulun çatıb". Doktor Rəşid də baş həkimin müavindi. Bu da inciyir ki, mən doktor ola ola, mənə demirlər, elə buna həkim deyillər.

Aziran türmədə işdiyəndə bir qohumu ölür, iş yoldaşları yığışıb gedillər Şüşükəndə onun yasına. Bularda da qəbirstannıxda yeməkiçmək verillər. Amil də yeyib-içməyin xatirinə gedir. Buna deyiblər:

– Doktor, qəbirstannığımız xoşuna gəlir?

Deyir:

– Çox gözəl qəbirstannıxdı, amma yaman seyrəkdi.

## 238. HAMBAL İBİŞ

Şuşada Hambal İbiş varmış. Başına əmmamə qoyarmış, əmmaməsin çıxaranda hər dəfə lotular bunu oğurruyarmış. Bir gün oturur Musayətin çayxanasında. Başı qaşınır. Başı qaşınanda papağın üstünnən qaşıyır. Lotular böyürdən deyir:

– A İbiş kişi, papağını çıxart, başını qaşı dana.

İndi bu bilmir nə cavab versin. Deyir:

– Ə, sənin yanın qaşınanda şalvarını endirif qaşıyırsan?

## 239. KAPİTALI KİM YAZIB?

Şuşada birini partiyaya keçirirmişdər. Su idarəsində işdiyirmiş, adi suçuymuş. Katib bunnan soruşuf ki, harda işdiyirsən ə?

Deyir:

– Suçuyam, yoldaş katib.

Deyir:

– Əşi, suçudu, mən buna nə sual verim? Yaxşı, qoy bir dənə sual verim. "Kapital"ı kim yazıfdı?

Deyir ki, yoldaş katib, vallah, bilmirəm.

– Ə, nətər bilmirsən?

Rəis də oturmuşmuş, mürgülüyürmüş. Deyir:

– Rəis!

Deyir:

– Bəli, yoldaş katib.

Deyir:

– Bu bilmir "Kapital"ı kim yazıf. Bu nə məsələdi? Bunnan məşğul olarsız.

– Baş üstə, yoldaş katib.

Bu çıxan kimi rəis dejurnuya deyir ki, bunu aparın şöbəyə, özüm də gələjəm. Bunu aparıllar şöbəyə, rəis işini qurtarıf gəlir. Çıxır kabinetə, bunu çağırtdırır. Deyir:

– Ə, o nə kapital məsələsidi?

Deyir:

– Rəis, vallah, bilmirəm.

Deyir:

– Ə, katib mənə vaxt verif, mən ona məruzə eləməliyəm. Boyna al.

Deyir:

– Vallah, bilmirəm, rəis.

Deyir:

– Bunu döyün.

Aparıf döyüflər, döyüflər. Axşam tərəfi gəliflər rəisin yanına ki, rəis, boynuna aldı. Deyir hamısını özüm eləmişən. Gejə saat onda rəis katibin evinə zəng vuruf, katib də yatmışmış, arvadı götürüf. Arvadına deyif ki, yoldaş katibə deyin ki, boynuna aldı, "Kapital"ı özü yazıfdı.

## 240. HAZIRCAVAB ŞUŞALI

Bir Şuşalıdan soruşullar ki, Şuşa dəniz səviyyəsindən neçə metr hündürrükdədi? Bu bilmir, amma bulara cavab verməlidi axı. Deyir:

– Vallah, Şuşada dəniz yoxuydu.

## 241. BEZ QULAM

Molla Vəli[55] hara xeyrə-şərə getsəydi, kiçik yaşlı oğlu Qulamı da özü ilə aparardı. Yerlərini heç isitməmiş xörəkpaylayana "Qulama bir boşqab yemək", çaypaylayana "Qulama bir stəkan çay ver" deyirdi. Onun bu qəribə xasiyyəti bütün Qarabağ əhlinə bəlli idi.

Bir gün Yevlaxda yaşayan və Molla Vəlini beş barmağı kimi tanıyan köhnə qalalılardan birinin atası ölür. Mərhumun vəsiyyətinə görə oğlu yas məclisini aparmaq üçün Şuşaya teleqram vurub Molla Vəlini Yevlağa çağırır. Mərasim yiyəsi yaxşı bilir ki, Molla Vəli oğlu Qulamı da mütləq özü ilə gətirəcək. Ona görə rusca yazılmış teleqramın sonuna bu sözləri əlavə edir: "Molla Vəli bez Qulam".

---

[55] Molla Vəli 1852-ci ildə Şuşa şəhərində anadan olub. Ruhani təhsili almışdır. Şuşada dini mərasimlərin əsas təşkilatçılarından və iştirakçılarından biri olub. Deyilənə görə, müasirlərindən heç kəs onun kimi azan verə bilmirdi. XX əsrin otuzuncu illərinə qədər yaşamış Molla Vəli Axundov xalq arasında həm də baməzə adam kimi tanınırdı.

## 242. DİŞLƏRİ AĞARTMA

İki kürd yoldaşlı gedillər meşəyə. Bir qoz ağacına rast gəlillər. Adama bir meşox qoz yığıllar. Qayıdanda yerdən dəmir parçası tapıllar. Kürdün biri deyir, görəsən, bu dəmir parçasıynan adamı vursan ölər? Yoldaşı deyir:

– Gəl yoxluyax da.

Deyir:

– Nədən mərc gələk?

Deyir:

– Adama iki dənə qozdan.

Dəmir parçasıynan bunun başınnan nətər qoyursa, baş bədənnən ayrılır, dişdər qalır ağara. Gəlir, deyir:

– Ə, dişdəri ağartma ey, iki qozu ver bəri.

## 243. HÖKUMƏTLƏ ÖZÜM HESABLAŞARAM

Kürdün biri gedir mağazaya. Satıcıya deyir ki, bu malı ver mənə. Deyir:

– Baş üstə.

Satıcı malı bükür. Kürd deyir:

– Bala, onu neçəyə verirsən?

Deyir:

– On manata.

Deyir:

– Bahadı axı.

Deyir:

– Dayı, canın üçün, bunun hökumət qiyməti doqquz manatdı, mən sənnən bir manat alıram.

Deyir:

– Ay sağ ol.

Vurur qoltuğuna, satıcıya bir manat uzadıb deyir:

– Sən öz bir manatını ala, mən hökumətnən özüm hesablaşaram.

## 244. ALLAHIN XƏBƏRİ YOX İDİ

İki kürd yolnan gedirmiş. Yolda möhkəm yağışa düşüllər. Görüllər qarşıda yekə bir palıd ağacı var. Biri deyir ki, palıd ağacının altına girək, yağışdan daldalanax. Yağış kəsənnən sora gedərik. Yoldaşı deyir ki, mən eşitmişəm, palıd ağacını yaman ildırım tutur. O biri kürd deyir:

– Sən öl, Allahın onnan xəbəri yoxuydu, onu da sən yadına saldın.

## 245. KÜRDLƏ QALALI

Kürtdərnən qalalılar bir-birini həmişə prikola tutublar. Kürdün biri bir sərniş yağ gətirib Qalada satmağa. Qalalılar bunu alladır, yağı, sərnici bunnan alıllar, sərnicin ağzının dəsmalın özünə qaytarıllar. Söhbəti elə fırrıyıllar ki, sərnicin pulu bir yana qalsın, kürd hələ bulara on beş manat da borclu qalır. Kürd gedər oturar birinci yarmanın üstündə, fikirrəşər. Deyər:

– Yaxşı, mən elə bil ki, Qalaya getməmişəm, yağ da aparmamışam. Mən bulara nətər on beş manat boşdu qaldım?

Demək, gedib Laçına çatır, orda başa düşür ki, bunu alladıblar.

## 246. QARMON DEYİL, ATAPLENİYADIR

Şuşa ticarət mərkəzi olub, kürtdər həmişə ora gəlib ayın-oyun alırdılar. Bir uşaq atasına deyir ki, ata, mən qarmon isdiyirəm. Bu kürd də qarmon görmüyüb. Gəlir, girir xoztavara. Deyir ki, bacoğlu, o qarmon neçəyədi? Deyir ki, mən kürdə qarmon satmıram. Bu məhətdəl qalır ki, bu nə bildi mən kürdəm. Gedir, bir həftədən sora qiyafəsini dəyişib gəlir. Deyir ki, bacoğlu, qarmon neçəyədi? Deyir:

– Əşi, mən saa dedim ki, kürdə qarmon satmıram.

Deyir: “Ay allah, bu hardan bildi mən kürdəm?” Bir aydan sora gəlir, genə deyir:

– O qarmon neçəyədi?

Deyir ki, mən kürdə qarmon satmıram. Deyir:

– Saa qurban olum, satma ey, cəhənnəmə sat. Amma de görüm, sən hardan bildin mən kürdəm?

Deyir:

– Ə, o qarmon döyül ey, atapleniyadı.

## 247. ANASI ŞUŞALIDIR

Şuşalılar çox baməzə olur. Kürtdər köç edəndə küçükləri yığırdılar xurcuna, başdarı görükürdü. Gəlib Şuşadan keçəndə şuşalılar başdıyıblar buna sataşmağa. Deyiblər:

– Maşallah, nə çox uşağın var.

Deyir:

– A başına dönüm, anası şuşalıdı.

## 248. ŞUŞALIYLA KÜRDÜN DOSTLUĞU

Şuşalıynan kürd dostluq eliyirmiş. Yaz-payız kürd gətirib Şuşada yavannıx satırmış, qalırmış dostunun evində. Hər dəfə şuşalıya deyirmiş "gəl bizə, saa mən yaxşı hörmət eliyim". Bir günnəri şuşalı gedir çıxır bunnara. Səhər, günorta, axşam gətirir qatıq, süd, pendir qoyur stola. Deyir:

– Yeginən. Bax pendir də bu süddən əmələ gəlir, qatıq da bu süddən əmələ gəlir, şor da bu süddən əmələ gəlir.

Şuşalı görür bu nə heyvan kəsdi, nə bir şey elədi. Elə gündə üş dəfə, dörd dəfə yavannıx verir. İki gündən sora tezdənnən durur, qaçır. Deyir, yaxşı, gələrsən bizə, mən də saa əriştə qonaxlığı verərəm. – O vaxdı mənim yadıma gəlir, çarıx düzəldənnər dərini qoyurdular yerə, şüşəynən o qədər qaşıyırdılar ki... – Bu da qoyun dərisini götürür, o qədər qaşıyır, qaşıyır, sora onu əriştə kimi doğratdırır, yığır evə. Arvada deyir, o kürd bizə qonax gələndə deyəjəm əriştə bişirginən. İki əriştə bişirərsən: birini bu göndən, birini xəmirdən. Xəmiri maa verirsən, gönü ona.

Vaxt gəlir, bu kürd gəlib çıxır bunnara. Bu, arvada him eliyir ki, əriştəni hazırla, qardaşdığımnan oturub bir əriştə içək. Arvad o

dəyqə başa düşür, durur, iki qazan asır. Gönnən olanı gətirir qonağın qabağına qoyur, xamırdan olanı ərinin qabağına. Kürd ha isdiyir çeyniyə, görür çeynənmir, loppultuynan udur. Kasanı qurtaran kimi şuşalı deyir:

– Arvad, bir kasa da gətir.

Nəysə, bu kürdün qalacağı az imiş, tezdən çıxır gedir. Qırx günnən sora gəlib çıxır. Şuşalı deyir:

– A qardaş, nədi, sən niyə belə gej gəldin? Axı sən həftədə bir dəfə gəlirdin.

– Ə, – deyir, – başıma iş gəlib ey. Sizdən gedənnən bəri sıyrım sallıyıram.

## 249. ŞIĞIDIĞIN BƏSDİR, QANAD ÇAL

İki kürd qoyun otarırmış. Baxıllar ki, təyyarə göynən gedir, quş uçur. Biri fikirrəşir ki, nətər olur, insan uça bilmir? O biri kürd deyir:

– Qağa, gəl, mən səni uçurdajam.

Deyir:

– Nətər?

Qolların yana açır, hər qoluna bir çomağ qoyur, sırıxlıynan sarıyır. Guya buna qanad düzəldir. Çıxardır hündür bir qayanın başına. İtəliyir bunu qayadan. İtəliyən kimi bu təpəsi aşağı gedir. Dalınca qışqırır:

– Ə, şığıdığın bəsdi, qənəd çal. Şığıdığın bəsdi, qənəd çal.

## 250. ADAM SƏNİN DƏDƏNDİR

Bir kürdün danası itmişmiş, dumannı gündə dananı gəzirmiş. Neçə gündü gəzif, tapmıyıf. Bir gün də dumanda oxuya-oxuya gəzirmiş danasın. Bir adam da yolnan gedirmiş. Yolnan gedən deyir ki, ay adam, nə axtarırsan? Bir dəfə deyir, cavab vermir, iki dəfə deyir, cavab vermir. Bu bilmirmiş adam nə deməkdi. Ona görə cavab vermirmiş. Axırı deyir:

– Ayə, adam sənin dədəndi. Mən kürdəm, dana gəzerəm, özü də yana-yana gəzerəm. Tapsam, dədəmə ehsan verəjəm, tapbasam, heş nə.

## 251. BİZDƏN ADAM OLMAYACAQ

Bir kürdün meşədə otu olur. Deyir, bu gün hovgəldi eliyim, səhər gedim, o otu daşıyım gətirim. Axşam qapı qonşusuna tapşırır ki, a qonşu, ulağını səhər götür, özün də gəl, gedək. O biri qonşusuna deyir, a qonşu, sən də bir ulax ver, bir uşağı da qoş qabağıma, aparım otu yüklüyüm, gətirim. Deyir:

– Yaxşı.

Səhər açılır. Oğlun göndərir ki, get ulaxları götür, gəl. Gedir birin gətirir, ikisin gətirir. Göndərir bu birsi qonşusuna. Uşax gedir. Qonşu deyir ki, get atana denən ki, bizdən ulağ olajehdi, adam olmujehdi.

## 252. BU DAĞAR O DAĞAR DEYİL

Vaxtilə qoyunun dərisin qurudub onnan dağar düzəldirmişdər. Dağarın da motal kimi qulpları varmış. Boğazınnan buğdanı töküf doldurullar, qulplarınnan da tutuf götürüllərmiş. Biri dəni doldurur dağara, alır dalına, bu kənddən o kəndə su dəyirmanına gedir. Dəyirmana çatanda deyir: "Dəyirman çox aşağıdadı, yenim aşağı, görüm dəyirman işdiyir, işdəmir. İşdəmirsə, bunu niyə özümə yük eliyirəm. İşdiyirsə, gələrəm, bir də götürüf gedərəm". Nəysə, yenir aşağı dəyirmana. Baxır, görür dəyirman işdiyir. Bu gedəndə dağarı dikinə qoymuşmuş. Dağarı ayax üsdə qoyanda əvvəl qulaxları dik olur, qayıdıf gələndə havası çıxıf, qulaxlar yatıf aşağı. Deyir: "Ə, bu dağar olmağına dağardı, amma mənim dağarımın qulaxları dik idi, bunun qulaxları yatıv aşağı. Bu mənim dağarım döylü". Biri ayannan çıxıf gəlir. Deyir ki, qağa, nədi? Nə mübahisə eliyirsən? Deyir, bəs belə-belə. Deyir: "Ə, mənim dağarımdı ey, səninki döyül". Götürür qəşəng bunu, aradan çıxıf gedir.

## 253. DƏYİRMANÇI İLƏ ÇOBANIN BƏHSİ

Bir dəyirmançıynan çoban kiçik çilədə, ən soyux havada mərc gəlillər. Dəyirmançı deyir:

– Mən bir kömbə bişirərəm, təzə kömbəynən səhərə qədər oturaram, alnımdan, üzümdən tər tökülər.

Çoban da deyir ki, mən təzə anadan olan quzunu alaram qucağıma, soyux havada oturaram, mənə heç nə olmaz. Dəyirmançı götürür çörəyi, çoban da quzunu, oturullar ikisi də yanaşı. Bunların da şahidləri var, baxıllar. Get-gedə çörək soyuyur, soyuyur, soyuyur, dəyirmançı donur. Çoban da quzunu alıfdı qucağına, çobanın nəfəsi quzunu vurur, quzunun nəfəsi çobanı vurur. Mərci çoban udur.

## 254. Dİ HI...

Şuşa bazarına bir şorsatan gəlir. Hərə gəlir bunun şoruna bir barmax batırır, yeyir, gedir. Bu görür hərə bir barmax batırır, amma alan yoxdu. Baxır görür şor qutardı, alan da yoxdu. Hərə bir barmax, bir barmax. Axırıncı barmax vuran bədbəxt də isdiyib dadına baxa. Şor satan tutub bunun boğazınnan, sirkəliyib. Buna bir dənə yumrux vurub, deyir:

– Di hı...

"Di hı" deyəndə o da bıçağı soxur böyrünnən, deyir:

– Hı-hı.

## 255. BIĞ YAĞI

Şuşada sanballı adamlar çox oluf. Bəylər çıxırmış Bazarbaşına. Bəyin biri də evdən çıxanda arvadına deyif ki, yemək hazırra, yeyif çıxım. Arvadı deyif, yemək gec hazır olar. Deyir:

– Bəs mən nətər çıxım bəylərin qabağına? Gedəjəm, deyəjəhlər sən bu gün heç çörək yeməmisən.

Gedir bankanı açır, kərə yağınnan götürür bığlarını qəşəh eşir, yağlıyır. Gəlir çıxır Bazarbaşına. Deyillər, pah, buna bax ey, bığınnan yağ damır.

Bəylər həmişə heylə bığlarına yağ yaxarmışdar. Bir gün işin üstü açılır. Qızı yüyürə-yüyürə gəlir ki, ay dədə, ay dədə. Deyir:

– Nədi?

Deyir:

– Sənin bığ yağını pişik yedi.

## 256. GÖR SİZ NƏ QƏDƏR YEMİSİNİZ

Məmişdərdə belə bir hadisə olub. Səməd kişi çörək yedikdə bunun oğlu Məmməd dəyqədə bir ajıx eliyirmiş. Kişi deyirmiş ki, ə, nə ajıx eliyirsən? Deyirmiş ki, hamısın yeyirsiz, maa saxlamırsız. Gedif özümü qayadan atajam. Bir gün arvada deyir ki, qazanın hamısın qoy bunun qabağına. Qazanın hamısın qoyullar qabağına, gənə ajıx eliyir. Deyillər:

– Ə, Məmməd, niyə ajıx eliyirsən?

Deyir:

– Siz gör nə qədər yemisiz ki, maa da bir qazan saxlamısız.

## 257. XANZADƏ

Şırranda Xanzadə addı bir gəlin səhər-səhər gamışı sağanda kəl sıçrıyıfdı gamışa. Gamış altınnan qaçıf, sərnic aşıf, süd tökülüf. Qızdar buna gülüşüflər. Xanzadə əlini atıb kəlin arxa ayağının sınırından tutub təpəsi üstə yerə vurur. Kəlin boynu sınır və güclə bıçağa gəlir. O vaxtdan həmin gəlin pəhlivan Xanzadə deyə çağrılır. Onun adına Şırran kəndinin yaxınnığında yurd yeri, bulax da var.

Bu qadın ərə gedir. Bəy sağdişnən, soldişnən oturufdu, bu gəlin də gərdəyin dalındadı. Heyvan kəsilif, yeyiflər. Heyvanın lülə sümüyü ortalıxdadı. Oğlannar mərc gəlif ki, görək bu sümüyü kim sındıra bilər. Oğlannarın heç biri sındıra bilmiyif. Gəlin ordan yengəsinə deyifdi ki, uşaxlara denən o sümüyü versin maa. Pərdənin arxasından əlini uzadır, sümüyü iki barmağıynan tutuf qaarıf sındırır, tulluyur bunnarın üstünə. Oğlannar gülüşürlər ki, evin yıxılsın, bu sümüyü belə qırdı, gör sənin belini necə qırajax.

## 258. ŞUŞANIN DƏLİSİ

Şuşada dəli olur bir nəfər, Şuşanın dəlisidi deyə heç kim bunun xətrinə dəymir. Bir gün bu eşidir ki, Füzulidən bir dəli gəlib çıxıb Şuşaya. Bazarbaşında gedib bunnan görüşür. Deyir:

– Ə, sən kimsən?

Deyir:

– Mən dəliyəm.

Deyir:

– Qələt eliyirsən sən dəlisən.

Qulağının divinə bir şapalax vurur. Deyir:

– Burda bir dənə dəli var, o da mənəm. Sən burda dəlilik eliyə bilməzsən, get burdan.

## 259. DABANNAMA

Bir laçınlı qalalıynan dost olur. Laçınlı qalalıya qonax gəlir. Qalalı malın gönünnən əriştə doğratdırır. Laçınlı ha dartır, qırılmır, ha dartır qırılmır. Deyir:

– Əriştən yaxşı əriştə idi, amma çəkdikcən uzanırdı. Bir gün gələrsən bizə, sənə yaxşı bir dabannama verərəm.

Şuşalı durur gedir laçınlıya qonax. Baxır ki, üç-dörd dənə soğanı tulladı palazın altına, çıxdı ayaxladı, gətirdi qoydu ortalığa.

## 260-261. MACQARMIC

Babam danışırdı ki, Muxtarnan getmişik Yevlağa yük yığmağa. Bir müştəri çıxdı, soruşdux ki, yükün haradı? Dedi:

– Macqarmıca.

Babam bilmiyifdi Macqarmıc haradı. Fikirrəşib ki, yəqin Macqarmıc uzağ olar. O biri yük də Gorusa imiş. Macqarmıcı götürmüyüf, deyif mən Gorusa gedən yükü yığıram. Babam da yükü yığıf, Muxtar əmim də. Gəlillər, bizim körpüyə çatanda Muxtar kişi arabasın çöyürüb Macqarmıca gedə. Babam deyib:

– Muxtar, hara gedirsən?

Deyir:

– Macqarmıc buradı da.

Babam iki əlin vurub başına, deyib:

– Kül başına, Malıbəyli olasan, Macqarmıcı tanımayasan.

**261.**

Məşəd Səfərnən ana babam Qəhrəman Yevlaxda yük yığıllar. İki istiqamətə yük olur: biri Avdallara, biri Macıqarmıca. Babam deyir, mən Macıqarmıcı tanımıram, Avdallara gedən yükü yığajam. Məşədi Səfər də demir ki, əşi, Macıqarmıc yaxındı, onu yığ. Deyir, nətər isdiyirsən elə olsun, Qəhrəman baba. Gəlillər. Şuşaynan Xankəndinin arasında Ağa körpüsü var. O körpüyə çatanda Məşəd Səfər sağa dönür. Qəhrəman babam deyir ki, haraya gedirsən, Məşəd Səfər? Deyir:

– Macıqarmıca gedirəm.

Deyir:

– Hanı Macıqarmıc?

Deyir:

– O dey ha.

Deyir:

– Bəs o Ərminavan döyül?

Deyir:

– Həm Ərminavandı, həm də Macıqarmıc.

Deyir:

– Buna bax ey, Malıbəyli olasan, Macıqarmıcı tanımayasan.

## 262. QOYMAYIN, XƏLBİR MƏNİ ÖLDÜRDÜ

Arabaçı Mazəyim axşam ata arpa verəndə xəlbir yadınnan çıxıb qalır toolada. Səhər tezdən durur, tolaya girəndə ayağın qoyur xəlbirin bəri başına, xəlbirin o biri başı qalxıf ayağının sümüyünə dəyir. Götürüf xəlbiri çırpır divara, xəlbir qayıdıf bunun sinəsinə dəyir. O qədər hirsdənir ki, təzədən xəlbiri götürür çırpır yerə, xəlbir göyə qalxıf dəyir bunun təpəsinə. Qapıdan çıxıf qışqırır ki, ay camaat, qoymuyun, xəlbir məni öldürdü.

İndi Malıbəylidə biri özü-özünə bir iş eliyəndə deyillər ki, nədi ə, xəlbir Mazəyimə dəyən kimi sənin də başına iş gəlif.

## 263. ZİNƏT MƏSƏLƏSİ

Şuşada üzüm salxımına bənziyən bir zinət olufdu. Qızıldan düzəldilirdi, giləlırinin yerində bahalı daş-qaş olurdu, ağır olurdu. Hacı Qulunun arvadında bunun biri varmış. Hacı Qulu da, Natavan da hər həftənin beşinci günü ehsan süfrəsi açırmışdar, hamını yığırmışdar, bir sürfədə yemək yeyirmişdər. Xan qızının hətta hovuzu var idi, onun içində şərbət hazırradırdı, bayramlarda o şərbəti camaata paylıyırmış. Hacı Qulunun arvadı gedəndə ayağına ilişir yaylığı, ucunda da o birliyant. Camaat oturuf yerdə ehsan yeyirdi. Yaylığı atır, atanda gəlir bir qadına dəyir. Qadının əcəli tamam imiş, nə imişsə, ölür. Qadın öləndə həmin zinəti onun ayiləsinə qanpulu verir.

Şuşada bir bəy olufdu. Bu, bir müşkül işə düşüfdü. Həmin salxımdan biri də bunda imiş. Deyir ki, bu işdən salamat qutarax, dilə-dişə düşmüyəh, bunu lütün birinə verəjəm. İş salamatçılıxnan qutarır. Fikirrəşillər bunu kimə verək, axı niyyət eliyif. Gəlillər qazının yanına. Deyillər ki, bəs belə-belə. Bu niyyətnən nəzir demişik, camaatı da siz yaxşı tanıyırsız da. Bunu bir lütə verərsiz. Qazı deyir:

– Yaxşı, narahat olma.

Qazı gəlir evinə, külfətinə deyir:

– Get lüt ol, gəl bura.

Arvadı soyunuf gəlir. Qazı əlin göyə qaldırıf deyir ki, rəbbim, sən görürsən ki, mən bu şəhərdə bunnan başqa bir lüt tanımıram. Həmin zinəti arvadına verir ki, götür get, Allah qəbul eləsin.

## 264-265. AŞURA İLƏ BAĞLI LƏTİFƏLƏR

Bir səyyah gəlif Şuşaya çıxır. Şəhərin içinən gəlif, görüf gözə adam görükmür. Bir az da irəlləyif, hamı yığışıf meydana: baş yaran kim, zincir vuran kim, ağlıyan kimi. Biri də şəbehi idarə eliyir. Tərcüməçiynən bunnan soruşur ki, bu nə ağlaşmadı? Niyə zincirnən özüzü vurursuz? Bütün millət də ordadı. O da başa salıb ki, fian vaxdı bizim imamlarımızı qırıflar. Belə deyəndə tərcüməçiyə deyif:

– Bulara denən ki, bu 1400 il bunnan qabax olufdu. Siz indi eşitmisiz?

**265.**

Şəbehdə bir yer var, bir nəfər suyun üsdə durur, nəkqədər gəlib yalvaran olsa da, su vermir. Bu rolu götürən yoxumuş. Bir də görüllər bir erməni gəlir, odun satır eşşəynən. Odunun pulunu verillər, deyillər:

– Sən gəl dur o bulağın başında. Nəkqədər yalvarsalar da, su verməginən.

Bu da fikirrəşif ki, bunnan hasant nə var ki? Gəlif durur bulağın başında. Su isdiyən nətər yalvarıbsa, nətər dil tökübsə, erməninin ürəyi xarab olub. Deyir:

– Vallah, mən verərdim ey, o kişi dedi ki, ona su vermə.

## 266. FƏRASƏTİ VARDI, O DA TUTARDI

Biri gedir Həcc ziyarətinə. On dənə qoyunu varmış. Gətirir verir mollaya ki, bir ay bunu saxla, Həccdən gələndə götürəjəm. Molla deyir: "Əşi, birin kəsim yeyim, nə biləjək". Bir aydan sora gəlir ki, molla, gəlmişəm, qoyunları ver. Deyir:

– Odey, arxacdadı, get say, götür.

Bu da gedir sayır, görür ki, dokquzdu. Deyir:

– A molla, axı mən saa on qoyun vermişdim, burda dokquzdu.

Deyir:

– Yox, ondur.

O deyir dokquzdu, bu deyir ondu. Mübahisələri düşür. Qoyun yiyəsi gedir on nəfər adam çağırır. Deyir, adama bir qoyun tutun. Hərə birin tutur, birinə çatmır. Deyir:

– Görürsən, ona çatmadı.

Deyir:

– Nağarım? Fərasəti vardı, o da birin tutardı.

# AŞIQLAR, EL ŞAİRLƏRİ

## 267-273. SARI AŞIQ

Həkərili Sarı Aşıq olufdu. Şıx Ağabalım dəfn eliyifdi onu. Həkəri çayında həmişə düyü əkillər. Bir gün duruf Şıx Ağabalım bir yük düyü götürüf, gedif satmağa. Bazarın qırağında çualı qoyur yerə, düyünün ağzın açır. Qulflu çual varmış. Gətirif bağlıyır torbasının ağzına, oturur ki, satsın. Baxıf görür ki, qatırı açılıfdı. Əlin atır qatırı tutsun, qatır aralaşır. Durur, yüyürür qatırın dalınca, əlin atanda qatır qaçır. Nə qədər eliyir, qatırı tuta bilmir. Bilmir qatırın dalınca getsin, düyünün yanına qayıtsın. Fikirrəşir ki, elə qatırın dalınca getsin. Meşəynən, yolnan qatır düz gəlir Həkərili aşığın daxması varmış, onun qapısında durur. Gəlif çatanda görür ki, içəridən səs gəlir. Aşıx bayatı deyir:

Mən aşıx, oxu türyan,
Yaz gətir, oxu türyan.
Özüü yetir, ay Ağabalım,
Bir "Yasin" oxu türyan.

Xülas, qatırı bağlıyır, girir içəri. Görür ki, Aşıx can üstündədi. Aşıx vəsiyyət eliyir ki, mənim bir az pulum var, məni onnan dəfn eliyərsən. Aşıx vəsiyyət eliyənnən sohra Şıx Ağabalım bir "Yasin" oxuyur, qutaran kimi aşığın canı çıxır. Onnan sohra onu orda dəfn eliyir, aradan üç-beş gün keçənnən sohra qatırı minir, düşür yola. Görür ki, düyünü nətər qoyufsa, hax tərəfinnən toxunan olmuyuf, bazarın qırağında elə heylə durur.

O aşıx böyük ojaxdı. Cəla[56] xəstəliyinin dərmanı ondadı. Kim gedif oranı ziyarət eləsə, cəla xəstəliyinnən azad olar. Cəla xəstəliyinin müalicəsi Sarı Aşıxda, Şıx Ağabalımda, Qara Pirimdə, Hajı Qaramanda, Qurbanidə, Tufarqanlı Abbasda, Şah Abbasdadı. Onnar bir əsrin adamlarıdı, özü də bir-birrərinə get-gəlləri, dostluqları olufdu.

---

[56] Cəla – xərçəng xəstəliyinin xalq arasındakı adı

**268**.

Deyir, Sarı Aşıq yolnan gedirmiş. Görür ki, qayanın döşündə bir qara keçi yatıfdı. Bir afçı sinə-sinə gedir ki, bunu vırsın gülleynən. Deyir:

Mən aşığam, təkə qaç,
Ofçu gəlir, təkə qaç.
Qapında kəlbin ollam,
Saa qurban təkə, qaç.

Deyəndə təkə qalxıf qaçır, afçı vura bilmir.

**269.**

Sarı Aşıx Qaramannan gəlmədi. Adı Nəbidi, Sarıca Nəbi deyirmişdər. Mənim eşitdiyim bıdı. Deyir:

Aşığın Nəbidi adı,
Qəm məni nə bıdadı.
Ad mənim, yar özgənin
Qoy çəksin Nəbi dağı.

Yaxşının əri vardı, adı Yaməndi.

**270.**

Deməynən Aşıx daşdan yaranıfdı. Bir oğlan, bir qız evlənmişmişdilər, uşaxları olmurmuş. Bir çoban həmişə dağ-aran gedif gələndə onnarnan dostdux eliyirmiş. Xəbər alırmış ki, hələ uşağınız yoxdu? Deyirmişdər, yox. Aradan on-on beş gün keçir, bir gün oğlan öz ayiləsinə deyir ki, bu o qədər həvəsdənir ki, bizim uşağımız olsun. Dur o dibək daşını yüyrüyün içinə qoy, gələndə barı sevinsin. Bu forma eliyillər. Gəlir görür, yüyrüy asılıf. Atdan düşür, özün atır yüyrüyün üstünə. Qucaxlayanda görür çağa ağladı. Allah-taalanın hökmüynən o daş uşağ olufdu. O böyüyür, ona Allah tərəfinnən vergi verilir. Vergi verən bir Həzrət Əlidi, bir də Xıdır. Xıdır indi də sağdır. Buna Həzrət Əli badə verir, Yaxşını buta verir. Xülas, ordan düşür yola ki, gəlsin Qaramana. Yolda bir dağın dibində oturur.

Təkdi da, bir az qəhərlənir. .... surəsin oxuyur[57]. Oxuyanda dağdan bir adam çıxır, bu da Lələ olur. Aşıx bunnan gəlir Lələ dağına, o dağda Lələ yoxa çıxır. Bir müddət orda qalır.

Yaxşının yoldaşı Aşığa çox korrux verif. Aşıx öləndə vəsiyyət eliyif ki:

Aşığı sinə qoyun,
Sinifdi, sinə qoyun.
Yaxşını qibləsinə,
Aşığı tərsinə qoyun.

İndi müəyyən adamlar deyir ki, Yaxşını qibləsinə dəfn eliyiblər, Aşığı tərsinə. O həylə deyil. Aşıx deyir ki, sinə qoyun. Sin qəbirdi, yəni Aşığı qəbirə qoyun. Sinifdi, sinə qoyun. Yəni, ölüfdü, qəbirə qoyun. Yaxşını qibləsinə, Aşığı tər sinə qoyun. Yəni, Aşığı təzə, tər qəbirə qoyun.

**271.**

Deyir, Yaxşı bulaxda paltar yuyurmuş, Aşığın da paltarı kirrənmişmiş. Yaxşı deyir ki, paltarı soyun ver, yuyum. Soyunur, atır yerə. Çıxır ağaca ki, onu görən olmasın. Yaxşı paltarı yuyur, sərir qurusun. Bu dəkikədə Yaxşının əri Yamən böyürdən çıxır ki, bu nədi? Birdən görür ki, suya bir kölgə düşüfdü. Baxanda görüf aşıx ağaşdadı. Qıçının arasında bir dəstə qızılgül var.

**272.**

Aşıx bir dəfə, deyir, yolnan gedirmiş. Görür ki, həddi-buluğa çatmış bir qızdı, bir də bir oğlan. Oğlan bir qədər cavandı. Aşıx görür ki, qız oğlana sataşır, oğlan buna diqqət vermir: çubuxnan qanqalı döyüf qanatdarın tökür, dibinnən qopardır, soyur yeyir. Ona bir bayatı deyir:

Mən aşıx, bu damaxda,

---

[57] Bu mətnin arxiv variantında da cümlə natamamdır. Görünür kasetin həmin hissəsi oxunmadığından və ya söyləyicinin səsi başa düşülmədiyindən həmin hissə nöqtələrlə verilib.

Bu kefdə, bu damaxda.
Maya nər sövdəsində
Nər qanqal budamaxda.

Sohra görür ki, bı qız yaylığını çəkdi oğlanın üstünə, bını gizdətdi. Deyir:

Mən aşığam, nərgizdər,
Top-top bitər nərgizdər.
Əsrimiş maya gördüm,
Qoltuğunda nər gizdər.

Qız o saat bını annıyır. Deyir:

Gedən, getmə, dayan dur.
Sirrim sana ayandur.
Nər mənim öz nərimdi,
Maya mənim öz mayamdı.

**273.**

Aşıx Gəyən düzündə bostan əkmişimiş, yaxşı bostanı varmış. Bir gün Yaxşı başına üç-dörd qız yığır, deyir: – "Gedək aşığın bostanına yemişdən-zaddan yeyək". Bostanın içinən gedəndə bostanı ayaxlıya-ayaxlıya gedillər. Aşıx buna bayatı deyir:

Mən aşığam, tağı var,
Bostanı var, tağı var.
Bostanım sana qurban,
Ayaxlama, tağı var.

Sarı Asıx, həqiqətən, Qaramannan gəlmədi, bunu dədə-babadan eşitmişəm.

## 274-275. ŞIX MƏHƏMMƏDƏ VERGİ VERİLMƏSİ

Deməli, Şıx Məmməd cavan oğlandı, hələ evlənməmişdi. Qoyun otarırmış. Gecə yatır. Yuxuda görür ki, – bunun sürüsünün içində də göy şişək vardı, – qoyunu otardığı yerdə bu şişək sürüdən ayrıldı, getdi qaramux kolun dibin eşdi, ordan iki mıncıx çıxdı. Şıx

Məmməd bunu yuxuda görür. Səhər gedir, qoyunu vırır örüşə. Yadınnan çıxmışmış hər şey. Bu şişək qoyun ayrılır, gedir qaramux kolun dibin eşir. Yadına düşür ki, mən bunu yuxuda görmüşəm axı. Gedir görür ki, yerdə iki mıncıx var. Mıncığın birin verir çoban yoldaşına, birin də özü götürür. Bunu əllərinə alan kimi başdıyıllar deyişməyə. Gecə yarıyatan deyişillər. Qoyunun da özbaşına kəndə gedəni gedir, itəni itir. Kəndə hay düşür ki, Şıx Məmməd də yoxdu, çoban da yoxdu. Qoyunnar da gəlif aralığa. Gəlillər, səsnən tapıllar ki, bular deyişillər. Deyillər, bular dəli oluf. Şıx Məmmədin yoldaşına sidik içirdillər, o pozulur. Şıx Məmməd anasına deyir ki, ana, mənə heç nə içirtmə. Mənim ağlım başımdadı, dəli deyiləm. Səhər də gedif qoyunu otaracam. Nəysə, buna heş nə eləmillər, səhər də gedir qoyunu otarmağa. O günnən Məmməd olur Şıx Məmməd.

**275.**

Şıx Məmmədgil ayilədə çox uşağ oluflar. Böyüyür, yarlı-yaraşıxlı bir oğlan olanda Burcalılar kəndinnən adam gəlir, bu oğlanı aparıllar ora çoban. Orda Nəbiyalı bəyin xırda quzusunu, buzovunu otarırdı. Bir gün xəbər gəldi ki, sizin oğluza vergi verilib, onun gələcəyi yaxşı olmuyacax. Yəqin baş götürüb gedəcəh. Gəlin aparın uşağızı. Valideynləri gedillər uşağı gətirillər. Özü nağıl eliyib ki, payızdı, heyvanı yığmışam kahaya, özüm də çuxamı götürüb yatmışam. Bir də yuxuda görürəm ki, qar qarrıyır. Yuxudan ayıldım, baxdım gördüm, doğrudan da, təzəcə başdıyıf, qar qarrıyır. Durdum sürünü aşdım, buraxdım örüşə. İki alabaş saxlıyırdım, sürünü buraxan kimi olar da sürünün qabağınca gedirdilər. – Özü getməzmiş sürünün arxasınca. Qarğudan tütəyi varmış, o tütəynən heyvannarı çağırıb qaytararmış. – Görür sürü örüşdən çıxıb palıd pöhrəliyinə gedir. Tütəyi götürür, başdıyır çalmağa. Nə qədər çalır, sürü qayıdır, bir şişək qayıtmır. Qayıtmıyanda gedir onun arxasıncan. Gedir görür ki, çəhlimliyif, girif pöhrəliyə. Bir az yaxınnaşmışdı, görür bir muncux şişəyin dırnağının arasında parıldıyır. Muncuğu götürən kimi şişək qayıdır geri. Məmməd də başdıyır şeir deməyə. Qayıdır gəlir, görüllər başı havalanıb. Bular qorxublar ki, bunun sevgilisi uzağa düşər. Görüblər

yox, sevgilisi Xırda Qışlaq kəndinə düşüb. Amma qızı vermillər buna. Pirveyisli kəndinnən bir nəfərə ərə verillər. Meşənin ortasında dərə var, ordan bulağ çıxır. Üş günnən sora bu qız səhəngi götürür, gəlir bulağa. Yolun altı armud ağacıdı. Səhəngi söyküyür suyun ağzına. Çatını asır, ayağının altına daş qoyur, çıxıf ordan özünü asır, öldürür.

Burda mollalar vardı, həmişə Şıx Məmmədin dediklərini olar yazırdılar. On səkgizinci il gələndə bir axşam xəbər gəldi ki, ermənilər işıxlanmamış kəndi atəşə tutacaxlar, hazırraşın, qaçın. Bu fikirdə hamı yır-yığış eliyir. Mərfəşdəri qovladılar. Bu mollalar da Şıx Məmmədin iki çual əlyazmasın yığıf ağzın bağlıyıflar, qoyuflar ki, bir az uzanax, o başdan durax. Ermənilər heç qoymuyuflar dan yeri sökülə. Sağdan-soldan atəşə tutuflar, başını götürən qaçıf. Orda ev də yandı, eşik də yandı, Şıx Məmmədin iki çual əlyazması da yanmışdı.

## 276. VAXTIDIR

Şıx Məmməd yolnan gedirmiş. Gandalaşdıx olan yerdə şır-şır vardı. Gedir görür ki, bir dəstə qız orda çimir. Bu, qatırnan gəlirmiş, qoca vaxdıdı. Qızdar tapbıltını eşidillər, qaçıf girillər gandallığa. Kişi özün saxlıya bilmir, deyir ki:

Baharın çiçək vaxdıdı,
Çiçəyin göyçək vaxdıdı.
Ürküşdü doldu gandallığa
Maralın milçək vaxdıdı.

## 277. OĞLUSAN

Bir dəfə Şıx Məmməd gəlir Gəəli kəndinə. Kənddə mağazin var, mağazinin müdiri də Kərbəlayi Məşədi Mehdidi. Gəlif görür bir dənə çuxa satıllar, asılıf göydən. Deyir ki, Kərbalayi Məşədi Mehdi, a qadan alım, onun razmeri neçədi? Deyir:

– Əlli altı.

Deyir:

– Ə, mənim razmerimdi, onu ver maa.

Deyir:

– Yox, bunu saxlamışam Azərə.

Misalçün deyirəm ey. Deyir:

– Ə, Azər cavan oğlandı, Qafana da gedir, ordan özünə alar. Mən gedə bilmirəm, qoca kişiyəm, libasım yoxdu xeyrə-şərə geyinməyə.

Nə qədər eliyir, vermir. Acıxlanır. Camaat da yığılır başına. Deyir:

Kərbalayi, məşədi, qorzaqadal[58] Mehdi
Yüz illik hörməti bir anda tökdü.
Şəriyətdə bir atadı, bir ana
Görünür, a qodux, sən beşinin[59] oğlusan.
Farscan sənə xərri desəm, qanmazsan,
Türkücən deyirəm lap Şoşunun oğlusan[60].

Məşədi Mehdinin də bir bacısı oğlu olur Abasqulu. Törə kişiymiş, boydan balaca. Törə Abasqulu bunu hədəliyir ki, kopoğlu Şıx Məmməd, bir də bizim kəndə gəlsən, səni öldürəcəm.

Bu, bir dəfə Qafana getmişmiş. Qafannan gələndə – buların kəndinin içinnən keçir də yol, – fikirrəşir ki, birdən gedərəm, Abasqulu çıxar qabağıma, camaat içində maa söz deyər, biyabır olaram. Qoy meşəynən gedim. Meşəynən getdiyi yerdə arxadan iki nəfər gəlir. Biri Babaxan oğlu Balaca olur, biri də Efendiyev Səlim olur. Bular ikisi gəlirmiş, görüllər Şıx Məmməd meşəynən gedir. Çağırıllar:

– Ay baba.

---

[58] Qorzaqadal – erməni sözü: tükançı deməkdir.

[59] Beş kişinin

[60] Cəmil Tağıyevin söylədiyi variant:

Yalanı özünə artıqlıq bilən,
Nakişisən, nakişinin oğlusan.
Torba sal boynuna, kəndlərdə dilən,
Zinədənsən, sən dişinin oğlusan.

Görüm viran olsun o binə, xana,
Köksündə yer verib sən tək nadana.
Şəriətdə bir ata var, bir ana
Doğrusu ki, sən beşinin oğlusan.

Farsca xər söyləsəm, düşməzsən başa,
Türkcə deyim, lap Çoşunun oğlusan.

Deyir:

– Nədi, bala?

Deyir:

– Niyə ordan gedirsən?

Deyir:

– Başına dönüm, gəəlilər bir az tərs adamlardı, gedərəm, söz-zad deyəllər. İstəmirəm o kəndin içinnən gedəm.

– A kişi, gəəlilər kimdi bizim yanımızda?

İkisin də onatılan tapancası var. Efendiyev Səlim maliyyə şöbəsinin müdiridi, Balaca da uçaskovudu. Kişinin qolunnan tutullar, yolnan aparıllar. Gəlillər, kəndin içinə girəndə görüllər Kukunun oğlu Babanı ev tikir, camaat da yığılıf ora. Törə Abasqulu üçatılan tüfəngi götürüf gəlir:

– Kopoğlu Şıx Məmməd, sənə deməmişəm bizim kəndə girmə, səni vuracam?

Balaca burdan onatılanı çıxardır, Səlim də ordan.

– At yerə, kopoğlu, tüfəngi.

Camaat qışqırır ki, a Törə Abasqulu, bizi qana salma, o Babaxan oğlu Balacadı, o biri də Efendiyev Səlim, bizim hamımızı qırallar, at yerə tüfəngi. Abasqulu tüfəngi atır yerə. Şıx Məmməd əyilir yerdən tüfəngi götürür, içindəki patronları çıxardır qoyur cibinə, saz kimi alır çiyninə. Deyir:

Bir yanım Xustubdu, bir yanım Girvə,
Könlümün qübarı çıxıbdı seyrə.
Ə, Kukunun oğlu Babanı kirvə,
Bax gör məni kimə dəler törəsaqqal,
Gəl filan yerimi gör, Abasqulu.

## 278. ŞIX MƏHƏMMƏD VƏ CAMAL BƏY

Biz tərəflərdə Camal bəy oluf, Pənah xanın nəslinnən oluf. Qaraçimənin padşahı oluf. İrannan bir bəy Camal bəyə məktub yazır ki, Camal bəy, mənə bir at al, göndər, amma nə kəhər olsun, nə kürən olsun, nə qəmər olsun, nə səmənd olsun, nə göydəmir olsun, amma

yaxşı at olsun. Şıx Məmmədnən də bəyin arasında narazılıx olur. Şıx Məmməd mal otaranda Camal bəyin çobannarı gəlir, bunun təzə çarığını oğurruyullar. Bu da yanındakı yoldaşına deyir ki, bəyin itdəri mənim çarığımı oğurruyuf, bəyə namə deyim, yaz. Deyif, baba, de, yazım.

Gəldilər mal-qatır aparsın maldan,
Gördülər hay gəlir, qaşdılar daldan.
A bəy, it nədi ki, onu da salmısan yaldan,
İtin gəlif burdan köhnə çarıx apardı.

Yazır göndərir bəyə. Bəy bunu oxuyuf deyir: "Ə, Şıx Məmməd yayacax aləmə, məni biyabır eliyəcəh". Bir tay düyü yüklüyür ata, bir zol da camış gönü ki, aparsın özünə çarıx tiksin. Bir az da pay-püş yığır, deyir bunu aparın verin Şıx Məmmədə, onu yaymasın orda-burda. Şıx Məmməd onun payın qaytarır geri. Bəynən arasında belə ziddiyyət olmuşdu.

Bəyə məktub gəlir. Bəyin də yeddi-səkgiz kəndi var: Cibihli, Cıbıllı, Gödəklər, Qaraçimən, Siznək, Seyitdər. Camal bəy adam göndərir kəntdərə ki, ağıllı, savatdı adamları yığın, gətirin bura. Bular da gələndə paylı-püşlü gəlillər bəyin evinə. Bəy də böyük bir qonaxlıx təşkil eliyir, buları yığır qonaxlığa. İrannan gələn məktubu oxutdurur, deyir: "Belə bir məktub var, buna bir cavab yazmalıyıx". Hərə bir söz deyir, tutarrı cavab olmur. Bir cavan uşax bəyin yanında işdiyirmiş, Şıx Məmmədin qucağına qoyuflarmış. Deyif, ay bəy, çağırdığın qonaxlar bunu tapammıyacax. İcazə ver gedim Şıx Məmməd babamı gətirim. O mənim kirvəmdi, mənim xayişimi çevirməz. Deyir, a bala, gəlmiyəcək, aramızda narazılıx olub. Ora adam göndərəmmərəm. Deyir, əşi, mən gedirəm də. Mən desəm, gələcək. Götürür iki at verir buna, deyir: "Get".

Gedir görür Şıx Məmməd qoyun otarır. Kirvəsiynən görüşür. Deyir, kirvə, niyə gəlmirsən? Deyir, hal-qəziyyə belə. Deyir, kirvə, da mən söz vermişəm. Deyir, sənin sözü sındırmıyacam. Atı min, get uşaxları gətir, qoyax qoyunun yanında, gedək. Elə helə çoban paltarıynan gəlir. Gəlir görür böyük bir qonaxlıx var. Qapının ağzınnan əlin qoyur darvazaya, durur. Salam verir camaata. Bəy deyir, buyur,

otur. Deyir, a bəy, sən məni qonaxlığa çağırmamısan, mən də qonax paltarında gəlməmişəm. Söz soruşasısan. Nə soruşursansa soruş, qapının ağzında cavab verib qayıdacam. Deyir ki, belə bir məktub var, buna cavab. Deyir, a bəy, yazginən ki, at hazırdı, gəl apar. Amma nə duz gəl, nə tək gəl, nə çərşənbə, nə adına, nə cuma, nə şənbə, nə bazar. Qalan hansı gün gəlirsən gəl, apar.

Məktubu yola salıllar. Xan həmin məktubu əlli-atmış bəyə göndəribmiş, heç biri ona cavab verə bilmiyibmiş. Şıx Məmməd onu helə bağlayır.

## 279-280. GƏYƏLİ

Bir dəfə Şıx Məmməd gəlir Gəəli kəndinə. Camaat yığılır bunnan bir az söhbət eliyir. Kəndin nə qədər varlı adamları var, hamısı çıxır gedir evinə, yanında üç kasıb kişi qalır: Namaz, Alı, bir də Salman. Salman kişi deyir ki, Şıx Məmməd, gəl gedək çörək yeyək. Deyir:

– Ə, kasıb-kusub köpəkuşağı, kəndinizin cücə-plov yeyənnəri hamısı qaşdı girdi bir deşiyə. Siz kasub-kusub maa şor-çörək verəssiz. Mən şor-çörək yeyən kişi dəyiləm. Altmış evsiz, gedin hər evdən bir ağsakqal çağırın, gəlsin bura, ürəyimi boşaldıf gedim.

Gedillər, adamları çağırıllar, hamı gəlir. Deyir ki, ay camaat, xayiş eliyirəm mənim sözümü kəsmiyin. Deyir:

Gəlmişdim Gəəliyə nan yeməyə,
Bir sözüm var idi sikreti-pünhan deməyə.
Qarğa-quzğun kimi verdilər lələk-lələyə,
Tülkü, porsux kimi qaçıb girdilər hər birisi bir dəməyə.

Ə, məşədi, kərbalayı, a qodux, kimdən yekəsən?
Gəəli içində murğuz təkəsən.
Mığrıda arax çəkirsən,
İçib piyan olub, ləngər vırırsan.

Namaz, Alı, Salman,
A donquz uşağı donquz, bu kəntdə qalmam.
Qələmə aldı Şıxıyef Bağban
Çox keşməz olarsan bednam, gəəli.

**280.**

*Cəlil Tağıyevdən toplanmış variant:*

Getmişdim Gəyəliyə acdığımdan nan yeməyə,
Bir neçə sözüm vardı, onu da pünhan deməyə.
Hürküşüb tülkü kimi hərə girdi dəməyə,
Qoydular qonaqları meydanda yalqız, Gəyəli.

Məşədi Mehdi, ayə, de görüm kimdən yekəsən?
Gəyəli içində sən baş qatan muğuz təkəsən.
Kəndinə o yaraşır Mehridən araq çəkəsən,
İçib ləngər vurasan, durasan düm-düz, Gəyəli.

Kasıbı at leşidi, varlısı onu didəcək,
Pul verib mənzil ilə payız dərisin didəcək,
Buğdanı ver anbara, pulu sələmə gedəcək,
Qonaq görəndə qaçıb eyləyəcək vız, Gəyəli.

Cecimi unutmuşam, ağ şalvarla ağlamışam,
Yazmışam bu qüssəni, qiyamətə saxlamışam.
Şairəm, muzd-babalım boynunuza bağlamışam,
Hünərin varsa, cavab yaz mənə, ay qız Gəyəli.

Əlimdə nəğd pulum, sizdən taxıl istəmişəm,
Ağlımı naqis edib öz-özümü pisləmişəm.
Tağ salıb, bostan əkib, yaxşı yemiş bəsləmişəm,
Xiyarı qoy şoraba, indi ye qarpız, Gəyəli.

Kərbalayı Fərzəli olubdu təzə,
Başına ip salıb çəkəsən düzə.
Məşədi Şəhrabanı, çıxginən üzə,
Pis əməlin düşüb dilə, Gəyəli.

Məlik, Namaz, a donquz oğlu Salman.
Məlumunuz olsun o kənddə qalmam,

Təzim ilə şümrülərdən pul almam.
Aldı qələmə Şıxıyev Bağban,
Çox çəkməz ki, bədnam olsun Gəyəli.

Məşədi Hüseyn, Məşədi Alı,
Sizi bu qüssədən eyləyim halı.
Xarici məssəbli, axta Fərzalı,
Sinəsində çalın-çarpaz dəmir var,
Mətahımın hər birində möhür var.

Ay Məşədi Səlbi, ay Şərabanı!
Gözün yerə baxsın, adamı tanı.
Aralıqda batdı Tarışın qanı,
İl bayramın qara gəlsin, Gəyəli.

## 281. ÇEŞMƏ

Şıx Məmməd cavan vaxdı tezdən durur, bulağa sarı gedəndə görür ki, üç-dörd dənə gəlin yığışıbdı bulağın başına. Suyun qırağında biri əski yuyur, biri yun tapdalıyır. Baxır, özün saxlıyammır, deyir ki:

Gəl sənə söyləyim cənnət bağından,
Səhər namazının lap sübh çağından,
Beş-altı gəlinin xub yığnağından,
Tutulub tezdənnən toyu çeşmənin.

Dinimiz islamın dinidir dini,
Daha iyirmidən keçirdim sini.
Gəlinnər gətirif yuyur əskini,
Kaş ki mən olaydım suyu çeşmənin.

Qabağında dərin göllər qurallar,
Tapdalayıb diz-topuxlar yuyallar,
İki nazlı qabaq-qarşı durallar,
Olaydım tokqacı, yunu çeşmənin.

## 282. NABATIM

Başına döndüyüm, ey boyu bəstə,
Atma xəyalından uzağa məni.
Zülfünü göstərib camal gizdətmə,
Salma eldən-elə sorağa məni.

Yeriyəndə yemişlərdən məzəsən,
Dindirdikcə qaş-gözünü süzəsən.
Əhdim budu kişmiş kimi əzəsən,
Sürtəsən tel üçün darağa məni.

Nabatım, gəl, getmə məndən qırağa,
İstəkli dərdimə sən eylə dava.
Piltətək yağlayıb tutma yalava,
Döndərmə od almış çırağa məni.

## 283. AĞLASIN

*Arana qayıdandan sonra Bağbanı ilan çalır. Vəziyyətinin ağır olduğunu hiss edən Bağban bu şeiri yazır:*

Gəlməsin belə yazları,
Uçmasın quba qazları,
Eşitsin bibim qızları,
Canı-qəlbdən yanan ağlasın.

Huş gedib, ağrıyır başım,
Ümmana dönüb göz yaşım.
At göndər, gəlsin qardaşım,
Çəksin əl-aman, ağlasın.

Allahın evi mehracım,
Cavanam, kəsmə illacım.
Qürbətdə bixəbər bacım,
Sədası yaman ağlasın.

Bitməsin dağın lalası,
Sınıb könlümün qalası.
Ananın bircə balası,
Dərdimə qalan ağlasın.

## 284. GƏLSİN

Əzrayıl dolub qəsdimə,
Qıymasın mənim şəstimə,
Çıraq yandır, tut üstümə,
Şöləsini görən gəlsin.

Məzarım gəlməyib başa,
Məlumdur ki, çıxıbdır daşa.
Anam-bacım sızıldaşa,
Təmkinli dost-ərən gəlsin.

Bu gün can verib azara,
Düşmüşəm qeyri-güzara.
Məni soyuq, dar məzara
Haqq təlqimi verən gəlsin.

Zalım ana, gəl yanıma,
Odu salmısan canıma.
Xəbər eylə cananıma,
O da səninlə tən gəlsin.

Şirin cana gəldi qada,
Cavan ömrüm gedir bada.
Qonağam fani dünyada,
Məni yola salan gəlsin.

Bilmədim yol-ərkanımı,
Sürmüşəm mən dövranımı.
Dərd alıb şirin canımı,
Bağban halın soran gəlsin.

## 285. BƏNÖVŞƏ

Ağ geyinən al abanu bürünsün,
Şamaxı ört, ucu yernən sürünsün.
Yaxan düyməlidir, qoymur görünsün,
Qoynundakı heyva, nardı, almadı.

Aç görüm, nəyin var hazar peşədə,
Tifil olan həsrət qalar döşə də.
Çay hazırdı stəkanda, şüşədə,
Heç bilmirəm dişləmədi, salmadı.

Dağlar suyu səbsəbidi, durudu,
Hər damcısı bir behiştin nurudu.
Quyruq dondu, cəm çiçəklər qurudu,
Sığal çərtmə, heç rəngin də solmadı.

Arı qondu sinən üstə şanına,
Seyrəqiblər susuyubdur qanına.
Zalım qızı bir od saldı canıma,
O necə çərtmədi, o nə çalmadı?

Sığınmışam dərgahına, xudaya!
Yalvardım imama, ülkərə, aya.
Yazıq Bağban, bel bağlama fənaya,
Süleymantək peyğəmbərə qalmadı.

## 286. NECƏ OLDU[61]

Ellər getdi yaylağını bəllədi,
Bildir o dağları gəzən necə oldu?
Ayrılıq göləndə, qəm dəryasında
Təzə qəvvas olub üzən necə oldu?

[61] Qubad Bağırovun dediyinə görə, Şix Məhəmməd ölənə yaxın camaat yığışır başına. Övladları deyir ki, baba, bizə bir vəsiyyətin nədi? O zaman bu şeiri deyir.

Yəqin qaldı Şərikanın elində,
Yoxdu qüvvət dəhanında, dilində.
Qolları dar bağlı, diddin əlin də,
Elə qənimlərə dözən necə oldu?

Könül, tələb etmə dünyanın varın,
Gəl nuş et Turşsudan, çıxsın azarın.
Təbiət yaradıb çölün, dağların,
Sanayıb təsbeh tək düzən necə oldu?

Həcər samovarın içər çayından,
Binəsi o qarlı dağlar payından.
Çınqıllı çeşmədən, Həsrət suyundan
Bilmərrə əlini üzən necə oldu?

Məhəmməd, gəl eylə könlünü abad,
Yetim qalırsa da Məhərrəm, Cavad[62],
Kağızsız, qələmsiz, özü bisavad
Dünyanın işlərin yazan necə oldu?[63]

## 287. QANLIMDI, QANLIM

Çox istərəm böyürtkənin xatirin,
Gedin yığın, bayda-bayda gətirin.
Turş almanı aralıqdan götürün,
Atamı yandırıb, qanlımdı, qanlım.

Meyvələrdə nəyi gördük, savaşdıq,
Nə müddətdi həsrət idik, qovuşduq.
Zoğalnan dostluq edib barışdıq,
Onun da kal vaxtı qanlımdı, qanlım.

---

[62] Məhərrəm, Cavad – Şıx Məhəmmədin oğlanları
[63] **Variant:**
Yetim qalsalar da Məhərrəm, Cavad
Dünyanın işləri qoy olsun abad.
Qələmsiz, dəftərsiz, özü bisavad
Kainatın sirrini yazan necoldu.

Ətlərdən tamahım çox düşür buda,
Bu şərtlə, doğranıb bişirilə suda.
Necə deyim durun gedək armuda?
Yarımı öldürüb, qanlımdı, qanlım[64].

Əl çəkməyə meylim yoxdur soğandan,
Aşbazı məclisdə qurtarar qandan,
Bir sadiq nemətdi bəy ilə xandan,
Onun da çiy vaxtı qanlımdı, qanlım.

Çoxdu məhəbbətim o peyvas tuta,
Hər kəs ki qurutsa, edəcək xəta.
Yaş ərik yükünü gətirsəm buta,
Dənəsin sındırma, qanlımdı, qanlım.

Danış çaydan, kələcoşdan, bozbaşdan,
İki üzü quru, bir üzü yaşdan.
Turp ilə kələmi sat, eylə başdan,
Məni utandırıb, qanlımdı, qanlım.

Deyin ölsün Məhəmmədin anası,
Qəmi-hicran çürüdübdü sinəsin.
Hər kəs qoysa qovurqanın binasın,
Çıxarın bu kənddən, qanlımdı, qanlım.

Gözüm, getmə inişilki çərəzə,
Qayıdıb tamahla baxma mevizə.
Meylim yoxdu fındıq ilə cevizə,
Dişlərimi qırıb, qanlımdı, qanlım.

---

[64]Cəmil Tağıyevin dediyinə görə, Şıx Məmmədin butası Nabat qonşu Pirveyis kəndinə zorla ərə verilir. İstəmədiyi adama ərə verildiyi üçün səhəngin çatısı ilə armud ağacından özünü asıb öldürür. Bu hadisədən bir müddət sonra Şıx Məhəmmədin həmin kəndə yolu düşür. Armud ağacını görəndə deyir, xanımı öldürən ağacdı, qoy çıxım bir ağaca. Çıxır ağaca, ayağının altındakı budaq qırılır, düşür yerə, dişləri tökülür. Şeirin bu bəndində həmin hadisəyə eyham vurulur.

### 288. OYNASIN

Başına döndüyüm yığılan canlar,
Minnət edin, qəddi-çinar oynasın.
Düşüm ayağına, dönüm başına,
Beli nazik, gümüş kəmər oynasın.

O bəstə dilbərim sözdən küsməsin,
Rəhmin, şəfahətin bizdən kəsməsin,
Özgələr köşkünə qədəm basmasın,
Qələm qaşlı, gözü xumar oynasın.

Aşıq minnət çəkər yarın eşqinə,
Pərvanələr çıraqların eşqinə,
Bağban deyər, bir nigarın eşqinə,
Nə olar ki, o bəxtəvər oynasın.

### 289. AŞIQ ƏLİ

Aşıq Əli payız vaxdı cüt əkirmiş. İndi həmin yer onun adıyla bağlıdı, Aşıq Əli səngəri deyillər. Aşıq Əlinin üç oğlu bir də özü imiş. Axşam vaxdı qaranlıxda öküzdəri açıb ötürüllər ota. Kəntdən iki kilometr hündürlükdə dağın başında idi yerləri. Yeyib içəndən sora uşaqlar deyir, ay dədə, bir Kərəmdən oxuginən, qulaq asaq. Kərəmdən oxuyur. Aradan üç gün keçir, Aşıq Əli yenir gəlir kəndə. Bibimin yoldaşı olub Ağa. Ona deyib ki, gəl gedək Bıydız kəndinə, ordan da gedək at alax, gətirək. Atın birin minillər, Arazı adıyıllar gedillər Bıydız kəndinə. Aşıq Əlinin bacısı da Bıydız kəndindədi. Gedir bacısınnan görüşür. Bacısı deyir, ay qardaş, üç gündü gəlmisən Arazın qırağına. Niyə addıyıb bu taya gəlmirsən? Deyir, ay bacı, mən indi Arazın qırağına gəlmişəm. Deyir, yox, ay qardaş, üç gün bunnan qabax sən oxumurdun Arazın qırağında? Deyir ki, ay bacı, mən üç gün bunnan qabax filan yerdə oxumuşam. Demək, səsi o qədər güclü idi ki, burda oxuyanda bacısı Bıydızda bunun səsini eşidirmiş. Bacısınnan görüşənnən sora tərpənillər bazardan at almağa. Yolda

bəylər buları saxlayır. Ağanı tanıyıllar. Deyillər, Ağa, hara gedirsiz? Deyir, gedirik Aşıq Əliyə at almağa. Deyir, tərkindəki kimdi? Deyir, Aşıq Əlidi. Deyir, Sobudakı Aşıq Əli? Deyir, hə. Deyir, atamın cuqqasına and olsun, bir oxusun, atı da, nökərin çuxasın da verəcəm ona. Dədəmin söhbətinə görə, Ağa deyir, Aşıq Əli tərkimdə tit-tir əsirdi. Dirsəyimnən vurdum ki, oxu da, səni öldürmür ki. Deyir, Aşıq Əli deyir ki, bəy sağ olsun, əli qoy qulağa. Deyir, qulağıma qoymasam da olar. Aşıq Əli özün verdi dala, oxudu. Oxuyannan sora bəy nökərə deyir, atdan düş. Çuxasını da verir, bir də at verir. Deyir, bu niyyətə gedirdizsə, bu da sizin atız. Atı da, çuxanı da götüf qayıdıllar geri.

## 290. AŞIQ MƏMMƏDRZA

Məmərzalar kəndində Aşıq Məmərza olub. Çox görkəmli aşıq olduğunnan bunu həmişə Şuşadan gəlif apararmışdar toy məclisini keçirməyə. Bir dəfə Şuşa qalasına toya gedir, xan qızının toyu varmış. Orda toy eliyəndə bəyin Bəstan addı bir qızına Məmərzanın gözü düşür. Adam tapır, onun vasitəsiynən qıza xəbər göndərillər ki, aşığın saa gözü düşüb. Qız deyib ki, mən də aşığı görən kimi aşiq olmuşam. Nəysə, razılaşıllar, toy qutarannan sora qız qoşulur bu dəstəyə, gəlillər Məmərzalar kəndinə. Həmin kənd elə aşığın adınadı. Bir müddət burda yaşıyıllar: iki oğlu olur, dörd qızı. Oğlannarını on səkkizinci ildə ermənilər öldürür, qızları da qaçıb gəlir rayonnan aşağıda bir kənd var, ora. Bir müddət keçir. Bəyə deyillər, a bəy, uşaxdı da, qoşulub qaçıb. Heç olmasa axtarax, görək hardadı. Beş altı il keçənnən sora bəy razılaşır ki, getsin qızını görsün. İyirmi beş atdıynan Şuşadan atdanıb gəlillər. Bir xor[65] xurcunu da qızıl götürür. Bizim kəndin içinnən keçəndə – ayrı yerdən yol yoxdu, – ağsakqallar görür ki, iyirmi beş atdı gəlir, içində də bəy. Kəsillər buların qabağın. – “Bəs kimsiz, nəçisiz?” Deyir, biz məmərzalara gedirik. Ağsakqallar örgənir ki, bu, Aşıq Məmərzanın qayınatasıdır. Kənd şübhələnir ki, bular Aşıq Məmərzanı öldürməyə gedillər. Deyir ki, bəy, bilirsən nə var? Bizim kəndin adəti belədir:

---

[65] Xor – iri xurcun

qonağı burda yedirdif içirtmiyincə başqa yerə buraxmırıx. Dönüb qonax olassız. Orda bir varrı kişi var, döndərir evə. Bir dənə cöngə kəsir, bulara yaxşı yemək hazırrıyır, yedirdir, içirdir. Kəndin cavannarınnan, əli silah tutannan otuz-qırx nəfər silahlandırıllar. Deyillər, gedirsız, Məmərzaların aşağısında Qurtdu bulax var, o Qurtdu bulağın altınnan, üstünnən yolu kəsirsiz. – Ora da elə yerdi ki, ordan bir atdı keçə bilir. – Əgər bular güllə atsa, iyirmi beşini də öldürürsüz.

Burdan da Aşıq Məmərzaya xəbər göndərillər ki, qayınatan gəlir. Aşıq Məmərza Məmərzalardan Qurtdu bulağa qədər gəbə döşüyür. İki dəstə aşıx təşkil eliyir, dörd dənə öküzü yıxır qibləyə, ayağın bağlıyır ki, buların ayağının altında kəssin, beş-altı dənə də qoyun. Bəy də yolda deyir ki, gedirəm. Əgər o yer xoşuma gəlsə, bu qızılı qıza cehiz verəcəm, qayıdıf gələcəm. Yox, yer xoşuma gəlməsə, neçə nəfər gəlsə, hamısın qıraceyih.

Bəy gəlir Haçaya çıxanda görür nə? Dəm-dəsgah, çalğı-filan. Çıxır bir o tərəfə baxır, bu tərəfə baxır. Yoldaşdarına deyir ki, hamız tüfəngi salın yerə. Bura bizim Şuşadan da gözəl yerdi, toxunmax olmaz. Ayaxlarının altında qurbanları kəsillər. Atdarı sürüllər gəbənin üsdüynən evə. Bir-iki gün qalıllar, yeyillər, içillər. Qızılı verir bulara, qaydıf gedillər.

## 291-294. AŞIQ BƏBİR

Aşıq Bəbirə vergi verilib. Günün birində bu yuxudan durur. Görüllər ki, bu sayıxlıyır. Başdıyıb şeir deməyə.

Əzizim Çini çinə
................................
Zülflərin sal boynuma
Çək məni Çin içinə.

Bular deyirlər, bu nə danışır? Çin nə deməkdi? Sora görüllər ki, Bəbir yığışıb gedir. – "Ayə, hara gedirsən?" Deyir, məni çağırıllar, mən Çinə getməliyəm. Etmə, eləmə. Görüllər Bəbir daa gerçəkliyir, sazın götürüb gedir. Bacısıgil bir almanı mındarrıyır, buna yedizdirillər. Onnan da bunun vergisini sındırıllar, bu gedəsi olmur.

**292.**

Bir gün Aşıq Bəbir xırmanda buğda döyürmüş. Qojalmışmış, vəlin üstündə oturmuşmuş. Görüb aşağıdan iki qaraltı gəlir. Qızına deyir:

– Ordan qaraltı gəlir, gör o nədi?

Deyir ki, dədə, iki nəfərdi, gəlirlər. Bir az yaxınnaşanda deyir ki, dədə, bular deyəsən aşıqdılar, çiynində sazları var. Bu aşıqlar gəlib çatırlar. Deyillər:

– Qızım, bu kəndin adı nədi?

Deyir:

– Gilətağ.

Deyillər:

– Burda Aşıq Bəbir var, biz onu hardan tapa bilərik? Gəlmişik onnan qabaxlaşmağa.

Deyir:

– Vəlin üstündəki Aşıq Bəbirdi.

Bu aşıqlardan biri bir az yaşlı olur. Yaşlı aşıq o birinə deyir ki, ə, gəl bəri, yaxşı kişinin adını eşit, üzünü görmə. Qız deyir ki,

Mən aşığam, kəlb[66] axtar,
Kəlb ikidir, yal axtar.
Sinəm bakqal dükanıdır,
Hər nə desən gəl axtar.

Yaşlı aşıq deyir:

– A qızım, sən onun nəyisən?

Deyir:

– Qızıyam.

Deyir:

– Gəl bəri, qızı belə deyəndə gör özü nə deyəcək. Üzü sulu ikən çıxaq gedək.

**293.**

Kabla Ələsgər Aşıq Bəbirə yazır ki,

---

[66] Kəlb – it

Bəbir, Bəbir, gəl axtar,
Qaşqallı kahal axtar.
Qadalarını alım, o nədir ki,
Hər yemişi dəyəndə,
Bir yemiş var, kal axtar.

Aşıq Bəbir deyir ki:

Qızılgülü dərməzdər,
Yaylıq üstə sərməzdər.
Qadalarını alım, ay Kabla Ələsgər,
Onu ki sən arzuluyursan,
Ta onu bizə verməzdər.

**294.**

Töycü yığan gəlib oturub İrsəvənnikdə[67]. Ordan xəbər eliyillər ki, hər kənddən adam gəlsin. Hər kənddən bir adam göndərillər. Yuxarı Gilətağda da adamlar yekə-yekə olur, Şair Bəbir isə boydan çox balaca olub. Fikirrəşillər ki, kimi göndərək? Deyillər Şair Bəbiri göndərək getsin dana, bu genə hazırcavabdı. – Əvəz əmi nətər deyibsə, mən də onu danışıram. – Bəbiri göndərillər, Bəbir gedir İrsəvənnik kəndinə. Soruşullar filan kənd, filan kənd, Gilətağ deyəndə bu çıxır qabağa. Töycü yığan belə baxıb deyir:

– Ə, o kənddə düzəməlli adam tapmadılar?

Deyir:

– Ağa, elə ayağı tutan mənəm ki, gəlmişəm.

Deyir:

– Ə, ora nətər yerdi?

Deyir:

– Ağa, ora elə yerdi ki, gərək yağa, yağa, yağa.

Deyir:

– Ədə, kəs.

Deyir:

---

[67] Arsevanik kəndi

– Hara kəsim, daşdı ey, yağmasa, quraqlıq basar.
Deyir:
– Ə, ora nətər yerdi?
Deyir:
– Qoy onu şeirnən deyim.
Deyir ki,

Üç ay yazı yağış olur sərhasər,
Üç ay yayı quraq olur müxtəsər.
Üç ay payız acı yelləri[68] əsir,
Üç ay qışı sal buz olur bu yerin.

Deyir:
– Ə, orda adam-zad qalır?
Deyir:
– Ağam, elə ayağı yer tutan mənəm ki, gəlmişəm.
Töycü yığan deyir ki, bunlardan heş nə almıyın.

## 295. A BİZİM CÜTCÜ

Yuxarı kənddən Abasalı adlı bir kişi gəlir. Malın yemi qutarıf. Gəlir ki, aşağıdan burş[69] qırıf aparsın. Vələsin budaxlarını qırır, yüklüyür eşşəyə, aparır. Kəndə qayıdanda Kalba Məmmədin oğlunnan qarşılaşır. Kabla Məmmədin beş oğlu varmış. Fikirrəşir ki, Kalba Məmmədin yəqin yemi olmuş olar, onnan bir az yem alsın. Oğluna deyir:

– Gör Kabla Məmməddə yem olar.

Kalba Məmmədin oğlu deyir ki:

Saa kimdən deyim, a bizim cütcü,
Altı eşşəyi vardı, ölüb, qalıb üçü.
O da nə yük götürür, nə də tay, Abasalı.
Bax belə işimiz olub zay, Abasalı.

---

[68] Acı yellər – Xalq arasında qara yel kimi də tanınır. Söyləyicinin dediyinə görə, qara yel elə küləkdir ki, o əsəndə bütün əkini yandırır.
[69] Burş – budaq

## 296. MƏŞƏDİ CABBARLA ŞAİR ABIŞIN DEYİŞMƏSİ

Aşağı Gilətağ kəndinin camaatı yuxarı kəndə Niyazalıgilə toy məclisinə gedir. Niyazalı yüzbaşı olmuşdu, varlı, imkanlı idi. Bizim camaat toyda iştirak eliyir, toydan çıxanda Məşədi Cabbar deyir ki:

Ayıboğandan çıxdım,
Elə bildim kosa-gəlin toyudu,
Ərşin yarım bu gəlinin boyudu.
Məclisin qabağı yeməmiş,
Boz inəyin bozbaşı soyudu.

Bunu yuxarı kəndin camaatına çatdırıllar. Orda da Şair Abış vardı. – Aşağı kəndə su yuxarı kənddən gəlirdi. Bir gün Məşədi Cabbar iki cöngəni boyunduruxluyur, baş-başa bağlıyır. Cöngələr bir-birini çəkə-çəkə gedir. Çumasürtünnən keçəndə cöngənin biri suya düşür, çəkib o birini də suya salır. İkisi də düşüb gölə murdar olur. – Şair Abış onun cavabında deyir:

Dələdən, tülküdən tutmuşdun maya,
Zay oldu malların, töküldü çaya.
Biz nə bilək şair ajdığnan gəlmişmiş toya.

Şair Abışın da dədəsi cəviz çırpanda cəviz ağacınnan yıxılıb, qarnı yırtılıb. Bunun cavabında Məşədi Cabbar deyir ki:

Dədən halaldısa, niyə ağacdan düşdü?
Qarın p..un ağzınnan qusdu.
Gəlib Malkeşməzdən su işdi,
Onun da qarnı yırtıldı, gördüm.

## 297. ƏYYUB ŞIRLANLI

Əyyub Şəfahət oğlu Əbüləzimov (Şırlanlı) 1947-ci il oktyabrın 8-də Şuşa rayonunun Şırlan kəndində anadan olub. 1970-ci ildə Məşədi Əzizbəyov adına Şuşa pedaqoji məktəbini, 1976-cı ildə V.İ.Lenin adına Pedaqoji İnstitutun filologiya fakültəsini bitirib.

1970-92-ci illərdə Şırlan kənd məktəbində, sonra Şuşa şəhəri 1 saylı məktəbdə müəllim, Şuşa rayonu xalq maarif şöbəsində məktəblər üzrə inspektor, Şuşa rayon təhsil şöbəsində müdir vəzifələrində çalışıb. Hazırda Şuşanın işğalı ilə əlaqədar Bakıda fəaliyyət göstərən Şuşa rayon təhsil şöbəsində məsləhətçi vəzifəsində çalışır. İlin ən yaxşı məktəb inspektoru adına, müxətlif mükafatlara və təltiflərə layiq görülüb. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. 2004-cü ildən "Qızıl Qələm" mükafatı laureatıdır.

## AMAN ALLAH, ŞUŞADA NƏ MÖCÜZƏLƏR VARDI

Hərdən qəmli olanda, hərdən az şənlənəndə
Çıxıb Cıdır düzünə xəyallara dalardım.
Baxıb Kirsə, Çaxmağa, Topxanaya, Qırxqıza
Daşaltının çayına, Qarqarın dərəsinə
Azərbaycan adlanan yurda körpü salardım.
Üçmıxın sinəsindən Əsgərana boylanıb
Qarabağ mahalından baxıb ləzzət alardım.
Xarıbülbül, bənövşə göz önündə durardı,
Aman Allah, Şuşada nə möcüzələr vardı?!

Qarlı aşırımların yayda buz nəfəsindən,
Quşlar da susardılar muğamat nəşəsindən,
İnsan vəcdə gələrdi xan əminin səsindən,
Duman karvan çəkirdi Xəlfəli dərəsindən,
Əliklər hürküşərdi Kosalar bərəsindən,
Gözəllər bulaq üstə – Turşsuya yollanardı,
Aman Allah, Şuşada nə möcüzələr vardı?!

Qurtum içmək olmurdu dərələrin suyundan,
Hamı dadmaq istərdi Şırlanın bal payından,
Quşçular qatığından, Zarıslı qaymağından,
Doymaq mümkün deyildi Süleymanın çayından,
Min dastan yaranardı Qarabağın toyundan.

Uzun yalda atlılar bir-birini yorardı,
Aman Allah, Şuşada nə möcüzələr vardı?!

Yaylaqlarda baharda qoyun-quzu yatardı,
Nənələr sac üstünə yuxa-fətir yayardı,
Uşaqlar Təndirgöldə çimib hərdən batardı,
Toyumuz, şənliyimiz dünyalara çatardı...
Dağların zirvəsində qar əriməz qalardı,
Meşələrdə palıdlar mışıl-mışıl yatardı,
Aman Allah, Şuşada nə möcüzələr vardı?!

Fatma nənə hanasını Şuşada toxuyardı,
Bülbüllər nəğmələrin Şuşada oxuyardı,
Gözəllər çiçəkləri Şuşada qoxlayardı.
Əyyub Şırlanlı baxıb eldən ilham alardı,
Saatlarla, günlərlə gədiklərdə qalardı,
Qarabağ torpağında xəyallara dalardı,
Aman Allah, Şuşada nə möcüzələr vardı?!

## QALIBDIR

O dağlar bizimdir, Ana Vətəndir,
Görün o yerlərdə nələr qalıbdır!
Ananı baladan ayrı salıblar,
Quzular qoyuna mələr qalıbdır!

Orda atlaz donlu zümrüd meşələr,
Çölləri bəzəyən qan bənövşələr...
Qartallı qayalar, müdhiş zirvələr
Buzdan köynək geyən sular qalıbdır!

İtib o yerlərin at kişnərtisi,
Yerlə yeksan olub Baba türbəsi....
Susub xan əminin bal zənguləsi
Qırxqızdan Qarqara yollar qalıbdır!

Cigirtkən, gülxətmi, ağ quşəppəyi,
Xəstəyə min dərman dağlar küləyi,
Böyürtkən, çiyələk, novruz çiçəyi,
Xarıbülbül kimi güllər qalıbdır!

Dağların qoynundan axan bulaqlar,
Qoyunlu-quzulu sərin yaylaqlar,
Əlikli, cüyürlü gözəl oylaqlar,
Kəklikli turaclı çöllər qalıbdır!

Şır-şır dərələrdə su dəyirmanı,
Buğda zəmiləri, taxıl xırmanı,
Arının pətəyi – dərdin dərmanı,
Yaşılbaş sonalı göllər qalıbdır!

Fatma nənəmizin sirli hanası,
Mıxtökən dağının çalma-cunası,
Qarabağ dünyası – Şuşa qalası,
Muzeylər sonası ellər qalıbdır!

Əyyub Şirlanlıyam, ürəyi qəmli,
Didərgin taleli, gözləri nəmli,
İlk insan məskənli, daş kitabəli,
Məzarları əsir ellər qalıbdır!

## DAĞLAR

Karvan getdi, köçüm qaldı,
Daşa dəydi oxum, dağlar!
Yurd yerində laçın qaldı,
Ərşə qaçdı yuxum, dağlar!

Mələr qalıb ahu yolda,
Cüyür sığıb daşda, kolda...
Arı bihuş olub balda
Çatmır sənə ahım, dağlar!

Xəbər yoxdu bizim eldən,
Dəliqanlı şır-şır seldən...
Sonalar boylanmır göldən,
De, nədir günahım, dağlar?!

Nadanları dindirməzsən,
Köhlənlərə mindirməzsən,
Kafərə baş endirməzsən,
Gəlim sənə baxım, dağlar!

Sınıq gördüm telli sazı,
Anasını gəzir quzu,
Qarabağın gözəl qızı,
Çağırır: gəl, şahım, dağlar!

Baş endirməz o namərdə,
Xəbis üzə çəkər pərdə
Arxa, dayaq olub mərdə
Mənim qibləgahım dağlar!

Zirvəsində bulud süzər,
Sinəsində əlik gəzər,
Əyyub sənsiz necə dözər,
Ay arxam, pənahım dağlar?!

## ÖPƏRƏM DAĞLARIN DODAQLARINDAN

Anam Qarabağın el-obasından,
Şuşadan söz-söhbət salmağım gəlir.
Öpüb Qarqarçayın bal dodağından,
Qırxqızın qoynunda qalmağım gəlir.

Quşçular, Malıbəyli gözəlliyinə,
Əsgəran, Xocalı düzənliyinə,
Şırlan, Sarıbaba sərinliyinə
Sazda havacatlar çalmağım gəlir.

Qalxaq Ağ qayaya biz gecə yarı,
Sürək köhlənləri Turşsuya sarı,
Qarbulaq[70] eyləyək yay fəsli qarı,
Qıy çəkib bərəyə dolmağım gəlir.

Dərək Məmişlərdən kəkotu, zirə,
Kosalar meşəsin eyləyək bərə.
Yataq Şüşülüdə daşa, səngərə,
Çöllərə səs-səmir salmağım gəlir.

Xələfli, Mirzələr, İmanlar, Çaykənd,
Edək Səfxanları qonaqlığa bənd.
Əgər itməyibsə məndə olan zənd,
Keçili moruğun yolmağım gəlir.

Daşaltı, Turabxan, Zaman pəyəsi,
Xanzadə bulağı, Əsgər dəyəsi.
Burdadır hər dərdin çarə, davası,
Loğmanın dediyin bilməyim gəlir.

Yeddiqat, Dövtələb, bizim Xankəndi,
Topqapı, Xəzinə, Qalanın bəndi.
Bir az yuxarıda Kərkicahandı,
Baxanda utanıb solmağım gəlir.

Göy tala, Qaybalı, Canhəsən harda?
Çanaxçı, Cəmilli, Paşalar darda,
Şuşa torpağında, vətən Şırlanda
Dədəmin yanında ölməyim gəlir.

Zarıslı, Nəbilər, el Allahqulular,
Xanalı, Seyidlər, İmamqulular
Dağların döşündə yurd Şahverdilər,
Elində bir nəfəs almağım gəlir.

---

[70] Qarbulaq etmək – qarı suda həll etmək

Yayın istisində Şırşırın üstə,
Şəfa tapa bilər hər adda xəstə.
Çəkilib xəlvətə sakit, ahəstə,
Qarqarda xəyala dalmağım gəlir.

Ulaslı bulaqdan qalx Çirişliyə,
Mıxtökəndən burul, gəl Lüləliyə,
Güngörməz dərədən keç Yiyəliyə
Köçkün sözün addan silməyim gəlir.

Qala dərəsindən Üçdərələrə
Çap köhlən atını, en bərələrə.
Boylan Xanımlara, Ərimgəldiyə
Uzaqdan baxmağa gülməyim gəlir.

Meşəli kəndində, tala qoynunda,
İsa bulağında, Dəvə boynunda,
Doğma torpaqlarda – ana qoynunda
Körpəcə bir uşaq olmağım gəlir.

Deməyin Şırlanın çörəyin yeyib,
Deməyin Şuşanı sahibsiz qoyub,
Deməyin ki, Əyyub dağlardan doyub
Deyir ki, şəhərə gəlməyim gəlir.

## GEDİR

Ruh yüyrək at kimidir,
Dağ-dərəni aşıb gedir.
Ruh insanın düşüncəsi
Çaylar təki daşıb gedir.

Çalış ruhu vermə əldən,
Bal toplayır arı güldən.
Dil öyrəndim mən bülbüldən
Könül nəğmə qoşub gedir.

Göydə uçan yerə baxır,
Qalaysız mis olur paxır,
Əzrayıl adamı yıxır,
Ömür atdan düşüb gedir.

Dəvələr yolu tanıyır,
Xəsis sərvətin sanayır,
Paxıllar mərdi qınayır,
Adam yolu çaşıb gedir.

Ocaq yurda əmanətdir,
Vəhşilik qurda adətdir,
Söz qanana bir sərvətdir,
Əyyub sözlə çoşub gedir.

## AXTARIR

Xəyalın yolçu tək düşüb çöllərə,
İtmiş obaları, eli axtarır.
Xallı kəpənəktək qonub güllərə
Nəğməkar dodağı, dili axtarır.

Yatıb gecələyir çöldə, çəməndə
Yorğa səməndini vurur kəməndə...
Ahu anasının döşün əməndə
Könül ən ətrili gülü axtarır.

Bu xəyal səksənir quzu səsinə,
Diz çökür çöllərin yaz nəfəsinə,
Uçur Bağırqanın ağ zirvəsinə,
Damcı bulaqları, seli axtarır.

Qaldırır yıxılmış məzar daşların,
Tanıyır şəhidin, can sirdaşların...

Çağırır qənşərdən dost-tanışların,
Qədim cığırları, yolu axtarır.

Heyrətdir dağların axar-baxarı,
Boz təkə dəstəsin çəkir yuxarı.
Ay Əyyub Şırlanlı, sehrli arı
Məhəbət dünyasın – balı axtarır.

## QOPARAR

Qorxaq qaçıb qoçulanar qıraqda
Qılınc, qəmə qoyulanda qınına.
Qarğa-quzğun qıy qaldırar qabaqda
Qəhrəmanlar qəltan qalsa qanına.

Qəflət qalxsa, qəhmər qalxar qohumlar,
Qıy qanını qanın qana qıyana.
Qız qaçanda qohum-qonşu qınanar,
Qıy qaldırma, qıyla qıydan qıya nə?!

Qısır qalar qatır qurdla qiyama,
Qurbanlığa qoyun-quzu qıyarlar.
Qartal qonar qayaların qıyına,
Qorqudumun qalxanıdır qayalar.

Qız qeyrətin qoruyubdur qalalar,
Qar qalanda qurd qarışar qışına.
Qov qığılcım, qordan qala qalanar,
Qara qız da qürrələnər qaşına.

Qeyrətsizlər qeyrətlinin qiybətin
Qıla-qıla qeyrətsizə qatarlar.
Qeyrətlilər qeyrətlinin qəflətin
Qasırğanın qucağından qoparar.

# ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR

1. Aca çörək ver, yalavaca paltar. Məkkə sənin qapındır. *Yəni, yetimə-yesirə kömək elə, elə bil gedib Məkkəni ziyarət eləyib gəlmisən.*

2. Ağ qurşaqlım olsun, qırmızı qurşaqlım harda olsa gəlib çıxar.
= Qaraçuxalım sağ olsun, ağdolaxlı hardan olsa, tapılar.
*Yəni, oğlum olsun, qız hardan olsa tapılar.*

3. Ala qarğa çoxbilmişdiyindən duzağa düşər.

4. Analı qız ərə gedər, anasız qızın sözü gedər.

5. Analı qız bəlli qız,
Anasız qız dəlli qız.

6. Arpa çörəyin yoxdusa, buğda dilin olsun.
= Buğda çörəyin yoxdu, buğda sifətin olsun.
*Yəni, sənin çörəyin yoxdursa, imkanın yoxdursa, heç olmasa xoş üzün, xoş sifətin olsun.*

7. Arx suyu, dağ suyu. *Yəni, dağ suyu içən daha sağlam olur.*

8. At at olunca, yiyəsi mat olur.

9. At saxlıyan at minər,
Don saxlıyan don geyər.

10. At təpiyinə at dözər.

11. Ata qamçı, eşşəyə biz.

12. Ayran ver ayransıza,
Qalmaz bu dövran sizə.
Biz də bir inək allıx,
Vermərik ayran sizə.

13. Bağçı bağın qırdı, bağban salxım qırmadı.

14. Bartazda iki arvad dalaşanda biri o birinə deyir: Mənim iki küpə çətdəquşum var. Bəs sənin nəyin var?

15. Biri qaraçılıq eləyəndə Şəfibəylidə deyirlər: Nə Əlallahı adamdı.

16. Böhtan yandıranı köz yandıra bilməz.

17. Çay həmişə qızıl alma gətirməz. *Yəni, var-dövlətin qədrini bil.*

18. Dama-dama göl olur, dada-dada heç olur.

19. Dayı gəlib deyir ki, bala, ataaz ölənnən sora irəli gedirsiz, yoxsa geri? Onlar da deyir ki, ocağımız yananda geri gedirik, sönəndə irəli.

20. Dəyirmançı qızın verdi, ardın da üsdəlik.
*Hamı çalışırdı ki, dəyirmançının qızın alsın ki, aj qalmasın. Bilirdi ki, dəyirmançının qızın alsa, həmişə çörəyi olajax.*

21. Dəyirmançı dəyirmanın ardınnan yeddi qız saxlıya bilər.
*Dəyirman daşı fırranndıxca unu tulluyur təknəyə, qırağa tökülən isə dəyirmançının idi. Üç gün, beş gün yığılırdı ora, bir dənə tüklü qoyun dərisin atırdı daşın arxasına, sıyırıb unu tökürdü. Baxırdın ki, bir kisə un çıxır. Özü də o un çox yumuşax un idi. Daşın altınnan təknəyə tökülən üyünən un olur, amma qırağa tökülən unun hamısı toz şəklində olurdu.*

22. Dəyirmandan gələnnən fətir umarlar.

23. Döyüb söyən ərim yox,
Yel aparan yunum yox.
*Söyləyicinin dediyinə görə, kimsə ona deyəndə ki, səni işindən-yurdundan elədim, ona bu cavabı verərdi.*

24. Düyə göz eləməsə, kəl sıçramaz.

25. El yığıldı köçməyə, dəli qız qulağın deşir.

26. Elə hava çaldır oynaya biləsən.

27. Elin axsağından, korundan yapış.

*Son vaxtlara qədər bizim adamlar*[71] *çalışıb ki, nə özgədən qız alsınlar, nə də özgəyə qız versinlər. Deyirdilər ki, elin axsağından, korundan yapış. Kəndindəki qız o biri qızdan şərəflidi. O birindən sənin xəbərin yoxdu, onun adına gedirsən sən.*

28. Eşşək eşşəkdi, olsa da çulu,
Adam adamdı, yoxsa da pulu.

29. Ev bizim, sirr bizim, heç kimə demə, qızım.

30. Ələyi vurub qoltuğuna, heç kimi almır zırtığına.

31. Əli daşdı buzovçu,
Gözü yaşdı quzuçu,
Yiyər, yatar naxırçı,
Kefdi çobanın işi.

*Buzov qaçağan heyvan olduğundan onu otaran da daim əlində daş gəzdirir ki, heyvan qaçdıqda onu qaytara bilsin. Quzu otaran da daim gözü yaşdı olur.*

32. Əlimiz aşa çatanda başımız daşa çatdı.

33. Get kələyi Müstəcəbə gəl.

*Müstəcəb uzun bir kişiydi, kinoteatrda qapıda dururdu. O vaxdı da on qəpiynən iki qəpik eyniydi. Qaranlıqda on qəpiklik əvəzinə Müstəcəbin əlinə iki qəpiyi verirdin, buraxırdı səni içəri. Ona görə biri o birinə kələk gəlmək istəyəndə deyirdi ki, get kələyi Müstəcəbə gəl.*

34. Gəlinim gəlin olunca, oğulum oğul olsun.

---

[71] Ağalı kəndi

35. Gəlin deyir:
Mən gəlmişəm qənt qabına qənt qoyam
Gəlməmişəm ki, ürəyimə dərt qoyam.

36. Göy öküzün ədaları yadıma düşəndə gönünnən çarıx geymək isdəmirəm.

*Deyir, birinin öküzü oluf, bejərif, eliyif. O vaxd öküzü arabaya qoşurmuşdar. Öküz ev yiyəsinə çox zülüm eliyif. Sora bunu kəsif satıf. Deyiflər, gönünnən özə çarıx tik. Deyif ki, onun ədaları yadıma düşəndə gönünnən çarıx geymək isdəmirəm. Onu insannar başqalaşdırmışdı. Deyir, filankəsin ədaları yada düşəndə onun nə toyunda, nə yasında oturmax isdirəm.*

37. Hamı getdi ərə, bu qaldı fərə.

38. Həddini aşan qəbirstanlığa getsin.

*Üş dost varmış, onnar həmişə oğurruğ eliyirmişdər. Vaxt olur, yoldaşın biri ölür. Öləndə bunu aparıb dəfn eliyillər. İl tamam olanda fikirrəşillər ki, filan varrının evini qarət eləsinnər. Bulardan biri deyir ki, sabah dostumuzun ilidi, gəl gedək qəbirsannığa, onun qəbrini ziyarət eliyək, onnan sora gedək. Gedillər ki, bunun qəbiri baxımsızdı, sel aparıf, su aparıf, ot basıf. Təmizdiyillər. Gəlif deyillər, yox, daa oğurruğa getməyək, oğurruğu tərgidək. İndi oncun deyillər ki, həddin aşan qəbirsannığa getsin.*

39. Həyasızda ar olmaz,
Səxasızda var olmaz.

40. İki sarımsax yeyən bir-birinin ağzınnan iy hiss eləməz.

*Söyləyicilərin dediyinə görə, bu məsəli Qəşəm Aslanov çəkərdi. Bununla demək istəyirdi ki, yeyinti yeyən, rüşvətxor bir-birinin tərəfini tutar.*

41. İnsan qulağından ölər, qulağından yaşıyar.

*Yəni, insan yaxşı söz eşitsə, niyə ölməlidir? Pis söz eşitsə, dərd için yeyəjək, tez öləjək.*

42. İşi möhkəm tut ki, qonşunu oğru görmə.

43. Keçi deyər, qarnımı doyur, qora quyla,
Qoyun deyər ki, qarnımı doyur, qara quyla.

*Yəni, qoyun sərini sevən heyvandı, amma keçi istini sevir.*

44. Külü küllühdən götür, küllüyü təpələrcən olsun.

*Yəni, oğul, qız isdiyəndə onun zatına-kökünə bax. Küllüyünə bax gör nə qədər küllüyü var. Və yaxud da qız verdin, onun arxasına, dayağına bax.*

45. Qanan qanmayana borcludur.

46. Qanana milçək səsi saz olar,
Qanmayana zurna-qabal az olar.

47. Qaraquş deyif ki, dayım sar olmasaydı, kotanın zincirini qaldırardım.

*Yəni, nə vaxt ovu tuta bilmirsə, deyir dayıma çəkmişəm.*

48. Qatıq tökülsə, yeri qalar,
Ayran tökülsə, nəyi qalar?

49. Qız anadan görməsə, xanım olmaz,
Oğul atadan görməsə, ərən olmaz.

50. Qız keyxanı ev hara,
Oğul keyxanı kənd hara.

*Yəni, qız səriştəsiz olsa, ev xaraba qalar, oğlan səriştəsiz olsa, kənd xaraba qalar.*

51. Qonşu xayın olmasa, bağ çəpəri neynər.

52. Qonşu payı qarın doyurmaz, o da vaxtında gəlməz.

53. Qorxma o qışdan ki, qabağına yaz gələcək. Qorx o yazdan ki, qabağına hərrənib qış gələcək.

54. Qurd gələndə vay birinin halına. Varrıya dəyməz, həmişə kasıfdan aparar.

*Keşmişdə üç qardaş varmış, bu qardaşdar çox kasıvımış. Gedif özgəsinə nökərçilik eliyirmişdər. Nökər haqqı kimi biri bir inək alırmış, biri bir qoyun alırmış. Bir gün bu qoyun haqqı alan nökər qardaş Sarı baba dağının altında qoyunnarı otaranda canavar gəlif ürküşdürür qoyunnarın. Ağanın qoyunnarı salamat qalır, bu nökər haqqı alanın qoyunnarı bərədən düşür, ölür. İndi oncun deyillər ki, qurd gələndə vay birinin halına. Varrıya dəyməz, həmişə kasıfdan aparar.*

55. Mərd özüynən tanınar, namərd özgəynən.

56. Motal yiyən it suya gələyən olar. *Yəni, adətkar olar.*

57. Müftə bit tapsa, sinəsinə atar.

58. Pirim axsax, mən də çolax.

*Deyilənə görə, Ovçu Pirim düşüf ceyranın dalınca. Nə qədər gedif, ceyranı vura bilmiyif, qayıdıf gəlifdi. Ceyran da axsıyırmış. Deyif, onsuz da maa çatmıyajax. Pirim axsax, mən də çolax. Bir-birimizə heç nə eliyə bilmiyəjeyih.*

59. Piyada atlıya lağ eylər.

60. Oğul da bir evdir, qız da bir evdir.

*Söyləyici oğul gözləyib, amma qız uşağı olan ailəyə təsəlli vermək üçün bu misalı çəkdi.*

61. Orağı kürk vaxdı, kürkü orax vaxdı.

*Yəni, ot biçəndə kürk haqqında fikirləş, qışda kürkü axtaranda oraq haqqında fikirləş.*

62. Özünü anrımış biləndə, yoldaşını ölmüş bil.

63. Özünü gözlə el ağzınnan, yol ağzınnan, sel ağzınnan.
Özünü gözlə bəylikdən, səylikdən, göylükdən.
Özünü gözlə ağlar gözdən, əsən dizdən, küsən qızdan.

64. Səksən, doxsan,
Bir gün dünyada yoxsan.

65. Sözün yeyən özün yeyər.

66. Sözünü unutma, dərdini unut.
*Söyləyici bu ifadəni birinin sözünü kəsəndə işlətdi.*

67. Süddü aş yaxşı şeydi, bir gün sizdə, bir gün bizdə.

68. Şırlana getdin ayax götür, Xəlfəliyə getdin çörək götür, Malıbəyliyə getdin yorğan-döşək götür, Zarıstıya getdin çomax götür.

69. Şuşanı görən yazıx, görmüyən yazıx. Görən deyir, ay allah, görəm bir də oranı görə bilərəmmi. Görmüyən də deyir ki, o qədər Şuşa demisiz. Görəm ora necə yermiş.

70. Tox evin ac pişiyi. *Ana bu misalı yemək yeməyən qızına çəkir.*

71. Tüstü kötükdən çıxar. *Yəni, ağsaqqal adamdan yaxşı sözlər çıxır.*

72. Toyuğa deyiblər, sənin dərdin yoxdur. Deyib:
– Mənim dərdim hamıdan çoxdur. Oğlum ərimdir, qızım da günüm. Mən çəkəni heç kim çəkmir.

73. Uzun adamdan igid olmur, olanı da ələ düşmür.

74. Yayda ayransız, qışda yorğansız.

75. Yayda yorğanını götür, qışda özün bilərsən.

76. Yeddi arvadın ağlı bir toyuğun ağlı qədər yoxdur.

*Şofer 28 Maya getmək istəyən qadınlara məsləhət görür ki, avtovağzaldan ora birbaşa marşurut yoxdur. 96 saylı marşurutla 20 Yanvara, ordan başqa marşurutla 28 maya getsinlər. Qadınlar şoferin məsləhətinə məhəl qoymur və birbaşa marşurut tapacaqlarına ümid edirlər. Şofer buna uyğun olaraq, yuxarıdakı atalar sözünü çəkir. Arxasınca aşağıdakı lətifəni söyləyir.*

Dörd arvad inəyi naxıra sürür. Başları o qədər söhbətə qarışır ki, nə vaxt axşamın düşdüyündən xəbərləri olmur. Bir də o vaxt başlarını qaldırıllar ki, naxırçı naxırı gətirir. Deyillər:

– Allah evi yıxsın, bunu nə tez gətdin, ə? Sözümüz ağzımızda qaldı, qutarammadıx.

77. Yeməklə ömür yarıdı.

*Söyləyicinin dediyinə görə, atası həmişə anasına deyərdi ki, yeməklə ömür yarıdır. Mənim yeməklərimi yaxşı bişir, həl bişir.*

78. Yeriyənnən yumağ açır.

*Yəni, çoxbilmiş adamdı, hər şeydən qazanc götürür.*

79. Yetim qəmli baxışınnan, nəmli gözünnən tanınır.

80. Yetim oturanda yeri dar eliyir, duranda kölgə salır.

81. Yol xayını ol, yoldaş xayını olma.

## TAPMACALAR

*Çöpədərə kənd sakini Xanməmməd müəllimin dediyinə görə, axır çərşənbədə ən çox tapmaca oyunu oynuyardılar (Söyləyici bu oyunu tapmaca satardıq kimi təqdim edir). Biri tapmaca deyərdi, kim tapmacanın cavabını tapmasa, onu odun gətirməyə, müəyyən ərzaq dalınca göndərərdilər. Bununla həm əylənərdilər, həm də bayram yeməyini bişirmək üçün lazım olan ərzağı toplayardılar.*

1. İki oğlan bir qızı sevir. Qız çıxılmaz vəziyyətdə qalır ki, mən buların hasına gedim. İkisini də sevir daa. Oğlannarın ikisi də elçi göndərir. Qız deyir, mən ikisini də sevirəm. Necə eliyim, mən buların hansına gedim? Buların ikisi də xoşuma gəlir. Nəysə, oğlannarın ikisi də gəlir. Deyillər, indi birimizi seç. İkimiz də səni alası döyülüh. Deyir, sizi belə seçə bilmərəm. Gedin beş yüz metrədən minin öz atınıza. Kim mənim yanıma axırıncı gəlsə, ona gedərəm.

Nəysə, bular gedillər, dayanıllar. İndi bu gözdüyür ki, o biri oğlan getsin, özü axıra qalsın. O birisi də gözdüyür ki, o gessin, bu axıra qalsın. İkisi də isdiyir axırıncı gessin. Qız desə birinci, ikisi də çapar. Nəysə, dayanıllar. Bir dənə nurani kişi gəlir buların yanına, iki söz deyir. Bu sözü deyənnən sora olar ikisi də çapa-çapa gəlir qızın yanına. İndi kişi olara nə dedi ki, olar ikisi də çapa-çapa gəlir qızın yanına.

*Açması:* Qız deyif, kimin atı mənim yanıma ikinci çatsa, ona gedəcəm. Ağsaqqal kişi gəlir bulara deyir ki, atdarı dəyişin. Bu onun atını minir, o bunun atını. Hər ikisi isdiyir tez çapsın ki, at yiyəsi uduzsun.

2. Çoban bir şahın qızına vurulur. Deyillər, sən o qızı nətər alassan? Deyir, siz baxın, mən nətər alajam. Çoban gedir şahın sarayına. Əlində dəyənəyi, ayağında da üşburun çarıx olur. Şah gəlir bunnan görüşə. Çoban deyir:

– Şah sağ olsun.

Bir yiyəsidi, bir özü,
Bir burnudu, qırx gözü.
Tapsan qızı maa vermə,
Tapbasan qız mənimdi.
Şah tapa bilmir, çoban qızı alır.

**(çarıq)**

3. Şair deyir çeşmələr,
Maral gələr eşmələr.
Səkkiz ağlar, doqquz gülər,
Dörd hingildər, beş mələr.

**(Quran, namaz, salavat)**

4. Ləmbəranın başındayam,
Həştat səkgiz yaşındayam.
Hələ də uşağam, genə də uşağam.

**(teşi[72])**

5. Bir qonax gəldi haxdan,
Bir quzu kəsdim nahaxdan.
Nə qonağın dişi var,
Nə quzunun sümüyü var.
***Açması:*** **Haxdan gələn qonaq uşaqdı, nahaqan kəsilən quzu məmədi. Onun dişi yoxdu, bunun da sümüyü.**

6. İki sallanan,
Bir tullanan.
İki çəkdim,
Bir bərkitdim.
Quru qoydum,
Yaş çıxartdım.

**(cilov)**

7. Buxarı ha, buxarı,
Tüstü çıxır yuxarı.
Cənnətdən bir oğlan çıxdı,
Çiyni yaşıl çuxalı.

**(...........)**

8. Bizim bir itimiz var,
Yetmiş yeddi dili var.
Ağzı yox, adam tutar,
Taf görüm, taparsan?

**(gicitkan)**

9. Qəssabbaşı, yüzbaşı,
Sənnən bir at isdərəm:
Nə erkəh olsun, nə dişi,
Nə yayı olsun, nə qışı.

**(göbələk)**

10. Əzizim, qəssab ağlar,
Sarı don qəssab ağlar.
Ölən qoyun ağlamaz,
Öldürən qəssab ağlar.

**(soğan)**

11. Altı dəri, üstü dəri,
İçində bir ovuc darı.

**(əncir)**

12. Bir sandığım var, mərəndi,
Nə qıfılı var, nə bəndi.

---

[72] İp əyirmək, corab toxumaq üçün istifadə olunan alət.

Elə açılır, elə yumulur,
Heş kəs bilməz o fəndi.
**(kələm)**

13. Nədəndi, ay nədəndi,
Nərmənazih bədəndi.
Pilov üsdə məskəni,
Görək rəngi nədəndi?
**(zəfəran)**

14. Əyri-əyri boy atar,
Ayağı yerə batar.
Salxım-salxım sallanar,
Altında sarvan yatar.
**(söyüd ağacı)**

15. Halalar, ay halalar,
Dağda kəhlih balalar.
Nə kiçiyi böyüyər,
Nə irisi balalar.
**(daş)**

16. Qara qız qapılar gəzər.
**(sac)**

17. Ha yüyürə, ha yorula,
yəəsiynən bir çata.
***Açması:*** **İt. Bundan qabaq yaylağa gedərmişdər. Yühlənərmişdər qatıra, ata, arabaya. Hər kəsin iti də gedirmiş. İt dayanan deyilmiş. Gedirmiş, gedirmiş, yiyəsin görmürmüş. Yiyəsi ona çatanda təzədən yola düşürmüş. Axırı gedib yaylaxda bərabərləşirmişlər.**

18. O tayda duran kişi,
Əlində dəmir şişi.
Mənə bir ulaq yolla,
Nə erkək olsun, nə dişi.
**(.......)**[73]

19. Zir kilim, zincir kilim.
Çırpammaram, ağır kilim.
**(yer kürəsi)**

20. Hini-hini kəhər at,
Hinisi gözəl kəhər at.
Ayağında qıl sicim,
Düyünü gözəl kəhər at.
**(üzərrik)**

21. Qara bəy atdan düşdü,
Uşaxlar sevinişdi.
**(qazan)**

22. Ərəblər, ay ərəblər,
Qıldan geyib corablar.
Ev yanına qoymuyun
Evin yanın xarablar.
**(camış)**

---

[73] İsrar etməyimizə baxmayaraq, söyləyici tapmacanın cavabını demək istəmədi.

23. Həlindədi, həlində,
Ətəkləri belində.
Gecə-gündüz yol gedər
Yerindədi, yerində.
**(yüyrük)**

24. İlim-ilim düyməsi,
İlim xətim düyməsi.
Hər kəs onu tapmasa,
Yeddi ilin xəstəsi.
**(istiot, sarıkök)**

25. Üç qardaşıx, üçümüzün də döşü qara.
**(ocaq daşı)**

26. Dörd qardaşıx, dördümüz də bir gölə daş atırıx.
**(inəyin əmcəyi)**

27. Səkkizi sədəm,
Dördü xurmadan,
İkisi nədən?
**(İtin, inəyin və keçinin əmcəyi. İtin səkkiz, inəyin dörd, keçinin iki əmcəyi olur).**

28. Beş qardaşıx, beşimiz də bir işnən məşğulux.
(corab milləri)

29. Tap-tapmaca,
Gül yapmaca.
Emranı
Sakqalı baca. **(qonşu payı)**

30. Bir burnu var, qırx gözü.
**(çarıq)**

31. Qocaca babam dağdan ilxı endirir.
**(ülgüc)**

32. Gup-gupbuldar,
Su gupbuldar,
Heyva çalar,
Nar oynar.
**(dəyirman)**

33. Dağda dalar gördüm,
Suda Süleyman gördüm,
Yatar-gəvşər daş gördüm,
Duzsuz bişmiş aş gördüm.
**(gicitkan, balıq, dəyirman daşı, tərəh[74]).**

34. Dəyirmana dən getdi,
Gedən ona bənd oldu.
Yüz iyirmi bir taxta
Bir mismara bənd oldu.
**(kitab)**

35. Dəyirmana dən getdi,
Gedən ona bənd oldu.
Toxunmamış çuvalda
Üyünməmiş un gəldi.
**(iydə)**

[74] Tərəh – doşab və undan bişirilən duzsuz yemək.

36. Yumuru qaya, yoxuşu yox,
Ağ köynək, tikişi yox.
**(yumurta)**

37. Bizdə bir kişi var qoca qovqandı,
Qırx səkkiz yaşı var dini-imandı,
Hələ ölmüyüb, genə cavandı.
**(il)**

38. Ayı ay altda gördüm,
Ayı say altda gördüm.
İyirmi dörd ulduzu
Dörd ayın altda gördüm.
**(atın nalı, mıxları)**

39. Bu axşam şənbədi,
Gör yadıma düşən nədi?
Ocaq yanmaz, tüstü çıxmaz
Bəs ocaqda bişən nədi?
**(pendir)**

40. Mozu mozudu,
Yerdə qalan
Ayağımın tozudu.
**(dəyirman)**

41. Alaca məcərə suda oynar.
**(düyü)**

42. Bu dərədə ordu var,
Ordu köçüf, yurdu var.
Mən bu dərədən qorxuram
Adam yeyən qurdu var.
**(qəbirstanlıq)**

43. Gedən leyli,
Gələn leyli,
Bir qıç üsdə
Duran leyli.
**(qapı)**

44. Zər oğlu gəlməmiş
Zər divardan yenməmiş.
**(açar, qıfıl)**

45. Addım atar atası,
Yaymaq atar anası,
Dünya gözəli bayısı
Ellər dəlisi qardaşı.
**(tənək, üzüm)**

46. Üstü taxta, altı daş
Səkkiz ayaq, iki baş.
**(vəl, vələ qoşulmuş öküz)**

## BAYATILAR, AĞILAR

1. Xoş gördük, dərə, səni,
Xoşnişin dərə səni.
Xoş o kəsdərin halına ki, Zəngilan,
Bir də gələ, görə səni.

2. Ay gedən, səninənəm,
Getmə dur, səninənəm.
Bülbül gülnən oynasa da, Zəngilan,
Mən elə səninənəm.

3. Bu yol Cavada gedir, bala.
Axıb Cavada gedir.
Balası ölən analar,
Gör nə havada gedir.
*Mən görmüşəm, heş kəs gör-
məsin bala dağı.*

4. Bağda üzüm ağacı, bala.
Üzüm-gözüm ağacı.
Bağa dəhrəli girib,
Kəsib bizim ağacı.
= Mən aşıx, üzüm bağı,
Nar bağı, üzüm bağı.
Bağa dəhrəli girib
Doğradı bizim bağı.
*Qaynının ölən oğlanlarına həsr
edib deyir.*

5. Mən aşıx, bala dağı,
Bürüyüb lala dağı.
Hər yaralar sağalsa,
Sağalmır, vallah, bala dağı.

6. Aşıq haradan gəldi,
Göydən, qaradan gəldi.
Göydə bulud yoxudu, Allah,
Bu sel haradan gəldi?

7. Dağlar başı buz bağlar, bala.
Divləri yarpız bağlar.
Cavan ölənlərimə deginən bəlkə
mən öləndə
Cinazamı düz bağlar.
= Savalan buz bağlar,
Yannarı yarpız bağlar.
Oğulsuz ataların
Çənəsini qız bağlar.

8. Dağları gəzdim, gəldim,
Daşdarın düzdüm, gəldim.
Getdim qəbirstannığa, ölənnəri
gördüm,
Əlimi üzdüm, gəldim.
= Dağları gəzdim, gəldim,
Güllərin üzdüm, gəldim
Evimi tərk edəndə
Canımdan bezdim, gəldim.

9. Dedi, dağları gəzən mənəm,
Daşdarı düzən mənəm.
Cavan balası ölə
Al geyib bəzənmərəm.

10. Dağlara binə gəlləm,
Gedərəm, genə gəlləm.
Eşitsəm ki, ay bala, sən gəlirsən,
İmana, dinə gəlləm.
= Bir də Laçını görsəm,
İmana, dinə gəlləm.

11. Qardaşdar, ay qardaşdar.
Yağış kəsər, qar başdar.
Ölsə bajılar ölsün,
Heç ölməsin qardaşdar.

12. Dağlara dolu düşər,
Qar yağar, dolu düşər.
Qəbirimi güneydən qoyun,
Bəlkə anamın yolu düşər.
= Bu dağa dolu düşüb,
Dolunun bolu düşüb.
Nə olar bir gün eşidəm,
Bu səmtə yolun düşüb.
= Dağlara dolu düşər,
At gələr, nalı düşər.
Məzarımı yol üsdə qazın,
Nənəmin yolu düşər.

13. Dağların lalasıynan,
Gülünün lalasıynan.
Burda bir kişi ölüb,
= Burda bir cavan ölüb,
Yanının balasıynan, bala.

14. Aşıx meşəli yerdə,
Gül-bənövşəli yerdə.
Bala, səni vıran elə vırdı,
Qaldın döşəli yerdə.

15. Mən aşıx, neynim saa,
Düşübdü meylim saa, ay bala.
Mən dönsəm, üzüm dönsün,
Sən dönsən, neynim saa.

16. Mən aşıx, mərd əkərəm, bala.
Mərdi yox, namərd əkərəm.
Qoşaram qəm kotanın
Şumlaram, dərd əkərəm, bala.

17. Dağlar marala qaldı,
Endi, marala qaldı.
Zəngilan, sənin yollara baxmaxdan
Vallah, gözümdə sarı qaldı.

18. Mən aşıx, mey dərdi,
Mey dərdi, qora dərdi.
Bu dünyada sağalmaz,
Aparram gora dərdi.
*Heç bir balanın dərdi bu dünyada sağalmır, aparırıq özümüznən gora.*

19. Gejələr, hay gejələr
Molla dərsin hejələr.
Mən nənəmsiz dözmərəm,
Anam mənsiz nejələr?
= Mən balamsız dözmərəm
Balam mənsiz nejələr?

20. Gejələr mənsiz keşdi,
Bilmirəm nejə keşdi.
Mənim günüm ax-vaynan, İlham[75],
Səninki nejə keşdi?

[75] Söyləyicinin vaxtsız rəhmətə getmiş oğlu

21. Buxarı qurum olar,
Od yandı, qurum olar.
Qardaş gələn yollara
Bacılar qurban olar.
= Qardaşı ölən bacıya,
Yamanca zülüm olar.

22. Əlin xına tutmasın,
Çevir günə, tutmasın.
Çünki məni tərk etdin getdin, bala,
İşin binə tutmasın.

23. Mən aşıx, kimlər ağlar?
Kimim var, kimim ağlar?
Mən öldüm, sən ağladın,
Bəs məni kimlər ağlar?

24. Mən aşıx, kimə gedim?
Kimim var, kimə gedim?
Canım bir dərdə düşüb,
Dərmana kimə gedim?

25. Əlimdə var barama,
Həkim, dəymə yarama.
Bajım tutsun lampanı,
Anam baxsın yarama.

26. Gəl maa dəymə, dəymə.
Əl vurma, dəymə, dəymə.
Təbibsən, irəli dur,
Naşısan dəymə, dəymə.
= Arazın kür üstünnən,
Karvanı sür üstünnən.
Təbibsən, dərman eylə,
Naşısan, dur üsdümnən.

27. Mən aşığam, al mənnən,
Yaşıl mənnən, al mənnən.
Oğul, ya qayıt evə gəl,
Ya bu canı al mənnən.

28. Yeri-yeri, xəstə, yeri,
Xəstəsən, asta yeri.
Xəbər verin ellərə,
Yığılsın xəstə yeri.

29. Yeri-yeri hana yeri,
Qurulub hana yeri.
Neçə xala yığılsa,
Verməz qoca ana yeri.
= Yeri-yeri, xəta, yeri.
Verməsin xəta yeri.
Neçə əmi-dayı yığılsa,
Verməz bir ata yeri.

30. Ayrıldıq yalan-yalan,
Evinə düşdü talan.
Ayrılsın, qavışmasın
Bizi ayrı salan.

31. Bağında gavalı var,
Yeməyə gavalı var.
Buyün çölə çıxma,
Əzrayılın zavalı var.

32. Bağın qır, ganal[76] eylə.
Vır boynun, ganal eylə.
Çəkdiyin əziyyətdəri
Sən mənə halal eylə.

[76]Ganal – tutun şaxı

33. Bağında badam olmaz,
Yeməyə badam olmaz.
Çox da şəkilə yalvarma,
Şəkildən adam olmaz.

34. Ceyranam, çölə gəlləm.
Otdaram, gölə gəlləm.
Əgər imkanım olsa,
Qayıdıf sizə gəlləm.
= Əgər gələsi olsam,
Sizin elə gəlləm.

35. Aşıq, elə gəlmərəm,
Ceyran, çölə gəlmərəm.
Sizin eldə nəyim var?
Sizin elə gəlmərəm.
= Aşıq eldə nəyim var?
Ceyran, çöldə nəyim var?
Sizin elə gəlmərəm
Sizin eldə nəyim var?

36. Günün duran vaxtıdı,
Durub duran vaxtıdı.
Əzrayıl ava çıxıb,
Səni vıran vaxtıdı.

37. Yarpaqlar bir-bir düşər,
Atdanar bir-bir düşər.
Sənnən keçirdiyim günnər
Yadıma bir-bir düşər.

38. Bayquş mənəm, bayquş mən,
Hər quşdan say quş mən.
Canıma bir od qoymusan,
Hey ağlaram yay-qış mən.

39. Apar bazara məni,
Saldın azara məni.
Aç belinnən tokqanı,
Salla məzara məni.
= Çək qurşağı belinnən,
Salla məzara məni.

40. Apardı tatar məni,
Qul eylər, satar məni.
Yaxşı qardaşım olsa,
Axtarar, tapar məni.

41. Anam, anam, öz anam!
Qoynu dolu köz anam.
Yad ağlar, yalan ağlar,
Qoy ağlasın öz anam.
= Ana, mən vətənnən getdim,
Gəl bı dərdə döz, anam.

42. Ana, məni az ağla,
Payız ağla, yaz ağla.
Mənnən keçirdiyin günnəri
Bir dəftərə yaz, ağla.
= Anam, anam, az ağla
Qış ağlama, yaz ağla.
Keçirtdiyin o gözəl günnər deməknən qutarmaz,
Qələm götür, yaz, ağla.

43. Məni vırıb üç ilan,
Yumurtası puç ilan.
Görən varmı mənim kimi
Zəmisi göy biçilən?

44. Məni vırıb talx ilan,
Yumurtası çalx ilan.
Çəkirsən öz dərdi çək,
Nə işin var xalxinən.

45. Arazın altınca gəl,
Altın qoy, üstüncə gəl.
Al yanına balanı,
Onların yanınca gəl.

46. Toy tutun, məzə tutun,
Gülbəndin təzə tutun.
Yandı anamın canı,
Çiy yerin közə tutun.

47. Köynəyin alacadı,
Geymisən, alacadı.
Sən də çox ağlama
Səninki balacadı[77].

48. Bu görükən Soltandı,
Soltandı, Savalandı.
Nə dərdimə çara var,
Nə də ki sağalandı.

49. Alçalar çiçəkləndi,
Çiçəyi ləçəkləndi.
Yatmağın yalan oldu,
Ölməyin gerçəkləndi.

50. Göynən uçan quşa bax,
Qanadı sınmışa bax.
Ellərə gələn bahara,
Maa gələn qışa bax.

51. Göynən uçan sonalar,
Bir-birinə yan alar.
Qoy sənə qurban olsun,
Balası ölən analar.
= Göydə uçan sonalar,
Bir-birini yanalar.
İtkin oğullara qurban,
Balası ölmüş analar.
= Göynən uçan sonalar,
Bir-birini yanalar.
Çağırın gəlsin, bir yana çəkilsin,
Oğlu ölmüş analar.

52. Mən öldüm, anam qaldı.
Oduma yanan qaldı.
Nə bu dünayadan kam aldım,
Nə də bir nişanam qaldı[78].

53. Ana kişmiş kimidi,
Civlərə düşmüş kimidi.
Anası ölən qızlar
Gözdən düşmüş kimidi.

54. Quşdar hava bağladı,
Uşdu, hava bağladı.
Səninlə uçan quşdar,
Tamam yuva bağladı.

---

[77] Söyləyicinin dediyinə görə, bu bayatını körpə uşağı ölənə deyirlər.

[78] Söyləyicinin dediyinə görə, bu bayatını toysuz, nişansız dünyasının dəyişənlərə deyirlər.

55. Bu yola gedən gəlməz,
Bilmirəm nədən gəlməz.
Qırılar qətərinnən
Çıxar cərgədən, gəlməz.

56. Əzrayıl bostançıdı,
Bağı yox, bostançıdı.
Dəymişi duran yerdə
Kalı kəsən bostançıdı.

57. Mən aşıx, bir az bəri,
Gəncədən bir az bəri.
Könlümün qəmzəsisən,
Dilimin əzbəri.

58. Aşıx dərdə nə bağlar,
Gümüş gərdana bağlar.
Gedək dərtdi yanına,
Görək dərdə nə bağlar?

59. Aşıx sənəm səsinə,
Səs ver sənəm səsinə.
Sümüklərim dincəldi,
Öz kimsənəm səsinə.
*Deyilənə görə, ölünün yaxın adamı onun üstündə ağlayanda ölən şəxsin sümükləri dincəlir.*

60. Ellərin elləri var,
Çiynində belləri var.
Xəbər verin ellərə,
Desinnər elləri var.

61. Bağında badamı var,
Yeməyə badamı var.
Qoy gəlsin ellərin,
Desinlər adamı var.

62. Maral, yerin şam olsun.
Otda, yerin şam olsun.
Birin sən de, birin mən,
Gün gəlsin, axşam olsun.
= Maral, yerin xam olsun,
Otda, yerin şam olsun.
Balalarım gəlsin yığılsın başıma, mən olara söhpət eliyim,
Gün gəlsin, axşam olsun.

63. Sağında mən oloydum,
Solunda mən oloydum.
Balam can verəndə,
Yanında mən oloydum.

64. Mənim dərdim uludu,
Uludan da uludu.
Açım dərdimi deyim,
Dərtdi dərdin unudur.

65. Ürəyimdə dürrü-dürrü yara var,
Üstdə xal var, qara var.
Təbib gəlsə,
Bəyəm ona çara var?

66. O tayda bir ev qaldı,
Tikmədim, bir ev qaldı.
Sən öldün, balan qaldı,
O da maa girov qaldı.
= Özün qaşdın qutardın,
Balan da girov qaldı.

= O tayda bir ev qaldı,
Gəlmədi, bir ev qaldı,
Hamının gedəni gəldi,
Mənimki əsir qaldı.

67. Gedən boz atlı, getmə,
Yolun uzaxdı, getmə.
Balaların göz yaşı
Yola duzaxdı, getmə.

68. Anam, otur yanımda,
Bacım, otur yanımda.
Birin sən de, birin mən,
Dərd qalmasın canımda.

69. Naçaram, ay naçaram,
Baş götürüb qaçaram.
Harda bir yaralı görsəm,
Orda dərdimi açaram.

70. Sənə yaralı qurban,
Göylü qaralı qurban.
Sənin təzə yarana,
Köhnə yaralı qurban.

71. Dağlara keçi gəldi,
Keçinin üçü gəldi.
Xəbər verin ellərə,
Toysuzun köçü gəldi.

72. Evləri Qarqamışa
Tikilmiş Qarqamışa.
Yüz min təbib neynəsin,
Bir fələy qarqamışa.

73. Bir ev tikdim dəyirmi,
Çubuxları iyirmi.
Bu evi qoyuf hara gedirsən,
Bu ev sənin deyilmi?
= Bir ev tikdim dəyirmi,
Pəncərəsi iyirmi.
Töküb hara gedirsən,
Bu ev sənin deyilmi?

74. Evləri Çaykeçəndə
Tikilib Çaykeçəndə.
Saa bir qarğış elərəm,
Günüm ax-vay keçəndə.

75. Dağ başında ala qar,
Ala çarpaz, ala qar.
Dağlara qar yağmışdı,
Yağmamışdı belə qar.

76. Nərgizdər, ay nərgizdər,
Top-top bitər nərgizdər.
Heyif sənin canınnan,
Torpaq örtər, yer gizdər.
= Sənin büllur bədənin,
Yer alıf, torpax gizdər.

77. Mən aşığam, dam qaldı,
Damlar yeri nəm qaldı.
Qaşdı elim-obam,
Bir quruca dam qaldı.

78. Gecənin nə qəralı,
Nə səbri, nə qəralı.
Canıma bir od düşüb
Nə sönür, nə qaralır.

79. Al gəlin, alma gəlin.
Al yerə salma, gəlin.
Dullux bir pulluluxdur,
Boynuna alma, gəlin.

80. Əlində var şirazı,
Yerə qoyma şirazı.
Mən qurban, anan qurban
Görüm olasan razı.

81. Mən aşıx, Qaradağlı
Muğanlı, Qaradağlı.
Balası ölən ananın
Ürəyi qara dağlı.

82. Mən aşığam, vay dərdim
Vay dərmanım, vay dərdim.
Xalx gül əkdi, gül dərdi,
Mənimki də vay dərdi.

83. Kəklik daşda nə gəzər?
Oxur, daşda nə gəzər?
Balası ölən ananın
Ağlı başda nə gəzər?

84. Canım can verəndə gəl,
Yaram qan verəndə gəl.
Sağlığımda gəlmədin, ay bala.
Barı can verəndə gəl.

85. Bu gəlin saşdı gəlin,
Gədiklər aşdı gəlin.
Bağladığın xonçaları
Özgələri aşdı, gəlin.
= Kilidli sandıx ağzın
Görün kim aşdı, gəlin.

86. Gələn bulağa gəlsin,
Qəynər bulağa gəlsin.
Neçə il xəsdə də olsan,
Səsin qulağa gəlsin.

87. Ay başıma düşüfdü,
Gün başıma düşüfdü.
Balası ölən analar
Daş başına düşüfdü.

88. Dədəmin qızı, bacı,
Yandıdın bizi, bacı.
Yardın ciyərimin arasın
Doldurdun duzu, bacı.

89. Qaşının qarasına,
Gül qoydum arasına.
Mən qurban, anan qurban
Başının yarasına.

90. Alma könlüm, nar könlüm,
Heyva könlüm, bar könlüm.
Götürmüşəm balamın dərdin,
Ağlamağa var könlüm.

91. Yaylığın yeri bəlli,
Yeri yox, gülü bəlli.
Burda bir oğlan ölüb,
Hər yerdə yeri bəlli.

92. Çayında qarmağım var,
Atmağa qarmağım var.
Allah sizə dəyməsin,
Ona yalvarmağım var.

93. Gedərəm gedən olsa,
Yolların örgədən olsa.
Saa çoxlu sözüm var,
Aparıb deyən olsa.

94. Sən gedən bir il oldu,
Verana bağlar soldu.
Deyirdin, qayıdacağam,
Nə yalançı dil oldu.

95. Yük üsdə kilim yandı,
Kilimi zülüm yandı.
Bala-bala deməkdən
Ağzımda dilim yandı.

96. Kəklik yaldadı, yalda.
Oxur, yaldadı, yalda.
Nə qədər dövlətin olsa,
Bir gün yerin burdadı, burda.
*Hamımızın axırı qəbirstanlıqdı.*

97. Mən aşığam, qalasız,
Şəhər olmaz qalasız.
Mən ki gedərgi oldum,
Siz sağlıqnan qalasız.

98. Yetimin yekə dərdi,
Yüklənib lökə dərdi.
Nər gərək, maya gərək,
Yetimin çəkə dərdin.

99. Gün getdi batdı, gəlməz.
Günün yubatdı, gəlməz.
Tərlanım suya endi,
Külək allatdı, gəlməz.

100. Evləri Məşətdədi.
Tikilib, Məşətdədi.
Çox da maa yalvarma
Qollarım daş altdadı.
= Evləri Məşətdədi,
Gedifdi, Məşətdədi.
A balam, istədim duram gələm,
Qollarım daş altdadı.

101. Maralın gözü qanlı,
Gözü yox, dizi qanlı.
Biz bu işi kimnən görək,
Fələyin özü qanlı.

102. Köynəyi ağ saxlaram,
Yuyaram, ağ saxlaram.
Bir də əlimə düşsən,
Yeddi il qonax saxlaram.

103. Gəl məni qurdalama,
İri kəs, xırdalama.
Alovum səni qarsar,
Kösəvimi qurdalama.

104. Gəncədən gəl, Gəncədən,
Atın yesin yoncadan.
Səni məndən alanın
Beli qırılsın incədən.

105. Yaylığın çit naxışı,
Çit gülü, çit naxışı.
Gəzəsən Şəki, Şirvan,
Tapmazsan mənnən yaxşı.

106. Tut ağacı dəyiləm,
Hər gələnə əyiləm.
Ay qız, əyil üzündə öpüm,
Mən özgəsi dəyiləm.

107. Qoyunu qoyun gəlsin,
Dərisin soyun gəlsin.
Ay ora yığışan camaat,
Balamı qoyun gəlsin.

108. Marallar qoşa gələr,
Bülbüllər cuşa gələr.
Arxayın ol, ay əmi,
Bu əhdin başa gələr.

109. Sayada bax, sayada,
Torun quruf qayada.
Ay Allah, burda biri ölüf,
Gözü qalıf qayada.

110. Qar yağıbdı, dizdəndi,
Dərə-təpə düzdəndi.
Biz dara düşəndə çağırdıx bütün övliyaları köməyə
Övliyalar da gizdəndi.

111. Əzizinəm, dur dağlar
Söykən dağlar, dur, dağlar.
Mən özüm ağlamazdım
Məni görməz, yurd ağlar.

112. Təndirə bax, təndirə.
Təndir adam yandıra.
Mən yetimin nə həddinə
Gələ atalıynan, analıynan tən dura.

113. Əzrayılın bağı var
Üstündə yarpağı var.
Əzrayıl, mənnən kənar get
Məndə oğul dağı var.

114. Xəbəri qarğadan al,
Qanatdı qarğadan al.
Uzax yerin xəbərin
Bir atı yorğadan al.

115. Mən aşıx, sarı gül.
Sarı çiçək, sarı gül.
Tez açıldın, tez soldun,
Açılmeydin barı gül.
*Qayını oğlanlarına yaraşdırıb deyib.*

116. Əzizim, bayatısın,
Qoy desin bayatısın.
Qəbirimin üstündə desin
Nənəmin bayatısın.

117. Yol üsdə qoşa qəbir,
Veribdi baş-başa qəbir.
Çağırdım, hay vermədi,
Dönübdü daşa qəbir.

118. Gəlmişəm görəm səni,
Zülfünü hörəm səni.

Nə qapın var, nə bacan
Bəs hardan görəm səni?

119. Bağa su düşdü, neynim?
Güllər su işdi, neynim?
Aləmə pay paylandı,
Mənə də bu düşdü, neynim?

120. Qardaş, yolunu pusaram,
Gej gələrsən, küsərəm.
Dörd yanın sərin bulax,
Sənnən yana susaram.

121. Aşıq, el bərabəri,
Ördək göl bərabəri.
Heydərqulu kimi oğul itib
Tamam el bərabəri.

122. Əldə qəlyan kimi gəz,
Çöldə ceyran kimi gəz.
Sirrin mənnən bir olsun,
Gendə yaddar kimi gəz.

123. Mən aşiq, haydan keçdi,
Hay vurdu, haydan keçdi.
Daha geri qayıtmaz,
Bir ox kimi yaydan keçdi.

124. Köynəyi sarı canım,
Geyibdi sarı canım.
Dost yolu gözləməkdən
Qalmayıb yarı canım.

125. Mən aşiqəm ya nəsib,
Ya qismətdi, ya nəsib.
Bir gördüm, bir ayrıldım,
Bir də görsəm, ya nəsib.

126. Bostanda tağım ağlar,
Basma, yarpağım ağlar.
Nə qədər ki sağam, ağlıyacam,
Öləndə daşım-torpağım ağlar.

127. Gedən, getmə, dayan, dur.
Sirrim sənə ayandur.
Daş olsam ərimişdim,
Ağac olsam çürümüşdüm,
Torpağ idim dayandım.

128. Gəl gedək bağa, qardaş,
Qorxuram yağa, qardaş.
Sən götür Zakiri, mən götürüm
Cəmilimi[79]
Çəkilək vətənə, qardaş.

129. Əzizim, oyan, yeri.
Qalx, silkin, oyan, yeri.
Yüz il sel gəlsə oyammaz,
Bir gün qəm oyan yeri.

130. Qara at nalı neynir?
Qara qaş xalı neynir?
Sənin kimi yarı olan
Dünyanın malın neynir?

[79] Biri söyləyicinin qardaşı oğlu, ikinci isə öz oğludur. Hər ikisi Qarabağ döyüşlərində şəhid olub.

131. Bu dağlar nur dağlar,
Sənə yağsın nur, dağlar.
Gəldim səni görməyə,
Gördüm köçmüsən, yurd ağlar.

132. Qartalam, hey qalxaram,
Qanadımı çalxaram.
Desələr, dostun gəlir,
Ölü olsam, qalxaram.

133. Əzizim, dərdə çarə.
Xəsdəyə, dərdə çarə.
Təbibsiz dərdə düşən
Neynəsin bəs biçarə?

134. Ay doğdu, qəlbiləndi,
Doğduxca qəlbiləndi.
“Quran” gətir, and içim
Bu qəlb o qəlbinəndi.

135. Əzizim, göy bağlar,
Göy baxçalar, göy bağlar.
Dostu cavan ölən
Qara geyər, göy bağlar.

136. Mən aşıx, qəm daşıyam,
Od vurdum, qəm daşı yan.
Kimsə olmaz mənim tək
Qəm çəkib, dərd daşıyan.

137. Bu dağlar, sərəm dağlar,
Gülü yox, dərəm, dağlar.
Günnərim belə keçsə,
Ürəyim vərəm bağlar.

138. Əzizim, vətən sarı,
Geyməyə kətan sarı.
Xeyrin olsun, a kağız,
Sən getdin vətən sarı.

139. Öyüdü ver qanana,
Qulağında qalana.
Allah özü yar olsun
Sizin kimi cavana.

140. Əzizim, bir də, bir də
Kim olar biz səbirdə?
İkimiz birdən ölərdik,
Qoyulardıq bir qəbirdə.

141. Əzizinəm, köçəndə,
Dağ arana köçəndə.
Ana bəxtəvər olur,
Qızı ərə köçəndə.

142. Maşın gələr, toz eylər,
Oğlan qıza naz eylər.
Oğlanda günah olmaz,
Hər nə olsa qız eylər.

143. Maşın gəlir, bərk gəlir,
İçi dolu qənd gəlir.
Qızdar deyir, biz şirinçay içəndə
Qaynanamıza dərd gəlir.

144. Sandıx üstə gəzərəm,
Sandığa gül bəzərəm.
Qərib elin qızıyam,

Qərib-qərib gəzərəm[80].
= Gəlin deyir, sandıx üstə gəzərəm,
Sandığa gül bəzərəm.
Ay Fərqanə, ağır elin qızıyam,
Gəlib burda gəzərəm.

145. Gəlinə bax, gəlinə,
Əlin qoyub belinə.
Gəlinə bir söz deməyin
Çıxar gedər elinə.

146. Gədikdən çıxa, qardaş,
Çiynində çuxa, qardaş.
Tez gördüm, gec tanıdım,
Gözlərim çıxa, qardaş.

147. Bostan əkdim xiyarsız,
Xiyar sənə qıyarsız.
Yatdım yuxuda gördüm,
Oyandım ixtiyarsız.

148. Əlində şüşə qəlyan,
Doldurub şüşə qəlyan.
Necəsən bir ah çəkəm,
Əlindən düşə qəlyan.

149. Mən aşiqəm, bərdən gəl,
Bərdə yolu bərdən gəl.
Dərmana gedən qardaş,
Xəsdən durdu, bərdən gəl.

150. Bu dağda qar səsi var,
Əriyir, qar səsi var.
Atlar ifçin nallanır,
Qara səfər səsi var.

151. Dağ ayrı, duman ayrı,
Qaz ayrı, kaman ayrı.
Ayrıldıq, ayrı düşdük,
Gəzdik hər zaman ayrı.

152. Dağların çiskinidir,
Dumanı, çiskinidir.
Özünü yetir mənə,
Halımın pis günüdür.

153. Mən aşiq, bayaq gəldim,
Götürdüm ayaq, gəldim,
Ömür der, dövran sürdüm,
Könül der, bayaq gəldim.

154. Qaşın əyər, amandı,
Gözün əyər, amandı.
Bədnəzər bir ox atar,
Sənə dəyər, amandı.

155. Dad elərəm, dad gəlməz,
Sınıq könlüm şad gəlməz.
Burda bir qərib ölüb,
Qohum bilməz, yad gəlməz.

156. Mən aşiq, qara dağdı,
Görünən Qara dağdı.
Qardaş qardaş dalında
Dursa, bir qara dağdı.

---

[80] Bu bayatı Yezəmli kəndindən yazıya alınıb. Söyləyici onun Haxışta nümunəsi olduğunu söylədi.

157. Mən aşiqəm, qız, getmə,
Çək cilovu, düz getmə.
Yaz-yay qal, qonağım ol,
Payız əylən, qış getmə.

158. Əzizim, keçmə burdan,
Qar yağar, olar dizdən.
Gədiklər kirvə bağlar,
Səni yad eylər bizdən.

159. Mən aşiqəm, o damlar,
O obalar, o damlar.
Yerlər həmən yerlərdir,
Qalmayıb o adamlar.

160. Gəl getmə, gülüm, bizdən,
Qar yağar, olar dizdən.
Gədiklər güdə bağlar,
Səni eylər bizdən.

161. *Söyləyici 161-163 nömrəli bayatıları dünyasını dəyişmiş ərinə yaraşdırıb deyir:*
Qayanın burcu mənəm,
Dil bilməz burcu mənəm.
Başını qoy dizim üsdə,
Can versən, incimərəm.

162. Mən səni el bilirdim,
Başımda tel bilirdim.
Uca dağlar başında
Elə bilirdim ömüyəssən, a kişi
Qurumaz göl bilirdim.

163. Şirxan addı, a kişi!
Şəkərdən daddı kişi.
Gün kimi şölə verdin
Ay kimi batdın, ay kişi.

164. Gedirsən, yolun olsun,
Cinaza qolun olsun.
Bildir, inişil ölənnərə salam söylə,
Cənnətdə yerin olsun.

165. Ağaşda var marzılar,
Konlum səni arzular.
Oğul, əyil üzündən öpüm,
Qoy baxsın tamarzılar.

166. Boz atın boylamasın,
Çəh cilovun, oynamasın.
Bizdən sora çox fikir eləmə,
Ürəyin xarab olmasın.

167. Yoruldum, yolda qaldım,
Susuzdadım, çöldə qaldım.
Nə bir mənzilə çatdım,
Nə yarı yolda qaldım.

168. Əlimə saz verdilər,
Çaldılar, az verdilər.
Qisməti payladılar,
Mənə də az verdilər.

169. Göydə uçan hacılar,
Bir-birini acılar.
Nakamlara qurban
Qardaşı ölmüş bacılar.

170. Keşdim Xudapirini,
Yaram eylər irini.
Canım birdi, dərdim min,
Deyim hansı birini?
= Keşdim Xudapirimi,
Yaram eylədi irini.
Dərd nə birdi, nə iki,
Deyim həngi birini?
= Dərdim artıb, dilim batıb,
Deyim hansı birini?

171. Göydə ulduz xoş keşdi,
Cavan ömrüm puş keşdi.
Fələk, sən sübut elə,
Hansı günüm xoş keşdi?

172. Dağda maral xoş mələr,
Xoş inildər, xoş mələr.
İtkin balalar gəlsə,
Analara xoş gələr.

173. Əzizim, həkim dərdi,
Doğruyum, töküm dərdi.
Nə anam var, nə bacım,
Kimnən çəkim bu dərdi.

174. Əzizim, dilən, gəz,
Çöldə, düzdə dilən, gəz.
Qürbətdə şah olunca
Vətənində dilən, gəz.

175. Şeh düşdü çəmənə,
Nərgizə, yasəmənə.
Mən balama qurbanam,
Balam qurban vətənə.

176. Gül üstündə yaş oldum,
Ellərə sirdaş oldum.
Qürbətdə xan olunca,
Vətəndə daş oldum.

177. Eləmi, tikə-tikə,
Doğrandım tikə-tikə.
Qəbirimi özüm qazdım,
Kəfənimi tikə-tikə.

178. Əzizim, ellər gələ,
Çay daşa, sellər gələ.
Bu elin harayına
O birsi ellər gələ.

179. Əzizim, daş olaydım,
Su vurduxca yaş olaydım.
Yar bulağa gələndə
Yarıma yoldaş olaydım.

180. Əzizim, alçalar,
Yaşıl çalar, al çalar.
Dərdlərimi yüksəldən
Uça dağlar alçalar.

181. Əzizim, bir-bir düşər,
Ox yaydan bir-bir düşər.
Laçında gördüyüm günlər
Yadıma bir-bir düşər.

182. Laçının boz dağları,
Basıfdı toz dağları.
Eşitsəm Laçın alınır,
Aşaram tez dağları.

183. Əzizinəm, gül-gülə,
Bülbül gülə, gül gülə.
Laçında bir bağ salmışdım,
Calanmışdı gül gülə.

184. Gəl məni qoyuf getmə,
Nar kimi soyuf getmə.
Mənim balalı başımı var,
Dilzarıncı qoyuf getmə.

185. Apardılar, qoydular,
Ağladılar, doydular.
Ağır-ağır salları
Sinəm üstə qoydular.

186. Anam ola bilməzsən,
Bajım ola bilməzsən.
Məni gavur vuruf yıxanda
yanımda olmamısan,
Konlumu ala bilməzsən.

187. Getdi gülüm, ağlaram,
Oldu zulum, ağlaram.
Bir vədəsiz gün oldu,
Tökdü gülüm, ağlaram.

188. Mən aşıx, nəişin[81] ağlar,
Qırılan qoşun ağlar.
Gedən karvan mənimdi,
Çalvadar nəişin ağlar?

189. Dağları aşa gəl,
Qanı coşa-coşa gəl.
Götür bir bölük qırılmışını,
Vəli, özün də üstüncə gəl.

190. Qəriv ölür, götürün,
Dar küçədən keçirin.
Qərivin öz balasın,
Öləndə özünə yetirin.

191. Bu dağlar, sənə dağlar,
Göy geymiş sənə dağlar
Ərizəm yazılı qaldı,
Vermədim sənə, dağlar.

192. Dağlara bax, dağlara,
Şeh düşür yarpaxlara.
Hayıf sizin gül əndamınız,
Vaxtsız getdi torpaxlara.

193. Əziziyəm, Ərzuruma,
Ərizə ver Ərzuruma.
Vətənnən olub canım,
Qoy tüşsün hər zuluma.

194. Əziziyəm, bu dağnan,
El keçər bu dağnan.
Biz elə dərdə tüşmüşük
Yanırıx bu dağnan.

195. Qırxqızın öz dağları,
Tutubdur öz dağları.
Genə yada düşübdür
Qəribin öz dağları.

[81] Nəişin – nə üçün

196. Corabın ağına bax,
Dəstələ, bağına bax.
Dağlar yada düşəndə,
Qırxqızın dağına bax.

197. Taxılın zəmisinə,
Biçmişik zəmisinə.
Heç kafərin balası
Qalmasın əmisinə.

198. O sarı, qolbaq sarı,
Zəfərana sıxdım narı.
Bir axşam gəl, bir sabah,
Bir də günorta barı.

199. Bu dağ o dağa baxır,
Arasından çaylar axır.
Çıxsın mənim gözlərim,
Sənsiz o çaya baxır.

200. Əzizim, barsız adam,
Heyvasız, narsız adam.
Qalaysız qaba bənzər,
Dünyada yarsız adam.

201. Əzizim, yara dərin,
Lalanı yara dərim.
Dil yarası çəkməyən,
Anlamaz yara dərin.

202. Əziziyəm, saç qalar,
Ocaq sönər, sac qalar.
Acın qarnı doysa da,
Gözü doymaz, ac qalar.

203. Kabab yanar, köz olar,
Nəzər dəyər, göz olar.
Qohumdan qız alanda,
Aralıqda söz olar.

204. Baş alıb başlı gedər,
Yolları daşlı gedər.
Dünyaya bel bağlayan
Gözləri yaşlı gedər.

205. Gəmi yükün yan çəkər,
Zəli sorar, qan çəkər.
Yaxşı gündə dost-aşna,
Yaman gündə can çəkər.

206. Bu dağda maral gəzər,
Tellərin darar, gəzər.
Atanın pis günündə,
Pis övlad kənar gəzər.

207. Mən aşıx, şanasıdı,
Bu saçın şanasıdı.
Hər işdə kamil olmax
Kamal nişanasıdı.

208. Əziziyəm, yaxşı at,
Nişan götür, yaxşı at.
İgidi cavan saxlar
Yaxşı arvad, yaxşı at.

209. Gözəllik güldən getməz,
Solmasa, əldən getməz.
Dostun bir dil yarası,
Ölüncə dildən getməz.

210. Ağ at, yalın çürüsün,
Xətti-xalın çürüsün.
Apardın, gətirmədin,
Görüm nalın çürüsün.

211. Mən aşiqəm, ay divar,
Hörülmüşəm lay divar.
Yarı məndən eylədin,
Dağılasan, ay divar.

212. Evləri köndələn yar,
Bizə gül göndərən yar.
Gülün yarpıza dönsün,
Məndən üz döndərən yar.

213. Mən aşıx, çimən yerdə,
Göy yerdə, çimən yerdə.
Yüz min laçın dövr eylər,
Bir sona çimən yerdə.

214. Mən aşiq, ahın dilər,
Göz yaşım ahın dilər.
Yar ilə keçən günnər,
Olaydı ah indilər.

215. Mən aşiqəm, göz edə,
Bülbül gülə göz edə.
Sənə də qurban olum,
Səni görən gözə də.

216. Yaxşı avaz, pür kəlam,
Oxu, gəlsin gur kəlam.
Nə soyuğa tabım var,
Nə pulum var kürk alam.

217. Dağ başında ağ qaram,
Baxçalarda mən baram.
Günüm ah-vayla keçsə,
Təkcə sənə qarğaram.

218. Ovçu əlində yay var,
Qismətində bir ay var.
Dərd çəhmə, gözdə məni,
Hələ çox gün, çox ay var.

219. Ağ çuxan ağlı qalsın,
Boxçada bağlı qalsın.
Bizi ayıran yağı,
Ciyərin dağlı qalsın.

220. Ev tihdim, tağlı olsun,
Bağ saldım bağlı olsun.
Deyirlər, nə vaxt gələr,
Deyirəm, sağlıx olsun.

221. Hara,
Bizi saldılar tora.
Bizi tora salanı
İmansız gessin gora.

222. Qarabağda bağ olmaz,
Qara salxım ağ olmaz.
Ürəyində Qarabağ dağı olanın
Gözdərində yağ olmaz.

223. Ağaşda gilə-gilə,
Yığaram gilə-gilə.
Neynim fələh qoymadı,
Mənim də üzüm gülə.

224. Əzizim, bekar məni,
Sanma, bekar məni.
Öldürəcəh, ay qardaş,
Sən vuran yara məni.

225. Əzizim, Qarabağda,
Batıfdı qara bağ da.
Mən çəhdiyim həsrəti,
Çəkən yox Qarabağda.

226. Əzizim, harda qaldı?
İzdərim qarda qaldı.
İtgin tüşən evlatdar
Bilmirih harda qaldı?

227. Əzizinəm, qurumaz,
Dağıntı çox, qurum az.
Vətənnən didərginin
Göz yaşdarı qurumaz.

228. Əzizim, dura millət,
Tüşməni qıra millət.
Sahibsiz dağda-daşda
Batıfdı qara millət.

229. Əzizim, əldən gedir,
Şəhitdər eldən gedir.
Anaların yaşdarı
Sifətdən dən-dən gedir.

230. Əzizim, məni ağlar,
Qoydu erməni ağlar.
Əsir tüşən evladı
Dağların çəni ağlar.

231. Oda saldım özümü,
Kor eylədim gözümü.
Qəribin dərdi çoxdu,
Kimə desin sözünü?

232. Kəhlih gəzir, koldadı,
Çayın suyu qoldadı.
Ümüdümü üzməmişəm,
Hələ gözüm yoldadı.

233. Aşıq, aranı dağlar.
Peykan aranı dağlar.
Könlüm isdər, əl çatmaz
Kəsifdi aranı dağlar.

234. Suda balıx yan gedir,
Açma yaram, qan gedir.
Son sözümü deyim sənə
Əcəl gəlif, can gedir.

235. Eləmi, fağır-fağır
Üsdümə dərt-qəm yağır.
Ay qardaş, xəstəykən çağırmadın,
Barı can üsdə çağır.

236. Mən aşiqəm, yanarsız,
Nə heyvasız, nə narsız.
Ahım dağlara tüşdü,
Qaçın, ellər, yanarsız.

237. Yazı yaza bilmirəm,
Yazıf poza bilmirəm.
Vətən orda, mən burda,
Ayrı dözə bilmirəm.

238. Getmə, getmə, gəlirəm.
Sən gedirsən, mən qalıram.
Qardaş, sənin dərdinnən
Can üsdəyəm, ölürəm.

239. Qərənfil dəsdəsiyəm,
Yığılmış dəsdəsiyəm.
Bir qardaşın, bir ananın
Neyniyim, xəsdəsiyəm.

240. Yetim yetərgin olar,
Bitər, bitərgin olar.
Yetimin yetimliyin üzünə demiyin,
Onda yaman gözdən didərgin olar.

241. Yerişin naza bənzər,
Boyun şahbaza bənzər.
Eşitsəm, sən gəlirsən, ay qardaş,
Qışım da yaza bənzər.

242. Yetimlər yas saxlıyır,
Boynun pükür, ağlıyır.
Bir baxın yetimlərə
Yaman ürəh dağlıyır.

243. Məni bir quş apardı,
Dərtdərə tuş apardı.
Qardaş-qardaş deməhdən
Gözümü yaş apardı.

244. Eləmi, Kürdən gələr,
Arazdan, Kürdən gələr.
Xəbər verin elimə,
Hamısı birdən gələr.

245. Eləmi, yağ əridi
Piltədə yağ əridi.
Dərdimi dağa dedim,
Ahımnan dağ əridi.

246. Mən bilirdim bu dili,
Quşdar oxur bu dili.
Gəlin, anam ölənnən, Xojalı dağılannan, üş balam ayağı küldə, gözü yolda qalannan, yaxam yetim əlli olannan, qardaş gözü sığıyıf çənə çəkənnən, gəlin yola salannan
Örgəmmişəm bu dili.

247. Xəncər üstdə qaş gəlir,
Qoşun başabaş gəlir.
Qoşuna qurvan olum,
İçində qardaş gəlir.

248. Bağları əkirəm mən,
Aləmə vəkiləm mən.
Əli qoynunda, boynu çiynində
Həsrətin çəkirəm mən.

249. O tayda quzu gördüm,
Tükün qırmızı gördüm.
Açdım cənnət qapısın,
Sevdiyim qızı gördüm.

250. Ağ almanı dişdədim
Dişdədim, gümüşdədim.
Qardaş gəldi, qıymadım,
Yar gəldi, bağışladım.

251. Əzizinəm, yaxşıdı,
Mərdlik insan naxışıdı,
Danışmıram, dinmirəm
Baxan namərd baxşıdı.

252. Aşıx qaralar məni,
Xalın qaralar məni.
Sənsiz yerə girmirəm
Yorğan qaralar məni.

253. Ovçu, ovçu, ha maral,
Ovun getdi, ha maral.
Belə can almaq olmaz
Can alırsan ha, maral.

254. Ovçusan bürün dağa,
Ov getdi, sürün dağa.
Gözdərəm, gec gələrsən,
Salaram bir ün dağa.
= Arxalı bürün dağa,
Ov getdi, sürün dağa,
Ovçu bir ov vurubdur,
Düşübdür bizim bağa.

255. Mən aşiqəm, yarar gün,
Bulud bağrın yarar gün.
Gün yarnan xoş keçər,
Yarsız nəyə yarar gün?

256. Gəlin yalançı olar,
Gözdəri ovçu olar.
Gəlinə bel bağlama
Evə qalançı olar.

257. Aya belə baxallar,
Günə belə baxallar.
Eşqnən ev tikənin,
Evin belə yıxallar.

258. Ayın qurbanı ollam,
Günün qurbanı ollam.
Sən boyda, sən buxunda
Görsəm, qurbanı ollam.

259. Çinarın boyu çiçək,
Çin gətir, bunu biçək.
Burda bir oğlan sevdim,
Uzunboy, qara birçək.

260. Mən aşıx, uymamışam,
Baş yerə qoymamışam,
Sən məndən doymusansa,
Mən səndən doymamışam.

261. Qərənfil havadadı,
Əl yetmir, havadadı.
Bir əlim yar qoynunda,
Bir əlim davadadı.

262. Qərənfiləm, ələmsiz,
Qərarım gəlmir sənsiz.
Qoynuna ilan girsin,
Necə yatırsan mənsiz?

263. Mən aşıx, məzə qannım,
Mey qannım, məzə qannım,
Qorxuram qərib öləm,
Yurdumda qala qannım.

264. Əziziyəm, nübarı,
Heyvanın ilk nübarı.
Qarşısında ölməyə,
Yarım oleydi, barı.

265. Əziziyəm, niyə mən?
Vurulmuşam nəyə mən?
Ney də dərdin danışar,
Danışmıram niyə mən?

266. Əziziyəm, güzgülər,
Dərə gülər, düz gülər.
Sənnən əlim üzülsə,
Bayram edər özgələr.

267. Qapımın yanı yetim,
Sözümün canı yetim.
Hamı yeyib doyanda,
Deyərlər, hanı yetim?

268. Kəməri incə belə,
Qurşamış incə belə.
Çıxsın mənim gözlərim
Səni gördükcə belə.

269. Bülbül hanı, gül hanı?
Bülbül gülün mehmanı.
Bu boyun, bu buxunun,
Danışmağa dil hanı?

270. Şirvanın şirin narı,
Yemişəm şirin narı.
Sovqatı sizin olsun,
Göndərin bizim narı.

271. Bəzirgansan, xocasan,
Nağdın verməz vecə sən.
Dərdin ilə dərdimi
Qarşı qoysam, necəsən?

272. Mən aşıx, keşgə sən,
Min gəmiyə, keş, gəl sən.
Gəldin könlüm bulandı,
Gəlmiyeydin keşgə sən.

273. Dağ başı dolu qaldı,
Yağdıqca dolu qaldı.
İstədim ürəyimi açam,
Ürəyim dolu qaldı.

274. Evləri dəlmə-dəlmə,
Tikmişəm dəlmə-dəlmə.
Gəl oturaq bir yerdə,
Danışaq kəlmə-kəlmə.

275. Mənim yarım naşıdı,
Aşıqların başıdı.
Atlananda bəy oğlu,
Düşəndə yüzbaşıdı.

276. Bu dağlardan daş düşdü,
Qələm üstə qaş düşdü.
İntizaram, qoy gedim,
Yadıma yarım düşdü.

277. Dəsmalı yudum, apar,
İtirmə, düşmən tapar.
Şənbə-bazar yaxşıdır,
Hər kəs sevdiyin tapar.

278. Əzizinəm, yaxşı ayaz,
Yaxşı bulud, yaxşı ayaz.
Əlinə qələm al,
Yaxşını yaxşıya yaz.

279. Mən aşiqəm, çilovlar,
Çil kəkliklər, çil ovlar.
Tərlan yar özgə malıdır,
Ye, qalmasın çilovlar.

280. Asta-asta ağlaram,
Olub xəstə, ağlaram.
Götürüb sənin dərdini,
Toyda-yasda ağlaram.

281. Gəl məni bəd eyləmə,
Qohumam, yad eyləmə.
Mən bir bağa kəfşənəm
Böyrümdə od eyləmə.

282. Aldı bu yara məni,
Gətirdi zara məni.
Apar həkim yanına,
Bəlkə qurtara məni.

283. Bərdəliyəm, gəncəliyəm,
Dərd əlindən dəliyəm.
Düşmüşəm qəm dəryasına,
Gözləri pərdəliyəm.

284. Gəl çıxaq dağ başına,
Sürmə çək qaşına.
Biz çıxıb qayıtmışıq,
Siz çıxın dağ başına.

285. Dağ başında durmuşam,
Kəklikotu yığmışam.
Səsim-küyüm kəsilib,
Yolu başa vurmuşam.

286. Əzizinəm, gülmə gəl,
Yalan yerə gülmə, gəl.
Yaman yerdə yıxıldım,
Yıxılana gülmə gəl.

287. Əzizinəm, yaz görüm,
Bahar görüm, yaz görüm.
Dərd mənim, qələm sənin,
Bir kağıza yaz, görüm.

288. Qoyun otlar görənnər,
Otdadıxca görənnər.
Yapalax ördək alıb,
Laçın görsə, vərəmlər.

289. Şüşədən başmaq olmaz,
Başmaqdan yaşmaq olmaz.
Bir iş qəzadan gələ,
Qəzadan qaçmaq olmaz.

290. Bağında gilas dəydi,
Tut dəydi, gilas dəydi.
Güllənə bacın qurban,
Güllən nə rast dəydi.

291. Sonsuz ay əlindən,
Vur düşsün yay əlindən.
Cənnətdə çığrışırlar,
Almayın pay əlindən.

292. Qaşın hilalı, gəlin,
Gözün hilalı, gəlin.
Qarğıyım, ərin ölsün,
Səni dul alım, gəlin.

293. Qaşın fitin apardı,
Gözün fitin apardı.
Dəmirçi dükanından
Gör bu it nə apardı.

294. Bulağın başı yandı,
Dibinin daşı yandı.
Getdin də qayıtmadın,
Ürəyimin başı yandı.

295. Kəkliyin anasına,
Dən verin balasına.
Həm balama yanıram,
Həm də balasına.

296. Ördəyin gölə düşdü,
Ceyranım çölə düşdü.
Yol gözlədim, gəlmədi,
Ceyranım ələ düşdü.

297. Bu dağlar, qəlbi dağlı,
Qayalı, qəlbi dağlı.
Sonamın gözü yaşdı,
Ağamın qəlbi dağlı.

298. At üstə yatan oğlan,
Qan-tərə batan oğlan.
Nişanlını apardım,
Bixəbər yatan oğlan.

299. At üstə yatmamışam,
Qan-tərə batmamışam.
Nişanlım yamandadır,
Bixəbər yatmamışam.

300. Limonam, soyma məni,
Soyub cibə qoyma məni.
Bir qardaşsız bacıyam,
Qəbirə qoyma məni.

301. Göydən bir gilə gəldi,
İkisi bilə gəldi.
Gəldim qardaşımı tapmadım,
Sümüyüm dilə gəldi.

302. Ellər dağa gedər,
Qar yağa-yağa gedər.
Məni arançı edər,
Özdəri dağa gedər.

303. Savalanda qara bax,
Boynun əymiş nora bax.
Ağzımı ağu kəsdi,
Dodağımda bara bax.

304. Ay dağlar, uca dağlar.
Baxdıqca uca dağlar.
Ovçusu cavan ölmüş,
Maralı qoca dağlar.

305. Ay ev, səni bəzərəm,
Dörd bir yanın gəzərəm.
Gəzib ata tapmasam,
Bəzəyini pozaram.

306. Başına mən dolanım,
Mən dönüm, mən dolanım.
Allah səni saxlasın,
Sayana[82] mən dolanım.

[82] Sayana – kölgənə

= Vətənim uca olsun,
Kölgəsində dolanım.

307. Sandıx üstə gülü var,
Gülünün dörd üzü var.
Sevən sevənə gedir,
Kimin ona sözü var?

308. Əzizim, sən gələsən,
Qaş gözə tən gələsən.
Yüz min əzizim olsa,
Qabağa sən gələsən.

309. Əziziyəm, yad əli,
Ya divanə, ya dəli.
Vurub özün öldürər,
Sənə dəysə yad əli.

310. Urusetin yolu fərman,
Torpağı gözə dərman.
Urusetdən bir məktub gəlib,
Yarı dərd, yarı dərman.

311. Yağış yağdı, çilədi,
Hər bir yeri suladı.
Gəzdim, tapmadım səni,
Könlüm səni dilədi.

312. Gözlərim məyif oldu,
Qaş getdi, zəyif oldu.
Hitler bir müharibə saldı,
Oğlanlar heyif oldu.

313. Çay mənim, çeşmə mənim,
Çayımdan keçmə mənim.
Əlimdən neştər alıb
Yaramı deşmə mənim.

314. Araz arxı budumu?
İçi dolu sudumu?
Etibarlı atanın
Etibarı budumu?

315. Dağ başı dolu gözlər,
Qar yağar, dolu gözlər.
Mənim qəmli gözlərim,
Sən gələn yolu gözlər.
= Dağ başı dolu gözlər,
Qar yağar, dolu gözlər.
Yıxdı dədəm evini
Səndəki dolu gözlər.

316. Biz belə toy eylədik,
Çaldırıb toy eylədik.
Savaşı göz yaşıyla,
Şaxseydən toy eylədik.

317. Sarı sarını tutsun,
Boya sarını tutsun.
Səndə günah yoxdur,
Ahın taarını tutsun.

318. Kağızım, ağ kağızım,
Dili yox, lal kağızım.
Gedirsən qardaş yanına,
Dilimcə yalvar kağızım.

319. Köynəyi sarı bacı,
Geyibdi sarı bacı.

Aç başından ləçəyi
Yaramı sarı, bacı.

320. Vay mana, vaylar mana,
İlə dönüb aylar mana.
Mən ki yandım kül oldum,
Neynəsin çaylar mana?

321. Halalar ha, halalar
Kəklik daşda balalar.
Sənin bu müsibətinə qurban olsun
Balası ölmüş analar.

322. Barınca bax, barınca,
Saxlaram saralınca.
Səni özüm ağlaram,
Nəfəsim qurtarınca.

323. Əlimdən bıçaq düşdü,
Bilmədim haçan düşdü.
Qəflətən dərdə düşdüm,
Həkimim qaçaq düşdü.

324. Qalyanı sər qoyarlar,
Çəkərlər, sər qoyarlar.
Uşaqlarını başsız qoyan oğlanın,
Adını yasar qoyarlar.

325. Mən aşiq, didəm qanı,
Xub qanı, didəm qanı.
Ürəyimi qəm çürütdü,
Yaxmalı didəm qanı.

326. Bu dağlar daşdı dağlar,
Bizdən yol aşdı, dağlar.
Boynu gümüş heykəlli,
Maralım qaşdı, dağlar.
= Ay dağlar, daşdı dağlar,
Sinən yol aşdı, dağlar.
Boynu qızıl heykəllı,
Ceyranım qaşdı, dağlar.

327. Qara bağa bağ sallam,
Salxımların ağ sallam.
Ya mələrəm, taparam,
Ya gözümə ağ sallam.

328. Komanın zəmiləri,
Biçmişəm zəmiləri.
Balam yetim qalıbdı,
Axtarmır əmiləri.

329. Ay doğdu Dağıstanda,
Gün doğdu Gülüstanda.
Bir şamama tapmışam,
Yeddi illik bostanda.

330. Atın daydı, dolanmaz,
Çullu məxmər yaramaz.
Sən çox yaxşı cavan idin,
Sənə quru yer yaramaz.

331. Səhər açıla, qardaş,
Atını qamçıla, qardaş.
Gəlirsən tezdən gəl,
Ürəyim açıla, qardaş.

332. Şuşadan çıx, daş götür
Xojəlidən yaş götür.
Şuşanı əldən versən, ay Yaqub Məmmədov
Kürsüdən dur, baş götür.

333. Gedirəm o ölküyə,
Gəlirəm bu ölküyə.

Qarabağı azad eləsin
Azərbaycan, Türkiyə.

334. Dağlar, səni əndərim,
Üzü bəri döndərim.
Gözümə torpax lazımdı,
Gətirməyə kimi göndərim?

335. Dağlar, səni sınasan,
Əyiləsən, sınasan.
Mən dedim, şad olasan.
Demədim ki, sınasan.

336. Bağlar, otun qurusun,
Otun, suyun qurusun.
Səndə düşmən gəzəndə
Matın-qutun qurusun.

337. Dağlarda bir ov sənnən,
Getməz qar, qırov sənnən.
Altmış il ömürümü sərf elədim
Almadım bir ov sənnən.

338. Gözlərim mayıf oldu,
Yaş getdi, zəyif oldu.
Dağıldı ev-eşiyim,
Savadım hayıf oldu.
= Oğul səngər üçündü,
Qızdarımız hayıf oldu.

339. Anasız qızdar ağlar,
Dərdini gizdər, ağlar.
Analılar dərdin deyər,
Anasızdar gizdər, ağlar.
= Atasız qızdar ağlar,
Dərdini gizdər, ağlar.
Atalı dərdin deyər,
Atasız gizdər ağlar.

340. Lələyəm, deyənim yox,
Al-yaşıl geyənim yox.
Nəkqədər əzab çəksəm də,
“Anan ölsün” deyənim yox.

341. Xojəlidən gəlirəm,
Donum ağdı, məlirəm.
Xojəlini yuxumda görəndə
Ayılanda ölürəm.

342. Yeri, çiskinim, yeri
Duman, çiskinim, yeri.
Ay Müzəffər müəllim, getdi
gözəl günnərimiz,
Gəldi pis günüm, yeri.

343. Sarı sancax, ağ sancax.
Başıma düzdüm ancax.
Nə qız oldum, nə gəlin
Odlara yandım ancax.
*Söyləyicinin dediyinə görə, anası bu bayatını öz taleyi ilə əlaqədar söyləyirdi. Öz övladlarını necə əziyyətlə böyütdüyünə misal çəkirdi.*

344. Qaşların qibləgahdı,
Ucun əymə, günahdı.
Şuşaya duman gəlsə,
Bil ki, mən çəkən ahdı.

345. Xoş gördük, dağlar, səni,
Qar yağar, bağlar səni.
Düşmən görsə, şad olar,
Dost görsə, ağlar səni.
346. Arxalığı gödək yar,
Boyu boydan gödək yar.
Sən duman ol, mən çiskin
Yağa-yağa gedək, yar.

347. Bu dərə narınc dərə,
Getdikcən narınc dərə.
Burda bir bağ salaram,
Yar gələr, barın dərə.

348. Çanaqqala, çaq qala
Çək belini, toqqala.
Əyyam elə gətirib
Qız gedir ağsaqqala.

349. Qonağın gəlməyi haxdı,
Gejə qalmağı nahaxdı.
Səhər durub getmirsə,
Deməli, qonax axmaxdı.

350. Tərli-tərli su içmə,
Tərli çaydan çox keçmə.
Canın olsun salamat,
Nə azarla, nə də yat.

351. Yaralarım oyuldu yenə,
Verdi qabıq, soyuldu yenə.
Dərd məndən azalmamış,
Dərdim üstə dərd qoyuldu yenə.

352. Ayrıldım, gülüm, səndən,
Bülbülüm, gülüm, səndən,
Almadım bir halallıq,
Qudurmuş dilim səndən.

353. Ay dağlar qızı,
Ay ayran qabaxlı.
Qızaran yanaxlı.
Ağını qardan götürüf,
Qırmızısını nardan götürüf.
Pəhləvan xalam, a lay-lay,
Pəhləvan xalam, a lay-lay.

354. Ağ otaxlı,
Bülbüllü bağlı,
Əli topa açarrı.
Balam, a lay-lay,
Xalam, a lay-lay.

Gejə ay işığında,
Günüz gün işığında.
Çalışan xalam, a lay-lay,
Xalam, a lay-lay[83].

[83] Bunlar ağı nümunəsidir.

# LAYLALAR, OXŞAMALAR

1. Həştə sevər səni nənən,
Hüştə sevər səni nənən.
İndi yazdı, işim çoxdu,
Qışda sevər səni nənən.

2. Başına dönüm baş alanda,
Əyilif yerdən daş alanda,
Qızdara qardaş olanda,
Oğlannara yoldaş olanda.

3. Balam çıxıf daş üsdə,
Teli tökülüf qaş üsdə.
Nişanlısı deyir, gəl gedək,
Balam deyir, qoy görək.
Ay dili qurumuş ana,
Bir sən də dillən görək.

4. Başına dönüm, döndərim,
Səni məytəbə göndərim.
Sən məytəbdən gəlincə
Özümü daşa döndərim.

5. Ağacda quşdar ləli-ləli-ləli
Bir-birin dişdər ləli-ləli-ləli.
On iki imam, bir tarı
Balamı bağışdar ləli-ləli-ləli.

6. Laylay butam, laylay,
Ətrinə batam, laylay.
Balam ərsəyə gələ
Toyunu tutam, laylay.
Tavar xala

7. Laylay çalım su gəlsin,
Yatsın, yuxusu gəlsin.
Qəlbi-qəlbi dağlardan,
Uzaq-uzaq yollardan
Balamın atası gəlsin.

8. Başına dönüm baş kimi,
Savağa qalmış aş kimi.

# SAYA[84] SÖZLƏR

1. Çoban qoyuna gedər,
Baxar, boyuna gedər.
Çobanın ağ erkəyi
Nişan toyuna gedər.
= Çobanın muzd toğlusu
Dostunun toyuna gedər.

2. Qoyun var, kərə gəzər,
Qoyun var, kürə gəzər.
Gedər dağları gəzər,
Gələr evləri bəzər.

3. Anam, a qoyunun ağı,
Dolanar gələr dağı.
İçər sərin bulağı,
Çərtər qara qıyğağı.
Çobana çarıx bağı,
Qızdara cehiz bağı.
Qocalar yığar yağı,
Gəlinnər bişirər qayğanağı.

4. Anam, a narış qoyun,
Yunu bir qarış qoyun.
Çoban sənnən küsübdü,
Bol süd ver, barış, qoyun.
= Anam, a narış qoyun,
Yunu bir qarış qoyun.
Bulamanı bol elə,

---

[84] Bu nümunələr elmi ədəbiyyatda sayaçı sözlər kimi tanınır, amma söyləyici onları saya adlandırdığından biz də həmin nümunələri söyləyicinin verdiyi adla təqdm edirik.

Qırıldı uşaq, qoyun.
5. Anam, a qaçax qoyun,
Yunu bir saçax qoyun.
Sənə yaman baxanın,
Gözünə bıçax, qoyun.

6. Keçi deyir,
Mənim adım Abdulkərimdi,
Qavala çəkilən dərimdi.
Üç ay qış dərdi-sərimdi.
Qəlbi-qəlbi qayalarım var mənim,
Uzun-uzun sicimlərim var mənim.

7. Canım, qoyunun ağı,
Dolanıb gəlir dağı.
Acıcadır dırnağı,
Şirincədir qaymağı.

8. Canım, ay kəlim qoyun,
Gətirib yelin qoyun.
Əən[85] sənin üzünnən
Gətirib gəlin, qoyun.

9. Çox bəd olur ağ qoyunun kürəsi,
Avşar[86] bəyənmir tərs qumralın məməsi.

---

[85] Əən – yiyən
[86] Avşar – avşarlamaq (heyvanı sağmaq üsulu)

## SİCİLLƏMƏ

1. Bum, bum, bum,
Açıldı albom.
Gedirdim nənəmgilə
Tuflimi götürməyə,
Tık, tık, tık.
Balaca kişi suya düşüb boğuldu,
Öhö, öhö, öhö.
Fatma xala yalvarmaxdan yoruldu,
Vay, vay, vay.
Balaca kişi tar çalır,
Zınqır, zınqır, zınqır.
Arvadı qarmon çalır,
Li, li, li.
Uşaqları oynayır,
Lya, lya, lya.
Qonşuları pul səpir,
Bir, iki, üç.

2. Eşşək girdi hamama,
Başladı anqırmağa.
İ-a, i-a, soyuqdu,
Ermənilər toyuqdu.
Harda görsən erməni,
Vur başına gülləni.

3. Üşüdüm ha, üşüdüm,
Bağdan alma daşıdım.
Almalarımı aldılar,
Mənə cürüm verdilər.
Mən cürümdən bezərəm,

Dərin quyu qazaram.
Bu quyuda beş keçi,
Hanı bunun erkəci?
Erkəc qaya başında,
Qaşqası var qaşında.
Hey çağırdım, gəlmədi,
Çiyid verdim, yemədi.
Çiyid qazanda qaynar,
Qəmbər bucaqda oynar.
Qəmbər getdi oduna,
Ağac dəydi buduna.
Ağac deyil, qamışdır,
Beş barmağım gümüşdür.
Gümüşü verdim tata,
Tat mənə darı verdi.
Darını səpdim quşa,
Quş mənə qanad verdi.
Qanadlandım uçmağa,
Haqq qapısın açmağa.
Haqq qapısı kilidli,
Bülbül içində itdi.
İki xoruz əlləşdi,
Biri taxçadan düşdü.
Nənəm ocaq qaladı,
Bozdar ağzın yaladı.
Günəş çıxdı yerindən,
Mən sevindim dərindən.

4. Top-topu sərçə
Gül topu sərçə.
Dəyirmanda dən qoymuşam
Get gətir, sərçə.

# OYUNLAR

## 1. QAZOTARAN

Bu oyun altı nəfər arasında oynanılır. Biri şah olur, biri vəzir, biri carçı, biri tapan, biri də oğru. Carçı deyir:

– Qaz otaran, neçə qazın itib?

Çoban deyir ki, beş dənə qazım itib.

Şah deyir:

– Tapan, oğrunu tap.

Tapan oğrunu birinci dəfə tapmasa, deyirlər: "Tapbadın, bir qələt". Yenə də tapbırsa, vəzir iş kəsir, tapbadığına görə ona yumrux vurulur.

## 2. ARPA QAÇ, BUĞDA TUT

Bu oyunu gecə həyətdə oynuyurdux. Hər dəstənin bir başçısı olurdu. Başçılar hərəsi pencəyin bir başınnan tuturdu. O biri dəstənin üzvləri pencəyin önündə, bu biri dəstənin üzvləri isə pencəyin o biri üzündə yerə uzanırdı. Pencəyin arxasında gizlənən uşaxların hərəsinə bir ad qoyulurdu. Pencəyi tutan deyirdi:

– Ala dana, gəl.

O biri dəstənin başçısı da deyirdi ki, Ala öküz, sən də gəl. Adı Ala dana olan başın söyküyürdü pencəyə. Ala öküz pencəyin o biri üzündən onun başına kəllə vururdu. İndi Ala danadan soruşullar ki, səni vuran kim idi. Düz tapsa, əlli metr ölçüb məsafə təyin edirdilər, uduzan dəstə udan dəstəni həmin məsafəyə qədər kürəklərində aparıb gətirməli idi.

## 3. MOLLA, VAY

Bölüşürdük, hər dəstəyə səkkiz adam düşürdü. Bir dəstə otururdu burda, o biri dəstənin üzvləri gedib gizlənirdi. Kapitanlar bur-

dadı axı. Yatan dəstənin kapitanı axtarıb gizlənən uşaxlardan birini tapmalı idi. O hara gedirdisə, gizlənən dəstənin kapitanı deyirdi ki, filankəsin evinin yanındayıx. Gizlənən uşaqlar hesablıyırdı ki, bu dəstənin kapitanı xeyli aralaşıb. Gizlənəndikləri yerdən qaçıb gəlirdilər, bu biri dəstənin üzvlərini döyürdülər. Bular qışqırırdı:

– Molla, vay, molla, vay.

Molla qaçıb bura gəlincə bular yatannarı döyürdü. Molla gəlib uşaxları aralaşdırırdı. Sora yerlərin dəyişirdilər, yatanlar gizlənirdi, gizlənənlər yatırdı.

## 4. MIXÇA-MIXÇA

Bu oyunu yumuşax torpaxda oynuyurdux. Odunun ucun bizdiyirdih. Biri odunu elə atmalı idi ki, yerə sancılsın. Sən də odunu elə vurmalı idin ki, rəqibin odunun yerə yıxsın, özü də yerə batsın. Yıxsa, rəqibin odunun götürürdün. Yıxmasa, rəqib oyunçu öz odunun çəkib sənin odunu vururdu. Odunu yıxa bilsə, onu götürürdü. Elə adam vardı, bu oyunnan iki-üç şələ odun udurdu.

## 5. QURUTMA

Qurutma oyunu iki dəstə arasında oynanılır. Hər dəstədə üç, dörd və daha çox uşaq ola bilər. Qabaqcadan mətə yeri müəyyənləşdirilir. Mətə olaraq ya divarı, ya da ağacı seçərdilər. Dəstənin biri qaçır, o biri dəstə üzvləri onları qovur. Qovan dəstənin üzvləri qaçan dəstənin hansı üzvünə əlini vursa, həmin adam yerində qalırdı. Buna qurutma deyilirdi. Həmin dəstənin üzvləri gəlib əlini vurub onu dirildərdilər, ondan sora qaça bilərdi. Qaçan dəstənin üzvü gəlib əlini mətəyə vurarsa, o biri dəstənin onu vurmağa ixtiyarı yox idi. Rəqib oyunçular çox vaxt dincəlmək, nəfəslərini dərmək üçün əllərini mətəyə vurardılar. Qovan dəstənin üzvləri şərait yaradırdılar, yol verirdilər ki, rəqib oyunçu qaçsın. Elə ki, həmin oyunçu əlini mətədən çəkib qaçdı, onu yenidən qovurdular. Qaçan dəstənin bütün üzvlərini qurutduqdan sonra dəstələr yerlərini dəyişirdilər.

## 6. YEDDİ ÇÖP

Yeddi çöp dörd-beş uşaq arasında oynanılırdı. Bir-birindən bir qədər aralı iki dənə daş qoyulur, yeddi dənə çöpü kom daşın üstünə qoyurdular. Daşlar bir qədər qəlbi olardı ki, ayaxla çöpləri vurub dağıtmaq mümkün olsun. Püşk atardılar, kim uduzardısa, həmin adam çöpü qoruyardı. O biri uşaxlar çöpləri dağıtmağa çalışardılar, o da onlara imkan verməzdi. Çöp dağılmamış kiməsə əlini və ya ayağını vura bilsə, həmin adam onun yerinə keçərdi. Vura bilməsə, uşaxlar fürsət tapıb təpiknən çöpü vurub dağıdardılar. Çöpləri qoruyan şəxs bu səfər onları yığıb daşın üstünə qoymalı idi.

## 7. MƏN TƏK, CÜTÜM TƏK

Bu oyun iki nəfər arasında oynanılırdı. Çiliyin hər iki ucun yonardılar, şiş vəziyyətə salardılar. Mətə qazardılar, biri bir ayağını mətəyə qoyub çiliyi əlnən atardı. Çiliyi atanda elə məsafəyə atardı ki, sora ağacla vura bilsin. Çiliyin ardınca ağacı atırdılar. Ağac çiliyə dəyirdisə, gedif ağacnan çiliyi vururdu. “Mən tək” deyif ağacnan çiliyin bir ucunnan vurardılar, çilik yuxarı qalxdıqda, ağacla onu vurub uzaqlaşdırardılar. Bu səfər çilik hara düşübsə, həmin yerdən “cütüm tək” deyib bir də həmin qayda ilə çiliyi havaya qaldırıb uzağa vurardılar. Çilik hara düşübsə, “cütdəmələ”, “axırı kələk” deyib bir də onu vurub uşaqlaşdırırdılar. O biri uşax gedib onu gətirməli idi. Ağacnan çiliyi vura bilmədikdə, yanırdı, atmaq növbəsi rəqib oyunçuya keçirdi.

## 8. BAYRAQ-BAYRAQ

Dörd-beş nəfərdən ibarət iki kamanda olurdu. Hər kamanda öz bayrağını tikirdi. Dairə çəkərdilər, qırmızı parçanı çubuğa bağlıyıb dairənin içinə sancardılar. Bayraqlar arasında iyirmi-otuz metr məsafə olardı. O bayrağı qoruyan olurdu. Hər iki kamanda cəhd

eliyirdi ki, rəqib kamandanın bayrağın götürsün. Bayrağı götürüb öz yerinə gətirməli idi. Rəqib oyunçu ona əlini vursa və ya onu tutsa, deyirdilər "dondu". Həmin adam artıq tərpənə bilmirdi, yerində qalırdı. Həmin kamandanın oyunçuları indi həm bayrağı qoruyur, həm də rəqib oyunçunu gözdüyürdülər ki, rəqib kamandanın oyunçuları gəlib onun donunu açmasınlar. Yoldaşları gəlib əlini ona vursalar, onun donu açılırdı, yenidən oyuna qatılırdı. Bayrağı qoruyanın dairədən kənara çıxmağa ixtiyarı yox idi. Rəqib oyunçular da dairənin ətrafında fırlanırdı, qoruyucunun başını qatıb bayrağı götürüb qaçırdılar.

## 9. ÇİLƏMƏ[87]

Çoşkanı qoyunun boyun dərisindən hazırlıyırdılar. Qoyunun boyun dərisinin tükü çox olurdu, ona görə də dərini həmin hissədən kəsərdilər, yunun da darıyardılar ki, uzun olsun. Daha sonra qurğuşunu əridib dəriyə yapışdırırdılar, dörd yerdən deşik açıb simnən dəriyə bərkidirdilər. Qurğuşun ağırlıq verdiyi üçün dərini çönməyə qoymurdu. Oyun vaxtı hərə beş-altısın düzəldib gətirirdi. Qurğuşunu düz tökməyəndə, bir tərəfi ağır gəlirdi, çoşka havaya qalxanda əyilirdi. Ona görə öncə yoxluyurdux. Bir-iki dəfə oynuyurdux, hansı tarazdığın itirmirdisə, demək o yaxşı idi, oyunu onnan oynuyurdux. Çiləməni dəri ayaqqabıynan oynuyurdular, yumuşaq ayaqqabıynan oynuyanda topuğa dəyəndə pis ağrıdırdı. Balaca batinka geyənlər onu daha yaxşı vururdu.

Oyun iki nəfər arasında oynanılırdı. Çoşkanı ayağın içinən vurub çiliyirdik. Kim çox çilədisə, o birini işlədirdi. Çoşkanı əlinə alıb təpiknən vururdu, işləyən şəxs də gedib gətirirdi. Amma işləyən şəxs çoşkanı havada tutsa, onda oyun təzədən başdıyırdı. Vuruşları sayanda belə sayardılar: Bir cüt, iki cüt, üç cüt, dörd cüt. Dörd cüt olanda bilinərdi ki, səkkiz dəfə çilənib. Ya da daha qısa düşməsi üçün deyirdilər: Bir cü-tə çat-dım. Onu hər adam oynuya

---

[87] Bu oyun Şuşada həm də Çoşka-çoşka adı ilə tanınır.

bilmirdi, cəldlik tələb eliyirdi. Çoşka ayağın həm içinən, həm də üstüynən vurulurdu. Birinci tərəf vura bildiyi qədər çiliyirdi, çoşka nə vaxt yerə düşsə, bu səfər çiləmək növbəsi rəqibə çatırdı. Kim daha çox çiləyə bilsə, o birini işlətmək haqqı qazanırdı.

Oyunun qaydasıdı, kim dokquzun vurub onuncuda rul vurdusa, demək o qalibdi. Rul vuranda on xal sayılırdı. Rul vurmağın qaydası belədir ki, ayağın içinən vurduqdan sora çoşka yerə düşməmiş sağ ayağı sol ayağın arxasınnan aparıb çoşkanı bir də vurmalı idi.

## 10. SƏHMİ AĞAC

Tutax ki, səkkiz adamıx. Səkkiz ağacı – çoban çomağını yığırdıx, verirdik bir nəfərə, həmin adam çomaxları iki ovcunun içinə alıb başının üstündən arxaya tulluyurdu. Ağaclar yerə düşdükdən sora hər ağacın da arasın bir dirsək boyu qoyurdux. Hər ağacın arasın altmış santımetrdən qoyanda nə qədər məsafə eliyir. Gərək yüyürüf tullaneydin, bir ayağı üsdə başdakı ağacdan irəlidə dureydin. Ağaca dəymiyeydin, ağacdan kənara düşməli idin. Məsələn, mən tullanıb öz ağacımı götdümsə, məsafə bir dirsək boyu gödəlirdi. Növbəti tullanan üçün daha rahat olurdu. Kimin ağacı başa düşübsə, birinci o tullanırdı. Əgər tullana bilseydi, öz ağacını götürüb qıraxda dururdu. Tullana bilmiyəndə aşağıdakı ağacı gətirib başa qoyurdux. Kim axıra qalsa, onun ağacın bir ucun batırırdıx yerə. Məsafə təyin edirdik. Məsələn, üç metrdən əlimizdəki ağacla vurub onun ağacını yıxırdıx. Ağacını birinci götürən birinci də vururdu. Növbəynən o birilər vururdu. Elə olurdu, onun ağacı qırılırdı, onda təzdən bir ağac gətirib onun yerinə basdırmalı idi. Kimin ağacı dəyməsə, onun ağacı basdırılırdı yerinə.

## 11. MƏRƏ-MƏRƏ

On-on beş nəfər yığışırdıx, adama bir torba qoz yığıb gətirirdik. Mərə qayırırdıx, mərənin baş tərəfin hamarrıyırdıx, ayağı da

dərin çala olurdu. Mərənin baş tərəfi təmizdənirdi, otdux-zad olmazdı ki, qozu saxlamasın. Özümüz razılaşırdıx, beş metrdən, altı metrdən baş təyin edirdik, ordan qozu atırdıx. Qozu yığırdıx ovcumuzun içinə. Əvvəlcə şərtin deməli idin. Məsələn, saa deyirdim, təki istiyirsən, cütü? Deyirdin, təki. Qozu atırdım mərənin başına, ordan qoz diyirrənib gəlib mərənin içinə tökülürdü. Elə adam vardı ki, qozu elə atırdı, hamısı gedib mərəyə düşürdü. Mərənin içindəki qozları sayırdıx, təkdisə, o qozzar sənə çatırdı. Cütdüsə, mənə bir o qədər qoz verirdin. Kimin birinci atacağını da püşknən müəyyənləşdirirdik.

## 12. KƏLƏQURDAŞ

İki dəstəyə bölünürdük, hər dəstədə üç-dörd nəfər olurduq. Çaylaq daşı olardı, onların arasından seçib uzunsov üç-dörd daş götürərdik. Həmin daşları yan-yana torpağa basdırardıq. Daşlar torpağa elə basdırılardı ki, bir hissəsi torpağın içində olurdu, bir hissəsi çöldə qalırdı. Hər iki tərəfdən on-on beş metr məsafə təyin edərdik. Bir dəstə bu tərəfdə, digər dəstə isə o tərəfdə durardı. Püşk atardıq, kim qalib gəlsə, birinci o dəstə atmaq şansı qazanırdı. Atdığımız daş da girdə daşlar idi. Nişan alıb həmin torpağa basdırılmış daşları vurmalı idik. Hansı dəstə üçün də yıxardısa, o, qalib gələrdi. Hərənin əlində üç dənə daşı olurdu. Birin yıxan ikinci daşı atardı. Daşı dəymədisə, atmaq növbəsi keçirdi yanındakı yoldaşına. Dəstənin bütün üzvləri atardı, onlar qutardıqdan sonra növbə keçirdi o biri dəstəyə. Hansı dəstə daşın üçün də yıxırdısa, o dəstə qalib gəlirdi.

## ŞEİR PARÇALARI

1.

Kişi deyir:

Arvad, səni bu gün kursa yazıblar,
Təzədən, köhnədən varsa, geyin, get.
Getməsən, məni qarsa basarlar,
Cındırdan-mındırdan varsa, geyin, get.

Qadın deyir:

Ay kişi, sarsaxlama, vaxtım ötübdü,
Kələynən-küləynən işdərim yoxdu.
Tökülübdü, ağzımda dişdərim yoxdu,
And olsun canına, müşdərim yoxdu.

2.

Yar məni göndərif qluba yaxın,
Qlubdan çıxanda boyünə baxım.
Toylərdə oynuyanda minə gərdənə
Yuxarı qalxanda belə gül taxım.

Yar gedib Bakiyə doxtur olmağa,
Opuska götürüf kəntdə qalmağa.
Əynimə geymişəm kabrikot yufka,
Üstünnən geymişəm qırbişin yufka.

3. Aşıqlar qırıldı, saz hayıf oldu.
Şairlər qırıldı, söz hayıf oldu.
Xojəli qırıldı, qız hayıf oldu.

4. *Simavar xanım hamilə imiş. Gəlif Paşa bəyin dam otağında hamiləliyin qoyuf yerə. Paltarını cırıf, oğlunu ona büküf. Oğlu böyüyüf, anasını bəyənmiyif. Simavar xanım deyif:*

Unnucəyəm, basma məni,
Kirricəyəm, basma məni.
Paşa bəyin dam otağında
Hadıxsız doğmuşam səni.
İndi bəyənməzsən məni.

5.

Qız:

Çay aşağı çapan oğlan,
Çay yuxarı çapan oğlan.
Başmağımı tapan oğlan,
Oğlan, ver tay başmağımı.

Oğlan:

Çay aşağı çapmamışam,
Çay yuxarı çapmamışam.
Qız, başmağın tapmamışam,
Məndə yoxdur tay başmağın.

Qız:

Gedib atama deyərəm,
Qardaşıma söyləyərəm.
Oğlan, səni öldürərəm,
Oğlan, ver tay başmağımı.

Oğlan:

Gedib atana desən də,
Qardaşına söyləsən də,
Ay qız, məni öldürsən də,
Məndə yoxdur tay başmağın
Budur, gəl, al tay başmağın.

6. Qayınana gəlini haqqında deyir:

Heç atalar əkmiyən,
Heç analar yetirməyən,
Bəzirganlar bitirməyən,
Qaratikanlar yetirməyən
Gəlindi mənim gəlinim.

7. Balaca dolma yarpağı,
Sən məzə ver yar-yar.
Gedirəm aşna tutmağa,
Sən irza ver, yar-yar.
Sən irza ver, yar-yar.

Şəkidə mən işdərəm,
Xəncərimi gümüşdərəm.
Öpərəm, ya dişdərəm,
Sən irza ver, yar-yar,
Sən irza ver, yar-yar.

Şəkidə sən işdəmə,
Xəncərini gümüşdəmə.
Nə öpmə, nə dişdəmə,
İrza vermərəm, yar-yar,
İrza vermərəm, yar-yar.

8. Qaşın qara, gözün qara,
Sürməni neynirsən?
Gedirsən yar sevməyə,
Bəs məni neynirsən?
Bəs məni neynirsən?

9. Şəkidə bir quyu var,
İçməyə sərin suyu var.

Dindirmə o yarı,
Dindirsən, yaman huyu var.

İçmərəm mən o suyu,
Gözün qurusun quyu.
Yara yar desəm ta,
Tutmayacaq huyu,
Ta tutmayacaq huyu.

10. Qayada çaşır,
Yarpağı yaşıl.
Bir dərdə düşmüşəm,
Ellərə məşhur.

# NAĞILLARIN SÜJET GÖSTƏRİCİSİ[88]

**437 Ölüyə qismət olan qız** – №148
**559 Danışmayan qız** – №150
**653A Ən qiymətli hədiyyə** – №150
**661* Xarrat, dərzi, kimyagər** – №150
**759* Peyğəmbər Allahı ədalətsizlikdə günahlandırır** – №151
**760* Boyaq suyu ilə ehsan** – №155
**776**A Allaha pənah** – №154
**779* Valideyn sevgisi:** Qəssab hədinddən artıq qocalmış anasını səbətin içində bəsləyir. Valideyn sevgisinə görə allah onu cənnətlə mükafatlandırır – №156
**807** Gələcək nəsil** – №149
**827* Çobanın Həcc ziyarəti** – №152, 153
**882* Dülgər daşın üstündə ağac yonur** – №161
**891 Padşah arvadından ona oxşar uşaq doğmasını tələb edir** – №158
**976*A Dəyişik düşmüş baş** – №150
**997* İnsan nəslinə çəkər** – №162
**1355C* Qəhrəman samanlıqda** – №165, 166
**1525S* Keçəllə kosa padşahın inəyini oğurlayırlar** – №163
**1525Y* Keçəllə kosa alver edirlər** – №163
**1667* Cəsarətli bostançı** – №159
**2022 Bit və birə** – №167, 168
**2031 Buz və qarı** – №169

"Allaha borc", "Naxırçı qızının ürəyi naxırçı çörəyi istəyir", "Dəli və ağıllı qardaş", "Uşaq və noxud", "Pişik və siçan" nağıllarının qeyd olunan kataloqda qarşılığı olmadığı üçün onların süjet nömrəsi burada öz əksini tapmayıb.

---

[88] Süjetlərin adları və nömrələri "Azərbaycan nağıllarının süjet göstəricisi" (Bakı: Elm və təhsil, 2013) əsasında verilmişdir. Süjet adlarından sonra nağılın topludakı nömrəsi göstərilmişdir. Topludakı nağılların böyük əksəriyyətinin həmin kitabda qarşılığına rast gəlinir, yalnız bir neçə süjetin qarşılığı yoxdur ki, həmin süjetlər haqqında da göstəricinin sonunda əlavə məlumat verilmişdir.

# ŞƏXS VƏ YER ADLARININ GÖSTƏRİCİSİ

Abbasqulu ağa – səh. 10, 248, 249, 250, 251, 252
Abbasəli (1918-ci ildə ermənilərlə döyüşdə ad çıxarır) – səh.171, 172
Abdal Qasım – 10, 242, 243
Abış kişi (“Xan bəzəmə” oyununda dəfələrlə xan seçilib) – 28
Adıgözəl daşı – 109
Ağa kələyi –127, 128
Ağa körpüsü – 246, 250, 268
Ağabalım ağa (əjdahanın üstündə Hacı Bəktaşın görüşünə gəlir) – 96; Sarı Aşığı dəfn edir – 271
Ağadədəli – 61
Ağagorru (yer adı) – 86
Ağalı – 11, 12, 15, 16, 18, 22, 23, 30, 31, 33, 34, 36, 38, 39, 41, 43, 44, 165, 166
Ağalıq otağı – 170
Ağbənd – 230
Ağdam – 62, 116, 118, 150, 246, 250
Ağkənd – 139, 170, 171
Aladin – 152
Alıbəyli – 150
Allahqulu (məşhur ovçu) – 71
Andranik – 171, 173
Araz çayı – 233
Aşıq Bəbir – 103, 290, 291, 292
Aşıq Əli (şəxs adı) – 288, 289; Aşıq Əli səngəri – 109, 288
Aşıq Məmmədrza – 289, 290
Aşıq Oruc – 235, 236
Aşıq Usuf – 112, 113
Atakişiyev Ataş – 109
Aynişan – Hacı Vəlinin yoldaşı, xanın arrvadı rolunda çıxış edir – 28
Azad ağa – 106, 107
Azad Əbilov – 36, 46, 386
Babaxan oğlu Balaca – 6, 104, 106, 277, 278
Babayıl (kənd adı) – 12, 13, 15, 23, 26
Babış – 55; lətifə qəhrəmanı – 256
Bağlar (yer adı) – 277
Baharlı –3, 127, 144

Bartaz – 13, 15, 18, 21, 22, 23, 25, 26, 32, 33, 35, 36, 86, 106, 107, 119, 120, 123, 124, 131, 132, 135, 144, 167, 233, 235, 304
Bazarbaşı – 244, 245, 247, 265, 267, 372
Bədirxanlı (tayfa adı) – 109
Bəhmən Rəsulov – 54, 55, 56, 390
Bərdə – 250, 251, 254, 328
Bərgüşad çayı – 23
Bəsit çay – 3, 91
Bıydız kəndi – 288, 289
Burcuvar – 107
Buzduğ – 226
Cabbar Qaryağdı – 248
Cahangirbəyli – 20, 27
Camal bəy – 112, 113, 114, 278, 279
Çanaqqala – 343
Canbas bulağı – 141
Çayçı Saleh – 58
Çayçı Süleyman – 58
Çaykənd – 226, 299
Çaylı (kənd adı) – 230
Çaylı Çavındır (Kənd Zəngilanın xalq arasındakı adı) – 147
Çəkilli arx – 114
Cəlal Hətəmov – 50, 387
Cıbıllı – 3, 139, 279
Çöpədərə – 11, 15, 16, 23, 109, 127, 143, 311
Culfa – 230
Culfalar bulağı – 57
Cümşüd Cümşüdov – 34, 35, 40, 41, 44, 377
Dağıstan (şəxs adı) – 34
Dardan yuxarı – 240
Dəlləkli – 105, 127
Dərələyəz – 85
Dərviş Pirim – 95
Dərzalı (tayfa adı) – 139
Diri dağı – 113
Dodu İslam – 257
Əbdülsəməb bəy (mətndə Əbüsəməd, Abusəməd və Əbisəməd şəklində verilir) – 103

Əjdaha (mifoloji personaj) – 85; Ağabalım ağa əjdahanı minib Hacı Bəktaşın üstünə gedir – 96; Əjdaha bulağı – 118; Əjdaha daşı – Cəbrayıl rayonunun Dağtumas kəndində yerləşir – 86
Elmira Mikayılova – 6, 16, 18, 22, 25, 31, 33, 34, 36, 37, 389
Erkəcə (yer adı) – 226
Ərzurum – 331
Əsabi-kəf – 101
Əsgəran – 250, 295, 298
Əsgərli kəndi (kənd adı) – 4, 107, 109, 126
Əsli (Yuxarı Yeməzli kəndində keçirilən "Xan bəzəmə" oyununda xan seçilir) – 28
Əsrik kəndi (Kəlbəcər rayonunda kənd) – 54, 55
Əyyub Şırlanlı – 11, 64, 294, 386
Əzrayıl –284, 301, 318, 319, 321, 325
Fatma ana (Fatimeyi-Zəhra nəzərdə tutulur. Yezidə əsir düşür.) – 88
Fərzalı (tayfa adı) – 139
Fətəli xan – 114
Firidun Şuşinski – 61
Füzuli: Məhəmməd Füzuli – 95; rayon adı – 36, 94, 109, 142, 267
Gəlin qaya – 91
Gəncə – 110, 321, 324
Gəncə qapısı – 58, 252
Gəyən düzü – 274
Gilətağ – 17, 18, 19, 171, 172, 291, 292, 294
Girvə – 102, 278
Gödəklər – 279
Gorus – 114, 234, 267
Göybənd – 230
Gülquz (şəxs adı) – 168
Hacallı (kənd adı) – 20, 24, 50, 53; tayfa adı – 151; məhəllə adı – 152
Hacı Abdulla (1918-ci ildə erməni hücumlarının dəf olunmasında böyük rol oynayıb) – 170, 236
Hacı Bəktaş – 96
Hacı Kazım (Ağalı kəndinin ağsaqqalı) – 165, 166
Hacı Məmmədhüseyn (kənd adı) – 149
Hacı Qaraman – 93, 94, 95, 271, 272, 274
Hacı Qasım Çələbi – 94; Şıx Çələbi – 95
Hacı Qulu (Şuşanın məşhur tacirlərindən biri olub) – 117, 119, 269, 373

Hacı Vəli (Şərikan kəndində keçirilən “Xan bəzəmə” oyununda xan seçilir) – 28
Hacı Zaman (Ağalı kəndinin ağsaqqalı) – 165
Hacıyuaxlı (yer adı) – 100
Hambal İbiş – 258
Hambal Qulu (nağıl personajı) – 188
Həbibulla (Mustafa Sofunun oğlu) – 98
Həcc – 74, 164, 270
Həkəri çayı – 3, 23, 150, 151
Heydər ağa (şəxs adı) – 125, 127, 129, 133, 134, 135, 136; yurd adı – 128
Həzrət Əli – 96, 272; İmam Əli – 130, 132; Əli əleyhsalam – 134; Cənab Əmir – 12; Əmirəlmömin – 12, 27
Hitler – 252
Hoca Həsən Kolavatı (yer adı) – 148
Hüseynxanlı kəndi – 31
İbrahim Xəlillullah – 132
İbrahimxəlil xan – 114, 148
İmam Həsən – 89
İmam Hüseyn – 89
İmarətlər – 149
İran – 3, 99, 105, 111, 112, 115, 120, 121, 123, 127, 134, 135, 137, 141, 148, 149, 151, 158, 167, 168, 170, 233, 234, 237, 244, 278, 279
İsrafil vurulan bulaq – 108
Kaftar – 40, 86, 87
Kalba Bəşir – 122, 123, 135, 166, 167
Kalba Səməd – 233, 234
Kalba Tağı (Çöpədərə kəndinin bünövrəsini qoyan şəxs) – 143
Kalbay Fərzalı (Bartaz kəndinin zəngin adamlarından biri) – 121
Karrar – 106, 171
Keçəl təpə – 166
Keçikli – 33, 36, 42, 107, 145, 146
Kəkeyin dibi – 166
Kəlbiyalı oğlu Həsən – 123
Kərbalayı Tağı (Keçikli kəndinin sakini) – 146
Kərbəla – 74, 125, 148
Kərəm (Aşıq Kərəm) – 95, 288
Kolavat yolu – 110
Kosa Qənbər – 95
Kür çayı – 218

Laləzar Qurbanova – 14, 18, 21, 22, 25, 29, 42, 50, 55
Lələ bəy Şamlı – 125, 127
Lələ dağı – 273
Leşkər – 169
Leyli – 91
Loğman – 91, 92
Macqarmıc – 267
Madarlar cəmiyyəti – 245
Malaqan – 152
Malıbəyli – 268
Malkeçməz – 294
Maşat Burcalı – 165
Maviya – 95
Mazan nənə – 113
Məcnun – 91
Məhərrəm (Seyid Mahmudun xəlifəsi) – 138
Mehri – 281
Məkkə – 303
Mələş (yer adı) – 226
Məleykə (mifoloji varlıq) – 101
Məhəmməd bəy Cavanşir – 149
Məmməd bəy Aşiq Zəngilani – 141
Məmməd yüzbaşı – 104
Məmmədbəyli – 147
Məşəd – 74, 188, 189, 246
Məşədi Abbas – 10, 246, 247, 248
Məşədi Bəylər – 10, 224, 245, 246
Məşədi İsmayıl – 101
Məşədi Məhərrəm (Sobu kəndinin ağsaqqalı) – 135
Məşədi Qələndər (halı tutub işlədir) – 82, 83; ocağına maral gəlir – 97
Minbaşı (Sobu kəndində məşhur zurnaçı olub) – 111, 112
Mincivan – 12, 21, 22, 26, 109, 126, 163
Mir Əhməd ağa – 102
Mircəfər Bağırov – 109, 246
Mirəli ağa – 46
Mirik (Laçın rayonunda kənd) – 82
Mirzə Vəli – 148
Mirzəli Dadaş (seyidlərin buyruqcusu) – 135, 137
Möhübbət Səmədov – 9, 11, 12, 30, 31, 34, 40, 45, 390

Molla Pənah Vaqif – 114, 115
Molla Vəli – 259
Moskva – 109, 248
Muğanlı (tayfa adı) – 151, 152, 323
Mülkü bəy – 237
Müqtədir Baxşəliyev – 16, 26
Musa peyğəmbər – 88, 119
Mustafa (Azad ağanın eşikağası) – 106; Oxçulu Mustafa bəy – 171, 172
Mustafa Sofu – 98, 100
Müşülan – 120, 124, 233
Mütəllim Hüseynxanov – 55, 56, 65, 66, 67
Nabat – 283
Natəvan – 269
Nəbiyalı bəy – 275
Nərminə Bağırova – 13, 15, 16, 17, 21
Niqalay – 167, 234
Novruz kömbəsi – 30;
Ocaqqulu – 235
Oqtay Allahverdiyev – 63, 64, 245
Ordubad – 124, 147, 148, 171
Orduxan bəy (nağıl personajı) – 7, 211, 213
Ovçu Pirim – 308
Oxçu (kənd adı) – 3, 140, 141, 168, 171, 172; çay adı – 145
Ömər (xəlifə) – 95, 129
Ördəkli – 109, 127, 150, 235
Pir bulaq – 24
Qaçaq İsrafil – 108
Qaçaq Nəbi – 124
Qafan – 3, 110, 139, 170, 171, 172, 173, 277
Qala dərəsi – 110, 300
Qanlı ağac – 167
Qara molla – 236
Qara Pirim – 271
Qarabağ – 3, 4, 9, 111, 115, 142, 148, 150, 166, 173, 227, 259, 295, 296, 297, 298, 333, 334, 342
Qarabəkir paşa – 169
Qaraçimən – 98, 278, 279
Qaraçuxa – 80, 303
Qaradağ – 107, 111, 120, 323

Qarakollu (Füzuli rayonunda kənd) – 94
Qaraöyün – 236
Qaraöz – 127
Qaraxanlı (tayfa adı) – 151
Qarxun – 249
Qarsın qalası (nağıl personajı) 211, 212, 213
Qasımşahat (yer adı) – 227
Qaybalı (yer adı) –173, 299
Qəmər (at adı) – 114
Qərbənd – 143, 251
Qəşəm Aslanov – 255, 306
Qəzər xan – 102
Qlubinski (otriyad rəhbəri) – 109, 110, 126
Qnyaz Məhərrəmov – 38
Qodu-qodu (yağış yağdırmaq üçün keçirilən mərasim) – 69
Qotur suyu – 56
Qozdu (Laçın rayonunda kənd) –76
Qubad Bağırov – 33, 42
Qurbani – 57, 113, 271
Qurdlar bulağı – 57
Ramilə Vəliyeva – 12, 13, 14, 22, 26
Razdərə (kənd adı) – 90, 106, 107, 149, 150, 169, 173
Rəşid Həsənov – 55
Rumıniya – 226
Rusiya – 3, 151, 247
Rüstəm Zal – 87
Saf kəndi – 168
Şah Abbas – 152, 153, 154, 155, 156, 157, 159, 204, 205, 271
Şah gecəsi (dekabr ayında ay bütpvlənəndə keçirilən mərasim) – 137, 138, 139
Şah İsmayıl – 128, 129
Şah Qacar – 158, 159
Şahdağ – 115
Şam şəhəri – 125, 128
Saralı (tayfa adı) – 3, 4, 54, 139, 140, 231
Saralı Xəştab – 3, 54, 139, 140
Sarı Aşıq – 95, 271, 272; Sarıca Nəbi (başqa bir adı) – 272
Sarı baba – 173, 308
Şatırlı (tayfa adı) – 140, 141

Savalan – 316, 320, 339
Şəfibəyli – 4, 144, 148, 149, 150, 304
Şəhbəli – 227
Şərikan – 23, 27, 28, 30, 38, 44, 46, 171, 269
Seyid Alı – 50
Seyid Həsən ağa – 46, 53
Seyid Mahmud – 57, 134, 135, 137
Seyid Qurban (ovçu olub) – 70, 130, 131, 135, 136
Seyid Qurban kümbəzi
Seyid Şah Alı – 125, 127
Seyid Xoşu – 71
Seyid Ziya – 171
Seyir Mir Yusif – 98
Səyyarə Abbasova – 63, 66, 67
Sobu kəndi – 3, 12, 22, 24, 31, 32, 34, 35, 38, 41, 57, 107, 109, 110, 111, 125, 126, 127, 129, 135, 136, 137, 138, 144, 168, 289
Sofalı (tayfa adı) – 139
Sofu Vəliqulu – 81
Soltan bəy, Sultan bəy – 173
Süleyman Məmmədov – 23, 27, 28, 46
Şirindil xan (İran xanı) – 105, 106
Şirvan – 325, 337
Şıx Ağabalım – 96, 271
Şıx İsmayıl – 101
Şıx Məmməd – Şıxıyev Bağban – 274, 275, 276, 277, 278, 279, 280, 287
Şıx Mir Həmzə – 95, 96; Şıx əfəndi (Şıx Mir Həmzəyə verilən ad) – 97
Şuşa – 3, 54, 55, 57, 58, 60, 62, 63, 65, 76, 91, 119, 124, 147, 158, 173, 242, 245, 246, 252, 256, 258, 259, 261, 262, 265, 267, 268, 269, 289, 294, 309, 341, 342
Tağı xan (İran xanı) – 111,112, 144
Talıb Şərifov – 28, 46
Tatar kəndi – Zəngilan rayonunda kənd – 81
Tavar Qəhrəmanova – 12, 16, 37, 45, 46
Təndirgöl – 296
Tərnəvüt bulağı – 169
Toğana – 226
Tri (Zəngilan rayonunda kənd) – 81
Tufarqanlı Abbas – 271
Tumas ata – 271

Turabxan (kənd adı) – 91, 299
Türkiyə – 143, 169,171, 236, 342
Turşsu – 253, 255, 286, 295, 299
Tutu İbrahimova – 15, 25, 32, 36, 120
Umudvar – 173
Usta Səfər – 113
Uzundərə – 251
Vasqan Əliş (lətifə qəhrəmanı) – 255, 256
Vəzir Allahverdi xan – 152, 155, 156, 204, 205
Xan bağı – 250
Xan çinar – 90
Xan İsmayıl (Xanlıq Muxtarın atının cilovunu saxlayan şəxs) – 116
Xan Şuşinski – 252, 527
Xanazır – 86
Xanlıq Muxtar – 115, 116
Xansənəm Əliş (Xanlıq Muxtarın yaxın adamı) – 115
Xanzadə – 266, 299
Xəlfəli kəndi (Şuşa rayonunda kənd) – 55, 56
Xıdır Eylaz – 94
Xıdır Nəbi (qışın yarı olması münasibəti ilə keçirilən mərasim) – 68, 69; Xızır günü – 68; Xıdır Nəbi kömbəsi – 68
Xırda qışlaq – 276
Xocahan –165
Xorasan – 18, 191
Xudafərin – 330
Xurama – 126, 136
Xurşud (Seyid Mahmudun xəlifəsi) – 138
Xusdub – 102
Yamən (Yaxşının əri) – 272, 273
Yaxşı – 272, 273
Yevlax – 5, 227, 246, 248, 252, 259, 268
Yuxarı Yeməzli – 14, 27, 28, 30
Zəngilan kəndi – 13, 14, 17, 24, 27, 233
Zərnəli çayı – 104
Zərnigar Məmmədova –7, 8, 13, 14, 24, 25, 27, 56
Zilanlı – 52



**Mikayılova Elmira, Zəngilan rayonu, Böyük Ağalı kəndi, ağıçı**



**Məmmədova Zərnigar, Zəngilan rayonu, Zəngilan kəndi**



**Qəhrəmanova Tavar, Zəngilan rayonu, Çöpədərə kəndi**



**Qurbanova Laləzar, Zəngilan rayonu, Yuxarı Yeməzli kəndi**



**Bağırov Qubad, Zəngilan rayonu, Keçikli kəndi**



**Zəngilan, Məmmədbəyli türbəsi**




**Şuşa, Gəncə qapısı**



**Şuşa, Bazarbaşı meydanı**



**Şuşa, Gövhər ağa məscidi**



**Şuşanın zəngin tacirlərindən Hacı Qulunun evi**

# MƏTNLƏRİN SÖYLƏYİCİLƏRİ

## Etnoqrafik mətnlər

**Qeyd:** 1, 2, 3, 4, 8, 9, 10, 17 və 18 nömrəli mətnərin təsviri bizə məxsus olduğu üçün onların söyləyicisi qeyd olunmayıb.

11. Ş*uşa haqqında*. Abbasov Zahid, Şuşa şəhəri.
12. Abbasov Vahid, Şuşa şəhəri.
13. Məmmədov Vidadi, Şuşa şəhəri.
14. Abbasova Səyyarə, Şuşa rayonu, Səfixanlar kəndi.
15. Abbasov Zahid, Şuşa şəhəri.
16. Fətəliyev İlhami, Şuşa şəhəri.
19. *Xıdır Nəbi*. Məmmədov Süleyman. Zəngilan rayonu, Şərikan kəndi.
20. Hətəmov Cəlal. Zəngilan rayonu, Hacallı kəndi.
21. Hüseynxanov Mütəllim, Şuşa şəhəri.
22. *Qodu-qodu*. Əbdüləzimov Əyyub, Şuşa rayonu, Şırlan kəndi.
23. *Təcrübədən çıxmış inamlar*. İbrahimov Mütəllim. Zəngilan rayonu, Bartaz kəndi.
24. *Ovçuluq haqqında*. Cümşüdov Cümşüd. Zəngilan rayonu, Sobu kəndi.
25. Bəhramov Fərzalı. Zəngilan rayonu, Sobu kəndi.
26. Cümşüdov Cümşüd. Zəngilan rayonu, Sobu kəndi.
27. Hacıyev Rəfi. Zəngilan rayonu, Sobu kəndi.
28. Cəfərov Əvəz Əliş oğlu, Laçın rayonu, Güləbird kəndi.
29. *Qızıl tapan*. Cabbarova Roza, Kəlbəcər rayonu, Əsrik kəndi.
30. Rəsulov Bəhmən. Şuşa rayonu, Qaybalı kəndi.
31. Z*iyarətə getmək*. Baxşəliyev Müqtədir. Zəngilan rayonu, Ağalı kəndi.
32. *Dualar*. Quliyeva Nuridə. Goranboy rayonu, Şadlı kəndi.
33. *Etnoqrafik ifadələr: "Alışma"* – Söyləyədi: Abbasov Vahid. *"Qa-radaban"* – Söylədi: Məmmədova Həvva. *"Peşqurt", "Hov gəldi", "Kömbə daşı", "Xam atı boğmaq"* – Söylədi: Əbdüləzimov Əyyub

## Mifoloji mətnlər, əfsanə və rəvayətlər

34. *Allahın ömür paylaması*. Quliyeva Nuridə. Goranboy, Şadlı kəndi.
35. *Canavar haqqında*. Əbdüləzimov Əyyub, Şuşa rayonu, Şırlan kəndi.
36. İbrahimova Tutu. Zəngilan rayonu, Bartaz kəndi.
37. *Qaraçuxa*. Quliyeva Nuridə. Goranboy rayonu, Şadlı kəndi.

38. Məmmədova Zərnigar. Zəngilan rayonu, Zəngilan kəndi.
39. *Yeddi qardaş ilan.* Kərimova Xoşqədəm. Laçın rayonu, Xırmanlar kəndi.
40. *İlan davası.* Zəngilan rayonu, Cahangirbəyli kəndi.
41. *Hal anası.* Murtuzayev Tofiq. Laçın rayonu, Mirik kəndi.
42. Cabbarova Roza, Kəlbəcər rayonu, Əsrik kəndi.
43. *Əjdaha.* Söyləyicisi məlum deyil.
44. *Əjdaha daşı.* Mustafayeva Sərəncam. Cəbrayıl rayonu, Dağtumas kəndi.
45. *Kaftar.* Bağırov Qubad. Zəngilan rayonu, Keçikli kəndi.
46. Rzaquliyev Əli. Zəngilan rayonu, Vecnəli kəndi.
47. *Rüstəm Zal.* Məmmədova Zərnigar. Zəngilan rayonu, Zəngilan kəndi.
48. *Musa peyğəmbər.* Cəbrayılov Xuduş. Zəngilan rayonu, Gilətağ kəndi.
49. *Fatma ananın nəziri.* Sədirzadə Gülzar, Şuşa şəhəri.
50. *İmam Hüseyn və ahu balaları.* Quliyeva Nuridə. Goranboy rayonu, Şadlı kəndi.
51. *Xanoğlan və Bəsti.* Məhərrəmov Qnyaz. Zəngilan rayonu, Ağalı kəndi.
52. *Gəlin qaya.* Əhmədov Şakir, Şuşa rayonu, Şırlan kəndi.
53. *Leyli-Məcnun.* Həsən kişi. Cəbrayıl rayonu, Dağ Tumas kəndi.
54. *Loğman.* Məmmədova Zərnigar. Zəngilan rayonu, Zəngilan kəndi.
55. Məmmədova Zərnigar. Zəngilan rayonu, Zəngilan kəndi.
56. *Oğlanlıca piri.* Quliyeva Ayna Əsim qızı, Zəngilan, Gilətağ kəndi.
*57. Hacı Qaraman.* Həsən kişi. Cəbrayıl rayonu, Dağ Tumas kəndi.
58. *Hacı Qasım çələbi.* Həsən kişi. Cəbrayıl rayonu, Dağ Tumas kəndi.
59. Həsən kişi. Cəbrayıl rayonu, Dağ Tumas kəndi.
60. *Tumas ata.* Həsən kişi. Cəbrayıl rayonu, Dağ Tumas kəndi.
61. *Ağabalım ağa.* Həsən kişi. Cəbrayıl rayonu, Dağ Tumas kəndi.
62. Ş*ıx Mir Həmzə.* Rüstəmov Məmmədbağır, Cəbrayıl, Sirik kəndi.
63. *Məşədi Qələndər ocağı.* Murtuzayev Tofiq. Laçın rayonu, Mirik kəndi.
64. *Mustafa sofu.* Qurbanova Laləzar. Zəngilan, Yuxarı Yeməzli kəndi.
65. Qurbanova Laləzar. Zəngilan rayonu, Yuxarı Yeməzli kəndi.
66. Kalbalıyev Allahverdi. Zəngilan rayonu, Saralı Xəştab kəndi.
67. Kalbalıyev Allahverdi. Zəngilan rayonu, Saralı Xəştab kəndi.
68. Kalbalıyev Allahverdi. Zəngilan rayonu, Saralı Xəştab kəndi.
69. Ş*ıx İsmayıl.* Süleyman müəllim. Zəngilan rayonu, Vecnəli kəndi.
70. *Mirəhməd ağa.* Mehdiyev Surxay. Zəngilan, Böyük Gilətağ kəndi.
71. Mehdiyev Surxay. Zəngilan rayonu, Böyük Gilətağ kəndi.
72. *Qəzər xan.* Kalbalıyev Allahverdi. Zəngilan rayonu, Saralı Xəştab kəndi.

73. *Əbdülsəməd bəy*. Həmzəyev Vaqif. Zəngilan, Alıbəyli kəndi.
74. Tağıyev Cəmil. Doğulduğu yer: Zəngilan rayonu, Gəyəli kəndi.
75. Cəbrayılov Xuduş. Zəngilan rayonu, Gilətağ kəndi.
76. *Məmməd yüzbaşı.* Məmmədova Zərnigar, Zəngilan kəndi.
77. *Babaxan oğlu Balaca.* Bağırov Qubad. Zəngilan rayonu, Keçikli kəndi.
78. *Azad ağa.* Bağırov Qubad. Zəngilan rayonu, Keçikli kəndi.
79. *Burcuvar kişi.* Məmmədova Zərnigar, Zəngilan kəndi.
80. *Qaçaq İsrafil.* Bəhramov Fərzalı. Zəngilan rayonu, Sobu kəndi.
81. Hacıyev Rəfi. Zəngilan rayonu, Sobu kəndi.
82. Cümşüdov Cümşüd. Zəngilan rayonu, Sobu kəndi.
83. Bəhramov Fərzalı. Zəngilan rayonu, Sobu kəndi.
84. *Sobu zurnaçıları.* Bəhramov Fərzalı. Zəngilan rayonu, Sobu kəndi.
85. Bəhramov Fərzalı. Zəngilan rayonu, Sobu kəndi.
86. *Camal bəy.* Həsən kişi. Cəbrayıl rayonu, Dağ Tumas kəndi.
87. *Qaçaq Səfər.* Nadirov Adil. Şuşa rayonu, Zarıslı kəndi.
88. *Xanlıq Muxtar.* Məhərrəmov Ramik, Şuşa şəhəri.
89. Mütəllim Hüseynxanov, Şuşa şəhəri.
90. *Hacı Qulu.* Məhərrəmov Ramik, Şuşa şəhəri.
91. Məmmədov Vidadi, Şuşa şəhəri.
92. Mütəllim Hüseynxanov, Şuşa şəhəri.

**Tayfa və nəsillər haqqında**
93. *Bartaz.* Mətnin təsviri bizə məxsusdur.
94. İbrahimova Tutu. Zəngilan rayonu, Bartaz kəndi.
95. İbrahimova Tutu. Zəngilan rayonu, Bartaz kəndi.
96. Səmayə xala, Zəngilan rayonu, Bartaz kəndi
97. Bəhramov Fərzalı. Zəngilan rayonu, Sobu kəndi.
98. İbrahimov Mütəllim. Zəngilan rayonu, Bartaz kəndi.
99. İbrahimov Mütəllim. Zəngilan rayonu, Bartaz kəndi.
100. İbrahimov Mütəllim. Zəngilan rayonu, Bartaz kəndi.
101. İbrahimov Mütəllim. Zəngilan rayonu, Bartaz kəndi.
102. Əbilov Azad. Zəngilan rayonu, Bartaz kəndi.
103. *Sobu.* Cümşüdov Cümşüd. Zəngilan rayonu, Sobu kəndi.
104. Bəhramov Fərzalı. Zəngilan rayonu, Sobu kəndi.
105. Ağamməd kişi, Zəngilan rayonu, Sobu kəndi.
106. Xudayarov Hüseyn. Zəngilan rayonu, Şamlı kəndi.
107. *Saralı Xəştab.* Kalbalıyev Allahverdi. Zəngilan, Saralı Xəştab kəndi.

108. Kalbalıyev Allahverdi. Zəngilan rayonu, Saralı Xəştab kəndi.
109. *Çöpədərə*. Xaməmmədov Xaməmməd. Zəngilan, Çöpədərə kəndi.
110. Xaməmmədov Xaməmməd. Zəngilan rayonu, Çöpədərə kəndi.
111. *Keçikli*. Bağırov Qubad. Zəngilan rayonu, Keçikli kəndi.
112. Bağırov Qubad. Zəngilan rayonu, Keçikli kəndi.
113. *Kənd Zəngilan*. Məmmədova Zərnigar, Zəngilan kəndi.
114. *Şəfibəyli*. Məmmədov Teyfur. Zəngilan rayonu, Şəfibəyli kəndi.
115. *Məşədi İsmayıl kəndi*. Məmmədov Teyfur. Zəngilan, Şəfibəyli kəndi.
116. *İmarətlər*. Məmmədov Teyfur. Zəngilan rayonu, Şəfibəyli kəndi.
117. *Alıbəyli*. Həmzəyev Vaqif. Zəngilan rayonu, Alıbəyli kəndi.
118. *Hacallı*. Hətəmov Cəlal. Zəngilan rayonu, Hacallı kəndi.
119. *Aladin*. Mehdiyev Surxay. Zəngilan rayonu, Böyük Gilətağ kəndi.

**Müxtəlif mövzulu rəvayətlər**

120. *Səs-küy istəyirsinizsə, gəlin*. Quliyeva Nuridə. Goranboy, Şadlı kəndi.
121. Kərimova Xoşqədəm. Laçın rayonu, Xırmanlar kəndi.
122. *Torpağın tavazası*. Məhərrəmov Qnyaz. Zəngilan rayonu, Ağalı kəndi.
123. *Dünyanın zövqü-səfası*. Məmmədova Zərnigar, Zəngilan kəndi.
124. *Nadir şah*. Cəfərov Əvəz, Laçın rayonu, Güləbird kəndi.
125. *Mıxı mismara döndərən Allah*. İbrahimov Oqtay, Şuşa şəhəri, dəmirçi.
126. *Başlıq parası*. Kərimova Xoşqədəm. Laçın rayonu, Xırmanlar kəndi.
127. *Gül toxumu*. Quliyeva Nuridə. Goranboy rayonu, Şadlı kəndi.
128. *Ehtiyac dayı*. Məmmədova Zərnigar. Zəngilan rayonu, Zəngilan kəndi.
129. *Nə tökərsən aşına, o da çıxar qaşığına*. Kərimova Xoşqədəm. Laçın rayonu, Xırmanlar kəndi.
130. *Dədəm öləndən irəli gedirik*. Zəngilan rayonu, Mincivan qəsəbəsi.
131. Hacıyev Rəfi. Zəngilan rayonu, Sobu kəndi.
132. *Bağ əmanəti*. Əbilov Azad. Zəngilan rayonu, Bartaz kəndi.

**1918-ci il hadisələri xatirələrdə**

133. Baxşəliyev Müqtədir. Zəngilan rayonu, Ağalı kəndi.
134. Məhərrəmov Qnyaz. Zəngilan rayonu, Ağalı kəndi.
135. Cəbrayılov Musa. Zəngilan rayonu, Bartaz kəndi.
136. İbrahimov Mütəllim. Zəngilan rayonu, Bartaz kəndi.
137. Ağaməd kişi. Zəngilan rayonu, Sobu kəndi.
138. Cümşüdov Cümşüd. Zəngilan rayonu, Sobu kəndi.
139. Rzaquliyev Əli. Zəngilan rayonu, Vecnəli kəndi.

140. Hacıyev Rəfi. Zəngilan rayonu, Sobu kəndi.
141. Məmmədov Süleyman. Zəngilan rayonu, Şərikan kəndi.
142. Mehdiyev Surxay, Zəngilan rayonu, Gilətağ kəndi.
143. Məhiyev Məhi Asim oğlu, Dağ Gilətağ.
144. Söyləyicisi məlum deyil.
145. Nadirov Adil. Şuşa rayonu, Zarıslı kəndi.
146. Rəsulov Bəhmən, Şuşa rayonu, Qaybalı kəndi
147. Hüseynxanov Mütəllim, Şuşa şəhəri.

**Nağıllar**

148. *Narım, sənə deyim, dərdimi sənə deyim.* Quliyeva Nuridə. Goranboy rayonu, Şadlı kəndi.
149. *Nəbi.* İsgəndərova Səidə, Yevlax rayonu.
150. *Danışmayan qız.* Məmmədova Zərnigar, Zəngilan kəndi.
151. *Allah haqqı nahaqqa vermir.* Quliyeva Nuridə. Goranboy rayonu, Şadlı kəndi.
152. *Hambal Qulunun ziyarəti.* Quliyeva Nuridə. Goranboy rayonu, Şadlı kəndi.
153. Quliyeva Nuridə. Goranboy rayonu, Şadlı kəndi.
154. *Allaha təvəkkül.* Quliyeva Nuridə. Goranboy rayonu, Şadlı kəndi.
155. *Oğul anasına rəhmət oxutdurur.* Quliyeva Minayə. Ağdam rayonu, Seyidli kəndi.
156. *Peyğəmbərin axirət yoldaşı.* Hüseynov Güləhməd. Füzuli rayonu, Mahmudlu kəndi.
157. *Allaha borc.* Məmmədova Zərnigar. Zəngilan rayonu, Zəngilan kəndi.
158. *Padşaha layiq arvad.* Xudayev İzzət. Ağcabədi, Şərəfxanlı kəndi.
159. *Şah Abbas və bostançı.* Məmmədova Zərnigar, Zəngilan kəndi.
160. *Naxırçı qızının ürəyi naxır çörəyi istəyir.* Məmmədova Zərnigar. Zəngilan rayonu, Zəngilan kəndi.
161. *Mən bu aftafaya örənmişdim.* Məmmədova Zərnigar. Zəngilan rayonu, Zəngilan kəndi.
162. *Padşahın oğlanları.* Məmmədova Zərnigar. Zəngilan kəndi.
163. *Keçəllə kosa.* Quliyeva Minayə. Ağdam rayonu, Seyidli kəndi.
164. *Dəli və ağıllı qardaş.* Söyləyicisi məlum deyil.
165. *Orduxan bəylə Qarsın Qalası.* Əbdüləzimov Əyyub. Şuşa rayonu, Şırlan kəndi.
166. Məmmədova Zərnigar, Zəngilan kəndi.

167. *Bitlə birə*. Məmmədova Zərnigar, Zəngilan kəndi.
168. Quliyeva Nuridə. Goranboy rayonu, Şadlı kəndi.
169. *Oğlan və günəş*. Məmmədova Zərnigar, Zəngilan kəndi.
170. *Uşaq və noxud*. Məmmədova Zərnigar, Zəngilan kəndi.
171. *Pişik və siçan*. Məmmədova Zərnigar, Zəngilan kəndi.

**Lətifələr**

172. *Sirrini dostuna vermə*. Kərimova Xoşqədəm. Laçın, Xırmanlar kəndi.
173. *Mollanın fırıldağı*. Kərimova Xoşqədəm. Laçın, Xırmanlar kəndi.
174. *Halvaya duz tökürlərmi?* Kərimova Xoşqədəm. Laçın rayonu, Xırmanlar kəndi.
175. *Bilirəm dediyin nədir*. Kərimova Xoşqədəm. Laçın rayonu, Xırmanlar kəndi.
176. Məmmədova Zərnigar, Zəngilan kəndi.
177. *İki yalançı*. Quliyeva Nuridə. Goranboy rayonu, Şadlı kəndi.
178. Bərxudarov Camal. Yevlax, Aşağı Qarxun kəndi.
179. *Nazik, yoğun bir imiş*. Quliyeva Nuridə. Goranboy, Şadlı kəndi.
180. Kərimova Xoşqədəm. Laçın rayonu, Xırmanlar kəndi.
181. *Hər kəsin dərdi özünə dəvə boydadı*. Hüseynov Güləhməd. Füzuli rayonu, Mahmudlu kəndi.
182. Məmmədova Zərnigar, Zəngilan kəndi.
183. *Südlü aş*. Məmmədova Zərnigar, Zəngilan kəndi.
184. *Bu havada qar yağar?* Məmmədova Zərnigar, Zəngilan kəndi.
185. *Biz də qiraətlə dedik*. Məmmədova Zərnigar, Zəngilan kəndi.
186. *Yel buraxan gəlin*. Məmmədova Zərnigar, Zəngilan kəndi.
187. *Kalba Səməd*. Həmdulla Şıxəliyev. Zəngilan rayonu, Bartaz kəndi
188. Əbilov Azad. Zəngilan rayonu, Bartaz kəndi.
189. Cəbrayılov Musa. Zəngilan rayonu, Bartaz kəndi.
190. Cəbrayılov Musa. Zəngilan rayonu, Bartaz kəndi.
191. Cəbrayılov Musa. Zəngilan rayonu, Bartaz kəndi.
192. *Ocaqqulu*. Əbilov Azad. Zəngilan rayonu, Bartaz kəndi.
193. Həmdulla Şıxəliyev. Zəngilan rayonu, Bartaz kəndi.
194. *Aşıq Oruc*. Əbilov Azad. Zəngilan rayonu, Bartaz kəndi.
195. Əbilov Azad. Zəngilan rayonu, Bartaz kəndi.
196. *Aşın altındakı cücə*. Məmmədov Süleyman. Zəngilan, Şərikan kəndi.
197. *Qarın dartan qoca*. İbrahimov Mütəllim. Zəngilan, Bartaz kəndi.

198. *Mülkü bəy.* Mehdiyev Surxay. Zəngilan rayonu, Böyük Gilətağ kəndi.
199. *Döh deməyə də haqqım yoxdur?*Məhiyev Məhi Asim oğlu, Zəngilan rayonu, gilətağ kəndi.
200. *Dazıma baxma, yazıma bax.* Nəsirova Elmira Lətif qızı.
201. *Ana ilə qızın deyişməsi.* Söyləyicisi məlum deyil.
202. *Zirək gəlin.* Kərimova Xoşqədəm. Laçın rayonu, Xırmanlar kəndi.
203. *Cöngə oğrusu.* Həsənov Rəşid. Zəngilan rayonu, Qazançı kəndi.
204. *Tərəkəməylə mollanın dostluğu.* Söyləyicisi məlum deyil.
205. *Özüm inanmıram.* Söyləyicisi məlum deyil.
206. *Gör arvadlar nə deyir.* Söyləyicisi məlum deyil.

**Şuşa lətifələri**

207. *Abdal Qasım.* Quliyev Oqtay . Şuşa rayonu, Sırlan kəndi.
208. Məmmədov Vidadi, Şuşa şəhəri.
209. *Məşədi Bəylərin dəftəri.* Məhərrəmov Ramik, Şuşa şəhəri.
210. *Məktub məsələsi.* Abbasov Vahid, Şuşa şəhəri.
211. *Madarlar cəmiyyəti.* Abbasov Vahid, Şuşa şəhəri.
212. *Dumanlı Təbriz.* Fətəliyev İlhami, Şuşa şəhəri.
213. *Şuşa lotuları və Məşədi Abbas.* Abbasov Zahid, Şuşa şəhəri.
214. *Dojd paşyol, most uşyol.* Fətəliyev İlhami, Şuşa şəhəri.
215. *Arılar vız-dız.* Quliyev Oqtay. Şuşa rayonu, Sırlan kəndi.
216. *Uje maskva znal.* Fətəliyev İlhami, Şuşa şəhəri.
217. *Doqquz ay denən, qutarsın.* Allahverdiyev Oqtay, Şuşa şəhəri.
218. *Adı niyə xəritədə yoxdur?* Allahverdiyev Oqtay, Şuşa şəhəri.
219. *Onlarla işin olamasın.* Allahverdiyev Oqtay, Şuşa şəhəri.
220. *Mən tapmışam.* Allahverdiyev Oqtay, Şuşa şəhəri.
221. *Yıxılsaydım, belə olacaqdım.* Fətəliyev İlhami, Şuşa şəhəri.
222. *Sənin zibilə düşmüşəm.* Fətəliyev İlhami, Şuşa şəhəri.
223. *Hitlerin başını kəsib gətirəcəksən.* Fətəliyev İlhami, Şuşa şəhəri.
224. *Ağlı-qaralı quş.* Fətəliyev İlhami, Şuşa şəhəri.
225. *Dayın qurban.* Abbasov Zahid, Şuşa şəhəri.
226. Abbasov Zahid, Şuşa şəhəri.
227. Əlişov Akif, Şuşa şəhəri.
228. *Lotu Şahin.* Nadirov Adil. Şuşa rayonu, Zarıslı kəndi.
229. Nadirov Adil. Şuşa rayonu, Zarıslı kəndi.
230. Nadirov Adil. Şuşa rayonu, Zarıslı kəndi.
231. *Vasqan Əliş.* Əbdüləzimov Əyyub. Şuşa rayonu, Şırlan kəndi.

232. *Mənimki də noldadı.* Quliyev Oqtay. Şuşa rayonu, Sırlan kəndi.
233. *Sənin də fatihəni verəcəyəm.* Abbasov Vahid, Şuşa şəhəri.
234. *İtim ölüb, sizin kimi küçükləri qalıb.* Müzəffər müəllim. Şuşa rayonu, Malıbəyli kəndi.
235. *Ona o da azdır.* Quliyev Oqtay. Şuşa rayonu, Sırlan kəndi.
236. *Dodu İslam.* Əlişov Akif, Şuşa şəhəri.
237. *Yaman seyrəkdi.* Əlişov Akif, Şuşa şəhəri.
238. *Hambal İbiş.* Abbasov Zahid, Şuşa şəhəri.
239. *Kapitalı kim yazıb?* Abbasov Zahid, Şuşa şəhəri.
240. *Hazırcavab şuşalı.* Abbasov Zahid, Şuşa şəhəri.
241. *Bez Qulam.* Vasif Quliyev, Şuşa şəhəri.
242. *Dişləri ağartma.* Əbdüləzimov Əyyub. Şuşa rayonu, Şırlan kəndi.
243. *Hökumətlə özüm hesablaşaram.* Abbasov Vahid, Şuşa şəhəri.
244. *Allahın xəbəri yox idi.* Əbdüləzimov Əyyub. Şuşa, Şırlan kəndi.
245. *Kürdlə qalalı.* Əlişov Akif, Şuşa şəhəri.
246. *Qarmon deyil, atapleniyadır.* Quliyev Oqtay. Şuşa, Sırlan kəndi.
247. *Anası şuşalıdır.* Quliyev Oqtay. Şuşa rayonu, Sırlan kəndi.
248. Ş*uşalıyla kürdün dostluğu.* Məmmədov Vidadi, Şuşa şəhəri
249. *Şığıdığın bəsdir, qanad çal.* Əhmədov Şakir. Şuşa, Şırlan kəndi.
250. *Adam sənin dədəndir.* Əhmədov Şakir. Şuşa rayonu, Şırlan kəndi.
251. *Bizdən adam olmayacaq.* Əhmədov Şakir, Şuşa rayonu, Şırlan kəndi.
252. *Bu dağar o dağar deyil.* Əbdüləzimov Əyyub. Şuşa, Şırlan kəndi.
253. *Dəyirmançı ilə çobanın bəhsi.* Əbdüləzimov Əyyub. Şuşa, Şırlan kəndi.
254. *Di hı.* Əbdüləzimov Əyyub. Şuşa rayonu, Şırlan kəndi.
255. *Bığ yağı.* Əbdüləzimov Əyyub. Şuşa rayonu, Şırlan kəndi.
256. *Gör siz nə qədər yemisiniz.* Əbdüləzimov Əyyub. Şuşa, Şırlan kəndi.
257. *Xanzadə.* Əbdüləzimov Əyyub. Şuşa rayonu, Şırlan kəndi.
258. Ş*uşanın dəlisi.* Əhmədov Şakir. Şuşa rayonu, Şırlan kəndi.
259. *Dabannama.* Əhmədov Şakir. Şuşa rayonu, Şırlan kəndi.
260. *Macqarmıc.* Babayev Müzəffər. Şuşa rayonu, Malıbəyli kəndi.
261. Şuşa rayonu, Malıbəyli kəndi.
262. *Qoymayın, xəlbir məni öldürdü.* Babayev Müzəffər. Şuşa, Malıbəyli kəndi.
263. Z*inət məsələsi.* Məhərrəmov Ramik, Şuşa şəhəri.
264. *Aşura ilə bağlı lətifələr.* Allahverdiyev Oqtay, Şuşa şəhəri.
265. Allahverdiyev Oqtay, Şuşa şəhəri.
266. *Fərasəti vardı, o da tutardı.* Quliyev Oqtay. Şuşa rayonu, Sırlan kəndi.

**Aşıqlar, el şairləri**

267-273. *Sarı Aşıq.* Həsən kişi. Cəbrayıl rayonu, Dağ Tumas kəndi.
274. *Şıx Məhəmmədə vergi verilməsi.* Bağırov Qubad, Keçikli kəndi.
275. Tağıyev Cəmil. Zəngilan rayonu, Gəyəli kəndi.
276. *Vaxtıdır.* Bağırov Qubad. Zəngilan rayonu, Keçikli kəndi.
277. *Oğlusan.* Bağırov Qubad. Zəngilan rayonu, Keçikli kəndi.
278. *Şıx Məhəmməd və Camal bəy.* Bağırov Qubad. Zəngilan, Keçikli kəndi.
279. *Gəyəli.* Bağırov Qubad. Zəngilan rayonu, Keçikli kəndi.
280. Cəmil Tağıyev: Yaddaşlardan yığılan kitab. Bakı: "Şur" nəşriyyatı, 2009
281. *Çeşmə.* Bağırov Qubad. Zəngilan rayonu, Keçikli kəndi.
282. *Nabatım.* Cəmil Tağıyevin göstərilən kitabı.
283. *Ağlasın.* Cəmil Tağıyevin göstərilən kitabı.
284. *Gəlsin.* Cəmil Tağıyevin göstərilən kitabı
285. *Bənövşə.* Cəmil Tağıyevin göstərilən kitabı.
286. *Necə oldu.* Cəmil Tağıyevin göstərilən kitabı.
287. *Qanlımdı, qanlım.* Cəmil Tağıyevin göstərilən kitabı.
288. *Oynasın.* Cəmil Tağıyevin göstərilən kitabı.
289. *Aşıq Əli.* Hacıyev Rəfi. Zəngilan rayonu, Sobu kəndi.
290. *Aşıq Məmmədrza.* Bağırov Qubad. Zəngilan rayonu, Keçikli kəndi.
291. *Aşıq Bəbir.* Bu mətn Aşıq Bəbirin nəvəsindən yazıya alınıb. Gilətağ kəndi.
292. Məhiyev Məhi Asim oğlu. Zəngilan rayonu, Gilətağ kəndi.
293. Mehdiyev Surxay. Zəngilan rayonu, Gilətağ kəndi.
294. İsmayılov Xeyrulla, Zəngilan, Dərə Gilətağ kəndi.
295. *A bizim cütcü.* Mehdiyev Surxay. Zəngilan rayonu, Gilətağ kəndi.
296. *Məşədi Cabbarla Şair Abışın deyişməsi.* Mehdiyev Surxay. Zəngilan rayonu, Gilətağ kəndi.

**Tapmacalar**

1. Quliyeva Nuridə. Goranboy rayonu, Şadlı kəndi.
2, 3. Məmmədova Həvva. Şuşa rayonu, Malıbəyli kəndi.
4, 5. Kərimova Xoşqədəm. Laçın rayonu, Xırmanlar kəndi.
6, 7, 8. Xankəndi Pedaqoji İnstitutunun tələbələri.
9, 10, 11, 12, 13, 14, 15, 16. Məmmədova Şəfiqə.
17, 18. Məmmədova Zərnigar. Zəngilan rayonu, Zəngilan kəndi.
19, 20, 21, 22, 23, 24, 25, 26, 27, 28, 29. Qəhrəmanova Tavar. Zəngilan rayonu, Dəlləkli kəndi.

30-34. Xaməmmədov Xaməmməd. Zəngilan rayonu, Çöpədərə kəndi.
35, 36, 37, 38. İsbiyev Musa. Zəngilan rayonu, Quyudərə Xəştab kəndi.
39, 40, 41. Əbdüləzimov Əyyub. Şuşa rayonu, Şırlan kəndi.
42. Mikayılova Elmira. Zəngilan rayonu, Böyük Ağalı kəndi.
43, 44, 45, 46. Xudiyeva Fizzəgül, Cəbrayıl rayonu, Süleymanlı kəndi.

**Bayatılar**

1-107. Mikayılova Elmira, Zəngilan rayonu, Böyük Ağalı kəndi.
108-109. Məmmədova Zərnigar, Zəngilan rayonu, Zəngilan kəndi.
110-112. İbrahimova Tutu. Zəngilan rayonu, Bartaz kəndi.
113-120. Qəhrəmanova Tavar. Zəngilan rayonu, Dəlləkli kəndi.
121-125. Şüşə Kamal qızı. Zəngilan rayonu, Sobu kəndi.
126-128. Kalbalıyev Allahverdi, Zəngilan rayonu, Saralı Xəştab kəndi.
129-141. Şərifov Talıb, Zəngilan rayonu, Yuxarı Yeməzli kəndi.
142-145. Qurbanova Laləzar, Zəngilan rayonu, Yuxarı Yeməzli kəndi.
146-159. Cəlal Mehdi, Qubadlı rayonu, Başarat kəndi.
160-166. Xudiyeva Fizzəgül, Cəbrayıl rayonu, Süleymanlı kəndi.
167-172. Kərimova Xoşqədəm, Laçın rayonu, Xırmanlar kəndi.
173-180. Abbasova Şüşə, Laçın rayonu, Güləbirt kəndi.
181-183. Murtuzayev Tofiq, Laçın rayonu, Mirik kəndi.
184-189. Mamedova Sərfinaz, Füzuli ray., Aşağı Əbdürrəhmanlı kəndi.
190-194. Cabbarova Roza, Kəlbəcər rayonu, Əsrik kəndi.
195-199. İsmayılov Zərda Salaman qızı.
200-220. Quliyeva Nuridə, Goranboy rayonu, Şadlı kəndi.
221-247. İsgəndərova Səidə, Yevlax rayonu.
248-309. Quliyeva Validə, Şuşa rayonu, Malıbəyli kəndi.
310-319. Əliyeva Naxış, Şuşa rayonu, Malıbəyli kəndi.
320-331. Xankəndi Pedaqoji İnstitutunun tələbələrinin topladığı bayatılar.
332-342. Məmmədova Həvva. Şuşa rayonu, Malıbəyli kəndi.
343-350. Əbdüləzimov Əyyub. Şuşa rayonu, Şırlan kəndi.
353-354. Quliyeva Nuridə, Goranboy rayonu, Şadlı kəndi.

**Laylalar, oxşamalar**

1, 2, 3, 4, 5. Kərimova Xoşqədəm. Laçın rayonu, Xırmanlar kəndi.
6. Qəhrəmanova Tavar. Zəngilan rayonu, Dəlləkli kəndi.
7. Xudiyeva Fizzəgül, Cəbrayıl rayonu, Süleymanlı kəndi.

**Sayalar**

1, 2, 3, 4, 5, 6. Qəhrəmanova Tavar. Zəngilan rayonu, Dəlləkli kəndi.
7, 8, 9. Mehdiyev Surxay. Zəngilan rayonu, Böyük Gilətağ kəndi.

**Sicilləmə**

1. Abdullayev Comran İsmayıl oğlu. Qubadlı rayonu, Qarağaclı kəndi.
3, 4. Həsənov Rəşid. Zəngilan rayonu, Qazançı kəndi.

**Oyunlar**

1. *Qazotaran.* Xaməmmədov Xaməmməd. Zəngilan rayonu, Çöpədərə kəndi.
2. *Arpa, qaç, buğda, tut.* Xaməmmədov Xaməmməd. Zəngilan rayonu, Çöpədərə kəndi.
3. *Molla, vay.* Xaməmmədov Xaməmməd. Zəngilan rayonu, Çöpədərə kəndi.
4. *Mıxça-mıxça.* Xaməmmədov Xaməmməd. Zəngilan rayonu, Çöpədərə kəndi.
5. *Qurutma.* İbrahimov Mütəllim. Zəngilan rayonu, Bartaz kəndi.
6. *Yeddi çöp.* Əbdüləzimov Əyyub. Şuşa rayonu, Şırlan kəndi.
7. *Mən tək, cütüm tək.* Əhmədov Şakir. Şuşa rayonu, Şırlan kəndi.
8. *Bayraq-bayraq.* Əhmədov Şakir. Şuşa rayonu, Şırlan kəndi.
9. *Çiləmə.* Nadirov Adil. Şuşa rayonu, Zarıslı kəndi.
10. *Səhmi ağac.* Əbdüləzimov Əyyub. Şuşa rayonu, Şırlan kəndi.
11. *Mərə-mərə.* Əbdüləzimov Əyyub. Şuşa rayonu, Şırlan kəndi.
12. *Kələqurdaş.* Hətəmov Cəlal. Zəngilan rayonu, Hacallı kəndi.

# SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMAT

Abbasov Vahid Kamil oğlu. Doğulduğu yer: Şuşa şəhəri. Təvəllüdü: 1950. Təhsili: ali. *Söylədiyi mətnlər:* 12, 210, 211, 233, 243. *Toplayan: İlkin Rüstəmzadə*

Abbasov Zahid Kamil oğlu. Doğulduğu yer: Şuşa şəhəri. Təvəllüdü: 1957. Təhsili: ali. Şuşa mədəniyyət şöbəsinin müdiri. *Söylədiyi mətnlər:* 11, 15, 213, 225, 226, 238, 239, 240. *Toplayan: İlkin Rüstəmzadə*

Abbasova Səyyarə Əvəz qızı. Doğulduğu yer: Şuşa rayonu, Səfixanlar kəndi. Təvəllüdü: 1954. *Söylədiyi mətn:* 14. *Toplayan: İlkin Rüstəmzadə*

Abbasova Şüşə Şahmar qızı. Doğulduğu yer: Laçın rayonu Güləbird kəndi. Təvəllüdü: 1950. Təhsili: orta ixtisas. İxtisası: müəllim. *Bayatılar:* 173-180. *Toplayan: Güllər Əlirzayeva*

Abdullayev Comran İsmayıl oğlu. Doğulduğu yer: Qubadlı rayonu, Qarağaclı kəndi. Yaşı: 74. *Sicilləmə:* 1.

Bağırov Qubad Allahqulu oğlu. Doğulduğu yer: Zəngilan rayonu, Keçikli kəndi. Təvəllüdü: 1930. Təhsili: ali. İxtisası: baytar həkimi. *Söylədiyi mətnlər:* 45, 77, 78, 111, 112, 274, 276, 277, 278, 279, 281, 290. *Toplayan: İlkin Rüstəmzadə*

Baxşəliyev Müqtədir Hüseyn oğlu. Doğulduğu yer: Zəngilan rayonu, Ağalı kəndi. Təvəllüdü: 1953. Təhsili: ali. *Söylədiyi mətnlər:* 31, 133. *Toplayan: İlkin Rüstəmzadə*

Bəhramov Fərzalı Ata oğlu. Doğulduğu yer: Zəngilan rayonu, Sobu kəndi. Təvəllüdü: 1936. Təhsili: orta. *Söylədiyi mətnlər:* 25, 80, 83, 84, 97, 104. *Toplayan: İlkin Rüstəmzadə*

Bərxudarov İsa Camal oğlu. Doğulduğu yer: Yevlax rayonu, Aşağı Qarxun kəndi. Təvəllüdü: 1933. Təhsili: ali. *Söylədiyi mətn:* 178. *Toplayan: Nigar Həsənova*

Cabbarova Roza Məhəmməd qızı. Doğulduğu yer: Kəlbəcər rayonu, Əsrik kəndi. Təvəllüdü: 1943. Şamaxı rayonunun Çuxuryurd

qəsəbəsində məskunlaşıb. *Söylədiyi mətnlər:* 29, 42. *Bayatılar:* 190-194. *Toplayan: Ləman Süleymanova*

Cəbrayılov Musa Bağır oğlu. Doğulduğu yer: Zəngilan rayonu, Bartaz kəndi, Təvəllüdü: 1936. Təhsili: ali. İxtisası: zootexnik. *Söylədiyi mətnlər:* 135, 189, 190, 191. *Toplayan: İlkin Rüstəmzadə*

Cəbrayılov Xuduş Həsən oğlu. Doğulduğu yer: Zəngilan rayonu, Gilətağ kəndi. Yaşı: 89. Sənəti: balabançı. *Söylədiyi mətnlər:* 48, 75. *Toplayan: Mətanət Abbasova*

Cəfərov Əvəz Əliş oğlu. Doğulduğu yer: Laçın rayonu, Güləbird kəndi. Təvəllüdü: 1940. Təhsili: orta. *Söylədiyi mətnlər:* 28, 124. *Toplayan: Əfzələddin Əsgər*

Cəlal Mehdi. Doğulduğu yer: Qubadlı rayonu, Başarat kəndi. Təvəllüdü: 1961. Təhsili: ali. Söylədiyi bayatıları anası Talıbova Gülşən Əli qızından eşidib. Anası 1918-ci ildə Qubadlı rayonunun Qubadlı kəndində doğulub, 1990-cı ildə dünyasını dəyişib. *Bayatılar:* 146-159. *Toplayan: Mətanət Abbasova*

Cümşüdov Cümşüd Salman oğlu. Doğulduğu yer: Zəngilan rayonu, Sobu kəndi. Təvəllüdü: 1956. Təhsili: orta. *Söylədiyi mətnlər:* 24, 26, 82, 103, 138. *Toplayan: İlkin Rüstəmzadə*

Əbdüləzimov Əyyub Şəfayət oğlu. Doğulduğu yer: Şuşa rayonu, Şırlan kəndi. Təvəllüdü: 1947. Təhsili: ali. İxtisası: müəllim. *Söylədiyi mətnlər:* 22, 35, 165, 231, 242, 244, 252, 253, 254, 255, 256, 257. *Tapmaca:* 39-41; *Bayatı:* 348-350. *Oyunlar:* 6, 10, 11. *Toplayan: İlkin Rüstəmzadə*

Əbilov Azad Həsənalı oğlu. Doğulduğu yer: Zəngilan rayonu, Bartaz kəndi. Təvəllüdü: 1938. Təhsil: orta ixtisas. İxtisası: energetik. *Söylədiyi mətnlər:* 102, 132, 188, 192, 194, 195. *Toplayan: İlkin Rüstəmzadə*

Əhmədov Şakir Şəfayət oğlu. Doğulduğu yer: Şuşa rayonu, Şırlan kəndi. Təvəllüdü: 1956. Təhsili: orta ixtisas. İxtisası: zootexnik. *Söylədiyi mətnlər:* 52, 249, 250, 251, 258, 259. *Oyunlar: 7, 8. Toplayan: İlkin Rüstəmzadə*

Əlişov Akif İsmayıl oğlu. Doğulduğu yer: Şuşa şəhəri. Təvəllüdü: 1943. Təhsili: ali. *Söylədiyi mətnlər:* 227, 236, 237, 245. *Toplayan: İlkin Rüstəmzadə*

Əliyeva Naxış Alı qızı. Doğulduğu yer: Şuşa rayonu, Malıbəyli kəndi. Yaşı: 70. *Bayatılar:* 310-319.

Fətəliyev İlhami Mustafa oğlu. Doğulduğu yer: Şuşa şəhəri. Təvəllüdü: 1949. Təhsili: ali. İxtisası: mühəndis. *Söylədiyi mətnlər:* 16, 212, 214, 216, 221, 222, 223, 224. *Toplayan: İlkin Rüstəmzadə*

Hacıyev Rəfi Ağaverdi oğlu. Doğulduğu yer: Zəngilan rayonu, Sobu kəndi. Təvəllüdü: 1949. Təhsili: orta. İxtisası: sürücü. *Söylədiyi mətnlər:* 27, 81, 131, 140, 289. *Toplayan: İlkin Rüstəmzadə*

Həmzəyev Vaqif Qüdrət oğlu. Doğulduğu yer: Zəngilan rayonu, Alıbəyli kəndi. Təvəllüdü: 1945. Təhsili: ali. İxtisası: müəllim. *Söylədiyi mətnlər:* 73, 117. *Toplayan: İlkin Rüstəmzadə*

Həsən kişi. Doğulduğu yer: Cəbrayıl rayonu, Dağ Tumas kəndi. Yaşı: 70. Təhsilsiz. Nəqşibəndi təriqətinin müridi olub. *Söylədiyi mətnlər:* 53, 57, 58, 59, 60, 61, 86, 267-273. *Toplayan: Əfzələddin Əsgər*

Həsənov Rəşid Həsən oğlu. Doğulduğu yer: Zəngilan rayonu, Qazançı kəndi. Təvəllüdü: 1957. Təhsili: ali. Qazançı, Dərəli, Canbar kəndlərinin icra nümayəndəsi. *Söylədiyi mətn:* 203. *Sicilləmə:* 3, 4. *Toplayan: İlkin Rüstəmzadə*

Hətəmov Cəlal. Doğulduğu yer: Zəngilan rayonu, Hacallı kəndi. Təvəllüdü: 1934. Təhsili: ali. İxtisası: aqranom. *Söylədiyi mətnlər:* 20, 118. *Oyunlar:* 12. *Toplayan: İlkin Rüstəmzadə*

Hüseynxanov Mütəllim Salax oğlu. Doğulduğu yer: Şuşa şəhəri. Təvəllüdü: 1938. Təhsili: orta. *Söylədiyi mətnlər:* 21, 89, 92, 147. *Toplayan: İlkin Rüstəmzadə*

Hüseynov Güləhməd Bayram oğlu. Doğulduğu yer: Füzuli rayonu, Mahmudlu kəndi. Yaşı: 74. *Söylədiyi mətnlər:* 156, 181. *Toplayan: Mətanət Abbasova*

Xaməmmədov Xaməmməd Alməmməd oğlu. Doğulduğu yer: Zəngilan rayonu, Çöpədərə kəndi. Təvəllüdü: 1951. Təhsili: ali. İşlədiyi yer: 4 saylı orta məktəbin direktoru. *Söylədiyi mətnlər:* 109, 110. *Tapmacalar:* 30-34. *Oyunlar:* 1-4. *Toplayan: İlkin Rüstəmzadə*

Xudayarov Hüseyn Mahmud oğlu. Doğulduğu yer: Zəngilan rayonu, Şamlı kəndi. Təvəllüdü: 1942. Təhsili: orta ixtisas. *Söylədiyi mətn:* 106. *Toplayan: İlkin Rüstəmzadə*

Xudayev İzzət Tanrıverdi oğlu. Doğulduğu yer: Ağcabədi rayonu, Şərəfxanlı kəndi. Yaşı: 80. *Söylədiyi mətn: 158. Toplayan: Xankəndi Pedaqoji İnstitutunun tələbələri.*

Xudiyeva Fizzəgül Əyyub qızı. Doğulduğu yer: Cəbrayıl rayonu, Süleymanlı kəndi. Təvəllüdü: 1932. Təqaüdçü. Bakı şəhəri, Əhmədli qəsəbəsində məskunlaşıb. *Tapmacalar:* 43-46. *Bayatılar:* 160-166. *Toplayan: Mətanət Abbasova*

İbrahimov Mütəllim Kəlbi oğlu. Doğulduğu yer: Zəngilan rayonu, Bartaz kəndi. Təvəllüdü: 1948. Təhsili: orta ixtisas. İxtisası: hərbi hazırlıq müəllimi. *Söylədiyi mətnlər:* 23, 98, 99, 100, 101, 136, 197. *Oyun:* 5. *Toplayan: İlkin Rüstəmzadə*

İsbiyev Musa Bəbir oğlu. Doğulduğu yer: Zəngilan rayonu, Quyudərə Xəştab kəndi. Təvəllüdü: 1931. Təhsili: orta. İxtisası: meşəbəyi. *Tapmacalar:* 35-38. *Toplayan: İlkin Rüstəmzadə*

İsgəndərova Səidə Əli qızı. Doğulduğu yer: Yevlax rayonu. Təvəllüdü: 1957. *Söylədiyi mətn:*149. Bayatılar: 221-247. *Toplayan: Nigar Həsənova.*

İsmayılov Zərda Salaman qızı. Əsgəran rayonu, Xocalı kəndi. Yaşı: 70. *Bayatılar:* 195-199. *Toplayan: Xankəndi Pedaqoji İnstitutunun tələbələri.*

Kalbalıyev Allahverdi Xalıqverdi oğlu. Doğulduğu yer: Zəngilan rayonu, Saralı Xəştab kəndi. Təvəllüdü: 1934. Təhsili: orta ixtisas. İxtisası: traktorçu. *Söylədiyi mətnlər:* 66, 67, 68, 72, 107, 108. *Bayatılar:* 126-128. *Toplayan: İlkin Rüstəmzadə*

Kərimova Xoşqədəm Xasay qızı. Doğulduğu yer: Laçın rayonu, Xırmanlar kəndi. Təvəllüdü: 1949. Sənəti: dərzi. *Söylədiyi mətnlər:* 39, 121, 126, 129, 172, 173, 174, 175, 180, 202. *Tapmacalar:* 4-5. *Bayatılar:* 167-172. *Toplayan: Güllər Əlirzayeva*

Qəhrəmanova Tavar Nəcəfqulu qızı. Doğulduğu yer: Zəngilan rayonu, Dəlləkli kəndi. Təvəllüdü: 1930. Təhsili: natamam orta təhsil. *Tapmacalar:* 19-29. *Bayatılar:* 113-120. *Sayalar:* 1-6. *Toplayan: İlkin Rüstəmzadə*

Quliyev Oqtay Cəlal oğlu. Doğulduğu yer: Şuşa rayonu, Sırlan kəndi. Təvəllüdü: 1946. Təhsili: orta ixtisas. İxtsası: həkim. *Söylədiyi mətnlər:* 207, 215, 232, 235, 246, 247, 266. *Toplayan: İlkin Rüstəmzadə*

Quliyeva Minayə Salman qızı. Doğulduğu yer: Ağdam rayonu, Seyidli kəndi. Təvəllüdü: 1937. *Söylədiyi mətnlər:* 155, 163. *Toplayan: Mətanət Abbasova.*

Quliyeva Nuridə Xanlar qızı. Doğulduğu yer: Goranboy rayonu, Şadlı kəndi. Təvəllüdü: 1932. Təhsilsiz. Sənəti: aşbaz. *Söylədiyi mətnlər: Söylədiyi mətnlər:* 32, 34, 37, 50, 120, 127, 148, 151, 152, 153, 154, 168, 177, 179. *Tapmaca:* 1. *Bayatılar:* 200-220; 353-354. *Toplayan: Mətanət Abbasova*

Quliyeva Validə. Şuşa rayonu, Malıbəyli kəndi. Yaşı: 76. *Bayatılar: 248-309. Toplayan: Xankəndi Pedaqoji İnstitutunun tələbələri*

Qurbanova Laləzar Bağır qızı. Doğulduğu yer: Zəngilan rayonu, Yuxarı Yeməzli kəndi. Təvəllüdü: 1934. Təhsilsiz. *Söylədiyi mətnlər:* 64, 65. *Bayatılar:* 142-145. *Toplayan: İlkin Rüstəmzadə*

Mammedova Sərfinaz Vəli qızı. Doğulduğu yer: Füzuli rayonu, Aşağı Əbdürrəhmanlı kəndi. Təvəllüdü: 1931. *Bayatılar:* 184-189. Təhsilsiz. *Toplayan: Güllər Əlirzayeva*

Mehdiyev Surxay Pəhlivan oğlu. Doğulduğu yer: Zəngilan rayonu, Böyük Gilətağ kəndi. Təvəllüdü: 1930. Təhsili: orta. Anbardar, ferma müdiri işləyib. *Söylədiyi mətnlər:* 70, 71, 119, 142, 198, 293, 295, 296. Sayalar: 7-9. *Toplayan: İlkin Rüstəmzadə*

Məhərrəmov Qnyaz Məstalı oğlu. Doğulduğu yer: Zəngilan rayonu, Ağalı kəndi. Təvəllüdü: 1937. Təhsili: orta-ixtisas. Sənəti: ticarətçi. *Söylədiyi mətnlər:* 51, 122, 134. *Toplayan: İlkin Rüstəmzadə*

Məhərrəmov Ramik İdris oğlu. Doğulduğu yer: Şuşa şəhəri. Təvəllüdü: 1947. Təhsili: ali. İxtisası: həkim. *Söylədiyi mətnlər:* 88, 90, 209, 263. *Toplayan: İlkin Rüstəmzadə*

Məhiyev Məhi Asim oğlu. Doğulduğu yer: Dağ Gilətağ kəndi. Təvəllüdü: 1935. Təhsilsiz. *Söylədiyi mətnlər:* 143, 199, 292. *Toplayan: İlkin Rüstəmzadə*

Məmmədov Süleyman Əsəd oğlu. Doğulduğu yer: Zəngilan rayonu, Şərikan kəndi. Təvəllüdü: 1934. Təhsili: ali. İxtisası: mühəndis. *Söylədiyi mətnlər:* 19, 141, 196. *Toplayan: İlkin Rüstəmzadə*

Məmmədov Teyfur Əli oğlu. Doğulduğu yer: Zəngilan rayonu, Şəfibəyli kəndi. Təvəllüdü: 1932. Təhsili: ali. İxtisası: müəllim. *Söylədiyi mətnlər:* 114, 115, 116. *Toplayan: İlkin Rüstəmzadə*

Məmmədova Həvva. Şuşa rayonu, Malıbəyli kəndi. Təvəllüdü: 1941. *Tapmaca:* 2-3. *Bayatılar:* 332-342. *Toplayan: İlkin Rüstəmzadə*

Məmmədova Zərnigar Aslan qızı. Doğulduğu yer: Zəngilan rayonu, Zəngilan kəndi. Təvəllüdü: 1949. Təhsili: ali. İxtisası: Kimya müəllimi. *Söylədiyi mətnlər*: 38, 47, 54, 55, 76, 79, 113, 123, 128, 150, 157, 159, 160, 161, 162, 166, 167, 169, 170, 171, 176, 182, 183, 184, 185, 186. *Tapmaca:* 17-18. *Bayatılar:* 108-109. *Toplayan: Mətanət Abbasova, İlkin Rüstəmzadə*

Mikayılova Elmira İsmayıl qızı. Doğulduğu yer: Zəngilan rayonu, Böyük Ağalı kəndi. Təvəllüdü: 1948. Təhsili: natamam orta. Sənəti: ağıçı. *Tapmaca:* 42. *Bayatılar:* 1-107. *Toplayan: İlkin Rüstəmzadə*

Murtuzayev Tofiq. Doğulduğu yer: Laçın rayonu, Mirik kəndi. Təvəllüdü: 1942. Təhsili: ali. İxtiası: dil-ədəbiyyat müəllimi. *Söylədiyi mətnlər:* 41, 63. *Bayatılar:* 181-183. *Toplayan: Güllər Əlirzayeva*

Mustafayeva Sərəncam Məmməd qızı. Doğulduğu yer: Cəbrayıl rayonu, Dağtumas kəndi. Təvəllüdü: 1943. *Söylədiyi mətn:* 44. *Toplayan: Güllər Əlirzayeva*

Nadirov Adil Qədir oğlu. Doğulduğu yer: Şuşa rayonu, Zarıslı kəndi. Təvəllüdü: 1963. Təhsili: ali. *Söylədiyi mətnlər:* 87, 145, 228, 229, 230. *Oyun:* 9. *Toplayan: İlkin Rüstəmzadə*

Rəsulov Bəhmən Cəlil oğlu. Doğulduğu yer: Şuşa rayonu, Qaybalı kəndi. Təvəllüdü: 1930. Təhsili: orta. *Söylədiyi mətnlər:* 30, 146. *Toplayan: Ləman Süleymanova*

Rüstəmov Məmmədbağır Nəbi oğlu. Doğulduğu yer: Cəbrayıl rayonu, Sirik kəndi. Təvəllüdü: 1948. Sənəti: çoban. *Söylədiyi mətn: 62. Toplayan: Gülnurə Canməmmədova*

Rzaquliyev Əli Qurban oğlu. Doğulduğu yer: Zəngilan rayonu, Vecnəli kəndi. Təvəllüdü: 1966. Təhsili: ali. İxtisası: jurnalist. *Söylədiyi mətnlər:* 46, 139. *Toplayan: İlkin Rüstəmzadə*

Sədirzadə Gülzar Əyyub qızı. Doğulduğu yer: Şuşa şəhəri. Təvəllüdü: 1950. Təhsili: orta. *Söylədiyi mətn:* 49. *Toplayan: Ləman Süleymanova*

Səmədov Möhübbət Məhəmməd oğlu. Doğulduğu yer: Zəngilan rayonu, Ağalı kəndi. Təvəllüdü: 1961. Təhsili: ali. *Toplayan: İlkin Rüstəmzadə*

Tağıyev Cəmil Vəli oğlu. Doğulduğu yer: Zəngilan rayonu, Gəyəli kəndi. Təvəllüdü: 1931. Təhsili: ali. İxtisası: müəllim. *Söylədiyi mətnlər:* 74, 275. *Toplayan: İlkin Rüstəmzadə*

Şərifov Talıb Həmid oğlu. Doğulduğu yer: Zəngilan rayonu, Yuxarı Yeməzli kəndi. Təvəllüdü: 1928. Təhsili: ali. İxtisası: ədəbiyyat müəllimi. *Bayatılar:* 129-141. *Toplayan: İlkin Rüstəmzadə*

Şüşə Kamal qızı. Zəngilan rayonu, Sobu kəndi. // Əli Sobulu. Zəngəzurun zəngilanlı ziyalıları. Bakı: Ağrıdağ, 2001

## BAŞLIQLAR

**TƏRTİBÇİDƏN** ........ 3

**ETNOQRAFİK MƏTNLƏR**
Zəngilanda Novruz adətləri ........ 12
Zəngilanda kirvəlik ........ 30
Zəngilanda yas adətləri ........ 33
Zəngilanda toy adətləri ........ 40
Toy mahnıları ........ 47
Uşaqla bağlı inamlar ........ 50
Yağışla bağlı inamlar ........ 54
Ruh qurbanı ........ 57
Şuşa haqqıda ........ 57
Şuşada toy adətləri ........ 63
Şuşada Novruz adətləri ........ 65
Xıdır Nəbi ........ 68
Qodu-qodu ........ 69
Təcrübədən çıxmış inamlar ........ 70
Ovçuluq haqqında ........ 70
Qızıl tapan ........ 74
Ziyarətə getmək ........ 74
Dualar ........ 75
Etnoqrafik ifadələr ........ 76

**MİFOLOJİ MƏTNLƏR, ƏFSANƏ VƏ RƏVAYƏTLƏR**
Allahın ömür paylaması ........ 78
Canavar haqqında ........ 79
Qaraçuxa ........ 80
Yeddi qardaş ilan ........ 81
İlan davası ........ 81
Hal anası ........ 82
Əjdaha ........ 84
Əjdaha daşı ........ 86
Kaftar ........ 86
Rüstəm Zal ........ 87

Musa peyğəmbər........................................................................... 88
Fatma ananın nəziri........................................................................ 88
İmam Hüseyn və ahu balaları ....................................................... 89
Xanoğlan və Bəsti........................................................................... 90
Gəlin qaya....................................................................................... 91
Leyli-Məcnun .................................................................................. 91
Loğman............................................................................................ 91
Oğlanlıca piri .................................................................................. 92
Hacı Qaraman ................................................................................. 93
Hacı Qasım Çələbi.......................................................................... 94
Tumas ata........................................................................................ 95
Ağabalım ağa .................................................................................. 96
Şıx Mir Həmzə................................................................................. 96
Məşədi Qələndər ocağı .................................................................. 97
Mustafa sofu ................................................................................... 98
Şıx İsmayıl..................................................................................... 101
Mirəhməd ağa ............................................................................... 102
Qəzər xan ...................................................................................... 102
Əbdülsəməd bəy ........................................................................... 103
Məmməd yüzbaşı........................................................................... 104
Babaxan oğlu Balaca ................................................................... 104
Azad ağa ........................................................................................ 106
Burcuvar kişi.................................................................................. 107
Qaçaq İsrafil.................................................................................. 107
Sobu zurnaçıları ........................................................................... 111
Camal bəy ...................................................................................... 112
Qaçaq Səfər.................................................................................... 114
Xanlıq Muxtar................................................................................ 115
Hacı Qulu....................................................................................... 117

**Tayfa və nəsillər haqqında**

Bartaz............................................................................................ 119
Sobu .............................................................................................. 125
Saralı Xəştab................................................................................. 139
Çöpədərə ....................................................................................... 143
Keçikli............................................................................................ 145
Kənd Zəngilan .............................................................................. 147

Şəfibəyli ... 148
Məşədi İsmayıl kəndi ... 149
İmarətlər ... 149
Alıbəyli ... 150
Hacallı ... 151
Aladin ... 151

**Müxtəlif mövzulu rəvayətlər**
Səs-küy istəyirsinizsə, gəlin ... 152
Torpağın tavazası ... 155
Dünyanın zövqü-səfası ... 157
Nadir şah ... 157
Mıxı mismara döndərən Allah ... 158
Başlıq parası ... 159
Gül toxumu ... 159
Ehtiyac dayı ... 160
Nə tökərsən aşına, o da çıxar qaşığına ... 162
Dədəm öləndən irəli gedirik ... 162
Bağ əmanəti ... 163

**1918-Cİ İL HADİSƏLƏRİ XATİRƏLƏRDƏ** ... 165

**NAĞILLAR**
Narım, sənə deyim, dərdimi sənə deyim ... 175
Nəbi ... 179
Danışmayan qız ... 181
Allah haqqı nahaqqa vermir ... 187
Hambal Qulunun ziyarəti ... 188
Allaha təvəkkül ... 192
Oğul anasına rəhmət oxutdurur ... 195
Peyğımbərin axirət yoldaşı ... 196
Allaha borc ... 199
Padşaha layiq arvad ... 200
Şah Abbas və bostançı ... 204
Naxırçı qızının ürəyi naxırçı çörəyi istiyər ... 206
Mən bu aftafaya örənmişdim ... 207
Padşahın oğlanları ... 208

Keçəllə kosa ... 209
Dəli və ağıllı qardaş ... 210
Orduxan bəylə Qarsın Qalası ... 211
Bitlə birə ... 214
Oğlan və günəş ... 218
Uşaq və noxud ... 220
Pişik və siçan ... 221

**LƏTİFƏLƏR**

Sirrini dostuna vermə ... 222
Mollanın fırıldağı ... 223
Halvaya duz tökürlərmi? ... 223
Bilirəm dediyin nədir ... 224
İki yalançı ... 226
Nazik, yoğun bir imiş ... 227
Hər kəsin dərdi özünə dəvə boydadı ... 229
Südlü aş ... 230
Bu havada heç qar yağar? ... 231
Biz də qiraətlə dedik ... 231
Yel buraxan gəlin ... 232
Kalba Səməd ... 233
Ocaqqulu ... 235
Aşıq Oruc ... 235
Aşın altındakı cücə ... 236
Qarın dartan qoca ... 237
Mülkü bəy ... 237
Döh deməyə də haqqım yoxdur? ... 237
Dazıma baxma, yazıma bax ... 238
Ana ilə qızın deyişməsi ... 238
Zirək gəlin ... 239
Cöngə oğrusu ... 240
Tərəkəməylə mollanın dostluğu ... 240
Özüm inanmıram ... 241
Gör arvadlar nə deyir ... 241

**Şuşa lətifələri**

Abdal Qasım ... 242

Məşədi Bəylərin dəftəri ........ 244
Məktub məsələsi ........ 245
Madarlar cəmiyyəti ........ 245
Dumanlı Təbriz ........ 246
Şuşa lotuları və Məşədi Abbas ........ 246
Dojd paşyol, most uşyol ........ 247
Arılar vız-dız ........ 247
Uje Moskva znal ........ 248
Doqquz ay denən, qurtarsın ........ 248
Adı niyə xəritədə yoxdur? ........ 249
Onlarla işin olamasın ........ 249
Mən tapmışam ........ 250
Yıxılsaydım, belə olacaqdım ........ 250
Sənin zibilə düşmüşəm ........ 251
Hitlerin başını kəsib gətirəcəksən ........ 252
Ağlı-qaralı quş ........ 252
Dayın Qurban ........ 252
Lotu Şahin ........ 254
Vasqan Əliş ........ 255
Mənimki də noldadır ........ 255
Sənin də fatihəni verəcəyəm ........ 256
İtim ölüb, sizin kimi küçükləri qalıb ........ 256
Ona o da azdır ........ 257
Dodu İslam ........ 257
Yaman seyrəkdir ........ 257
Hambal İbiş ........ 258
Kapitalı kim yazıb? ........ 258
Hazırcavab şuşalı ........ 259
Bez Qulam ........ 259
Dişləri ağartma ........ 260
Hökumətlə özüm hesablaşaram ........ 260
Allahın xəbəri yox idi ........ 261
Kürdlə qalalı ........ 261
Qarmon deyil, atapleniyadır ........ 261
Anası şuşalıdır ........ 262
Şuşalıyla kürdün dostluğu ........ 262

Şığıdığın bəsdir, qanad çal ........................................................ 263
Adam sənin dədəndir ................................................................ 263
Bizdən adam olmayacaq ............................................................ 264
Bu dağar o dağar deyil ............................................................... 264
Dəyirmançı ilə çobanın bəhsi .................................................... 265
Di hı ............................................................................................. 265
Bığ yağı ........................................................................................ 265
Gör siz nə qədər yemisiniz ........................................................ 266
Xanzadə ...................................................................................... 266
Şuşanın dəlisi .............................................................................. 267
Dabannama ................................................................................. 267
Macqarmıc .................................................................................. 267
Qoymayın, xəlbir məni öldürdü ................................................. 268
Zinət məsələsi ............................................................................. 269
Aşura ilə bağlı lətifələr .............................................................. 269
Fərazsəti vardı, o da tutardı ....................................................... 270

**AŞIQLAR, EL ŞAİRLƏRİ**

Sarı Aşıq ...................................................................................... 271
Şıx Məhəmməd
Şıx Məhəmmədə vergi verilməsi .......................................... 274
Vaxtıdır ................................................................................. 276
Oğlusan ................................................................................. 276
Şıx Məhəmməd və Camal bəy ............................................... 278
Gəyəli .................................................................................... 280
Çeşmə .................................................................................... 282
Nabatım ................................................................................. 283
Ağlasın ................................................................................... 283
Gəlsin ..................................................................................... 284
Bənövşə ................................................................................. 285
Necə oldu .............................................................................. 285
Qanlımdı, qanlım .................................................................. 286
Oynasın ................................................................................. 288
Aşıq Əli ........................................................................................ 288
Aşıq Məmmədrza ......................................................................... 289
Aşıq Bəbir ..................................................................................... 290

A bizim cütcü ... 293
Məşədi Cabbarla Şair Abışın deyişməsi ... 294
Əyyub Şırlanlı
Aman allah, Şuşada nə möcüzələr vardı ... 295
Qalıbdır ... 296
Dağlar ... 297
Öpərəm dağların dodaqlarından ... 298
Gedir ... 300
Axtarır ... 301
Qoparar ... 302

**ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR** ... 303
**TAPMACALAR** ... 311
**BAYATILAR, AĞILAR** ... 316
**LAYLALAR, OXŞAMALAR** ... 344
**SAYA SÖZLƏR** ... 345
**SİCİLLƏMƏ** ... 347
**OYUNLAR**
Qazotaran ... 349
Arpa qaç, buğda tut ... 349
Molla, vay ... 349
Mıxça-mıxça ... 350
Qurutma ... 350
Yeddi çöp ... 351
Mən tək, cütüm tək ... 351
Bayraq-bayraq ... 351
Çiləmə ... 352
Səhmi ağac ... 353
Mərə-mərə ... 353
Kələqurdaş ... 354
**ŞEİR PARÇALARI** ... 355
**NAĞILLARIN SÜJET GÖSTƏRİCİSİ** ... 359
**ŞƏXS VƏ YER ADLARININ GÖSTƏRİCİSİ** ... 360
**MƏTNLƏRİN SÖYLƏYİCİLƏRİ** ... 374

**Qarabağ: folklor da bir tarixdir, X kitab**
**(Zəngilan və Şuşa rayonlarından**
**toplanmış folklor örnəkləri)**.
Bakı, "Elm və təhsil", 2016.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Nəşriyyat redaktoru:
**Fil.ü.f.d. Ləman Süleymanova**

Kompyuterdə yığan:
**Kəmalə Zeynalova**

Korrektor:
**Könül Əliyeva**

Kompyuter tərtibçisi və
texniki redaktoru:
**Ruhəngiz Əlihüseynova**

Kağız formatı: 70/100 1/16
Mətbəə kağızı: №1
Həcmi: 33,5 ç/v
Tirajı: 400

Kitab AMEA Folklor İnstitutunun Redaksiya-Nəşriyyat bölməsinin
Kompüter Mərkəzində yığılıb səhifələnmiş,
"Elm" NPM-də hazır deopozitivlərdən
ofset üsulu ilə çap olunmuşdur.